**Kamran Əliyev**

# DƏRS VƏSAİTİ

## Əsərləri 10 cilddə,
## VIII cild

**“Elm və təhsil”**
**Bakı – 2019**

**Elmi redaktor:** **Nizami CƏFƏROV**
*akademik*

**Tərtib edən və nəşrinə məsul:** **Gülnar OSMANOVA**
*filologiya üzrə fəlsəfə doktoru*

**Kamran Əliyev. Dərs vəsaiti. (Əsərləri 10 cilddə, VIII cild)** Bakı, "Elm və təhsil", 2019, 516 səh.

Kitaba AMEA Folklor İnstitutunun "Folklor və yazılı ədəbiyyat" şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Kamran İmran oğlu Əliyevin müəllimlər, şagirdlər, abituriyentlər üçün tərtib etdiyi "Azərbaycan dili" və "Ədəbiyyat" adlı dərs vəsaitləri, həmçinin ədəbiyyatşünaslıq və dilçiliklə bağlı məqalələri daxil edilmişdir.

**ISBN 978-9952-8305-2-1**

**© Kamran Əliyev, 2019**

# MƏNƏN, RUHƏN PEDAQOQ

Azərbaycan cəmiyyətində AMEA-nın müxbir üzvü, professor Kamran Əliyevin adı çox böyük hörmətlə çəkilir. Və bunun birinci səbəbi, heç şübhəsiz, Kamran müəllimin bir ədəbiyyatşünas olaraq keçən əsrin 70-ci illərindən etibarən ardıcıl çalışdığı sahədə – XX əsr Azərbaycan romantizmi sahəsində kamil mütəxəssis olmasıdır. Onun "XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri" mövzusundakı namizədlik (1980), "XX əsr Azərbaycan romantizminin obrazlar sistemi" mövzusundakı doktorluq (1990) dissertasiyaları təkcə müəllifin deyil, fikrimizcə, milli romantizmşünaslığın fundamental əsərlərindəndir.

Romantizm Azərbaycan ədəbiyyatında Məhəmməd Hadi, Hüseyn Cavid, Abdulla Şaiq kimi klassiklərin timsalında həmişə diqqət mərkəzində olsa da, onun ideya-estetik interpretasiyasında (və dəyərləndirilməsində) heç vaxt metodoloji mövqe birliyi müşahidə edilməmişdir. Kamran müəllimin belə bir mübahisəli (və mahiyyəti etibarilə son dərəcə mürəkkəb) mövzuya strateji bir maraqla müraciəti, eləcə də həmin sahənin görkəmli mütəxəssislərindən, məsələn, akademik Məmməd Cəfər kimi böyük ədəbiyyat filosoflarından sonra yeni (və əsaslı) söz söyləməsi, əlbəttə, elmi təfəkkürünün miqyasına (və dərinliyinə) dəlalət edir… Bəlkə də, adına "romantizm" dediyimiz möhtəşəm, ədəbi-estetik hadisəni ardıcıl araşdırmasının, bu hadisənin "mətbəx"inə müfəssəl bələdliyinin, romantizmin idrak metodları ilə düşünməyə bir növ adət etməsinin nəticəsidir ki, Kamran müəllimin digər mövzulardakı əsərlərində də aydın seçilən romantik vüsət, intellektual erudisiya var. O nədən yazırsa yazsın ilk növbədə mətləbə, mahiyyətə diqqəti çəkir… Və dərhal hiss olunur ki, "mühasib"in təkcə haqqında bəhs etdiyi mövzuya, təhlil elədiyi hadisələrə deyil, həm də klassik şərh texnologiyalarına, humanitar düşüncənin metodlarına, üsullarına o səviyyədə aşina-

dır ki, buna oxuyub öyrənməklə çatmaq olmaz, bunun üçün fitri istedad lazım gəlir…

Kamran Əliyevjin ziyalılığının ikinci mühüm əlaməti onun klassik sələflərindən gələn maarifçilik istedadıdır. Və bu istedad özünü yalnız onda göstərməmişdir ki, uzun illər tədris sahəsində çalışmış, həm orta, həm də ali məktəblərdə dərs demişdir, daha çox onunla bağlıdır ki, Kamran Əliyev mənən, ruhən pedaqoqdur. Mən hələ görməmişəm ki, Kamran müəllim danışanda həyəcanlansın, əsəbiləşsin, səsini qaldırsın… Yaxud hər hansı qeyri-obyektiv fikrə və ya mövqeyə dərhal etirazını bildirsin. Niyə? Ona görə ki Kamran müəllimin təsəvvüründə İnsan aləmi hədsiz-hüdudsuz, zəngin, rəngarəngdir. Həmsöhbətinə imkan vermək lazımdır ki, söylədiyi qat-qarışıq, sistemsiz mülahizələr içərisində axır ki öz dərdini az-çox aydın ifadə etsin…

Və nəhayət, Kamran Əliyev bir də ona görə hörmət (və nüfuz) sahibidir ki, həmişə humanizmi, vətənpərvərliyi, insanı şəxsiyyət edən hərəkətləri ilə seçilib. Elmi, bədii, publisistik əsərlərində hansı idealları təbliğ edibsə, ilk növbədə özü şəxsi həyatında, ictimai fəaliyyətində həmin ideallara sədaqət göstərib.

Doğrudur, Kamran müəllimlə üzbəsurət təsadüfdən-təsadüfə görüşürük, ancaq hər rastlaşanda elə bilirəm ki, bir az bundan əvvəl ayrılmışıq… Çünki az qala hər həftə mətbuatda bir yazısına rast gəldiyimdən ünsiyyət təəssüratı heç vaxt köhnəlmir… Və belə ziyalılarla ünsiyyət adamın hisslərini, düşüncələrini həmişə sağlam saxlayır. Canı sağ, ömrü uzun olsun!..

**Nizami Cəfərov**
*akademik*

# FONETİKA

## DANIŞIQ SƏSLƏRİ

Fonetika danışıq səslərindən bəhs edir. Danışıq səsləri danışıq üzvləri vasitəsilə həyata keçirilir. Onlar aşağıdakılardır:

1-ağciyərlər, 2-nəfəs borusu, 3-qırtlaq və səs telləri, 4-ağız boşluğu, 5-dil, 6-dodaqlar, 7-dişlər, 8-burun boşluğu.

Danışıq səsləri iki cür olur: 1) sait səslər, 2) samit səslər.

Saitlərin tələffüzündə hava axını ağızdan sərbəst çıxır, yəni heç bir maneəyə rast gəlmir və saitlər çox aydın səslənir.

Tələffüz zamanı hava axınının ağızda müxtəlif maneələri dəf etməsindən yaranan səslər samit səslər adlanır.

Fonetika iki yerə ayrılır:

1) orfoqrafiya – düzgün yazı qaydaları

2) orfoepiya – düzgün tələffüz qaydaları

## ƏLİFBA

Hərflərin müəyyən sıra ilə düzülüşü ə l i f b a adlanır.

| | | | | |
|---|---|---|---|---|
| a | f | j | ö | ü |
| b | g | k | p | v |
| c | ğ | q | r | y |
| ç | h | l | s | z |
| d | x | m | ş | |
| e | ı | n | t | |
| ə | i | o | u | |

Dilimizin əlifbasında 32 hərf var. Hərflərdən 9-u sait, 23-ü isə samit səsi bildirir. Biz hərfləri yazır və görürük, səsləri tələffüz edir və eşidirik.

Ensiklopediyalarda, lüğətlərdə, mobil telefonlarda, məlumat kitabçalarında sözlər əlifba sırası ilə verilir.

“K” hərfi iki əsas səsi ifadə edir: k (iki) və k΄ (k΄ubok΄)

Bəzən tələffüzdə [q] səsi [k΄] səsinə çevrilir: [dok΄quz]. Bəzən isə [k] səsi [x΄] səsini yaradır: (ələx΄)

## SAİT SƏSLƏRİN NÖVLƏRİ

Sait səslər aşağıdakı kimi təsnif olunur:

1. Dilin arxa və ön hissəsində deyilməsinə görə:

1) qalın saitlər ([a], [ı], [o], [u]);

2) incə saitlər ([ə], [e], [ö], [i], [ü]).

2. Dodaqların vəziyyətinə görə:

1) dodaqlanan saitlər ([o], [ö], [u], [ü]);

2) dodaqlanmayan saitlər ([a], [ə], [e], [i], [ı]).

Dodaqlanan saitlər bununla fərqlənir ki, onların tələffüzündə dodaqlar bir qədər irəli gələrək dairəvi şəkil alır.

3. Dilin üst damağa doğru qalxması və nisbətən aşağı enməsi vəziyyətinə görə:

1) qapalı saitlər ([ı], [i], [u], [ü]);

2) açıq saitlər ([a], [ə], [o], [ö], [e]).

## SAMİT SƏSLƏRİN NÖVLƏRİ

Samit səslər cingiltili və kar olur.

Cingiltili samitlərin əmələ gəlməsində səs telləri iştirak edir, buna görə onlar səsdən və küydən ibarət olur.

Cingiltili samitlər:[b] [c] [d] [g] [ğ] [j] [q] [l] [m] [n] [r] [v] [y] [z]

Kar samitlər yalnız küydən əmələ gəlir.

Kar samitlər: [p] [ç] [t] [k] [x] [ş] [k΄] [f] [x΄] [s] [h]

Cingiltili və kar samitlərin çoxu cütlük təşkil edir, bununla yanaşı [l], [m], [n], [r] samitlərinin kar qarşılığı, [h] samitinin isə cingiltili qarşılığı yoxdur:

[b] [c] [d] [g] [ğ] [j] [q] [l] [m] [n] [r] [v] [y] [z] -
[p] [ç] [t] [k] [x] [ş] [k´] - - - - [f] [x´] [s] [h]

## SAİT SƏSLƏRİN TƏLƏFFÜZÜ

1. Eynicinsli qoşa saitlər bir uzun sait kimi tələffüz olunur:

saat [sa:t], təəssüf [tə:ssüf], bədii [bədi:].

2. Müxtəlifcinsli qoşa saitlərin arasına [y] səsi daxil olur:

radio [radiyo], ailə [ayilə], zəif [zəyif]

3. Sözdə əa, üə, üa saitləri yanaşı gəldikdə birinci düşür, ikinci uzanır: fəaliyyət [fa:liyət], müəllim [mə:llim], müavin [ma:vin]

4. Sözdə yanaşı gələn ea saitləri [iya] kimi tləffüz olunur:

teatr [tiyatr], okean [okiyan], ideal [idiyal]

5. Sözdə o və ö saitlərindən sonra [v] səsi gələrsə, v düşür o və ö saitləri uzanır: dovşan [do:şan]

6. Sonu a, ə saitləri ilə bitən çoxhecalı sözlərə əvvəlində bitişdirici y samiti olan müəyyən şəkilçilər qoşulduqda, tələffüz zamanı həmin saitlər ahəng qanununa uyğun olaraq qapalı saitlərə ([ı], [i], [u], [ü]) səslərindən birinə çevrilir:

saxlayın [saxlıyın], nənəyə [nəniyə], babaya [babıya]

7. Dilimizdə uzanan saitlər də vardır:

dahi [da:hi], Füzuli [füzuli], vəsiqə [vəsiqə]

Yaxud: Çempion Adil [mədəni] oğlandır.
Uzaqdan neft [mə:dəni] görünürdü.

**QEYD:** ı və ü saitləri uzanmır.

## SAMİT SƏSLƏRİN TƏLƏFFÜZÜ

1. Söz ortasında qq, pp, tt, kk samitləri yanaşı gələrsə, tələffüz zamanı onlardan biri dəyişir:

doqquz [dok´quz], tappıltı [tapbıltı], hətta [hətda], səkkiz [səkgiz]

2. Şəkilçinin tərkibində gələn qoşa yy samitlərindən biri tələffüz zamanı düşür:

ədəbiyyat – [ədəbiyat], fəxriyyə – [fəxriyə], cəmiyyət – [cəmiyət]

3. Söz sonunda qoşa samit işlənərsə, ona samitlə başlayan şəkilçi artırıldıqda qoşa samitin biri yazılır, biri isə düşür:

xətt [xətdən], sirr [sirlər], hiss [hislər]

4. Söz ortasında iki kar samit yanaşı gələrsə, tələffüzdə ikincisi öz cingiltili qarşılığına çevrilir:

Avesta [avesda], istiqamət [isdiqa:mət]

5. Söz ortasında k səsindən sonra istənilən samit gələrsə, tələffüzdə k= x´ olur:

Məktəb [məx´təb], məktəbli [məx´təbli]

6. Söz sonunda b, d, g, c+q, k, z səsləri gələrsə, tələffüz zamanı onlar dəyişilir:

Palıd, tüfəng, ağac, qonaq, çiyələk, almaz

[Palıt, tüfənk, ağaç, qonax, çiyələx´, almas]

**QEYD:** Belə sözlərdə son samitin düzgün yazılışı üçün ona saitlə başlayan şəkilçi artırmaq lazımdır:

palıd-a, tüfəng-ə, ağac-a.

7. Sonu q ilə qurtaran sözə saitlə başlayan şəkilçi artırdıqda q = ğ olur: qonağ-a.

8. Söz ortasında q səsindən sonra kar samit gələrsə, q səsi dəyişir, cingiltili samit gələrsə, dəyişmir:

iqtisadiyyat [ik´tisadiyat]

istiqlaliyyət [istiqla:liyət]

9. Sonu k samiti ilə bitən sözlərə saitlə başlayan şəkilçi artırıldıqda

k = y olur: çiçək; çiçəy-in, çiçəy-ə, çiçə-yi (bu, adətən, ismin yiyəlik, yönlük, təsirlik hallarında baş verir.)

10. Sözün birinci hecasında işlənən c səsindən sonra samit işlənsə, c = j və yaxud c = ş olur:

əcdad [əjdat], ictimaiyət [iştimaiyət]

11. Üzv, üzr, hökm, rəhm, sədr kimi sonu iki samitlə bitən təkhecalı sözlərdən üzrlü, üzrsüz, rəhmli, rəhmsiz, sədrlik kimi sözlər düzəltdikdə üç samit yanaşı gəlir. Buna görə həmin sözlərdə iki samit arasına bir sait əlavə edilir və [üzürrü], [üzürsüz], [rəhimli], [rəhimsiz], [sədirrik'] kimi tələffüz olunur.

12. Sonu iki kar samitlə bitən sözlərə samitlə başlanan hər cür şəkilçi artırdıqda isə həmin samitlərdən ikincisi tələffüz olunmur: dostluq – [doslux], neftçi – [nefçi], turistlər – [turislər], sərbəstlik – [sərbəslix'], süstlük – [süslüx'], poçtdan – [poşdan], üstdə – [üsdə]

## AHƏNG QANUNU

Sözdə qalın və ya incə saitlərin bir-birini izləməsinə ahəng qanunu deyilir.

Ahəng qanununa tabe olanlar: "qalın", "incə", "qanun"

Ahəng qanununa tabe olmayanlar: "ahəng"

Ahəng qanunu morfonoloji hadisədir, yəni həm fonetikaya, həm də morfologiyaya aiddir.

## HECA

Tələffüz zamanı sözlərin asanlıqla bölünə bilən hissələrinə heca deyilir:

A-zər-bay-can, sə-ya-hət-çi-lər, qəh-rə-man-lıq, i-yir-mi

Sözdəki hecaların sayı onda işlənən saitlərin sayı qədər olur. Heca yalnız bir saitdən də ibarət ola bilər:

A-i-lə, a-ta, u-şaq-lar

Sözlər sətirdən sətrə hecalarla keçirilir. Lakin bir hərfdən ibarət hecanı sətrin sonunda saxlamaq və ya yeni sətrə keçirmək olmaz: i-nək, sün-i.

Qoşasamitli sözlər sətirdən sətrə keçirilərkən samitlərdən biri sətirdə saxlanılır, digəri isə yeni sətrə keçirilir:

| | | |
|---|---|---|
| sək- | gül- | ad- |
| kiz | lər | dım |

## VURĞU

Sözdəki hecalardan birinin o birinə (və ya o birilərinə) nisbətən qüvvətli tələffüzünə vurğu deyilir. Üzərinə vurğu düşən heca vurğulu heca adlanır.

Bizim dilimizdə vurğu çox zaman sözün axırıncı hecasına düşür. Lakin əvvəlinci hecalarında vurğusu olan sözlər də az deyil: traktor, kombaynçı, kosmos və s.

Vurğu qəbul etməyən şəkilçilər:

**1)** İsmin xəbərlik (şəxs) şəkilçiləri:

**-am**$^2$**, -san**$^2$**, -dır**$^4$**, -ıq**$^4$**,- sınız**$^4$**, -dırlar**$^4$**.**

**2)** Soyad əmələ gətirən səkilçilər: **-ov, -yev, -ova, -yeva.**

**3)** İsim düzəldən **-gil** *şəkilçisi.*

**4)** Feilin **inkar şəkilçisi: -ma**$^2$

**5)** Feilin **nəqli keçmiş, indiki, qəti və qeyri-qəti gələcək zaman şəkilçilərindən** sonra gələn şəxs şəkilçiləri:

6) **idi, imiş, isə** hissəciklərinin ixtisar forması.

7) Feili bağlama şəkilçiləri: **-madan**$^2$ **və -arkan**$^2$ şəkilçisinin **2**-ci hecası.

**8)** Feilin əmr şəkli II şəxs cəmin şəxs şəkilçisi: **-ın**$^4$

**9)** Şəxs-kəmiyyət şəkilçisi: **-lar**$^2$**.**

**İSTİSNA: Şühudi keçmiş zamanda və əmr, şərt şəkillərində -lar**$^2$ **vurğu qəbul edir.**

**10)** Zərf **düzəldən -la** (**-lə**) və **-casına**$^2$ şəkilçiləri.

**11) -la**$^{2}$ (ilə) və **ca**$^{2}$ qoşmaları.

**12)** Sual ədatı: **-mı**$^{4}$

**13)** Fikrin **mənbəyini** bildirən modal sözlərdəki **-ca**$^{2}$**.**

## FONETİK TƏHLİL

Təhlil zamanı aşağıdakılar müəyyənləşdirilir:

1) Sözün səs və hərf tərkibi.

2) Sözün hecaları və vurğusu.

3) Sait səslər (qalın, incə; dodaqlanan, dodaqlanmayan; açıq, qapalı).

4) Samit səslər (kar, cingiltili).

**QEYD:** Təhlil zamanı:

hərf, ahəng, heca, vurğu yazılışa,

səs, sait, samit isə oxunuşa əsasən müəyyən olunur.

# LEKSİKA

## SÖZÜN LEKSİK VƏ QRAMMATİK MƏNASI

Söz dilin əsas vahididir. Dildəki sözlərin hamısı birlikdə dilin lüğət tərkibini, yəni leksikasını təşkil edir. Dilin lüğət tərkibindən bəhs edən bölmə leksikologiya adlanır.

Sözün ifadə etdiyi məna onun leksik mənasıdır. Yəni həmin sözü deyərkən nəyi başa düşməyimizdir.

Sözün qrammatik mənası da olur. Qrammatik məna sözün hansı nitq hissəsinə aid olması və həmin nitq hissəsinə aid xüsusiyyətləri daşımasıdır.

"İzin" sözü: icazə almaq leksik mənası, isim və adlıq halda olması qrammatik mənasıdır.

Sözün leksik mənasını müxtəlif yollarla izah etmək olar:

1) Həmin sözə yaxın mənalı söz seçməklə: təməl-bünövrə
2) Əşyanın, hərəkətin əlamətlərini izah etməklə:
   sarıköynək – sarı rəngli quş;
   şütümək – sürətlə ötüb keçmək
3) Sözün hissələrinin mənasını açmaqla: ovlaq – ov yeri

## SÖZÜN HƏQİQİ VƏ MƏCAZİ MƏNASI

Söz tələffüz edilərkən ağıla gələn ilk məna həqiqi mənadır.

İnsanlara məxsus müəyyən hərəkətləri cansız əşyalara aid etmək nəticəsində meydana çıxan məna isə məcazi mənadır:

insanın ayağı (həqiqi) – kəndin ayağı (məcazi)
insanın qolu (həqiqi) – çayın qolu (məcazi)
uşaq yatdı (həqiqi) – külək yatdı (məcazi)

Bədii əsərlərdə sözlərin məcazi mənalarından daha geniş istifadə olunur.

Yalnız bir leksik mənası olan sözlərə təkmənalı sözlər deyilir: təyyarə, avtobus

Eyni leksik məna ilə bağlı bir-birinə yaxın müxtəlif mənaları bildirən sözlərə isə çoxmənalı sözlər deyilir: qapının ağzı, yolun ağzı

Çoxmənalı sözlər bir-birinə oxşar əşyaları, yaxud oxşar əlamət və hərəkəti bildirir.

## OMONİMLƏR

Deyilişi və yazılışı eyni olan, lakin leksik mənalarına görə tamamilə fərqlənən sözlərə omonimlər deyilir. Omonimlər həm eyni, həm də müxtəlif nitq hissələri ola bilər:

– Eyni nitq hissəsi: bağ (isim, isim)

– Müxtəlif nitq hissəsi: yol (isim, feil)

– Bir neçə nitq hissəsi: sarı (sifət, feil, qoşma)

Hansı sözlər **omonim kimi götürülə bilməz**?

**1) Ümumi və xüsusi isimlər**: *qərənfil **(gül)** və Qərənfil **(ad)***

**2) *Xüsusi isimlər:*** *Araz **(çay)** və Araz **(ad)***

**3) Eyni cür yazılıb, vurğularına görə fərqlənən sözlər:**

*gəlín (isim)* *gəlin (isim)*

***4) Yazılışı, təşəffüzü eyni, lakin kökləri müxtəlif olan sözlər:***

*a) Külək əsir.* *b) O, əsir düşdü.*

***5) Səslənməsinə görə eyniləşən sözlər (paronimlər):***

*mətn* *mətin*

Həm **çoxmənalı**, həm də **omonim** olan sözlər:

**burun, boğaz, yar, say, al, at, inci, quru, ağrı, kök, dil, tut, bel, yay, qaş, qol, dolu, yol, düz...**

## SİNONİMLƏR

Yazılışı və deyilişi müxtəlif olan, lakin eyni və ya yaxın mənaları bildirən sözlərə sinonimlər deyilir.

Sinonimləri təşkil edən sözlər eyni bir nitq hissəsinə aid olur:

1– İsim: eynək, çeşmək, gözlük; qovun, yemiş

2– Sifət: qəşəng, gözəl, göyçək; hündür, yüksək, uca

3– Feil: oturmaq, əyləşmək; yatmaq, mürgüləmək, yuxulamaq

Sinonimlər fikri daha dəqiq ifadə edir və yersiz təkrarın qarşısını alır. Dilimiz sinonimlərlə zəngindir.

## ANTONİMLƏR

Mənaca bir-birinin əksi olan sözlərə antonimlər deyilir.

Antonimləri təşkil edən sözlər eyni bir nitq hissəsinə aiddir.

işıq-qaranlıq (isim), arıq-kök (sifət), oyanır-yatır (feil)

## ÜMUMİŞLƏK VƏ ÜMUMİŞLƏK OLMAYAN SÖZLƏR

Hamı üçün məlum olan sözlər ümumişlək sözlər adlanır. Bunlar dilin fəal lüğət fonduna daxildir. Biz gündəlik nitqimizdə, əsasən, belə sözlərdən istifadə edirik:

su, hava, duz, çörək, çay, dəniz, qırmızı, sarı, yaşıl

Hamının nitqdə istifadə etmədiyi sözlər ümumişlək olmayan sözlər adlanır və bir neçə qrupa bölünür:

**1.Dialekt sözlər**

Belə sözlər məhəlli xarakter daşıyır və yalnız bir qrup əhalinin dilində işlənir:

necə – hancarı

küçə – doqqaz

*tez – **becid***

qəfildən – lapdan

*qarğıdalı – **kəbə, məkə, peyğəmbəri, qarqundey, (sütül)***

*xiyar – **gülbəsər, yelpənək***

*lobya – **maş***

*nəlbəki – **zir***

*döşəkcə – **nimdər***

*dəsmal – **əlardan, təlis***

*hündür – **qəlbi***

*daş – **qəmbər***

*ip – **zivə***

*çörək – **əppək***

*nişan almaq – **tuşqullamaq***

*nişanlamaq – **manşırlamaq***

Dialekt sözlərdən bəzən bədii əsərlərdə də istifadə olunur ki, buna dialektizm deyilir.

**2.Terminlər**

Müxtəlif ixtisas və peşə sahələri ilə əlaqədar olan sözlərə terminlər və ya ixtisas sözləri deyilir:

Azərbaycan dili: fonetika, samit, mübtəda;

Ədəbiyyat: süjet, folklor, poema, oçerk;

Biologiya: iynəyarpaqlılar, flora, subtropik;

Tibb: angina, validol, qrip, pnevmaniya;

Musiqi: forte (ucadan), piano (pəsdən)

**Riyaziyyat:** tənlik

Terminlərin xarakterik **xüsusiyyətləri**:

**1)** yığcamlıq

**2)** yeni söz yaratmaq qabiliyyətinə malik olmaq

**3)** emosionallığın, sinoniminin, məcaziliyin olmaması

Hər elm sahəsinin, peşənin özünəməxsus terminləri olur. İxtisas sözlərindən, yəni terminlərdən elmi üslubda daha çox istifadə olunur.

Terminlər, əsasən, elmi üslubda işlənir, bəzən isə bədii əsərlərdə də istifadə olunur.

**Yalnız terminlər** kimi çıxış edən sözlər: ***metafora, sinekdoxa, fiksaj, akvarel...***

Həm **termin,** həm də **ümumişlək** sözlər: ***güc, bucaq, qüvvə, enerji, zərf, say, feil…***

Cəmiyyətin mədəni inkişafı ilə əlaqədar olaraq bəzi terminlər (ixtisas sözləri) ümumişlək sözlərə çevrilir:

akvarel, ekran, solo, aspirin, arayış, protokol və s.

**3.Arxaizmlər (köhnəlmiş sözlər)**

Vaxtilə ədəbi abidələrimizdə, ayrı-ayrı sənətkarların yaradıcılığında işlənib, sonradan köhnələn və öz ümumişləklik xüsusiyyətini itirən sözlər arxaizmlər adlanır:

***arı*** (təmiz), ***yey*** (yaxşı), ***seyvan*** (eyvan), **iraq** (uzaq), ***ər/ərən*** (igid), ***ayaq*** (qədəh), ***tanıq*** (şahid), ***sayru*** (xəstə), ***us*** *(ağıl),* ***əsən*** *(sağ-salamat),* ***damu*** *(cəhənnəm),* ***uçmaq*** (cənnət), ***duş*** (yuxu), ***altun*** (qızıl), ***güz*** (payız), ***ayıtmaq*** (demək), ***varmaq*** (getmək), **yazı** (çöl) və s.

Tarixi proseslə bağlı olan belə sözlərə isə tarixizmlər deyilir:

konka – şəhərlərdə dəmir yol üzərində vaqonu atla hərəkətə gətirən nəqliyyat vasitəsi;

çuxa – üstdən geyilən, beli büzməli kişi geyimi;

dinar – pul vahidi;

qorodovoy – keçmişdə aşağı rütbəli polis işçisi;

mədrəsə – dini məktəb;

dəyə – komacıq;

aynalı – patronu üstdən qoyulan təklülə tüfəng;

bəndərgah – düşmənin keçə bilməyəcəyi yol, keçid;

qənşər – qarşı tərəf;

qıçqı – sıxışdırma, sıxma-boğmaya salmaq;

dəbilqə – keçmişdə döyüşçülərin başlarına qoyduqları dəmir papaq;

çarıq – göndən hazırlanan yüngül ayaqqabı;

güyüm – misdən hazırlanmış uzunboğazlı su qabı;

təhnə – iri ağac kötüyündən hazırlanmış böyük qab;

qalxan – qədim müharibələrdə zərbədən qorunmaq üçün əldə tutulan dairəvi və ya düzbucaqlı sipər;

xurcun – palaz kimi toxunan, yaxud parçadan tikilən ikigözlü heybə, torba.

***Darğa*** ***(****şəhər hakimi****),*** ***abbası*** ***(****pul vahidi****),*** ***batman*** ***(****çəki vahidi****),*** ***ağac*** *(uzunluq ölçü vahidi),* ***koxa*** da buraya aiddir.

**4. Neologizmlər (yeni sözlər)**

İctimai həyatda baş verən bir sıra yeniliklərlə əlaqədar olaraq, elmə, texnikaya, mədəniyyətə, məişətə aid yeni əşyaları, hadisələri yeni sözlərlə ifadə etməyə ehtiyac yaranır. Belə sözlərə yeni sözlər və ya neologizmlər deyilir:

kosmodrom, sərinkeş, biznesmen, ekologiya, alışqan, telefilm, olay (hadisə), durum (vəziyyət), uçaq (təyyarə), çağdaş (müasir), açıqca (otkrıtka), nəfəslik (fortoçka), dabankeş (rajok).

Dilin lüğət tərkibinə daxil olan sözlərin bir qismi müəyyən müddətdən sonra ümumişlək sözlərə çevrilir:

sərinkeş, telefilm, yetərsay

Bəzi sözlər isə ümumişlək olmayan sözlər sırasında qalır:

rotoprint, elektron, nitron

Bəzi sözlər köhnələrək dildən çıxır:

***komsomol, pioner, kolxoz*** – bu sözlər XX əsrin 20-30-cu illərində **neologizm**, 40-80-ci illərində **ümumişlək söz**, 90-cı illərində isə **tarixizm** olmuşdur.

**QEYD: Köhnəlmiş sözlər** və **neologizmlər** dilin **qeyri-fəal lüğət fonduna** aiddir.

## FRAZEOLOJİ BİRLƏŞMƏLƏR

Nitqdə bütövlükdə müəyyən bir leksik mənanı ifadə edən sabit söz birləşmələrindən – frazeoloji birləşmələrdən də istifadə olunur. Frazeoloji birləşmələr:

1) sabit söz birləşmələridir;
2) hazır şəkildə olur;
3) bir cümlə üzvü olur, bir suala cavab verir;
4) məcazi məna daşıyır

qorxmaq = ürəyi ağzına gəlmək
inanmamaq = gözü su içməmək
qaçmaq = dabanına tüpürmək
yorulmaq = əldən düşmək

Frazeoloji birləşmələrin tərkibindəki ayrı-ayrı sözlər öz həqiqi mənalarını itirir.

Belə birləşmələrdən, əsasən, danışıq üslubunda, bədii üslubda istifadə olunur.

Frazeoloji birləşmələr omonimlik, sinonimlik, antonimlik yarada bilir:

**Frazeoloji birləşmələrin sinonimliyi:**
ağzına su almaq – ağzını qıfıllamaq
dil-dil ötmək – dilotu yemək
burnunun ucu göynəmək – ürəyi istəmək, ürəyi axmaq

**Frazeoloji birləşmələrin omonimliyi:**
can vermək – Yağış təbiətə **can verir.**

can vermək – Yaralı quş **can verir.**
üz vermək – Bizə xoşbəxtlik **üz verir.**
üz vermək – **Üz verirsən,** astar istəyir.
**Frazeoloji birləşmələrin antonimliyi:**
xoşu gəlmək – acığı gəlmək
üz ağartmaq – üz qaraltmaq
dil-dil ötmək – ağzına su almaq

## ƏSL AZƏRBAYCAN SÖZLƏRİ VƏ ALINMA SÖZLƏR

Dilimizdə olan sözlər iki yerə bölünür: əsl Azərbaycan sözləri və alınma sözlər.

**Əsl Azərbaycan sözlərinə daxildir:**
– feillər,
– kökü feil olan sözlər
– saylar (istisna: həştad, milyon, milyard, trilyon)
– əvəzliklər
– qohum-əqrəba adları
– bədən üzvləri
– sonu q və k samiti ilə bitib tələffüzdə ğ və y samitinə çevrilən sözlər.

**Alınma sözlərə daxildir:**
– r səsi ilə başlayan, tərkibində j səsi olan, sonu q və k samiti ilə bitib tələffüzdə ğ və y samitinə çevrilməyən, qoşa samitlə başlayıb qoşa samitlə qurtaran, ön şəkilçi qəbul edən (istisna: nadinc, nakişi), tərkibində üç samit yanaşı işlənən, elm, təhsil və ilahiyyatla bağlı olan sözlər.

Alınma sözləri iki qrupa ayırmaq olar:
1) ərəb-fars dillərindən alınan sözlər:
qanun, hökm, şüur, müalicə, sahib

2) Avropa dillərindən alınan sözlər:

traktor, tramvay, velosiped, respublika, demokratiya

Dilimizdəki alınma sözlərin bir qismi dünya dillərinin çoxunda işlədilir ki, bunlar beynəlmiləl sözlər adlanır:

parlament, deputat, firma, fonetika

# SÖZÜN TƏRKİBİ. SÖZ YARADICILIĞI

## KÖK VƏ ŞƏKİLÇİ

Sözün mənalı hissələri kök və şəkilçidir.

Kök sözün ayrılıqla işlənə bilən və əsas mənanı ifadə edən hissəsidir.

Şəkilçi sözün ayrılıqda işlənə bilməyən və yalnız kökə qoşulmaqla müəyyən məna daşıyan hissəsidir.

Azərbaycan dilində kök əvvəl, şəkilçi sonra gəlir.

Şəkilçilər iki cür olur: leksik və qrammatik şəkilçilər.

Leksik şəkilçilər qoşulduqları söz köklərdən yeni sözlər düzəldir: dəmir – dəmir+çi

Qrammatik şəkilçilər isə sözün ancaq formasını dəyişdirir. Qrammatik şəkilçilərin hamısı bizim dilimizə məxsusdur. Onlar söz birləşmələri və cümlələrdə sözləri bir-birinə bağlamağa xidmət göstərirlər.

İsimlərdə cəm, hal, mənsubiyyət, şəxs şəkilçiləri, sifətin dərəcə şəkilçiləri, feilin təsriflənən və təsriflənməyən formalarla bağlı şəkilçiləri, zaman və şəxs şəkilçiləri qrammatik şəkilçilərdir.

Şəkilçilər bir, iki və dörd cür yazılır.

Leksik şəkilçilər ahəng qanununa uyğun olaraq, əsasən, iki və dörd cür yazılır. Lakin belə şəkilçilər sırasında bir cür yazılanları da var: -daş, -kar, -xana, -dar, -stan, -şünas, - zadə, -keş…

Qrammatik şəkilçilər də ahəng qanununa uyğun olaraq həmişə iki və dörd cür yazılır: -lar,-lər; -dan,-dən; -ın,-in,-un,-ün; -dı, -di, -du, -dü

İki cür yazılan şəkilçilərin tərkibində yalnız iki açıq sait iştirak edir: a, ə. Digər açıq saitlər (e, o, ö) şəkilçilərdə ona görə iştirak etmir ki, əsl Azərbaycan sözlərində həmin səslər sözün birinci hecasından sonrakı hecalarında işlənmir.

Şəkilçilərin əvvəlində gələn y, n, s samitləri bitişdirici samitlər adlanır. Onlar saitlə bitən sözlərə saitlə başlanan şəkilçilər artırdıqda işlənir:

işlə-y-əcək, körpü-n-ün, xala-s-ı.

## SADƏ VƏ DÜZƏLTMƏ SÖZLƏR

Sadə sözlər kökdən, yaxud kök və qrammatik şəkilçilərdən ibarət olur:

kitab, kitab+lar, kitab+lar+dan

Köklərə qoşularaq onlardan yeni mənalı sözlər əmələ gətirən şəkilçilər leksik şəkilçilər adlanır:

məktəb+li, qış+laq, baş+la (maq)

Leksik şəkilçilərlə əmələ gələn sözlərə düzəltmə sözlər deyilir.

Leksik şəkilçi qəbul edən söz leksik şəkilçi ilə birgə sözün başlanğıc formasını yaradır. Sözlər bütün lüğətlərdə başlanğıc formasında olur. Sözlərin quruluşca növü, hansı nitq hissəsinə aid olması da onların başlanğıc formasına görə müəyyən edilir.

## SÖZ YARADICILIĞININ ƏSAS ÜSULLARI

**Morfemika** – sözlərin tərkibindən, onların quruluşundan bəhs edən bölmədir. Dilin mənalı hissələri, yəni **kök, leksik** və **qrammatik şəkilçilər** ayrı-ayrılıqda **morfem** adlanır.

Leksik şəkilçilər yeni mənalı sözlər yaradır.

Qrammatik şəkilçilər sözlərin formasını dəyişir.

Dildə yeni sözlər **bir neçə yolla** yaranır:

**1) Leksik** – sözlərin öz əvvəlki mənasından fərqli olan yeni məna kəsb etməsilə: Ay (Yerin peyki) və ay (30 gün)

**2) Morfoloji** – söz köklərinə leksik şəkilçilər artırmaqla.

**3) Sintaktik yol** – iki və daha artıq sözün birləşməsilə.

## EYNİKÖKLÜ SÖZLƏR

Eyni bir kökdən əmələ gələn sözlər eyniköklü sözlər adlanır.

Eyniköklü sözlər düzəltmə olmaqla yanaşı, onların kökü eyni nitq hissəsi və eyni söz olmalıdır:

baş – başçı, başlıq, başla(maq), başlanğıc;

əl – əlcək, ələk, ələ(mək).

Eyniköklü sözlərin özünə gəldikdə isə onlar həm eyni bir nitq hissəsinə, həm də müxtəlif nitq hissələrinə aid ola bilir:

bağ – bağça, bağlıq, bağban (hamısı isimdir);

yağ – yağlı (sifət), yağla (feil).

## MÜRƏKKƏB SÖZLƏR

Söz yaradıcılığının digər mühüm bir vasitəsi iki və daha artıq sözün birləşməsi ilə yeni mənalı sözlərin əmələ gəlməsidir. Bu yolla yaranan sözlər mürəkkəb sözlər adlanır.

Mürəkkəb sözlər müxtəlif yollarla əmələ gəlir:

1) iki müxtəlif mənalı sözün birləşməsi ilə:

baramaqurdu, ayaqqabı, yarımada, suiti;

2) yaxın mənalı sözlərin birləşməsi ilə:

oğul-uşaq, qoyun-quzu, qapı-pəncərə, toyuq-cücə;

3) antonim sözlərin birləşməsi ilə:

gecə-gündüz, böyük-kiçik, tez-gec, az-çox;

4) eyni sözün təkrarı ilə:

səhər-səhər, üz-üzə, birdən-birə, yavaş-yavaş.

Yazılışına görə mürəkkəb sözlər iki cür olur:

1) bitişik yazılanlar; 2) defislə yazılanlar.

**Bitişik yazılanlar:**

İki müxtəlif mənalı sözün birləşməsindən əmələ gələn mürəkkəb sözlər:

istiot, günəbaxan, bağayarpağı, itburnu və s.

Məcazi mənalı iki sözün birləşməsindən əmələ gələn mürəkkəb sözlər:

üzüyola, suyuşirin, gözucu və s.

**Defislə yazılananlar:**

1) eyni sözün təkrarından əmələ gələnlər:
yastı-yastı, topa-topa, başdan-başa, gündən-günə;
2) yaxın mənalı və ya antonim sözlərdən əmələ gələnlər:
dəftər-kitab, taxta-şalban, gəliş-gediş, isti-soyuq;
3) tərəflərindən biri ayrılıqda işlənməyən sözlərdən əmələ gələnlər:
kağız-kuğuz, əzik-üzük, bəzək-düzək, çör-çöp;
4) əvvəlinci hissəsi qeyri sözündən ibarət olanlar;
qeyri-adi, qeyri-müəyyən, qeyri-dəqiq və s.

## MÜRƏKKƏB ADLARIN YAZILIŞI

Mürəkkəb adların xüsusi isimlərdən fərqi ondadır ki, xüsusi isimlər ayrı-ayrı sözlərdən, mürəkkəb adlar isə söz birləşmələrindən ibarət olur.

Mürəkkəb adlara daxildir:

1) idarə və təşkilatların adları;
2) respublika bayramlarının adları;
3) dövlət təltiflərinin adları;
4) coğrafi adlar

Mürəkkəb adlar cümlənin bütöv bir üzvü olur. Mürəkkəb adların yazılışında üç qayda var:

1. Aşağıdakı mürəkkəb adların tərkibində olan bütün sözlərin baş hərfi böyük yazılır:

a) ölkələrin, muxtar respublikaların adlarında;

Azərbaycan Respublikası,

Naxçıvan Muxtar Respublikası.

b) respublika, şəhər və rayon tabeliyində olan idarə və təşkilatların adlarında;

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi,

Bakı Qaz İdarəsi,

Babək Rayon Maliyyə Şöbəsi

2. Aşağıdakı mürəkkəb adların tərkibində olan sözlərin ancaq əvvəlincisi böyük hərflə başlanır:

a) məşhur tarixi gün və bayramların adlarında;

Novruz bayramı, İyirmi yanvar (20 Yanvar)

b) tərkibində okean, dəniz, çay, göl, meydan, küçə və s. sözlər olan coğrafi adlarda;

Sakit okean, Xəzər dənizi, Araz çayı, Baykal gölü, Azadlıq meydanı, İstiqlaliyyət küçəsi

c) dövlət mükafatı və təltiflərinin (orden, medal, nişan) adlarında;

"İstiqlal" ordeni, "Şöhrət" ordeni

3. Fəxri adların özək hissəsini təşkil edən bütün sözlər kiçik hərflə yazılır: Azərbaycan Respublikasının əməkdar müəllimi

Mürəkkəb adların bir çoxu, xüsusən ölkə, idarə və təşkilat adları mürəkkəb ixtisarlar şəklində də işlədilir; məsələn,

BDU – Bakı Dövlət Universiteti

BMT – Birləşmiş Millətlər Təşkilatı

MDB – Müstəqil Dövlətlər Birliyi

AMEA – Azərbaycan Milli Elmlər Akademiyası

Elə mürəkkəb ixtisarlar da var ki, onlar tələffüzə yatmadığından bütöv sözlərlə oxunur:

ARSN (Azərbaycan Respublikası Səhiyyə Nazirliyi).

# MORFOLOGİYA

## QRAMMATİKA HAQQINDA ÜMUMİ MƏLUMAT

Dilçiliyin bölmələrindən biri olan qrammatikada sözlərin dəyişməsi və cümlədə birləşməsi qaydaları öyrənilir.

Qrammatika iki hissədən ibarətdir:

1) morfologiya

2) sintaksis

Morfologiya yunanca "morfos" (forma) və "loqos" (bəhs) sözlərinin birləşməsindən əmələ gəlib sözün formaları haqqında bəhs mənasını bildirir.

Morfologiyada sözlərdən nitq hissəsi kimi bəhs olunur və onların quruluşu, forması, dəyişmə xüsusiyyətləri öyrənilir.

Sintaksis də mənşəcə yunan sözüdür, tərtib mənasını bildirir: söz birləşmələri, cümlə və onun tərkibi öyrənilir.

## NİTQ HİSSƏLƏRİ HAQQINDA ÜMUMİ MƏLUMAT

Sözlər qrammatik mənalarına görə müəyyən qruplara, yəni nitq hissələrinə ayrılır. Azərbaycan dilində 11 nitq hissəsi var. Onlar iki qismə bölünür:

1) əsas nitq hissələri: isim, sifət, say, əvəzlik, feil, zərf

2) köməkçi nitq hissələri: qoşma, bağlayıcı, ədat, modal sözlər, nida

Əsas nitq hissələri müstəqil leksik mənaya malik olub, müəyyən əşyanı, əlaməti, miqdarı, hərəkəti və s. bildirir. Cümlədə bu və ya digər cümlə üzvü vəzifəsində işlənir.

Köməkçi nitq hissələri isə müstəqil leksik mənaya malik olmur və cümlədə heç bir cümlə üzvü vəzifəsində işlənmir, yalnız qrammatik məna daşıyır.

## ƏSAS NİTQ HİSSƏLƏRİ

### İSİM

Əşyaların adlarını bildirir, kim?, nə?, hara? suallarından birinə cavab verir.

Əşya dedikdə bütün varlıqlar nəzərdə tutulur. Varlıqlar isə iki cür olur:

1) konkret varlıqlar – onların gözlə görülməsi mümkündür:

çörək, qapı, dağ, dəniz, iynə, duman

2) mücərrəd varlıqlar:

xəyal, yuxu, məqsəd, məna, fikir, tarix, uğur, elm

İsimlər cüilədə, əsasən, mübtəda və tamamlıq olur, həmçinin digər cümlə üzvləri də ola bilər.

### QURULUŞCA NÖVLƏRİ

İsimlər quruluşca sadə, düzəltmə və mürəkkəb olur.

#### 1. SADƏ İSİMLƏR

Sadə isimlər köklərdən, yaxud kök və qrammatik şəkilçilərdən ibarət olur:

torpaq, torpağın, torpağa, torpaqlar…

#### 2. DÜZƏLTMƏ İSİMLƏR

Düzəltmə isimlər isə müxtəlif söz köklərinə leksik şəkilçilər artırmaqla yaranır.

1) İsimdən (*adlardan*) isim düzəldən şəkilçilər:

-çı$^{4}$: balıq+çı, kömək+çi, çörək+çi

-lıq$^{4}$: dağ+lıq, gözəl+lik, dərzi+lik

-lıq$^{4}$ şəkilçisi başqa nitq hissələrindən, xüsusən sifətlərdən, saylardan və əvəzliklərdən də isim düzəldir: yaxşılıq, birlik, mənlik

-daş: əmək+daş, sir+daş, yol+daş

-ça$^{2}$: meydan+ça, dəftər+çə

*Bunlardan əlavə:* -lı$^{4}$, -laq$^{2}$, -cıq$^{4}$, -cığaz$^{4}$, -gil, -iyyat, -iyyət, -iyyə,

-at$^{2}$, -stan, -gər, -şünas, -ov, -yev, -zadə, -xana, -dar, -keş, -i(-vi).

2) Feildən isim düzəldən şəkilçilər:

-ış$^{4}$: bax+ış, gül+üş, yağ+ış

-aq$^{2}$, -q, -k: yat+aq, dara+q, istə+k

-ma$^{2}$: qovur+ma, süz+mə, çək+mə

-ıq$^{4}$, -q: tapşır+ıq, bil+ik, qoru+q

-tı$^{4}$: qışqır+tı, göyər+ti, çığır+tı

-qı, -ğı, -qu, -ğu; -ki, -gi, -kü, -gü: çal+ğı, pus+qu, səp+ki

-qın, -kin, -qun, -kün (ğın, -gin, -ğun, -gün):

bas+qın, qır+ğın, yan+ğın, daş+qın, sür+gün

*Bunlardan əlavə:*

-ik$^{4}$, -ı$^{4}$, -ım$^{4}$, -ın$^{4}$, -ınc$^{4}$, -ar, -acaq, -ır$^{4}$, -maca$^{2}$,

-caq$^{2}$, -c, -cə, -gə, -ıntı$^{4}$, -ıd$^{4}$

## İSİM DÜZƏLDƏN ŞƏKİLÇİLƏRİN YAZILIŞI VƏ TƏLƏFFÜZÜ

1)-ğı, -ğu, -gi, -gü sonu cingiltili samitlə bitən feil köklərinə artırılır: çalğı, qurğu, sərgi, bölgü.

2) -qı, -qu; -ki, -kü sonu kar samitlə bitən feil köklərinə artırılır: as-qı, pus-qu, səp-ki, sürt-kü.

Belə sözlərin tələffüzündə k = g olur; [seçgi], [bitgi], [sürtgü]

3) -stan şəkilçisi saitlə bitən isimlərə artırılarkən həmişə stan formasında (Gürcü-stan, Qobu-stan), samitlə bitən isimlərə qoşulduqda həmin şəkilçinin əvvəlinə ı, i, u, ü saitlərindən biri əlavə olunur: gül-ü-stan, Bolqar-ı-stan, Monqol-u-stan.

## 3.MÜRƏKKƏB İSİMLƏR

1. Müxtəlif mənalı sözlərin birləşməsi ilə:
   kəklikotu, ayaqqabı, tozsoran
2. Yaxın mənalı sözlərin birləşməsi ilə:
   dəftər-kitab, söz-söhbət, toyuq-cücə, taxta-şalban, ev-eşik
3. Antonim sözlərin birləşməsi ilə:
   gəliş-gediş, dost-düşmən, isti-soyuq
4. Biri ayrılıqda heç bir məna verməyən, digəri isə məna verən sözlərin birləşməsi ilə: kağız-kuğuz, uşaq-muşaq, dəmir-dümür, taxta-tuxta, zir-zibil, yır-yığış, çör-çöp
5. "Ha", "a" bitişdiricilərindən istifadə etməklə eyni feil kökünün təkrarı ilə:
   gəlhagəl, vurhavur, gethaget, çalhaçal, basabas, qaçaqaç
6. Ağa, bəy, xanım, şah tipli sözlərin iştirakı ilə:
   Ağabəy, Gülxanım, Qədəmşah

**QEYD:** Həmin sözlər ləqəb, titul, rütbə bildirdikdə, yaxud hörmət mənasında işləndikdə mürəkkəb sözün tərkib hissəsi olmur və ayrı yazılır:

Abbasqulu ağa Bakıxanov, Şah İsmayıl Xətayi,
Məhsəti xanım Gəncəvi, Üzeyir bəy Hacıbəyov

Mürəkkəb sözlər bir vurğu altında deyilir, ya bitişik, ya da defislə yazılır.

# ÜMUMİ VƏ XÜSUSİ İSİMLƏR

İsimlər iki cür olur: ümumi və xüsusi.

1) Ümumi isimlər eynicinsli bütün varlıq və hadisələrin ümumi adlarıdır.

2) Xüsusi isimlər ayrı-ayrı şəxslərin və tək olması ilə fərqlənən digər varlıqların adlarıdır:

a) ad və soyadlar;

b) coğrafi və astronomik adlar;

c) qəzet və jurnallara, müxtəlif əsərlərə, gəmilərə, kafelərə və s. verilən adlar;

ç) Heyvanlara verilən xüsusi adlar;

**QEYD:** Bəzi ümumi isimlər xüsusi isimlərə çevrilə bilir:

arzu – Arzu, sevinc – Sevinc, ceyran – Ceyran, durna – Durna ("Sevinc" kafesi, "Şəfəq" kinoteatrı və s. bu qəbildəndir).

Vətən sözü ümumi isimdir, lakin ölkəmizin adını bildirəndə böyük hərflə yazılır: Bizim üçün Vətən hər şeydən əzizdir.

Xüsusi isimlər də ümumi ismə keçə bilir:

Rentgen – alman alimi (xüsusi isim) – rentgen isə xüsusi şüalarla işıqlandırmadır (ümumi isim);

Plombir – Fransanın şəhərlərindən biri (xüsusi isim) – plombir dondurmanın bir növünün adı (ümumi isim);

Badamlı–qəsəbə adı (xüsusi isim) – badamlı mineral su növlərindən birinin adı (ümumi isim)...

Günəş, Yer, Ay sözləri yalnız astronomik və coğrafi mənada işlənərkən böyük hərflə yazılır, qalan hallarda ümumi isim kimi kiçik hərflə yazılır: Ay Yerin peykidir. Biz ay doğanda yola düşəcəyik.

## TƏK VƏ CƏM İSİMLƏR

İsimlər tək və cəm olur. Cəmdə işlənərkən isimlər-lar$^2$ şəkilçisini qəbul edir: kitab – kitab+lar.

-lar$^2$ şəkilçisi iki və ikidən artıq olan çoxluğu bildirir.

Əşyanın konkret çoxluğunu bildirmək üçün isə ismin əvvəlinə say artırılır: yeddi qardaş, yüz il tənhalıqda.

Xüsusi isimlər -lar(-lər) şəkilçisini qəbul edib cəmdə işlənə bilir və bu zaman onlar böyük hərflə yazılır:

a) qürur, vətənpərvərlik, fərəh hisslərini qabarıq vermək üçün: Koroğlular, Nizamilər, Füzulilər, Babəklər.

b) üslubla bağlı olaraq kinayə, rişxənd mənalarını bildirir:

Tacirlərimiz Sonyalara bənd olacaqmış,

Bədbəxt Tükəzbanları neylərdin, ilahi!

Toplu isimlər. Mənaca topluluq bildirir: camaat, xalq, sürü, naxır, ilxı. Toplu isimlər cümlədə mübtəda yerində işlənərkən xəbər cəm şəkilçisi qəbul etmir.

## İSMİN MƏNSUBİYYƏTƏ GÖRƏ DƏYİŞMƏSİ

Əşyanın hansı şəxsə mənsubluğunu (aidliyini) bildirən şəkilçilər mənsubiyyət şəkilçiləri adlanır.

I və II şəxslərə aid mənsubiyyət şəkilçilərini qəbul edən isimlər əşyanın, əsasən, insana mənsubluğunu bildirir, III şəxsə aid mənsubiyyət şəkilçisini qəbul edən isim isə əşyanın təkcə insana deyil, başqa əşyalara da mənsubluğunu ifadə edə bilir: Orxanın kitab+ı, kitabın cild+i, cildin rəng+i.

Mənsubiyyət şəkilçili isimlər həmişə özündən əvvəl gələn və yiyəlik halda işlənən əvəzlik və ya isimlə bağlı olur.

**QEYD:** Bəzi ərəb-fars mənşəli sözlər mənsubiyyət şəkilçisi ilə [-y-] samiti vasitəsilə birləşir:

mənbə, mənşə, mövqe, mənafe, tale.

**QEYD:** Dilimizdə bəzi ikihecalı sözlər mənsubiyyət şəkilçisi qəbul edərkən kökünün sonundakı sait düşür: sinif – sinfin, zehin – zehnin, ətir – ətrin, beyin – beynin, oğul – oğlun.

## İSİMLƏRİN ŞƏXSƏ GÖRƏ DƏYİŞMƏSİ

İsimlər şəxsə görə aşağıdakı formada dəyişir:

| | |
|---|---|
| Mən tələbə+yəm | Biz tələbə+yik |
| Sən tələbə+sən | Siz tələbə+siniz |
| O, tələbə+dir | Onlar tələbə+dirlər |

Mənsubiyyət və şəxs (xəbərlik) şəkilçiləri şəxslə bağlıdır.

## İSMİN HALLANMASI

İsimlər cümlədə başqa sözlərlə əlaqəyə girərkən dəyişir və bu dəyişmə ismin hallanması adlanır. İsmin altı halı var. İsmin halları suallara görə müəyyənləşir.

**Adlıq hal**

Sualları: kim?, nə?, hara? Xüsusi şəkilçisi yoxdur.

**Yiyəlik hal**

Sualları: kimin?, nəyin?, haranın?, nə?

Şəkilçiləri: -ın$^{4}$ (-nın$^{4}$). Şəkilçisiz də ola bilir.

Yiyəlik halda işlənən isimlər yiyəlik, sahiblik, aidlik mənalarını bildirir. Mənsubiyyət şəkilçili isimlə bağlı olur.

Yiyəlik hal iki yerə bölünür:

1) müəyyənlik bildirən: -ın$^{4}$ (-nın$^{4}$) şəkilçisi ilə işlənir və kimin?, nəyin?, haranın? suallarına cavab verir.

2) qeyri-müəyyənlik bildirən: şəkilçi qəbul etmir və nə? sualına cavab olur.

**QEYD:** mən və biz əvəzlikləri hallandıqda isimdən fərqli olaraq, yiyəlik halda -im şəkilçisini qəbul edir: mən+im, biz+im

**QEYD:** Yiyəlik hal şəkilçisi ilə (-ın$^4$) ikinci şəxs təkin mənsubiyyət şəkilçisi (-ın$^4$) bir-biri ilə omonimdir.

**Yönlük hal**

Sualları: kimə?, nəyə?, haraya?

Şəkilçiləri: -a$^2$ (-ya$^2$).

Yönlük halda işlənən isimlər hərəkətin yönünü, istiqamətini və ya son nöqtəsini bildirir.

**YADDAŞ:** Sonu a, ə açıq saitləri ilə bitən isimlər yönlük halda işlənərkən tələffüz zamanı həmin saitlər qapalı saitlərdən (ı, i, u, ü) birinə keçir: arabaya – [arabıya], dərəyə – [dəriyə], Şuşaya – [Şuşuya], kölgəyə – [kölgüyə].

**Təsirlik hal**

Sualları: kimi?, nəyi?, haranı?, nə?

Şəkilçiləri: -ı$^4$ (-nı$^4$). Şəkilçisiz də ola bilir.

Təsirlik halda işlənən isimlər işin, hərəkətin obyektini, yəni işin, hərəkətin hər hansı bir əşya üzərində icra olunduğunu bildirir.

Təsirlik hal iki yerə bölünür:

1) müəyyənlik bildirən: -ı$^4$ (-nı$^4$) şəkilçisi ilə işlənir və kimi?, nəyi?, haranı? suallarına cavab verir.

2) qeyri-müəyyənlik bildirən: şəkilçi qəbul etmir və nə? sualına cavab olur.

Təsirlik halda qeyri-müəyyənlik bildirən ismi müəyyənlik bildirən isim kimi də işlətmək mümkündür:

a) Qeyri-müəyyən təsirlik halda olan ismi cümlədə feildən uzaqlaşdırdıqda ona şəkilçi artırılır;

c) Qeyri-müəyyən təsirlik halda olan ismin əvvəlinə o, bu əvəzliklərini artırdıqda həmin isim mütləq şəkilçi qəbul edir.

**YADDAŞ:** Dilimizdə bəzi ikihecalı sözlər saitlə başlayan hal şəkilçiləri (yiyəlik, yönlük, təsirlik) qəbul edərkən kökünün

sonundakı saiti düşür: ömür – ömrün, ömrə, ömrü; şəkil – şəklin, şəklə, şəkli; fikir – fikrin, fikrə, fikri.

**İSTİSNA:**

oğul, beyin, alın, burun, ağız, boyun, çiyin, qoyun, qarın

**Yerlik hal**

Sualları: kimdə?, nədə?, harada?

Şəkilçiləri: -da$^2$

Yerlik halda işlənən isimlər əşyanın və ya hərəkətin yerini bildirir.

**Çıxışlıq hal**

Sualları: kimdən?, nədən?, haradan?

Şəkilçiləri: -dan$^2$

Çıxışlıq halda işlənən isimlər hərəkətin çıxış nöqtəsini, başlanğıc yerini bildirir. Çıxışlıq hal yönlük halın əksini bildirir.

**QEYD:** Sonu n, m samitləri ilə bitən sözlərdən sonra işlənən çıxışlıq hal şəkilçisi [-nan$^2$] şəklində tələffüz olunur: vətən+dən [vətən+nən]

## SİFƏT

Ümumi qrammatik mənasına görə əşyanın əlamətini bildirən əsas nitq hissəsinə sifət deyilir. Sifət necə?, nə cür?, hansı? suallarından birinə cavab olur.

Sifət həmişə ismə aid olur. Cümlədə ən çox təyin və xəbər vəzifələrində işlənir.

## QURULUŞCA NÖVLƏRİ

Sifətlər quruluşca sadə, düzəltmə, mürəkkəb olur.

**1. SADƏ SİFƏTLƏR**

Sadə sifətlər bir kökdən, yaxud kök və qrammatik şəkilçidən ibarət olur: yaşıl, yaşıl+dır.

## 2. DÜZƏLTMƏ SİFƏTLƏR

Düzəltmə sifətlər sözlərə leksik şəkilçi artırmaqla düzəlir:

1)İsimdən sifət düzəldən şəkilçilər:

-lı$^4$: yağ+lı  -dakı$^4$: ev+dəki
-lıq$^4$: həftə+lik  -kı$^4$: sabah+kı
-sız$^4$: duz+suz  -ı$^4$: armud+u
-cıl$^4$: zarafat+cıl  -i, -vi: tarix+i, ailə+vi

*Bunlardan əlavə:* -keş, -dar, -xor, -kar, -pərəst, -pərvər, -amiz, -bi, -ba, -na, -la, -a, -anti

2) Feildən sifət düzəldən şəkilçilər:

-ağan (-əyən): gül+əyən
-qan (-kən, -gən): çalış+qan, deyin+gən
-ğın (-gin, -ğun, -gün): az+ğın
-ıq$^4$ (-q, -k): sın+ıq
-ıcı$^4$: kəs+ici
-ınc$^4$: qorx+unc

*Bunlardan əlavə:* -aq$^2$,-ar$^2$,-ma$^{2.}$

## SİFƏT DÜZƏLDƏN ŞƏKİLÇİLƏRİN YAZILIŞI VƏ TƏLƏFFÜZÜ

-dakı$^2$ – iki cür yazılan şəkilçidir: bağ+dakı, həyət+dəki.

-qın (-kin, -qun, -kün), -ğın (-gin, -ğun, -gün) – Sözün son samiti cingiltili olduqda ona birləşən şəkilçinin ilk samiti də cingiltili olur: əz+gin.

Sözün son samiti kar olduqda ona -qın, -kin, -qun, -kün şəkilçisi artırılır: kəs+kin, tut+qun, öt+kün və s.

-i, (-vi) – ərəb və fars dillərindən alınmış sözlərə artırılır: inqilab+i, daxil+i, xaric+i, ailə+vi.

-yı$^2$ – sonu saitlə bitən sözlərə artırılır: sürmə+yi, bənövşə+yi, qəhvə+yi, buğda+yı, xurma+yı.

**QEYD:** Düzəltmə sifətlərdə tələffüz zamanı ə saiti y samitinin təsiri ilə e kimi tələffüz olunur: [sürmeyi].

-lıq$^4$, -ıq$^4$ – bu şəkilçidəki q səsi [x] kimi tələffüz olunur: dağ+lıq [dağ+lıx], uçuq [uç+ux]; sonu k ilə bitənlərdə isə həmin hərf [x'] səsi kimi tələffüz olunur: ömür+lük [ömür+rüx'].

-kin, -kün, -kən – bu şəkilçilərinin ilk samiti cingiltili tələffüz olunur: kəs+kin [kəs+gin], ötkün [öt+gün].

## 3. MÜRƏKKƏB SİFƏTLƏR

Mürəkkəb sifətlər iki və daha artıq sözün birləşməsindən əmələ gəlir: enlikürək (adam), üçtelli (saz).

Mürəkkəb isimlər aşağıdakı yollarla əmələ gəlir:

1. İki sadə sözün birləşməsi ilə:

qaraqaş (qız), şirindil (oğlan), hazırcavab (uşaq).

2. İki düzəltmə sifətin (birincisi feildən, ikincisi isimdən düzələn) birləşməsi ilə:

sınıqqəlbli, açıqürəkli, soyuqqanlı.

3. Bir sadə, bir düzəltmə sözün birləşməsi ilə:

sözdüzəldici (şəkilçi), qaradinməz (uşaq), istiqanlı (adam), çoxhecalı (söz), üçtelli (saz).

4. Mənsubiyyət şəkilçili sözün iştirakı ilə:

stolüstü (oyun), rayonlararası (müşavirə).

5. Sadə və ya düzəltmə sifətlərin təkrarı ilə:

şirin-şirin (almalar), sərin-sərin (sular), uzun-uzun (yollar), balaca-balaca (quzular), bölük-bölük (əsgərlər), dadlı-dadlı (meyvələr) və s.

Belə sözlər əlamətin çoxluğunu bildirmək üçün işlədilir.

6. Biri və ya hər ikisi ayrılıqda işlənə bilməyən sözlərin birləşməsi ilə:

Qara-qura, kələ-kötür

7. Yaxın və ya əks mənalı sözlərin birləşməsi ilə:

bağlı-bağçalı, güllü-çiçəkli
irili-xırdalı, böyüklü-kiçikli
8. "Qeyri" sözünün iştirakı ilə:
qeyri-qanuni, qeyri-müəyyən

## SİFƏTİN MÜQAYİSƏ DƏRƏCƏLƏRİ

Sifətin üç dərəcəsi var:

**1.Adi dərəcə** əlamətin adi halda olduğunu bildirir: qırmızı

**2.Azaltma dərəcəsi** əlamətin adi haldan az olduğunu bildirir: qırmızımtıl, ağımsov, açıq-qırmızı

**3.Çoxaltma dərəcəsi** əlamətin adi haldan çox olduğunu bildirir: tünd-qırmızı, qıpqırmızı və s.

### ADİ DƏRƏCƏ

Adi dərəcə digər dərəcələr üçün ölçüdür. Azaltma və çoxaltma dərəcələri adi dərəcənin əsasında müəyyənləşdirilir.

### AZALTMA DƏRƏCƏSİ

Azaltma dərəcəsi iki üsulla düzəlir:
1) morfoloji üsul – şəkilçilər vasitəsilə:
-ımtıl$^4$, -raq$^2$, -ımtraq (-mtraq), -sov (-ımsov, ümsov), -şın
2) sintaktik üsul – sözlər vasitəsilə:
-açıq (sözə defislə birləşir): açıq-yaşıl
-təhər (sözə bitişik yazılır): qırmızıtəhər

### ÇOXALTMA DƏRƏCƏSİ

Çoxaltma dərəcəsi iki üsulla düzəlir:
1) morfoloji üsul – şəkilçilər vasitəsilə:
-ca$^2$: körpə-körpəcə, bala-balaca

-m, p, s, r samitləri ilə: göy-gömgöy, şirin-şipşirin, qoca-qosqoca, təmiz-tərtəmiz.

2) sintaktik üsul – sözlər vasitəsilə:

-tünd (sözə defislə birləşir): tünd-yaşıl

-al (sözə defislə birləşir): al-qırmızı

-düm (sözə bitişik yazılır): dümağ

-ən, lap, daha, olduqca (sözdən ayrı yazılır): ən cavan

## SİFƏTİN İSİM KİMİ İŞLƏNMƏSİ
## (Substantivləşməsi)

Sifətlər isimləşdikdə ismin suallarına cavab verir, ismin qrammatik xüsusiyyətlərini daşıyır (cəmlənir, mənsubiyyət şəkilçisi qəbul edir, hallanır), mübtəda və tamamlıq olur, amma nitq hissəsi kimi yenə *sifət* olaraq qalır:

Qoca cavana məsləhət verir.

## SAY

Ümumi qrammatik mənasına görə əşyanın miqdarını və ya sırasını bildirir. Say neçə?, nə qədər?, neçənci? suallarından birinə cavab olur. Say da sifət kimi isimlə bağlı olur.

## QURULUŞCA NÖVLƏRİ

Say quruluşca üç yerə bölünür: sadə, düzəltmə, mürəkkəb.

### 1. SADƏ SAYLAR

Sadə saylar bir kökdən, yaxud kök və qrammatik şəkilçidən ibarət olur: beş, beş+dir.

**2. DÜZƏLTMƏ SAYLAR**

Düzəltmə saylar sözlərin sonuna leksik şəkilçi artırmaqla düzəlir:

-ıncı⁴: bir+inci

-larla²: on+larla

-larca²: yüz+lərcə

-lu: çox+lu

**QEYD:** Saylar yalnız saydan düzəlir.

Mürəkkəb saylar ən azı iki sözün birləşməsi ilə yaranır:

1)defislə yazılanlar: bir-iki, üç-dörd, beş-altı, yeddi-səkkiz.

2) ayrı yazılanlar: on bir, on doqquz, beşdə üç.

## SAYIN MƏNACA NÖVLƏRİ

Sayın mənaca iki növü vardır: miqdar və sıra.

**1. MİQDAR SAYLARI**

Sualları: neçə?, nə qədər?

Miqdar saylarının aşağıdakı növləri var:

– müəyyən miqdar sayları

– qeyri-müəyyən miqdar sayları

– kəsr sayları

**1) Müəyyən miqdar sayları**

Əşyanın konkret miqdarını bildirir və neçə?, nə qədər? suallarından birinə cavab olur: üç, beş.

Müəyyən miqdar sayları ilə isim arasında nəfər, baş, dənə, ədəd, cüt, dəst, kiloqram, metr, litr, göz, parça, tikə, qaşıq kimi numerativ sözlər işlənə bilir.

**QEYD:** Müəyyən miqdar saylarından sonra gələn isim cəm şəkilçisi qəbul etmir.

**2) Qeyri-müəyyən miqdar sayları**

Əşyanın konkret miqdarını göstərməyən saylardır və nə qədər? sualına cavab olur: az, çox, xeyli, bir çox, bir qədər, onlarla, yüzlərlə, yüzlərcə.

Bunlar hərflərlə yazılır.

Xüsusiyyətləri:

– az, çox saylarından əvvəl ən, lap, daha sözlərini işlətmək olur.

– bir sıra, bir çox saylarından sonra gələn isimlər cəmdə olur.

– çox, onlarla, onlarca, yüzlərlə, yüzlərcə saylardan sonra gələn isimlər həm təkdə, həm də cəmdə ola bilir.

– az, xeyli, bir qədər saylardan sonra gələn isimlər həmişə təkdə işlənir.

Təxmini saylar: 3-4, 5-6. Təxmini saylar da əşyanın konkret miqdarını göstərmədiklərinə görə qeyri-müəyyən miqdar saylarının bir növü hesab edilir.

**QEYD:** Numerativ sözlər üç-dörd, beş-altı tipli qeyri-müəyyən miqdar sayları ilə isimlər arasında da işlədilə bilər.

**3) Kəsr sayları**

Hissəni, ya da tam və hissəni bildirir, **nə qədər?, neçə hissə?** kimi suallardan birinə cavab olur:

üçdə iki ($\frac{2}{3}$), bir tam onda beş $(1{,}5)$.

Kəsr sayı yerində yarım $\frac{1}{2}$, çərək $\frac{1}{4}$ kimi sözlər də işlənir.

Kəsr sayları heç vaxt sadə olmur.

## 2. SIRA SAYLARI

Əşyanın sırasını bildirən saylardır. Sıra sayları **neçənci?** sualına cavab olur: birinci (yer), beşinci (sıra). Müəyyən miqdar saylarına **-ıncı**$^4$ şəkilçisini artırmaqla düzəlir.

Rəqəmlərlə yazılan sıra sayları iki yerə ayrılır:

a) Ərəb rəqəmləri ilə yazılan sıra sayları: 2-ci, 5-ci, 9-cu.

b) Roma rəqəmləri ilə yazılan sıra sayları: V, VII, VIII və s.

Roma rəqəmlərindən sonra heç bir şəkilçi yazılmır.

Roman rəqəmləri 7 işarə ilə göstərilir.

I (1)
V (5)
X (10)
L (50)
C (100)
D (500)
M (1000)

**538** – DXXLVIII, **122** – CXXII

**Xüsusiyyətləri:**

– adətən, isimlərlə birlikdə işlənir: birinci sinif.

– bəzən isimsiz işlənir və bu zaman onlar cəm və hal şəkilçiləri qəbul edə bilir: Dördüncülər qalib gəldilər.

– sıra saylarından sonra gələn isimlər bəzən cəm şəkilçisi qəbul edə bilir: 60-cı illər, birinci siniflər.

## SAYIN İSİM KİMİ İŞLƏNMƏSİ

Saylar isimləşdikdə ismin suallarına cavab verir, ismin qrammatik xüsusiyyətlərini daşıyır (cəmlənir, mənsubiyyət şəkilçisi qəbul edir, hallanır), mübtəda və tamamlıq olur, amma nitq hissəsi kimi yenə *say* olaraq qalır: Beş birdən çoxdur.

# ƏVƏZLİK

İsim, sifət, say və digər nitq hissələrinin yerində işlənən sözlərdir.

## MƏNACA NÖVLƏRİ

1) Şəxs əvəzlikləri
2) Qeyri-müəyyən əvəzliklər
3) İşarə əvəzlikləri
4) Sual əvəzlikləri
5) Təyini əvəzliklər

Əvəzliklər cümlədə mübtəda, xəbər, tamamlıq, təyin və zərflik rolunda çıxış edə bilir.

## 1. ŞƏXS ƏVƏZLİKLƏRİ

Şəxs əvəzlikləri: mən, sən, o, biz, siz, onlar.

İsimlərin yerində işlənir və kim?, nə? suallarından birinə cavab verir.

1-ci və 2-ci şəxsi bildirən əvəzliklər yalnız insana, 3-cü şəxsi bildirən əvəzliklər isə həm insana, həm də heyvanlara, cansız əşyalara aid olur.

Nəzakət əlaməti olaraq nitqdə sən əvəzinə siz işlədilir.

Şəxs əvəzlikləri isimlər kimi hallanır.

**YADDAŞ:** mən və biz əvəzlikləri hallandıqda isimdən fərqli olaraq, yiyəlik halda -im şəkilçisini qəbul edir: mən+im, biz+im

## 2. QEYRİ-MÜƏYYƏN ƏVƏZLİKLƏR

Qeyri-müəyyən əvəzliklər: biri, kimi, kimsə, nə isə, hamı, bəzi, hərə. İsimlərin yerində işlənir.

Quruluşca sadə və mürəkkəb olur:

Sadə: hamı, hərə, bəzi

Mürəkkəb: hər kəs, hər biri.

Qeyri-müəyyən əvəzliklər isimlər kimi hallanır.

### 3. İŞARƏ ƏVƏZLİKLƏRİ

İşarə əvəzliklər bunlardır: o, bu, elə, belə, həmin.

İşarə məqsədi ilə işlədilir.

– o, bu, həmin – sifətin yerində işlənir;

– elə, belə – sifətin və zərfin yerində işlənir.

–o, bu – ismin də yerində işlədilir. Belə olduqda cəmlənir, hallanır, ismin suallarına cavab verir, cümlənin mübtədası, tamamlığı və ya xəbəri olur.

Mübtəda vəzifəsində işlədilən o, bu əvəzliklərindən sonra, adətən, vergül qoyulur, həmin əvəzliklər feilin və köməkçi nitq hissələrinin əvvəlində gəldikdə isə onlardan sonra vergül qoyulmur (istisna: modal sözlər).

### 4. SUAL ƏVƏZLİKLƏRİ

Sual əvəzlikləri: kim?, nə?, hara?, necə, nə cür?, hansı?, nə zaman?, nə vaxt?, haçan?, nə edir? və s. Sual bildirən sözlərdir.

Sual əvəzlikləri əvəz etdiyi nitq hissəsinin qrammatik xüsusiyyətlərini daşıyır.

Sual əvəzlikləri əvəzliklərin özlərini də əvəz edə bilir:

Biz məktəbə gedirik. Kim məktəbə gedir?

### 5.TƏYİNİ ƏVƏZLİKLƏR

Təyini əvəzliklər: öz, bütün, hər, filan.

Əşyanı ümumi şəkildə müəyyən etmək üçün işlədilən əvəzliklərdir.

– öz əvəzliyi mənsubiyyət şəkilçisi qəbul edib dəyişə bilir: özüm, özün, özü, özümüz, özünüz, özləri.

– öz əvəzliyi mənsubiyyət şəkilçisi qəbul etdikdən sonra ismi əvəz edə bilir və hallanır.

– bütün, hər, filan əvəzlikləri mənsubiyyət şəkilçisi qəbul etmir və hallanmır.

# F Eİ L

Ümumi qrammatik mənasına görə hərəkət bildirir.
Sualları: nə etdi?, nə edir?, nə edəcək?...

## QURULUŞCA NÖVLƏRİ

Feillər quruluşca üç cür olur: sadə, düzəltmə, mürəkkəb.

**1. SADƏ FEİLLƏR**

Sadə feillər bir kökdən, yaxud kök və qrammatik şəkilçidən ibarət olur: bax, bax+maq.

**2. DÜZƏLTMƏ FEİLLƏR**

Düzəltmə feillər tərkibində leksik şəkilçilər olan feillərdir.
1) Başqa nitq hissələrindən feil düzəldən şəkilçilər:
-la$^2$: bağ+la(maq)
-lan$^2$: od+lan(maq)
-laş$^2$: razı+laş(maq)
-al$^2$ (-l): az+al(maq), uca+l(maq)
-ar$^2$: ağ+ar(maq)
2) Feildən feil düzəldən şəkilçilər:
-ıl$^4$: yaz+ıl(maq)
-dır$^4$: yaz+dır(maq)
-ış$^4$: yaz+ış(maq)
-ın$^4$:de+yin(mək)
-ar$^2$: qop+ar (maq)
-ır$^4$: it+ir(mək)
-ıt$^4$(t): qorx+ut(maq), oxu+t(maq)
*Bunlardan əlavə*: ala$^2$ (qov+ala), -a$^2$, -aş$^2$, -sa$^2$, -ı$^4$, -ik, -ıx, -imsə, -ılda$^4$, -ırğa, -ən, -qun

**3. MÜRƏKKƏB FEİLLƏR**

Mürəkkəb feillər iki sözün birləşməsindən düzəlir:

deyib-gülmək, çalışıb-vuruşmaq, oturub-durmaq, yazıb-yaratmaq, gedib-gəlmək, atılıb-düşmək.

Mürəkkəb feilləri əmələ gətirən sözlərin hər biri qrammatik cəhətdən dəyişə bilir: çalışır-vuruşur, atıldı-düşdü.

Mürəkkəb feillərin bir qismi də tərkibi feil adlanır: sahib olmaq, həll etmək, ala bilmək.

## FEİLİN TƏSDİQ VƏ İNKARI

Hərəkətin icra edilib-edilməməsi baxımından feillər iki cür olur: təsdiq və inkar.

1) Təsdiq feillər hərəkətin icra olunduğunu bildirir: baxdı.

2) İnkar feillər hərəkətin icra olunmadığını bildirir və -ma$^2$ şəkilçisi ilə formalaşır: bax+ma+dı. Feilin -ma$^2$ inkar şəkilçisi vurğu qəbul etmir, qrammatik şəkilçidir.

YADDAŞ: -ma$^2$ inkar şəkilçisi isim və sifət düzəldən -ma$^2$ leksik şəkilçisi ilə omonimdir.

## TƏSİRLİ VƏ TƏSİRSİZ FEİLLƏR

Feillər ismin təsirlik halını tələb edib-etməməsinə görə iki yerə bölünür: təsirli və təsirsiz.

Təsirli feillər – idarə etdiyi sözün ismin təsirlik halında işlənməsini tələb edən feillərdir. Belə feillərlə əlaqəyə girən sözlər ismin təsirlik halının suallarına cavab verir: yazdı (nəyi?).

Təsirli feilləri təsirsiz feilə çevirmək üçün -ıl$^4$,-ın$^4$ şəkilçilərindən istifadə olunur: yaz+ıl+dı (nəyə?)

Təsirsiz feillər – özündən asılı olan sözün ismin təsirlik halında işlənməsini tələb etməyən feillərdir: baxdı (nəyə?).

Təsirsiz feilləri təsirli feilə çevirmək üçün -dır$^{4}$, -ır$^{4,}$ -ar$^{2}$ şəkilçilərindən istifadə olunur: bax+dır+dı (nəyi?).

## FEİLİN QRAMMATİK MƏNA NÖVLƏRİ

Feilin qrammatik məna növləri işi görənlə üzərində iş icra olunan əşya arasındakı qarşılıqlı münasibəti əks etdirir.

Feilin aşağıdakı qrammatik məna növləri vardır:

1.Məlum növ
2.Məchul növ
4.Qarşılıq növ
5.İcbar növ

### 1. MƏLUM NÖV

İş görən məlum olur: bax, gör. Bu növü düzəltmək üçün heç bir xüsusi şəkilçidən istifadə edilmir: yazdı.

### 2. MƏCHUL NÖV

İş görən qrammatik cəhətdən məlum olmur.

Şəkilçiləri: -ıl$^{4}$, -ın$^{4}$, -n (təsirli feillərə artırılır və təsirsiz olur): yaz+ıl+dı

Yaxud: Məktub yazıldı – cümlədə mübtəda var, amma kim tərəfindən yazıldığı məlum deyil.

Burada obyekt, yəni üzərində iş görülən əşya (məktub) mübtədanın yerini tutmuş, icraçı (subyekt) naməlum qalmışdır.

### 3. QARŞILIQ NÖV

Hərəkətin qarşı-qarşıya icra edildiyi bildirilir.

Şəkilçiləri: -iş$^{4}$ (-ş) (təsirli feillərə artırılır və təsirsiz olur): vur+uş(maq), gör+üş(mək), salam+la+ş(maq)

Yaxud: Rəfiqələr qucaqlaşdılar.

Hərəkət qarşılıqlı şəkildə icra edilmişdir.

**4. İCBAR NÖV**

Hərəkəti danışan və ya haqqında danışılan şəxs deyil, başqası icra edir.

Şəkilçiləri: -dır$^4$, -t (təsirli feillərə artırılır və təsirli olur): sil+dir(mək), yaz+dır(maq), oxu+t(maq)

Yaxud: Ana məktub yazdırdı.

Məktubu yazan danışan və haqqında danışılan da deyil, tamamilə başqasıdır.

## FEİLİN ZAMANLARI

Feilin üç zamanı var: keçmiş, indiki, gələcək.

**1. KEÇMİŞ ZAMAN**

Hərəkətin keçmişdə icra olunub-olunmadığını bildirir.

Keçmiş zaman iki cür olur: şühudi və nəqli.

1)Şühudi keçmiş. Şəkilçisi: -dı$^4$: yaz+dı, oxu+du, bil+di. Hərəkətin keçmişdə icra olunub-olunmadığını qətiyyətlə bildirir.
2) Nəqli keçmiş. Şəkilçisi: -mış$^4$, -ıb$^4$: yaz+mış+ıq, al+ıb+dır.

Hərəkətin keçmişdə icra olunub-olunmadığı haqqında nəql (nağıl) yolu ilə məlumat verilir.

**2. İNDİKİ ZAMAN**

Hərəkətin söhbət gedən vaxt icra edildiyini bildirir.

Şəkilçisi: -ır$^4$: bax+ır, oxu+yur.

**QEYD:** İndiki zaman feillərinə inkar şəkilçisi (-ma, -mə) artırdıqda şəkilçidəki sait (-a, -ə) düşür: al+m+ır, gəl+m+ir.

**3. GƏLƏCƏK ZAMAN**

Hərəkətin (işin) gələcəkdə icra ediləcəyi bildirilir.

Gələcək zaman iki cür olur: qəti və qeyri-qəti.

1)Qəti gələcək. Şəkilçisi: -acaq$^2$: yaz+acaq, əl+əcək.

2)Qeyri-qəti gələcək. Şəkilçisi: -ar$^2$: yaz+ar, oxu+yar.

**QEYD:** Qeyri-qəti gələcək zaman feillərinə inkar şəkilçisi (-ma$^2$) artırdıqda I şəxs şəkilçidəki sait (-a, -ə) düşür, II və III şəxsdə isə r səsi z səsinə keçir:

I şəxs: al-m-ar-am

II şəxs: al-m-az-san

III şəxs: al-ma-z

## FEİLİN TƏSRİFLƏNƏN VƏ TƏSRİFLƏNMƏYƏN FORMALARI

Feillər şəxsə, kəmiyyətə və zamana görə dəyişə bilib-bilməməsi baxımından iki böyük qrupa ayrılır: təsriflənən və təsriflənməyən formalar.

### 1.TƏSRİFLƏNƏN FORMALAR

Şəxsə, kəmiyyətə və zamana görə dəyişə bilir. Bunlara feilin şəkilləri deyilir.

Feilin şəkilləri danışan, yazan şəxsin görülən işə münasibətini bildirir. Danışan şəxsin münasibətinə görə işin icrası tələb oluna bilər, arzu oluna bilər, vacib sayıla bilər, müəyyən şərtlə bağlı olar, müəyyən bir vaxtda müəyyən şəxs tərəfindən yerinə yetirilə bilər.

Dilimizdə feilin aşağıdakı şəkilləri vardır: əmr, xəbər, arzu, lazım, vacib, şərt

### 1) ƏMR ŞƏKLİ

Əmr, xahiş, məsləhət, təklif, nəsihət və s. bildirir.

Xüsusi şəkilçisi yoxdur. Feilin kökünə və ya başlanğıc formasına şəxs şəkilçiləri artırmaqla düzəlir: bax+ım, bax+sın.

Zaman şəkilçiləri qəbul edə bilmir, amma məzmununda gələcək zaman anlayışı olur.

**2) XƏBƏR ŞƏKLİ**

Xüsusi şəkilçisi yoxdur. Zaman şəkilçiləri və şəxs sonluqları qəbul edir. Zaman şəkilçiləri xəbər şəklini nişan verir: Bax+ır+am, bax+ır+san, bax+ır

**3) ARZU ŞƏKLİ**

İşin gələcək icrasının arzu edildiyini bildirir.

Şəkilçisi: -a$^2$: kaş bax+a, gərək gəl+ə

Şəxs sonluqları qəbul edir.

Zaman şəkilçiləri qəbul edə bilmir, amma məzmununda gələcək zaman anlayışı olur.

-Kaş, gərək sözləri arzu şəklinin formalaşmasında iştirak edir və feildən əvvəl işlədilir.

**4) VACİB ŞƏKLİ**

İcra ediləcək işin zəruri olduğunu bildirir.

Şəkilçisi: - malı$^2$: bax+malı+yam, gör+məli+yəm

Şəxs sonluqları qəbul edir.

Zaman şəkilçiləri qəbul edə bilmir, amma məzmununda gələcək zaman anlayışı olur.

**5) LAZIM ŞƏKLİ**

İcra ediləcək işin lazım olduğunu bildirir.

Şəkilçisi: -ası (yası)$^2$: bax+ası+yam, gör+əsi+yəm

Şəxs sonluqları qəbul edir.

Zaman şəkilçiləri qəbul edə bilmir, amma məzmununda gələcək zaman anlayışı olur.

**QEYD:** İnkarı deyil sözü ilə düzəlir.

**6) ŞƏRT ŞƏKLİ**

Hərəkətin icrasının müəyyən şərtə bağlı olduğunu bildirir.

Şəkilçisi: -sa$^2$: yaz+sa+m, gəl+sə+m

Şəxs sonluqları qəbul edir.

Əgər bağlayıcısı şərt şəklinin formalaşmasında iştirak edir və feildən əvvəl işlədilir.

## 2.TƏSRİFLƏNMƏYƏN FORMALAR

Şəxsə, kəmiyyətə və zamana görə dəyişə bilmir. Feilin təsriflənməyən formaları üçdür: məsdər, feili sifət, feili bağlama

**1)MƏSDƏR**

Həm feilin, həm də ismin xüsusiyyətlərini daşıyır.

Şəkilçisi: -maq$^2$: ağla+maq, gül+mək

Lüğətlərdə bütün feillər məsdər formasında qeyd olunur.

a) Məsdərin feilə aid xüsusiyyətləri:

– Leksik mənası var.

– Təsdiq və inkarda olur.

– Feilin müəyyən növünə aiddir.

– Təsirli və ya təsirsiz olur.

– Tərkibi əmələ gətirir.

b) Məsdərin ismə aid xüsusiyyətləri:

– Hallanır və mənsubiyyətə görə dəyişir.

– Nə? sualına cavab verir.

– Xəbər şəkilçisi (-dır$^4$) qəbul edib cümlədə ismi xəbər olur.

– Cümlədə mübtəda, tamamlıq, zərflik də ola bilir.

– Qoşmalarla işlənə bilir.

**2)FEİLİ SİFƏT**

Həm feilin, həm də sifətin xüsusiyyətlərini daşıyır.

Şəkilçiləri:

Keçmiş: -mış$^4$: yazıl+mış (məktub)

-dığı$^4$: yaz+dığım (məktub)

İndiki: -an$^2$: yazıl+an (məktub)

Gələcək: -acaq$^2$: yazıl+acaq (məktub)

-ası$^2$: yazıl+ası (məktub)

-malı$^2$: yazıl+malı (məktub)

a) Feili sifətin feilə aid xüsusiyyətləri:

– Zaman mənası bildirir.

– Təsirli və ya təsirsiz olur.

– Növ bildirir.

– Təsdiq və inkarda ola bilir.

–Tərkibi əmələ gətirir.

b) Feili sifətin sifətə aid xüsusiyyətləri:

– Əşyanın əlamətini bildirir.

– Neçə?, nə cür?, hansı? suallarından birinə cavab olur.

– Aid olduğu ismin əvvəlində gəlir.

– Cümlədə təyin vəzifəsində işlənir.

– Xəbərlik şəkilçilərini qəbul edir və ismi xəbər olur.

– Sifət kimi substantivləşə bilir və bu vaxt cümlədə isim kimi çıxış edir.

**QEYD:** Feili sifətlərlə feildən düzələn sifətləri qarışdırmaq olmaz. Feildən düzələn sifətlər feilin heç bir xüsusiyyətini daşıya bilmir, yalnız sifətin əlamətlərini daşıyır.

**3) FEİLİ BAĞLAMA**

Həm feilin, həm də zərfin xüsusiyyətlərini daşıyır.

Şəkilçiləri:

-ıb$^4$

-araq$^2$
-a$^2$ -a$^2$
-madan$^2$
-anda$^2$; -dıqda$^4$; -arkən$^2$; -inca$^4$; -dıqca$^4$; -ar, -maz$^2$

a) Feili bağlamanın feilə aid xüsusiyyətləri:

– Leksik mənası var.
– Təsdiq və inkarda olur.
– Feilin müəyyən növünə aiddir.
– Təsirli və ya təsirsiz olur.
– Tərkib əmələ gətirir.

b)Feili bağlamanın zərfə aid xüsusiyyətləri:

– Hərəkətin tərzini, zamanını, səbəbini və s. bildirir.
– Zərfin suallarına cavab verir.
– Tərkib əmələ gətirir.

**DURĞU İŞARƏSİ:** Feili bağlama cümlənin həmcins xəbəri olduqda ondan sonra vergül işarəsi qoymaq lazımdır:

Anam qapını açıb, həyəcanla içəri daxil oldu.

## İDİ, İMİŞ HİSSƏCİKLƏRİ

Onlar aid olduqları sözləri keçmiş zamana bağlayır.

İdi, imiş hissəcikləri həm feillərlə, həm də adlarla – isim, sifət, say, əvəzlik, eləcə də zərflə işlənir.

İdi, imiş hissəcikləri feildən başqa digər nitq hissələri ilə işləndikdə bütöv halda yazılır: Əli idi (Əliydi), Əli imiş (Əliymiş).

İdi, imiş hissəcikləri feilin bütün zamanları ilə işlənir.

İdi, imiş hissəcikləri feilin vacib, lazım, arzu və şərt şəkilləri ilə də işlənə bilir və bütöv halda yazılır.

**QEYD:** İsə hissəciyi feilin əmr, arzu və şərt şəkillərinə artırıla bilməz.

# ZƏRF

Hərəkətin tərzini, zamanını, yerini, miqdarını və s. bildirir və feilə aid olur.

Sualları: necə? (nə cür?), nə zaman? (haçan?), nə vaxt?, hara?, nə qədər?, nə üçün?, niyə? və s.

## QURULUŞCA NÖVLƏRİ

Zərflər quruluşca üç cür olur: sadə, düzəltmə, mürəkkəb.

### 1. SADƏ ZƏRFLƏR

Sadə zərflər bir kökdən, yaxud kök və qrammatik şəkilçidən ibarət olur: dərhal

### 2. DÜZƏLTMƏ ZƏRFLƏR

Düzəltmə zərflər tərkibində leksik şəkilçi olan zərflərdir.

Zərf düzəldən şəkilçilər:

-ca$^2$: türk-cə, ehmal-ca, sakit-cə, yaş-ca və s.

-casına$^2$: açıq-casına, hiyləgər-cəsinə və s.

-yana, -yanə, -anə: dost-yana, saymaz-yana, zarafat-yana, şair-anə, dahi-yanə, Sabir-anə və s.

-dan$^2$: bir-dən, bərk-dən, asta-dan və s.

-ən: qəsd-ən, qəflət-ən, daxil-ən və s.

-la$^2$: güc-lə, zor-la, cəsarət-lə və s.

-akı$^2$: yan-akı, çəp-əki və s.

-aşı$^2$: yan-aşı və s.

### 3. MÜRƏKKƏB ZƏRFLƏR

Mürəkkəb zərflər, başlıca olaraq, aşağıdakı yollarla düzəlir:

1) Sadə sözlərin təkrarı ilə;
2) Biri və ya hər ikisi şəkilçi qəbul etmiş sözlərin təkrarı ilə;
3) Antonim, yaxud yaxın mənalı sözlərin yanaşı işlənməsi ilə;
4) Yönlük halda işlənən bir sayına digər sayın qoşulması ilə;
5) -ba$^2$ bitişdiricisi ilə;
6) Müxtəlif mənalı sözlərin birləşməsi ilə.

## ZƏRFİN MƏNACA NÖVLƏRİ

Zərfin məna növləri bunlardır:
tərzi-hərəkət, zaman, yer miqdar zərfləri.

### 1) TƏRZİ-HƏRƏKƏT ZƏRFLƏRİ

Hərəkətin icra tərzini bildirir: birdən, asta, cəld, qaçaraq.
Sualları: necə?, nə cür?

Tərzi-hərəkət zərfləri hərəkətin keyfiyyətini də bildirə bilir: yaxşı danışmaq, pis bilmək və s.

### 2)ZAMAN ZƏRFLƏRİ

Hərəkətin icra olunduğu zamanı bildirir: dünən, sabah, sonra, əvvəl.
Sualları: nə zaman?, nə vaxt?, haçan?

**3. YER ZƏRFLƏRİ**

Hərəkətin icra olunduğu yeri bildirir: irəli, geri, yuxarı, aşağı, sağa, sola, içəri, bəri.

Sualları: hara? (haraya?), harada?, haradan?

**4. MİQDAR ZƏRFLƏRİ**

Hərəkətin miqdarını və ya dərəcəsini bildirir: az, çox, xeyli.

Sualları: nə qədər?, nə dərəcədə?

## ZƏRFİN DİGƏR NİTQ HİSSƏLƏRİ İLƏ OMONİMLİYİ

1) İsim və zərf: səhər, axşam, gecə, gündüz.
2) Sifət və zərf: yaxşı, pis, gözəl, qəşəng
3) Say və zərf: az, çox, xeyli
4) Qoşma və zərf: əvvəl, sonra

**QEYD:** 1) Zərf əmələ gətirən -la$^2$ şəkilçisini ilə (-la,-lə) qoşmasının ixtisarı ilə qarışdırmayın:

Qələmlə (isim) yazıram.

Sürətlə (zərf) gedirəm.

2) Yerlik və çıxışlıq hal şəkilçiləri ilə zərf düzəldən -da$^2$, -dan$^2$ şəkilçilərini qarışdırmayın:

Kölgədə sən, gündə (isim) mən,
Səni görürəm gündə (zərf) mən.

# KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ

Köməkçi nitq hissələrinin əsas xüsusiyyətləri:

1) leksik mənaya malik olmur.

2) ayrılıqda cümlə üzvü kimi işlənə bilmir və müstəqil suala cavab vermir.

Köməkçi nitq hissələri:

qoşma, bağlayıcı, ədat, modal sözlər, nida.

## 1. QOŞMA

İsmin adlıq, yiyəlik, yönlük və çıxışlıq halında olan sözlərə qoşularaq müəyyən məna çaları əmələ gətirir. Qoşmalar qoşulduğu sözlə birlikdə cümlənin bir üzvü olur.

## MƏNACA NÖVLƏRİ

Birgəlik (ilə), bənzətmə (kimi, tək, qədər), istiqamət (sarı, doğru, qarşı, tərəf), məsafə (qədər, kim, -dək, -can$^2$), zaman (əvvəl, sonra, qabaq, bəri), fərqləndirmə (qeyri, savayı, başqa, ayrı, özgə), səbəb-məqsəd (üçün, görə, ötrü), aidlik (aid, dair, haqqında, barəsində), istinad (əsasən).

"Kimi" qoşması ilə bağlı Mövlana Cəlaləddin Rumidən götürülmüş bir neçə nümunə:

1) Comərdlik və yardım etməkdə axar su kimi ol.

2) Şövkət və mərhəmətdə günəş kimi ol.

3) Başqalarının qüsurunu örtməkdə gecə kimi ol.

4) Hiddət və əsəbiyyətdə ölü kimi ol.

5) Təvazi və alçaq könüllülükdə torpaq kimi ol.

6) Xoşgörülükdə dəniz kimi ol.

7) Ya olduğun kimi görün, ya göründüyün kimi ol.

Qoşmalar ismin halları ilə işlədilməsinə görə müəyyən qruplara bölünür.

1) Adlıq hala qoşulanlar: üçün, kimi, tək, qədər, ilə.

2) Yiyəlik hala qoşulanlar: qədər, kimi, tək, üçün, ilə ($la^2$).

3) Yönlük hala qoşulanlar: -dək, -can, -cən, tərəf, doğru, qarşı, sarı, görə, əsasən, qədər, dair, aid, kimi.

4) Çıxışlıq hala qoşulanlar: sonra, əvvəl, qabaq, bəri, başqa, qeyri, savayı, ayrı, özgə, ötrü, əlavə.

**QEYD:** Bəzən eyni qoşma müxtəlif hallarda olan sözlərə qoşula bilir.

## QOŞMALARIN DİGƏR NİTQ HİSSƏLƏRİ İLƏ OMONİMLİYİ

İsim və qoşma: tərəf, qarşı

Sifət, zərf, qoşma: tək, doğru, yaxın, sarı

Zərf və qoşma: sonra, qabaq, əvvəl

**DURĞU İŞARƏSİ:**

Ayrı yazılanlar: üçün, kimi, qədər, tərəf, sonra, əvvəl və s.

Bitişik yazılanlar: -$can^2$, -$ca^{2,}$ -tək, -dək.

Bitişik və ayrı yazılanlar: ilə// -la,-lə

## 2. BAĞLAYICI

Sözlər, cümlə üzvləri və ya cümlələr arasında əlaqə yaradır.

Bağlayıcılar sintaktik vəzifəsinə görə iki qrupa bölünür: tabesizlik bağlayıcıları və tabelilik bağlayıcıları

### Tabesizlik bağlayıcıları

Mənaca aşağıdakı növləri vardır:

1) Birləşdirmə bağlayıcıları: və, ilə (-$la^2$).

2) Qarşılaşdırma bağlayıcıları: amma, ancaq, lakin, fəqət.

3) Bölüşdürmə bağlayıcıları: ya, ya da, ya da ki, və ya, gah, gah da, gah da ki, istər, istərsə.

4) İştirak bağlayıcıları: həm, həm də, həm də ki, o cümlədən, habelə, hətta, da, də, həmçinin.

5) İnkarlıq bağlayıcıları: nə, nə də, nə də ki.

6) Aydınlaşdırma bağlayıcıları: yəni, yəni ki, məsələn.

**QEYD:** İlə hissəciyi qoşma kimi işlənərkən qoşulduğu sözlərlə birlikdə bir suala cavab verir və bir cümlə üzvü olur:

Qoca ağacla yeriyir.

**Tabelilik bağlayıcıları**

Mənaca aşağıdakı növləri vardır:

1) Səbəb bağlayıcıları: çünki, ona görə ki, buna görə də, ona görə də, onun üçün ki, ondan ötrü ki.

2) Şərt bağlayıcıları: əgər, hərgah, madam, madam ki, indi ki, bir halda ki.

3) Güzəşt bağlayıcıları: hərçənd, hərçənd ki.

4) Aydınlaşdırma bağlayıcıları: ki, belə ki.

**DURĞU İŞARƏSİ:** İlə hissəciyi bağlayıcı kimi işləndikdə onu vergül işarəsi ilə, yaxud da və bağlayıcısı ilə əvəz etmək olur:

Təhsil ilə tərbiyə əsasdır = Təhsil və tərbiyə əsasdır.

**DURĞU İŞARƏSİ:** Cümlədə nə də, gah da, həm də, ya da, amma, ancaq, lakin, çünki, ona görə ki, yoxsa bağlayıcılarından əvvəl, təkrar olunan ki, da, də bağlayıcısından sonra (sonuncudan başqa) vergül qoyulur.

**3. ƏDAT**

Sözlərin və cümlələrin təsir gücünü artırır, mənasını qüvvətləndirir. Ədatları çıxarsaq, mənada ciddi dəyişiklik baş verməz.

**MƏNACA NÖVLƏRİ**

1) Qüvvətləndirici ədatlar: axı, ən, lap, hətta, daha, artıq, da, də, necə, ha, ki, -ca$^2$.

2) Dəqiqləşdirici ədatlar: elə, məhz, əsl.

3) Məhdudlaşdırıcı ədatlar: yalnız, ancaq, təkcə, tək, bircə, bir.

4) Sual ədatları: məgər, yəni, bəs, -mı$^4$.

5) Əmr ədatları: di, qoy, bax, gəl, gör, görün, gəlin, gəlsənə, ha, -sana, -sənə.

6) Arzu ədatları: kaş, kaş ki, təki, barı.

7) Təsdiq və inkar ədatları: bəli, hə, xeyr, yox.

**QEYD:** Azərbaycan dilində daha çox işlənən ədatlar: ki, ha, axı, kaş, bəs, lap, qoy, məgər.

**ƏDATLARIN OMONİMLİYİ**

Say və ədat: bir, bircə

Əvəzlik və ədat: elə, belə, necə

Feil və ədat: qoy, bax, gör

Zərf və ədat: təkcə

Bağlayıcı və ədat: ki, ancaq, da, də, hətta

**DURĞU İŞARƏSİ:** -mı$^4$ və -sana$^2$ bitişik yazılır, qalan bütün ədatlar sözlərdən ayrı yazılır

## 4.MODAL SÖZLƏR

Danışanın ifadə etdiyi fikrə münasibətini bildirir.

### MƏNACA NÖVLƏRİ

1) Təsdiq bildirənlər:

əlbəttə (əlbəttə ki), doğrudan (doğrudan da), həqiqətən, sözsüz, şəksiz, şübhəsiz (şübhəsiz ki), doğrusu, doğrudur, düzü, düzdür.

Əlbəttə, hər şey yaxşı olacaq. Doğrusu, yadımdan çıxdı.

2) Ehtimal və şübhə bildirənlər:

gərək (gərək ki), yəqin (yəqin ki), görəsən, görən, görünür (görünür ki), ehtimal ki, bəlkə (bəlkə də), güman ki, olsun ki.

Güman ki, o, sabah gələcək. Bəlkə də, qaytardılar.

3) Nəticə bildirənlər:

demək (demək ki), deməli, xülasə, ümumiyyətlə,
bir sözlə, nəhayət.

Deməli, yola düşmək lazımdır. Nəhayət, imtahanlar başa çatdı.

4) Bənzətmə və ya müqayisə bildirənlər: sanki, elə bil (ki).

Sanki məni görmürdü.

5) Fikrin mənbəyini bildirənlər: məncə, səncə, bizcə, zənnimcə.

Məncə, tezliklə qayıdacaq.

**DURĞU İŞARƏSİ:**

Cümlənin əvvəlində olan modal sözdən sonra, ortasında olan modal sözün hər iki tərəfində, axırında olan modal sözdən əvvəl vergül qoyulur.

**5. NİDA**

Danışanın hissini, həyəcanını, qorxu və ya sevincini bildirir.

**MƏNACA NÖVLƏRİ**

1) Qorxu, narahatlıq bildirənlər: vay, ox, oy, ah.

2) Şadlıq, sevinc, təəccüb bildirənlər: paho, bəh-bəh, oho, oxqay.

3) Qəm, kədər bildirənlər: of, ah, ox, oy, eh.

4) Çağırış bildirənlər: hey, ey, ay.

5) Nifrət və istehza bildirənlər: tfu, xa-xa-xa, xux, xox.

**QEYD:** Bütün nidalar, həmçinin ay, ey nidaları ilə başqa sözün əmələ gətirdiyi nidalar sözdən ayrı yazılır, təkrar yolu ilə işlənən nidalar defislə yazılır.

**DURĞU İŞARƏSİ:**

Cümlənin əvvəlində gələn nidalardan sonra vergül və ya nida işarəsi,

ortasında gələn nidadan əvvəl və sonra vergül,

sonunda gələn nidalardan əvvəl vergül, sonra nida işarəsi və ya nöqtə qoyulur.

Çağırış bildirən a, ay, ey nidalarından sonra vergül qoyulmur. Bəzən çağırış bildirən ey nidasından sonra vergül işlənir: Ey, qərib oğlan, haraya gedirsən?

# SİNTAKSİS

## SÖZ BİRLƏŞMƏLƏRİ

**Söz birləşməsi** iki və daha artıq müstəqil sözün **məna** və **qrammatik** cəhətdən birləşməsidir: **daş hasar.**

Müstəqil sözlə **köməkçi söz**, söz birləşməsi yaratmır: **evə tərəf.**

## SÖZ, SÖZ BİRLƏŞMƏSİ VƏ CÜMLƏ

**Söz: səslərdən** ibarətdir, **leksik** vahiddir, **ümumi və geniş mənaya** malikdir.

**Söz birləşmələri: sözlərdən** yaranır, **sintaktik** vahiddir və mənanı **konkretləşdirir**.

<u>Söz və söz birləşmələrinin</u> **oxşar xüsusiyyətləri:**

– cümlə üçün tikinti materialı olması

– əşya və hadisələri adlandırması

**Cümlələrlə** bağlı xüsusiyyətlər:

**1)** Bitmiş bir fikri ifadə edir.

**2)** Ünsiyyətin əsas vahididir.

**3)** Söylənilən fikrə münasibət bildirilir.

**4)** Bir sözdən də ibarət ola bilir.

**Söz birləşməsi və cümlə:**

**a) oxşar** xüsusiyyətlər:

– sözlərin müxtəlif şəkildə birləşməsi

– eyni nitq hissələrindən yaranması

– eyni sintaktik əlaqələrlə formalaşması

– söz sırasının eyniliyi

**b) fərqli** xüsusiyyətlər:

– söz birləşməsi bitkin fikir ifadə etmir.

– söz birləşməsi bir sözdən ibarət ola bilməz.

– söz birləşməsinin xüsusi intonasiyası yoxdur.

Söz birləşmələri iki cür olur: **sabit** və **sərbəst**. Sərbəst söz birləşmələri də iki yerə bölünür: **ismi** və **feili birləşmələr**.

## İSMİ BİRLƏŞMƏLƏR
## (Təyini söz birləşmələri)

Əsas tərəfi **isimlərlə (adlarla)** ifadə olunan birləşmələrdir.

Təyini söz birləşmələri üç yerə ayrılır:

– **birinci növ,**

– **ikinci növ,**

– **üçüncü növ təyini söz birləşmələri.**

**1. Birinci növ təyini söz birləşmələri** (*yaxşı şagirdlər*):

**1)** Əsas tərəfi isimlərlə və isimləşmiş sözlərlə ifadə olunur.

**2)** Tərəfləri **ayrı-ayrılıqda bir cümlə üzvü** olur.

**3)** Birinci tərəfi cümlədə təyin olur.

**4)** İkinci tərəfi mübtəda, xəbər, tamamlıq və zərflik olur.

**2. İkinci növ təyini söz birləşmələri (***nar çiçəyi***)**:

**1)**Birinci tərəfi **yiyəlik hal şəkilçisiz**, ikinci tərəfi **mənsubiyyət şəkilçili** birləşmələrdir.

**2)** Əsas tərəfi isimlərlə və isimləşmiş sözlərlə ifadə olunur.

**3)** Tərəfləri **birlikdə bir cümlə üzvü** olur.

**4)** Əksər vaxtlarda tərəfləri **ayrı-ayrılıqda cəmlənir**.

**3. Üçüncü növ təyini söz birləşmələri (***meşələrin ağacları***)**:

1)Birinci tərəfi **yiyəlik hal**, ikinci tərəfi **mənsubiyyət şəkilçili** birləşmələrdir.

2)Tərəfləri isim, əvəzlik, məsdər və isimləşmiş başqa nitq hissələri ilə ifadə olunur.

3)Tərəfləri arasına **istənilən qədər söz artırmaq** olar.

4)Tərəfləri ayrı-ayrılıqda cəmləndiyi kimi, **birlikdə də cəmlənə** bilir.

## FEİLİ BİRLƏŞMƏLƏR

Əsas tərəfi feilin **təsriflənməyən formaları** ilə ifadə olunur.

Feili birləşmələr üç cürdür: məsdər, feili sifət və feili bağlama tərkibləri.

**1.Məsdər tərkibi**

**1) Əsas tərəfi** məsdərdən ibarət olur.

**2)** Əsasən, cümlənin **mübtəda** və **tamamlığı** vəzifələrində işlənir:

**Vətəni sevmək** şərəfdir.

O, **sahildən uzaqlaşmağı** tələb etdi.

**2. Feili sifət tərkibi**

**1) Əsas tərəfi** feili sifətdən ibarət olur.

**2)** Əsasən, cümlənin **təyini** vəzifəsində işlənir:

**İnsanı heyrətdə qoyan** yamaclar göz oxşayırdı.

**3.Feili bağlama tərkibi**

**1) Əsas tərəfi** feili bağlamadan ibarət olur.

**2)** Əsasən, cümlədə **zərflik** vəzifəsində işlənir:

**Biz kəndə çatanda** yağış kəsdi.

# SİNTAKTİK ƏLAQƏLƏR

Sintaktik əlaqələr iki cür olur: **tabesizlik və tabelilik**

**Tabesizlik** əlaqəsi:

**1)** Tərəflər bərabərhüquqlu olur.

**2)** Həmcins üzvlər arasında olur:

**Qələm, dəftər** stolun üstündədir.

**3)**Tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında olur: Qatar **dayandı**, sərnişinlər **düşdülər**.

**Tabelilik** əlaqəsinin üç növü vardır: **yanaşma, idarə, uzlaşma.**

Əsas və asılı tərəflərdən ibarətdir.

Söz birləşmələri və cümlədəki sözlər arasında olur.

## 1. Yanaşma əlaqəsi

Asılı tərəfin heç bir qrammatik şəkilçi qəbul etmədən əsas tərəfə yanaşıb, mənaca ona bağlanmasına ***yanaşma*** deyilir. İkinci tərəf **əsas** tərəfdir.

Yanaşma əlaqəsinin **qrammatik göstəricisi yoxdur**. Adətən, birinci növ təyini söz birləşmələrinin tərəfləri arasında və zərfliklə xəbər arasında olur (**istisna:** yer zərfliyi):

**daş ürək, dəmir daban, polad iradə**

O, **tez-tez** gedirdi.

## 2. İdarə əlaqəsi

Əsas tərəfin tələbi ilə asılı tərəfin müəyyən hallara düşməsinə ***idarə*** deyilir. İkinci tərəf **əsas** tərəfdir. Əsas tərəf əksərən **feillərdən** ibarət olur.

İdarə əlaqəsinin qrammatik göstəriciləri **hal şəkilçilə-ridir**:

**3.Uzlaşma əlaqəsi**

Asılı tərəfin əsas tərəflə şəxsə və kəmiyyətə görə uyğunlaşmasına ***uzlaşma*** deyilir. Birinci tərəf **əsas** tərəfdir.

Qrammatik göstəriciləri **mənsubiyyət, şəxs və kəmiyyət şəkilçiləridir**. Uzlaşma aşağıdakı hallarda müşahidə olunur:

**1) Mübtəda ilə xəbər** arasında olur. Yalnız **üçüncü şəxsin cəmində** xəbərlə mübtəda arasında kəmiyyətə görə **uzlaşma pozulur**:

Adam**lar** qaçışırdıl**ar**.

Fil**lər** mənim dostumdur.

**2) İkinci və üçüncü növ təyini söz birləşmələrinin tərəfləri** arasında olur. **İkinci növ** təyini söz birləşmələrinin birinci tərəfi həmişə üçüncü şəxsdə olduğuna görə **ikinci tərəfi üçüncü şəxsin mənsubiyyət şəkilçisini** qəbul edir. **Üçüncü növ** təyini söz birləşmələrinin birinci tərəfi isə hər üç şəxsdə olduğuna görə uzlaşma hər üç şəxsdə olur və **ikinci tərəf hər üç şəxsin mənsubiyyət şəkilçisini** qəbul edir:

Əncir ağac**ı**, tut yarpağ**ı**, **d**ağların hava**sı**, çiçəklərin ətr**i**

# CÜMLƏ

Cümlə **bitmiş bir fikri** ifadə edir və insanlar arasında **fikir mübadiləsinin** əsas vasitəsidir. **Qrammatik əsası** var və quruluşca həm sadə, həm də mürəkkəb olur.

Cümlənin məqsəd və intonasiyaya görə dörd növü vardır: **nəqli, sual, əmr, nida**.

**1. Nəqli cümlə**

Bir iş, hadisə, əlamət haqqında məlumat verən adi təsviri cümlələrə ***nəqli*** cümlə deyilir. Nitqdə nəqli cümlələr daha çox işlənir. Yazıda nəqli cümlələrin sonunda ***nöqtə*** qoyulur: **Dünyada əlli milyona qədər azərbaycanlı var.**

**2. Sual cümləsi**

Sual məqsədi ilə işlədilən cümlələrə ***sual*** cümləsi deyilir. Sual cümlələri **üç** formada və aşağıdakı üsullarla düzəlir:

**1) sual əvəzlikləri** ilə: **Nə vaxt** yola düşəcəyik? – **Sabah.**

**2) sual ədatları** ilə: Bu cavan oğlana deyim**mi** indi? – **Xeyr.**

**3) sual intonasiya** ilə: Şəhərə gedəcəyik? – **Bəli.**

Sual cümlələrinin sonunda ***sual işarəsi*** qoyulur.

**3. Əmr cümləsi**

**Təkid, tələb, məsləhət, nəsihət** və s. ifadə edən cümlələrə ***əmr*** cümləsi deyilir. Əmr cümləsinin **xəbəri**, adətən, **feilin əmr şəklində** olur. Bu, qrammatik göstərici hesab olunur:

**Təcili nəticə çıxar. Yeni qərar ver!**

Nəqli cümlələrin sonunda ***nöqtə*** və ya ***nida*** işarəsi qoyulur.

**4. Nida cümləsi**

Yüksək hiss və həyəcanla tələffüz edilən cümlələrə ***nida*** cümlələri deyilir. Nəqli, sual, əmr cümlələri **hiss və həyəcanla** tələffüz edildikdə nida cümləsinə çevrilir.

Nida cümlələri **iki** yolla əmələ gəlir:

**1) İntonasiya** vasitəsilə: **Böyüklərə hörmət etmək lazımdır!**

**2) Nidaların** köməyi ilə: **Bəh-bəh, bir evin yaraşığıdır!**

## CÜMLƏ ÜZVLƏRİ

Cümlənin təşkilindəki roluna görə cümlə üzvləri iki yerə ayrılır: ***baş və ikinci dərəcəli*** üzvlər. Hər hansı bir cümlə üzvü **əsas nitq hissəsi** ilə ifadə olunur və **müstəqil leksik mənası** vardır.

Cümlə üzvləri bir-birilə iki cəhətdən bağlı olur:

1) **mənaca**

2) **qrammatik cəhətdən**

Hər hansı cümlə üzvü digər cümlə üzvləri ilə **sintaktik əlaqəyə** girməlidir.

Cümlə üzvlərinin **ifadə vasitələrinə** gəldikdə isə nitq hissələri ilə onların münasibəti belədir:

***isim** – **mübtəda, tamamlıq**

***feil** – **xəbər**

***sifət və say** – **təyin**

***zərf** – **zərflik**

Cümlə üzvləri quruluşuna görə **sadə** və **mürəkkəb** olur. Nitq hissələri ilə ifadə olunan üzvlər ***sadə,*** söz birləşmələri ilə ifadə olunan üzvlər ***mürəkkəb*** üzvlər adlanır.

**QEYD: Var, yox, bəs, gərək, lazım, mümkün** sözləri və ***sual əvəzlikləri*** ilə ifadə olunan cümlə üzvləri sual tələb etmir.

## BAŞ ÜZVLƏR

### 1. MÜBTƏDA

**Mübtəda** cümlənin **baş üzvü** olub hərəkət və əlaməti xəbərlə müəyyənləşən **şəxsi, əşyanı** bildirir. İsmin **adlıq** halında olur. Fikir mənbəyidir və **haqqında danışılanı** bildirir.

**Mübtəda** cümlənin **ən müstəqil üzvüdür** və qrammatik cəhətdən heç bir üzvdən asılı deyil. ***Kim?, nə?,*** bəzən də ***hara?*** sualına cavab verir:

**Uşaqlar** (***kim?***) oynayırlar.

**Ağac** (***nə?***) yaşıllaşdı.

**Otaq** (***hara?***) alaqaranlıq idi.

**QEYD:** *Mübtəda, ibtida, ibtidai* sözləri ərəb mənşəlidir və *baş, başlanğıc* mənalarını bildirir.

**Mübtədanın ifadə vasitələri:**

**1)** Daha çox **isim və əvəzliklərlə** ifadə olunur.

**2) Sifət, say, işarə əvəzlikləri, feili sifətlər** isimləşərək mübtəda vəzifəsində işlənə bilir.

**3)** Quruluşca **sadə** mübtədalar **nitq hissələri** ilə ifadə olunan mübtədalardır.

**4) Mürəkkəb adlarla, ismi və feili birləşmələrlə** ifadə olunan mübtədalar **mürəkkəb** mübtədalar hesab olunur.

**5)** ***O, bu*** əvəzlikləri ilə ifadə olunan mübtədadan sonra feil və köməkçi nitq hissələri (**istisna:** modal sözlər) gəlməzsə, **vergül** qoyulur.

### 2. XƏBƏR

**Xəbər** cümlənin baş üzvü olub, haqqında danışılanın **hərəkət və ya əlamətini** bildirir. İki cür olur: **feili** və **ismi** xəbər.

**1) Feili** xəbər **nə etdi?, nə edir?, nə edəcək?..** suallarından birinə cavab verir. Cümlədə haqqında danışılanın hərəkətini bildirir:

Hava **istiləşir** (**nə edir?).**

**2) İsmi** xəbər **kimdir?, nədir?, neçədir?, haradadır?, necədir?** və s. suallardan birinə cavab verir. Cümlədə haqqında danışılanın əlamətini bildirir:

Balıqçılar **sahildədirlər** (**haradadırlar?**).

**Xəbərin ifadə vasitələri:**

**1) Feili** xəbər təsriflənən feillərlə ifadə olunur. Feilin **əmr, xəbər, lazım, vacib, arzu şəkilləri** ilə ifadə olunan xəbərlər **müstəqil**, **şərt şəkli** ilə ifadə olunan xəbərlər **asılı xəbər** olur.

**2) İsmi** xəbər **ismi birləşmələrlə, mürəkkəb adlarla, məsdər və məsdər tərkibləri, feili sifət və feili sifət tərkibləri** ilə ifadə olunur.

**3)** Nitq hissələri ilə ifadə olunan xəbərlər **sadə,** söz birləşmələri ilə ifadə olunanlar **mürəkkəb** xəbər adlanır.

**4) İdi, imiş** hissəcikləri xəbərin tərkibinə daxil olsa da, onun quruluşuna təsir etmir.

**5) Bilmək, olmaq, etmək, başlamaq, istəmək** feilləri əksərən başqa sözlərlə birləşərək xəbər vəzifəsində işlənir.

**Xəbərin mübtəda ilə şəxsə və kəmiyyətə görə uzlaşması:**

**1)** Mübtəda hansı şəxsdə olsa, xəbər də həmin şəxsdə olur.

**2)** Xəbər mübtəda ilə kəmiyyətə görə də uzlaşır.

**3)** Üçüncü şəxsin cəmində xəbər mübtəda ilə kəmiyyətcə uzlaşa da bilər, uzlaşmaya da bilər.

**4)** Üçüncü şəxsdə **insan** anlayışı bildirən **mübtəda cəm** olduqda **xəbər** də əksərən **cəmdə** olur:

**Çobanlar** yaylağa qalxdı**lar**.

**5)** Üçüncü şəxsdə **heyvan və quş** anlayışı bildirən **mübtəda cəmdə** olduqda **xəbər cəmdə** də ola bilir, **təkdə** də:

**Fillər** mənim dostumdur.

**Quşlar** səmada **uçuşurlar**.

**6)** Üçüncü şəxsdə **cansız varlıqları** bildirən **mübtəda cəmdə** olduqda **xəbər təkdə** olur və onunla kəmiyyətcə uzlaşmır:

**Yarpaqlar** töküldü.

## İKİNCİ DƏRƏCƏLİ ÜZVLƏR

### 1.TAMAMLIQ

**Tamamlıq** cümlənin ikinci dərəcəli üzvü olub, **hərəkətin obyektini** bildirir. İsmin **adlıq, yiyəlik hallarından başqa** digər hallarda olur və həmin halların suallarına cavab verir.

**Qoşmalı** sözlər və birləşmələr də tamamlıq olur və **nə ilə?, nə barədə?, nə haqqında?**, **kim üçün?** kimi suallara cavab verir.

**İsim, əvəzlik** və **məsdərlərlə** daha çox ifadə olunur. Nitq hissələri ilə ifadə olunan tamamlıqlar **sadə,** söz birləşmələri ilə ifadə olunan tamamlıqlar **mürəkkəb** tamamlıqlar adlanır.

Tamamlıqlar iki cür olur: **vasitəsiz** və **vasitəli**.

#### 1) Vasitəsiz tamamlıq

Yalnız **təsirli feili xəbərlərlə** bağlı olur və 2 yerə bölünür: müəyyənlik və qeyri-müəyyənlik bildirənlər.

***Müəyyənlik** bildirən vasitəsiz tamamlıqlar müəyyən təsirlik halda olur, **kimi?, nəyi?** suallarına cavab verir və **müəyyən, konkret əşya** bildirir:

Ovçu **tüfəngi** (**nəyi?**) qaldırdı.

***Qeyri-müəyyənlik** bildirən vasitəsiz tamamlıqlar qeyri-müəyyən təsirlik halda olur, **nə?** sualına cavab verir və **ümumi, qeyri-müəyyən əşya** bildirir:

Müəllim mağazadan **kitab** (**nə?**) aldı.

**2) Vasitəli tamamlıq**

İsmin **yönlük, yerlik, çıxışlıq hallarında olan** sözlərlə yaranır. *İlə, üçün, ötrü, qarşı, haqqında, barəsində* qoşmalarının qoşulduğu sözlər və söz birləşmələri ilə də ifadə olunur. Təsirli, təsirsiz feili xəbərlərlə, hətta ismi xəbərlərlə də əlaqələnə bilir:

**Neftdən** (***nədən?***) müxtəlif yağlar alınır.

Ana **uşaq üçün** (***kim üçün?***) corab aldı.

## 2. TƏYİN

**Təyin** cümlənin ikinci dərəcəli üzvü olub, **isimlə** və **isimləşmiş sözlərlə** ifadə olunan üzvləri **müxtəlif cəhətdən izah edir**. **Necə?, nə cür?, hansı?, neçə?, nə qədər?, neçənci?** suallarından birinə cavab olur:

**Qırmızı** (***hansı?***) qərənfillər soldu.

Mən aşiq **min** (***neçə?***) aya dəyər.

Əsasən, **sifət, say, feili sifət və işarə əvəzlikləri** ilə ifadə olunur. Quruluşca **sadə** və **mürəkkəb** olur.

Təyin bütün üzvlərin təyini ola bilir.

## 3. ZƏRFLİK

**Zərflik** cümlənin ikinci dərəcəli üzvü olub, **hərəkətin icrasını və ya əlamətin meydana çıxmasını** müxtəlif cəhətdən **izah** edir. Zərfliklər əksərən zərflərlə – **tərzi-hərəkət, zaman,**

**yer, miqdar** zərfləri ilə ifadə olunur. Bundan başqa **isimlər, sual əvəzlikləri, məsdər və feili bağlamalarla** da ifadə oluna bilər.

Zərfliklər əksərən **feili xəbərə**, bəzən isə **ismi xəbərə** aid olur. Quruluşca **sadə** və **mürəkkəbdir**.

Zərfliyin altı məna növü vardır: **tərzi-hərəkət, zaman, yer, kəmiyyət, səbəb və məqsəd.**

**1) Tərzi-hərəkət zərfliyi**

Tərzi-hərəkət zərfliyi işin, hərəkətin **icra tərzini** bildirir. **Necə?, nə cür?, nə tərzdə?, nə vəziyyətdə?** suallarından birinə cavab verir. **Feili bağlama, feili bağlama tərkibləri, qoşmalı sözlər** və **birləşmələrlə** ifadə olunur.

Tərzi-hərəkət zərfliyi həm feili, həm də dərəcə çaları bildirdikdə **ismi xəbərə** aid ola bilir: *Hava* **həddən artıq** *isti idi.*

**2) Zaman zərfliyi**

**Zaman zərfliyi** işin, hərəkətin, hadisənin **zamanını** bildirir. **Nə vaxt?, nə zaman?, haçan?, nə zamanadək?, nə vaxtadək?, nə vaxta kimi?, nə vaxta qədər?** suallarından birinə cavab verir. **Feili bağlama, feili bağlama tərkibləri, zaman zərfləri, zaman mənalı isimlərlə** ifadə olunur. Quruluşuna görə **sadə** və **mürəkkəb** olur.

**Yayda** (***haçan?***) istirahətə yollandıq.

**3) Yer zərfliyi**

**Yer zərfliyi** işin, hərəkətin, hadisənin **yerini** bildirir. *Hara?, haraya?, harada?, haradan?* suallarından birinə cavab verir. **Yer zərfləri** və **yer bildirən isimlərlə** ifadə olunur. Quruluşuna görə **sadə** və **mürəkkəb** olur:

**Şəhərdən (*haradan?*)** *dünən qayıtmışam.*

**4) Kəmiyyət zərfliyi**

**Kəmiyyət** zərfliyi işin, hərəkətin **nə qədər**, **hansı kəmiyyətdə** icra olunduğunu bildirir. **Nə qədər?, nə dərəcə?, nə dərəcədə?** suallarından birinə cavab verir. Əsasən, **miqdar zərfləri və ismi birləşmələrlə** ifadə olunur. Quruluşuna görə **sadə** və **mürəkkəb** olur:

Biz onun yolunu **xeyli** (***nə qədər?***) gözlədik.

**5) Səbəb zərfliyi**

**Səbəb** zərfliyi hərəkəti və ya əlamətin **səbəbini** bildirir. *Niyə?, nə səbəbə?, nə üçün?, nədən ötrü?, nəyə görə?* suallarına cavab verir. *Üçün, ötrü, görə* qoşmalarının artırıldığı sözlərlə, **ismi birləşmələrlə, sual əvəzlikləri** ilə ifadə olunur. Quruluşuna görə **sadə** və **mürəkkəb** olur:

**Niyə** xəstələnmisən?

**6) Məqsəd zərfliyi**

**Məqsəd** zərfliyi işin, hərəkətin **məqsədini** bildirir. **Niyə?, nədən ötrü?, nə məqsədlə?** suallarına cavab verir. **İsimlər, ismi birləşmələr və sual əvəzlikləri ilə** ifadə olunur. Quruluşuna görə **sadə** və **mürəkkəb** olur:

Sən **nə məqsədlə** şəhərə getmişdin?

# ƏLAVƏLƏR

**Əlavələr** cümlədə özündən əvvəlki üzvün mənasını **izah edib konkretləşdirir**. Söz və ya söz birləşmələri ilə ifadə olunur.

Əlavənin aid olduğu üzvə **əlavəli üzv** deyilir. Əlavələr hansı üzvün əlavəsidirsə, o üzvün adı ilə adlanır. Əlavə aid olduğu üzvdən sonra gəlir, ondan **xüsusi intonasiya** və **fasilə ilə** ayrılır. Əlavə izah etdiyi sözlərdən **tire**, bəzən də **vergül** ilə ayrılır, əlavədən əvvəl **yəni** bağlayıcısı işləndikdə də vergül qoyulur.

Aşağıdakıların **əlavəsi** olur:

**1)** Bütün **cümlə üzvlərinin:**

Orxan – **X sinif şagirdi** qalib gəldi.

**2) Üçüncü növ** təyini söz birləşmələrinin **birinci tərəfinin:**

Məktəbin – **təhsil ocağının** həyəti gözəlləşdi.

**3) Feili birləşmələrin** asılı tərəfinin:

Kəndə – **ana yurda** qayıdanda yaxşılaşdı.

**4) Xitabların:**

Gül, ey nazlı vətən – **Odlar torpağı.**

Əlavə aid olduğu üzvlə **şəxsə, kəmiyyətə və ismin halına** görə uzlaşır. Bəzən əlavə əlavəli üzvlə şəxsə görə uzlaşmaya da bilər.

## HƏMCİNS ÜZVLƏR

**Həmcins üzvlər** eyni üzvlə bağlı olub, eyni suala cavab verən **bərabərhüquqlu** üzvlərdir. Həmcins üzvlər arasında **tabesizlik əlaqəsi** olur. Bütün **cümlə üzvləri** həmcins ola bilər:

**Sadəlik və təvazökarlıq** insana hörmət gətirər.

Həmcins üzvlər bir-birindən **vergüllə** ayrılır. Həmcins üzvlər arasında **və, ilə** bağlayıcıları işləndikdə vergül qoyulmur.

Həmcins üzvlər bir-biri ilə ya sadalama **intonasiyası**, ya da **intonasiya** və **tabesizlik bağlayıcıları** ilə əlaqələnir.

**Yox, deyil** sözləri də həmcins xəbər mövqeyində çıxış edir.

Bədii təkrirlər həmcins hesab edilmir.

## ÜMUMİLƏŞDİRİCİ SÖZLƏR

Həmcins üzvlərin hamısına aid olan və onları ümumiləşdirən cümlə üzvü **ümumiləşdirici söz** adlanır.

Ümumiləşdirici söz həmcins üzvlərdən əvvəl gələrsə, ondan sonra **iki nöqtə** qoyulur, ümumiləşdirici söz həmcins üzvlərdən sonra gələrsə, ondan əvvəl **tire** qoyulur:

**1) Dərs ləvazimatı:** qələm, dəftər, kitab stolun üstündədir.

2) Qələm, dəftər, kitab – **dərs ləvazimatı** stolun üstündədir.

Həmcins üzvlərdən əvvəldə işlənən **ümumiləşdirici sözdən** sonra **yəni, məsələn** sözləri işləndikdə ümumiləşdirici sözdən sonra **vergül**, həmin sözlərdən sonra isə **iki nöqtə** qoyulur.

Həmcins üzvlərdən sonra işlənən **ümumiləşdirici sözlə** həmcins üzvlər arasında **bir sözlə** tipli yekunlaşdırıcı sözlər işlənsə, həmcins üzvlərlə yekunlaşdırıcı söz arasında **tire** işarəsi, ümumiləşdirici sözdən əvvəl isə **vergül** qoyulur.

## HƏMCİNS MÜBTƏDALAR

Müxtəlif şəxslərdə olan **həmcins mübtədalardan biri:**

– **I** şəxsdə olduqda xəbər **I** şəxsin cəmində olur;

**Mən** və **sən** gedəcəy**ik**.

– **II** və **III** şəxsdə olduqda xəbər **II** şəxsin cəmində olur;

**Sən** və **o** gedəcək**siniz**.

– **III** şəxsdə olduqda xəbər **III** şəxsin həm təkində, həm də cəmində ola bilər:

**Elmar və Nigar** qalib gəldi**lər**.

**Alma, armud və heyva** stolun üstündə**dir**.

### Həmcins mübtədalar:

– **insan anlayışı** bildirib **III** şəxsdə olduqda xəbər **III** şəxsin cəmində olur;

Müəllim**lər** söhbət edir**lər**.

– **heyvan anlayışı** bildirdikdə xəbər **III** şəxsin həm təkində, həm də cəmində olur:

Fil**lər** mənim dostum**dur**.

Durna**lar** qatarlaşıb uçdu**lar**.

– **cansız varlıqları** bildirdikdə xəbər **III** şəxsin təkində olur:

Ağaclar yaşıllaşdı.

**QEYD: Təyinlər** iki cür – həmcins və qeyri-həmcins olurlar.

### Şəkilçilərin ixtisarı

Həmcins mübtədalarda **cəm şəkilçisi**,

həmcins tamamlıqlarda **hal şəkilçisi**,

həmcins xəbərlərdə **şəxs şəkilçisi**, **cəm şəkilçisi** və **idi, imiş** hissəcikləri,

həmcins üzvlərdən sonra gələn **ilə** qoşması ixtisar olunur.

# XİTAB

**Xitaba** qrammatik cəhətdən **cümlə üzvləri ilə bağlı olmur.** Cümlə üzvləri ilə **mənaca** əlaqələnir, amma cümlə üzvü sayılmır.

Xitab xüsusi intonasiya və fasilə ilə ayrılır.

İsmin **adlıq** halında olur və bu cəhətdən mübtədaya oxşayır.

Cümlədə **müraciət olunanı bildirən** sözlər və birləşmələrdir. Adətən, **insana** aid sözlərlə ifadə olunur.

**Cansız əşyalara** da müraciətlə xitab işlədilir.

Nitq hissələri və söz birləşmələri ilə ifadə olunur.

Quruluşca **sadə və mürəkkəb** olur: sadə xitablar **nitq hissələri,** mürəkkəb xitablar isə **söz birləşmələri** ilə ifadə olunur;

Sözüm vardır mənim sizə, **durnalar.**

Eşq olsun sənə, **Azərbaycan əsgəri!**

Xitab cümlənin əvvəlində, ortasında və axırında işlənə bilir. Cümlənin:

**əvvəlində** işlənən xitabdan sonra **vergül**, yaxud **nida**,

**ortasında** işlənən xitabın **hər iki tərəfində vergül**, **axırında** işlənən xitabın əvvəlində **vergül**, axırında isə cümlənin tələbinə uyğun durğu işarəsi işlədilir.

Xitablar çox vaxt ***ey, ay, a, hey*** kimi çağırış bildirən nidalarla birgə işlənir.

# ARA SÖZLƏRİ

**Ara sözləri** qrammatik cəhətdən **cümlə üzvləri ilə bağlı olmur**.

Cümlə üzvləri ilə **mənaca** əlaqələnir, amma cümlə üzvü sayılmır.

Danışanın ifadə etdiyi **fikrə münasibətini bildirir** və cümlədəki başqa sözlərdən fasilə ilə ayrılır.

## Mənaca növləri

**1) Yəqinlik** bildirənlər: **əlbəttə, şübhəsiz, həqiqətən, düzü, doğrudan da, yəqin ki, doğrusu**

**2) Güman, şübhə** bildirənlər: **bəlkə (də), güman (ki), ehtimal (ki), olsun (ki), deyəsən, görəsən, görünür, olmaya**

**3) Fikrin mənbəyini** bildirənlər: **məncə, bizcə, mənə görə, sənə görə…, deyilənə görə, guya**

**4) Nitq hissələri arasında münasibəti** bildirənlər: **nəhayət, beləliklə, deməli, demək, xülasə, qısası, əvvələn, əvvəla, əksinə, birincisi, ikincisi**

**5) Təəssüf** bildirənlər: **heyf (ki), təəəssüf (ki), çox heyf**

Ara sözləri s**öz, söz birləşmələri** və **cümlə formasında** olur:

– **söz** formasında: **demək, bəlkə**
– **söz birləşməsi** formasında: **sözün doğrusu**
– **cümlə** formasında: **necə deyərlər, görünür**

**DURĞU İŞARƏSİ:** Cümlənin **əvvəlində** işlənən ara sözündən sonra **vergül**, **ortasında** işlənən ara sözünün **hər iki tərəfində vergül**, **axırında** işlənən **ara sözünün** əvvəlində **vergül**, axırında isə cümlənin tələbinə uyğun durğu işarəsi işlədilir.

## SADƏ CÜMLƏ
## CÜMLƏNİN ŞƏXSƏ GÖRƏ NÖVLƏRİ

Cümlənin şəxsli və ya şəxssiz olması **mübtədaya** görə müəyyənləşir. **Mübtədası olan** cümlələr **şəxsli cümlə** sayılır.

Cümlənin şəxsə görə aşağıdakı növləri vardır: **müəyyən şəxsli, qeyri-müəyyən şəxsli, ümumi şəxsli, şəxssiz cümlələr**.

**Müəyyən şəxsli** cümlələrin həm **mübtədası**, həm də **xəbəri** olur; **qeyri-müəyyən şəxsli, ümumi şəxsli, şəxssiz cümlələrdə** isə **yalnız xəbər** olur.

### 1. MÜƏYYƏN ŞƏXSLİ CÜMLƏLƏR

**Müəyyən şəxsli** cümlələr **mübtədası olan** və ya **asanlıqla bərpa edilən** cümlələrdir. Onların bir qismində mübtəda iştirak etməsə də, onu asanlıqla **bərpa etmək** olar.

**Mən** sabah yola düşəcəyəm.

**Cavanlar** futbol oynayırdılar.

Mübtəda kimi nəzərdə tutulan **mən, sən, biz, siz** sözlərinin bərpası xəbərdəki şəxs şəkilçilərinin köməyi ilə mümkün olur.

Oxumağa başlayır**am**. – Mən.

Çalmağa başlayır**san**. – Sən.

Buraxılmış mübtəda **III** şəxsdə olduqda onu əvvəlki cümlələrin köməyi ilə bərpa etmək olur.

İkinci dərəcəli üzvlərin iştirak edib-etməməsinə görə müəyyən şəxsli cümlələr **müxtəsər** və **geniş** olur. Yalnız baş

üzvlərdən ibarət olan cümlə **müxtəsər**, ikinci dərəcəli üzvlərin də iştirak etdiyi cümlə **geniş** cümlə adlanır.

**QEYD:** Qeyri-müəyyən şəxsli, ümumi şəxsli, şəxssiz cümlələr də **müxtəsər və geniş** ola bilir. Qeyri-müəyyən şəxsli, ümumi şəxsli, şəxssiz cümlələrin **müxtəsər forması yalnız xəbərdən** ibarətdir.

## 2. QEYRİ-MÜƏYYƏN ŞƏXSLİ CÜMLƏLƏR

**Qeyri-müəyyən şəxsli** cümlələr **hərəkət və ya hökmün qeyri-müəyyən şəxsə aid** olduğunu bildirən sadə cümlələrdir. Belə cümlələrdə işin icraçısı, adətən, **bir və ya bir qrup şəxsdən** ibarət olur. Danışanı və dinləyəni işin icraçısı yox, **işin özü, proses** maraqlandırır. Belə cümlələrdə real işdən söhbət getmədiyi üçün **real icraçı da** olmur.

Qeyri-müəyyən şəxsli cümlələrin bir qismində ***elə bil, elə bil ki, sanki, deyəsən, guya ki*** və s. modal sözlər işlənir.

Qeyri-müəyyən şəxsli cümlələrin xəbəri **üçüncü şəxsin cəmində** olur:

Qaliblərə mükafat verdi**lər**.

Müxtəsər və geniş ola bilir.

## 3. ÜMUMİ ŞƏXSLİ CÜMLƏLƏR

**Ümumi şəxsli cümlələr** hərəkət və hökmün **hamıya** aid olduğunu bildirən sadə cümlələrdir. Belə cümlələr əksərən **atalar sözləri və məsəllərdən, hikmətli sözlərdən və aforizmlərdən** ibarət olur. Ümumiləşmiş mənalar ifadə edir.

Daha çox **ikinci şəxsin təki və üçüncü şəxsin cəmində** olur:

Bu günün işini sabaha **qoyma.**

Cücəni payızda **sayarlar.**

Müxtəsər və geniş ola bilir.

## 4. ŞƏXSSİZ CÜMLƏLƏR

**Şəxssiz cümlələr** mübtədası olmayan və onun təsəvvür edilməsi **qeyri-mümkün** olan sadə cümlələrdir. Şəxssiz cümlələrin xəbəri **üçüncü şəxsin təkində** olur:

Ərizəyə **baxıldı**.

Şəxssiz cümlələr **ismi və feili xəbərli** olur. Belə cümlələrin **xəbəri frazeoloji vahidlərlə** də ifadə olunur.

Müxtəsər və geniş ola bilir.

## 5. ADLIQ CÜMLƏLƏR

**Adlıq** cümlələr əşyanın, hadisənin adını çəkməklə onun mövcudluğu haqqında məlumat verən sadə cümlələrdir. Adlıq cümlələrin **xəbəri olmur**. Adlıq cümlələrdə mübtəda **isimlə, ismi birləşmələrlə** ifadə olunur və **adlıq** halda olur:

Dəniz kənarı. Sakit hava. Ay işığı.

Adlıq cümlələr ən çox **dram əsərlərinin remarkalarında, şeir və nəsrdə, qəzet və jurnal məqalələrində** işlədilir.

Adlıq cümlələr insanın həyəcan və düşüncələrini yığcam və təsirli ifadə etmək üçün ən yaxşı vasitələrdəndir. Müxtəsər və geniş ola bilir.

## 6. SÖZ – CÜMLƏ

**Söz-cümlələr** üzvlənməyən cümlələrdir. Üç formada düzəlir:

**1)** Ədatlarla **(bəli, hə, yox, xeyr, əsla):**

– Darıxırsan?

– **Xeyr.**

**2)** Modal sözlərlə **(əlbəttə, bəlkə, şübhəsiz, görünür, sözsüz, yəqin…):**

– Gedəcəksən?

– **Əlbəttə.**

**3)** Nidalarla **(əhsən, eh, paho):**
Hamı bu gənci alqışladı:
**– Əhsən!**

## MÜRƏKKƏB CÜMLƏ

Mürəkkəb cümlələr iki yerə bölünür: tabesiz və tabeli.

Tabesiz və tabeli mürəkkəb cümlələrin bir sıra oxşar cəhətləri vardır:

– hər ikisi iki və daha artıq sadə cümlənin birləşməsindən əmələ gəlir;

– hər ikisinin tərkib hissələri arasında zaman, qarşılaşdırma, səbəb, nəticə və s. kimi məna əlaqələri olur;

– hər ikisinin tərkib hissələri intonasiya və bağlayıcıların köməyi ilə əlaqələnir.

Tabesiz və tabeli mürəkkəb cümlələrin mühüm fərqləri də vardır:

– tabesiz mürəkkəb cümlələrin tərəfləri bərabərhüquqlu olur, tabelidə isə tərkib hissələrdən biri (budaq cümlə) o birindən (baş cümlədən) asılı olur;

– tabesiz mürəkkəb cümlələrdə tərkib hissələr fikrin ifadəsində eyni dərəcədə, bərabər şəkildə iştirak edir, tabelidə isə tərkib hissələrdən biri (budaq cümlə) o biri tərkib hissədəki fikri aydınlaşdırmaqla fikrin ifadəsinə xidmət edir;

– tabesiz mürəkkəb cümlələrin tərkib hissələri tabesizlik bağlayıcıları, tabeli mürəkkəb cümlələrin tərkib hissələri tabelilik bağlayıcıları ilə əlaqələnir. Hətta bunların intonasiyasında da fərq olur.

# TABESİZ MÜRƏKKƏB CÜMLƏLƏR

Bərabərhüquqlu sadə cümlələrin birləşməsindən yaranır.

Tabesiz mürəkkəb cümlələrin tərkib hissələri ya intonasiya ilə, ya da intonasiya və tabesizlik bağlayıcıları ilə əlaqələnir.

Tərkib hissələri intonasiya ilə əlaqələnən tabesiz mürəkkəb cümlələr bağlayıcısız, bağlayıcıların köməyi ilə əlaqələnən tabesiz mürəkkəb cümlələr isə bağlayıcılı tabesiz mürəkkəb cümlələr adlandırılır.

Bağlayıcılı tabesiz mürəkkəb cümlələrdə ilə istisna olunmaqla bütün tabesizlik bağlayıcılarından istifadə olunur.

Birləşdirmə, iştirak və inkar bağlayıcıları daha çox zaman əlaqəli tabesiz mürəkkəb cümlələrin tərkib hissələrini əlaqələndirir.

Qarşılaşdırma bağlayıcıları ancaq qarşılaşdırma əlaqəsinə, bölüşdürmə bağlayıcıları ancaq bölüşdürmə əlaqəsinə, aydınlaşdırma bağlayıcıları isə ancaq aydınlaşdırma əlaqəsinə xidmət edir.

**QEYD:** Qarşılaşdırma, iştirak, inkar və bölüşdürmə bağlayıcılı tabesiz mürəkkəb cümlələrin tərkib hissələri arasında yazıda vergül qoyulur.

## MƏNA ƏLAQƏLƏRİ

Tabesiz mürəkkəb cümlələrin tərkib hissələri arasında aşağıdakı məna əlaqələri olur:

1) Zaman əlaqəsi.

Zaman əlaqəli tabesiz mürəkkəb cümlələrin tərkib hissələrində eyni zamanda baş verən hadisələr sadalanır.

Tərkib hissələrin sayı bəzən ikidən artıq olur.

Tərkib hissələrin yerini dəyişmək də mümkündür.

Belə cümlələrin bir qismində ortaq zaman zərfliyi olur:

Baxdıqca insanın gözü qaralır,
Şair olmayan da xəyala dalır (S.Vurğun).

2) Ardıcıllıq əlaqəsi.

Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələrin tərkib hissələrində müəyyən ardıcıllıqla baş verən hadisələr sadalanır.

Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələrin də tərkib hissələrinin sayı ikidən çox ola bilir.

Qatar dayandı, sərnişinlər düşdü.

3) Səbəb-nəticə əlaqəsi.

Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrdə birinci tərkib hissədəki iş səbəbi, ikinci tərkib hissədəki iş onun nəticəsini bildirir.

Bu cümlələrin hər birində birinci tərkib hissə səbəbi, ikinci tərkib hissə birincidən doğan nəticəni bildirir:

Yağış yağdı, toz yatdı.

4) Aydınlaşdırma əlaqəsi.

Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrdə tərkib hissələrdən biri ümumilik bildirir, o biri onu aydınlaşdırır.

Ümumilik bildirən hissədən sonra, əsasən, iki nöqtə qoyulur (nöqtəli vergül də qoyula bilər). Məsələn: Uzun qış axşamı idi; külək dəhşətli bir sızıltı ilə qanadlarını divara çırpır, üzü qılınc kimi kəsirdi (M.C.).

5) Qarşılaşdırma əlaqəsi.

Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrin tərkib hissələrindəki iş və hadisələr bir-biri ilə qarşılaşdırılır.

Əksərən qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrin tərkib hissələri arasında mənaca ziddiyyət olur, lakin

bəzən tərkib hissələrdəki fikirlər, iş və hadisələr, sadəcə olaraq, qarşılaşdırılır, müqayisə edilir, fərqləndirilir:

Zəng vuruldu, amma uşaqlar gəlib çıxmadılar.

6) Bölüşdürmə əlaqəsi.

Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələrdə tərkib hissələrdəki iş və hadisələr növbə ilə bir-birini əvəz edir, yaxud da iki işdən yalnız birinin mümkünlüyü ifadə olunur.

Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələr yalnız bölüşdürmə bağlayıcılarının iştirakı ilə yaranır.

Gah, gah da (gah da kı) bağlayıcıları işlənəndə hadisələr növbələşir: Gah yağış yağır, gah da külək əsir.

Ya, ya da (ya da kı, yaxud da) bağlayıcıları işləndikdə müxtəlif hadisələrdən birinin mümkünlüyü ifadə olunur: Ya sən gəlməlisən, ya da mən.

# TABELİ MÜRƏKKƏB CÜMLƏLƏR

Tabeli mürəkkəb cümlələri əmələ gətirən sadə cümlələrdən biri qrammatik cəhətdən müstəqil, digəri ondan asılı olur. Müstəqil hissəyə baş cümlə, baş cümlədən asılı olan, onu izah edib aydınlaşdıran hissəyə budaq cümlə deyilir.

Budaq cümlələri baş cümləyə bağlayan vasitələr:

**1)** intonasiya

**2)** tabelilik bağlayıcıları

Tərkib hissələri intonasiya və tabelilik bağlayıcıları ilə əlaqələnən tabeli mürəkkəb cümlələrdə **baş cümlə əvvəl, budaq cümlə sonra işlənir.**

Bağlayıcılı tabeli mürəkkəb cümlələrin **baş cümləsində** çox zaman budaq cümlə vasitəsilə müəyyənləşən, aydınlaşdırılan ***bu, o, buna, ona, bunda, onda, belə, elə***, ***o qədər, o zaman*** və s. sözlər – **işarə əvəzlikləri – qəlib sözlər** işlənir. B**aş cümlədə qəlib sözlər işlənmədikdə onları təsəvvür və bərpa etmək mümkündür;**

**3) bağlayıcı sözlər – sual əvəzlikləri** (**kim, nə, necə, nə cür, hansı, nə vaxt, haçan, hara, nə qədər, neçə**). Bağlayıcı sözlər çox vaxt ki ədatı ilə birgə işlənir.

Bağlayıcı sözlər əsasında qurulan **budaq cümlə baş cümlədən əvvəl** işlənir.

Budaq cümlə baş cümləyə bağlayıcı sözlə bağlandıqda **baş cümlədə** müxtəlif cümlə üzvü vəzifələrində əvəzlik-sözlər (işarə əvəzlikləri) işlənir. Belə sözlər **qarşılıq söz** adlanır. Cümlədə qarşılıq bildirən söz olmadıqda onu bərpa etmək olur.

**Əgər, hərgah, madam ki, indi ki, bir halda ki** və s. Bağlayıcıların da əlaqə yaratdığı cümlələrdə **budaq cümlə baş cümlədən əvvəl** işlənir.

**YADDAŞ: Bağlayıcı** sözlər bağlayıcılardan fərqli olaraq, **cümlə üzvü** olur.

**4) -sa² şəkilçisi və -mı⁴** – bu halda da **budaq cümlə baş cümlədən əvvəl işlənir.**

Yazıda tabeli mürəkkəb cümlələrin tərkib hissələri bir-birindən vergüllə ayrılır.

**QEYD:** Budaq cümlə baş cümləyə **ki, çünki, ona görə ki, ona görə də, indi ki, bir halda ki, madam ki** bağlayıcıları ilə bağlandıqda **ki-dən sonra, o biri bağlayıcılardan isə əvvəl vergül** qoyulur.

## BUDAQ CÜMLƏLƏRİN NÖVLƏRİ

Budaq cümlələr cümlə üzvlərinə uyğun olaraq aşağıdakı növlərə ayrılır:

**I.** Mübtəda budaq cümləsi
**II.** Xəbər budaq cümləsi
**III.** Tamamlıq budaq cümləsi
**IV.** Təyin budaq cümləsi
**V.** Zərflik budaq cümlələri:
**1)** tərzi-hərəkət budaq cümləsi
**2)** yer budaq cümləsi
**3)** zaman budaq cümləsi
**4)** kəmiyyət budaq cümləsi
**5)** səbəb budaq cümləsi
**6)** məqsəd budaq cümləsi
**VI.** Şərt budaq cümləsi
**VII.** Qarşılıq-güzəşt budaq cümləsi

## I. MÜBTƏDA BUDAQ CÜMLƏSİ

*Mübtəda budaq cümləsi* ya baş cümlənin **buraxılmış mübtədası** əvəzində işlənir, yaxud da baş cümlədə **işarə əvəzliyi ilə ifadə olunan mübtədanı** izah edir:

*Hamıya məlumdur **ki**, (nə?) payızda meyvə bol olur. Məktubda o da yazılmışdı **ki**, (nə?) havalar soyuyur.*

Bəzən mübtəda **budaq cümləsi** baş cümlədən **əvvəl** gəlir **və** ona bağlayıcı sözlə bağlanır:

**Kim** ki *intizamlıdır, qələbəyə də* **o nail olur**.

**Mübtəda budaq cümləsi isimləşmiş feili sifət tərkibləri ilə sadələşdirilir.**

## II. XƏBƏR BUDAQ CÜMLƏSİ

**Xəbər budaq cümləsi baş cümlənin işarə əvəzlikləri ilə ifadə olunmuş ismi xəbərini izah edib aydınlaşdırır. Baş cümlənin xəbəri adətən odur, o idi, bu idi, elədir, belədir, oradadır, buradadır, onun üçündür, bunun üçündür sözləri ilə ifadə olunur:**

**İgid odur ki, (kimdir?) atdan düşə, atlana.**

**Xəbər budaq cümləsi bəzən baş cümlədən əvvəl gəlir və baş cümləyə bağlayıcı sözlərlə bağlanır:**

**Hər kim tez gəlsə, bu yer onundur.**

**Belə cümlələri sadələşdirdikdə budaq cümlə baş cümlədəki əvəzlik-qəlibin yerini tutur: Bu yer tez gələnindir.**

## III. TAMAMLIQ BUDAQ CÜMLƏSİ

*Tamamlıq budaq cümləsi* ya baş cümlənin **tamamlığı əvəzində** işlənir, yaxud da baş cümlədə işarə əvəzlikləri ilə ifadə olunan **tamamlığı izah edir**:

*Hiss edirəm* ***ki****, (nəyi?) biz qalib gələcəyik.*

**Onu** *da bilirəm* ***ki,*** *(nəyi?) işləməyən dişləməz.*

Tamamlıq budaq cümləsi daha çox baş cümlənin **feili xəbərinə**, bəzən də **ismi xəbərinə** aid olur:

*Heç onun* **ixtiyarı yoxdur** ***ki****, (nəyə?) sənə bir söz desin.* **Əminəm** ***ki****, (nəyə?) hər şey yaxşı olacaq.*

Bəzən tamamlıq **budaq cümləsi** baş cümlədən **əvvəl** gəlir və **ona bağlayıcı sözlə bağlanır:**

***Kim ki*** *çıxış edirdi, onu alqışlayırdılar.*

Tamamlıq vasitəsiz və vasitəli olduğu kimi, tamamlıq budaq cümlələri də vasitəsiz və ya vasitəli tamamlığın suallarına cavab verir.

## IV. TƏYİN BUDAQ CÜMLƏSİ

Təyin budaq cümləsi **baş cümlənin** isimlə (və ya isimləşmiş sözlərlə) ifadə olunmuş hər hansı **bir üzvünü təyin** edir və **necə?, nə cür?, hansı?** suallarından birinə cavab verir. Budaq cümlələr baş cümlədəki **elə, elə bir, o** işarə əvəzliklərini – qəlib sözləri izah edir:

Bizə **elə** döyüşçü lazımdır **ki,** qalib gəlsin.

Baş cümlədə qəlib söz işlənməyə də bilər, lakin onu bərpa etmək mümkündür:

Kitab var **ki,** oxumaq olmur.

**Elə** kitab var **ki,** oxumaq olmur.

Bəzən təyin **budaq cümləsi** baş cümlədən **əvvəl** gəlir və **ona bağlayıcı sözlə bağlanır:**

**Kimə ki** inanırsan, o adamı çağır.

## V. ZƏRFLİK BUDAQ CÜMLƏLƏRİ:

### 1) Tərzi-hərəkət budaq cümləsi

**Tərzi-hərəkət budaq cümləsi baş cümlədəki hərəkətin nə cür icra olunduğunu bildirir.**

Tərzi-hərəkət budaq cümləsi baş cümlənin feili xəbərinə aid olur, baş cümlədə işlənmiş ***elə, belə*** əvəzlik-qəliblərin mənasını izah edir və *necə?, nə cür?* suallarına cavab verir:

*Oğru **elə** çığırdı **ki,** doğrunun bağrı yarıldı.*

***Elə** oxu **ki,** hamı başa düşsün.*

Bəzən tərzi-hərəkət **budaq cümləsinin** əvvəlində ***elə bil, guya, sanki, deyəsən*** modal sözləri işlənir və müqayisə məzmunu yaradır:

*Yağış elə yağırdı ki,* **elə bil (sanki, elə bil ki) göydən yerə çay axırdı.**

Bəzən budaq cümlə baş cümlənin **ismi xəbəri ilə** əlaqələnir və **dərəcə çalarına** malik olur:

*Hava **elə** isti idi, (nə dərəcədə?) nəfəs almaq olmurdu.*

Tərzi-hərəkət budaq cümləsi bəzən baş cümlədən əvvəl gəlib, ona bağlayıcı sözlə ***(necə, nə cür, necə ki, hər necə)*** bağlanır. Baş cümlədə isə qarşılıq bildirən *elə, eləcə də, o cür sözlə*rindən biri işlənir:

***Necə** istəyirsən, **elə** də danış.*

**2) Yer budaq cümləsi**

**Yer budaq cümləsi baş cümlədəki hərəkətin yerini bildirir** və ***haraya?, harada?, haradan?*** suallarından birinə cavab verir.

Yer budaq cümləsi baş cümlədən əvvəl gəlir və baş cümləyə bəzən ***haraya (haraya ki), harada (harada ki), haradan (haradan ki),*** bəzən də **o** ***yerə ki, o yerdə ki, o yerdən ki, bir yerə ki, bir yerdə ki, bir yerdən ki*** və s. **bağlayıcı sözlərlə** bağlanır. Baş cümlədə isə qarşılıq bildirən ***oraya, orada, oradan*** sözlərindən biri işlənir (olmadıqda **bərpa etmək** olar) və budaq cümlə vasitəsilə izah olunur:

***Haraya** gedirəm, səni* **orada görürəm**.

**3) Zaman budaq cümləsi**

**Zaman budaq cümləsi baş cümlədəki hərəkət və ya əlamətin zamanını bildirir** və ***nə vaxt?, nə zaman?, haçan?*** suallarına cavab verir.

Bir sıra budaq cümlələr kimi, zaman budaq cümləsi də **baş** cümlədən həm **sonra**, həm də **əvvəl** işlənə bilir.

Zaman budaq cümləsi baş cümlədən sonra işləndikdə **baş** cümləyə ***ki*** bağlayıcısı ilə bağlanır və baş cümlədə ***o vaxt, o zaman, onda*** sözləri işlənir:

Müəllim *bu sözü* **onda (o vaxt, o zaman)** *dedi ki, şagirdlərin çoxu sinfi tərk eləmişdilər.*

Zaman budaq cümləsinin baş cümlədən əvvəl işlənən növündə budaq cümlə baş cümləyə ***o zaman ki, o gün ki, o vaxt ki, nə zaman ki, haçan ki, elə ki*** və s. **bağlayıcı sözlərlə bağla**nır və baş cümlədə qarşılıq bildirən ***onda*** sözü işlənir:

**Elə ki qış gəldi** *(nə zaman?),* **onda havalar soyuyacaq.**

**QEYD: Zaman budaq cümləsi baş cümlədən əvvəl gələrək ona *ki* bağlayıcısı ilə də bağlanır:**

*Təzəcə evdən çıxmışdı **ki**, qonaqların səsi eşidildi.*

**Zaman** budaq **cümləsi feili bağlama tərkibləri ilə sadələş**dirilir:

***Təzəcə evdən çıxanda*** *qonaqların səsi eşidildi.*

***4) Kəmiyyət budaq cümləsi***

*Kəmiyyət* **budaq** *cümləsi* baş **cümlədəki hərəkətin və ya əlamətin miqdarını bildirir,** ***nə qədər?*** sualına cavab verir.

Kəmiyyət budaq cümləsi baş cümlədən əvvəl işlənir və baş cümləyə ***nə qədər, hər nə qədər*** *kimi* **bağlayıcı sözlərlə** bağlanır. Baş cümlədə həmin sözlərə müvafiq olaraq qarşılıq bildirən ***o qədər, o qədər də, bir o qədər, bir elə*** sözləri işlənir və budaq cümlə vasitəsilə izah edilir:

*O, **nə qədər** istəmişdi, mən də* **o qədər apardım**.

Baş cümlədə qarşılıq bildirən ***o qədər*** sözü işlənmədikdə onu bərpa etmək mümkündür:

*Öz evindir, **nə qədər** istəyirsən, qal.*

*Öz evindir, **nə qədər** istəyirsən, **o qədər** qal.*

*(Öz evindir,* **istədiyin qədər** *qal.)*

**5) Səbəb *budaq cümləsi***

**Səbəb budaq cümləsi baş cümlədəki hərəkətin və ya əlamətin səbəbini bildirir, *niyə?, nə üçün?, nəyə görə?, nə səbəbə?*** suallarından birinə cavab verir.

**Xüsusiyyətləri:**

– Səbəb **budaq cümləsinin ifadə etdiyi iş** baş cümlədəki işdən **əvvələ aid** olur.

– Səbəb budaq cümləsinin xəbəri əksərən **feilin xəbər şəklində** olur.

– Səbəb budaq cümləsi **feili sifət tərkibi** və **qoşma** şəklində sadələşir.

– Səbəb budaq cümləsi baş cümlədən sonra işlənir və ona ***ki, çünki, ona görə ki, ondan ötrü ki*** bağlayıcıları ilə bağlanır. Baş cümlədə **feili xəbərə** aid olduqda **hərəkətin**, **ismi xəbərə** aid olduqda **əlamətin** səbəbini bildirir:

*Mən onu görə bilmədim,* **çünki dünən getmişdi.**

Həyat çox maraqlıdır, **çünki** qurub-yaratmaq istəyirsən.

Bəzən baş cümlədə **ona görə, ondan ötrü, o səbəbə** *qəlib* sözləri işlənir, budaq cümlə baş cümləyə **ki** bağlayıcısı ilə bağlanır:

Bakının axşamları **ona görə** *gözəldir* **ki, (nə** *üçün?)* *insanı yeni həyata səsləyir.*

***6) Məqsəd budaq cümləsi***

**Məqsəd budaq cümləsi baş cümlədəki hərəkətin məqsədini bildirir** və ***niyə?, nə üçün?, nə məqsədlə?*** suallarından birinə cavab verir.

**Xüsusiyyətləri:**

– Məqsəd **budaq cümləsinin ifadə etdiyi iş** baş cümlədəki işdən **sonraya** aid olur.

– Məqsəd budaq cümləsinin xəbəri **əmr** və ya **arzu** şəkillərində olur.

– Məqsəd budaq cümləsi **məsdər tərkibi** və **qoşma** şəklində sadələşir:

– Məqsəd budaq cümləsi baş cümlədən sonra işlənir və ona ***ki*** bağlayıcısı ilə bağlanır. Baş cümlədə məqsəd zərfliyi (qəlib söz) vəzifəsində ***ona görə, ondan ötrü*** sözləri də işlənə bilər:

*O, istirahətə **ona görə (ondan ötrü)** getdi **ki**, sağlamlığını qoruyub saxlasın.*

***QEYD:*** *M*əqsəd budaq cümləsini səbəb budaq cümləsindən ***nə məqsədlə?*** *s*ualı ilə seçmək lazımdır.

## VI. ŞƏRT BUDAQ CÜMLƏSİ

Şərt budaq cümləsi baş cümlədəki **hərəkətin şərtini** bildirir və **hansı şərtlə?** sualına cavab verir.

Şərt budaq cümləsi baş cümləyə **əgər, hərgah, madam ki, indi ki, bir halda ki** bağlayıcıları və ya **-sa, -sə** şəkilçisi ilə bağlanır:

**Əgər** yağış yağma**sa**, gedəcəyik.

Baş cümlə **əvvəl** işləndikdə onun tərkibində **bu şərtlə, o şərtlə, bir şərtlə** qəlib sözlərindən biri iştirak edir:

Sizə **o şərtlə** icazə verərəm ki, sözünüzün üstündə durasınız.

Şərt budaq cümləsi baş cümləyə yalnız intonasiya ilə də bağlanır:

Get deyir, get. İşlə deyir, işlə.

# VII. QARŞILAŞDIRMA BUDAQ CÜMLƏSİ

**Qarşılaşdırma budaq cümləli tabeli mürəkkəb cümlələrdə baş** *və* **budaq cümlədəki fikirlər bir-biri ilə qarşılaşdırılır.**

**Budaq** cümlənin bu növü baş cümlədən **əvvəl** işlənir, baş cümləyə **nə qədər** bağlayıcı sözü, həmçinin yanaşı işlənmiş **-sa, -sə** şəkilçisi və **da, də, belə** ədatları ilə bağlanır:

*Sən* **nə qədər çalışsan da, yenə azdır.**

***Da, də*** ədatı budaq cümlənin tərkibində də işlənə bilər:

*Şəhərə* ***də*** *gedibsə, tez qayıtmalıdır.*

Qarşılaşdırma budaq cümləli tabeli mürəkkəb cümlələrin başqa bir növündə budaq cümlə baş cümləyə **hərçənd, hərçənd ki, düzdür, doğrudur sözləri ilə bağlanır, qarşılaşdırma məqsədilə cümlənin əvvəlində amma, ancaq, lakin bağlayıcılarından biri işlənir: Hərçənd gecikdi, amma bunun da bir xeyri var.**

## *VASİTƏSİZ VƏ VASİTƏLİ NİTQ*

### *1. VASİTƏSİZ NİTQ*

**Başqasının eynilə işlətdiyimiz sözləri vasitəsiz nitq adlanır.**

Bu cür cümlələr iki hissədən – **müəllifin sözlərindən** və **vasitəsiz nitqdən** ibarət olur:

**müəllifin sözü (M)** **vasitəsiz nitq "V"**

*Müəllim dedi:* *"Dərsə vaxtında gəlin".*

Müəllifin sözləri çox zaman ***dedi, əmr etdi, düşündü, fikirləşdi, soruşdu*** kimi sözlərlə – **nitq feilləri** ilə bitir, daha çox **müəyyən şəxsli cümlə** şəklində formalaşır.

Yazıda vasitəsiz nitqi fərqləndirmək üçün **dırnaq işarəsindən** və ya **tiredən** istifadə edilir. Vasitəsiz nitq müəllif (avtor) təhkiyəsinə daxil olduqda **dırnaq arasına** alınır, dialoqun tərkib hissəsi olduqda, adətən, **tire** ilə verilir.

Vasitəsiz nitq beş vəziyyətdə işlənə bilər:

**a) müəllifin sözlərindən sonra**:

Qonaq dedi: "Getmək vaxtıdır". (***M: "V".)***

**b) müəllifin sözlərindən əvvəl**:

"Muzey haradadır?" –deyə qonaq soruşdu. (***"V?" – m.)***

**s) müəllif sözlərinin arasında**:

O, üzünü çevirib: "Yaxşı yol", – dedi. (**M: "V", – m.)**

**ç) müəllifin sözlərindən əvvəl və sonra**:

"Telefonu götür, – dedi, – hər şey yaxşıdır". (***"V, –m, – v".)***

**d) müəllif nitqi ilə vasitəsiz nitq ardıcıl növbələşə də bilir**:

Çamadanını götürüb: "Hər şey yaxşı olacaq, –dedi,–səbirli olun". (**M: "V, –m, –v".)**

## *2. VASİTƏLİ NİTQ*

*Başqasının nitqinin dəyişilmiş şəkildə verilməsi **vasitəli nitq** adlanır. Vasitəsiz nitq vasitəli nitqə çevrilərkən **ki** bağlayıcısından istifadə olunur, dırnaqlar və tire atılır. Bu zaman xitablara, nidalara və vasitəsiz nitq üçün zəruri olan digər əlamətləri saxlamağa ehtiyac olmur.*

*Vasitəli nitq **budaq cümlə şəklində** formalaşır və müəllif nitqindən sonra işlənir.*

## *SİTATLAR*

*Öz fikrini* ***əsaslandırmaq və ya aydınlaşdırmaq üçün*** *başqasının söylədiklərindən, yazdıqlarından gətirilən dəqiq çıxarışlar* **sitat** *adlanır. Fikrin* ***ilkin mənbəyi*** *göstərilir.*

*Əgər sitat tam şəkildə verilmirsə, ixtisar edilirsə, buraxılmış sözlərin yerinə* ***üç nöqtə*** *qoyulur.*

# DİL VƏ DİLÇİLİK

## DİL HAQQINDA ÜMUMİ MƏLUMAT

D*il ünsiyyət vasitəsidir. Dil insan cəmiyyətində meydana gəlir, ona görə də ictimai hadisə sayılır.*

*Dilin yaranması üçün insan orqanizminin fizioloji cəhətdən müəyyən şəklə – indiki vəziyyətə düşməsi vacib şərtlərdəndir.*

*Dil üçün çox vacib hesab edilən, şüurun – təfəkkürün akkumulyatoru rolunu oynayan beyinin bu biçimdə müəyyənləşməsi də bədənin şaquli quruluşu ilə bağlı olmuşdur.*

### *DİLİN FUNKSİYALARI*

*Dil orqanizmdə ikinci siqnal sisteminin nəticəsidir ki, bu da canlılardan ancaq insana aiddir. İrqi əlamətlər (üzün, saçın rəngi və forması, gözün, sifətin quruluşu və başqa zahiri antropoloji cizgilər) kimi dil irsi xarakter daşımır. Dil bioloji hadisə deyil.*

*Küçə hərəkəti qaydalarını göstərən işarələr, gəmilərdə bayraqlarla verilən siqnallar,* müxtəlif jestlər, əl-qol hərəkətləri də ünsiyyət vasitəsi hesab edilir.

**Funksiyaları:**

**1) ünsiyyət vasitəsi olmaq**

**2) əşya və hadisələri adlandırmaq**

**3) fikir ifadə etmək**

## YAZI

Yazı səsli dilin müəyyən norma ilə qavrayışını təmin edən **işarələr sistemidir**.

Yazı insanların uzaq məsafələrlə əlaqə yaratmaq, hətta **gələcək** nəsillərlə də ünsiyyət saxlamaq ehtiyacından yaranmışdır.

**Yazının növləri**:

**1) əşyəvi yazı**

**2) şəkli (piktoqrafik) yazı**

**3) fikri (ideoqrafik) yazı**

**4) hərfi (fonoqrafik) yazı** – yazının an mükəmməl, ən çevik formasıdır.

**Heca yazısı (sillabik yazı)** hərfi yazının ilk mərhələsinə aiddir: bir neçə səs bir işarə ilə verilirdi. Qədim misirlilər, assuriyalılar heca yazısından istifadə ediblər.

Dünyada ilk yazı daş, metal, ağac üstündə oyma şəklində olmuşdur.

Şəkli və fikri yazılardan bu gün də istifadə olunur. Kimya dərslərində istifadə olunan işarələr, bürclər, yol hərəkəti qaydalarını göstərən işarələr ideoqrafik yazı nümunələridir.

## DİLÇİLİK VƏ ONUN ELMLƏR İÇƏRİSİNDƏ YERİ

Dilçilik elmi **dili** tədqiq edir. Türklərin ilk ən böyük dilçisi XI əsr alimi **Mahmud Qaşğarlıdır**.

Dilçiliyin müxtəlif şöbələri var. Buna fonetika, leksikologiya, morfologiya və sintaksis aiddir. Dilçiliyin əsas sahələri isə bunlardır: **etimologiya, lüğətçilik, dialektologiya.**

### 1. Etimologiya

**M***ənşə* sözünün sinonimi kimi işlənir. Yunanca ***etimon*** (əsl, həqiqət, sözün əsas mənası) və ***logos*** (təlim, elm) hissələ-

rindən ibarətdir. Dilçiliyin bu sahəsi sözün mənşəyini, nədən törəməsini ***öyrənir. Etimologiya iki cürdür:***

**– elmi etimologiya**

**– xalq etimologiyası**

*Sözün əslini bərpa etmək, onun başqa sözlərlə və mənalarla əlaqəsini öyrənmək* ***etimoloji təhlil adlanır:***

**1) Azərbaycan. G**örkəmli türk tarixçisi **Rza Nur** bu sözü **Xəzər** tayfasının adı ilə bağlayır.

**2) Qarabağ. Bu toponim də** iki hissədən ibarətdir: **qara** və **bağ**. "**Qara" qədim** dilimizdə **"böyük"** mənasındadır, "**bağ" isə** qədim türk tayfalarından birinin adıdır.

***3) Arsak.*** *İndiki Qarabağın qədim adıdır***. B**u yer adı – toponim iki hissədən ibarətdir: **ar** və **sak. "Ər"** sözü qədim dilimizdə *igid, cəngavər, qoçaq* mənasındadır, "**sak" isə** qədim türk tayfalarından birinin adıdır.

**2. Lüğətçilik**

Dilçiliyin **təcrübi** sahələrindən biridir. Lüğətlərin **tərtib** olunma, yaranma **prinsiplərini** öyrənir. **Lüğətçiliklə (*leksikoqrafiya)*** məşğul olan mütəxəssis ***lüğətçi (leksikoqraf*)** adlanır. Məşhur **lüğətçilər:**

**XI** əsr – **Mahmud Qaşğarlı. "Divanü lüğat-it-türk"** (Türk dillərinin divanı – toplusu).

**XIII-XIV** əsrlər – **Cəmaləddin ibn Mühənna, Hinduşah Naxçıvani, Hümam Təbrizi.**

**XIX** əsr – **Mirzə Məhəmmədəli Kazım bəy.**

**XX əsrin əvvəlləri – Sultan Məcid Qənizadə, Üzeyir Hacıbəyov, Qarabəy Qarabəyov, Əliağa Şıxlinski**.

**XX əsrin 40-cı** illəri – **Heydər Hüseynovun** rəhbərliyi ilə çıxmış **"Rusca-azərbaycanca lüğət"** (4 clddə) və **Əliheydər Orucovun** müəllifliyi və redaktəsi ilə 1964–1987-ci illərdə nəşr olunmuş **"Azərbaycan dilinin izahlı lüğəti"** (4 cilddə) yaranır.

Digər lüğətlər də vardır: **tərcümə lüğətləri, izahlı lüğətlər, terminoloji lüğətlər**.

***3. Dialektologiya***

**Məhəlli** xarakter daşıyan **dil təzahürlərini**, yəni **dialekt və şivələri (regionları) öyrənən dilçilik sahəsidir**.

**Ədəbi** dildə: **gəlir, alır, görür, qurur.**

**Qazax** dia**lektində: gəler, aler, görör, quror**.

**Bədii əsərlərdə obrazların nitqini fərdiləşdirmək üçün işlədilən məhəlli sözlərə dialektizm deyilir.**

**AZƏRBAYCAN DİLİ**

**Azərbaycan dili azərbaycanlıların ana dilidir. Bu dil respublikamızda 12 noyabr 1995-ci ildə qəbul edilmiş konstitusiyada Azərbaycan dili kimi təsbit olunmuşdur. Konstitusiyanın 21-ci maddəsində yazılır:**

**"Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir".**

**TÜRK DİLLƏRİ AİLƏSİ**

Dünyada 3.500-dən çox dil var. **Bir kökdən** törəyən **dillər qohum dillər sayılır. Qohum** dillərin hamısına birlikdə **dil ailəsi deyilir**. Azərbaycan dili **türk dilləri ailəsinə** mənsubdur.

**Qədim türk dilinin qrupları: oğuz, qıpçaq, qarluq** və s.

**Oğuz qrupu: türk, Azərbaycan, türkmən, qaqauz.**

**Qıpçaq** qrupu: **qazax, qırğız, başqırd, tatar, qumuq**.

**Qarluq** qrupu: **özbək, uyğur, salar**.

Bugünkü Azərbaycan dilinin fonetik sistemi, əsas lüğət fondu və qrammatik quruluşu **ilk orta əsrlərdə (birinci minilikdə)** təşəkkül tapmışdır.

# AZƏRBAYCAN DİLİNİN MORFOLOJİ QURULUŞU

Dillərin **tipoloji bölgüsündə** sözlərin **morfoloji quruluşu** əsasdır. Dillər tipoloji baxımdan aşağıdakı qruplara bölünür:

**1) Kök (amorf) dillər** sözün kökü dəyişmir və şəkilçi yoxdur: **çin.**

**2) Flektiv** dillər həm sözün kökü içəridən dəyişir, həm də şəkilçi sözün müxtəlif yerlərində gəlir. Sözlərdə **ön şəkilçi** (prefiks), **iç şəkilçi** (infiks), **son şəkilçi** (sufiks) işlənir: **ərəb.**

**3) İltisaqi (aqlütinativ)** dillər– kök sabit qalır, şəkilçilər isə sözün kökünə artırılır: **Azərbaycan.**

Sözün **əvvəlinə şəkilçi** artırılması (**la**+qeyd, **a**+normal), sözdən şəkilçini ayırarkən **kökün məna** verməməsi (**bio**+loji, **frazeo**+logiya, **lüğə**+vi), **l,-q,-k** şəkilçilərinin olmasına bax-mayaraq, həmin sözlərin kökdən ayrıla bilməməsi (**alçal, alçaq, kiçik, kiçil**) iltisaqi prinsipdən kənara çıxır.

**İSTİSNA: na+dinc, na+kişi** (dinc və kişi milli sözlərdir).

**Dil və mədəniyyət. Dil və xalqın tarixi**

Dildə yeni terminlərin yaranması **mədəni inkişafla** bağlıdır. Mədəni səviyyənin qalxması isə ədəbi dilin **fəaliyyət dairəsini** genişləndirir və **ədəbi dil normalarını** möhkəmləndirir. Bununla da dialektin sosial işlənməsi **məhdudlaşır**. Ümumi mədəni səviyyənin inkişafı **elmin genişlənməsini** şərtləndirir.

Dilin inkişafının xalqın tarixi ilə bağlılığını iki istiqamətdə görmək mümkündür. Birincisi, qohum tayfaların birləşməsi nəticəsində bu tayfaların dili də birləşərək həmin xalqın dilinə çevrilir. Digər tərəfdən dil faktları müəyyən mədəni-tarixi hadisələrin aydınlaşmasında mühüm rol oynayır. Məsələn, **Midiyanın** aparıcı tayfasının adı ***mak*** **olmuşdur** və bu söz **qədim türkcədə ilan** mənasını **bildirir.**

# AZƏRBAYCAN DİLİNİN QURULUŞU

**Fonem anlayışı**

Sözün mənasını dəyişən səs **fonem** adlanır: *tələ-dələ, zaman-saman, dağ-sağ-çağ-bağ-tağ.*

**Dil vahidləri** iki yerə ayrılır: **müstəqil** və **qeyri-müstəqil**.

**1) Müstəqil** dil vahidləri: **söz, cümlə**.

Onlar dilin formalaşması prosesində aparıcı rol oynayır.

**2) Qeyri-müstəqil** dil vahidi: **fonem.**

Fonem müstəqil dil vahidlərinin formalaşması vasitəsi kimi çıxış edir.

**Vurğu**

Azərbaycan dilində vurğunun üç növü vardır: **heca vurğusu, məntiqi vurğu, həyəcanlı vurğu.**

**1) Heca vurğusu** – sözlərdəki hecalardan birinin digərlərinə nisbətən qüvvətli tələffüz olunmasıdır.

**2) Məntiqi vurğu** – cümlədəki sözlərdən birinin digərlərinə **nisbətən** qüvvətli **tələffüz** olunmasıdır. Məntiqi vurğulu söz, adətən, xəbərin yanında olur. Ancaq intonasiyadan istifadə etməklə məntiqi vurğulu sözün yeri dəyişə də bilər.

**3) Həyəcanlı vurğu** – hiss və həyəcanları **ifadə** etmək üçün sözün qeyri-adi **şəkildə tələffüz** olunmasıdır.

## *İntonasiya*

***İntonasiya** – nitqin ahəngi, ritmi, nitqin tempi və ya sürəti, intensivliyi, məntiqi vurğusu, tembri kimi hadisələrin məcmusundan ibarətdir. İntonasiya **modallıq** bildirir. Onun vasitəsilə **məlumat vermə, sual və əmr** intonasiyaları fərqləndirilir.*

***Xitabların, ara söz və ara cümlələrin** intonasiyası da fərqlənir.*

# NİTQ MƏDƏNİYYƏTİ

## ÜMUMİ MƏLUMAT

**Hər kəsin cəmiyyət daxilində ümumi davranış normalarına tabe olan hərəkət mədəniyyəti olduğu kimi, müəyyən normalara tabe olan danışıq – nitq mədəniyyəti də olmalıdır. Amma** nitqin gözəlliyi normalara formal əməl olunmasında deyil. Şübhəsiz, nitqin məzmunu gözəl olmalı, danışıq dinləyənlərin səviyyəsinə uyğun gəlməli, anlaşılmalıdır. Danışan şəxs intonasiyasını yerli-yerində dəyişməklə diqqəti cəlb edib, dinləyənləri darıxmağa qoymursa, bu, **nitqin gözəlliyidir**.

**"Mədəniyyət"** sözü ərəbcə **şəhər** mənası verən "**mədinə"** sözündəndir. Maraqlıdır ki, bəzən **"ədəbi dil"** əvəzinə **"mədəni dil", "mədəniyyət dili"** ifadələri də işlədilir.

**Nitq mədəniyyəti milli mədəniyyətin tərkib hissəsidir. Gözəl nitq** üçün ilk növbədə aşağıdakılar tələb olunur:

**1) dilin özünün səlisliyi, ifadə imkanlarının genişliyi;**

**2)həmin dildən istifadə edənlərin hazırlığı,** yəni dilin səlisliyindən, ifadə imkanlarının genişliyindən düzgün faydalanmaq vərdişlərinin olması.

**Xalq** ümumən milli mədəniyyətin, o cümlədən də nitq mədəniyyətinin qoruyucusu, daşıyıcısıdır.

### Nitqin düzgünlüyü, dəqiqliyi və ifadəliliyi

Nitq mədəniyyətinin əsas şərtləri:

***1) düzgünlük*** – dilin fonetik, leksik, qrammatik qayda-qanunları pozulmaması.

***2) dəqiqlik*** – fikrin ifadəsi üçün bilavasitə **tələb olunan dil vasitəsinin –** sözün, ifadənin, cümlənin tapılması.

***3) ifadəlik*** *– ən müvafiq,* ***üslubi baxımdan ən uğurlu dil vasitəsini*** *tapıb işlətmək.*

Nitqin düzgünlüyü hamıdan tələb olunur, nitqin dəqiqliyinə də hamı çalışmalıdır, nitqin ifadəliliyi isə, ilk növbədə, yazıçılara, şairlərə məxsusdur.

Nitq mədəniyyətinin həm ümumi (ictimai), həm də xüsusi (fərdi) məsələləri vardır:

**1) Ümumi (ictimai) məsələlər**: nitqin düzgünlüyü bütövlükdə cəmiyyətdən tələb olunur, yəni dilin qayda-qanunlarına hamı eyni dərəcədə riayət etməlidir.

**2) Xüsusi (fərdi) məsələlər:** hamı eyni cür dəqiq danışıb yazmır, yaxud hamının nitqi gözəl (ifadəli) deyil.

**Dil, nitq və nitq fəaliyyəti**

**Dil – ünsiyyət vasitəsi** olub, mücərrəd işarələr sistemindən ibarətdir. **Nitq – ünsiyyət prosesidir**.

Dil **əsasdır**, nitq ondan **törəmədir**.

Dil tarixən çox **az dəyişikliklərə** uğrayır. Nitq isə ona **nisbətən dəyişkəndir**.

**Nitq fəaliyyət** – nitqin təzahürü üçün lazım olan **ictimai, psixoloji və fizioloji** aktların sistemidir.

## ƏDƏBİ DİLİNİN NORMALARI

**Ədəbi dil** xalq dilinin ciddi **fonetik, leksik, morfoloji və sintaktik normaları** əsasında fəaliyyət göstərən formasıdır, yəni xalq dilinin **cilalanmış** təzahürüdür. Bu cəhətdən ədəbi dil **dialektə qarşı** durur və ondan fərqlənir. Ədəbi dil bütün **üslubların sistemidir**.

Ədəbi dilin **yazılı** və **şifahi** formaları var.

Müasir Azərbaycan ədəbi dilinin normaları mükəmməl, sabit normalara malikdir. Həmin normalar müəyyən **tarixi təkamülün** məhsuludur. Bu cür normalılıq (normativlik) ədəbi **dilin**

**nisbi sabitliyindən, əhatəliliyindən və dilin daxili quruluşunu** əks etdirməsindən irəli gəlir.

**Dilin daxili quruluşunu onun fonetikası, leksikası (lüğət tərkibi) və qrammatikası təşkil edir**. Müasir Azərbaycan ədəbi dilinin normaları da buna uyğundur:

**1) fonetik** norma ***(orfoqrafik və orfoepik).***

**2) leksik**, yaxud leksik-semantik norma.

**3) qrammatik** norma.

**Fonetik norma**

**Sözün ədəbi dildəki yazılış qaydası orfoqrafik norma, tələffüz qaydası isə orfoepik norma adlanır.**

**Fonetik normada dəyişmə gec olur. Orfoepik və orfoqrafik normanın pozulması fonetik normanın pozulması deməkdir.**

**Leksik norma**

Leksik norma hər bir şəxsdən **sözün mənasına bələd olmağı**, onu **düzgün, yerində işlətməyi** tələb edir.

Leksik (leksik-semantik) normanın keyfiyyətini **milli leksika** müəyyən edir. Alınma sözlərin forma və məzmunca milliləşməsi həmin leksik mühitdə gedir. Fonetik və qrammatik norma ilə müqayisədə leksik normada **dəyişkənlik daha tez** olur.

**Milli leksika** (əsl türk sözləri) ədəbi dildə alınma sözlərlə müqayisədə **daha fəaldır**, yüksək işlənmə tezliyinə malikdir**. İkinci yeri milliləşmiş alınma leksika** tutur.

Ədəbi dildə **söyüşlərə, kobud və loru** sözlərə **yer verilmir.**

**Dilimizdə özləşmə meyilləri**

**Özləşmə** deyəndə alınma sözlərin yerində **millisini işlətmə** meyli nəzərdə tutulur. Dilimizdə XX əsrin **60-cı illərindən başlayaraq** özləşmə meyilləri müşahidə olunur.

Özləşmə hər cür yeni söz yaradıcılığı demək deyil. Bu proses daha çox **mövcud alınma sözlərin işlədilməsi əleyhinə yönəlir** və məhz həmin sözlər üçün qarşılıq tapmaq cəhdindən ibarət olur.

Özləşmə üç yolla gedir:

**1)** hər hansı yazıçının **qədim mənbələrdən, xalq dilindən söz** götürməsi və ya mövcud oxşarlıq əsasında söz yaratması yolu ilə;

**2)** cəmiyyətin özündə müəyyən hadisə ilə bağlı **"söz partlayışı"** yolu ilə;

**3) türk dillərinin təsiri ilə**

Vaxtilə ***qurultay, bildiriş, görüntü, seçki, ildönümü*** *kimi sözlərin yaranması* türkləşdirilmə prosesi ilə bağlı olmuşdur. Son zamanlar isə leksik vahidlər öz qeyri-türk mənşəli qarşılıqları ilə paralel işlənir və həmin sözlərin sinonimlik imkanlarını artırır:

***duracaq, əyləc*** (tormoz),
***saxlanc*** (maliyyə termini kimi),
***dönəm*** (mərhələ), ***çağdaş*** (müasir), ***durum*** (vəziyyət),
***yüzillik*** (əsr), ***qaynaq*** (mənbə),
***özəlləşmə*** (xüsusiləşmə), ***soyqırım*** *(genosid)*
***nəfəslik*** *(fortuçka)*, ***açıqca*** (otkrıtka),
***bölgə*** (ərazi), ***çimərlik…***

Dili tərk etmiş bir sıra türk mənşəli sözlərin yenidən qayıtması da (bunlara **dirilən sözlər** deyilir) özləşmə prosesinin təsiri ilə baş verir: ***çavuş, yarlıq, ulu, ulus, dürlü, araşdırma***.

**Qrammatik norma**

Qrammatik norma **sözlərin düzgün əlaqələndirilməsi**dir:

**1) Miqdar saylarından sonra** gələn isimlər **təkdə** işlədilir: *üç adam, beş şagird (üç adamlar, beş şagirdlər* demək yanlışdır). Belə halda qrammatik norma pozulur.

**2) Adlara** (isim, sifət, say və s.) **kəmiyyət, mənsubiyyət, hal, xəbər kateqoriyasının əlaməti (şəkilçisi)** ardıcıl artırılır: *şagird-lər-iniz-in-dir; dost-lar-ınız-dan-am;*

***3)*** **Feil** kökünə **təsirlilik, növ, şəkil, şəxs-xəbər əlaməti (şəkilçisi)** ardıcıl artırılır: *gül-dür-ül-məli-dir; (gərək) yaz-ış-a-q;*

*Onlar tez-tez bizə gələrlərdi* – cümləsində **qrammatik norma pozulub**. Çünki **idi** hissəciyinin şəkilçiləşmiş variantı olan -di sırasını pozub. Bu şəkilçi **-lar**[2] şəkilçisindən əvvəl gəlməli idi.

**4) Mübtəda ilə xəbər** cümlədə **şəxsə**, müəyyən dərəcədə isə **kəmiyyətə** görə uzlaşır; *Sən müəllim-sən; Onlar şagird-dir-lər;*

5) **C**ümlədə əvvəl **mübtəda**, sonra **tamamlıq**, daha sonra **xəbər** gəlir; **təyin** təyin olunan cümlə üzvünün önündə işlənir; **zərflik**, əsasən, xəbərdən əvvələ düşür.

**Nitq normalarının tarixiliyi**

Norma **tarixi kateqoriyadır**. Məsələn, XX əsrin 30-cu illərinə qədər Azərbaycan ədəbi dilinin fonetikasında **sağır nun** adlı bir səs var idi, əlifbada xüsusi hərflə göstərilirdi: **(Ң)**. Bu səs XX əsrin 30-cu illərindən sonra **fonetik normativliyini itirdi**.

Yaxud bir neçə il bundan əvvəl ədəbi dildə fəal işlənən ***sosializm, kommunizm, kolxoz, sovxoz*** və s. kimi sözlər artıq fəal nitq prosesindən çıxmışdır.

**Nitq istisnaları**

Ədəbi dilə aid müəyyən istisnalar da mövcuddur:

**1) öz dövrünü keçirmiş nitq vahidləri** üslublarda "**ilişib**" qalır;

**2) yeni nitq vahidləri** bir müddət **normativləşmir**.

## NATİQLİK SƏNƏTİ

**Natiq** nitq mədəniyyətinin əsas şərtlərinə – **düzgünlüyə, dəqiqliyə və ifadəliliyə** əməl edən **şəxsdir**.

Natiqlik sənətinin **əsas tələbləri** aşağıdakılardır:

**1) Düzgün, dəqiq və gözəl** (ifadəli) danışmaq;

**2)**Auditoriyanın səviyyəsini, xarakterini nəzərə almaq, **auditoriya üçün anlaşıqlı olmaq**;

**3)Nitqin intonasiyasına, ritminə fikir vermək** və onlara uyğun bədən, baş və əl-qol hərəkətləri etmək;

**4) Mümkün qədər yığcam danışmaq**, mətləbdən uzaqlaşaraq dinləyiciləri yormamaq;

**5) Nitqə (çıxışa, mühazirəyə və s.) əvvəlcədən hazırlaşmaq**, sonra isə təhlil edib konkret nəticələr çıxarmaq.

Natiqlik həm bir **sənət**, həm də bir **elm** kimi lap çoxdan formalaşmışdır. Natiqlik elminə **ritorika** da deyilir və natiqliyin aşağıdakı sahələri mövcuddur:

**1) bədii natiqlik**

**2) akademik natiqlik**

**3) siyasi natiqlik**

**4) inzibati-idarə natiqliyi**

**5) işgüzar natiqlik.**

Natiqlik sənətinin mühüm şərtlərindən biri **əl-qol hərəkətlərindən** – **"jestlərdən"** istifadə etməkdir. Jestlər nitqin təsirliliyini artırır, ona emosionallıq verir.

Bütün natiqlərin eyni jest sistemindən faydalanması mümkün deyil. Adətən, hər bir natiqin özünəməxsus jest üslubu olur.

## NİTQ ETİKETLƏRİ

Hər bir xalqın öz milli təfəkkürünə, etnoqrafiyasına uyğun olaraq, **müraciət, görüşmə, ayrılma, təbrik** və s. formaları, ifadələri olur ki, onlara **nitq etiketləri,** yaxud **nitq yarlıqları** deyilir.

**1) Müraciət etiketləri**

***Xanım! Cənab! Müəllim! Oğlum! Qızım! Əmi! Dayı! A bala! Qardaşoğlu! Bacıoğlu! Qardaş! Əzizim! Qadası! Dərdin alım! Başına dönüm!***

Müsahib yaşca böyük olduqda, yaxud ortada tanışlıq olmadıqda ona **"siz"** deyə müraciət olunur.

Müraciət etiketləri **iki yerə** ayrılır:

– **rəsmi** müraciət: ***Cənab prezident! Vətəndaş hakim!***

– **qeyri-rəsmi** müraciət: ***Oğlum! Qadan alım!***

**2) Görüşmə etiketləri**

**Salam! Salam-əleyküm! Əleyküm-salam! Xoş gördük!**

**Gün aydın! Sabahınız xeyir! Axşamınız xeyir! Xoş gəlmişsiniz!**

**3) Ayrılma etiketləri**

**Xudahafiz! Əlvida! Salamat qalın! Sağ olun! Allah amanında! Gecəniz xeyrə qalsın! Xeyrə qənşər (qabaq, doğru) gedin! Uğur olsun! Yaxşı yol! Görüşənə qədər!**

**4) Təbrik etiketləri**

**Təbrik edirəm! Gözünüz aydın! Mübarəkdir!**
**Mübarək olsun!** (hamısının cavabında: **Sağ olun!**)

**5) Alqışlar**

**Allah sizə kömək olsun! Yastığınız yüngül olsun! Allah rəhmət eləsin! Görüm neylim, necə eliyim deməyəsiniz!..**

**6) Qarğışlar**

**Allah öldürsün! Allah evini yıxsın! Gözün tökülsün!..**

**7) Söyüşlər**

**Səni yerə soxum! Üzünə tüpürüm!..**

**QEYD:** Son illərə qədər fəal işlənən ***Yoldaş! Vətəndaş!*** Müraciət formaları artıq **qeyri-fəaldır**. Halbuki son illərə qədər, demək olar ki, işlənməyən ***cənab*** sözü artıq **geniş miqyasda** yayılmışdır.

# ÜSLUBİYYAT

Dilin üslublarını öyrənən elmə üslubiyyat deyilir. Üslubiyyatın əsas vahidi üslubdur. Üslub üslubiyyatdan geniş anlayışdır. "Üslub" dedikdə dil vasitələrindən məqsədyönlü istifadə üsulu, forması nəzərdə tutulur.

Dil vahidlərindən məqsədyönlü istifadə iki baxımdan özünü göstərir: fərdi və ümumi (funksional).

## 1. FƏRDİ ÜSLUB

Fərdi üslub xüsusi, yaxud şəxsi baxımdan özünü göstərir.

Hər hansı bir fərdin şifahi, yaxud yazılı nitqində özünəməxsus xüsusiyyətlər mövcuddur. Həmin xüsusiyyətlər bütövlükdə fərdi üslubu təşkil edir.

Fərdi üslub ayrıca fərdin, sənətkarın nitqidir və funksional üslublarının çoxunda özünü göstərir. Ən qabarıq ifadəsi isə bədii üslubdadır. Bədii üslub, bir qayda olaraq, fərdin – müəllifin keçirdiyi ovqatın, emosiyaların təzahürü olduğundan fərdilik burada daha güclü şəkildə meydana çıxır.

Fərdi üslub funksional üslublardan fərqli olaraq, xüsusi səciyyə daşıyır və əsasən bir şəxsə (müəllifə) aiddir: Füzuli üslubu, Vaqif üslubu, Səməd Vurğun üslubu və s. Bəzən bu və ya digər dil xüsusiyyətlərini ümumilikdə daşıyan bir neçə şəxs (müəllif) də eyni bir üsluba aid olur: mollanəsrəddinçilərin üslubu, füyuzatçıların üslubu. Bu baxımdan "üslubiyyat" ancaq dilçilik anlayışıdır, "üslub" isə daha geniş məzmuna malikdir: buna bəzən "dəstxət", "yol" və s. də deyilir.

Elmi, publisistik üslublarda və məişət üslubunda da nitq fərdiliyi öz əksini tapır, ancaq bu bədii üslubdakı qədər güclü deyil. Rəsmi-işgüzar üslubda isə fərdilik, demək olar ki, yoxdur.

## 2. FUNKSİONAL ÜSLUBLAR

Funksional üslublar ümumi, yaxud ictimai baxımdan özünü göstərir.

Funksional üslublar milli ictimai təfəkkürün müxtəlif sahələrini əks etdirir və bu üslublar birlikdə ədəbi dili təşkil edir. Ədəbi dilin fonetik, leksik və qrammatik normaları onun funksional üslublarının hər biri üçün məcburidir.

Hər dildə bir-birini tamamlayan iki tendensiya mövcuddur:

1) İctimai təfəkkürdə diferensiasiya – funksional üslubların bir-birindən daha çox fərqlənməsinə təkan verir.

2) İctimai təfəkkürdə inteqrasiya – funksional üslubların bir-birinə yaxınlaşmasına təsir göstərir.

## AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN ÜSLUBLARI

Azərbaycan ədəbi dili inkişaf etmiş funksional üslublar sisteminə malikdir. Həmin üslublar aşağıdakılardır:

1) Bədii üslub.
2) Elmi üslub.
3) Publisistik üslub.
4) Məişət üslubu.
5) Rəsmi-işgüzar üslub.

## 1. BƏDİİ ÜSLUB

Bədii üslub – milli bədii təfəkkürün ifadəsidir.

Əsas xüsusiyyətləri bunlardır: obrazlılıq, emosionallıq.

Funksional imkanlarının genişliyinə görə bədii üslub bir sıra hallarda ümumən ədəbi-bədii dil adlandırılır.

Obrazlılıq bütöv bir hadisədir. Emosionallıq (yaxud ekspressivlik), hər şeydən əvvəl, obrazlılıqdan irəli gəlir, obrazlı nitq, eyni zamanda emosional (və ya ekspressiv) nitqdir.

Obrazlılığın aşağıdakı göstəriciləri vardır:

1) fonetik səviyyədə:

– **alliterasiya** – sözlərin əvvəlində eyni səslərin gəlməsi;

–**assonans** – sözlərin müxtəlif hissələrində uyğun səslərin melodiya yaratması;

– **intonasiya;**

– **təkrar.**

**2) leksik** səviyyədə:

**a) məcazın müxtəlif növləri;**

– **epitet** bədii təyindir: **dəmir iradə**

– **təşbeh** bənzətmədir. Onun iki forması vardır:

*Müfəssəl – kimi, tək, elə bil, sanki sözləri ilə düzəlir:

O, quş kimi uçur.

*Mükəmməl – heç bir qrammatik əlamət olmadan düzəlir:

**Boyun sürahıdır, bədənin büllur.**

– **mübaliğə** – şişirtmə: **Necəsən, bir ah çəkim,**
**Kür quruya, sal yana.**

– **istiarə** – metafora (köçürmə): **Dağlar yuyunur.**

– **kinayə** – sözün zahirən müsbət mənada deyilib, ancaq əslində mənfi məna bildirməsidir. İki növü vardır:

*Yumorlu kinayə: Ə, bu lap əjdahadır ki (qorxaq haqqında).

*Satirik kinayə: **Millətin dərdini çəkməkdən çöpə dönüb** (millətə canı yanmayan haqqında).

**b) frazeologiya, omonimlik, sinonimlik, antonimlik və s.**

**3) qrammatik** səviyyədə:

– **inversiya** – söz sırasının dəyişməsi (xəbərin qəsdən əvvələ keçirilməsi)**: Darayır saçlarını gün.**

– **qeyri-normativ cümlə konstruksiyalarının işlənməsi:** Hamı şəhərə getdi, bacımdan başqa.

– **ellipsis –** ixtisar: Yazıçı və şairlərin əsərləri.

**Bədii üslub** aşağıdakı **formalarda** təzahür edir:

**1) şeir dili** – aydın seçilən ahəngə, ölçüyə, bölgüyə malik, qafiyələnən dildir;

**2) nəsr dili** – müəyyən süjetə malik təhkiyənin – hekayənin, povestin, romanın… dilidir;

**3) dramaturgiya dili** – monoloq və dialoqlardan ibarət səhnə dilidir.

### Sözün poetik funksiyası

Sözün bədii üslubdakı əsas işinə, vəzifəsinə poetik funksiya deyilir. Mətndə bilavasitə poetik funksiya daşıyan söz, yaxud ifadə poetizmdir.

Poetizm – bədii sözdür.

Bədii söz, əsasən, məcazi mənada işlənmiş sözdür.

Sözlə bütöv bir sənət sahəsi yaranmışdır ki, bunu ədəbiyyat adlandırırıq.

## 2. ELMİ ÜSLUB

Elmi üslub elmi təfəkkürün ifadəsi olub, bu və ya digər elm sahəsinin dilidir.

Əsas xüsusiyyətləri bunlardır:

məntiqlilik, ardıcıllıq, konkretlik.

Monoqrafiyaların, dərsliklərin, elmi məqalələrin dili elmi üsluba aiddir.

Elmi üslubda ancaq bu üslub üçün xarakterik olan elə sözlər işlənir ki, onlara termin deyilir. Hər elmin özünəməxsus terminləri vardır.

Elmi üslubda mürəkkəb cümlələr, modallıq bildirən söz və ifadələr çox işlənir. Elmi üslubda fikri daha yığcam, daha

konkret ifadə etmək üçün müxtəlif qrafik vasitələrindən (rəqəm, diaqram, düstur və s.) istifadə olunur.

Elmi üslubda sözlər, ifadələr, cümlələr müəyyən anlayışları, hökmləri birmənalı şəkildə ifadə edir, çoxmənalılığa, mətnaltı mənaya, fikrin müxtəlif cür anlaşılmasına yol verilmir.

## Sözün terminoloji funksiyaları (Termin)

Sözün elmi üslubdakı əsas işinə, vəzifəsinə onun terminoloji funksiyası deyilir. Mətndə bilavasitə terminoloji funksiya daşıyan söz, yaxud ifadə termindir.

Elmi üslubu isə terminsiz təsəvvür etmək olmaz.

**Termin:**

–müəyyən elm sahəsinə aid olub, həmin elmin mütəxəssislərinə məlumdur;

– müxtəlif məna çalarlarına malik deyil, məhz bir anlayışı ifadə edir;

– formaca yığcamdır, rahatdır.

Elmi terminlər, adətən, beynəlmiləl olur. Beləliklə, elmin dili getdikcə daha çox beynəlmiləlləşir ki, bu özünü aşağıdakı sahələrdə göstərir:

1) elmi üslubda beynəlmiləl terminlər milli terminləri sıxışdırır;

2) elmi üslub get-gedə daha çox formullara, şərti işarələrə, hamı üçün anlaşıqlı digər vasitələrə meyil edir;

3) elmi araşdırmaların nəticələrinin daha çox elan edildiyi dillər (ingilis, alman, fransız, rus) müəyyənləşir.

Bütün elmləri üç yerə ayırmaq olar:

1) humanitar elmlər: fəlsəfə, tarix, filologiya, psixologiya

2) təbiət elmləri: biologiya, coğrafiya, tibb

3) texniki elmlər: riyaziyyat, fizika, kimya

## 3. PUBLİSİSTİK ÜSLUB

Publisistik üslub milli ictimai təfəkkürü ifadə edən nitq forması olub, mətbuatda funksionallaşır, müxtəlif mövqe və maraqları əks etdirir.

Əsas xüsusiyyətləri bunlardır: aydınlıq, kütləvi anlaşıqlılıq, təsirlilik. Burada mücərrəd obrazlılığa, ağır terminologiyaya yer verilmir.

Qəzetlərin, kütləvi jurnalların, radionun, televiziyanın, elmi-kütləvi kitabların və s. dili publisistik üsluba aiddir. "Publisistik üslub" ifadəsi ilə yanaşı, bəzən "mətbuat dili" ifadəsi də işlənir. Həmçinin "qəzet dili", "radio dili", "televiziya dili", "elmi-kütləvi dil" ifadələrindən də istifadə olunur.

Publisistik üslubun iki forması vardır: yazılı və şifahi.

1) Yazılı forması – qəzetlərin, kütləvi jurnalların, elmi-kütləvi kitabların dili.

2) Şifahi forması – radio dili, televiziya dili, eləcə də kütləvi yığıncaqlarda, mitinqlərdə səslənən dil.

Publisistik üslubun şifahi forması ilə yazılı forması bir-birindən o qədər də fərqlənmir.

Publisistik üslub çox müxtəlif emosiyaları ifadə edir. Burada həm qəzəbli, əsəbi, həm sakit, təmkinli, həm təsviri, həm də analitik dilə təsadüf olunur.

Publisistik üslub xalq dilinə çox yaxındır: ümumxalq dilində gedən proseslər publisistik üsluba, publisistik üslubda gedən proseslər ümumxalq dilinə təsir edir.

Publisistik üslub ən ictimai nitq forması olduğuna görə digər funksional üslubların bir sıra əlamətlərini də daşıyır. Nəticədə publisistik üslubun aşağıdakı növləri meydana çıxır:

1)Bədii-publisistik dil – müəyyən qədər obrazlı nitq formasıdır, burada bədii ifadə vasitələrinə (məcazlara) təsadüf edilir (oçerk və felyeton janrları).

2) Elmi-publisistik dil – müxtəlif elm sahələrinə, siyasətə və dinə həsr olunmuş publisistik məqalələrin, kitabların dili.

3) Rəsmi-publisistik dil – publisist məzmun daşıyan bu və ya digər rəsmi, yaxud işgüzar sənədin dilidir.

## 4. MƏİŞƏT ÜSLUBU

Məişət insanların gündəlik yaşayışı, ümumi həyat tərzi, vərdiş olunmuş davranışıdır. Deməli, məişət üslubu insanların məişətdəki danışıq tərzini, şəxslərin ailədəki, istehsalatdakı ünsiyyət dilini əhatə edir. Məişət üslubunun konkret səciyyələndirici dil göstəricisi yoxdur.

Əsas xüsusiyyətləri bunlardır: təbiilik, sərbəstlik və adi, sadə danışıq dili.

Məişət üslubu ədəbi dilin sərbəst və şifahi nümunəsi, həmçinin ən geniş yayılmış üslubudur.

Yazısında bir şəxs bədii üslubun, ikincisi elmi üslubun, üçüncüsü publisistik üslubun nümayəndəsi ola bilər. Amma şifahi nitqdə hər üçü məişət üslubundan istifadə edir. Deməli, müxtəlif üslubların nümayəndələri bir məqamda birləşirlər.

## 5. RƏSMİ-İŞGÜZAR ÜSLUB

Rəsmi-işgüzar üslub rəsmi və işgüzar sənədlərin dil təzahürüdür.

Əsas xüsusiyyətləri bunlardır: standart formalar və olduqca yığcamlıq. Burada artıq sözlər, obrazlı ifadələr işlədilmir, fərdi nitq ünsürlərindən qaçılır.

Bu və ya digər dilin dövlət dili olması, dövlətin həmin dilin rəsmi-işgüzar üslubuna münasibəti ilə müəyyən edilir.

Rəsmi-işgüzar üslubun lüğət tərkibi nə qədər yığcam, sintaksisi nə qədər məhduddursa, normalılığı o qədər möhkəmdir. Tarixən müəyyən standartlaşmış formalar vardır ki, üslub ondan kənara çıxmır. Buna görə də rəsmi-işgüzar üslubda

arxaik leksika və əski sintaktik konstruksiyalar uzun zaman mühafizə olunur. Rəsmi sənədlərin dili də işgüzar sənədlərin dilindən fərqlənir:

1) Rəsmi sənədlərin dili – dövlət, yaxud hökumət təşkilatlarının tərtib etdiyi və xüsusi qaydada (rəsmi şəxsin imzası, möhür və s. ilə) təsdiq olunan sənədlər nəzərdə tutulur.

Rəsmi sənədlər bunlardır: Konstitusiya, qanunlar, qərarlar, fərmanlar, sərəncamlar, nazirlərin əmrləri. Rəsmi sənədləri mütəxəssislər hazırlayırlar. Həmin sənədlər mühüm hüquqi məzmuna malik olub, eyni zamanda, tarixi əhəmiyyət daşıyır.

Rəsmi sənədlərdə dilin maksimum mükəmməlliyi gözlənilir, fikrin aydınlığına, birmənalılığına, hüquqi əsaslılığına xüsusi diqqət yetirilir, dil yığcamlığı əsas şərtdir.

2) İşgüzar sənədlərin dili – bu sənədlər xüsusi dövlət əhəmiyyəti daşımır, konkret məsələ ilə bağlı tərtib edilir.

İşgüzar sənədlər bunlardır: ərizə, tərcümeyi-hal, izahat, elan, bildiriş, reklam, anons, afişa, arayış, protokol, rəy, teleqram, annotasiya, akt, teleqram.

İşgüzar sənədlər həcmcə, adətən, rəsmi sənədlərə nisbətən kiçik olur və onlarda bəhs olunan məsələ barəsində daha konkret, daha aydın məlumat verilməsi, həmçinin imla xətalarının olmaması bu cür sənədlərin mükəmməlliyini, yararlılığını müəyyən edir.

İşgüzar sənədlərin hazır formaları olur ki, bu və ya digər məsələ ilə bağlı göstəricilər həmin hazır formalara yazılır. Bu ona görə vacibdir ki, sənəddə artıq sözlər, ifadələr işlədilməsin, imla xətalarına, cümlə qüsurlarına yol verilməsin.

Sənədlərin savadlılıq dərəcəsi cəmiyyətin mədəni səviyyəsini göstərir.

## Sənəd dilində ifadələr

Rəsmi və işgüzar sənədlərin dilində ifadə qəlibləri – şablonlar əsas yer tutur. Ancaq bəzən rəsmi sənədlərdə, məsələn, bəyanatlarda, manifestlərdə obrazlılıq da olur. Bəzən sual və nida cümlələrinə də geniş yer verilir.

Məktublar da rəsmi yazışma dilində yaranır. Siyasi xadimlərin, dövlət nümayəndələrinin bir-birinə məktublarında sənəd dili ölçüsü tam gözlənilir. Qeyri-rəsmi şəxslərin, qohumların, ailə üzvlərinin məktublarında yalnız başlanğıc və sonluqda rəsmi üsluba məxsus qəlib ifadələr özünü göstərir.

Məktub forması rəsmi üslubun ən sərbəst formasıdır.

Yazıçının, alimin, dövlət xadiminin tərcümeyi-halı elmi və publisist üslublarda yazılır. Buna elmi tərcümeyi-hal deyilir.

## Üslubların ayrılma və birləşmə xüsusiyyətləri

Ədəbi dilin ilk, qədim yaradılışı dövründə bugünkü qədər üslublar olmayıb. Ümumiyyətlə, qədim dövrlərdə indi müstəqil elm sahələri kimi tanıdığımız riyaziyyat, təbabət, dilçilik, estetika və s. bir elmin – fəlsəfə elminin tərkib hissələri olmuşdur.

Elmlərin tarixi inkişafı onların müxtəlif sahələrinin yenidən yaxınlaşmasına, hətta birləşib yeni elm formalaşdırmasına gətirib çıxarır. Məsələn, biologiya və kimya elmlərinin tədqiqləri üstündə duran biokimya, biologiya və fizikaya əsaslanan biofizika elmləri var; yaxud dilçilik elminin riyazi dilçilik adlanan bir sahəsi mövcuddur ki, onunla məşğul olan mütəxəssis həm dilçiliyi, həm də riyaziyyatı bilməlidir.

Göründüyü kimi, bir qoldan müxtəlif elm sahələrinin ayrılması (diferensiasiya) və müxtəlif elm sahələrinin bir-birinə yaxınlaşması (inteqrasiya) tarixin müxtəlif mərhələlərində təkrar olunan proseslərdir.

Son dövrlərdə elmi üslubun xüsusi bir qolu – bədii və publisistik dilin müştərək şəkildə iştirak etdiyi qolu fəaliyyət

göstərir. Bu, savadlanmanın kütləviləşməsi ilə bağlıdır. Elmi məlumatın kütləvi dillə ifadəsi həm geniş oxucu kütləsi, həm də müxtəlif elm sahələrində çalışanların özləri üçün son dərəcə zəruridir. Beləliklə, elmin müxtəlif sahələrinə aid biliklər bir qədər obrazlılıqla, bir qədər publisistikliklə sadələşdirilir. Bu ifadə tərzinə elmi-kütləvi dil deyilir.

## ƏMƏLİ YAZI NÜMUNƏLƏRİ

(ərizə, tərcümeyi-hal, izahat, elan, bildiriş, reklam, anons, afişa, arayış, protokol, rəy, teleqram, annotasiya, akt, məktub, etiket).

### 1. Ərizə

Ərəbcə "ərz" sözündən olub müraciət, ərz etmək mənasını verir. Bəzən rəsmi şəkildə yazılan müraciət də ərizə hesab edilir, lakin bu müraciət müəyyən formaya malikdir.

Ərizənin məzmuna görə iki növü vardır:

1) Şikayət xarakteri daşıyan ərizə.
2) Xahiş məqsədilə yazılan ərizə.

**Ərizəyə verilən tələblər:**

1) Kimə və kim tərəfindən yazılır.
2) Məzmun qısa, faktlar konkret olmalıdır.
3) Ərizəçinin öz xətti ilə yazılmalıdır.
4) Sonda imza və tarix: il, ay, gün göstərilməlidir.

### 2. Tərcümeyi-hal

Ali və orta ixtisas məktəblərinə daxil olarkən, işə girərkən, müəyyən bir təşkilata üzv olarkən, rəhbər vəzifəyə çəkilərkən, mükafata təqdim olunarkən yazılır.

**Tərcümeyi-hala verilən tələblər:**

1) Şəxsin doğulduğu il, ay, gün, yer dəqiq göstərilir.
2) Faktlar ardıcıl sadalanmalıdır.

3) Şəxsin öz xətti ilə yazılmalıdır.
4) Sonda imza və tarix göstərilməlidir.

**3. İzahat**

Ərəbcədir, "izah" sözünün cəmidir və müəyyən hərəkəti aydınlaşdırma mənasını verir. Yazılı və şifahi, sadə və müfəssəl olur.

**İzahata verilən tələblər:**

1) Kimə və kim tərəfindən yazılır.
2) Məzmunu aydın olmalıdır.
3) Şəxsin öz xətti ilə yazılmalıdır.
4) Sonda imza və tarix: il, ay, gün göstərilməlidir.

**4. Elan**

Elan çap olunmuş xəbər mənasını bildirir. Müəyyən məlumatın əvvəlcədən çatdırılması nəzərdə tutulur.

**Elana verilən tələblər:**

1)Məzmunu aydın qeyd olunmalıdır.
2)Vaxtı dəqiq göstərilməlidir.
3)Tədbirin keçiriləcəyi yer yazılmalıdır.
4)Tədbirin təşkilatçısı qeyd olunmalıdır.

Elanın aşağıdakı növləri vardır: bildiriş, reklam, afişa, anons.

1) Bildiriş – əsl Azərbaycan sözüdür: bir məsələ barədə əvvəlcədən verilən xəbərdir.

2) Reklam – latıncadır: qışqırmaq mənasını verir.

3) Afişa – fransızcadır: tamaşa, konsert, idman yarışı haqqında elan deməkdir.

4) Anons – fransızcadır: müəyyən bir məsələ ilə bağlı radioda, televiziyada və mətbuatda əvvəlcədən veriən elandır.

**5. Arayış**

Arayış əsl Azərbaycan sözüdür. Hər hansı bir şəxsin kimliyini təsdiq etmək üçün müəyyən bir təşkilat tərəfindən verilir.

Məzmununa görə sadə (şəxsə aiddir) və mürəkkəb (təşkilatlara aiddir) olur.

**Arayışa verilən tələblər:**

1) "Arayış" sözü vərəqin ortasında yuxarıda yazılır.

2) Aşağıda sol tərəfdə ştamp üçün yer buraxılır, sağ tərəfdə isə şəxs haqqında əsas məlumat verilir.

3) Təqdim olunduğu yer göstərilir.

4) Sonda imza və möhür olur.

**6. Protokol**

Protokol yunancadır, "protok" ilk vərəq, "kolos" isə yapışdırmaq deməkdir. İkiyə qədər (az) məsələni əks etdirən sadə, ikidən çox məsələni əks etdirən mürəkkəb protokol hesab edilir.

Protokol üç halda yazılır:

– iclasdakı çıxış və qərarları əks etdirmək üçün;

– qaydanın pozulmasını bildirmək üçün;

– dövlətlərarası münasibətlər zamanı yazılır.

**Protokola verilən tələblər:**

1) Yuxarıda vərəqin ortasında "Protokol" sözü və nömrə böyük hərflə yazılır.

2) Təşkilatın adı, tarix və yer göstərilir.

3) İştirakçıların sayı göstərilir, sədr və katib seçilir.

4) Gündəlik məsələlər, Eşidildi, Çıxışlar, Qərar yazılır.

5) Sonda sədr və katibin imzası olur.

**7. Rəy**

Rəy ərəbəcədir, fikir, mülahizə mənasını verir. Əsər, tamaşa, kurs işi, dissertasiya işi haqqında mülahizə, fikir, resenziya deməkdir.

**Rəyə verilən tələblər:**

1) Kimə və nə haqda yazıldığı göstərilir, səhifənin ortasında "rəy" sözü yazılır.

2) Nə barədədirsə, onun müsbət və mənfi cəhətləri göstərilir.

3) Rəyçi tərəfindən irəli sürülən təklif və tövsiyələr yığcam şəkildə ifadə olunur.

4) Sonda rəyçinin adı, soyadı və atasının adı yazılır və imza qoyulur, tarix – gün, ay, il bütöv şəkildə göstərilir.

**8. Teleqram**

Teleqram yunancadır, "tele" uzaq, "qramma" yazmaq deməkdir. Teleqramın iki növü vardır:

1) Müəyyən bir hadisə barədə məlumat vermək.

2) Pul köçürmək

**Teleqrama verilən tələblər:**

1) Şəxsin adı, soyadı və ünvan dəqiq göstərilməlidir.

2) Teleqram yığcam və aydın olmalıdır, çalışmaq lazımdır ki, az söz işlədilsin.

3) Burada rəqəmlər hərflə yazılır və hər bir söz, rəqəm ayrıca pul hesablanır.

**9. Annotasiya**

Annotasiya latıncadır, "annotomik" sözündəndir və "qeyd aparmaq", "əlavə" deməkdir. Əsas mənası kitab, jurnal və məqalələrin məzmununun qısa şəkildə şərhidir. Annotasiyanı, əsasən, müəllifin özü yazır.

**Annotasiyaya verilən tələblər:**

1) Müəllifin adı və soyadı verilir.

2) Kitabın adı, nəşriyyatı, çap olunduğu şəhər və həcmi göstərilir.

3) Kitabın nə haqda yazıldığı bildirilir.

4) Nə məqsədlə və kimin üçün yazılması öz əksini tapır.

**10.Akt**

Akt latıncadır, "aktos" sözündəndir və hərəkət, hadisə, cinayət işi deməkdir. Müxtəlif növləri vardır:

1) cinayət aktı – cinayət işi ilə bağlı olur

2) dövlət aktı – dövləti əhəmiyyəti olan fərman, qərar

3) müəyyən faktı açmaq üçün olan akt–yararsız işin sübutu

4) mürəkkəb (xüsusi) akt – bir neçə faktı əks etdirir.

**Akta verilən tələblər:**

1) "Akt" sözü vərəqin yuxarı hissəsində, ortada və böyük hərflə yazılır.

2) "Akt" sözündən sonra sol tərəfdə aktın tərtib edildiyi yer, sağ tərəfdə isə tarix – gün, ay, il göstərilir.

3) Aktı tərtib edənlər göstərilir.

4) Yoxlama haqqında dəqiq məlumat verilir və müddəti həm rəqəm, həm də hərflə göstərilir.

5) Nəticə yazılır.

6) Sonda aktı tərtib edənlərin imzası qoyulur.

**11. Məktub**

Məktub ərəbcədir, əməli yazının ən geniş yayılmış və sərbəst formasıdır. Məktublar iki cür olur: rəsmi və qeyri-rəsmi şəxslərin yazdıqları.

Məktub aşağıdakı hissələrdən ibarətdir:

1) Müraciət hissəsi – başlıq sayılır.

2) Ümumi hissə – şəxslərin əhvali-ruhiyyəsi və vəziyyəti öz əksini tapır.

3) Fərqləndirici hissə – məktubun əsas məzmununu əhatə edir.

4) Yekunlaşdırıcı hissə – sonluq.

**12. Vəkalətnamə**

Vəkalətnamə ərəbcə vəkalət və farsca namə sözlərindən ibarətdir, vəkillik kağızı deməkdir. Həm təşkilatlara, həm də müəyyən şəxsə aid ola bilər. Təşkilatlara aid vəkalətnamə mətbəədə xüsusi formada hazırlanır.

**Vəkalətnaməyə verilən tələblər:**

1) Vəkaləti verən və verilən şəxslərin adı, atasının adı, soyadı və vəzifəsi göstərilməlidir.

2) Alınacaq və ya etibar ediləcək malın məzmunu və vəkalətnamənin müddəti həm rəqəm, həm də hərflə göstərilir.

3) Vəkalətnaməyə məsul olan şəxsin imzası və şəxsiyyət vəsiqəsinin göstəriciləri.

4) Vəkalətnamənin verildiyi tarix.

**13. Əmr**

Əmr ərəbcədir; hökm, göstəriş və sərəncam mənalarını verir. Rəsmi sənədlərə aiddir.

**Əmrə verilən tələblər:**

1) Vərəqin yuxarı hissəsində müəssisənin adı, təzə sətirdə əmrin nömrəsi yazılır (Əmr № 1).

2) Sol tərəfdə tərtib edildiyi yer, sağ tərəfdə isə tarix – gün, ay, il göstərilir.

3) Əmrin məzmunu dəqiq və aydın ifadə olunur.

4) Sonda təşkilat rəhbərinin adı, soyadı, atasının adı yazılır və möhürlə təsdiq edilir.

**14.Etiket**

Etiket fransızcadır, yarlıq mənasını verir. Satılacaq malın, yaxud eksponatın üstünə yapışdırılan və onu səciyyələndirən mətn.

**15.Hesabat**

Hesabat ərəbcədir, "hesab" sözünün cəmidir və görülmüş işin nəticəsi haqqında rəsmi məlumat mənasını bildirir.

**Hesabata verilən tələblər:**

1) İnandırıcı olmalıdır.

2) Faktlar və rəqəmlər dəqiq verilməlidir.

3) Təkrarlara yol verilməməlidir.

4) İctimai xarakter daşıyırsa, qorunub saxlanmalıdır.

5) Əvvəlində onu yazan şəxsin adı, atasının adı və soyadı göstərilməlidir, sonda imza qoyulmalıdır.

**16.Referat**

Referat latıncadır, məruzə etmək, məlumat vermək mənalarını bildirir. Referatda elmi əsərin, kitabın xülasəsi verilir. Ədəbi yaradıcılığa həsr edilmiş məruzə mənasında da işlədilir.

**Referata verilən tələblər:**

1) Vərəqin əvvəlində ortada "Referat" sözü, onun altında isə mövzunun adı qeyd olunur.

2) Planı verilir və sonra məzmunu yazılır. (Bəzən plansız da ola bilər.)

3) Sonda müəllifin adı, atasının adı, soyadı və tarix yazılır.

# ƏDƏBİYYAT

## ƏDƏBİYYAT HAQQINDA ÜMUMİ MƏLUMAT

Bədii ədəbiyyat həyatı **obrazlarla** əks etdirir. Ədəbiyyatı incəsənətin rəssamlıq, heykəltəraşlıq, memarlıq, musiqi kimi növlərindən fərqləndirən əsas cəhət onun bədii surətləri **söz** vasitəsi ilə canlandırmasıdır.

**Aristotelə** görə, ədəbiyyat həyatı və insanları yamsılama sənətidir, başqa sözlə desək **təqlidi sənətdir**.

**Belinski** isə ədəbiyyata belə qiymət verir: "Ədəbiyyat bütün küll halında, incəsənətin tərkibindən ibarət olub, onun bütün cəhətlərini əhatə etməklə bərabər, bütün fərqlərini müəyyən və aydın bir şəkildə ehtiva edir".

"**Ədəbiyyat**" ərəb sözü olub "**ədəb**", "**mərifət**" mənasını verir. Onun birinci vəzifəsi **tərbiyə etməkdir**.

## ƏDƏBİYYATŞÜNASLIQ ELMİNİN BÖLMƏLƏRİ

Ədəbiyyatşünaslıq ədəbiyyatı öyrənən elmdir və üç bölmədən ibarətdir:

**1. Ədəbiyyat nəzəriyyəsi** – bədii əsərin xüsusiyyətini, həyatı əks etdirmə prinsiplərini və mahiyyətini səciyyələndirir. Onun əsas **tədqiqat obyektləri** aşağıdakılardır:

– yaradıcılıq metodu
– ədəbi cərəyanlar
– bədii təsvir və ifadə vasitələri
– məzmunla formanın vəhdəti
– ədəbi janrların xüsusiyyətləri

**2. Ədəbiyyat tarixi** – ədəbiyyatın keçdiyi inkişaf yolunu, mərhələlərini, çiçəklənmə və tənəzzül səbəblərini öyrənir. Onun əsas **tədqiqat obyektləri** aşağıdakılardır:

– ənənə və novatorluq
– ədəbi əlaqələr və təsirlər
– yazıçının mühitlə əlaqəsi

**3. Ədəbi tənqid** – ədəbi prosesə qiymət verir, ədəbiyyatın müasir həyatla necə səsləşdiyini aşkarlayır və ədəbiyyatın inkişafına kömək edir. Onun əsas **tədqiqat obyektləri** aşağıdakılardır:

– cari ədəbiyyatı təhlil etmək
–ədəbi prosesin gündəlik problemlərini izləmək

## ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ

### ŞİFAHİ XALQ ƏDƏBİYYATI ÜZRƏ JANRLAR

Şifahi xalq ədəbiyyatına bəzən **ağız ədəbiyyatı** da deyilir. Bu ədəbiyyat xalqa məxsusdur, xalqın obrazlı təfəkkürünün məhsuludur. **Folkloru** redaktə etmək, onu dəyişdirmək saxtakarlıqdır.

Şifahi xalq ədəbiyyatı nümunələri çoxvariantlıdır, nikbindir, bəşəridir, xəlqidir və onların müəllifi yoxdur. Mövsüm və mərasim nəğmələri ən arxaik janr sayıla bilər.

Şifahi xalq ədəbiyyatının aşağıdakı **janrları** vardır:

**1. NƏĞMƏLƏR-**mahnılar. Nəğmələrin növləri bunlardır:

**1) Holavarlar** əkinçilik və maldarlıq nəğmələridir:

Kotanın hodaxları,
Partlayıb dodaxları.
Qarğayın kotan sınsın,
Dincəlsin hodaxları.

Bu nəğmələrdə çox vaxt **kəl, öküz, kotan, hodağ, mac** sözləri işlənir. Bir bənddən ibarətdir; hər bənd dörd misra, bölgüsü 3+4, yaxud 4+3-dür, qafiyələnməsi: **a a b a**.

Maldarlıq nəğmələrində heyvanı oxşayan mətnlərlə yanaşı, çobanlar da idealizə olunur.

**2) Sayaçı sözlər** – qoyunçuluqla bağlıdır:

Nənəm, a şişək qoyun,
Yunu bir döşək qoyun.
Bulamanı tez yetir,
Gözləyir uşaq qoyun.

Təcrübəli çobanlar söyləyirlər. Adətən, **bir** bənddən, hər bənd **dörd** misradan və hər misrası **7** hecadan ibarət olur. Bununla yanaşı bəndlərin, hecaların sayı çox olan və misralarının hamısı həmqafiyə olan sayaçı sözlər də vardır.

**3) Mövsüm nəğmələri**

**4) Mərasim nəğmələri**

**5) Vəsfi-hallar**

İstər mövsüm, istərsə də mərasim nəğmələri bir-birindən mövzusuna görə fərqlənsələr də, formasına görə bayatılara yaxındır.

**2. BAYATILAR.** Lirik janrlardan biridir. Molla Vəli Vidadi Qarabağ torpağını bayatıya bənzətmişdir:

Külli Qarabağın abi-həyatı,
Nərmü nazik bayatıdır, bayatı.

Bayatılar, adətən, **"əziziyəm"**, **"eləmi"**, **"mən aşiq"** sözləri ilə başlayır. **Bir** bənddən, hər bəndi **dörd** misradan, hər misrası **7** hecadan ibarət olur; qafiyələnməsi: **a a b a.** Əsas fikir üçüncü və dördüncü misrada deyilir, birinci və ikinci misrada isə buna hazırlıq görülür.

Aşıq Minayə dəyər,
Xalın min ayə dəyər.

Ay var bir günə dəyməz,
Gün var min ayə dəyər.

Bayatılarda məhəbbət, vətən həsrəti, insanların məişət tərzi, haqsızlığa və zülmə qarşı etiraz, dərin ictimai motivlər ifadə olunur. Sevgi, məhəbbət hissləri əsas yer tutan bayatılar **məhəbbət bayatısı** adlanır.

**3. AĞILAR.** El arasında **edilər** də deyilir. Ölümlə - insan itkisi ilə bağlı kədəri ifadə edir. Bayatı şəklindədir. **Bir** bənd, **dörd** misra, hər misrası **7** heca; qafiyələnməsi: **a a b a.**

Əzizim tikə-tikə,
Doğrandım tikə-tikə.
Anan saçını yolur
Kəfənin tikə-tikə.

**4. LAYLALAR.** Beşik başında uşağa söylənir. Ana məhəbbəti ifadə olunur. Bayatı şəklindədir. **Bir** bənd, **dörd** misra, hər misrası **7** heca; qafiyələnməsi: **a a b a.**

Laylalarda **həzinlik,** alçaq ton üstünlük təşkil edir.

Laylay, beşiyim laylay,
Evim-eşiyim laylay.
Sən get şirin yuxuya,
Çəkim keşiyin laylay.

**Bəzən** laylalar beş misradan ibarət olur; qafiyələnməsi:
**a a a b b.**

**5. OXŞAMALAR.** Bəzən **nazlama** da deyilir. Uşağı oyaq vaxtı əyləndirmək, əzizləmək məqsədilə söylənir. **Oynaqlıq** və şaqraqlıq əsasdır.

Atın-tutun bu balanı,
Şəkərə qatın bu balanı.
Atası evə gələndə,
Qabağa tutun bu balanı.

**6. ATALAR SÖZÜ.** Geniş yayılmışdır. Atalar sözləri yığcam olur və hikmətamiz məzmun daşıyır. Sözlər nizamla sıralanır. Həm **nəsr**, həm də **nəzm** formasında olur. "**Saxla samanı, gələr zamanı"** nəzm formasındadır.

Atalar sözlərində **məcazilik** olur, bənzətmə və mübaliğələrdən istifadə edilir.

"Kitabi-Dədə Qorqud" dastanının müqəddiməsində Dədə Qorqudun dilindən atalar sözləri verilmişdir. Atalar sözlərindən ibarət ayrıca "Oğuznamə"lər də vardır. Y.V.Çəmənzəminli atalar sözlərini **"daha ümumi və bəşəri"** sayır.

**7. MƏSƏLLƏR.** Bəzən bunlara **zərbi-məsəl** də deyilir.

Atalar sözlərinə **yaxınlığı**: yığcamlıq, sadəlik və məna dərinliyi.

Atalar sözlərindən **fərqi**: fikrin müstəqil işlənə bilməməsi. Məsəllər müəyyən əhvalatlarla bağlı yaranır.

**Nümunələr**:

"Doyan o rəhmətlik kimi olar", "Karın könlündəki", "Mıxı mismara döndərən var", "Nə diriyə hay verir, nə ölüyə pay", "Nə tüfəngə çaxmaqdır, nə sümbəyə toxmaq".

M.Füzulinin "Salam verdim, rüşvət deyildir, deyə almadılar", S.Vurğunun "Könüldən könülə yollar görünür" ifadələri artıq zərbi-məsəldir.

**8. TAPMACALAR.** Bəzən bunlara **bilməcə** də deyilir. Geniş yayılmışdır. **Aristotel** tampacanı ən yaxşı düzəldilmiş **istiarə** adlandırmışdır. Tapmaca müəyyən cisim və hadisənin əlamətinin üstüörtülü şəkildə poetik ifadəsidir. Fikri fəaliyyət prosesini tezləşdirir. Sadə tapmacalar balacalar üçün nəzərdə tutulur.

Tapmacaları yazılı ədəbiyyatda **müəmmalara** oxşatmaq olar. Aşıq şeirindəki **bağlamacalar** tapmacalara yaxındır.

Tapmacada iki və daha artıq adamın iştirakı onun əsas xüsusiyyətlərindəndir.

Həm **nəsr**, həm də **nəzm** formasında olur. "**Altı bulaq – içərlər, Üstü zəmi – biçərlər**" nəzm formasındadır.

**9. NAĞILLAR.** "Nağıl" söyləmək, danışmaq deməkdir. Nağılda rəvayət üslubu əsasdır: "Biri varmış, biri yoxmuş…", "Az getdi, üz getdi, dərə-təpə düz getdi", "Bu qalsın burda, sənə kimdən deyim".

Nağıllarda xalq müdrikliyi təbliğ olunur. Nağıllar məzmununa görə bir neçə qrupa bölünür:

**1) Heyvanlar haqqında nağıllar.** Onlarda, əsasən, heyvanlar iştirak edir: **"Şəngülüm, Şüngülüm, Məngülüm", "Axmaq canavar", "Tülkü və canavar", "Qoca aslan", "Ağ quş nağılı".**

**2) Sehrli nağıllar. B**u nağıllarda qəhrəman sirli, sehrli bir qüvvədən kömək alır: **"Ağ atlı oğlan", "Vur, çomağım, vur"**.

**3) Məişət nağılları** real varlıqla, adamların gündəlik həyatı ilə bağlı olur. Tənbəllik, axmaqlıq pislənir, əməksevərlik, bilik, mərifət təbliğ olunur: **"Qazanılmış manat", "Daşdəmirin nağılı".**

**4) Tarixi nağıllar** müəyyən bir tarixi şəxsiyyətlə bağlı olur. Hökmdarlar və sərkərdələr əsas qəhrəman olurlar: **"İsgəndərin buynuzu var", "Quş dili bilən İsgəndər", "İsgəndərin zülmətə getməsi", "Baftaçı şah Abbas", "Bostançı və Şah Abbas"**. Bu nağıllarda İsgəndər də, Şah Abbas da ədalətli və xeyirxah hökmdarlardır.

**10) DASTANLAR.** Bəzən **epos** da deyilir. Həcm etibarilə ən iri əsərlərdəndir. **Nəzm** ilə **nəsrin** növbələşməsi əsasında yaranır.

Dastanlar məzmununa görə iki qismə ayrılır:

**1) Qəhrəmanlıq dastanları** – aparıcı süjeti və ruhu igidlikdir: “Kitabi-Dədə Qorqud”, “Koroğlu”

**2) Məhəbbət dastanları** – aparıcı süjet aşiqanə hadisə və macəralardır: “Aşıq Qərib”, “Əsli və Kərəm”, “Abbas və Gülgəz”, “Aşıq Valeh”, “Şah İsmayıl” (bu dastanda qəhrəmanlıq süjeti də vardır).

Dastan danışarkən dinləyicinin diqqətini cəlb etmək üçün **qaravəlli** danışılır. Həcmcə yığcamdır, satirik, yumoristik səciyyə daşıyır. Nümunə: “Yoxsulun arzusu”.

## AŞIQ YARADICILIĞININ JANRLARI

Aşıqlara qədim zamanlarda **“dədə”, “ozan”** demişlər. Aşıq sənətində musiqi, şeir və rəqs vəhdət təşkil edir. Aşıqlar iki yerə bölünür; şeir qoşan və dastan yaradan aşıqlar yaradıcı aşıqlar, şeirləri oxuyan aşıqlar isə yaşadan aşıqlar hesab edilmişdir. Yaradıcı aşıqlar bunlardır: Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Aşıq Ələsgər, Molla Cümə, Şəmkirli Aşıq Hüseyn, Növrəs İman, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Əsəd, Aşıq Mirzə, Aşıq Hüseyn Cavan, Aşıq Şəmşir.

Aşıqlar saz çalıb oxuyur, dastan söyləyir və deyişirlər. Deyişmə imtahan xarakteri daşıyır. Aşıq Ələsgər ustadı Aşıq Alı ilə deyişmiş və qalib gəlmişdir. Amma həmişə ustadına ehtiram göstərərək demişdir:

“Bir şəyird ki, ustadına kəm baxa,
Əlbət, gözlərinə ağ damar, damar!”

Aşıq yaradıcılığının aşağıdakı **janrları** vardır:

**1. Gəraylı** – adətən, 3-5 bənddən, hər bəndi 4 misradan, hər misra 8 hecadan ibarət olur; qafiyələnməsi: abcb, dddb, kkkb. Son bənddə aşıq və yaxud şair öz təxəllüsünü söyləyir.

Gözəl sənə məlum olsun,
Alışmışam, yanıram mən.

Ala gözlər süzüləndə,
Canımdan usanıram mən.

Hansı dağın maralısan?
Hayıf, bizdən aralısan!
Sən də yardan yaralısan,
Duruşundan qanıram mən.

Mənim adım Ələsgərdi,
Dərdim dillərdə əzbərdi.
Xalların dürrü gövhərdi,
Sərrafıyam, tanıram mən.

**2. Qoşma** – **məhəbbət şeiri** və ya **aşiqanə şeir** adlanır. Adətən, 3-5-7 bənddən, hər bəndi 4 misradan, hər misra 11 hecadan ibarət olur; qafiyələnməsi: abcb, dddb, kkkb. Son bənddə aşıq və yaxud şair öz təxəllüsünü söyləyir. Müəllifin adı söylənən bənd **möhürbənd** adlanır.

Qoşma yazılı ədəbiyyata da keçmişdir. Vaqif, Vidadi, Zakir, S.Vurğun, S.Rüstəm, O.Sarıvəlli, B.Vahabzadənin qoşmaları vardır. Qoşmanın **növləri**:

**1) Gözəlləmələr** – bunlar aşiqanə qoşmalardır.

**2) Ustadnamə** – hikmətli qoşmalardır. Əxlaqi fikirlər ifadə edilir. Nəsihətamiz məzmun daşıyır. Məhəbbət dastanlarının əvvəlində söylənir.

Abbas bu sözləri deyər sərindən,
Arxı vurun suyu gəlsin dərindən,
Söz bir olsa, dağ oynadar yerindən,
El bir olsa, zərbi kərən sındırar. (A. Tufarqanlı)

**3) Qıfılbənd** – qoşmanın bu növü deyişmə səciyyəlidir. Hər iki aşığın söylədiyi şeirlər məzmun və qafiyəcə bir-birinə uyğun olmalıdır. Deyişmə sual-cavab xarakteri daşıdıqda **qıfılbənd** adlanır.

**Aşıq Ələsgər**: Məğrurluq eyləyib ustadam deyən,
O hansı ağacdı, tağı yeddidi?
O ağacda bir quş yuva salıbdı,
Çarpaz sinəsinin dağı yeddidi.
**Aşıq Bəhmən**: Ustadam deyənlər məğrur olmasın,
Cəsəd damarının səri yeddidi.
Sinə yuvasında məskən salıbdı,
Ürək bir quş olsa, pəri yeddidi.

**4) Vücudnamə** – insanın yaş mərhələlərinin səciyyəsini verir. İnsanın **anadan olduqdan ölənədək** olan həyat yolu vücudnamədə ifadə edilir.

Vücudnaməyə klassik poeziyada da rast gəlmək olar.

Üç yaşından beş yaşına varanda,
Yenicə açılan gülə bənzərsən.
Beş yaşından on yaşına varanda,
Arıdan saçılmış bala bənzərsən…

Səksənində sinən enər dizinə,
Doxsanında Qubar qonar gözünə,
Koroğlu der, çünki yetdin yüzünə,
Uca dağ başında kola bənzərsən.

**5) Təcnis** – qoşmanın **forma** baxımdan bir növüdür. Qafiyələri cinas qafiyələrdən təşkil olunan qoşma təcnis adlanır. **Cinas** şəkilcə eyni, mənaca müxtəlif olan sözlərdir.

Tikdiribsən qəsr, eyvan, <u>oda sən,</u>
Bu nökərin, o sevdiyin, <u>o da sən;</u>
Qıya baxdın, məni saldın <u>oda sən,</u>
İnsaf eylə, gəl könlümün narın üz. (Aşıq Ələsgər)

**a) Cığalı təcnis** – təcnisin bir növüdür. Hər bənddə iki misradan sonra bayatı əlavə edilir ki, həmin bayatı **cığa bənd** adlanır. Cığa bəndlə təcnisin bəndi qafiyələnir.

Ələsgərəm, dərdim budu, ay ağa!
Eynim yaşı neysan kimi a yağa.
Mən aşiqəm, ay ağa!
Piltə yanar a yağa.
Mərd sözün üzə söylər,
Heç yapışmaz ayağa.
Gah baş olan, gah da düşər ayağa,
Kimsə vurmaz fələk ilə başa-baş.

Cığa bənd qoşmanı ideya-bədii baxımdan qüvvətləndirir.

**b) Dodaqdəyməz** – bu qoşmanı oxuyanda dodaq dodağa dəymir. Beləliklə, şeirdə **b, p, m** samitlərindən istifadə edilmir.

Yazıq Ələsgər, əlin yetsə nə nara,
Nə həsrət çək, nə ah eylə, nə nara,
Nə insandı səngi salar nə nara,
Qaynar dəryatək, ay eylər qıj-qıj!

## NƏZM VƏ NƏSR

**Nəzm (şeir)** – sözün müəyyən nizamla, qayda ilə düzülüşü deməkdir. Burada söz sırası pozula da bilər.

**Nəsr** – adi danışıq formasındakı yazıdır. Sözlər, əsasən, dilin qrammatik tələbinə uyğun olaraq sıralanır.

## NƏZMİN ƏSAS ƏLAMƏTLƏRİ

**1. Ahəngdarlıq, ritm** – eyniölçülü səslərin bir-birini izləməsi, təkrarlamasıdır.

**2. Ölçü (vəzn)** – şeirdə ahəngi yaradan, qüvvətləndirən amillərdən əsasıdır. Misradaxili bölgülər məhz vəznin (ölçünün) tələbi ilə yaranır.

**3. Qafiyə** – şeirdə tələffüzcə, səs tərkibi etibarilə bir-birinə yaxın olan sözlərdir. Həmqafiyə sözlər daha çox misraların axı-

rında gəldiyinə görə yüksək intonasiya ilə deyilir. Qafiyənin aşağıdakı növləri vardır:

**1) zəngin (tam) qafiyə** – sözlərdəki hecaların bir neçəsi bir-biri ilə səsləşir:

Vaqif haqdan dilər, lütfü **kərəmlər,**
Belə yerdə qalan, vallah, **vərəmlər,**
Yenə yada düşdü bizim **sənəmlər,**
Getməyin binası, hayıf ki, yoxdur! (M.P.Vaqif)

**2) yoxsul (natamam) qafiyə** – sözlərin yalnız bir hissəsi arasında səsləşmə olur:

O, xəyanət bilməyən,
Yaxın bir dostdur **bizə,**
Onu həmdəm eyləyək
Hər zaman **ömrümüzə**. (M.Dilbazi)

Yaxud: "**mübarək**" və "**çiçək**".

**3) qulaq qafiyəsi** – sözlərin tələffüzündən, yazılışından deyil, eşidilmə oxşarlığından yaranır:

Ah… ayağı yalın, başı **açıq**,
Məni axtarırsan indi bəlkə də.
Hardasan, hardasan, gəl qarşıma **çıx,**
Sənə yer tapılar bizim ölkədə. (S.Rüstəm)

Yaxud: "**bax**" və "**ancaq**".

**4) daxili qafiyə** – qafiyələr misraların ortasında gəlir:

Şəbi-hicran yanar **canım**, tökər qan **çeşmi-giryanım**,
Oyadar xəlqi **əfqanım**, qara bəxtim oyanmazmı?
(M.Füzuli)

**4. Rədif** – misraların axırında qafiyələrdən sonra təkrar olunan söz və ifadələrdir. Rədif şeirin bütün bəndlərində və yaxud bir bəndin bütün misralarında da ola bilər. "Görmədim", "Durnalar", "Eylər" aid olduğu şeirlərin rədifidir.

**5. Bölgü**– ahəng yaradan əsas şərtlərdən biridir və şeirin oxusu zamanı misra daxilində yaranan fasilədir

Boyun sürahidir, // bədənin büllür,
Gərdənin çəkilmiş // minadan, Pəri! (M.P.Vaqif)

Hər iki misrada hecaların bölgüsü **6+5**-dir.

Şeirdəki bölgü **təqti, sezura, duraq, ayaq** terminləri ilə də ifadə olunur.

**6. Misra** – şeirin hər bir sətri, hər bir xəttidir. Şair fikri həm bir, həm iki, həm üç və s. misralarda tamamlaya bilər:

"El bilir ki, sən mənimsən" (S.Vurğun)

Şair fikrinin tamamlandığı müəyyən hissələrə **şeir vahidləri** deyilir.

**7. Beyt** – şeirin iki misrasıdır və bu misralar hökmən bir-birini tamamlamalıdır. Beytlə bağlı aşağıdakı ifadələr işlədilir:

**1) şah beyt** – seçilən, fərqlənən, fikir və ahəngcə daha qüvvətli olan beytdir. Fikircə fərqlənən misra isə **şah misra** adlanır.

**2) mətlə beyt** – ilk beyt, başlanğıc beytdir; "**tülu**" sözündəndir, günəşin doğduğu yer mənasındadır.

**3) məqtə beyt** – son beytdir, qurtarmaq, sona çatmaq mənasını verir.

**8. Bənd** – müxtəlif saylı misralardan ibarət olan bitkin hissədir. Şeirdə bəndlər bir-birini tamamlamalıdır.

## ŞEİRİN VƏZNLƏRİ

Azərbaycan şeiri tarixində üç vəzndən (ölçüdən) istifadə edilmişdir:

**1. Heca vəzni (barmaq vəzni**) – vəznlər içərisində ən qədimidir. "Avesta" və "Kitabi-Dədə Qorqud" abidələrindəki şeirlər, şifahi xalq ədəbiyyatının nəzmlə yazılan nümunələri heca vəznindədir. Bu vəzn milli şeir ölçüsü hesab edilir.

Heca vəznin tələbləri:

**1)** yazılan şeirlərdəki **misraların sayı bərabər olmalıdır**. Şeirdə hecaları sayarkən yazı deyil, tələffüz əsas götürülür.

**2)** bölgü **bütöv söz** prinsipinə əsaslanır.

**3)** misralardakı **bölümlər də bərabər olmalıdır:**

(6+5, 4+4+3).

Azərbaycan şeirində hər misrası **iki** hecadan **on altı** hecaya qədər olan nümunələr vardır. İki, üç, dörd, beş hecalı şeirlərdə bölgü o qədər də nəzərə çarpmır.

**2. Əruz vəzni** – "**əruz**" ərəbcə olub **geniş yol, çadırın ortasına vurulan dirək, şeir haqqında elm** mənalarını bildirir. Əruz şeir ölçüsü VIII əsrdə Xəlil ibn Əhməd tərəfindən sistemləşdirilmiş və o, 15 bəhr müəyyənləşdirmişdir. Ümumiyyətlə, əruzun 19 bəhri mövcuddur, Azərbaycan şeirində 11 bəhrdən istifadə olunmuşdur.

Əruz vəznində hecaların uzun-qısalığı, növbələşməsi və bir-birini izləməsi mühüm şərtdir. Bu vəzndə bölgü bütöv söz prinsipinə əsaslanmır, yəni sözlər ortadan da bölünə bilər. Ədəbiyyatımızda ən çox işlənən aşağıdakı bəhrlərdir:

**1) Həzəc bəhri – xoşagələn avaz, gözəl səs, cəh-cəh** mənasını bildirir. "**Məfailün**" təfiləsi 4 dəfə təkrar edilir. M.Füzulinin "Məni candan usandırdı…" qəzəli, "Leyli və Məcnun", "Meyvələrin söhbəti" poemaları, M.Ə.Sabirin "Əkinçi", "Nə İşim var?", "Bakı fəhlələrinə" şeirləri həzəc bəhrindədir.

**2) Rəməl bəhri – ləngərlənmək, dalğalanmaq, ağır-ağır**, yəni ləngərlənə-ləngərlənə yerimək mənalarını bildirir. "**Failatün**" təfiləsi 4 dəfə təkrar edilir. M.Füzulinin "Padişahi-mülk" qitəsi, M.P.Vaqifin "Görmədim" müxəmməsi rəməl bəhrindədir.

**3) Xəfif bəhri – yüngül, zərif, incə** mənalarını bildirir. Ölçüsü: failatün, məfailün, failün. S.Ə.Şirvaninin "Qaz və durna" şeiri bu bəhrdədir.

**4) Səri bəhri – sürətli, cəld, tez-tez** mənasını verir. Ölçüsü: müftəilün, müftəilün, failün. M.Ə.Sabirin "Ağacların bəhsi" şeiri bu bəhrdədir.

**5) Münsərih bəhri – axıcı** mənasını bildirir. Ölçüsü: müftəilün, failün, müftəilün, failün. M.Ə.Sabirin "Oxutmuram əl çəkin" şeiri bu bəhrdədir.

**3.Sərbəst şeir – səpkili şeir** də adlanır. Sərbəst şeirə ölçüsüz, qafiyəsiz, qaydasız şeir kimi baxmaq olmaz. Misralar standart ölçüdən kənara çıxır, lakin **ahəngdəki tarazılıq** qorunur. Burada **vurğu** və **intonasiya** əsas rol oynayır. Sərbəst şeirdə heca vəzninin təsiri güclüdür. S.Vurğunun, R.Rzanın, O.Sarıvəllinin, B.Vahabzadənin, N.Xəzrinin yaradıcılığında sərbəst şeirin nümunələri vardır.

## ƏDƏBİ NÖVLƏR VƏ JANRLAR

Həyatı əksetdirmək üsuluna görə ədəbi əsərlər üç qrupa bölünür: epik, lirik, dramatik.

### EPİK NÖV

Epik "**epos**" sözündən olub **söz, hekayə, mahnı** deməkdir. Epik janrlarda gördüyün və eşitdiyin həyat hadisələri nağıletmə yolu ilə, **təhkiyə** yolu ilə əks etdirilir. Bu əsərlərdə gerçəkliyin **obyektiv** inikası əsasdır. Epik əsərlər fikri daha ətraflı, təfsilatı ilə söyləməyə imkan verdiyinə görə epik janrlara **təsviri janr** da deyilir. Bütün bunlara görə epik əsərlərin əsas xüsusiyyəti dedikdə aşağıdakılar nəzərdə tutulur:

– **təhkiyə (**aparıcı xüsusiyyətdir**)**

**–obyektivlik**

**– təsvir**

**JANRLARI:**

**1.Təmsil** – Həcmcə kiçikdir. Həm **nəsrlə**, həm də **nəzmlə** yazılır. Tənqid, satira təmsilin ruhunu təşkil edir. Təmsildə heyvanlar, bitkilər və əşyalar şəxsləndirilir. Əxlaqi və nəsihətamiz fikirlər əsasdır. Bu fikirlər təmsilin ya əvvəlində, ya da sonunda verilir.

Dünya ədəbiyyatında Ezop, Lafonten, Krılov təmsil ustası kimi məşhurlaşmışlar.

Azərbaycan ədəbiyyatında A.Bakıxanovun, Q.Zakirin, S.Ə.Şirvaninin, A.Səhhətin təmsilləri vardır.

**Nümunələr**: S.Ə.Şirvani. "Qaz və durna", Q.Zakir. "Tısbağa, qarğa, kəsəyən, ahu".

**2.Hekayə** – Həcmcə kiçikdir. Həm **nəsrlə**, həm də **nəzmlə** yazılır. Nəzmlə yazılan hekayə **mənzum hekayə** adlanır. Hekayədə konkret bir hadisədən danışılır, əsasən, bir surətlə bağlı əhvalat təsvir edilir.

Azərbaycan ədəbiyyatında C.Məmmədquluzadə, A.Şaiq, Y.V.Çəmənzəminli, S.S.Axundov, Ə.Haqverdiyev, S.Hüseyn, C.Cabbarlı, M.Cəlal, Ə.Məmmədxanlı, İ.Əfəndiyev hekayənin parlaq nümunələrini yaratmışlar.

N.Gəncəvi, Q.Zakir və S.Ə.Şirvaninin mənzum hekayələri vardır.

**Nümunələr**: İ.Əfəndiyev. "Şəhərdən gələn ovçu", A.Şaiq "Məktub yetişmədi"

**İlk hekayə:** İ.Qutqaşınlı. "Rəşid bəy və Səadət xanım" (1835)

**3.Novella** – Hekayə janrının gözlənilməz sonluqla qurtaran formasıdır. Novellanı hekayədən fərqləndirən aşağıdakı xüsusiyyətlərdir:

– gözlənilməzlik
– qeyri-adi sonluq
– məzəlilik

**Nümunələr**: C.Məmmədquluzadə. "Qurbanəli bəy", Ə.Haqverdiyev. "Bomba", Mir Cəlal. "Badamın ləzzəti".

**4.Povest** – mənası **danışıq, təhkiyə, nağıl etmək** deməkdir. Povestə **böyük hekayə** də deyilir. Povest hekayədən aşağıdakı xüsusiyyətlərinə görə fərqlənir:

– obrazların sayı çoxdur

– həyat hadisələrinin əhatə dairəsi genişdir

– surətlərin təsviri daha dolğundur

Nümunələr: M.F.Axundzadə. "Aldanmış kəvakib", C.Məmmədquluzadə. "Danabaş kəndinin əhvalatları" və "Danabaş kəndinin məktəbi", Ə.Haqverdiyev. "Xortdanın cəhənnəm məktubları", R.Rza. "Leytenant Bayramın gündəlikləri", M.Cəlal. "Dağlar dilə gəlir", İ.Əfəndiyev. "Üçatılan".

**İlk povest:** M.F.Axundzadə. "Aldanmış kəvakib" (1857).

**5.Oçerk** – faktik həyat materialı əsasında yazılır. Yazıçı fantaziyasına geniş imkan qalmır. Oçerkdə də bədii ümumiləşdirmə və tipikləşdirmə vardır. Bu cəhətlər oçerki həm publisistikaya, həm də hekayəyə yaxınlaşdırır.

**Nümunələr**: Mir Cəlal, Mirzə İbrahimov və başqalarının oçerkləri vardır.

**6.Roman** – müəyyən dil qrupunun adı ilə bağlıdır (roman dilləri). Həcmcə böyükdür. Həm **nəsrlə**, həm də **nəzmlə** yazılır. Nəzmlə yazılan roman **mənzum roman** adlanır. N.Gəncəvinin "Xosrov və Şirin", A.S.Puşkinin "Yevgeni Onegin" əsərləri mənzum romanlardır.

Romanda təsvir edilən hadisələr son dərəcə **genişdir**. Hekayə və povestdən fərqli olaraq, romanda surətin həyatı **dinamik şəkildə** verilir və surətin təsviri bir mərhələ ilə məhdudlaşmır. Romanda surətlər **çoxdur, hətta silsilə** təşkil edir. Əsas süjet xəttindən başqa **əlavə xətt** verilir.

Roman movzusuna və məzmununa görə bir neçə cür olur:

**1) tarixi roman** – M.S.Ordubadi. "Qılınc və qələm"

**2) inqilabi roman** – M.Qorki. "Ana", M.Hüseyn. "Səhər"

**3) psixoloji roman**

Silsilə təşkil edən iki hissəli romana **dilogiya**, üç hissəli romana **trilogiya** deyilir.

**İlk roman:** N.Nərimanov. "Bahadır və Sona" (1896-1899).

**7.Epopeya** – romana yaxın olsa da, ondan fərqlənir. Burada ümumxalq həyatı əsas yer tutur. Xalq həyatı və bütöv proses əks olunur. Baş qəhrəman xalqdır.

**Nümunələr**: L.Tolstoy. "Hərb və sülh", M.Şoloxov "Sakit Don", S.Rəhimov. "Şamo".

**8.Xatirə** – bəzən **memuar** da adlanır. Müəllifin şahidi olduğu hadisələrin təsviridir. Xatirə ədəbiyyatının əsasında müəllifin gündəlik qeydləri durur. Xatirəni ancaq yazıçı yox, dövlət xadimləri, müxtəlif sahələrdə çalışan sənət sahibləri də yaza bilər.

**Nümunələr**: C.Məmmədquluzadə. "Xatiratım", A.Şaiq. "Keçmiş günlər", M.Hüseyn. "Bir ay, bir gün".

## LİRİK NÖV

Lirika – yunanca "**lira**" sözündəndir və simli musiqi alətinin adıdır. Lirik şeirlərə **rübabi şeirlər** də deyilir və "**rübab**" isə ərəbcə olub simli musiqi alətidir. Deməli, Şərqdə də, Qərbdə də şeir musiqi ilə əlaqədar olmuşdur.

Lirika insanın hiss-həyəcanlarının, fikir və arzularının ifadəsidir. Lirik şeir fikirə hissin vəhdətidir. Lirikada hadisə yox, ondan alınan nəticə, təəssürat inikas olunur.

Lirikada **subyekt** əsasdır. Lirik şeirdə **lirik qəhrəman** müəllifin özüdür. Həmçinin lirik qəhrəmanın özünəməxsus hiss və həyəcanları ümumiləşir. **Ani və qüvvətli həyəcanların** məhsuludur. Təbiətdə, cəmiyyətdə baş verən bütün hadisələr lirikanın məzmununu təşkil edir.

Lirik janrları fərqləndirən xüsusiyyətlər:

–**yığcamlıq** - **emosionallıq** - **subyektivlik**

– **tərənnüm** (aparıcı xüsusiyyətdir)

Epik poemalarda və nəsr əsərlərində lirikaya təsadüf edilmir, lakin onlarda lirizm vardır. M.Füzulinin “Leyli və Məcnun” poemasındakı qəzəllər poemaya lirizm gətirir.

Lirikanın aşağıdakı növləri vardır:

**1) Məhəbbət lirikası** – bu lirikanın əsasında insanın insana, yaxud insanın gözəlliyə məhəbbəti dayanır.

**2) Təbiət lirikası** – bu, **peyzaj lirikası** da adlanır. Burada başlıca cəhət təbiət gözəlliklərinin tərənnümüdür.

**3) İctimai-siyasi lirika** – ictimai quruluşa münasibət bildirilir. Nümunələr: M.P.Vaqif. “Görmədim”, Q.Zakir. “Eylər”

**JANRLARI:**

**1.Qəzəl** – həcmcə **5-10** beytdir, əruz vəznindədir, qafiyələnməsi: **aa, ba, ca**… Məqtə beytdə şair təxəllüsünü söyləyir.

**2.Qəsidə** – ən azı **15** beytdən (30 misradan) ibarət olur, əruz vəznindədir, qafiyələnməsi qəzəl kimidir: **aa, ba, ca…** Təntənəli və təmtəraqlı üslub əsasdır. Məzmunca qəsidənin aşağıdakı **növləri** vardır:

**1) Minacat** – dini məzmun daşıyır, Allahdan rəhm və kömək istənilir.

**2) Nət** – peyğəmbər təriflənir.

**3)Mədhiyyə** – hökmdarlar, yaxud böyük vəzifə sahibləri təriflənir. M.Füzuli “Leyli və Məcnun” poemasında Sultan Süleymanı mədh edir.

**4) Fəxriyyə** (öyünmə) – hər hansı şair özünün sənətkarlıq qüdrətindən danışır.

**3. Qitə** – ərəbcə olub “**parça**”, “**hissə**” deməkdir, əruz vəznindədir, qafiyələnməsi: **ba, ca, da…** Zəmanəyə münasibət ifadə olunur və ictimai-siyasi, əxlaqi-tərbiyəvi məzmun daşıyır. Adətən, şair öz təxəllüsünü söyləmir. Qitənin ən gözəl nümunələrini M.Füzuli və S.Ə.Şirvani yaratmışdır.

**4.Mərsiyə** – ölüm və yasla bağlı olur. Şifahi xalq ədəbiyyatındakı “**ağı**” janrına oxşayır. Çox vaxt hökmdarların, sərkərdələrin, sənətkarların ölümü münasibətilə yazılır. N.Gəncəvi Ə.Xaqaninin ölümü münasibətilə, Ə.Xaqani və X.B.Natəvan övladlarının ölümü ilə bağlı mərsiyələr yazmışlar.

**5.Məsnəvi** – ərəbcə “**ikilik**” mənasını verir, lakin hər ikilik məsnəvi sayıla bilməz, qafiyələnməsi: **aa, bb, cc…**

Bu cür qafiyələnmə müəyyən əhvalatı daha geniş danışmağa imkan verir, çünki şair tez-tez qafiyəni dəyişə bilir. Ona görə də iri həcmli nəzm əsərləri məsnəvi şəklində yazılır. S.Ə.Şirvaninin bəzi mənzum hekayələri məsnəvi formasındadır.

**İlk nümunə**: Ə.Xaqani. “Töhfətül-İraqeyn”.

Ədəbiyyatımızda **üçlük, dördlük** şəklində yazılan şeirlər də vardır. Şifahi ədəbiyyatda **bayatı**, yazılı ədəbiyyatda **rübai, tuyuq** və **mürəbbe** dördlük şəklindədir.

**6.Rübai** – belə şeir **bir** bənddən, **dörd** misradan ibarət olur, qafiyələnməsi: **aaba**.

Özgədən heç zaman gözləmə **kömək**,
Quru budaq kölgə salmaz, ey **ürək,**
Qənaət əzizlər, tamah xar edər,
Az olan şeylərə qənaət **gərək**. (M.Gəncəvi)

Əruz vəznində yazılır. İctimai, fəlsəfi, əxlaqi məzmuna malik olur.

Məhsəti Gəncəvinin və Nizami Gəncəvinin rübailəri məşhurdur.

**7.Tuyuq** – bəzən “**duyuq**” da deyilir. Belə şeir **bir** bənddən, **dörd** misradan ibarət olur, qafiyələnməsi: **aaba**. Əsasən, əruzun rəməl bəhrində yazılır. Hikmətamiz məzmun daşıyır.

Q. Bürhanəddinin və İ. Nəsiminin tuyuqları vardır.

**8.Mürəbbe** – ərəbcə **dördlük** deməkdir. Hər bənd **dörd** misradır, qafiyələnməsi: **aaaa, bbba, ccca…**

Əksər hallarda birinci bəndin son misrası bütün bəndlərin axırıncı misrası kimi təkrarlanır. Əruz vəznində yazılır.

**9.Müxəmməs** – Bir neçə bənd olur, hər bənd **beş** misradır, qafiyələnməsi: **aaaaa, bbbba, cccca…**

Əruz vəznində yazılır. M.P.Vaqifin "Görmədim", Q.Zakirin "Eylər" müxəmməsləri vardır.

Ədəbiyyatda müxəmməslə bağlı **təxmis** anlayışı da işlədilir. Şair başqa bir şairin qəzəlini götürüb onun hər beytinin əvvəlinə 3 misra artırır və beləliklə, hər bəndi 5 misradan ibarət şeir yaranır. Artırılmış misralar nümunə kimi götürülmüş qəzəlin vəzninə, məzmununa, ahənginə və qafiyəsinə uyğun gəlməlidir. Axırıncı bənddə hər iki şairin təxəllüsü verilir.

**M.Füzuli Həbibini təxmis etmişdir**.

Ədəbiyyatımızda ayrıca **beşlik** ifadəsi də işlənir. Adətən, heca vəznində olan şeirlərə aid olur. S.Vurğunun "Azərbaycan" şeiri, M.Şəhriyarın "Heydərbabaya salam" poemaları beşlik formasındadır.

**10.Müsəddəs** – hər bəndi altı misradan ibarət olan 6-10 bəndlik şeirdir. Qafiyələnməsi: **aaaaaa, bbbbaa, ccccaa…**

Əruz vəznində yazılır. M.Ə.Sabirin "Səttar xana" şeiri müsəddəsdir. M.V.Vidadinin və S.Ə.Şirvaninin də müsəddəsləri vardır.

**11. Müsəbbe** – yeddilik.

**12. Müsəmmə** – hər bəndi səkkiz misradan ibarətdir, qafiyələnməsi: **aaaaaabb, ccccccbb, ddddddbb…**

Əruz vəznində yazılır. M.Ə.Sabirin "Beynəlmiləl" şeiri səkkizlik şəklindədir.

**13. Müəşşər (onluq), müstəzad, tərkibbənd, tərcibənd** şeir janrları da vardır.

## EPİK-LİRİK NÖV

**1.POEMA** – **epik-lirikdir**, hadisələrin süjet xətti boyu təsviri ilə şairin daxili duyğuları üzvi şəkildə birləşir, epik təsvirlə yanaşı lirik ricət də aydın şəkildə hiss edilir. Bu, **qarışıq janr** adlanır. Nümunələr: M.Füzuli. "Leyli və Məcnun", S.Vurğun. "Muğan".

Lirika təhkiyə ilə müqayisədə üstünlük təşkil etdikdə həmin əsər **lirik-epik** adlanır. Nümunələr: M.F.Axundzadə. "Puşkinin ölümü haqqında Şərq poeması", S.Vurğun. "Bəsti".

**2. DASTAN** – **epik-lirikdir**.

## DRAMATİK NÖV

"**Dram**" sözü yunanca olub mənası "**hərəkət**" deməkdir. Beləliklə, dramatik əsərlər **hərəkət və danışığın vəhdətindən** yaranır. Dramatik əsərlər teatr səhnəsində tamaşaya qoyulmaq üçün nəzərdə tutulur, lakin **oxu** dramları da vardır ki, onlar **leze** adlanır. Həm **nəsr**, həm də **nəzmlə** yazılır. Nəzmlə yazılanlar mənzum dram adlanır. H.Cavid, S.Vurğun, B.Vahabzadənin mənzum dramları vardır. Dramatik əsərin müəllifi **dramaturq** adlanır.

Dramatik əsərdə təsvirə yer yoxdur, müəllif hadisələrə müdaxilə edə bilmir. Belə əsərlərdə mətn iki qismə ayrılır:

**1) remarkalar** – müəllifin sözləridir, rejissor və aktyorlar üçün nəzərdə tutulmuşdur. Remarkanın sözləri səhnədə oxunmur. Remarkada **hadisələrin baş verdiyi tarix, məkan, surətin yaşı, geyimi, zahiri görkəmi, hərəkəti və ruhi vəziyyəti** göstərilir. Remarka əsərlərin əvvəlində, pərdələr və şəkillər arasında, surətlərin gəlişləri ilə əlaqədar və sözarası da verilə bilər. Remarka bütün hallarda **nəsrlə** yazılır.

**Nümunə**: "XVIII əsr. Azərbaycan. Qazax mahalı. Vidadinin evi…" (S.Vurğun. "Vaqif").

**2) surətlərin (personajların) danışığı** – iki formada özünü göstərir:

– **Monoloq** – yunancadır, mənası təkbaşına danışmaq deməkdir. Dramatik əsərlərdə obrazlardan birinin tək, öz-özünə danışığıdır. Dialoqla müqayisədə az istifadə olunur. Əksərən baş qəhrəmanın dilindən verilir. Ədəbiyyatımızda N.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərində Rüstəm bəyin, C.Məmmədquluzadənin "Ölülər" əsərində İsgəndərin, H.Cavidin "İblis" əsərində İblisin monoloqu məşhurdur.

–**Dialoq** – yunancadır, mənası **söhbət, müsahibə** deməkdir. Dramatik əsərlərdə iki və daha artıq şəxsin danışığı deməkdir. Surət və xarakterin yaradılması əsas bədii vasitədir.

## DRAMATİK NÖVÜN JANRLARI:

**1.Komediya** – yunanca olub **şən yığıncaq, şən tamaşa** mənasını bildirir. Şərqdə bu, **məzhəkə** adlanır; ərəbcə olub "**məzah**" sözündəndir, mənası **gülməli söz**, yaxud **gülməli hərəkət** deməkdir. Deməli, həyat hadisələrini gülməli tərzdə inikas etdirən dramatik əsər **komediya**, **(məzhəkə)** adlanır.

Komediyada **gülüş** əsasdır, bu gülüş əyləncə xarakterində olmayıb ictimai-əxlaqi mahiyyət daşıyır. Belə əsərlərdə mütləq gülüş və istehza hədəfi olur. Komediyada gülüş müxtəlif üsullarla yaradılır:

**1)** Personajların bacarığı ilə danışığı və hərəkəti arasında ziddiyyətin olması ilə

**2)** Surətlərin dilindən verilən sözlər vasitəsilə

**3)**Müəyyən bir mətləbi həyata keçirmək üçün ağlasığmaz tədbirin görülməsi ilə

Sabit Rəhmanın komediyaları vardır. Ü.Hacıbəyov isə musiqili komediyanın parlaq nümunələrini yaratmışdır ("Arşın mal alan", "O olmasın, bu olsun")

**İlk komediya**: M.F.Axundzadə. “Hekayəti-molla İbrahimxəlil kimyagər” (1850).

**2.Faciə** – ərəbcə olub **dəhşətli hadisə, əhvalat** mənasını bildirir. Faciənin ikinci adı olan **tragediya** isə yunanca olub **traqos – keçi, ode – mahnı** mənasını verir və **keçi haqqında nəğmə** deməkdir. Vaxtilə yunan allahlarından Dionisin şərəfinə keçini qurban kəsər, nəğmə deyib rəqs edərdilər. İndi bu söz öz ilkin mənasını itirmiş, tamaşa növlərindən biri kimi yadda qalmışdır. Deməli, böyük ümidlərin, yüksək idealların məhv olmasını əks etdirən dramatik əsər **faciə** adlanır. Faciənin sonunda baş qəhrəman üz-üzə gəldiyi ictimai qüvvədən gücsüz və imkansız olduğu üçün ölür, lakin mənəvi cəhətdən qalib gəlir. N.Vəzirovun, Ə.Haqverdiyevin, N.Nərimanovun, H.Cavidin, C.Cabbarlının faciələri vardır.

**İlk faciə**: N.Vəzirov. “Müsibəti-Fəxrəddin” (1896).

**İlk tarixi faciə:** N.Nərimanov. “Nadir şah” (1898).

**İlk mənzum faciə:** H.Cavid. “Ana” (1910)

**3.Dram** – belə janrda yazılmış əsərlərdə müxtəlif qüvvələr üz-üzə gəlir və əsər yaxşı adamların, mütərəqqi ideyanın qələbəsi ilə başa çatır. Dram qəhrəmanı yeni ideyaların daşıyıcısıdır. Dramda komik və tragik momentlər də özünü göstərir. C.Cabbarlının və S.Vurğunun dramları var.

**İlk dram**: M.F.Axundzadə. “Hekayəti-xırs quldurbasan” (1851).

**İlk mənzum dram**: C.Məmmədquluzadə. “Çay dəsgahı” (1898)

## BƏDİİ ƏDƏBİYYATDA HƏYAT HADİSƏLƏRİNİN İFADƏ ÜSULU

**1.Təhkiyə** – 2 cür təzahür edir: hadisə ya danışan adamın **şahidliyi**, ya da **rəvayət** şəklində verilir.

**2.Təsvir** – hadisənin, yaxud əşyanın əlamətlərinin sözlə ifadəsidir.

**3.Tərənnüm** – həyat və təbiət hadisələrinin təsiri ilə subyektdə yaranan hisslərin, fikir və arzuların obrazlı ifadəsi. Tərənnüm yolu ilə hadisə danışılmır, ona münasibət bildirilir.

## ƏDƏBİYYATDA GÜLÜŞ

Gülüşün iki növü vardır:

**1)Satira** – bu, **ifşaedici və öldürücü gülüşdür**. C.Məmmədquluzadənin "Ölülər" əsərində İsgəndərin Şeyx Nəsrullaha dediyi sözlər satirik gülüşə nümunədir.

**2)Yumor** – bu, **yumşaq və islahedici gülüşdür**. C.Məmmədquluzadənin "Ölülər" əsərində İsgəndərin anasına dediyi sözlər yumoristik gülüşə nümunədir. C.Məmmədquluzadənin "Poçt qutusu" və "Usta Zeynal" hekayələrində də yumoristik gülüş vardır. Oxucu Novruzəlinin və Usta Zeynalın taleyinə acıyaraq onlara gülür.

## BƏDİİ ƏSƏRİN QURULUŞU
## MÖVZU VƏ İDEYA

**1.Mövzu** – dərk edilən və dövr üçün səciyyəvi olan həyat hadisələridir. Tarixi mövzular isə müasirliklə əlaqələndirilir. Bədii əsərin yaradılmasında mövzu seçimi əsas şərtdir.

Mövzu anlayışının özü də tarixi xarakter daşıyır. Klassik ədəbiyyatda daha çox romantik, müasir ədəbiyyatda isə realist hadisələrin inikasına meyil artmışdır. Keçən əsrin 30-cu illərində ədəbiyyatın əsas mövzusu kollektivləşmə, kolxoz həyatı, so-

sializm quruculuğu idi. Müharibə dövründə isə mövzuların istiqaməti dəyişdi və müharibə mövzusu ön plana keçdi.

Eyni mövzuya bir neçə sənətkar müraciət edə bilər. "Leyli və Məcnun" mövzusunda həm N.Gəncəvi, həm də M.Füzuli yazmışdır. N.Vəzirovun "Müsibəti-Fəxrəddin" və Ə.Haqverdiyevin "Bəxtsiz cavan" əsərləri XIX əsrin axırlarında Azərbaycanda bəy-mülkədar sinfinin süqutuna, maarifçilik ideyalarının təbliğinə həsr edilmişdir.

Mövzunu iki qrupa ayırmaq olar:

**1) əsas mövzu** – C.Cabbarlının "Sevil" əsərində qadın hüquqsuzluğuna qarşı etiraz, S.Vurğunun "Muğan" poemasında quruculuq işindəki fədakarlıq, M.İbrahimovun "Gələcək gün" romanında azadlıq və demokratiya uğrunda mübarizə əsas mövzudur.

**2) yardımçı mövzu** – əsas mövzunun başa düşülməsinə xidmət edir. Məsələn, N.Gəncəvinin "Xosrov və Şirin" poemasının əsas mövzusu məhəbbətdir, lakin orada digər mövzulara da müraciət edilmişdir.

**2.İdeya** – mövzu ilə sıx əlaqədardır. Yazıçının qələmə aldığı həyat hadisəsi haqqında gəlinən qənaət, çıxarılan nəticədir. N.Gəncəvinin "İsgəndərnamə" poemasında **şahın ölkəni ədalətlə idarə etməsi** ideyası əsasdır. S.Vurğunun "Fərhad və Şirin" dramında vətənpərvərliyin təbliği, C.Cabbarlının "Od gəlini" əsərində azadlıq, müstəqillik uğrunda mübarizə başlıca ideyadır.

## MƏZMUN VƏ FORMA

M.Füzuli yazır:

Söz mənadan asılıdır, məna sözdən hər zaman,
Bir-birindən asılıdır necə ki, cism ilə can.

Şeirdə məna məzmunu, söz isə formanı ifadə edir. Bədii əsərdə **məzmun və forma vəhdətdə** olmalıdır. Lakin **məzmun** əsasdır, məzmun formanı müəyyən edir. Meydana çıxan yeni

məzmun yeni-yeni ədəbi formaları meydana çıxarır. Forma isə məzmunu tamamlamaq baxımından ona təsir göstərir.

**Məzmun** formaya nisbətən **dəyişkən**, **forma** isə məzmuna nisbətən **sabitdir, gec dəyişəndir**.

## BƏDİİ ƏSƏRDƏ HADİSƏ VƏ SURƏT

Həyat hadisələri bədii ədəbiyyatda öz ifadəsini surətlər vasitəsilə tapır.

**1.İNSAN SURƏTİ** – bədii əsərdə danışılan hadisə ilə əlaqədar müəyyən şəxslər nəzərdə tutulur.

Surətin fərdi xüsusiyyətlərinin məcmusu **xarakter** adlanır. Xarakter bir şəxsi – surəti başqalarından fərqləndirən amildir və onun ictimai mövqeyindən, psixologiyasından, əxlaqi görüşlərindən irəli gəlir.

İnsanlar və hadisələr arasındakı oxşar cəhətlərin məcmusu **tip** adlanır. Başqa sözlə, **tipik surət** oxşar cəhətlərin seçilib bir şəxsin simasında ümumiləşdirilməsi deməkdir. **Tipikləşdirmə** bədii ümumiləşdirmə deməkdir.

**Prototip, proobraz** – tipik surətin həyatdakı canlı obrazıdır. S.Vurğunun "Muğan" poemasındakı Sarvan və Manya surətlərinin prototipləri Sarvan Salmanov və Manya Kərimovadır. S.Vurğunun "Vaqif" əsərindəki Vaqif obrazının prototipi, yaxud proobrazı XVIII əsrdə yaşamış şair M.P.Vaqifdir.

Surətlər əsərdə tutduğu mövqe və yazıçının irəli sürdüyü **ideyaya münasibət baxımından** iki qrupa bölünürlər:

**1) Müsbət surət** – yazıçı ideyasına tərəfdar olur, onun təbliğatçısına çevrilir, ümumxalq mövqeyindən çıxış edir. Müsbət surətlərin yol verdiyi nöqsanlar onları mənfi surətə çevirmir.

**2) Mənfi surət** – yazıçı ideyasına qarşı çıxır, şəxsi mənafeyi ümumxalq mənafeyindən üstün tutur.

Təsvir edilən hadisələrin mərkəzində duran, aparılan mübarizədə mühüm rol oynayan, yazıçı ideyasını tam şəkildə ifadə

edən surət **bədii əsərin qəhrəmanı** adlanır. İsgəndər (N.Gəncəvi), Vaqif (S.Vurğun), Koroğlu ("Koroğlu" eposu), Hacı Qara (M.F.Axundzadə) əsərlərin qəhrəmanlarıdır.

Satirik əsərləri çıxmaq şərti ilə şeirdə müəllifin özü **lirik qəhrəman** hesab edilir.

Surətlər bədii əsərdəki **hadisələrin gedişindəki iştirakına görə** də iki qrupa ayrılır:

**1) Əsas surət** – təsvir edilən hadisələrdə fəal iştirak edir, süjet xətti ilə möhkəm bağlı olur, bədii münaqişənin inkişafında və həllində başlıca rol oynayır. Həm müsbət, həm də mənfi ola bilər.

**2) Epizodik surət** – əsərin mərkəzi xətti ilə bilavasitə əlaqəsi yoxdur, hadisələrin inkişafına ciddi təsir göstərə bilmir, az nəzərə çarpır. C.Məmmədquluzadənin "Ölülər" əsərində Hacı Həsənin qaravaşı Zeynəb, M.F.Axundzadənin "Hekayəti-Molla İbrahimxəlil kimyagər" əsərində Şeyx Salah epizodik surətlərdir.

Epizodik surətlərə iri həcmli əsərlərdə, dramatik əsərlərdə, kütləvi səhnələrdə daha çox rast gəlinir.

**Portret** – surətin xarici görkəminin təsviridir. Portret oxucuda surətə rəğbət və ya nifrət hissi yaradır.

**Əhvali-ruhiyyə təsviri** – surətin müəyyən hallarda keçirdiyi əhvali-ruhiyyəsinin, şən vəziyyətinin, məyusluğunun, nigarançılığının təsviridir. Belə təsvirlər irihəcmli əsərlərdə, xüsusilə epik janrlarda daha geniş yer tutur. M.Füzuli Məcnunun əhvali-ruhiyyəsini, pərişanlığını belə təsvir edir:

Öylə sərməstəm ki, idrak etməzəm dünya nədir?
Mən kiməm, saqi olan kimdir, meyü səhba nədir?

**2. TƏBİƏT SURƏTİ** – müəyyən bir yerin, ölkənin təsviridir. Belə təsvirə **peyzaj** da deyilir. Peyzaj fransızca olub **ölkə, məkan, yer** mənasını bildirir, insan obrazını tamamlayır və təbiətin tipik hadisələrini, müxtəlif adamları başa düşməyə

imkan yaradır. Təbiət obrazı yaradılarkən insan təbiətlə vəhdətdə verilir. Bəzən peyzajla insan obrazı ziddiyyətdə verilir; bu, bədii fikrin qüvvətli ifadəsi üçündür. M.F.Axundzadənin "Puşkinin ölümü haqqında Şərq poeması"nın başlanğıcındakı peyzajla lirik qəhrəmanın duyğuları arasında təzad vardır.

**3. ƏŞYA SURƏTİ** – bədii əsərdəki qeyri-insani varlıqlar (ev, məişət avadanlığı və s.) əşya surətinə aiddir. S.S.Axundovun "Qaraca qız" hekayəsində "Ağalıq evi"nin təsviri nümunə ola bilər: "*Ağalıq evi təzə qayda ilə tikilmiş ikimərtəbəli genbol bir imarət idi. Bundan başqa, Evin baş tərəfində üç balaca otaqdan ibarət qədim bir tikili də var idi"* Əşya surəti həm əsas surətlərin, həm də müxtəlif dövrlərdə yaşayan adamların həyat tərzini öyrənməyə imkan verir.

**4. HEYVAN SURƏTLƏRİ** – Qırat, Dürat, Zümrüd quşu, Qızıl it belə surətlərdəndir. Şifahi xalq ədəbiyyatında belə surətlər **yardımçı qüvvələr** adlanır.

## SÜJET VƏ KOMPOZİSİYA

### 1.Süjet

Nəzərdə tutulan əhvalatın bədii əsərdə müəyyən xətt üzrə inkişaf etdirilməsidir. "Süjet" sözü fransızca olub mənası əsərdə təsvir olunan **mahiyyət və hadisənin özü** deməkdir.

Bədii əsərdə hadisələr düz xətlə deyil, yüksələn və enən xətlə inkişaf edir. Süjetin sabit **mərhələləri** vardır:

**1) Ekspozisiya** – **bədii müqəddimə, bədii zəmin** də adlanır. Hadisələrin başlanğıcı ilə əlaqədardır. Əsərdə danışılacaq hadisənin yaranması və inkişafı üçün lazımi hazırlıq məqsədi güdən hissə **ekspozisiya** adlanır. M.Füzulinin "Leyli və Məcnun" poemasında Qeysin dünyaya gəlməsi və gözəl bir qadını görərkən ağlamaması əsərin ekspozisiyasını təşkil edir. S.Vurğunun "Vaqif" pyesində Vidadinin Allaha müraciəti, xanın elçi-

lərinin gəlməsi, Vidadinin onlara rədd cavabı verməsi, Vaqiflə Vidadinin görüşməsi ekspozisiyadır.

**2) Zavyazka** – **"rəbt", "düyün"** sözləri də işlədilir. Həm "zavyazka", həm də ərəbcə olan "rəbt" **düyün vurmaq, bağlamaq, rabitə yaratmaq** mənasındadır. Əsərin süjet xəttində hadisələrin bir-biri ilə bağlandığı mərhələ **zavyazka** adlanır M.Füzulinin "Leyli və Məcnun" poemasında Qeysin məktəbə getməsi, orada Leyli ilə tanış olması, bir-birlərini sevməsi və ata-anasının Leylini məktəbə buraxmaması zavyazkanı təşkil edir. S.Vurğunun "Vaqif" pyesində Əli bəyin toy məclisində Eldarla İbrahim xan, eyni zamanda Vaqiflə İbrahim xan arasındakı toqquşma və narazılıq zavyazkadır.

**3) Kulminasiya** – latınca olub "**qulmen**" sözündəndir, mənası **təpə, zirvə, yüksəklik** deməkdir. Həmin söz əvəzinə **zirvə, zirvə nöqtəsi** də işlənir. Əsərin süjet xəttində hadisələrin ən yüksək inkişaf mərhələsi **kulminasiya** adlanır. M.Füzulinin "Leyli və Məcnun" poemasında Leylinin İbn Səlama ərə verilməsindən sonra Məcnunun korluq bəhanəsi ilə Leylinin evinə gəlməsi və s. əsərin kulminasiyasını təşkil edir. S.Vurğunun "Vaqif" pyesində Qacarın Vaqifdən intiqam almaq üçün fürsət axtarması kulminasiyadır.

**4) Razvyazka** – bədii əsərdə ziddiyyətlərin açılması, intriqanın zəifləməsidir. M.Füzulinin "Leyli və Məcnun" poemasında İbn Səlamın ölümündən sonrakı hadisələr əsərin razvyazkasını təşkil edir. S.Vurğunun "Vaqif" pyesində Xuramanın özünü qayadan atması, Vaqifin Eldara məktub göndərməsi razvyazkadır.

**5) Final** – hadisələrin açılmasındakı son mərhələdir. M.Füzulinin "Leyli və Məcnun" poemasında Leylinin və Məcnunun ölümü əsərin finalını təşkil edir. S.Vurğunun "Vaqif" pyesində Qacarın öldürülməsi, Vaqifin azad olması, Vidadiyə xitabən şeir deməsi finaldır.

**2.Kompozisiya**

Seçilmiş həyat hadisələrinin bədii əsərdə bir-biri ilə əlaqələndirilməsi və müəyyən bir sistemdə qurulmasıdır. Kompozisiyanın əsas ünsürləri aşağıdakılardır:

**1) Epiqraf** – əsərin, onun hissələrinin, bəzən də fəsillərinin əvvəlində görkəmli şəxsiyyətlərdən, folklordan, hətta müəllifin özündən verilən cümlə, yaxud misradır. Bununla oxucunun diqqəti əsərin məzmununa yönəldilir. M.Cəlal "Bir gəncin manifesti" əsərinə L.Tolstoydan belə bir epiqraf vermişdir: "Bütün xoşbəxt ailələr bir-birinə bənzəyir, bədbəxt ailələrin isə hərəsi bir cür bədbəxtdir". Yaxud C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povestində Sokratdan epiqraf verilmişdir.

**2) Proloq** – yunanca **"pro", "loqos"** sözlərindən olub mənası **qabaq, ön söz** deməkdir. Əsərin əvvəlində verilən bu kiçik hissədə yazıçı oxucunu əsərdə danışılan əhvalatla yığcam şəkildə tanış edir. S.Vurğunun "Muğan" poemasında birinci nəğmədən əvvəl verilən 6 bənd bütün nəğmələr üçün ümumi giriş rolunu oynayır və proloqdur.

**3) Epiloq** – bədii əsərin sonunda verilir. Əsər boyu qaldırılan məsələlər epiloqda yekunlaşdırılır. M.Füzulinin "Leyli və Məcnun" poemasında danışılan əhvalatlar "Təmamiyi-süxən" başlığı ilə yekunlaşır və epiloqdur.

Bəzən **peyzaj** və **lirik ricət** də bədii əsərin kompozisiyasına daxil olur.

# BƏDİİ ƏSƏRİN DİLİ

Ədəbiyyatda dildən, üslubdan danışarkən bədii dil və bədii üslub nəzərdə tutulur. Ədəbi dil və bədii dil anlayışları bir-birinə zidd deyil. Onların hər ikisi xalq danışıq dilinə əsaslanır.

**Ədəbi dil** fonetik, leksik və qrammatik normalara tabedir.

**Bədii dil** isə ədəbi dildən alınıb obrazlaşdırılmış, cilalanmış dildir. Bədii dildə bəzən dialekt sözlərdən istifadə edilir.

**1.Bədii dilin tərkibi**

**1) Arxaizm** – qədim, köhnə mənasındadır. Dildə köhnəlmiş hesab edilən sözlərə arxaizm deyilir. Məsələn; **iraq** (uzaq), **uyğu** (yuxu), **tümən** (pul miqdarı), **sarban** (karvanla bağlı söz) və s.

**2) Neologizm** – yunanca "**neo**" və "**loqos**" sözlərindən olub **yeni söz** mənasını bildirir. Məsələn; **kompüter, nəfəslik, yelçəkər.** Bədii dilin zənginləşməsinə xidmət edən neologizmlər iki istiqamətdə yaradılır:

– elmin, texnikanın inkişafı ilə əlaqədar olaraq başqa dillərdən keçən sözlər

– ictimai həyatdakı inkişafın nəticəsində öz dilimizdə yaranan sözlər

**3) Varvarizm** – latınca "**barbarus**" sözündəndir və **özgə dilə məxsus olan, yadelli** mənalarını bildirir. Məsələn; spokoys (sakit olun). Varvarizmlərə M.F.Axundzadənin, C.Məmmədquluzadənin, C.Cabbarlının yaratdığı obrazların dilində tez-tez rast gəlmək olur. Hətta Aşıq Ələsgər şeirlərinin birində "**malades**" sözünü işlətmişdir.

**4) Vulqarizm** – bədii əsərdə **kobud, ədəbsiz** sözlərdən istifadə. Bu cür sözlər, adətən, müəllifin deyil, ayrı-ayrı surətlərin dilindən verilir. Belə bir cəhət isə surətlər haqqında düzgün təsəvvür əldə etməyə imkan verir. Məsələn; **köpək oğlu, heyvan oğlu heyvan** və s.

**2.Bədii təsvir vasitələri (məcazlar)**

Sözün məcazi mənası onun bilavasitə daşıdığı həqiqi mənadan fərqlənir və əlavə bir mənanı ifadə edir. "**Ocaq yanır**" həqiqi, "**ürəyim yanır**" məcazi mənadadır. Məcazi mənalı sözlər bədii təsvir vasitələrini yaradır və əsərə emosionallıq gətirir.

**1) Epitet** – yunanca olub **əlavə** deməkdir. Müəyyən cəhəti qabartmaq, nəzərə çatdırmaq üçün onu ifadə edən sözə qüvvətləndirici digər bir sözün qoşulması **epitet** adlanır. Ona **bədii təyin** də demək olar. Məsələn, **qızıl payız, gül üz, alma yanaq** və s. Qəlibləşmiş və müxtəlif sənətkarlar tərəfindən işlədilən epitetlər **müqəyyəd epitet** adlanır: **şahbaz baxışlı, hindu xalı, kaman qaşlı, gül üzlü, al yanaqlı** və s.

**2) Təşbeh** – ərəbcə olub "**oxşatmaq**", "**bənzətmək**" mənalarını bildirir. Bir əşyanın və ya hadisənin müəyyən əlamətə görə daha qüvvətli əşya və hadisəyə oxşadılması **təşbeh**, yaxud **bənzətmə** adlanır. İki əşya arasındakı oxşar əlamətin tapılmasına yönələn təşbehin tərkib hissələri:

**–bənzəyən -bənzədilən -bənzətmə qoşması**

**–bənzətmə əlaməti** (müştərək sifət)

Bunların hamısı işləndikdə **müfəssəl** təşbeh yaranır: "**Yağış damcıları almaz dənələri kimi parıldayır**"

Yalnız bənzəyən və bənzədilən işləndikdə **mükəmməl** təşbeh yaranır: "**Dəhanın sədəfdir, dişlərin inci**", "**Boyun sürahidir, bədənin büllur**"

**3) Metafora** – yunanca olub "**köçürmə**" mənasını bildirir. Digər bir adı olan "**istiarə**" isə ərəbcə olub yenə də "**köçürmə**" mənasını verir. Bir əşya və yaxud hadisənin müəyyən əlamətinin başqa əşya, yaxud hadisə üzərinə köçürülməsi **metafora (istiarə)** adlanır.

Əzizim ulu dağlar,
Çeşməli, sulu dağlar.

Burda bir igid ölmüş,
**Göy kişnər, bulud ağlar.**

Oxşarlıq və müqayisə əsasında yarandığına görə metafora ilə təşbeh arasında müəyyən yaxınlıq vardır. Lakin metafora daha mürəkkəb məcaz növüdür və onda qarşılaşdırılan əşyaların biri iştirak etmir.

**4) Metonimiya** – yunanca "**metonomadro**" sözündən olub "**ad dəyişmə**" mənasını bildirir. Bədii dildə müəyyən cisim və hadisəni bildirən söz əvəzinə onunla əlaqədar başqa bir sözün işlədilməsi yolu ilə yaranan məcaz növü **metonimiya** adlanır. Məsələn; "**Danışır Bakı**", "**Mən Füzulini oxumuşam**", "Rusiya şeirinin şah əsərini, Çevirdim **Vaqifin şirin dili**nə" (S.V.), "**Güləcəkdir** hər bir zaman, **Azərbaycan**, Azərbaycan!" (S.V.), "**Salon heyrət içindədir**".

**5) Snekdoxa** – metonimiyanın bir növüdür, bütöv anlayışı bir əlamət, tamı hissə əvəz edir. Tamın bir hissəsi **sinekdoxa** adlanır. Deməli, bütün sinekdoxalar metonimiyadır, amma bütün metonimiyalar sinekdoxa ola bilməz.

Məsələn; "Görsən tanımazsan **Yarımsaqqalı**" (Q.Zakir), S.Rəhimovun "Mehman" povestində **Qaloşlu adam**, "Saçlı" romanında isə **Saçlı**.

**7) Simvol** – yunanca "**simbolon**" sözündəndir, "**şərti əlamət**" mənası bildirir. Ərəbcə olan "**rəmz**" sözü də "**işarə ilə müəyyən məqsədi anlamaq**" məzmununu verir. Ədəbiyyatda bir sözlə müəyyən fikrin üstüörtülü şəkildə ifadə olunması **simvol (rəmz)** adlanır. Məsələn: **göyərçin -** sülh, əmin-amanlıq; **şir** – qüvvət, güc; **canavar** – acgözlük; **tülkü** – hiyləgərlik simvoludur – rəmzidir. S.Vurğunun şeirlərində **Misri qılınc** qalib döyüş rəmzinə çevrilir, "**qart canavar**" ifadəsi ilə Qacarın vəhşiliyi nəzərə çatdırılır.

**3.Bədii ifadə vasitələri (sintaktik fiqurlar)**

**1) Bədii sual** – oxucuda hiss-həyəcan doğurmaq üçün fikrin sual formasında ifadə olunmasıdır. Qrammatik suallardan fərqli olaraq belə suallara cavab tələb olunmur, bir növ cavab özündə olur. Bədii suala **ritorik** sual da deyilir. Məsələn; "Məni candan usandırdı, cəfadan yar usanmazmı?" (M.Füzuli).

**2) Bədii təzad** – buna **antiteza** da deyilir. Bədii əsərdə məzmunca bir-birinə zidd iki anlayış və ya vəziyyətin qarşılıqlı şəkildə verilməsi **təzad** adlanır. Təzad müxtəlif yollarla yaranır:

–bir-birinə zidd olan iki sözün işlədilməsi ilə: "Qışda dağlar **ağ** geyinər, yaz **qara**"

–bir-birinə zidd olan hadisə və əhvali-ruhiyyənin verilməsi yolu ilə: M.F.Axundzadənin "A.S.Puşkinin ölümünə Şərq poeması"nda baharın təsvirinin verildiyi yerdə söz sənətkarının kədərli olmasıdır.

**3) Təkrir** – eyni sözün, yaxud söz qrupunun təkrar olunmasıdır. Hər cür təkrar təkrir sayıla bilməz. Təkrarlar bədii sözün təsir gücünü artırdıqda təkrir hesab edilir. Təkririn iki növü vardır:

**–anafora** – mənası "**eyni başlanğıc**" deməkdir. Misralar, yaxud cümlələr eyni sözlə başlayırsa, belə təkrirlər **anafora** adlanır:

"**Eşq**dir mehrabı uca göylərin,
**Eşq**siz, ey dünya, nədir dəyərin?" (N.Gəncəvi)

**–epifora** – misralar, yaxud cümlələr eyni sözlə qurtarırsa, belə təkrirlər **epifora** adlanır:

"Getmə, ey baharım, ey gündüzüm gəl,
Soyuq bir ürəyə necə dözüm, gəl" (B.Vahabzaə)

**4) Kinayə** – ərəbcə olub tənə etmək, toxunmaq mənasını bildirir. Digər bir adı olan "**ironiya**" isə yunancadır və mənası **hiyləgərlik, istehza** deməkdir. Müəyyən bir fikrə dolayı yolla,

örtülü şəkildə münasibət bildirmək **kinayə (ironiya)** adlanır. Kinayənin daha yüksək formasına **təriz (sarkazm)** deyilir.

S.Vurğunun "Vaqif" pyesində Eldar Qacara kinayə ilə belə söyləyir: **"Bəh…, bəh… nə söz var ki, pələngsən, pələng**". Yaxud Qacarın dediyi aşağıdakı sözlər kinayədir:

"Vətən! Çoxmu sevir məni o vətən?
Mənə həcv yazır hər yoldan ötən!..."

**5) Mübaliğə** – ərəbcə olub "**şişirtmək**" mənasını verir. Digər bir adı olan "**hiperbola**" də həmin mənanı verir. Bədii əsərdə hadisənin, hiss-həyəcanın əslində olduğundan daha güclü, qabarıq verilməsi – şişirdilməsi **mübaliğə** adlanır. Məsələn:

"Od tökür, od tökür günəş ağzından" (S.Vurğun)

**Yaxud**:

"Olsaydı məndəki ğəm Fərhadi-mübtəladə,
Bir ah ilə verərdi min Bisütuni badə" (M.Füzuli)

**6) Litota** – yunanca olub "**kiçiltmək**" mənasını verir. Məsələn;

"Döydü yağış məni, döydü qar məni,
Minsəm bir qarışqa aparar məni"

**7) İnversiya** – latınca olub "**yerdəyişmə**" mənasını verir. Nitqin, ifadənin bədii təsir gücünü artırmaq üçün sözlərin qrammatik ardıcılığının, söz sırasının qəsdən pozulması **inversiya** adlanır. Qrammatik qaydaya görə cümlədə mübtəda əvvəldə, xəbər axırda, tamamlıq isə mübtədadan sonra gəlir. Sıranın qəsdən pozulması bədii fikrin qüvvətli ifadəsinə kömək edir. Məsələn; "**Darayır saçlarını gün**".

## BƏDİİ YARADICILIQ METODU

**Bədii yaradıcılıq metodu** – həyat hadisələrini təsvir etmək və onları ümumiləşdirmək üçün yazıçının əsas götürdüyü prinsipdir. Ədəbiyyatda iki əsas yaradıcılıq metodu var: **realist və romantik**.

**1. Realist metod** – latınca "**realis**" sözündəndir, mənası **həqiqət, olduğu kimi** deməkdir. Bu metoda əsaslanan sənətkar həyat hadisələrinə daha çox sadiq qalır. Həyatı və insanları düzgün, bəzək-düzəksiz əks etdirən metod **realizm** adlanır. Realist metod tipik xarakterlərin tipik şəraitdə verilməsini tələb edir. Məsələn, M.F.Axundzadənin yaratdığı Hacı Qara obrazı həm **tipik**, həm də **real** surətdir. A.Şaiq "Köç" hekayəsini yazarkən realist inikas metoduna əsaslanmışdır. M.Ə.Sabir "şairəm, dövrümün ayinəsiyəm" söyləyəndə hadisələrə real münasibət bəsləməyi özünün borcu hesab edirdi. Yaxud L.Tolstoy rus inqilabının güzgüsü kimi qiymətləndiriləndə, Belinski Puşkinin "Yevgeni Onegin" əsərini "rus həyatının ensiklopediyası" adlandıranda məhz realist metodun prinsiplərindən çıxış edirdi. Vaqif bizim ədəbiyyatda ilk realist şair kimi tanınır. Bu, **ilkin realizmdir**.

Ədəbiyyatımızın **tənqidi realizm** mərhələsində isə tənqid ön plana keçir. Tənqidi realizm XIX əsrdə meydana çıxmış və formalaşmışdır. M.F.Axundzadə, N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Sabir tənqidi realizmin nümayəndələridir. Tənqidi realistlər həyatdakı eybəcərlikləri tənqidi şəkildə açıb göstərməklə yanaşı, həyati ideallarını da oxucuya çatdırırlar.

**2. Romantik metod** – "**roman**" sözündəndir və "**kitabda olduğu kimi**" mənasını verir. Sənətkarın fantaziyasına, xəyalına əsaslanan metoddur. Həyat hadisələrinin özünü yox, o barədə düşüncələri qələmə almaq aparıcı cəhətdir. Romantik metod sə-

nətkardan həyatı və insanları gördüyü kimi deyil, **görmək istədiyi şəkildə** verməyi tələb edir. Romantik metodu əsas götürən sənətkarın əsərlərində **subyektiv münasibət** ön plana keçir.

N.Gəncəvi və M.Füzuli romantik metod əsasında yazıb yaratmışlar. Onların qəhrəmanları da romantik qəhrəmanlardır. Klassik ədəbiyyatda müşahidə olunan romantik metod sonralar daha da qüvvətlənir. Hüseyn Cavid, Məhəmməd Hadi, Abdulla Şaiq, Abbas Səhhət romantik metoddan geniş şəkildə istifadə etmişlər.

## ƏDƏBİ CƏRƏYAN

**Ədəbi cərəyan** – tarixin müəyyən inkişaf mərhələsində yaranaraq ideya və məsləkcə bir olan yazıçıları əhatə edir. Burada həyat hadisələrinə münasibət, üslub, istək və arzu oxşarlıqları da vardır. Başqa sözlə ədəbi cərəyan **konkret tarixi şərait**, **vahid estetik prinsip** və **sənətkar şəxsiyyətlərinin toplusu** deməkdir.

"**Mollanəsrəddinçilər**" bir ədəbi cərəyanı təmsil və təşkil edir. Bu ədəbi cərəyana C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Nəzmi, Ə.Qəmküsar, M.S.Ordubadi daxildir.

"**Füyuzatçılar**" isə başqa bir ədəbi cərəyanı təmsil və təşkil edirlər. Onun nümayəndələri H.Cavid, M.Hadi, A,Şaiq, A.Səhhət və başqalarıdır.

"**Sentimentalizm**" ədəbi cərəyanı da vardır.

Bizim ədəbiyyatda **naturalizm, dekadentizm, akmeizm** cərəyanlarına rast gəlinmir.

## ƏDƏBİ MƏKTƏB

**Ədəbi məktəb** – ustad kimi qəbul olunan bir sənətkarın yaradıcılığından həmin janrda və üslubda yazan sənətkarların istifadə etməsidir. N.Gəncəvi **"Xəmsə"**yə, M.Füzuli Azərbaycan dilində yazdığı **qəzələ**, Aşıq Ələsgər **aşıq şeirinə**, M.F.Axund-

zadə **dramaturgiyaya**, M.Ə.Sabir **satirik şeirin inkişafına** görə ədəbi məktəb yaratmışlar.

Ədəbi məktəblər **sələf** və **xələf** prinsipinə əsaslanır və bir sənətkarın yaradıcılıq xüsusiyyətlərinin başqaları tərəfindən qəbul edilməsi ilə bağlıdır.

Ədəbiyyat tariximizdə "**Molla Nəsrəddin**" və "**Füyuzat**" jurnallarının adı ilə bağlı ədəbi məktəblər də vardır.

Rus ədəbiyyatında A.S.Puşkinin adı ilə bağlı ədəbi məktəb vardır.

## AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI

Ədəbiyyat iki yolla yaranıb inkişaf edir: **şifahi** və **yazılı**.

Ədəbiyyatın bu qolları arasında aşağıdakı fərqlər vardır:

**1)** Şifahi ədəbiyyat **şifahi formada**, yazılı ədəbiyyat isə **yazılı şəkildə** yaranıb inkişaf edir.

**2)** Şifahi ədəbiyyatın konkret **müəllifi olmur** və xalqın ümumi yaradıcılığının məhsuludur,

yazılı ədəbiyyat isə **müəllifli ədəbiyyatdır**.

**3)** Şifahi ədəbiyyat **çoxvariantlı**, yazılı ədəbiyyat isə **təkvariantlıdır**.

**4)** Şifahi ədəbiyyat ağızdan-ağıza, nəsildən-nəslə keçdiyinə görə yarandığı dövrün **dil-üslub xüsusiyyətlərini qoruyub saxlamır**, yazılı ədəbiyyat isə **saxlayır**.

**5)** Şifahi ədəbiyyat **ən qədim dövrlərdə** meydana çıxmış və ondan **sonra yaranan** yazılı ədəbiyyatın inkişafına təsir göstərmişdir. N.Gəncəvinin yaradıcılığında **qədim türk eposunun** və **Şərq xalqları folklorunun**; Ş.İ.Xətayinin, M.P.Vaqifin, Q.Zakirin yaradıcılığında **aşıq ədəbiyyatının, xalq poeziyasının**; M.F.Axundzadə və C.Məmmədquluzadə dramaturgiyasında **xalq tamaşalarının, canlı danışıq dilinin** təsiri qabarıq şəkildə hiss edilir. Qırğız yazıçısı Çingiz Aytmatovun, qazax şairi Oljas

Süleymenovun yaradıcılığı da folklorun yazılı ədəbiyyata təsirini aydın şəkildə təsdiq edir.

Şifahi ədəbiyyatda xalqın etnik, mifoloji görüşləri, qədim dini, mənəvi-əxlaqi təsəvvürləri, adət-ənənələri geniş şəkildə əks olunur. Bununla yanaşı ədəbiyyat milli sərhəd tanımayan ideyaları, arzu və istəkləri də ifadə edir. Ədəbiyyat nə qədər **millidirsə**, o qədər **beynəlmiləldir**. Azərbaycan xalqının ədəbiyyatı ümumtürk ədəbiyyatının üzvi tərkib hissəsidir.

**LİRİK NÖV**

Buraya nəğmələr, mahnılar, bayatılar və s. daxildir.

**1.NƏĞMƏLƏR**

**1) Əmək nəğmələri** – əmək prosesində yaranan, oxunan nəğmələrdir. Ağır işi yüngülləşdirmək, yorğunluğu isə çıxarmaq məqsədilə oxunan bu nəğmələr içərisində **holavar** və **sayaçı sözlər** daha geniş yayılmışdır.

–**Holavarlar** əkinçilik və cütçülüklə bağlı nəğmələrdir. Öküz-kəl, kotan, mac sözlərinə tez-tez rast gəlinir.

–**Sayaçı sözlər** qoyunçuluqla bağlı nəğmələrdir. Çoban və sağıcıların qoyun-quzuya rəğbəti ifadə olunur. Sayaçı sözlərdə, adətən, qoyuna müraciət edilir, ondan xeyir-bərəkət dilənir.

**2) Mərasim nəğmələri** – insanların qədim həyat və məişəti, dünyagörüşü və etiqadları ilə bağlıdır. Onların ikisi daha geniş yayılmışdır:

–**Toy nəğmələri** – elçilik, nişan, qız köçürmək, oğul evləndirmək, gəlin gətirməklə bağlı oxunan nəğmələrdir. Belə nəğmələrin əsas məzmununu vəfa, sədaqət, etibar, gözəllik, mərdlik kimi mənəvi-əxlaqi keyfiyyətlər təşkil edir. **Nümunə**:

Qızıl üzüyün qaşı,
Bişdi bağrımın başı.
Mən deyən yar olmasa,
Yandırram dağı, daşı.

–**Yas nəğmələri** – ölümlə, fəlakətlə bağlı oxunan **ağılardır**. Ağılarda ölən adamın ayrılığından doğan qəm-qüssə əhvali-ruhiyyəsi güclü olur. **Nümunə**:

Bostanda tağım ağlar,
Basma, yarpağım ağlar.
Sağ durduqca mən özüm,
Ölsəm, torpağım ağlar.

**3) Mövsüm nəğmələri** – İlin müxtəlif fəsilləri ilə əlaqədar oxunan nəğmələrdir: "**Səməni", "Xıdır Nəbi", "Yel baba", "Duman, qaç", "Günəş, çıx", "Yağmır, gəl**". Bu nəğmələr qışın tez qurtarması, yazın gəlməsi, qara buludların dağılması və havaya sərinlik gəlməsi ilə əlaqədardır. Nümunə:

Taxılımız yerdə qaldı,
Yaxamız əldə qaldı.
A yel baba, yel baba,
Qurban sənə, gəl, baba.

Yaxud başqa bir nəğməyə diqqət yetirək:

Üçü bizə yağıdır,
Üçü cənnət bağıdır.
Üçü yığır, gətirir,
Üçü vurur, dağıdır.

Şeirdə qış – yağı (düşmən), yaz – gözəllik, yay – bolluq, payız – gözəlliyi vurub dağıdan fəsil kimi verilir. Beləliklə, nümunədə ayrı-ayrı fəsillər haqqında təsəvvürlər öz əksini tapmışdır.

**4) Qəhrəmanlıq nəğmələri** – belə nəğmələr həm döyüşdən əvvəl, həm də döyüş zamanı oxunur və döyüşçüləri səfərbər edərək igidliyə, cəngavərliyə çağırır. Belə nəğmələr Koroğlu, Qaçaq Nəbi, Qaçaq Kərəm, Qatır Məmməd kimi el qəhrəmanlarının dilindən oxunan nəğmələrdir. Nümunə:

Dolun at belinə, qoç dəlilərim,
Xotkarı taxtından endirək, hoydu!

Talayaq mülkünü, alaq malını,
Öyünü başına endirək, hoydu!

**5) Məişət nəğmələri** – bunların əsasını laylalar və oxşamalar təşkil edir.

**–Laylalar** – anaların və nənələrin körpə uşaqlar yatarkən onlara söylənən nəğmələrdir. Adətən, uşaqlara yuxu gətirmək üçün oxunur və arzu-istəklər də ifadə edir. Nümunə:

Evim, eşiyim, laylay,
Sən get şirin yuxuya,
Çəkim keşiyin, laylay.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

**–Oxşamalar** – uşaq oyandıqdan sonra onu əzizləmək, nazlandırmaq məqsədilə oxunan nəğmələrdir. Oxşamalar bəzən **əzizləmələr, nazlamalar** da adlanır:

Göydəki quşlar
        Bu balama qurban.
Yağan yağışlar
        Bu balama qurban…

Oxşamalar həm oynaq və şən, həm də zarafatyana ifadələrlə zəngin olur.

**2.MAHNILAR**

Mahnıların özünəməxsus havasının – melodiyasının olması onu nəğmələrdən fərqləndirir. Daha çox **məhəbbətin tərənnümünə** həsr edilmişlər. Eyni zamanda **gözəllik, azadlıq, vətənpərvərlik** ideyaları da təbliğ olunur. Məhəbbət mövzulu mahnılarda aşiqin ürək çırpıntıları öz əksini tapır:

Küçələrə su səpmişəm,
Yar gələndə toz olmasın.
Elə gəlsin, elə getsin,
Aralıqda söz olmasın.

**1) Məhəbbət mövzulu mahnılar**: "Küçələrə su səpmişəm".

**2) Məhəbbət və təbiətin vəhdətdə olduğu mahnılar**: "Üçtelli durna", "Kəklik", "Ahu kimi", "Gül açdı", "Bülbüllər oxur".

**3) İctimai-siyasi məzmunlu mahnılar** – "Gül açdı" ("Mən yardan ayrılmazdım"), "Qadan alım", "Budur gəldi əsirlərin karvanı", "Sona bülbüllər", "Çal papaq", "Bizi ayırdılar ata-anadan"

**4) Digər mahnılar** – "Apardı sellər Saranı", "Samavara od salmışam", "Sarı gəlin", "Laçın", "Qalanın dibində", "Pəncərədən daş gəlir".

Mahnılar 2, 3, 4 bənddən ibarət ola bilir. Bəzilərində nəqaratlar işlənir.

Üzeyir Hacıbəyov mahnılar haqqında yazmışdır: "El mahnıları Azərbaycan xalqının əhvali-ruhiyyəsini şərh, zövqi-musiqisini bəyan, şeir və musiqidəki yaradıcılıq qabiliyyətinin dərəcəsini təyin edə bilən böyük bir material olduğundan onun istər musiqi, istər ədəbi, istər psixoloji, istər etnoqrafik əhəmiyyəti çox böyükdür".

## 3.BAYATILAR

Lirik növün ən çox yayılmış janrıdır. Nəğmələr və mahnıların bəziləri forma baxımından bayatıdır. Bayatıların qəliblənmiş sabit janr-forma xüsusiyyəti var, bu isə onu nəğmə və mahnılardan fərqləndirir.

**Bir** bənddən**, dörd** misradan**,** hər misrası **yeddi hecadan** ibarət olur**, qafiyələnməsi: AABA.** Birinci və ikinci misrada zəmin hazırlanır, əsas fikir isə üçüncü və dördüncü misralarda söylənir.

Bayatılar, adətən, **"Mən aşiq**" (yaxud "Mən aşıq"), "**Aşiqəm", "Əzizim", "Eləmi"** ifadələri ilə başlayır.

Bayatıların əsas hissəsi **məhəbbət** mövzusundadır. M.Hüseyn deyirdi: "Bayatıların ən qüvvətli nümunələrini sevgi lirikası adlandırmaq daha doğru olar. Burada həmişə incə insan hissləri dərin və səmimi bədii obrazlar vasitəsilə verilir".

İctimai-siyasi, əxlaqi-tərbiyəvi məzmun daşıyan, vətənə, ailəyə, ata-anaya sevgi aşılayan bayatılar da vardır. Aşağıdakı bayatı vətən mövzusundadır:

Əziziyəm, dilən gəz,
Dilən, könlüm, dilən gəz!
Qürbətdə xan olunca
Vətənində dilən gəz.

Sarı Aşıq, Xəyyat Mirzə kimi el sənətkarlarının, Şah İsmayıl Xətayi, Məhəmməd Əmani, Qasım bəy Zakir kimi şairlərin yaradıcılığında bayatının nümunələri vardır.

## EPİK NÖV

Epik növün **janrları** aşağıdakılardır:

### 1. ƏFSANƏLƏR

Əfsanələr xalqın əski dünyagörüşü, düşüncə tərzi, arzu və istəkləri ilə bağlı yaranmışdır. Epik növün digər janrlarından fərqli olaraq əfsanələrdə qeyri-adi, fövqəltəbii əhvalat və hadisələr təsvir olunur. Əfsanələrdə insan asanlıqla quşa, heyvana, səma cisimlərinə çevrilir; dağlar, çaylar, güllər, çiçəklər dil açıb danışır; Tanrı öz bəndəsinin səsini eşidib, onun istədiyini dərhal yerinə yetirir. Əfsanələrin aşağıdakı növləri məlumdur:

**1) Kosmoqonik əfsanələr** – səma cisimləri haqqındadır. Belə əfsanələrin qəhrəmanları Ay, Günəş və ulduzlardır. "**Günəşlə Ay**" əfsanəsi çox səciyyəvidir. Burada Ayın Günəşi sevməsi və sevgisinin qiymətləndirilməməsi müqabilində ondan uzaqlaşması təsvir edilir.

**2) Zoonimik əfsanələr** – quşlar və heyvanlar haqqındadır: **"Turac", "Qu quşu", "Şanapipik", "Maral", "Qızıl ilan".**

**3) Toponimik əfsanələr** – şəhər, kənd, qala, dağ, bürc və s. yer adları ilə bağlıdır: **"Beşbarmaq dağı", "Siyəzən", "Pəri qala", "Səngəçal", "Dəmirqaya", "Dədəgünəş".**

**4) Etnonimik əfsanələr** – tayfa, xalq, el, nəsil adları ilə əlaqədar yaranmışdır: **"Bayat", "Oğuz**" (bu əfsanə oğuzların tarix səhnəsinə çıxması haqqındadır).

Əfsanə qəhrəmanlarının timsalında Xeyirə və Gözəlliyə məhəbbət, Şərə və Eybəcərliyə nifrət hissi aşılanır. Əfsanələrdə xalq ətraf mühiti canlı bir varlıq kimi dərk edir. Xalq əfsanələri əsasında yazılmış əsərlər:

**1) S.Vurğun. "Ayın əfsanəsi"** poeması.

**2) İ.Əfəndiyev. "Apardı sellər saranı" və "İsa-Musa"** hekayələri.

**2.RƏVAYƏTLƏR**

Rəvayətlərdə real zəmin üstünlük təşkil edir, həmçinin bu cəhət onu əfsanələrdən fərqləndirir. Rəvayətlər tarixən baş vermiş hadisələr, yaxud tarixi şəxsiyyətlərlə bağlı əhvalatlardır. Onlar "Rəvayətə görə", "Deyilənə görə", "Belə rəvayət edirlər ki" ifadələri ilə başlanır. Rəvayətlər iki qrupa ayrılır:

**1)**Tarixi şəxsiyyətlərlə bağlı olanlar – Nəsimi, Həbibi, Xətayi, Füzuli, Vaqif, Aşıq Ələsgər və başqaları ilə bağlı maraqlı rəvayətlər vardır.

**2)**Coğrafi ərazilərlə, yer adları ilə bağlı olanlar – "Bibiheybət", "Qarı dağı", "Sınıq körpü", "Şuşa", "Xatın arxı".

Xalq rəvayətləri əsasında yazılmış əsərlər:

**1)C. Cabbarlı "Qız qalası"** poeması

**2)M.Müşfiq. "Çoban"** poeması

**3)S.Vurğun. "Aslan qayası"** poeması

**4)İ.Əfəndiyev. "Qarı dağı"** hekayəsi

## 3.LƏTİFƏLƏR

Lətifələr – yığcam və **gülməli** hekayələrdir. Lətifələrin əsasında **gülüş** dayanır. Onlarda həyatdakı və məişətdəki qüsurlar əks olunur və bu qüsurların islahına çalışılır.

**Bəhlul Danəndə, Abdal Qasım, Ayrım Tağı, Mirzə Bağı, Hacı dayı** kimi lətifə qəhrəmanları da vardır.

**Molla Nəsrəddin** ən məşhur lətifə qəhrəmanıdır. Lətifələrin çoxu onun adı ilə bağlıdır. Eyni zamanda Molla Nəsrəddin ümumiləşmiş surətdir. Yalnız Azərbaycan ədəbiyyatında deyil, digər türk-müsəlman xalqlarının folklorunda da məşhurdur. Hökm sahibləri: xan da, qazı da, hakim də onun müdrikliyi qarşısında aciz qalır və gülünc vəziyyətə düşürlər.

**“Evi düzəldərik”, “Mindiyimi saymıram”** lətifələrində Molla Nəsrəddin özünü avam bir adam kimi aparır və o, ətrafdakıları özünə güldürür. Molla Nəsrəddin camaatı özünə güldürməklə əslində onları avamlığa, ətalətə və tənbəlliyə güldürür. Beləliklə, Molla Nəsrəddin həm başqalarına gülən, həm də başqalarını özünə güldürən lətifə qəhrəmanı kimi yaşayır.

Cəlil Məmmədquluzadə el müdrikinə məhəbbət əlaməti olaraq çap etdirdiyi jurnalı “Molla Nəsrəddin” adlandırmış və özünə Molla Nəsrəddin təxəllüsü götürərək publisist əsərlərinin çoxunu həmin imza ilə yazmışdır.

## 4.NAĞILLAR

Epik növün **həcmcə ən böyük** janrıdır. Nağılların əsas xüsusiyyətləri:

**1)** Əşya və təbiət hadisələrinin canlandırılması

**2)** İnsanlara məxsus əlamətlərin əşya və heyvanlar üzərinə köçürülməsi

**3)** Əhvalatların geniş epik lövhələrlə təsviri

Xalqın qədim düşüncələri və dünyagörüşü ilə bağlı yaranan nağıllarda xeyir şərə, işıq qaranlığa, həyat ölümə, haqq na-

haqqa qalib gəlir. Sehr, əfsun, cadu, tilsim, əjdaha kimi fantastik qüvvələrə nağıllarda tez-tez rast gəlinir.

Nağıllarda epik növün digər janrlarından fərqli olaraq **sabit forma** əlamətləri vardır:

**1) Pişrov** adlanan və nəzm şəklində olan və dinləyicilərin diqqətini cəlb etmək məqsədi daşıyan kiçik bir müqəddimə ilə başlayır:

Hamam, hamam içində,
Xəlbir saman içində.
Dəvə dəlləklik eylər
Köhnə hamam içində.
Qarışqa şıllaq atdı,
Dəvənin budu batdı.
Xanın yarıtmaz oğlu
Elin varını satdı.
Puluna doşab aldı,
İçdi, yıxıldı-yatdı.

**2)** Giriş sözləri söylənir: "Biri varmış, biri yoxmuş, Allahdan başqa heç kim yoxmuş", "Günlərin bir günündə, Məmmədnəsir tinində, toyuqların hinində" və s.

**3)** Əsas əhvalatlar başlayır və hadisələri bir-biri ilə əlaqələndirmək üçün aşağıdakı ənənəvi cümlələr işlədilir: "Nağıl dili yüyrək olar", "Az getdi, üz getdi, dərə, təpə, düz getdi", "Dərələrdən sel kimi, təpələrdən yel kimi, badiyi-sərsər kimi", "Orda ayla, illə, burda müxtəsər dillə" və s.

**4)** Sonluqda isə söyləyici nağılı belə yekunlaşdırır: "Onlar yedilər, içdilər, yerə keçdilər. Siz də yeyin, için, dövrə keçin", "Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl deyənin".

Nağıllar **mövzuca** aşağıdakı qruplara bölünür:

**1) Sehrli nağıllar** – sehr, cadu, əjdaha, div, tilsim, pəri, sehrli meyvələr, quşlar, əşyalar. Qəhrəmanlar divlərə, əjlahalara

və müxtəlif sehrli qüvvələrə qarşı vuruşurlar. Hadisələr yalnız real dünyada deyil, yeraltı, qaranlıq dünyada da baş verir.

Nümunələr: **"Məlikməmməd", "Şəms və Qəmər", "Sehrli üzük", "Şahzadə Mütalib".**

**2) Heyvanlar haqqında nağıllar** – əsasən, **alleqorik** planda verilir və personajları (surətləri) müxtəlif heyvanlardır: tülkü – hiyləgərliyi, şir – qəddarlığı, dovşan – qorxaqlığı, qurd yırtıcılığı təmsil edir.

Nümunələr: **"Tülkünün kələyi", "Şir və tülkü", "Qoca aslan", "Çil madyan".**

**3) Tarixi nağıllar** – tarixi şəxsiyyətlərin həyat və fəaliyyəti ilə yaranır. Belə nağıllarda hökmdarlar və padşahlar, sərkərdələr və xalq qəhrəmanları aparıcı surətlərdir.

**İsgəndər, Dara, Ənuşirəvanla** bağlı nağıllar vardır.

Yayılması baxımından **Şah Abbasla** bağlı nağıllar daha üstündür:

–**"Baftaçı Şah Abbas", "Şah Abbasın doğulması"** nağıllarında Şah Abbas xeyirxahdır.

– **"Üç bacı", "Saleh və Valeh"** adlı nağıllarda isə qəddar, zülmkar və ədalətsizdir.

**4) Ailə-məişət nağılları** – xalqın gündəlik həyatı və yaşayış tərzi ilə daha sıx bağlıdır və say etibarilə digər qrup nağıllardan daha çoxdur.

Nümunələr: "**Yeddi qardaş, bir bacı", "Usta Abdulla", "Yetim İbrahim", "İlyasın nağılı**".

## 5. ATALAR SÖZLƏRİ

**Atalar sözləri** – yığcamdır, adətən, bir cümlədən ibarət olur. Həm **nəzm**, həm də **nəsrlə** yazılır. Sınaqdan keçirilmiş həqiqətləri əks etdirir, fikir bitkin və tamdır, müstəqil şəkildə işlənir. Atalar sözlərində mərdlik, müdriklik, əməksevərlik, humanizm, vətənpərvərlik təbliğ edilir.

Nümunələr: "**Qarı düşmən dost olmaz", "Hirsli başda ağıl olmaz", "Zəhmət çəkməyən bal yeməz", "Güc birlikdədir", "Vətənin qədri qürbətdə bilinər**".

Azərbaycan yazıçıları atalar sözlərini öz əsərlərinin adına vermişlər. Məsələn, N.Vəzirovun "Daldan atılan daş topuğa dəyər", "Sonrakı peşmançılıq fayda verməz" və s.

## 6. MƏSƏLLƏR

**Məsəllər** – atalar sözləri kimi yığcamdır, lakin fikir natamamdır. Müəyyən hadisə və əhvalatla bağlı olur, müstəqil işlənə bilmir. Məsəllər atalar sözlərinin yaranması üçün zəmin rolunu oynayır.

Nümunələr: "**Sən çaldın", "Qələt yağ küpəsindədir", "Doyan o rəhmətlik kimi olar", "Əkəndə yox, biçəndə yox yeyəndə ortaq qardaş", "Tənbələ dedilər qapını ört, dedi külək örtər**".

## 7. TAPMACALAR

**Tapmacalar** – müəyyən bir əşyanın, yaxud hadisənin əlamətləri göstərilir və həmin əlamətlər əsasında əşya və hadisənin özü tapılır. Həm **nəzm**, həm də **nəsrlə** yazılır. Dinləyicilərin biliyini, zehni qabiliyyətini yoxlamaq üçündür:

Ağaca çıxar adamla,
Bir nəlbəki badamla.
Nə dili var, nə ağzı,
Hey danışır adamla. (Kitab)

Tapmacalarda epitet, təşbeh, metafora kimi bədii təsvir vasitələri işlənir.

## DRAMATİK NÖV

### 1. XALQ OYUNLARI

Xalq oyunlarından istirahət saatlarını mənalı keçirmək üçün istifadə edilmişdir.

Nümunələr: "**Xan oyunu", "Motal-motal", "Əl üstə kimin əli", "Kosa-kosa".**

**"Xan oyunu**" ən azı 4 nəfərin iştirakı ilə olur. Vəzifələr seçilir: xan, vəzir, cəllad. Yerdə qalanlar oğru olurlar. Xan oğruları həm cəzalandırır və həm də azad edir.

### 2.XALQ TAMAŞALARI

Başqalarına göstərmək üçündür. Karvansara həyətində, yaxud meydanlarda nümayiş etdirilən tamaşalardır.

Nümunələr: "**Tənbəl qardaş", "Kosa-kosa", "Bic nökər", "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş**".

"**Tənbəl qardaş**" 3 hissədən ibarətdir və burada əməyə, zəhmətə məhəbbət ideyası ifadə edilmişdir.

**"Bic nökər**" 1 pərdəlidir və əxlaqi saflıq təbliğ olunur.

### 3.ŞƏBİHLƏR

Dini tamaşalardır. Məhərrəmlik mərasimi zamanı, xüsusilə Aşura günü göstərilir. Kərbəlada İmam Hüseynin və onun tərəfdarlarının müsibətləri əks olunur.

# AŞIQ YARADICILIĞI

## 1. AŞIQ ŞEİRİ

Aşıqları müxtəlif dövrlərdə **ata, dədə, ozan, varsaq** adlandırmışlar. Onların fəaliyyətində **musiqi, şeir** və **rəqs** birləşir.

Aşıq şeirini folklorun digər nümunələrindən fərqləndirən cəhət onun **müəllifinin** olmasıdır. Beləliklə, aşıq yaradıcılığı həm dini elmlərlə, sufizmlə, həm də yazılı ədəbiyyatla sıx bağlıdır.

Şah İsmayıl Xətayi dövründə Səfəvilər sarayına toplaşmış aşıqlar vətənpərvərlik ruhunun güclənməsində xüsusi rol oynamışlar. XVI əsrdən başlayaraq yazılı ədəbiyyat aşıq yaradıcılığının təsiri altında olmuş, XVII-XVIII əsrlər Azərbaycan intibahında isə aşıq yaradıcılığı əsas rol oynamışdır.

Aşıqlar iki qrupa bölünür:

**1) Yaradıcı aşıqlar** – şeir qoşur, saz havası bəstələyir və onları oxuyurlar: Dirili Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Dədə Ələsgər, Hüseyn Bozalqanlı, Aşıq Şəmşir, Aşıq Şakir, Aşıq Hüseyn Cavan, Mikayıl Azaflı.

**2) İfaçı aşıqlar** – ustadların əsərlərini ifa edirlər: Aşıq Əmrah, Aşıq Ədalət, Aşıq Kamandar, Aşıq Hüseyn Saraclı.

## 2. DASTANLAR

Dastan – aşıq şeirinin **şahı**dır. **Nəzm** və **nəsrin** bir-birini əvəzləməsi prinsipi ilə qurulur. Dastanın nəzm hissəsi, əsasən, **qoşma, gəraylı** və **varsağılardan** ibarətdir. Aşıq əhvalatları danışır, qəhrəmanların hiss və duyğularını isə şeir və musiqi ilə çatdırır.

Dastanların **əsas xüsusiyyətləri**:

– həcm böyüklüyü

–əhvalatların geniş epik təsviri

– qəhrəmanların fəaliyyəti ilə düşüncələrinin vəhdətdə verilməsi

Dastanlar mövzusuna görə 2 yerə bölünürlər:

1) Qəhrəmanlıq dastanları – xalqın, vətənin müstəqilliyi uğrunda mübarizə aparan mərd oğulların igidliyi və fədakarlığı əks etdirilir: **“Dədə Qorqud”**, **“Koroğlu”**, **“Qaçaq Nəbi”**, **“Qaçaq Kərəm”**, **“Səttarxan”**, **“Qatır Məmməd**”.

2) Məhəbbət dastanları – saf, təmiz sevgi hissləri və gənclərin fədakarlığı təsvir və tərənnüm olunur: “**Abbas və Gülgəz”**, **“Əsli və Kərəm”**, **“Aşıq Qərib**”. Məhəbbət dastanlarının əvvəlində üç **ustadnamə** söylənir, sonra **əsas əhvalatlar** danışılır və **duvaqqapma** ilə bitir. Çox zaman danışılan epizod yarımçıq saxlanılır, dinləyicilər intizarda qalır, söyləyici isə “İndi Ziyad xan toy tədarükündə olsun, görək Qara Keşiş neylədi?” deyərək başqa bir epizoda keçir.

Azərbaycan yazıçılarından **Nəbi Xəzri, Anar, Elçin, Kamal Abdulla** xalq dastanlarının motivləri əsasında roman, povest, hekayə, dram və s. əsərlər yazmışlar.

Dastanlar əsasında yazılmış **operalar**:

**1)** Ü.Hacıbəyov. **“Əsli və Kərəm”**, **“Koroğlu”**

**2)** Müslüm Maqomayev. “**Şah İsmayıl**”

**3)** Zülfüqar Hacıbəyov. “**Aşıq Qərib**”

## "DƏDƏ QORQUD" EPOSU

Qədim dövr Azərbaycan ədəbiyyatının ən möhtəşəm xalq yaradıcılığı hadisəsidir və Azərbaycan ərazisində formalaşmışdır. Eposun bir sıra ideyaları və motivləri türk bədii düşüncəsinin daha qədim dövrlərinə, İslam dinini yaymaq, Oğuz dövləti qurmaq kimi əsas ideyaları isə I minilliyin ikinci yarısına aiddir. Həmçinin I minilliyin ikinci yarısı Oğuz türklərinin dastanı olan "Dədə Qorqud" eposunun formalaşdığı dövrdür.

Eposun iki əlyazması məlumdur və onların hər ikisi XV əsrə aiddir:

**1.Drezden nüsxəsi** – müqəddimə və 12 boydan ibarətdir.

**2.Vatikan nüsxəsi** – müqəddimə və 6 boydan ibarətdir.

Epos haqqında ilk məlumatı XIX əsrin əvvəllərində alman alimi **Fridrix fon Dits** vermişdir. Sonra **Orxan Şaiq Gökyay, Həmid Araslı, Məhərrəm Ergin** eposu dəfələrlə nəşr etdirmişlər.

1950-ci illərdə "Dədə Qorqud" eposu qadağan edilsə də, şəxsiyyətə pərəstiş dövründən sonra yenidən öyrənilməyə başlamış və hətta yazıçı Anarın ssenarisi əsasında film çəkilmişdir.

Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra XX əsrin sonlarında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə "Dədə Qorqud" eposunun 1300 illik yubileyi keçirilmişdir.

**Dədə Qorqud obrazı.** Dədə Qorqud eposun ilk yaradıcısı hesab edilir. Oğuzların **kamil bilicisidir**, **gələcəkdən qəribə xəbərlər söyləyər**, adamlara **məsləhət verərmiş**. Eyni zamanda igidlərə **ad qoyar**, **elçi gedər**, **toylar, düyünlər keçirərmiş**.

Əlinə qopuz alaraq igidlərə dövləti qurmaq, vətəni düşməndən qorumaq barədə söhbət açarmış. Eposda **qopuz** müqəddəs hesab edilir, dastan qəhrəmanları əlində qopuz olan adamı öldürməyərən bağışlayırlar.

Eposun müqəddiməsində Qorqud Atanın dilindən bir sıra atalar sözləri verilmişdir:

Allah-Allah deməyincə işlər onmaz,
Qadir Tanrı verməyincə ər bayımaz.
Əzəldən yazılmasa, qul başına qəza gəlməz,
Əcəl vədə irməyincə kimsə ölməz…
Əski pambıq bez olmaz,
Qarı düşmən dost olmaz…
Ər malına qıymayınca adı çıxmaz,
Qız anadan görməyincə ögüt almaz,
Oğul atadan görməyincə süfrə yaymaz…

Əfsanəyə görə, Dədə Qorqud ümumi anlayışları, əşyaları da adlandırarmış, lakin bu adlar özünü doğrultmadıqda təəssüflənərmiş:

Gəlinə ayran demədim mən Dədə Qorqud,
Ayrana doyran demədim mən Dədə Qorqud,
İynəyə tikən demədim mən Dədə Qorqud,
Tikənə sökən demədim mən Dədə Qorqud.

"Dədə Qorqud" orta əsrlərin sonlarına qədər yaşamış, sonra isə öz yerini xalq aşıqlarına vermişdir. **Xalq aşıqları ozanın, saz isə qopuzun varisidir**.

**Eposun məzmunu, əsas ideyaları.** Epos hər birinin ayrıca süjet xətti olan boylardan ibarətdir. Həmin boylar eposun ümumi məzmunu və ideyaları ilə ya birbaşa, ya da dolayısı ilə bağlıdır.

Oğuz həm **məkan-ölkədir**, həm **cəmiyyətdir**, həm də qayda-qanunları olan **dövlətdir**. O, iki hissədən – İç Oğuzdan və Dış Oğuzdan ibarətdir. Oğuz elinin başçısı xanlar xanı **Bayandır xandır** və o, ölkəni müqəddəs ənənələr əsasında idarə edir.

Oğuz igidlərinin başında bəylərbəyi **Qazan xan** durur. Dastanda onun haqqında daha çox bəhs edilir.

Ayrı-ayrı boyların qəhrəmanları və fəal iştirakçıları bunlardır: Bamsı Beyrək, Alp Aruz, Qanturalı, Basat, Yeynək, Dəli

Dondar, Səgrək, Bəkil, Bəkil oğlu İmran, Qarabudaq, Qazan oğlu Uruz.

Qədim təsəvvürləri, dünyagörüşü əks etdirən və hadisələri **əfsanəvi** səciyyə daşıyan boylar:

**1) "Duxa qoca oğlu Dəli Domrulun boyu"**

**2) "Basatın Təpəgözü öldürdüyü boy"**

Qalan boylarda **tarixilik** aparıcıdır. Eposun tarixiliyini Dərbənd, Bərdə, Gəncə, Gürcüstan ağzı, Dərəşam, Sürməli, Göyçə, Əlincə, Qaraçuq, Ağcaqala, Ağqaya, Qaradağ, Aladağ, Qazılıq dağı və s. yer adları daha da konkretləşdirir.

Eposda Oğuz türklərinin islamaqədərki yaşayış ənənələri qorunub saxlanmışdır: onlar şərab içirlər, qadınlar da kişilər kimi fəaldırlar və öz sevgililəri ilə at çapır, ox atır, güləşir, sınaqdan çıxardıqdan sonra ona ərə gedirlər. Dastanda "**Ana haqqı – Tanrı haqqı**" deyilir. Qadınlar mərd və sədaqətlidirlər, hətta Dəli Domrulun qadını öz canını belə ondan əsirgəmir:

Göz açıban gördüyüm,
Könül verib sevdiyim,
Qoç igidim, şah igidim…
Qarşı yatan qara dağları
Səndən sonra mən neylərəm,
Yaylar olsam, gorum olsun.
Soyuq-soyuq suların
İçər olsam, qanım olsun…
Mənim canım sənin canına
Qurban olsun.

"Dədə Qorqud" eposu qəhrəmanlığın tərənnümüdür. Vətəni, dövləti, milli inamları, ailəni, adət-ənənələri qorumaq həmin qəhrəmanlığın mənbəyidir.

**Eposun quruluşu, bədii xüsusiyyətləri**. "Dədə Qorqud" eposu bizə yazılı şəkildə gəlib çıxmışdır. Eposun müqəddiməsində Dədə Qorqud haqqında geniş məlumat vardır və belə

anlaşılır ki, boyları düzüb-qoşan odur. Bütün boylar Oğuz xanına "**Xanım, hey!**" müraciətilə başlayır və Oğuz dövlətinin başçısı qarşısında qopuzun müşayiəti ilə ifa edilir.

Dastanın ilk variantları nəzmlə olmuşdur. Sonradan mətnin böyük bir hissəsi nəsrləşdirilsə də, qədim türk-Azərbaycan eposunun poetik intonasiyası, ritmi qorunub saxlanılmışdır. Oradakı şeirlər bənd və misra quruluşunu, ahəng və ritmi əks etdirir. Mətn göstərir ki, qədim türk şeirində qafiyə o qədər də zəngin deyil, ritmi yaradan əsas vasitə təkrarlar sistemi, xüsusilə **alliterasiyadır**:

Qaranqu axşam olanda qayğılı çoban,
Qarla yağmur yağanda çaqmaqlı çoban,
Südü, pendiri bol, qaymaqlı çoban!..

Başqa bir nümunədə sözlərin tam təkrarına rast gəlirik:

Hey, ana! Ərəbi atlar olan yerdə
Bir qulunu **olmazmı olur?!**
Qızıl dəvələr olan yerdə
Bir köşəyi **olmazmı olur?!**
Ağca qoyunlar olan yerdə
Bir quzucuğu **olmazmı olur?!**

Eposun mətnində mübaliğələr, müqayisələr, bənzətmələr və bədii xitablar daha çox işlənmişdir.

**Mübaliğələr** dastanlarda romantik vüsət yaratmaq ənənəsinə uyğun olaraq Oğuz igidinin şücaətini parlaq şəkildə göstərir:

– məclislərdə təpə kimi ət, göl kimi qımız verilməsi;
– qəhrəmanın qara daşı kül eləməsi;
– atılan daş yerə düşsə, orada üç il ot bitməməsi;
– yeddi başlı əjdahanın öldürülməsi;
–ala ilan keçməyən ormanların keçilməsi.

Bəzən mübaliğələr qəhrəmanın əlamətinə çevrilir:

– əlli yeddi qalanın açarın alan Alp Ərən;

– altmış min kafirə qan qusduran, ağ boz atının yelisi üzərində qar durduran Şir Şəmsəddin;

–Dəmir qapı Dərbənddəki dəmir qapıyı təpib alan, altmış tutam ala göndərinin ucunda ər böyürdən, Qazan kimi pəhləvanı bir savaşda üç kərə atdan yıxan Dəli Dondar.

Eposda dastan qəhrəmanlarının keyfiyyəti təbiət hadisələri ilə **müqayisə** edilir ki, Beyrəyin bacısı qardaşının əsirlikdə olmasını ozana belə çatdırır:

Qarşı yatan qara dağım yıxılıbdır,
Ozan, sənin xəbərin yox.
Kölgəlicə qaba ağacım kəsilibdir,
Ozan, sənin xəbərin yox.

Yaxud Oğuz igidinin öz xanımına olan aşağıdakı müraciətində çoxlu **bənzətmə (təşbeh)** vardır:

Bəri gəlgil, başım baxtı, evim taxtı,
Evdən çıxıb yürüyəndə sərvi boylum!
Topuğuna sarmaşanda qara saçlım,
Qurulu yaya bənzər çatma qaşlım!
Qoşa badam sığmayan dar ağızlım,
Güz almasına bənzər al yanaqlım!..

Bəzi **təşbehləri** də xatırlamaq olar:

–Selcan xatun Qanturalını görəndə "öysəl olmuş dana kimi ağzının suyu axır"

– qəhrəman "bir bölük qaza şahin girmiş kimi" kafirlərə hücum edir.

–Oğuz igidi "dəvə kimi kükrəyir", "aslan kimi nərə çəkir".

"Dədə Qorqud" eposu ana dilimizin ərəb və fars dillərinin təsirinə məruz qalmadığı dövrdə yazıya alındığı üçün qədim türk dili xüsusiyyətlərini daha çox mühafizə edib saxlamışdır.

# "SALUR QAZANIN EVİNİN YAĞMALANMASI" BOYU

**Boyun məzmunu, ideyası**. Salur Qazan Oğuz igidləri ilə ova çıxarkən düşmənlər Şöklü Məliyin başçılığı ilə Qazanın evini dağıdır, anasını, qadınını və oğlu Uruzu əsir aparırlar. Qazanın qoyun sürülərini aparmaq istəyəndə Qaraca Çoban onlara mane olur. Qazan xan qəribə yuxu görür: evinə ildırım düşdü, qara duman hər tərəfi tutdu, quduz qurdlar ev-eşiyini dağıtdılar. Geri qayıdıb yurdunun talandığının şahidi olur. Qazan xan kafirlərin ardınca düşərkən nə qədər etiraz etsə də, Qaraca Çoban ona qoşulur.

Şöklü Məlik intiqam məqsədilə Burla xatuna yeyib-içmək məclisində şərab paylatmaq istəyir. Lakin Burla xatunu qızların içindən seçmək mümkün olmayanda oğlu Uruzu öldürüb ətindən kabab çəkmək və ona yedirtmək qərarına gəlirlər. Düşünürlər ki, Burla xatun oğlunun ətindən yeməyib tanınacaq. Bu zaman Uruz qəzəblənərək anasına deyir: "qızlar bir yesə, sən iki ye, qoy kafirlər səni tanımasınlar, atam Qazanın namusunu sındırma". Düşmənlər Uruzu öldürmək istəyərkən Qazan xanla Çoban gəlib çıxırlar. Qazan xan Şöklü Məlikdən ayaqlar altında qalmasın deyə anasını istəyəndə Şöklü Məlik etiraz edir. Sonra Oğuz igidləri gəlib çatırlar və düşmənə qalib gəlib, Qazan xanın ailəsini və var-dövlətini xilas edib geriyə dönür və məclis qururlar. Dədə Qorqud gəlib boy boylayır, soy soylayır.

Boyun **əsas ideyası** belədir: **Oğuz cəmiyyətinin vətənpərvərliyi, yurdun, el-obanın və ailənin düşmənlərdən müdafiəsi uğrunda mübarizə**.

**1. Qazan xan surəti.** Qazan xan "Ulaş oğlu, Tülü quşun yavrusu, bizə-miskin umudu, Amit soyunun Aslanı, Qaraçığın qaplanı, qonur atın yiyəsi, Xan Uruzun ağası, Bayandır xanın göygüsü, Qalın Oğuzun dövləti, qalmış yigit arxası" hesab edi-

lir. Eposun boylarının çoxunda ya birbaşa iştirak edir, ya da adı xatırlanır. Oğuz bəyləri Salur (sərkərdə) Qazanı Bayandır xandan sonra özlərinə yalnız başçı deyil, həmçinin arxa, pənah hesab edirlər, dara düşəndə ona xəbər göndərirlər: "Qazan bəy mənə yetsin. Degil, gəlməz olsan, məmləkət pozulub xarab olur, qızım, gəlinim əsir gedir". Döyüş günü "öndən təpir, düşmən məğlub olanda qaçanı qovmur, aman diləyəni öldürmür". Eyni zamanda xəyanətkarlığı, hətta dayısı Aruzu da bağışlamır.

Üç ildən bir ailəsini götürüb evdən çıxan və var-dövlətini xalqa bağışlayan Qazan xan üçün **əsas məsələ** bunlardır:

**1)** Oğuz elinin birliyi

**2)** Oğuz bəylərinin səmimi münasibəti

**3)** Xalqın güzaranının yaxşılığı

Qazan xan təvazökardır və heç vaxt özünü öymür. Kafirlərin əsirliyində olarkən qələbələrini xatırlayaraq söyləyir:

Anda dəxi "ərəm, bəgəm" deyü ögünmədim,
Ögünən ərənləri xoş görmədim!..

Eposda Qazan xan Oğuz igidlərinin ən müsbət xüsusiyyətlərinin daşıyıcısı kimi tərənnüm olunur. Ozan da öz arzu və ideallarını bu möhtəşəm obrazda ifadə edir.

**2. Burla xatun surəti**. Bayandır xanın qızı, Salur Qazanın xanımıdır. Mətnin çox yerində o, "**Boyu uzun Burla xatın**" kimi tanınır. Etibarlı və namuslu həyat yoldaşıdır. Əsir düşəndə oğlunun öldürülməsinə də razı olur ki, Qazan xanın – Oğuz elinin namusu tapdalanmasın.

Eyni zamanda o, anadır. Ona görə də oğlunun öldürüləcəyini biləndə fəryad çəkib ağlayır. "Qazan bəy oğlu Uruz bəyin dustaq olduğu boy"da da Burla xatun oğlunun ovdan geri qayıtmadığını görüb dərin həyəcan və sarsıntı keçirir. O, Qazan xana üz tutub deyir:

İki vardın, bir gəlirsən, yavrum qanı?
Qaranqu dündə bulduğum oğlum qanı?

Bir bəgim görünməz, bağrım yanar!..

Bundan sonra Qazan xan geriyə dönür. Burla xatun da onun ardınca kafirin üzərinə gedir.

Eposda digər **qadın surətləri** bunlardır: **Dirsə xanın xatunu, Banıçiçək, Sarı donlu Selcan xatun, Dəli Domrulun xatunu**. Onlar da igid, qəhrəmandırlar və zəngin mənəviyyata malikdirlər.

**3. Uruz surəti.** Gənc Oğuz igidlərinin ümumiləşdirilmiş obrazıdır. Atasının şərəfini və anasının namusunu qorumağa həmişə hazırdır. Kafir əsirliyində belə özünü ləyaqətlə aparır. Uruz dustaq olmuş atasını xilas etməyə gedəndə onu buraxmaq istəməyən anasına qəzəblə deyir:

Ana haqqı Tanrı haqqı deyilmişsə,
Qara polad uz qılıcım dartaydım,
Qafillicə görklü başın kəsəydim,
Alca qanın yer üzünə dökəydim.

Cəsarətlə düşmən üzərinə gedən Uruz atasını əsirlikdən xilas edir.

**4. Qaraca Çoban surəti.** Saray qulluqçuları və tacirlər kimi aşağı təbəqəyə mənsub qəhrəmandır. Oğuz bəyləri kimi mərd, cəsur və sədaqətlidir. Qaraca Çoban Qazan xanın bir qoyununu belə düşmənə vermir və sapandla atdığı daş, qoyun, keçi onları vurub yerə yıxır. O, öz qardaşlarının şəhid olmasını unudub Qazanın halına ağlayır və onunla birlikdə döyüşə gedir. Qazan xana sədaqətini nümayiş etdirir:

İlaqırdı söyləmə, mərə, itim kafir,
İtimlə bir yalaqda yundum içən azğın kafir!
Altındakı alaca atı nə ögərsən,
Ala başlı keçimcə gəlməz mana!
Başındakı tuğulğanı nə ögərsən, mərə, kafir,
Başımdakı börkümcə gəlməz manna!..

Qaraca Çoban surəti xalq ədəbiyyatında zəhmətkeş təbəqənin nümayəndələrinə böyük məhəbbətlə yanaşılmasının təsdiqidir.

**5. Düşmən surətləri.** Oğuz elinin düşmənlərini bir neçə istiqamətdə qruplaşdırmaq olar:

**1) Kafirlər**: **Şöklü Məlik, Qara Məlik, Trabzon təkuru** – onlar Oğuzun var-dövlətini yağmalayan, qız-gəlinini əsir aparan və lazım gələndə açıq döyüşdən qaçan qarətçidirlər.

**2) Mifik düşmən: Təpəgöz** – Oğuz elinə ziyan vurur və sonda Basat tərəfindən öldürülür.

**3) Daxildəki satqınlar və casuslar: Dirsə xanın qırx nökəri** Dirsə xanı kafirlərə əsir aparmaq istəyir; **kafirin casusu** isə Qazan xan ova gedəndə Şöklü Məliyə xəbər verir.

# AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİ

## QƏDİM DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

Azərbaycan ərazisində yaşamışdır: Qafqaz, İran, türk mənşəli tayfalar.

İlk yazılı abidə: Zərdüşt. "Avesta" – Atəşpərəstlik dininin kitabı. Qədim azərbaycanlıların ədəbi-bədii təfəkkürü barədə təsəvvür yaradır: 1) Xeyirlə Şərin mübarizəsi, 2) şeir yaradıcılığının texnikası.

Azərbaycan ədəbiyyatına təsir göstərən dinlər: türk tanrıçılığı, atəşpərəstlik, buddizm, xristianlıq, islam. Azərbaycan ədəbiyyatının əsasında ümumtürk ədəbiyyatı dayanır.

Eramızın ilk əsrlərindən Asiyadan qıpçaq türkləri buraya gəlir, beləliklə, ilk orta əsrlərdən Azərbaycan xalqının formalaşmasının əsası qoyulur. Xalq yaradıcılığı və epos mədəniyyəti bu dövrdən yaranır.

I minilliyin sonları, II minilliyin əvvəllərində oğuz türkləri Türküstandan Azərbaycana yazılı ədəbiyyatı gətirirlər (Beynəlxalq mədəniyyət gəlir). "Dədə Qorqud" eposu bu zaman yaranır. Eposun ideal hökmdar ideyası Nizami "Xəmsəsi"nin əsas mövzusuna çevrilir. Amma bu dövrdə Şərqdə əsas yazı dili fars dili olur, ərəb dilindən də istifadə edilir, hətta "Dədə Qorqud" türk dilində yazıya alınır.

İbn Sinada, Əl-Fərabidə, İbn Rüşddə, Nizamidə türk təfəkkürü ilə islam dünyagörüşü vəhdətdədir. Hətta Türküstan xaqanlarından Sultan Mahmud Qəznəvi türklərin tarixi qəhrəmanlığı barədə əsər yazmağı Firdovsiyə sifariş vermişdir.

XI-XII əsrlərdə yazılı ədəbiyyat sarayda yaranırdı və əsas janr mədhiyyə (qəsidə) idi. Amma bəzi sənətkarlar isə saraya tabe olmur, humanist ədəbiyat nümunələri yaradırdılar: Qətran Təbrizi, Məhsəti Gəncəvi, Əfzələddin Xaqani.

**Qətran Təbrizi** (1012-1088). – farsca yazmışdır. Təbriz yaxınlığında Şadiabad kəndində anadan olmuşdur. Rəvvadilər sarayında nüfuz qazanmışdır. İki dəfə Gəncədə yaşamışdır.

Qətran Təbrizinin **qəsidə, qitə, rübai** janrlarında yazdığı əsərlərdən ibarət "Divan"ı vardır. Hökmdarlara, əyanlara, sərkərdələrə mədhiyyələr yazır, təbiət təsvirləri verir, saraylara narazılığını da bildirirdi. 1042-ci il Təbriz zəlzələsinə şeirlər yazmışdır.

**Məhsəti Gəncəvi** (XII əsrin birinci yarısı). – farsca yazmışdır. Rübainin ustadı hesab olunur. Onun rübailərində humanizm, səmimi hisslər, dərin fəlsəfi mühakimələr öz ifadəsini tapmışdır.

Nizami "Xosrov və Şirin" əsərində Məhsətiyə bir qəzəl üçün bir xəzinə bağışlandığını söyləyir. Onun rübailərində lirik qəhrəman sevginin mənasını başa düşən aşiq-filosofdur:

Zülfün camalına bir yaraşıqdır,
Xərabət əhlinə nurdur, işıqdır.
Ey Şərq günəşinin nuru, xoş gəldin!
Gözəllər şahına qapı açıqdır.

Bu rübailər gözəl təsvirlər, mükəmməl təbiət obrazları, bədii simvollarla zəngindir:

Gülə mənzil olmuş yenə də çəmən,
Köynəyi yırtılmış ta ətəyindən.
Dedim: "Kim yırtmışdır səbir pərdəni?" –
Qalxıb səhər yeli söylədi ki: "Mən!"

**Əfzələddin Xaqani** (1126-1199) – farsca yazmışdır. Şirvanşahlar sarayına dəvət olunmuş və "Xaqani" təxəllüsünü orada almışdır. Sarayın iç üzünü görüb oradan qaçmaq istəyərkən zindana salınmışdır. Sonra sürgün olunan şair Dərbəndi, Gürcüstanı, Gəncəni gəzmişdir. Mənuçöhrün icazəsi ilə Şamaxıya qayıtmış və yenə həbs edilmişdir. 1176-cı ildə Kəbə ziyarəti adı ilə

Şirvanı həmişəlik tərk edir, sonra Təbrizdə yaşayır və orada vəfat edir.

Ə.Xaqani həm Şirvanı – Şamaxını, həm də Təbrizi özünə doğma bilmişdir:

Şamaxı! Ey mənim sevimli yurdum!
Mən sənin qoynunda xaniman qurdum.
İndisə acığın tutmuşdur mana!..
Sənin qucağından ayrılsam, ana,
Ümidim, pənahım Təbrizdir, Təbriz;
O şəhər də mənə doğmadır, əziz!

Şairin yaradıcılığını iki dövrə bölmək olar:

1) birincii dövr – hökmdarları və sarayları mədh edir.

2) ikinci dövr – hökm sahiblərinə qarşı kəskin mövqe tutur və ictimai-fəlsəfi məzmunda şeirlər yazır.

Şairin yaradıcılığı aşağıdakılardan ibarətdir:

1) 17 min beytlik “Divan”

2) “Töhfətül-İraqeyn” poeması

3) bədii nəsr nümunələri (məktubları)

“Töhfətül-İraqeyn” ədəbiyyatımızda ilk poemadır, şair səfər təəssüratlarını qələmə almışdır (uşaqlığından, gəncliyindən, ailəsindən, Şirvanşahlar sarayında çəkdiyi əzablardan, başına gətirilən zülmlərdən danışılır).

“Mədain xərabələri” qəsidəsi fəlsəfi-ictimai məzmun daşıyır, Sasanilərin paytaxtının indi xarabalığa döndüyünü göstərir, hökmdarları bundan ibrət götürməyə səsləyir:

Biz ədl sarayıykən zülm ilə xarab olduq,
Zalımlar olan qəsrə gör neyləyəcək dövran!

# NİZAMİ GƏNCƏVİ (1141-1209)

## HƏYATI

Nizami Gəncəvi adı ilə məşhur olan İlyas Yusif oğlu 1941-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Şeir yazmaq məharətinə görə "Nizami" adlandırılmışdır. Onu Şərq və Qərb mədəniyyətinin varisi hesab etmək olar. Əsərlərini farsca (dəri dili) yazsa da, həmin dövrün elm dili olan ərəb dilini də mükəmməl öyrənmiş və öz türklüyü ilə həmişə fəxr etmişdir. O, antik fəlsəfə, qədim hind fəlsəfəsi və Yaxın Şərqin başqa fəlsəfi məktəbləri ilə tanış olmuşdur. Buna görə də Nizamini hər şeyi kamil bilən **"həkim"** adlandırırdılar.

Nizami **ədəbi məktəbi** "Xəmsə"yə görə formalaşmışdır. "Xəmsə" adını Nizamidən sonra onun poemalarını bir yerə toplayanlar vermişlər.

Nizami "Xosrov və Şirin" poemasında ilk dəfə olaraq öz həyatı haqqında məlumat vermişdir. Poemanın sonunda Şirinin ölümünü təsvir edərkən onu həyat yoldaşı Afaqla müqayisə etmişdir. Qıpçaq gözəli Afaqı Nizamiyə Dərbənd hökmdarı hədiyyə etmiş və ondan Məhəmməd adlı oğlu olmuşdur. "Xosrov və Şirin" əsəri bitəndə Məhəmmədin 7 yaşı var idi. "Leyli və Məcnun" poemasında Məhəmməd 14 yaşlı bir yeniyetmə, "Yeddi gözəl" əsərində isə özünə peşə seçməyə hazır olan gənc kimi təqdim olunur.

Nizami "Leyli və Məcnun" poemasında həyatı haqqında bir az da geniş danışır; atası Yusif Zəki Müəyyəd oğlunun, dayısı Xacə Ömərin, anasının ölümünü kədərlə xatırlayır.

Nizami sarayda yaşamasa da, poemalarını və şeirlərinin bir qismini hökmdarlara həsr etmiş və bunun müqabilində onlardan mükafatlar almışdır. O, qəzəllərində tez-tez Qızıl Arslanın və Şirvanşah Axsitanın adlarını çəkir.

Nizami "Sirlər xəzinəsi"ni həsr etdiyi Ərzincan hakimi Fəxrəddin Bəhram şah Davud oğlu ilə bir dəfə görüşdüyünü, yolların təhlükəli olması ucbatından ikinci dəfə görüşə bilməməsini həmin poemada xatırladır. Çox güman ki, Nizami birinci görüşdə "Sirlər xəzinəsi" əsərini yazmaq haqqında ondan sifariş almışdır.

N.Gəncəvi "Xosrov və Şirin" poemasını Məhəmməd Cahan Pəhləvanın sifarişi ilə yazsa da, əsərin sonunda Cahan Pəhləvanın qardaşı Qızıl Arslana və oğlu Nüsrətəddin Əbubəkrə də ithaflar vermişdir.

"Leyli və Məcnun" poemasını Şirvanşah Axsitanın məktubla göndərdiyi sifariş əsasında yazmışdır. Bu mövzunu oğlu Məhəmməd də ondan xahiş etmişdir.

"Yeddi gözəl" poemasını Marağa hakimi Əlaəddin Körpə Arslana göndərmişdir.

"İsgəndərnamə" poemasının birinci hissəsi olan "Şərəfnamə"ni Nüsrətəddin Əbubəkrə, ikinci hissəsi "İqbalnamə"ni isə Mosul hakimi Məlik İzzəddinə ithaf etmişdir. Bu əsərdə Nizami qəhrəmanların ölümünü təsvir etdikdən sonra öz ölümünü də təsvir etmişdir:

Bu dastan yazılıb qurtaran kimi
Köçmək xəyalına düşdü Nizami.
Altmış üç yaşından altı ay qədər
Keçmişkən, istədi eləsin səfər.

Bu misralar sübut edir ki, "İsgəndərnamə" poeması yazılıb qurtaranda (1903) Nizaminin xəstə imiş və öz ölümünü gözləyirmiş. Lakin xoşbəxtlikdən Nizami bundan sonra da altı il yaşamış və 1209-cu il mart ayının 12-də vəfat etmişdir.

## YARADICILIĞI

Nizami yaradıcılığa **lirik şeirlərlə** başlamış, bütün ömrü boyu lirik şeirlər yazmağı davam etdirmiş, amma **poema** janrı ilə məşhurlaşmışdır. Onun aşağıdakı janrlarda əsərləri vardır:

**-poema (5), -qəzəl (120), -qəsidə (6), -rübai (30)**

Nizaminin qəzəl, qəsidə və rübailərdən ibarət "Divan"ının olduğu da təsdiqlənir. Qızıl Arslanla görüşünün təsvirindən məlum olur ki, **lirik şeirləri** hələ öz sağlığında məclislərdə oxunmuşdur.

**Saf, səmimi eşqin tərənnümü** onun qəzəllərinin əsas mövzusudur. Bu qəzəllərdə olan **dünyəvilik və real eşq** onun qəzəllərini digərlərindən fərqləndirir.

## POEMALARI

Nizami "İsgəndərnamə" poemasında, daha doğrusu, onun ikinci hissəsi olan **"İqbalnamə"nin girişində** əvvəlcə yazdığı 4 poemasının (məsnəvisinin) adını çəkmişdir:

Yorulmaq bilmədən gündüz və gecə
"Məxzənül-əsrar"ı yazdım əvvəlcə.
İncəlik, şirinlik yığaraq ondan,
"Xosrov və Şirin"çin düzdüm bir dastan.
Sonra başqa yerdə çadırı vurdum,
"Leyli və Məcnun"un eşqini qurdum.
Bitirdim dastanı, bir nəşə tapdım,
Atımı "Həft peykər" üstünə çapdım.
İndi söz mülkündə büsat quraram,
İsgəndər dövründən təbil vuraram.

**1. "SİRLƏR XƏZİNƏSİ" ("Məxzənül-əsrar").** Poema 1174-cü ildə yazılıb və **Ərzincan hakimi Fəxrəddin Bəhram şaha** həsr edilib. Poemanın **vahid süjet xətti** yoxdur.

Ənənəvi başlıqlarla başlayır. Tanrının və Peyğəmbərin mədhi, Peyğəmbərin meracı, əsərin ithaf olunduğu hökmdarın

tərifi verilir. Əsər **20 məqalət** və **20 hekayətdən** ibarətdir; hekayətlərin isə süjet xətti vardır. Nizami məqalətlərdə nəzərə çatdırmaq istədiyi problemin qoyuluşundan danışır, hekayətlərdə isə həmin problemin bədii formada təsviri verilir. Məqalət və hekayətlərdə şairi düşündürən əsas məsələ insanı vəhşi ehtiraslardan uzaqlaşdırmaq və **kamil şəxsiyyətə** çevirməkdir.

Birinci məqalət belə adlanır: **"Adəmin yaradılması haqqında"**. Məqalətdə müqəddəs Qurandan, Peyğəmbərin hədislərindən istifadə əsasında Nizami bildirir ki, insan Tanrı tərəfindən xoş əməllər üçün yaradıldığını bir an belə unutmamalıdır. Buna aid olan hekayətdə isə bir padşahın simasında irəli sürülən ideya bundan ibarətdir ki, pis əməllərdən geri dönmək heç vaxt gec deyil.

Poemadakı hekayətlərdən ikisini xatırlamaq olar:

**1) "Ədalətli Nuşirəvan və vəzirin hekayəsi"**

**2) "Qarı və Sultan Səncərin hekayəsi"**

Nizaminin yaradıcılığında **ictimai ədalət** ideyası aparıcı mövqe tutur. Bu mənada şair "Sirlər xəzinəsi" poemasında dövrünün hökmdarlarını nəsihət və qorxutmaq yolu ilə adil olmağa, insanları incitməməyə çağırır.

**2. "XOSROV VƏ ŞİRİN".** 1181-ci ildə Məhəmməd Cahan Pəhləvanın xahişi ilə yazılmış bir "**həvəsnamə**"dir. Poemada **məhəbbət** və **dövləti idarəetmə** problemləri yanaşı qoyulub həll edilir.

Ədəbiyyat tariximizdə ilk **süjeti və qəhrəmanları** olan poemadır. Avropa ədəbiyyatındakı romanlarda olduğu kimi burada da qəhrəmanın anadan olandan ölənə qədər həyatının əsas epizodları bədii əksini tapdığına görə süjet **romantikdir**.

Məhəbbətin ecazkar təsiri altında insanın **mənəvi-əxlaqi təkamülü** göstərilir. Nizami əsərin **fabulasını** – başlıca hadisəsini qurmaq üçün Bərdədəki əlyazmaya müraciət edir, Xosrov və Şirinlə bağlı əfsanələri, rəvayətləri, tarixi abidələri öyrənir.

Nəticədə əsas qaynaq kimi götürdüyü Firdovsinin "Şahnamə"sindəki Xosrov və Şirin əhvalatından fərqli bir süjet yaradır.

Poema Sasani şahı Xosrov Pərvizlə Azərbaycan-türk şahzadəsi Şirin arasındakı məhəbbət macərasından bəhs edir. Əsərdəki hadisələrin mühüm bir hissəsinin Şirinin yaşadığı Azərbaycanın paytaxtı Bərdə şəhərində baş verməsi, həmçinin Şirinin bibisi Məhin Banunun Xosrovu qədim İran şahı Keyxosrov, özlərini isə qədim türk hökmdarı Əfrasiyabla müqayisə etməsi Şirinin erməni qızı deyil, bir **türk şahzadəsi** olmasına sübutdur.

Şirin **ideal qadın** obrazıdır, həmçinin o, sxematik formada deyil, sevinci-kədəri, ümidi və sarsıntıları ilə birgə verilmişdir.

Şirin çox ağır sınaqlardan, sarsıntılardan keçərək bütün əzablara səbirlə dözür və nəticədə yüngül xarakterli Xosrovun **kamil bir şəxsiyyətə** çevrilməsinə nail olur. Beləliklə, iki əxlaq – İran və türk əxlaqı qarşılaşdırılaraq üstünlük türk əxlaqına verilir. Əsərdə **"türk"** sözü gözəl, cəsur, ağıllı, tərbiyəli, işıqlı xeyirxah insan mənalarında işlədilir. İnsanlığın xilasının türk ədalət və əxlaq prinsipləri ilə mümkün olacağı fikri irəli sürülür.

Poemada **qadın azadlığı** problemi də qoyulmuşdur. Qadının kişilərdən geri qalmaması, hətta dövlət idarə işində iştirakı qabardılır.

Nizaminin özünün də poetik ustalığının kamilləşməsində "Xosrov və Şirin" əsərinin xüsusi rolu olmuşdur. Sənətkarlıq baxımından Nizami dünya ədəbiyyatında əvəzsiz söz ustasıdır. O, bəzən eyni bir bədii obyektin təsvirində ondan artıq orijinal bənzətmə işlədə bilir.

**3. "LEYLİ VƏ MƏCNUN".** 1188-ci ildə **Şirvanşah Axsitanın** tələbi ilə yazılmışdır. Poemanın mövzusu eyni adlı ərəb əfsanəsindən götürülmüşdür. Aparıcı istiqamət **məhəbbətdir**.

Poemada diqqət aşağıdakı problemlərə yönəldilmişdir: **fərd və cəmiyyət, valideyn və övlad, insan və təbiət** arasında olan harmoniya. Əsərdə mənfi sifətlərin tənqidi də əsas yer tutur.

**Qeys** poemanın qəhrəmanlarından biridir və folklorda müşahidə olunan **nağılvari üsulla** – çoxlu nəzir-niyazdan sonra doğulmuşdur. O, varlı bir qəbilə başçısının oğludur. Ağıllı və gözəldir, tay-tuşlarından seçilir. Qeys məktəbdə oxuyarkən Leylini sevir və öz səmimi duyğularını açıq-aşkar bildirir. Ancaq camaat bunu qəbul etmir və onu "Məcnun" adlandırır, yəni Qeys hamı kimi düşünmədiyinə görə dəli hesab edilir. Beləliklə, o, cəmiyətdən uzaqlaşır, insanlardan fərqli olaraq riyakarlıq və ikiüzlülük nə olduğunu bilməyən təbiətə sığınır.

**Leyli** əsərin digər əsas qəhrəmanıdır və o da Məcnuna aşiqdir, lakin öz səmimi duyğularını ifadə etməkdə tam sərbəst deyil. Leyli güclü xarakterə malik bir insandır. Düzdür, o, zorla ərə veriləndə ata-anasına etiraz edə bilmir, lakin özündə qüvvət tapıb istəmədiyi insanı da yaxına buraxmır. Leylinin İbn Səlama vurduğu şillə orta əsrlərdə qadını alçaldan (**antifeminist**) cəmiyyətə vurulan şillə kimi səslənir. Beləliklə, Nizami qadın azadlığı problemini burada da inkişaf etdirir və üzüaçıq gözəlləri ərəb geyimli türk adlandırır.

"Leyli və Məcnun" poeması faciə ilə nəticələnir. Əfsanədə də belədir: qəhrəmanların hər ikisi ölür. Bu ölüm şəxsiyyət azadlığını boğan cəmiyyətə nifrət duyğuları oyadır.

**4. "YEDDİ GÖZƏL" ("Həft peykər")**. 1197-ci ildə yazılmışdır. Marağa hakimi Əlaəddin Körpə Arslana həsr etmişdir.

**Bəhram Gur** Sasani şahı və əsərin baş qəhrəmanıdır. Nizami Bəhram Gurun simasında öz sələfi Firdovsi kimi tarixi obraz yaratmaq istəmirdi, onun əsas məqsədi bədii sözün gücü ilə və hökmdarlardan istifadə etməklə ictimai-siyasi hadisələrə təsir göstərmək, insanda insani duyğular oyandırmaq idi. Şair

keçmişdə baş verən yaxşı hərəkətləri tərifləməklə öz dövründəki pis hərəkətləri aradan qaldırmaq üsuluna da əl atırdı.

Poemada, əvvəlcə, Yəzdigirdin zülmü, zorakılığı təsvir edilir. Sonra isə Bəhram Gurun ədalətindən danışılır ki, bu, müqayisədə daha təsirli görünür.

Poemanın süjeti 2 yerə bölünür:

1) Bəhram Gurun həyat və fəaliyyəti təsvir edilir və burada **ədalətli hökmdar** problemi qoyulur.

2) Bəhram Gurun yeddi sarayda yeddi ölkədən gətirilmiş qızların nağıllarına qulaq asması nəql olunur və burada "Sirlər xəzinəsi"ndə olduğu kimi **ictimai problemlərə** bədii-fəlsəfi münasibət bildirilir.

**Fitnə** poemanın maraqlı surətlərindən biridir və şahın kənizidir. O, ağıllı, hazırcavab, cəsur və şəxsiyyət kimi sərbəstdir. Fitnənin şəxsində türklərə böyük məhəbbət ifadə olunmuşdur. Fitnə İran Sasani hökmdarına "dərs" verir və onun bir insan kimi kamilləşməsinə təsir göstərir. Sonda Bəhram Gur öz səhvini etiraf edir, Fitnə ilə qanuni nikah bağlayır və bu, türk qızının mənəvi-əxlaqi qələbəsi deməkdir.

Poemada başqa **qadın obrazları** da vardır:

**1) Kürd qızı** – "Xeyir və Şər" nağılının qəhrəmanını ölümdən xilas edir.

**2) Səqlab şahzadəsi** – öz ağlı, biliyi ilə çox kişilərdən üstündür.

Nizami poemada yeddi şahzadə qızın şirin nağılı ilə yeddi dustağın sərt həyat həqiqətini ifadə edən hekayətini qarşılaşdırır. Bununla günlərini kef məclislərində keçirib rəiyyəti unudan, onun gün-güzəranından, dərd-sərindən xəbəri olmayan hökmdarları tənqid edir.

**5. "İSGƏNDƏRNAMƏ" POEMASI.** 1203-cü ildə yazılmışdır. Axırıncı poemasıdır. Şair, əvvəlcə, əsəri üç hissədə yazmağı planlaşdırmışdır:

**1)** hökmdarlıq və sərkərdəlik

**2)** alimlik

**3)** peyğəmbərlik

Lakin sonradan alimlik və peyğəmbərlik birləşdirilmiş, əsər isə iki hissədən ibarət olmuşdur:

**1) "Şərəfnamə"** – **Nüsrətəddin Əbubəkrə** həsr edilmişdir.

**2) "İqbalnamə"** ("Tale kitabı") – ikinci adı "Xirədnamə" ("Ağıl kitabı") – **Mosul hakimi Məlik İzzəddinə** həsr edilmişdir.

İsgəndər Yaxın və Orta Şərq ədəbiyyatında tamamilə orijinal və monumental bir surətdir. Şairin humanizmi və ictimai ədalət ideyaları özünün mükəmməl bədii təcəssümünü bu obrazda tapmışdır. İsgəndər haqqında məlumatlar müxtəlif tarixi qaynaqlardan, fəlsəfi və elmi əsərlərdən toplanmışdır. Nizami tarixi materiala zahiri qabıq kimi, yəni şərti yanaşmış, ondan istifadə edərək öz dövrünün problemlərini qaldırmış və insanlara doğru yol göstərməyə çalışmışdır. Şair özü də bu məqsədini belə ifadə edir:

Hansı bir pərdədə doğru söz gördüm,
O sözün telini şeirimlə hördüm.
Şeirimdən atsaydım bəzəkli donu,
Azacıq zəhmətlə yazsaydım onu,
Bu böyük fatehin sərgüzəştindən
Bir vərəq yazmaqla bitirərdim mən.

Nizami, doğrudan da, İsgəndərin cahangirlik tarixini cəmisi iki-üç vərəqdə təsvir edir. "Kitabın yazılma səbəbi"ndə isə İsgəndərin dirilik suyu ardınca Zülmətə getsə də, onu əldə edə bilmədiyini, lakin "İsgəndərnamə" poeması tamamlanıb qur-

tardıqdan sonra dirilik suyuna çatdığını göstərir. Monumental obrazlar, yüksək ideyalar, bəşəri problemlər bu əsərin əbədi yaşayacağına zəmanət verir.

**Poemanın məzmunu**. Əsərin birinci hissəsi olan **"Şərəfnamə"** İskəndərin doğulması, təlim və tərbiyə almasının təsviri ilə başlayır və ölümü ilə başa çatır. İsgəndərin atası Feyləqus Bəhramın atası Yəzdigirddən fərqli olaraq, ədalətli və müdrik hökmdardır. Atasının ölümündən sonra taxta çıxan İsgəndər məktəb yoldaşı Ərəstunu (Aristotel) özünə vəzir təyin edir və ölkəni ədalətlə idarə etməyə başlayır. Ərəstunun məsləhəti ilə zəncilərin hücumuna məruz qalmış Misir hökumətinin çağırışına cavab verir və **birinci** müharibədə qalib gəlir. Bu qələbədən sonra özünə inamı artan İsgəndər Daraya bac verməkdən imtina edir.

İsgəndərin **ikinci döyüşü** Dara ilə olur və İsgəndər bu döyüşdə də qalib gəlir. Bundan sonra o, Kəbəni ziyarətə gedir. Daha sonra isə Bərdə hökmdarı Nüşabə ilə görüşür. İsgəndər növbəti dəfə Hindistan və Çin üzərinə hücum edir. İsgəndərin Nüşabəni xilas etmək üçün ruslarla olan müharibəsinə böyük diqqət ayrılmışdır.

Birinci hissənin sonunda İsgəndər **dirilik suyunu** axtarmağa gedir, lakin onu əldə edə bilmir və Ruma qayıdır.

Əsərin ikinci hissəsi olan **"İqbalnamə"də** əvvəlcə İsgəndərin dəllək və çobanla əhvalatı, həmçinin İsgəndərin yanında olan alimlərin başına gələn müxtəlif macəralar təsvir edilir. Görkəmli filosof və alimlərlə bir müddət Rumda olan İsgəndərə peyğəmbərlik verildikdən sonra o, son səfərinə çıxır və təktanrıçılıq dinini yaymağa başlayır.

Əsərin sonunda baş qəhrəmanın ölümü təsvir edilir.

**Poemanın quruluşu və bədii xüsusiyyətləri**. Poemanın hər iki hissəsi ənənəvi girişlə başlayır. "Şərəfnamə"də süjet daha bitkin xarakter daşıyır və vahid məqsəd ətrafında – İsgəndərin

zülm və zorakılığa məruz qalmış xalqları xilas etmək missiyası ətrafında birləşir. Döyüş səhnələrinin canlı təsviri, reallığa yaxın olan insan obrazlarının verilməsi, təbiət təsvirlərində əyanilik və orijinal bənzətmələr Nizami sənətinin ölməzliyini təmin edən vasitələrdəndir.

**İsgəndər surəti**. İsgəndər **ideal qəhrəmandır**. O, arasıkəsilməz müharibələrə, insanların qətl və qarətinə, zalım şahların ədalətsizliyinə, dərəbəylərin özbaşınalığına qarşı çıxır. İsgəndər ümumbəşəri ədalət, xeyir, əmin-amanlıq, düzlük və rifah uğrunda mübarizə aparan şəxsiyyətdir.

O, **sxematik, robotvari obraz deyil**, yanılan və səhvlər edən canlı bir insandır. Məhz buna görə də bəzən İsgəndər öz gücünə həddən artıq arxayın olub təhlükəli vəziyyətə düşərkən qorxur, bəzən ən böyük önəm verilən alim-filosofu təpikləyib yuxudan oyatmaqdan da çəkinmir, bəzən isə qadına yuxarıdan aşağı baxır. Məsələn, Qıpçaq çölünə səfər zamanı qadınların örtülü gəzməsinin məqsədəuyğun olduğunu söyləyəndə ağsaqqallar İsgəndərə belə cavab verirlər: "Əgər qadına baxmaq günahdırsa, sən gözlərini ört, qadını yox!"

İsgəndər türkləri özünə müttəfiq hesab edir:

Xəzər dağlarından Çin dənizinə
Türklərlə doludur bu yerlər yenə.
Qohum olmasa da rumlara bir türk,
Ruslara kinləri rumdan da böyük.
Türklərin oxuyla yenə bu zaman
Qabar əskik olmaz rus ayağından.

Yalnız öz xalqının deyil, bütün dünya xalqlarına edilən zülmə qarşıdır. İsgəndər **ümumbəşəri xeyir mücəssəməsidir**.

**Nüşabə surəti**. Nüşabə **ağıllı, müdrik və qoçaqdır** və bu baxımdan kişilərdən geri qalmır. Nüşabə İsgəndərə "dərs" verir. Belə hadisə İsgəndərin həyatında olmuş, lakin bu, Azərbaycandan xeyli uzaqlarda baş vermişdir. Nizami İsgəndər kimi bir

fatehə ağıl öyrətmək missiyasını Nüşabənin üzərinə qoymaqla burada yaşayan insanların fəzilət sahibi olduqlarını göstərmək istəmişdir.

Nüşabə zahirən də **gözəl bir xanımdır**. Şair bu gözəlliyi böyük ilhamla təsvir edir:

Erkəksiz yaşayan bu dişi ceyran
Gözəldi, göyçəkdi erkək tovuzdan.
Xoşsöhbət, ürəyi saf, mətanətli,
Bir pəri əndamlı, xoş təbiətli.

Yeri gəlmişkən Nizami Qıpçaq çölündəki **türk qadınlarının da gözəlliyini** nəzərə çarpdırır.

Nüşabə **insan sərrafıdır**. Özünü elçi kimi təqdim edəni məğrur hərəkətlərindən tanıyır və ona ehtiram göstərir. Lakin öz şərəf və ləyaqətini də nümayiş etdirir:

Erkək tinətliyəm, olsam da adın,
Hər işi bəllidir mənə dünyanın.
Mən də bir Aslanam, düşünsən bir az,
Aslanın erkəyi, dişisi olmaz.

Nizami poemada Nüşabə ilə əlaqədar **Bərdənin tərifini** də verir və hazırkı vəziyyətini ürəkağrısı ilə təsvir edir.

Poemanın ikinci hissəsində daha çox elmi problemlər, nəsihətamiz fikirlər üstünlük təşkil edir. Hərbi səfərlərdən Ruma qayıdan İsgəndər müxtəlif alimlərin əhatəsində və elmi məclislərdə kainat, yaradılış və təbiət hadisələri barədə söhbətlər aparır. Onun dünyanın müxtəlif fəlsəfi məktəbləri ilə tanışlığı da buradan məlum olur.

İsgəndər alimlərdən xahiş edir ki, ona **nəsihətnamə** yazsınlar. Nizami bundan bir bədii vasitə kimi istifadə edərək məhz öz dövrünün hökmdarlarını ölkəni və əhalini ədalətlə idarə etməyə, xalqın asayişinin və rifahının qayğısına qalmağa çağırır.

Poemanın son hissəsində İsgəndərin **peyğəmbərliyə** çatması göstərilir və müxtəlif xalqları doğru yola dəvət etmək üçün

səfərə çıxmasının təsviri verilir. İsgəndər **təktanrıçı** kimi çıxış edir və əsəlində islam şəriətinin təbliği ilə məşğul olur. İsgəndər şərə qarşı mübarizədə təbliğat və inandırma ilə yanaşı, fiziki qüvvədən də istifadə edir. Bu, bir əlində kitab, bir əlində qılınc tutan islam peyğəmbərini xatırladır. Bunlar Nizaminin təxəyyülünün məhsulu olub dünya xalqlarının birliyi və anlaşması ideyalarını təcəssüm etdirir.

Poemanın sonunda İsgəndər **xoşbəxtlər ölkəsinə** gəlir. Bura Tanrıya tapınan və Tanrı tərəfindən qorunan möminlər ölkəsidir. Orada ağsaqqallar öz xoşbəxtliklərinin sirrini belə söyləyirlər:

Bizim uşaqları böyüdər Allah,
Naxıra şir, pələng toxunmaz əsla.
Bizim bir qoyuna dəysə canavar,
Ordaca gəbərib yerində qalar.
Kim dərsə bir sünbül bizim əkindən,
Qəfil bir ox dəyər düz ürəyindən.
Bizi hifz eyləyən Allahdır, Allah,
Biz yalnız Allaha gətirrik pənah.

Nizami Gəncəvi epik yaradıcılığa "Sirlər xəzinəsi" ilə başlayıb "İsgəndərnamə" ilə yekun vurmuşdur. Bu əsərlər bəşəri problemlərlə və humanist ideyalarla zəngin olduğuna görə həmişə yaşayacaqdır.

# ORTA DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

XIII əsrdən başlayan bu dövr qədim dövr ədəbiyyatının bitdiyi və ana dilində olan əsərlərin yaranmağa başladığı dövrdür. Lakin yenə də ərəb və fars dillərində əsərlər yazılırdı.

**İzzəddin Həsənoğlunun** türkcə 3, farsca 1 qəzəli bizə gəlib çatmışdır. O, canlı həyata bağlı olan dünyəvi poeziyanın nümunələrini yaratmışdır.

**Şeyx Səfiəddin Ərdəbilinin** ana dilində olan kiçik bir divanı bizə gəlib çatmışdır.

İzzəddin Həsənoğlunun şeirləri və Şeyx Səfiəddin Ərdəbilinin kiçik divanı həm bu dövrün anadilli ədəbiyyatı haqqında dolğun təsəvvür yaradır, həm də gələcək böyük poeziyanın bünövrəsinin möhkəm təməl üzərində qoyulduğunu nişan verir.

**Zülfüqar Şirvani** (1190-1304), özünün qeyd etdiyi kimi, altı dildə əsərlər yazmış və **poliqlot** şair kimi tanınmışdır. Onun yalnız farsca qələmə aldığı "Divan"ı bizə gəlib çatmışdır. "Divan" İngiltərədə çap edilmişdir və şeirlərin əsasını **məhəbbət** lirikası təşkil edir. Onun Azərbaycan türkcəsində qələmə aldığı ayrı-ayrı misra və beytlərlə həmin divanın tərkibində tanış oluruq.

XIII əsrdə epik poeziyaya aid 2 nümunə vardır:

**1) "Dastani-Əhməd Hərami"** – Nizaminin "Leyli və Məcnun" poemasının yazıldığı həzəc bəhrində və məsnəvi şəklində qələmə alınmışdır. Ədəbiyyatımızda ilk dəfə əsərin daxilində qəzəl verilmişdir. Poemada kin-küdurət tənqid olunur, bunun yalnız kin sahibinə ziyan gətirəcəyi bədii formada əsaslandırılır. Əsərdəki başlıca məqsəd əxlaqi ideyanı oxucuya çatdırmaqdır, bu isə onu hadisələrin cəlbediciliyi ilə seçilən Avropa cəngavərlik romanlarından fərqləndirir.

**2) Qul Əlinin "Qisseyi-Yusif" poeması.**

Həm "Dastani-Əhməd Hərami", həm də "Qisseyi-Yusif" poeması üçün ortaq olan cəhətlər aşağıdakılardır:

– islam dininin yüksək humanist dəyərlərinin bədii formada qabardılması;

– xeyir, ədalət, insanpərvərlik, düzlük, insaf və etiqad kimi müsbət keyfiyyətlərin təbliği;

–insana yaraşmayan mənfi sifətlərin tənqidi.

Bu dövr ədəbiyyatının ümumi inkişafı XIII-XVI əsrləri vahid ədəbi proses kimi götürməyi zərurətə çevirmişdir. Həmin dövrdə ana dilində, həm də fars dilində epik və lirik əsərlər yazılırdı. Eyni zamanda anadilli ədəbiyyat sayca və sanbalca getgedə güclənir və farsdilli poeziyanı üstələyirdi.

**Ana dilində yazan sənətkarlar:**

**1) Suli Fəqih** (XIV) "**Yusif və Züleyxa"** əsərini Quranın motivləri əsasında yazmışdır.

**2) Mustafa Zərir** (XIV) "**Yusif və Züleyxa"** əsərini Quranın motivləri əsasında yazmışdır.

**3) Yusif Məddah** (XIV) "**Vərqa və Gülşa"** poemasını yazmışdır. Anadilli epik şerin gözəl nümunəsidir.

**4) Qazi Bürhanəddin** (XIV, yaxud: 1314 – 1398) – şair və hökmdardır. İngilis şərqşünası Eduard Braun onun yaradıcılığını türk ədəbiyyatında dünyəvi poeziyanın ilk örnəyi hesab edir.

Q.Bürhanəddinin ana dilində yazılmış möhtəşəm bir **"Divan"**ı vardır və o, bu "Divan" vasitəsi ilə Həsənoğlu və Şeyx Şəfi yaradıcılığında formalaşmağa başlayan Azərbaycan bədii dilini yüksək səviyyəyə qaldırmışdır.

Q.Bürhanəddin sırf türk poetik janrlarından olan tuyuq janrının yaradıcısıdır. Bu janr sonralar Nəsimi yaradıcılığına və onun vasitəsilə Əlişir Nəvainin "Divan"ına keçmişdir.

**Fars dilində yazan sənətkarlar:**

**1) Nəsrəddin Tusi** (1201-1274). "**Əxlaqi-Nasiri**" adlı əxlaqi-didaktik əsərin müəllifidir. Elmi-fəlsəfi əsərləri ilə yanaşı, ədəbi-bədii əsərləri də vardır.

**2)Marağalı Övhədi** (1274-1338). "**Cami-Cəm**" və "**Dəhnamə**" poemalarının müəllifidir. Bu əsərlərdəki bir çox fəlsəfi və humanitar problemlər öz aktuallığını itirməmişdir.

"Cami-Cəm" daha çox ensiklopedik xarakter daşıyır və humanist fikirləri təbliğ edir. Əfsanəvi hökmdar Cəmşidin camı hər yerdən xəbər verdiyi kimi, M.Övhədinin poeması da insan və cəmiyyət həyatının, təbiət hadisələrinin bir çox cəhətlərini güzgü kimi əks etdirir.

**3)Arif Ərdəbili** (1311-?). "**Fərhadnamə**" poemasının müəllifidir. Nizaminin "Xosrov və Şirin" əsərinin təsiri altında yazılmışdır. Lakin Nizami səviyyəsində əsər və obrazlar ərsəyə gəlmirdi. Həmin dövrün ictimai həyatında özünü göstərən durğunluq və ümidsizlik A.Ərdəbilinin də yaradıcılığında öz əksini tapmışdır.

**4)Əssar Təbrizi** (1325-1390). "**Mehr və Müştəri**" poemasının müəllifidir. İki gəncin dostluğundan bəhs edir. Lakin bu əsərdə Nizami səviyyəsində poetik bütövlük, aydınlıq və bitkinlik yoxdur. Şair poemanın əvvəlində Nizamini sənətini yüksək qiymətləndirir.

Bu dövrdə ədəbiyyatda və ictimai-siyasi fikirdə formalaşmış humanizm prinsipləri Seyid İmadəddin Nəsimi (1369-1417) yaradıcılığında öz zirvəsinə çatır. Ona görə də **XV əsr** həm xronoloji, həm də sənətkarlıq cəhətdən **Qazi-Nəsimi** zirvələri ilə **Xətayi-Füzuli** zirvələri arasında **keçid** mərhələsidir. Bu dövrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranması anadilli şeirin mövzu və obraz baxımından inkişafına səbəb oldu.

Bu dövrdə həm ana dilində, həm də fars dilində yazan sənətkarlar yetişmişdir.

**Ana dilində** yazanlar: **Xəlili, Hamidi, Həqiqi, Həbibi, Kişvəri, Süruri**

**Fars dilində** yazanlar: **Şah Qasim Ənvar, Bədr Şirvani**

**1)Cahanşah Həqiqi** (hakimiyyət illəri: 1436-1467). Qanlı döyüşlərdə fürsət tapıb şeirlər yazmış və "Divan" bağlamışdır. Bir növ sələfi Qazi Bürhanəddinin davamçısı olmuşdur.

**2)Nemətullah Kişvəri.** Nəvainin təsiri ilə lirik şeirlər yazmışdır. Lakin orijinal poetik üslub nümayiş etdirmiş və orijinal poetik obrazlar işlətməklə Azərbaycan ədəbiyyatında unikal mövqe tutmuşdur. O, Ağqoyunlu hökmdarı Sultan Yaqubun sarayında yaşamış və Həbibi ilə tanış olmuşdur.

**3)Həbibi**. Ağqoyunlu sarayının **məliküş-şüərası** olmuşdur. Onun yaradıcılığı milli bir mədəniyyət hadisəsidir.

Şahi və Süruri kimi Həbibinin də yaradıcılığı Xətayi və Füzuli poeziyasının formalaşmasında münbit zəmin rolunu oynamışdır. Hətta Füzuli Həbibinin bir qəzəlinə **təxmis** yazmışdır.

XVI əsrdən etibarən Azərbaycan ədəbi dili fərqləndirici xüsusiyyətlər əldə etdiyinə görə Azərbaycan ədəbiyyatı da müstəqil bir ədəbiyyat kimi öz ənənələrini davam etdirməyə başlayır. Xüsusən bu dövrdə Bağdad ədəbi mühiti milli poeziyanın inkişafına böyük təsir göstərir.

Eyni zamanda XVI əsrdə təzkirəçilər yetişir:

**1)Əhdi Bağdadi. "Gülşəni-şüəra"** ("Şairlər gülşəni")

**2)Sadiq bəy Sadiq** – Şah Abbasın kitabdarı. **"Məcməül-xəvas"** ("Seçilmişlər məclisi")

Bu təzkirələrdə Füzuli dühasının yetişməsində bir sıra şairlərin adı çəkilir: **Ruhi, Şahi, Tüfeyli, Xəzani, Zehni, Elmi, Kalai, Səhabi, Bidari, Zəmiri** (Füzulidən əvvəl **"Leyli və Məcnun"** poemasını yazmışdır).

XVI əsrin birinci yarısında Səfəvi sarayında yaradıcılıqla məşğul olan, bütöv yaradıcılığı gəlib bizə çatmayan, lakin şeirlə-

rindən ayrı-ayrı örnəklər təzkirələrdə qorunub saxlanan şairlər: **Şahqulu bəy, Süsəni bəy, Pəri Peykər**.

Səfəvi sarayında yaşayan sənətkarlardan biri də **Həqiqi Təbrizidir** ki, o, Füzulidən əvvəl **1525-ci ildi "Leyli və Məcnun"** poemasını yazmışdır.

XVI əsrdə **xalq yaradıcılığının** güclənməsi, **aşıq sənətinin təşəkkülü** yeni istiqamət, yeni bir meyil idi. **Qurbani** məhz bu dövrdə yaşayıb-yaratmış, **xalq dastanlarının** ilk nümunələri orta dövrün sonlarında meydana çıxmağa başlamışdır. Xalq ədəbiyyatına, aşıq yaradıcılığına **sufilik fəlsəfəsi** xüsusi təsir göstərmişdir. Xətayi və Əmani klassik janrlarda olduğu kimi, aşıq şeiri janrlarında da əsərlər yazmışlar.

# İMADƏDDİN NƏSİMİ (1369-1417)
## HƏYATI

Şamaxı şəhərində anadan olmuşdur. Onun haqqında çoxlu rəvayət və əfsanələr vardır.

Şairin əsl adı Əlidir. Amma o, müxtəlif adlarla tanınmışdır:

**1)** "**Seyyid"** təxəllüsü ilə şeirlər də yazmış, hətta peyğəmbər nəslindən olduğuna görə **"Seyid**" adlandırılmışdır.

**2) "İmadəddin"** – Quranı, hədisləri və nüfuzlu dini ədəbiyyatı bildiyinə görə **"dinin dayağı"** ləqəbini almışdır.

**3) "Hüseyni"** – sufi şeyxi Həllac Hüseyn ibn Mənsurun şərəfinə götürülmüş təxəllüsdür.

**4) "Nəsimi"** – hürufiliyin banisi, mürşidi Fəzlullah Nəiminin şərəfinə götürülmüş təxəllüsdür.

**5) "Şirvani"** – bəzi qaynaqlarda bu **nisbə** ilə də xatırlanır.

Nəsimi yaradıcılığını iki dövrə bölmək olar:

**I dövr** – 1386-cı ilə qədər, yəni Nəsiminin təhsil aldığı və kamilləşdiyi dövr. Üç dildə – ərəb, fars, türk dillərində olan poeziyanı və fəlsəfi fikri öyrənmişdir.

**II dövr** – 1386-cı ildən sonrakı dövr, yəni Təbrizli Fəzlullah Nəiminin öz ideyalarını təbliğ etmək üçün Şirvana gəlməsi ilə bağlıdır. Nəsimi onunla tanış olduqdan sonra hürufi ideyalarını bəyənir və ömrünün otuz ilini bu ideyaların təbliğinə həsr edir. Onun türkcə yazdığı şeirləri ərəb və fars dillərində yazdığı şeirlərdən çox olduğu üçün, Nəsiminin məhz türklər arasında təbliğat işi apardığını söyləmək olar. Şair özü də Bakı, Şirvan, Bursa, Larəndə, Bağdad, Şam, Misir, Hələb kimi yer adlarını çəkir ki, bu yerlərdə məhz türklər yaşayırdılar.

1370-ci ildə Səmərqənddə hakimiyyəti götürən **Əmir Teymur** hərbi yürüşə çıxır və Ankaraya qədər olan torpaqları işğal edir. Orta əsrlərdə baş verən bu cür amansız müharibələr insanların həyatına son qoyur və kəndlər, şəhərlər dağıdılırdı. Dövrün

qabaqcıl şəxsiyyətləri bunlara müxtəlif formalarda etiraz edirdilər. **Hürufilik** təriqəti də məhz belə yaranmışdır. **"Hürufi"** sözü ərəbcə olub **"hərflərə aid olan"** mənasını verir. Hürufilik təriqətinin əsas prinsipi belədir: Tanrı tərəfindən çox böyük potensialla yaradılan insanın öz nəfsini kamilləşdirmək, heyvani instinktlərdən çəkinmək yolu ilə ilahi mərtəbəyə yüksəlməyə qadir olmaq. Bu məsələnin izahında əbcəd hesabından istifadə edir, Qurandakı müxtəlif ayə və ifadələrin rəqəm qarşılığı ilə insanın üzündə xəyalən gördükləri hərf və sözləri riyazi baxımdan müqayisə edir və insanın zülm və zəlalət üçün yaradılmadığı fikrini əsaslandırırdılar.

**Fəzlullah Nəimi** hurifilik təriqətinin başçısı idi. Hürufizmin humanist və azadlıqsevər ideyalarının yayılmasından qorxuya düşən hakim dairələrin nümayəndələrinin və mürtəce ruhanilərin təzyiqi ilə o, 1394-cü ildə həbs olunaraq Əlincə qalasının yanına gətirilir. Azərbaycanda ağalıq edən Əmir Teymurun oğlu Miranşahın əmri ilə Nəimi işgəncə ilə edam olunur. Nəiminin **vəsiyyətnaməsinə** əsasən onun müridləri – şagirdləri müxtəlif ölkələrə dağılaraq hürufilik ideyalarını yaymağa başlayırlar.

**İmadəddin Nəsimi** hürufilik təriqətinin ən böyük nümayəndəsi idi. Həmin vaxtlar Nəsimi hürufilərin mərkəzi olan Bakını tərk edərək Ruma – Anadoluya gəlir. Amma Osmanlı sultanı I Murad hürufilik ideyalarının əleyhdarı olduğu üçün o, İraqa və Suriyaya getməyə məcbur olur. Nəsimi Hələb şəhərində həbs edilərək 1417-ci ildə ustadı Nəimi kimi öldürülür. Bu, bəzi tarixi qaynaqlarda da göstərilir. Nəsimi Hələb şəhərində dəfn edilmişdir.

## YARADICILIĞI

Nəsimi yaradıcılığı iki baxımdan qiymətlidir:

1)yüksək poetik sənətkarlıq

2)humanist ideyaların təbliği

Epik əsərlər yazmayan Nəsimi böyük lirik şairdir və bu lirikanın əsas obyekti **məhəbbətdir**. Nəsimi şeirlərinin sufi və hürufi qabığını atdıqda onlarda saf və səmimi insan duyğularının tərənnümü qabarıq görünür.

Nəsiminin aşağıdakı janrlarda əsərləri vardır:

**-məsnəvi, -qəsidə, -qəzəl, -tuyuq, -müstəzad,**
**-tərcibənd, -müləmmə.**

Amma bunların içərisində aparıcı yeri **qəzəllər** tutur. Onun qəzəllərini mövzusuna görə iki yerə bölmək olar:

**1)** gözəllərin təsvir və tərənnümü

**2)** insani kamilliyə, özünü tanımağa, heyvani ehtiraslardan uzaq olmağa çağırış

**“YANARAM” qəzəli**. Məhəbbət duyğularının tərənnümünə həsr edilmişdir. Qəzəlin **birinci** beyti belədir:

Səndən iraq, ey sənəm, şamü səhər yanaram,
Vəslini arzularam, dəxi betər yanaram.

Bu beytdə **gözələ – sənəmə** müraciət edən aşiq ondan uzaq olduğu üçün gecə-gündüz yandığını, onunla qovuşmağı arzu etdikdə isə yanğının daha da şiddətləndiyini bildirir. Eyni zamanda şair burada **“iraq olsun”** kimi xalq deyim tərzindən bəhrələnərək poetik sözün çoxmənalılığından istifadə etmişdir. **“Səndən iraq”** dedikdə aşiq həm sevgilisindən uzaqda olmasını, həm də yanmağı sevgilisinə arzu etmədiyini nəzərə çarpdırır.

Nəsiminin bu qəzəlindəki beytlərin misraları arasında Şərq şeirinin kamillik göstəricisi olan səbəb-nəticə əlaqələri, sintaktik və leksik bağlılıq özünü daha aydın göstərir. **İkinci** beytə diqqət yetirək:

Eşqilə şövqün odu canıma kar eylədi,
Gör necə tabından, ey şəmsü qəmər, yanaram.

Deməli, aşiqin yanmasının real səbəbi **eşq ilə həvəsin** odu imiş. Bu od aşiqin canına düşdüyündən aya və günəşə bənzəyən sevgili kimi lirik qəhrəman da onun parıltısından yanmaqdadır.

Qəzəlin **altıncı** beyti belədir:

Çıxdı içimdən tütün, çərxi boyadı bütün,
Gör ki, nə atəşdəyəm, gör nə qədər yanaram.

Nəsimi mübaliğə işlədir və bu mübaliğəyə sevgilisini inandırmaq üçün dolayısı ilə onun heç də mübaliğə olmadığını nəzərə çarpdırır. Yanan aşiqin içindən çıxan tüstünün kainatı bürüməsi lirik qəhrəmanın necə böyük bir od içində olduğunu, necə şiddətlə yandığını ifadə edir.

Qəzəlin **yeddinci** beyti belədir:

Yandığımız yar üçün gizli deyil, mən dəxi
Hər nə qədər kim, onun könlü dilər, yanaram.

Burada isə lirik qəhrəman sevgilisi nə qədər istəsə, o qədər yanacağını bildirir və öz fədakarlığını ifadə edir.

Qəzəldə bir gəncin keçirdiyi həsrət və yanğı duyğuları – şirin əzab hissləri bir rəssam kimi əyani şəkildə təsvir edilir, yeri gəldikcə təbii yanma prosesi ilə müqayisələr aparılır və mübaliğələr yaradılır.

Şairin dili axıcıdır və poetik leksikonu çağdaş dilimizə son dərəcə yaxındır. Yalnız bəzi sözlərin leksik mənası anlaşılmazdır:

**şamü səhər** – axşam-səhər, gecə-gündüz
**tabından** – istiliyindən
**xuni-ciyər** – ciyər qanı
**şəmi-rüxün** – üzünün şamı
**şəşəsindən** – parıltısından
**badi-həva** – yel, külək
**tütün** – tüstü
**müddəi** – iddiaçı, rəqib

**"MƏN MÜLKİ-CAHAN…" qəzəli**. Nəsiminin mənəvi-əxlaqi məzmun daşıyan, insanı kamilləşməyə səsləyən, pisliklərdən çəkindirən qəzəlləri sırasına daxildir. Bu şeirlərdə əsas fikir Mənsur Həllacın **"ənəlhəq"** – **"mənəm haqq, mənəm Tanrı"** məzmununa bağlanır. Şairə görə, insan kainatdakı bütün canlılardan üstündür və Tanrı dərəcəsinə qalxmaq imkanı var. Şairin bu cür qəzəlləri, o cümlədən "Mən mülki-cahan…" qəzəli qəsidə təsiri bağışlayır və güman ki dərvişlərin oxuması üçün nəzərdə tutulub. Qəzəlin **birinci** beyti belədir:

Mən mülki-cahan, cahan mənəm, mən,
Mən haqqa məkan, məkan mənəm, mən.

Şair bildirir ki, lirik "mən", yəni insan olması dünyanın heç bir mənası yoxdur, çünki dünya gözəlliklərini yalnız insan duyub qiymətləndirə bilər.

**İkinci** beytə diqqət yetirək:

Mən ərşilə fərşü kafü nunam,
Mən şərhü bəyan, bəyan mənəm, mən.

İnsan nəinki yer üzünün, həm də bütün kainatın bəzəyidir. Beytdə işlənən **"kafü nun"** Tanrının kainatı yaratmaq üçün dediyi iki sözdən birincisinin hərfləridir: **"kun fəyakunə" – ol, oldular**. Nəsimiyə görə, Tanrının özü də "kun" (ol) deyərkən insanı düşünmüşdür.

Qəzəlin **üçüncü** beyti belədir:

Mən kövnü məkanü künfəkanam,
Bilgil ki, nişan, nişan mənəm, mən.

Şairə görə, Tanrının nişanı da məhz insandır.

Qəzəlin **dördüncü** beyti üçüncü beytin davamıdır:

Mən surəti-mənidə həqqəm, həqq,
Mən həqqi-əyan, əyan mənəm, mən.

Yəni Tanrı öz mənasını insanın surətində bəyan etmiş və ona görə də insana əyan olan Tanrıdan başqa bir şey deyildir.

Qəzəlin digər beytlərində də insanın ilahi mərtəbəyə yüksəlmək hüququ təsdiq edilir. Orta çağlarda insanların hüququnun qorunmasına yönəlmiş bü cür şeirlər öz müəlliflərinə hörmət və ehtiram doğurur.

Əxlaqi-didaktik qəzəllərində Nəsimi cahilləri haqqı görməyə, insanın böyüklüyünə və ilahi mərtəbəsinə inanmağa çağırır.

**Sənətkarlıq xüsusiyyətləri**. Nəsimi poeziyası bədii dilinin gözəlliyi, oynaqlığı, ahəngi və ritmikası ilə qiymətlidir. Ona görə də şair forma gözəlliyinə xüsusi fikir verir və əruzun daha **oynaq** bəhrlərindən istifadə edir, **alliterasiyaya** xüsusi diqqət yetirirdi. Onun "Kimi" rədifli qəzəlindən götürülmüş beytlər bunu təsdiq edir:

Şərbətin acı firqətin nuş edərəm şəkər kimi,
Canımı tutmuşam qəmin qarşısına sipər kimi.

Yaxma məni fəraqilən, çünki mən, ey yüzü qəmər,
Xalisü müxlis olmuşam eşqi-rüxündə zər kimi.

Nəsimi Qazi Bürhanəddindən sonra türk əruzunun formalaşmasında müstəsna rol oynamışdır. Füzulinin "nəzmi-nazik" yazmağın çətinliyindən şikayətlənməsini nəzərə alsaq, Nəsiminin bu yoldakı cəfakeşliyini daha aydın təsəvvür etmək olar.

Nəsimi özünəqədərki fəlsəfəni mənimsəmiş, xüsusən **panteist** fəlsəfənin müddəalarına onun əsərlərində tez-tez rast gəlmək mümkündür. Panteizmə görə, bütün kainat Tanrıdan ibarətdir, insan da daxil olmaqla qalan şeylər Tanrının hissəcikləridir. Hissəciklər Tanrıdan ayrı düşdüklərinə görə kədərlənir və ona qovuşmaq istəyirlər. Amma bunun üçün insan kamilləşməli, çirkin ehtiraslardan uzaqlaşmalıdır. Buna görə də Nəsimi dünyanı "murdar leş" adlandırır və insanın mənən yüksəlməsi ideyasını irəli sürür:

Yoxdur vəfası dünyanın, aldanma anın alına,

Rəngindən oldu münfəil, hər kim boyandı alına.

Nəqdi dəğəldir dünyanın, anınla bazar eyləmə,
Niçün ki, hər kim qəlbilə eylərsə bazar, alına.

Fani cahanın sevgisi damu odudur, yandırır,
Qaç ol qarıdan, ey könül, aldanma zülfü xalına.

Nəsimi poeziyası **nikbinliyi, gələcəyə inamı və insanın kamil bir varlığa çevriləcəyi etiqadını** yaşadır.

# ŞAH İSMAYIL XƏTAYİ (1487-1524)
## HƏYATI

Şah İsmayıl Xətayi görkəmli dövlət xadimi, təriqət başçısı, sərkərdə, şair olmuşdur.

**1487**-ci il iyun ayının 23-də Ərdəbil şəhərində təriqət başçısı ailəsində doğulmuşdur. Səfəvilər sülaləsindəndir. Babası Şeyx Cüneyd, atası Şeyx Heydər uzun illər Ərdəbilin hakimi olmuşlar. Anası Aləmşah bəyim isə Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı idi.

**1488**-ci ildə atası Şeyx Heydər Şirvanşahlarla müharibədə öldürülmüş, onun uşaqları, o cümlədən iki yaşı hələ tamam olmamış İsmayıl əsir alınaraq Şiraz yaxınlığındakı İstəxr qalasına salınmışdır. Ağqoyunlu Rüstəm Bayanduri dörd il həbsdə qalan uşaqları azad etdirib Ərdəbilə yola salmışdır. Lakin sonra peşman olub onların arxasınca beş min nəfərlik ordu göndərmiş, Ərdəbil yaxınlığındakı Şəməsi adlı yerdə döyüş başlanmış və qızılbaşlar məğlub olmuşlar. Amma Ağqoyunlular İsmayılla qardaşı İbrahimi tapa bilməmişlər. Qızılbaş tərəfdarları onu Gilana – Lahicana aparmışlar. İsmayıl qardaşı ilə birgə altı il Lahicanda görkəmli alim Şəmsəddin Lahicidən ərəb, fars dillərini və Quranı oxumağı öyrənmişdir.

**1499**-cu ildə İsmayıl 70 nəfərlik bir dəstə ilə Lahicandan çıxıb Ərdəbilə yola düşür. Onun ətrafına çoxlu döyüşçülər toplanır və Ərdəbildə 7 min nəfərlik bir ordu yaranır.

**1500**-cü ilin qışını Ərçivanda – Xəzər dənizi sahilində keçirir. Yayda Göyçə gölü sahillərinə, oradan da Ərzincana gəlib orada qərar tutur. İsmayıl Ərzincandan Şirvan üzərinə yeriyərək Gülüstan qalası yaxınlığında Fərrux Yasarın qoşunlarını məğlub edir. Sonra Muğana qayıdıb qış aylarını Salyanın yaxınlığındakı Mahmudabadda keçirir.

**1501**-ci ildə Bakıya hücum edib şəhəri tutur. Həmin ilin ortalarında İsmayıl Araz çayını keçib Şərur düzündə Ağqoyunlu

Əlvənd Mirzənin 30 minlik qoşununu məğlub edir. Payızda isə Təbrizə daxil olub özünü şah elan edir. Beləliklə, Səfəvilər dövlətinin əsası qoyulur. Dövlətdə əhalinin etnik çoxluğunu türklər təşkil edirdi və onlar siyasi həyatda rəhbər rol oynayırdılar. Mənbələrdə göstərilir ki, hərbi komandanlıq, maliyyə idarələri, bütün saray vəzifələri Azərbaycan əyanlarının əlində idi. Sarayda, qoşun hissələrində, qismən diplomatik yazışmalarda Azərbaycan türkcəsindən istifadə edilirdi.

**1503**-cü ildə Şah İsmayıl Həmədan yaxınlığında Sultan Muradı məğlub edərək Ağqoyunlu dövlətinin varlığına son qoydu.

**1510**-cu ilə qədər İraq və İran da daxil olmaqla Amu Dərya çayından Fərat çayına qədər olan ərazidə böyük bir dövlət yaratdı. Beləliklə, Səfəvilər dövləti Şərqdə Şeybani xanın özbək dövləti, Qərbdə isə Osmanlı İmperiyası ilə həmsərhəd – qonşu oldu. Amma Şah İsmayıl sərhədlərini qorumağa və ərazilərini genişləndirməyə çalışırdı və bu məqsədlə onun sərkərdəsi Məhəmməd xan Ustaclı Diyarbəkiri ələ keçirdi və Sultan Səlimə hədələyici məktub yazdı. Qəzəblənən Sultan Səlim Şah İsmayılla müharibə etmək qərarına gəldi və 140 min nəfərik ordu təşkil edərək hücuma başladı.

Tərəflər Maku yaxınlığında Çaldıran düzündə qarşılaşdılar. Qızılbaş sərkərdəsi əsgərlərin sayı az olduğuna görə gecə hücuma keçməyi qərarlaşdı. Amma Şah İsmayıl bununla razılaşmayaraq deyir: “Mən karvanbasan quldur deyiləm, qoy Allahın məsləhət bildiyi kimi olsun”.

**1514-cü il avqust ayının 23-də Çaldıran döyüşü** başladı. Şah İsmayıl özü Osmanlı sərkərdəsi ilə təkbətək döyüşə girib onu məğlub etsə də, Səfəvilər dövləti sayca çox olan və odlu silahdan istifadə edən Osmanlı ordusu qarşısında tab gətirə bilmədi.

Rəvayətə görə, məğlubiyyətdən qəzəblənən Şah İsmayıl qılıncını topun lüləsinə elə çırpır ki, zərbədən topun lüləsi qırılır. Bunu eşidən Sultan Səlim həmin qılıncı gətizdirib özü topun lüləsinə vurur, amma topun lüləsi kəsilmir. Bu vaxt Sultan Səlim deyir ki, bu, həmin qılınc deyil. Bunu eşidən Şah İsmayıl isə ona belə cavab verir: “Qılınc həmin qılıncdır, təəssüf ki, qol həmin qol deyil”.

Osmanlı ordusu içərilərə doğru yeriyib Xoy, Mərənd, Təbriz şəhərlərini tutdu. Amma cəmi altı gün Təbrizdə qalıb qarətlə məşğul olduqdan sonra şəhəri tərk edib geri çəkildilər. Şah İsmayıl isə bundan sonra hərbi yürüşləri dayandırıb həm ölkənin daxili vəziyyətini sabitləşdirməyə, həm də qonşu dövlətlərlə münasibətləri yaxşılaşdırmağa çalışmışdır.

**1523**-cü ildə Şirvanşahın qızı ilə evlənmiş və əslində bu da münaqişələrə son qoymaq tədbirlərindən biri idi.

**1524**-cü il may ayının 23-də **37** yaşında qəflətən vəfat etmiş və Ərdəbildə Şeyx Səfi məqbərəsində dəfn olunmuşdur.

## YARADICILIĞI

**1499-1500**-cü illərdə, təxminən **12-13** yaşlarında yaradıcılığa başlamışdır.

**Ərəb, fars və Azərbaycan dillərində** yazıb-yaratmışdır. Əsərlərinin əsas hissəsi Azərbaycan dilindədir.

**Yunus İmrə, Qazi Bürhanəddin, İmadəddin Nəsimi və Nemətullah Kişvərinin** təsiri ilə ilk şeirlərini yazmışdır. Şah İsmayıl Xətayi Qazi Bürhanəddin və Cahanşah Həqiqi kimi **hökmdar şairdir**.

Sələflərindən fərqli olaraq həm şifahi, həm də yazılı ədəbiyyat ənənələrinə söykənmiş, həm **heca**, həm də **əruz** vəznində, həm **xalq** şeiri üslubunda, həm də **klassik** şeir üslubunda şeirlər yazaraq divan ədəbiyyatımızı zənginləşdirmişdir. İstifadə etdiyi **janrlar**:

**1) xalq şeiri** janrları: **-qoşma, -gəraylı, -varsağı, -bayatı**
**2) klassik şeir** janrları: **-poema, -qəzəl, -qəsidə, -qitə, -mürəbbe, -tərcibənd**

**Əsərləri:**

1) ana dilində **"Divan"**
2) didaktik **mənzumələr**
3) **"Nəsihətnamə"** məsnəvisi
4) **"Dəhnamə"** məsnəvisi

**LİRİKASI**

Xətayi **lirik şairdir**. Onun lirik əsərlərini **4** (dörd) istiqamətə ayırmaq olar.

**Birinci istiqamət**.

Buraya **şiə-qızılbaş təriqətinin tərənnümü** ilə bağlı şeirlər aiddir. Belə şeirlər xüsusilə **qoşma və gəraylı** janrlarında yazılırdı. Şah İsmayılın nəzərində şiə-qızılbaş təriqəti zülmə, əsarətə etiraz, doğruluğa, bərabərliyə çağırış rəmzi idi. Şiəliyin təbliğində daha çox aşağıdakı məqsədlər izlənirdi:

**1)** Yeni dövlət qurmaq

**2)** Dövlətin siyasi-ideoloji əsaslarını hazırlamaq.

**3)**Bütün əhalini bir bayraq – qızılbaşlıq ideyası ətrafında birləşdirmək.

Xətayi imam Əlini təriqət mürşidi, mərdlər şahı adlandırmış, Allahdan və Məhəmməd peyğəmbərdən sonra böyük qüdrət sahibi hesab etmişdir. Bəzi vaxtlarda özünü Əlinin varisi adlandırmış və qızılbaşları onun ideyası uğrunda şəhid olmağa çağırmışdır:

Mənim yolumda yektalar gərəkdir,
Dini, imanı yəğmalar gərəkdir,
Mənəm sultan Xətayi Heydər oğlu,
Mənim yolumda qovğalar gərəkdir.

**İkinci istiqamət**

Buraya **sufi ideyalarının, sufilik görüşlərinin** təbliği ilə bağlı şeirlər aiddir. Bu təbliğatda əsas məqsəd aşağdakılardır:

**1)** daxili saflıq

**2)** əxlaqi təmizlik

**3)** mənəvi azadlıq

Beləliklə, Xətayi "Həqqi mütləq" ideyasını irəli sürürdü ki, bu, Nəsiminin "Ənəlhəq" ideyasına uyğun idi:

Ənəlhəq sirri uş könlümə gizli
Ki, həqqi-mütləqəm, həq söylərəm mən.

Xətayinin sufizmə dair şeirlərinə güclü bir humanizm xasdır. Şairə görə güzgüsü – daxili aləmi saf olan insan Allaha bərabərdir. Belə insan həqiqət yolunu azmayan sufilərdir ki, şair onlara müraciətlə deyir:

Sufi isən, alıb-satma,
Halalına haram qatma,
Yolun əyrisinə getmə,
Doğru yola nəzər eylə.

**Üçüncü istiqamət**

Buraya **məhəbbət** mövzusunda yazılan şeirlər aiddir. Həm əruz, həm də heca vəznində yazılan həmin şeirlərdə aşağıdakı fikirlər ifadə olunur:

**1)** eşq mənəvi ucalıq yoludur

**2)** məhəbbət insanı saflaşdıran mənəvi qüvvə, "yerin-göyün dirəyidir":

Məhəbbətdir yerin-göyün dirəyi,
Məhəbbət edənin yanar çırağı.
Aşiqə beytullah – məşuq durağı,
Həq nəzər etdiyi yerdir məhəbbət.

**3)** məhəbbət Tanrının simvoludur, insandakı keyfiyyətlərin ən yaxşısıdır və sevgisiz insan Tanrını tanımayanlardır:

Məhəbbət dediyin xaslar xasıdır,
Məhəbbət olmayan haqqın nəsidir?
Dost Xətayinin bu haqq nəfəsidir,
Məhəbbətdən keçən haqdan da keçər.

Nizami, Nəsimi, Kişvəri və Həbibidə olduğu kimi Xətayinin də şeirlərində tərənnüm olunan məhəbbət iki səciyyəlidir.

**1)** lirik qəhrəman – Aşiq **ilahi məhəbbət** yolçusudur, xoşbəxtliyi Tanrıya qovuşmaqda görən sufidir. O, "dost", "məşuq", "dilbər" dedikdə Tanrını nəzərdə tutur.

**2)** lirik qəhrəman – Aşiq **real məhəbbət** haqqında düşünür, səadəti mövcud həyatda, insana olan sevgidə görən saf ürəkli bir gəncdir.

**Dördüncü istiqamət**

Buraya **peyzaj lirikası, təbiət təsvirləri** aiddir.

**1) "Bahar oldu ki, aləm gülşən oldu" qəzəli**. Şeirdə təbiətin gözəlliyi və füsunkarlığı təsvir edilir. Şair yazın gəlişi ilə canlanan təbiətin cazibədarlığını sənətkarlıqla əks etdirir:

Bahar oldu ki, aləm gülşən oldu,
Gözün aç, gör cahan nə rövşən oldu.
Bəzəndi hər bir ağac bir gül ilə,
Ağaclar cümlə gülpirahən oldu.
Açıldı yazilər, bitdi çiçəklər,
Gül ilə şol bənəfşə, süsən oldu.
İrişdi vədəsi badi-xəzanın,
Bəhər su gəl həzəran xərmən oldu.

**2) "Mövsümi-qış getdi…" qəzəli.** Şeirdə baharın təbiətə gətirdiyi füsunkarlıq insanın gözəlliyi ilə vəhdətdə təqdim olunur. Hər tərəfdən gül ətri saçılır və Novruzun gəldiyi vaxtdır. Yaz yağışları dürr parçaları səpələyir və bu yağışlarda çimən təbiət daha da cazibədarlaşır. Şair bundan sonra o füsunkarlığı heyrətdə qoyan insanı – bağçada gəzişən gözəli təqdim edir:

Bağçayə seyranə çıxdı gəşt üçün ol gülüstan,
Gül xəcalətdən qızarıb, şərmsar oldu yenə.
Qamətindən bəhs edərdi, daima ol sərvi-bağ,
Gör xəcalətdən ona mənzil-kənar oldu yenə.
Gül yüzünü görəli artdı fəğanı quşların,
Lal ikən bülbüllərin sövti hezar oldu yenə.

**3) "Bahariyyə"** şeiri. "Dəhnamə" məsnəvisindəndir. Yaz fəslinin bədii təsviri verilmişdir. Şeir hökmdar şairin canlı peyzaj lövhələri yaratmaq istedadını təsdiqləyir. Burada doğma yurda, vətənə sonsuz məhəbbət də əks olunmuşdur. Xalq həyatına dərindən bələd olan sənətkar çöl həyatının təmtərağını elə canlı lövhələrlə canlandırır ki, insan həmin lövhələri təkrar-təkrar xatırlamaqdan həzz alır:

Qış getdi, yenə bahar gəldi,
Gül bitdi və laləzar gəldi.
Quşlar qamusu fəğanə düşdü,
Eşq odu yenə bu canə düşdü.

Yer geydi qəbayi-xizrpuşan,
Cümlə dilə gəldi ləbxəmuşan.
Sərvin yenə tutdu damənin su,
Sərv üstə oxudu faxtə qu-qu.
Qönçə dəhəni çəməndə xəndan,
Gülməkdən ənar açıldı dəndan.
Durna uçuban həvayə düşdü,
Laçın oluban ovayə düşdü
Alma ağacı dibində sayə,
Tən eylər idi bulud da ayə…
Yaşın yerə tökdü əbri-neysan,
Bülbüllər oxudu sədhəzaran.
… Yüz dürlü qəba geyib çəmənlər,
Ağ donunu geydi yasəmənlər.

**“AYRILIR” qəzəli**. Məhəbbət mövzusunda yazılmışdır. Əruz vəzninin **rəməl** bəhrindədir. İ.Nəsiminin eyni rədifli qəzəlinə nəzirədir. Şeirdə sevgilisindən ayrılan Aşiqin sarsıntıları və iztirabları verilmişdir.

Müsəlmanlara xitabla başlanan şeirdə Aşiq sevgilinin (“yari-pünhan”ın) ayrıldığını bəyan edir. Bu ayrılıq Aşiq və Məşuqun sadəcə bir-birindən kənarlaşması deyil, əksinə iki dünyanın bir-birindən qopub tənha və köməksiz qalmasıdır. Bu ayrılıq Məşuqun (“yari-sərdar”ın) Aşiqi yüz min dərd-bəla ilə üz-üzə qoyub getməsidir. Ona görə də həmin gün ruhun bədəndən uçması, ağılın başdan çıxması, canın gövdədən ayrılması qədər əzablı və dəhşətli görünür:

Ey müsəlmanlar, bu gün ol yari-pünhan ayrılır,
Uçdu ruhim, getdi əqlim, gövdədən can ayrılır.
Ayrılır ol yari-sərdarım, gedir, qoymuş məni
Səd həzəran dadü bidad bədəndən can ayrılır.

Şeirin üçüncü beytində müraciətin ünvanı konkretləşir: Aşiq öz könlünə üz tutur və bülbül kimi ağlamağa, gül kimi yaxa cırmağa, fəryad qoparmağa çağırır. Çünki Məşuq (“şahi-sultan”) könül şəhərindən ayrılır:

Ey könül, fəryadü nalə vaxtıdır, eylə fəğan,
Şimdi şəhrindən sənin ol şahi-sultan ayrılır.
Zar qıl bülbül kimi, çak et yaxanı gül kimi,
Şol əzəldən yari-həmdəm, əhdü peyman ayrılır.

Beşinci beytdə isə müraciətin ünvanı yenə dəyişir və Aşiq gözlərinə xitab edir. Onları dalğalanmağa, yaş axıtmağa səsləyir. Altıncı beytdə isə Aşiq özünün də dözə bilməyib ağlamasını gizlətmir.

Nəhayət, sonuncu beytdə Aşiq Xətayiyə müraciət edir və Tanrıya razılığını bildirir:

Ey Xətayi, Tanrı sorsun bu şikəstə könlümü,
Zərd olubdur arizin, andan məgər qan ayrılır?

Xətayi Nəsiminin qəzəlinin məzmun və formasından yetərincə faydalanmışdır. Nəsiminin və Xətayinin “Ayrılır” rədifli qəzəllərinin **ortaq cəhətləri**:

**1)** hər ikisi **müsəlmanlara** xitabla başlayır

**2)** hər ikisi **rəməl** bəhrindədir:

(fAülatün, fAülAtün, fAülAtün, fAülün)

**3)** hər ikisinin **birinci misrası** eynidir:

“Ey müsəlmanlar, bu gün ol yari-pünhan ayrılır”

**4)** hər ikisində “**pünhan”, “can”, “ümman**” kimi qafiyə sözlər vardır.

Xətayi Nəsimidən bəhrələnsə də, poetika baxımından orijinal şeir yaratmışdır. Xətayinin və Nəsiminin “Ayrılır” rədifli qəzəlinin **fərqli cəhətləri**:

**1)** Xətayinin şeirində Nəsimidə olmayan 4 müraciət obyekti vardır: “yari-pünhan”, “yari-sərdar”, “şahi-sultan”, “yari-həmdəm”

**2)** bu müraciət obyektləri Xətayi şeirində Aşiqin həyəcan və iztirablarının daha dərindən ifadəsinə kömək etmişdir.

**3)** Xətayi şeirinin dili aydındır; ərəb-fars mənşəli sözlər az işlənmişdir.

**4)** Xətayidə daha təsirli bədii təsvir və ifadə vasitələri var.

Şah İsmayıl Xətayinin “Ayrılır” rədifli qəzəli yalnız Xətayi yaradıcılığında deyil, ümumiyyətlə, XV-XVI əsrlərdə yazılmış yaxşı **nəzirə** nümunələrdən biridir.

## "DƏHNAMƏ" məsnəvisi

"Dəhnamə" **epik** əsərdir. Həcmcə ən böyük, məzmunca ən sanballı məsnəvisidir. **1506**-cı ildə yazılmışdır. Şair əsərin **yazılma səbəbini** üç amillə izah edir:

**1)** Allahın təkliyini qəbul etdiyini və özünün ona bəndəliyini bildirmək

**2)** qəmli könülləri şadlandırmaq

**3)** özündən sonra bir nişanə qoymaq

**Mövzusu**: məhəbbət

**İdeyası**: məhəbbət uğrunda fədakarlıq.

**İrəli sürülən fikirlər**: Yalnız daxilən təmiz olanlar həqiqi məhəbbətə layiqdirlər, həqiqi aşiqlər səbirli və dözümlü olmalıdırlar, vüsala çatmaq üçün yüksək təmkin və iradə nümayiş etdirməlidirlər, insan xoşbəxtliyinin real yolu əxlaqi-mənəvi saflaşmadır.

**Aşiq surəti**. Sevənləri **"əbləh"** – **ağılsız** adlandıran Aşiq yuxuda pəriüzlü bir gözələ vurulur. Məhəbbət onun qəlbinə qəm-qüssə gətirir, gündüzlər darıxır, gecələr nalə edir. Həyatda özünə sirdaş tapa bilməyən Aşiq ilahiyə müraciət edib ondan kömək istəyir. **Hatifdən gələn səs** onun sevgilisinin şəxsiyyəti və yaşadığı yer haqqında məlumat verir. Bu məlumat Aşiqin məhəbbətini daha da coşdurur və o gedib sevgilisini uzaqdan görür, eşqi daha da şiddətlənir.

Lakin Aşiq **maneələrlə** qarşılaşır. Bağban onun yolunu kəsir, Məşuqə isə məhəbbətini rədd edir. Maneələr onu yolundan döndərə bilmir və Aşiqin iradəsini, məhəbbətini daha da qüvvətləndirir. Aşiq **Səba, Huş, Ah və Göz yaşı** vasitəsilə məhəbbətini sevgilisinə bildirir. Aldığı rədd cavabı onu ruhdan salmır, əksinə iradəsini və səbrini daha da möhkəmləndirir.

Aşiq vəfalı və sədaqətli, səbirli və iradəli olduğuna görə Bağbanın rəğbətini qazanır. Onun fədakarlığı Məşuqənin qəlbini yumşaldır və Məşuqə inanaraq ona könül verir.

**Məşuqə surəti**. O, mifik surətdir – pəridir. Məğrur və gözəlliyi ilə öyünən bir qızdır. Məkanı cinlər gülzarı, pərilər bağıdır. Qulluğunda duranlar da hurilər, pərilər, qılmanlar və insanlardır. Aşiqin ilk məktubu ona çatanda qəzəblənir, kağızı parça-parça edir, onu gətirən qasidi – Səbanı qovur və Bağbana acıqlanır. Səba elçi kimi yenidən Məşuqənin yanına gələndə onu saçlarına bənd edib həbsə salır.

Məşuqə Huşun və Ahın gətirdiyi məktubları da qəzəblə qarşılayır. Göz yaşının üçüncü elçiliyindən sonra isə ürəyi yumşalır və **Göz yaşını tərifləyir, Aşiqin halını xəbər alır, Səbanı azad edir, Aşiqi görüşə – vüsala çağırır**. O, Aşiqin səbrini tərifləyir, dözümlü və iradəli olmağı məqsədə çatmağın əsas vasitəsi hesab edir.

Əsərdə mifik düşüncə məhəbbət haqqında sufi görüşlərlə vəhdət təşkil edir. Burada ilahi eşqin atributları olan **vəfa, sədaqət, səbir və sabitqədəmlik** təriflənir. Sufizmə görə, ilahi eşqə çatmağın yolu pərilər – mələklər aləmindən keçir. Ona görə də Aşiq daha da yüksəlmək üçün Məşuqə ilə vüsala çatandan sonra onunla halallaşıb ayrılır.

Xətayi və M.Övhədinin “Dəhnamə”lərinin **fərqləri**:

**1)** Xətayinin “Dəhnamə”sində insanın pəriyə vurulması, məhəbbətin gücü ilə onun ram edilməsi təsvir olunur.

**2)** Xətayinin “Dəhnamə”sində **əsatiri-mifik, ilahi-sufi, real-dünyəvi** sevginin əlamətlərini görmək mümkündür.

**3)** Xətayi “Dəhnamə”yə **Bağban, Huş, Ah, Göz yaşı** kimi surətlər əlavə etmişdir.

Xətayinin “Dəhnamə” əsərinin **gözəl sənət nümunəsi** olmasını şərtləndirən amillər aşağıdakılardar:

– bədii-epik təhkiyənin şirinliyi

– hadisələrin ardıcıllığı

– süjetin dinamikliyidir

“Dəhnamə” məsnəvisindəki **süjetin mərhələlərini** aşağıdakı kimi təsəvvür etmək olar:

**1)Ekspozisiya** – Aşiqin yuxuda Məşuqəni görməsi.

**2)Zavyazka** – Qəhrəmanın Bağbanla qarşılaşdığı epizod.

**3)Kulminasiya** – Göz yaşının üçüncü dəfə Məşuqənin yanına gəlməsi.

**4)Razvyazka** – Məşuqənin Aşiqi görüşə çağırması.

**5)Final** – Aşiqin vüsala çatıb Məşuqədən ayrılması.

Xətayinin “Dəhnamə” məsnəvisi digər ideya-bədii xüsusiyyətləri ilə bərabər, **kompozisiya** baxımından da novator keyfiyyətlərə malikdir. Belə ki, poemanın əvvəlində ənənəvi və rəsmi başlıqlar olan minacat, nət və meracnamədən sonra Əlinin və başqa imamların tərifi verilmişdir. Rəsmi hissələrdən sonra “Bahariyyə” verilib və burada həm yazın gəlişi, həm də xalqın məişəti və yaşayış tərzi canlandırılmışdır.

“Bahariyyə”dən sonra **hadisələr aşağıdakı ardıcıllıqla** verilir: Aşiqin əhvalı, onun Məşuqəyə vurulması, könüldən şikayəti, Tanrıya yalvarışları, Məşuqənin yaşadığı gülzara gedərək onu uzaqdan görməsi, Bağbanla qarşılaşması, Bağbanın aşiqə məsləhətləri, Aşiqin Səbanı axtarıb taparaq öz dərdini ona danışması.

Aşiqin bir-biri ilə sıx əlaqədə olan məktublarında surətlərin xarakteri və fəaliyyəti ilə bağlı faktlar vardır. Məsnəvinin müvafiq yerlərində isə Aşiq və Məşuqənin dilindən onların daxili aləmini əks etdirən qəzəllər verilmişdir.

“Dəhnamə” əsərinin **kompozisiyası** kitabın **inşa tarixi, bitməsi** və **yazılma səbəbi** haqda izahatla tamamlanır.

Poema bədii dil və üslub baxımından da sənətkarlıqla işlənmişdir. Onun leksikasında **ərəb-fars** mənşəli sözlərin, Qurandan götürülmüş ifadələrin olmasına baxmayaraq, **dili sadə və anlaşıqlıdır**. Orada qədim türk-Azərbaycan sözlərinə də rast gəlirik: sayru, yürüş, nəsnə, biliş, aydır, uçmaq, damu, uş, yazı,

sonucu. Hətta elə misra və beytlər vardır ki, onlar tamamilə türk sözlərindən ibarətdir:

Hər gözüm əgər olursa yüz göz,
Bir yüzüm əgər olarsa yüz üz.
Səndən kəsəmən o gözlərimni,
Salam ayağıma yüzlərimni.

"Dəhnamə" əruzun **həzəc** bəhrindədir: məfUli, məfAilün, fəUlün

# MƏHƏMMƏD FÜZULİ (1494-1556)

## HƏYATI

**1494**-cü ildə **İraqda** doğulmuşdur. Şairin atası **Süleyman** Azərbaycan ərazisindən İraqa köçmüş ziyalı bir şəxs idi.

Şairin əsl adı **Məhəmməd**, təxəllüsü **Füzuli**, nisbəsi (doğulduğu yerin adı ilə) **Bağdadi** olmuşdur. Bir çox qaynaqlarda **Molla Məhəmməd Bağdadi** adı ilə də tanınır.

Füzuli Dədə Qorqud kimi türklərin Bayat boyundandır. Bayat boyu saza-sözə bağlı olmuş, hətta poetik bir janr – **bayatı** janrını da yaratmışlar. Amma Füzuli **bayatı,** daha geniş mənada **heca** vəznində **yazmayıb**.

**1508**-ci ilə qədər Füzulinin doğulduğu və yaşadığı İraq Ağqoyunlular dövlətinin tərkibində olmuşdur. Həmin vaxtdan etibarən, yəni Şah İsmayılın İraqı tutmasından sonra şiə müqəddəslərinin məqbərələrinin təmirinə xüsusi fikir verilirdi. Məhz Füzuli də uzun müddət Nəcəfdə Həzrət Əli, Kərbəlada isə İmam Hüseyn türbələrində xidmət etmişdir.

Füzulinin nisbətən sakit həyat keçirdiyi Səfəvilər dövründə yazdığı əsərlər:

**1) "Türk divanı"**

**2) "Bəngü Badə"** ("Tiryək və Şərab") poeması – Şah İsmayıl Xətayiyə həsr edilmişdir.

**1534**-cü ildə İraq Osmanlı hökmdarları tərəfindən tutulur. Füzulinin həyat və yaradıcılığının yeni mərhələsi başlayır. Bu dövrdə yazdığı səciyyəvi əsərlər:

**1) "Leyli və Məcnun**" poeması

**2) "Şikayətnamə"**

Füzuli Anadoluda və İraqda yaranan türk poeziyasına fərq qoymur, eyni zamanda Şah İsmayıl Xətayi və Sultan Səlim arasındakı çəkişmələri türkün qüdrətini zəiflədən bir proses kimi nəzərdən keçirir.

Füzuli Nizami kimi sarayda yaşamasa da, onun Sultan Süleyman Qanuni ilə əlaqələri olmuş, hətta türk hökmdarı ona **doqquz axça** (gümüş pul) təqaüd kəsmişdir. Lakin bürokratik əngəllər həmin pulu almağa imkan verməmişdir. Bundan qəzəblənən şair öz qəzəb və nifrətini **"Şikayətnamə"** ("Nişançı Paşaya məktub") əsəri ilə bildirməyə məcbur olmuşdur.

Füzulinin Fəzli adlı oğlu olmuşdur. Füzuli sələfi Nizami kimi poemalarının əvvəlində oğluna nəsihət yazmasa da, "**Fəzliyə nəsihət"** adlı ayrıca şeir yazmış və valideyn tövsiyələrini ifadə etmişdir.

Füzuli ərəb, fars və türk dillərində yazmışdır.

**Əsərləri:**

**1)Lirik şeirləri:** "Türk divanı", "Fars divanı", ərəb, fars və türk dillərində "Qəsidələr divanı".

**2)Poemaları:** "Söhbətül-əsmar", "Bəngü Badə", "Yeddi cam" ("Saqinamə"), "Leyli və Məcnun".

**3)Nəsr əsrləri:** "Şikayətnamə", "Hədiqətüs-süəda", "Rindü Zahid", "Səhhət və Mərəz".

**4)Fəlsəfi traktat:** "Mətləül-etiqad" (ərəbcə)

**5)Tərcüməsi:** "Hədisi-ərbəin" ("Qırx hədis")

**1556**-cı ildə Kərbəla şəhərində vəfat etmiş və İmam Hüseyn məqbərəsinin astanasında dəfn edilmişdir.

Onun vəfat tarixi Əhdi Bağdadinin "Gülşənüş-şüəra" ("Şairlər gülşəni") təzkirəsində əbcəd hesabı ilə "köçdü Füzuli" sözləri ilə ifadə edilmişdir.

Şair bədii yaradıcılığa çox erkən başlamış və tez bir zamanda məşhurlaşmışdır. Füzuli özü bunu bir qitəsində belə ifadə edir:

Şeyti-fəsahət ilə sözüm tutdu aləmi,
Mən məhdi-etibardə tifli-zəbun hənuz.
Buyi-xoşumla oldu müəttər dimağlər,
Mən nafeyi-vücuddə bir qətrə xun hənuz.

Bununla yanaşı Füzuli öz dövründə şeirə-sənətə qiymət verilməməsindən gileylənmiş, şairə həm alimlər, həm də cahillər məclisində hörmət qoyulmamasını söyləmişdir.

Füzuli də Nizami kimi hakimlərə və məmurlara nəsihətlər etmişdir.

## YARADICILIĞI

Füzuli yaradıcılığa çox erkən başlamasını və bütün ömrü boyu elmi bilikləri öyrəndiyini türkcə və farsca divanlarının girişində söyləmişdir. Şair bu qənaətdə idi ki, bədii yaradıcılıq elmə söykənməli, eyni zamanda şeirdə yalnız forma deyil, məzmun da gözəl olmalı və informativlik qabarıq görünməlidir.

Füzulinin istifadə etdiyi **janrlar**:

**-poema, -məsnəvi**
**-qəzəl, -qəsidə, -qitə,**
**-rübai, -mürəbbe, -müxəmməs, -təxmis,**
**-tərcibənd, -tərkibbənd, -fəlsəfi traktat.**

Şair bu janrlardan bəzilərinin daha üstün olmasına “Leyli və Məcnun” poemasının müqəddiməsində toxunmuşdur:

Gəh tərzi-qəsidə eylərəm saz,
Şəhbazım olur büləndpərvaz.
Gəh dəbi-qəzəl olur şüarım,
Ol dəbə rəvan verər qərarım.
Gəh məsnəviyə olub həvəsnak,
Ol bəhrdə istərəm düri-pak.

**QƏSİDƏLƏRİ**. Füzulinin **doxsana** yaxın qəsidəsi vardır. Azərbaycan dilində yazılan qəsidələri sayca ərəbcə və farsca yazılan qəsidələrdən çoxdur. Şair “Qəsidələr divanı”nın dibaçəsində (müqəddiməsində) qəsidənin üstünlüklərini xüsusilə qeyd edir:

Məsnəvi üsulu, qəzəl sənəti
Qazanmış olsa da aləmdə şöhrət,

Ancaq bir eybi var: ifratla təfrit
Nə onda dad qoymuş, nə bunda ləzzət.
Təkcə qəsidədir, hər xeyir işdə
Cilvələr saçaraq sayılır sənət.

Füzuli qəsidələrinin **obyektləri**:

1)zəmanə hökmdarları

2)islam dininin şəxsiyyətləri

3)dövrünün tarixi şəxsiyyət və hadisələri.

**İslam dininin böyük şəxsiyyətlərinə** daha çox qəsidələr həsr etməsi onu **sələflərindən fərqləndirir**. Füzulinin tərif obyektinə səmimiliyi isə heç bir şübhə doğurmur.

Onun qəsidələri yüksək bədii səviyyəsi və dərin fəlsəfi ümumiləşdirmələri ilə bu gün də öz əhəmiyyətini qoruyub saxlayır. Bu, Azərbaycan dilində yazılmış **"Gül", "Su", "Xəncər"** rədifli qəsidələri üçün daha çox səciyyəvidir.

Füzulinin türk (Azərbaycan) dilində olan qəsidələrini fərqləndirən əsas cəhət ondan ibarətdir ki, şair böyük ictimai-fəlsəfi problemlər qoyaraq, bu problemlər haqqında öz qənaətini yüksək bədii dillə ifadə edir. Eyni zamanda elə konkret tövsiyə və məsləhətlər verir ki, onlar bu gün də öz aktuallığını saxlamaqdadır. Məsələn, şairin müəllimə verdiyi tövsiyə bir region üçün deyil, ümumiyyətlə, bəşəriyyət üçün əhəmiyyətlidir:

Ey müəllim, aləti-təzvirdir əşrarə elm,
Qılma əhli-məkrə təlimi-məarif, zinhar.
Hiylə üçün elm təlimin qılan müfsidlərə,
Qətliam üçün verir cəlladə tiği-abidar.
Hər necə cəhd etsə əhli-cəhl, ona olmaz səbat,
Məkri-əhli-elmdir əsli-fəsadi-ruzigar.

**QƏZƏLLƏRİ**. Füzulinin türk divanı, əsasən, qəzəllərdən ibarətdir, yəni onun ana dilində yazdığı qəzəllər türk divanında toplanmışdır. **Türk divanı** onun yaradıcılığının **zirvəsi-**

**dir**. Məhz burada şairin bədii təxəyyülü ən yüksək nöqtəsinə çatmışdır.

Qəzəllərin əsas mövzusunu **məhəbbət** təşkil edir. Füzulinin məhəbbət duyğuları öz dövrünün anlayışlarına uyğun olaraq, **irfani-təsəvvüf** ideyaları ilə bağlıdır. Lakin müasirlərindən fərqli olaraq onun bu tipli şeirləri eyni obraz və ifadələrin yorucu təkrarından uzaqdır. Füzulinin sevdiyi və tərənnüm etdiyi gözəl nə qədər **ilahi səciyyə** daşısa da, onun **ayağı yerdən üzülmür**, canlı insan duyğuları və yaşantıları ilə əlaqəsini kəsmir. Bu keyfiyyət onun qəzəllərinin yüzilliklər boyu öz əhəmiyyətini saxlamasının **əsas şərtidir**.

Füzuli qəzəllərinin estetik təsir gücünün **başqa bir şərti** şairin işlətdiyi poetik obraz və fiqurlarla müəyyən olunur. Şairin yüksək poetik ustalığı beyt daxilində üzə çıxır. Belə ki, hər beytdə bir misra digərinin məntiqi-poetik tamamlayıcısına çevrilir. Məsələn:

Bülbüli-qəmzədəyəm, bağü baharım sənsən,
Dəhənü qəddü rüxün – qönçəvü sərvü səmənim.

Birinci misrada şair özünü qəmə düşmüş bülbüllə, sevgilisini isə baharda çiçək açmış bağça ilə müqayisə edir. İkinci misrada isə poetik detallar açıqlanır, yəni sevgilisinin dəhəni – ağzı qönçəyə, qəddi – boyu sərv ağacına, üzü isə yasəmənə bənzəyir. Beləliklə, riyazi dəqiqliklə qurulmuş poetik paralelizm alınır: **dəhən = qönçə, qədd = sərv, rüx = səmən**.

Füzuli qəzəllərindəki poetik fiqurların çoxmənalılığı və çoxqatlılığı hazırlıqlı oxuculara, intellekt sahiblərinə ünvanlanmışdır. Mənalar açıldıqda isə yalnız məmnunluq duyğusu yaranır. Şairin bir beyti belədir:

Çıxma yarım gecələr, əğyar tənindən saqın
Sən məhi-övci-məlahətsən, bu, nöqsandır sana.

Birinci misradakı "**yarım**" sözü sevgili mənasında deyil, "**yarı, yarım**" mənasındadır. İkinci misradakı "**məhi-övci-məla-**

**hətsən”** izafət birləşməsi isə “**incəlik zirvəsinin ayı**” ifadəsini bildirir. Poetik məntiq sevgilinin – incəlik zirvəsinin ayının bədirlənmiş, yəni yarımçıq formada deyil, bütöv, tam şəkildə görünməsi üzərinə yönəlib. Deməli, Füzuli şeiri əsl **estetik həzz** mənbəyidir.

**NƏSR ƏSƏRLƏRİ**. Füzuli Azərbaycan bədii nəsrinin əsasını qoymuşdur. Onun farsca, ərəbcə və türkcə yazdığı bədii nəsr nümunələri vardır. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

**1) “Şikayətnamə”** – ana dilindədir.

**2) “Hədiqətüs-süəda”** – ana dilindədir.

**3) “Dibaçə”** – türk divanının müqəddiməsi, ana dilində yazılmış və elmi-nəzəri səciyyə daşıdığına görə bədiiliyə o qədər də əhəmiyyət verməmişdir.

**5) “Dibaçə” –** “Leyli və Məcnun” poemasının girişidir, **səcli (qafiyələnən)** nəsrlə yazılmışdır, qəliz ərəb-fars tərkibləri vardır, ana dilindədir.

**6) “Rindü Zahid”** – fars dilindədir.

**7) “Səhhət və Mərəz**” – fars dilindədir.

**8) “Mətləül-etiqad”** – ərəb dilindədir.

**“ƏQL YAR OLSAYDI” qəzəli**. Qəzəldə **ağılla eşq** bir-birinə qarşı qoyulur. Bu qarşılaşma digər əsərlərində də vardır. Lirik qəhrəman sanki ağılın məsləhətinə qulaq asıb eşqə düşdüyünə görə peşmandır. Amma onun bu peşmanlıqdan məmnun qaldığını hiss edirik. Qəzəlin birinci beyti belədir:

Əql yar olsaydı, tərki-eşqi-yar etməzmidim?
İxtiyar olsaydı, rahət ixtiyar etməzmidim?

Beytdə deyilir ki, ağıl mənim yardımçım olsaydı, yarın eşqini tərk etməzdimmi və əlimdə seçim ixtiyarı olsaydı, rahatlığı seçməzdimmi? Əslində isə yarın eşqinə düşmək onun ağlını əlindən alaraq Məcnuna çevirib, hətta onun seçim imkanı da

yoxdur. Əgər seçim imkanı olsaydı rahatlığı seçərdi. Lirik qəhrəman həm də eşqini gizli saxlayır, ona görə ki, onun dərdini anlayacaq həkim yoxdur. Şair qəribliyə düşməyinin və gülüstan seyrinə çıxmağının səbəbini açıqlayır:

Yar ilə əğyarə həmdəm görməyə olsaydı səbr,
Tərki-qürbət eyləyib, əzmi-diyar etməzmidim?

Şairin qürbətə üz tutmağının səbəbi yarı əğyarla bir yerdə görməyə səbrinin çatmamasıdır.

Növbəti beytin müraciət obyekti bülbüldür:

Ol güli-xəndanı görmək mümkün olsaydı mənə,
Səntək, ey bülbül, gülüstanə güzar etməzmidim?

Gülüstanda gülün eşqilə oxuyan bülbülə qibtə edən aşiq öz sevgilisini – açılmış gülü görməyəcəyinə əmin olduğuna görə gülüstana getmir.

Qəzəlin məqtə beyti də əvvəlki beytlər kimi uğurlu poetik bənzətmə əsasında yaradılmışdır:

Ey Füzuli, daği-hicranilə yanmış könlümü
Laləzar açsaydı, seyri-laləzar etməzmidim?

Aşiqin ayrılıq dağı ilə yanmış könlü birbaşa deyil, dolayısı yolla laləyə oxşadılır. Şair laləzar seyrinə ona görə getmir ki, könlü kimi bağrı yanıq lalələri görüb kədərlənmək istəmir.

Qəzəl **rəməl** bəhrində yazılmışdır: fAilAtün fAilAtün fAilAtün fAilün

## “LEYLİ VƏ MƏCNUN” poeması

“Leyli və Məcnun” poeması Füzulinin poema yaradıcılığının **zirvəsi** sayılır. Əsərin yazılma tarixi sonda əbcəd hesabı ilə göstərilmişdir:

Tarixinə düşdülər müvafiq,
Bir olmaq ilə ol iki aşiq.

Burada "iki aşiq" əbcəd hesabı ilə 942 rəqəminə bərabərdir. Ona da 1 əlavə edəndə hicri qəməri ilə 943 alınır. Bu, miladi tarixlə **1536-1537**-ci illər deməkdir.

Əsər Osmanlı hökmdarı **Sultan Süleyman Qanuniyə** ithaf olunmuşdur. Əvvəldə Tanrıya, Peyğəmbərə mədhiyyələrlə yanaşı, islam Peyğəmbərinin meracı verilmişdir.

Poemanın yazılışında Nizaminin "Leyli və Məcnun"u əsas götürülsə də, ixtisarlar aparılmış, yeni epizodlar əlavə edilmiş və orijinal bir əsər yaradılmışdır. Füzuli poeması daha çox **sufi-irfani** məzmunu ilə seçilir. Şair bunu əsərin girişində söyləmişdir. Füzuli şeirin ("kəlami-mövzu"nun) "küfr oxunduğu" bir zamanda iki gəncin, saf, səmimi məhəbbətini yalnız ilahi eşq formasında qələmə ala bilərdi.

**Əsərin məzmunu**. Nağılvari bir süjetlə başlayır. Ərəb zadəganları içərisində əsil-nəcabətli bir şəxsin övladı olmur:

Gər qılsa onu tələf həvadis,
Yox bir xələfi ki, ola varis.
Fərzəndsiz adəmi tələfdir,
Baqi edən adəmi xələfdir.

Çox nəzir-niyazdan sonra Tanrı ona bir oğul bəxş edir və adını Qeys qoyurlar. O, qeyri-adidir. Füzuli Qeysin dili ilə bir sıra ictimai-fəlsəfi problemlər qaldırır. Dünyaya müraciətlə söylənmiş aşağıdakı fikirlərdə Füzulinin Qeysin dili ilə danışmasına şübhə yoxdur:

Bildim, qəmini sənin ki çoxdur,
Qəm çəkməyə bir hərif yoxdur.
Gəldim ki, olam qəmin hərifi,
Gəl təcrübə eylə mən zəifi.
Hər qanda qəm ola, qılma ehmal,
Cəm eylə, dili-həzinimə sal.

Bu qəmsevərlik sübut edir ki, Füzuli Məcnun obrazında öz **avtoportretini** yaratmışdır. Füzulinin lirik qəhrəmanı da qəm

çəkə-çəkə kamilləşir. Beləliklə, Nizami yaradıcılığında olan insanı xoşbəxtliyə çatdırmaq istəyi bir **poetik konsepsiya** kimi Füzuli tərəfindən davam etdirilir.

Poemanın **fabulası** çox sadədir: Qeys və Leyli məktəbdə bir-birinə aşiq olurlar, lakin onları bir-birindən ayırırlar. Qeys cəmiyyətdən uzaqlaşır və Məcnun (**dəli**) deyə çağırılır. Nofəl iki aşiqi qovuşdurmaq istəsə də, mümkün olmur. İbn Səlam təsadüfən Leylini görür və onunla evlənir. Amma Leyli cin əhvalatını uydurmaqla onu yaxına buraxmır. Həsrətli İbn Səlam vəfat edir. Bu işdə Məcnunun Tanrıya dualarının da rolu olur.

Leyli köç etdikdə karvandan ayrı düşərək təsadüfən Məcnunla rastlaşır. Aşiqlər bu fürsətdən istifadə etmirlər. Leyli evə çatıb anasına vəsiyyət edir və ölür. Məcnun Leylinin ölüm xəbərini eşidib onun qəbri üzərinə gəlir və canını tapşırır. Məcnun Leyli ilə bir məzarda dəfn olunur. Zeyd hər iki aşiqin cənnətdə olmasını yuxuda görür.

**Məcnun surəti**. Füzuli də Nizami kimi Məcnunun simasında **şəxsiyyət azadlığı** problemini qoymuşdur. Hər iki sənətkar Məcnuna dəli kimi baxmaqdan uzaqdır. Bunun üçün Füzulinin təsvir etdiyi Məcnuna nəzər yetirmək kifayətdir. Nümunə təşbeh və analogiyalarla da zəngindir:

Şahənşahi-mülki-möhnətü dərd,
Yəni ki, Məcnuni-dərdpərvərd.
Bir pak idi ki, bu ərseyi-xak
Onun kimi görməmişdi bir pak.
Çün nifrəti-şərri-nəsli-adəm
Qıldı ona vəhşəti müsəlləm.
Hər fəhşi donunda bir firiştə
Yar oldu ol adəmi siriştə.
Zahirdə rəfiqi-vəhşilə teyr,
Batində məlayik ilə həmseyr.

“Məcnun” – dəli elan edilərək ictimai həyatdan uzaqlaşdırılan Qeys əslində çoxlarından yüksəkdə durur. Bunu anlayanlar içərisində Zeyd xüsusi yer tutur. Zeyd sədaqətlidir və şairin onu “Zeydi-vəfadar”, “Zeydi-qəmxar” adlandırması da təsadüfi deyil. Nəhayət, əsərin sonunda Zeyd Leyli ilə Məcnunu cənnətdə görür və onların səadətini inandıran yeganə şahid kimi çıxış edir. Bu baxımdan Zeyd Xətayi “Dəhnamə”sindəki məktəb yoldaşını xatırladır.

**Leyli surəti**. Leyli öz **monumentallıq** və **canlılığına** görə Məcnundan geri qalmır, hətta müəyyən hallarda ondan irəli gedir. Əgər Məcnun çürük adət-ənənələrə **açıq etiraz** edərək toplumdan uzaqlaşırsa, Leyli öz hisslərini ifadə etmək üçün fürsət gözləyir və bu etiraz **gizli** formadadır:

**I fürsət**: Ərə gedən qızın ağlaması cəmiyyət tərəfindən təbii qəbul edilir. Leyli də zorla ərə verilərkən ağlayır, bu, Leylinin Məcnun eşqindən duyduğu nalə və fəryadı təqdim etmək üçün bir bəhanədir.

**II fürsət**: Qadının ölmüş ərinə yas saxlaması və ağlaması təbiidir, mövcud adət-ənənələrə tam uyğundur. Amma bu, əslində Leylinin öz eşqi uğrunda olan ah-naləsidir.

Leylinin belə mövqeyi onun riyakarlığı deyil, çürük adət-ənənələrə qarşı bir qadının özünəməxsus etirazıdır. Məcnun tərəfindən “rədd ediləndə” isə onun bir çıxış yolu qalır: **ölmək**! Şair Leylinin ölümünü təsirli vermək üçün xəzan fəslini seçir.

Leylinin anasına vəsiyyəti və anasının Leylinin qəbri üzərində göz yaşı axıtması **canlı və həyati** səhnələrdir. Bunlar Füzui sənətinin əbədiyaşarlığını təmin edən amillərdir.

Nizamidən fərqli olaraq, Füzulidə **Məcnunun ölümü** də təbii və inandırıcı şəkildə verilmişdir.

**1) Nizamidə:** Məcnun Leylinin qəbri üzərində vəhşilərin əhatəsində ölür, bir ildən, yəni bədəni çürüyüb sümükləri təmiz-

ləndikdən sonra isə vəhşilər çəkilib gedir və Məcnunu dəfn edirlər.

**2) Füzulidə**: Məcnunun ölümü daha inandırıcıdır. Belə ki, öz sevgilisinin qəbri üzərində ölən aşiqi elə onun qəbrində dəfn edirlər. Ruhu ruhuna, bədən isə bədənə qovuşur. Ona görə də Zeydin onları yuxuda cənnətdə görməsi süni səslənmir.

**Köməkçi surətlər**. Füzulinin poemasında köməkçi surətlərin heç biri **mənfi planda** verilməmişdir.

**1) Məcnunun ata-anası**. Məcnunu gözləri qarşısında həyatdan gedib Məcnuna qəm-kədər gətirirlər.

**2) Leylinin ata-anası**. Leyli anasının gözləri qarşısında dünyanı tərk edərək anasına övlad dağı gətirir. Leylinin atası isə müəyyən qədər mənfi çaları ilə seçilir, bu isə Nizaminin ona qarşı olan antipatiyasından irəli gəlir.

**3) Zeyd**. Sədaqətli dostdur, yuxuda hər iki aşiqi cənnətdə olarkən görür və onların xoşbəxtliyinin yeganə şahididir.

**4) Nofəl**. Məcnunu vüsala çatdıra bilməyən Nofələ Füzuli belə haqq qazandırır:

Bir sınmışa mumiyə dilərdim,
Bir xəstə üçün şəfa dilərdim.
Gördüm, görünür bu əmr müşkil,
Bimar degil əlaca qabil.

Süjet xəttindən və qəhrəmanların taleyindən kənara çıxa bilməyən Füzuli **məntiqi mənalandırma** üsulu ilə müəyyən hadisələrin izahını verməyə nail olmuşdur..

**Poemanın bədii xüsusiyyətləri**. Ədəbiyyata gətirilən “Leyli və Məcnun” süjetində ən gözəl əsəri Nizamidən 400 il sonra Məhəmməd Füzuli qələmə almışdır. Sənətkarlıq cəhətdən yüksək bir əsərdir. Füzuli məsnəviyə rübai, qəsidə, qəzəl və mürəbbelər əlavə etmişdir.

Füzulinin “Leyli və Məcnun” poemasında qəhrəmanların **psixoloji ovqatı** poemaya əlavə edilən **qəzəl və mürəbbelər,**

**müxtəlif poetik məqsədlər** məsnəvidəki **rübai və qəsidələr** vasitəsilə ifadə olunmuşdur.

"Leyli və Məcnun" poemasını qələmə almağı Füzulidən "**Rum zərifləri**" xahiş etmişlər. Poema Şərq şeirinə Nizami tərəfindən gətirilən "**Leyli-Məcnun həzəci**" ilə yazılmışdır, yəni **həzəc** bəhrindədir.

# YENİ DÖVR AZƏRBAYCAN ƏDƏBİYATI

Yeni dövr şifahi xalq ədəbiyyatının güclənərək yazılı ədəbiyyata təsir etdiyi XVII əsrdən başlayır və XX əsrin əvvəllərinə qədər davam edir.

Yeni dövr Azərbaycan ədəbiyyatı aşağıdakı mərhələlərə bölünür:

I mərhələ. **XVII-XVIII əsrlər**
II mərhələ. **XIX əsr**
III mərhələ. **XX əsrin əvvəlləri**

## I MƏRHƏLƏ

## XVII-XVIII ƏSRLƏR AZƏRBAYCAN ƏDƏBİYYATI

Bu dövr Azərbaycan ədəbiyyatının, ümumən mədəniyyətinin **İntibah** dövrüdür.

XVII əsrin əvvəllərindən etibarən **I Şah Abbasın** xəyanətkarlığı ucbatından Səfəvilər dövləti öz milli mahiyyətini itirir, dövlətin mərkəzi Qəzvindən İsfahana köçürülür. Bununla da əvvəlcə İran və Osmanlı, sonra isə Rusiya imperiyası ölkəyə müdaxilə etməyə başlayır.

**Nadir şahın** dövründə isə Azərbaycan dövləti ikinci zərbəni alır: onun hərbi qüvvə hesabına qurduğu süni dövlət ölümündən sonra dağılır və ölkə xanlıqlara parçalanır.

Bütün bunlarla bərabər, Şah İsmayıl dövründə yaranmış vahid dövlət ətrafında birləşmək ideyası inkişaf edir. Bu ideyanın daşıyıcısı **xalq ictimai fikri – şifahi xalq ədəbiyyatı** idi. Əslində XVII əsr şifahi xalq ədəbiyyatının güclənərək yazılı ədəbiyyata təsir etdiyi dövrdür. "Koroğlu" eposu Azərbaycan xalqının milli müstəqillik düşüncəsinin təzahürü idi.

XVI əsrdə Qurbani, XVII əsrdə Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq aşıq ədəbiyyatının əsasını qoyurlar.

"Əsli və Kərəm", "Şah İsmayıl", "Tahir və Zöhrə", "Abbas və Gülgəz", "Aşıq Qərib" kimi məhəbbət dastanları yazılı ədəbiyyatın, xüsusilə poeziyanın xəlqiləşməsinə səbəb olmuşdur.

**XVII-XVIII əsrlər İntibahı** deyəndə nə başa düşülür?

**1)** Cəmiyyətin müxtəlif əhvali-ruhiyyəli təbəqələrinin ideya-estetik maraqlarının ədəbiyyata gəlməsi.

**2)** Həyata realist və demokratik baxışların güclənməsi.

**3)** Böyük xəyalların, qlobal ideyaların yerini insanın gündəlik qayğılarından, konkret istəklərindən doğan ideyaların tutması, beləliklə, ədəbiyyatın göylərdən yerə enməsi.

**XVII-XVIII əsrlər İntibahının əlamətləri** hansılardır?

**1)** ədəbiyyatın milliləşməsi

**2)** ədəbiyyatın demokratikləşməsi

**3)** ədəbiyyatın realistləşməsi

**XVII-XVIII əsrlər İntibahının** təsiri nələrdə özünü göstərir?

1) İncəsənətin bütün sahələrində yüksəliş baş verir:

a) xalq musiqisi inkişaf edir;

b) təsviri sənətdə həndəsi naxışlar nəbati naxışlarla əvəz edilir;

c) rəssamlar insanın sifətini ifadəli bir şəkildə təsvir edir və daxili aləmini göstərməyə çalışırdılar;

d) Şəki xan sarayı və Şuşa qalası tikilir.

2) Azərbaycan xanlıqlarının mərkəzi şəhərləri olan Şuşa, Quba, Bakı, Lənkəran və s. inkişaf edir, Təbriz, Gəncə, Şamaxı kimi qədim mədəniyyət mərkəzləri özlərinin yeni həyatını başlayır. Mədəniyyət şəhərdə inkişaf etdiyi kimi, kənddə də inkişaf edir və M.P.Vaqif kimi böyük sənətkar yetişir. "Hər oxuyan Molla Pənah olmaz" məsəli onun haqqında deyilmişdir.

3) Şifahi xalq ədəbiyyatı nümunələri yazıya alınır.

4) Azərbaycan dili qonşu xalqların da sənət dili olur və Qafqaz xalqları Azərbaycan intibahının təsiri altında olur.

# İNTİBAH DÖVRÜNÜN SƏNƏTKARLARI

**1.Məhəmməd Əmani** (1536-1610) – yaradıcılığı XVI əsrin sonu XVII əsrin əvvəllərinə düşür. Hər iki üslubda şeirlər yazmışdır.

**1) klassik üslub**: qəzəl, qəsidə, qitə

**2) xalq şeri üslubu**: qoşma, gəraylı, bayatı

Məhəmməd Əmani Azərbaycan yazılı ədəbiyatında Xətayidən sonra şifahi xalq ədəbiyyatının təsiri ilə əsərlər qələmə alan ikinci sənətkardır.

**2.Fədai Təbrizi** (XVII). "**Bəxtiyarnamə**" poeması vardır.

**3. Məsihi** (1575-1656). Füzuli məktəbinin davamçısıdır.

**4. Qövsi Təbrizi** (XVII). Füzuli məktəbinin davamçısıdır.

**5.Saib Təbrizi** (1601-1676). Füzuli məktəbinin davamçısıdır.

Azərbaycan dilində yazdığı əsərlərə görə dövrünün Füzulisi, farsca yazdığı əsərlərə görə dövrünün Hafizi hesab edilirdi. Səfəvilər sarayında **"məliküş-şüəra"** olmuşdur.

Bütün bunlarla yanaşı **qəzəl** janrı Nəsimi və Füzuli sənətkarlığı səviyyəsinə qalxmır. Klassik şeir janrlarının özündə məzmun və forma baxımından xəlqiləşmə prosesi gedir.

Yeni dövr ədəbiyyatda aşağıdakı **yeniliklər** baş verir:

**1)** insanın fərdi xüsusiyyətlərinə, arzu-istəklərinə maraq artır.

**2)** sufi-panteist fəlsəfənin təsiri altında olan aşıq ədəbiyyatında da adi adamların obrazını yaratmaq əsas vəzifəyə çevrilir.

**3)** bədii dildə ərəb, fars tərkiblərinin yerini xalq ifadələri tutur.

**4)** söz sənətindəki nikbin əhvali-ruhiyyə ədəbiyyatda satirik ovqatın güclənməsinə zəmin hazırlayır.

**5)** "Şəhriyar" kimi xalq dastanı yazılı ədəbiyyatın, o cümlədən **nəsrin** inkişafına ciddi təsir göstərir.

Dövrün əsas janrı **qoşmadır** və xalq poeziyası daha geniş yer tutur. Beləliklə, **XVIII əsrdə Azərbaycan yazılı ədəbiyyatının xarakterini** həmin dövrdə yaşayıb-yaratmış **Molla Vəli Vidadi** və **Molla Pənah Vaqif** ifadə edirdilər. Onlar yaradıcılıqları xalq şeiri ənənələri əsasında formalaşan böyük sənətkarlar idilər.

**M.V.Vidadi** (1707-1808) kədəri dərin ictimai məzmun daşıyır və dövrün ictimai-siyasi problemlərindən irəli gəlirdi. Bu ictimailiyin ən bariz nümunəsi "**Könlümü**" rədifli qoşmadır:

"Ey həmdəmim, səni qanə qərq eylər,
Gəl tərpətmə yaralanmış könlümü".

M.V.Vidadinin "**Müsibətnamə"** mənzuməsində isə dərəbəyliyin doğurduğu fəlakətlər əks olunmuşdur.

**M.P.Vaqif** (1717-1797) nikbin sənətkar idi. Onun nikbinliyi aşağıdakı misralarda daha bariz şəkildə ifadə edilmişdir:

Toy-bayramdır bu dünyanın əzabı,
Əqli olan ona gətirər tabı.

**Vidadi** dostu **Vaqiflə** deyişməsində həyatın gözəlliklərindən zövq almağa çalışan, nikbin şeirlər yazan böyük müasirini dünya nemətlərinə aludə olmamağa, ümidlərini yalnız Allaha bağlamağa, şəriətin hökmləri ilə durub-oturmağa çağırır. **Vidadi** dostu **Vaqifə** dünyanın faniliyi barədəki dini-fəlsəfi ehkamı xatırladır. **Vidadinin** nəsihətlərini layiqincə dəyərləndirməyən **Vaqif** həyatın məşəqqətlərindən keçdikcə, həlli mümkün olmayan problemlərlə rastlaşdıqca həmin nəsihətlərin faydasız olmadığını başa düşür.

XVII-XVIII əsrlər intibah dövrü haqqında belə bir nəticəyə gəlmək olar:

1) **"Koroğlu" eposu** Azərbaycan İntibahının ən möhtəşəm əsəri idi.

2) **Molla Pənah Vaqif** Azərbaycan intibahının ən böyük sənətkarı idi.

## “KOROĞLU” eposu

“Koroğlu” “Dədə Qorqud” eposundan sonra xalq ədəbiyyatının ən möhtəşəm əsəridir. Onlar məzmununa, quruluşuna və bədii xüsusiyyətlərinə görə bir-birinə çox yaxındır. Bu abidələrin bir-birinə bağlılığı onların **kök, mənşə** etibarilə eyniliyindən irəli gəlir. Fərq isə onların yarandığı dövrlə əlaqədardır: “Dədə Qorqud” **Azərbaycan xalqının**, “Koroğlu” isə **Azərbaycan millətinin** formalaşdığı zamanın məhsuludur.

“Dədə Qorqud” eposu ilə “Koroğlu” eposu arasındakı **ortaq cəhətlər** aşağıdakılardır:

1)hər ikisində **bir məkan**, bir yurd var: “Dədə Qorqud”da **Oğuz eli**, “Koroğlu”da **Çənlibel**.

2)hər ikisində qəhrəmanların **ova, səfərə** getmələrindən bəhs olunur, hadisələr də məhz **səfərlərdə** baş verir.

3)hər ikisi müstəqil süjet xəttinə malik olan, biri digəri ilə məzmunca bağlanan bitkin əsərlərdən ibarətdir: onlar “Dədə Qorqud”da **boy**, “Koroğlu”da isə **qol** adlanır.

4)hər ikisinin **boylarının və qollarının sayca artması** yeni süjetlər hesabına inkişaf edib zənginləşməsi deməkdir.

5)hər ikisi ozanlar, aşıqlar tərəfindən **ifa** olunmaqla yanaşı, **yazıya** alınmış, amma bütün boyları, qolları yazıya almaq mümkün olmamışdır.

**Azərbaycan “Koroğlu”su** digər türk xalqları arasında yayılan “Koroğlu”lardan **məzmun** və **formaca** mükəmməldir. Azərbaycan “Koroğlu”sunda **tarixilik** daha güclüdür. XVI-XVII əsrlərdə Azərbaycanda baş verən hadisələrlə, xüsusilə **Cəlalilər üsyanı** ilə səsləşir və **tarixilik bədiiliklə** qarşılıqlı əlaqədədir.

Epos XVII-XVIII əsrlərdə zəngin inkişaf yolu keçirmiş və sonralar dastanın yeni qolları meydana çıxmışdır.

**Eposun məzmunu, əsas ideyaları**. Epos Həsən xanın günahı olmadan ilxıçı Alı kişinin gözlərinin çıxarılması ilə başlayır. Alı kişinin oğlu Rövşən Qıratı, Düratı və Misri qılıncı götürüb intiqam almaq üçün dağlara çəkilir. Özünə Çənlibeli məskən seçən Rövşən çox keçmir ki, Koroğlu adı ilə tanınır və hər tərəfdən say-seçmə igidlər – dəlilər Koroğlunun başına yığışırlar.

Osmanlı sultanının – xotkarın qızı Nigar xanım görməzəbilməzə xalq arasında nüfuz qazanan Koroğluya vurulur, ona məktub göndərir və Koroğlu Nigar xanımı Çənlibelə gətirir.

Çənlibeldə Koroğlunun ətrafına toplaşan və zülmkar hökmdarlara, paşalara, xanlara qarşı mübarizə aparan 7777 dəlidən bəziləri bunlardır: **Dəli Həsən, Dəmirçioğlu, Bəlli Əhməd, Tüpdağıdan, Halaypozan, Tanrıtanımaz, Eyvaz**. Onlar İstanbula, Bağdada, Qarsa, Toqata, Dərbəndə və s. səfərlər edir, döyüş meydanında **şücaət**, söz-saz meydanında **ustalıq** nümayiş etdirirlər.

Dəlilər mərd, mənən saf və sözü üzə deyəndirlər. Haqlı olduqda Koroğlunun özündən də çəkinmirlər. Onlara məhz **"dəli"** adını da igidliklərinə görə vermişlər.

Koroğlu zəhmətkeş xalq kütlələrinin müdafiəçisi olduğuna görə xalq kütlələri ona böyük məhəbbət bəsləyir və köməklərini əsirgəmirlər. Koroğlunu **məğlubedilməz** edən qüvvələri iki yerə ayırmaq olar:

**1) xalqın, xalq kütlələrinin məhəbbəti**

**2) Qırat, Misri qılınc, nərə**

Koroğlu həmişə igidlərin fiziki gücünü və mənəvi keyfiyyətlərini yoxladıqdan sonra Çənlibelə qəbul etdiyi halda, Keçəl Həmzənin hiyləsinə aldanaraq yanlışlığa yol verir.

Epos Koroğlunun qocalığı ilə başa çatır. Haqsızlıq və ədalətsizlikləri görən Koroğlu yenidən dəliləri başına yığıb düşmənə qarşı döyüşə gedir və qalib gəlir. Beləliklə, Koroğluya və koroğluluğa ölməzlik verilir, xalqın mənafeyini ifadə edən gücün əbədiyaşarlığına inam formalaşdırılır.

**Eposun quruluşu, bədii xüsusiyətləri**. XVI əsrin sonlarından başlayaraq xalqın, xüsusilə kəndli hərəkatının qəhrəman nümayəndələri haqqında danışılan əhvalatlar, söylənən qoşmalar ustad aşıqlar tərəfindən dolğunlaşdırılmış və mükəmməl bir epos halına gətirilmişdir. “Koroğlu” eposunun qollarının artmasının, zənginləşməsinin və mükəmməl forma almasının səbəbi dastanın əsasında dayanan **ideyaların canlılığı** və xalq kütlələrinin arzularına, ideallarına uyğun olmasıdır.

“Koroğlu” dastan strukturuna uyğun olaraq **nəsr və nəzmin növbələşməsi** əsasında yazılmışdır. Nəsr və nəzmin növbələşməsi dastana aşağıdakı müsbət keyfiyyətləri gətirir:

**1)** ahəngdarlıq və harmoniya güclənir

**2)** hadisələri diqqət və maraqla izləməyə şərait yaranır.

**3)** dinləyicilərə estetik zövq aşılanır.

Dastandakı **nəsr** olduqca canlıdır, xalq danışıq dilinin təbiiliyini və səmimiliyini yaşadır. Eposdakı hadisələr və əhvalatlar **nəsr dili** ilə nəql olunur, qəhrəmanların hiss-həyəcanları isə **şeirlə** təqdim edilir.

“Koroğlu” eposunda **dramatiklik** olduqca güclüdür, aşıqlar dastandakı qəhrəmanların bir-birinə münasibətini göstərmək üçün **canlı dialoqlardan** istifadə edirlər. Maraqlı dialoqlar **nəsrlə** yanaşı, həm də **şeirlə** verilir.

Qəhrəmanların saz götürüb bir-biri ilə **şeirlə deyişməsi**, bir-birinə **şeirlə hərbə-zorba gəlməsi** dastanın bədii cəhətdən mükəmməl tərkib hissələridir. Bu **poetik dialoqlar** qəhrəmanların xarakterini, daxili aləmini, əhvali-ruhiyyəsini nəsr dilinin gücü yetməyəcəyi bir bədiilik və emosionallıqla əks etdirir.

Eposdakı **şeirlər** təbliğ olunan ideyaların xalqa daha qabarıq formada çatdırılmasında da xüsusi rola malikdir. Şübhəsiz, burada **şeir** və **musiqinin** vəhdətinin böyük əhəmiyyəti danılmazdır.

“Dədə Qorqud”dan fərqli olaraq, “Koroğlu” indi də sənətkarların yaddaşında yaşayır və **canlı şəkildə ifa** olunur. Aşıq hadisələrin məzmununu daha qabarıq çatdırmaq üçün müqayisələr aparır, təşbehlərə, mübaliğələrə geniş meydan verir. Aşıq dastanı söyləyərkən, yaxud Koroğlunun və dəlilərin sözlərini oxuyarkən rola girir, dinləyicilər isə qəhrəmanları ifaçı aşığın simasında əyani şəkildə görür.

Söyləyici aşığın müəyyən **sərbəstliyi** var: o, dastanın **istədiyi qolunu** seçib danışır, əsas məzmuna və süjet xəttinə toxunmadan **improvizasiyalar, kənara çıxmalar** edir. Hər aşıq özünün dastan söyləmə mədəniyyətinə malikdir.

**“Keçəl Həmzənin Qıratı qaçırması” qolu**. Bu qol baş qəhrəmanın – Koroğlunun xarakterinin incə cizgilərinin üzə çıxarılması baxımından maraq doğurur. Paşalara, xanlara qalib gələn Koroğlu Keçəl Həmzəyə məğlub olur. Çünki onun “mübarizə üsulu” baş qəhrəman üçün anlaşılmazdır. İnsanın öz şərəf və ləyaqəti ilə bu cür davranması Koroğlunun ağlına belə gəlmir. Keçəl Həmzə Koroğluya – mərd bir insana qarşı yönələn namərd hiyləgərliyinin icraçısıdır.

Koroğlunun şan-şöhrətinin getdikcə gücləndiyi bir vaxtda paşalar və xanlar onu hiylə ilə məhv etməyə çalışırlar. Bu istiqamətdə Toqat şəhərindən Mahmud paşa əvvəlcə Koroğlunun Qıratının oğurlatmaq qərarını verir. Hətta vəd edir ki, kim Qıratı qaçırsa, qızı Dona xanımı ona verəcəkdir. Bu işi Keçəl Həmzə öz boynuna götürür.

Keçəl Həmzə heç bir hörməti olmayan və məclislərə buraxılmayan bir adamdır. Camaat arasında nüfuz qazanmaq üçün özünü tülkülüyə vurmaq, hiylə işlətmək və nəhayət, bu fürsəti

əldən verməmək qərarına gəlir. Beləliklə, Çənlibelə gələn Keçəl Həmzə Koroğluya bildirir ki, yeddi il paşanın ilxıçısı olmuş, haqqını ala bilməmiş və buna görə də oranı tərk etmişdir. Dəlilərin və xanımların etirazına baxmayaraq, Koroğlu Keçəl Həmzənin Çənlibeldə qalmasına razılıq verir. Hətta Koroğlu Dürata baxmağı da ona tapşırır və gecələrin birində Keçəl Həmzə Dürata minib qaçır. Dəlilərin və xanımların qınaması nəticəsində Koroğlu Qıratı minib onun arxasınca düşür.

Keçəl Həmzə Koroğlunun ona çatacağını görüb Düratı dəyirmanın qabağındakı dirəyə bağlayır, dəyirmançını aldadır və onun paltarını geyir. Koroğlu Keçəl Həmzəni dəyirmançı bilib keçəlin yerini soruşur və dəyirmana girir. Bu zaman Keçəl Həmzə Qıratı minib qaçmağa hazır dayanır.

Koroğlu aldadıldığını bilib yalnız Qıratı incitməməyi xahiş edir. Keçəl Həmzə də söz verir ki, əgər Toqata gəlsə, özü üzəngini basıb onu ata mindirəcək. İndi isə Dona xanımı almaq üçün atı aparıb Mahmud paşaya verməlidir.

Koroğlu kor-peşman Düratla Çənlibelə qayıdır. Dəlilər vəziyyətdən hali olub Çənlibeli tərk etmək istəyəndə Nigar xanım dəliləri sakitləşdirir və Koroğlunu da tənbeh edir.

Bir neçə gündən sonra Koroğlu sazını götürüb piyada Toqata gəlir. Evində qonaq olduğu qarı deyir ki, sabah toydur: Mahmud paşa Dona xanımı Keçəl Həmzəyə verir, özü də toy üçün aşıq axtarırlar. Koroğlu aşıq paltarı geyib toya gəlir və onun Çənlibeldən gələn aşıq olduğunu bilib ipə-sapa yatmayan Qıratın yanına aparırlar. Koroğlu Qıratı tövlədən bayıra çıxarıb minmək istəyəndə Keçəl Həmzə özünü yetirib atın üzəngisini basır və deyir ki, **söz dəyirmandakıdır**. Koroğlu Qıratı minib Çənlibelə qayıdır.

"Keçəl Həmzənin Qıratı qaçırması" qolunda əsas fikir namərdliyi və hiyləgərliyi göstərmək deyil. Əksinə bu qolun aşıladığı başlıca **məqsəd** öz gücünə və qəhrəmanlığına arxayın

olan **Koroğlunun ehtiyatsızlıq, məsləhətə qulaq asmamaq ucbatından düşdüyü vəziyyəti** canlandırmaqdan ibarətdir.

Dəlilərin küsüb Çənlibeldən getməyinin qarşısını alan Nigar xanım Koroğlunun yersiz mənəmliyinə qarşı çıxır və onu belə tənbeh edir:

Utan, qoç Koroğlu, utan!
Dağların damənin tutan!
Sənin kimi başa çatan
Elin qədrini nə bilir?!

Koroğlu tutduğu işdən peşman olur.

Beləliklə, epos yaradanlar – xalq sənətkarları tərənnüm etdikləri qəhrəmanı həmişə **xalqa arxalanmağa** çağırırlar. Yüksək ictimai mövqe qazanmış qəhrəman eldən ayrılsa, nəinki düşmənlər, hətta Keçəl Həmzələr qarşısında məğlub ola bilərlər.

**Koroğlu surəti**. Koroğlu eposun baş qəhrəmanıdır. Onu "Dədə Qorqud" eposundakı Qazan xanla müqayisə etmək olar.

Koroğlu ilə Qazan xan arasındakı **oxşar** cəhətlər:

1)Hər ikisi xalqın qəhrəmanlıq ideallarını ifadə edirlər.

2)Hər ikisi tarixi şəxsiyyət olmuş, xalqın taleyində oynadıqları əhəmiyyətli rol onları epos qəhrəmanına çevirmişdir.

Koroğlu ilə Qazan xan arasındakı **fərqli** cəhətlər:

1)Qazan xan yüksək təbəqənin nümayəndəsidir, Koroğlu isə xalq içərisindən çıxmışdır. Mənbələr kəndli hərəkatının aparıcı şəxsiyyətlərindən olan Cəlali Koroğlunun adını xüsusilə qeyd edirlər.

Yeri gəlmişkən, araşdırıcılar Koroğlu obrazının **mifoloji kökləri** barəsində də danışırlar ki, bunu mifoloji motivlərlə zəngin Qərb (Türküstan) variantları da sübut edir.

Koroğlu orta əsrlərin sonu, yeni dövrün əvvəllərinə aid böyük bir **xalq qəhrəmanının** obrazıdır. Onun xarakterində romantik əlamətlər olsa da, **real, həyati** obrazdır. Koroğlu obrazında xalq **qılınc qəhrəmanlığı ilə söz qəhrəmanlığını** birləş-

dirmişdir. O, Çənlibeldə məskən saldığı ilk günlərdə Dəli Həsənlə üz-üzə gələndə özünü belə təqdim edir:

Meydana girəndə meydan tanıyın,
Haqqın vergisinə mən də qanıyam.
Bir igidəm, igidlərin xanıyam,
Bu ətrafda bütün hər yan mənimdi!

Koroğlu ona məxsus olan **igidliyin və qəhrəmanlığın haqdan gəldiyini** söyləyir. Epos yaradıcıları koroğluluğu fərdi, şəxsi qabiliyyət yox, ilahi mənbədən çıxan enerji kimi təqdim edirlər. Bu isə onunla bağlıdır ki, Koroğlu öz mübarizəsinə atasının intiqamını almaq məqsədi ilə başlasa da, bir azdan sonra onun mübarizəsi ictimai məzmun daşıyır: o, **xalqın azadlığı, vətənin müstəqilliyi, insan ləyaqəti** uğrunda vuruşur.

Eposun sonunda Aşıq Cünun Koroğludan soruşur ki, daha bundan sonra dəliləri buraxırsanmı? Koroğlu ona belə cavab verir: “Nə qədər ki xotkarlar, paşalar, bəylər, xanlar var, mən koroğluluğu yerə qoya bilməyəcəyəm”.

**Koroğlunun dəliləri**. Mərd və mübarizdirlər, xalqın qəhrəmanlıq ideallarını təcəssüm etdirirlər. Xalq içərisindən çıxaraq Çənlibelə gəlmiş bu xalq qəhrəmanları cəsurluqlarına və şücaətlərinə görə Koroğludan geri qalmırlar:

**1)** Dəli Həsənlə Koroğlu vuruşur. **Qılıncdan, əmuddan, nizədən** heç nə hasil olmadıqda atdan düşüb **güləşməyə** başlayırlar. Çox güləşəndən sonra Koroğlu bir dəli nərə çəkib Dəli Həsəni yerə vurur.

**2)** Dəmirçioğlu da fürsət düşən kimi Koroğluya öz gücünü göstərir. Dəmirçioğlu Qıratı gətirmək üçün Çənlibelə gələndə Koroğlu bir **dəli nərə** çəkib Dəmirçioğlunu atdan yerə salır.

Dəlilərin ən cavanı Eyvazdır. Koroğlu ilə Nigar xanım onu oğulluğa götürürlər. Çənlibeldə igidliyə və gözəlliyə görə onun öz yeri vardır. Bağdada durna teli gətirməyə gedəndə Eyvazın tutulduğunu eşidən Koroğlunun dərdi yerə-göyə sığmır:

Xəbər verin, dəlilərim oyansın,
Tutulubdu bir Eyvazım, əldədi.
Misri qılınc qızıl qana boyansın,
Tutulubdu bir Eyvazım, əldədi.

Koroğlu dəlilərlə birgə Bağdada gəlir və Eyvazı, Dəmirçioğlunu, Bəlli Əhmədi xilas edir.

Koroğlunun dəlilərə münasibəti igidin igidə, qardaşın qardaşa münasibətidir. Koroğlu dəlilərə məsləhət verir, onların qayğısına qalır. Qocalanda onları başından dağıtsa da, yenə Çənlibelə yığmağa məcbur olur.

**Nigar xanım surəti.** Eposdakı qadınların arasında ən mükəmməl surət Nigar xanımdır. Nigar xanım xotkar qızıdır və öz istəyi ilə Çənlibelə gəlmiş və burada **baş xanım** olmuşdur. Nigar xanım Koroğlunun həm qadını, həm də məsləkdaşıdır. Gərgin hallarda Koroğlunu yalnız Nigar xanım sakitləşdirə bilir. Nigar xanım dəlilərin ana-bacısı, xanımların isə başçısıdır.

Nigar xanımın övlad həsrəti eposun ən maraqlı yerlərindəndir. O, bu ağrı-acını Koroğluya üz tutaraq belə bildirir:

Necə baxım ev-eşiyə,
Yaralı könlüm üşüyə.
Toz bürümüş boş beşiyə
Şirin layla çalan yoxdur.

Nigar xanım Eyvazı köynəyindən keçirib oğulluğa götürür. Bundan sonra həm Nigar xanım, həm də Koroğlu Eyvaza öz doğma övladları kimi baxırlar.

**Qadın surətləri**. Nigar xanımdan başqa qadın surətləri də vardır: **Telli xanım, Şirin xanım, Məhbub xanım, Dünya xanım, Hürü xanım**. Bu xanımlar da adlı-sanlı ailələrdən çıxmışdırlar. Eyni zamanda onlar dəlilərin sevib-seçdikləri cəsur, namuslu və ləyaqətli xanımlardır.

**Paşalar, xanlar, bəylər**. Eposda əsas düşmən qüvvələr paşalar, xanlar, bəylərdir. Əllərindəki səlahiyyətdən istifadə

edərək haqqı nahaqqa qurban verən, istəklərinə hiylə ilə çatmağa çalışan həmin zülmkar insanlar aşağıdakılardır:

Həsən xan – Alı kişinin gözlərini çıxartdırır.

Cəfər paşa – Dəmirçioğlunun dərisini soydurur.

Aslan paşa – durna teli üçün Bağdada gedən dəliləri həbs edir.

Bolu bəy – Dünya xanımı almaq üçün Koroğlunu tutub Camal paşanın hüzuruna gətirmək istəyir.

Mahmud paşa – Qıratı oğurlamaq mqsədilə Keçəl Həmzəni Çənlibelə göndərir.

Xalqın birliyə və milli dövlətçilik ideyalarına cavab verməyən adamlara münasibəti “Koroğlu” eposunda bütün aydınlığı ilə təzahür etmişdir.

“Koroğlu” eposu yarandığı dövrdən onun ideyaları Azərbaycan ədəbiyyatının və ictimai fikrinin inkişafına əhəmiyyətli təsir göstərmişdir.

# MOLLA PƏNAH VAQİF (1717-1797)

## HƏYATI

M.P.Vaqif 1717-ci ildə Qazax mahalının Qıraq Salahlı kəndində anadan olmuşdur. Atası Mehdi ağa mahalın müasir düşüncəli adamlarından biri idi. Onun müəllimi tanınmış ziyalı və şair Şəfi Əfəndi idi və o, Vaqifə ədəbiyyatın və poeziyanın əsasları barədə geniş məlumat vermişdir. Amma Vaqifi əsl sənətkar kimi formalaşdıran **xalq yaradıcılığı** və **aşıq şeiridir.**

Mollaxananı bitirdikdən sonra **Vaqif** təxəllüsü ilə xalq poeziyası üslubunda şeirlər yazmağa başlayır. M.P.Vaqifin müəllimliklə qazandığı nüfuzu və dərin biliklərə yiyələnməsi onun haqqında **"Hər oxuyan Molla Pənah olmaz"** kəlamını – xalq məsəlini məşhurlaşdırmışdır.

XVIII əsrin ortalarında Gürcüstan sərhədindəki siyasi münaqişələr Vaqifi Gəncəyə, sonra isə Qarabağa və xanlığın mərkəzi olan Şuşaya köçməyə məcbur edir. Vaqifi yaxşı tanıyan İbrahim xan onu əvvəlcə **eşikağası** (xarici işlər vəziri), sonra isə **baş vəzir** təyin edir. M.P.Vaqif Gürcüstan və Rusiya ilə Qarabağ xanlığının münasibətlərini qaydaya salmaq üçün Tiflisə rəsmi səfərə getmişdir. Ümumiyyətlə, İbrahim xan və Vaqif İranın **dağıdıcı** hərbi müdaxiləsi ilə müqayisədə **diplomatik** hərbi təzyiqlər göstərən Rusiyaya meyilli idilər.

1795-ci ildə Qarabağ üzərinə hücum edən Ağa Məhəmməd şah Qacar İbrahim xana belə bir məktub göndərir: "Fələyin mancanağından fitnə daşları yağır, sən isə əbləhcəsinə şüşə içərisində oturmusan".

İbrahim xan farsca yazılmış məktubu oxuyub Vaqifə verir Vaqif isə elə oradaca Qacarın kağızının arxasına belə bir cavab yazır: "Əgər məni qoruyan mənim tanıdığımdırsa, şüşəni daş içərisində də salamat saxlar". Cavab Qacarı bərk qəzəbləndirir

və Şuşanı 33 gün mühasirədə saxlasa da, bir nəticə hasil etməyib Tiflisə hücuma başlayır.

1797-ci ildə Qacar yenə Qarabağa hücuma keçəndə İbrahim xan yaxın adamları ilə Balakənə – qaynı Əmmə xanın yanına qaçır, Vaqif isə Şuşada qalır. Qacar Şuşanı tutduqdan sonra xanlığın rəsmi adamları ilə birgə Vaqif də zindana salınır. Bu vaxt gözlənilmədən Qacar öz sərkərdələri tərəfindən gecə yatağında qətlə yetirilir. Vaqif həbsdən azad edilir və Qacarın əsgərləri Şuşanı tərk edirlər. Fürsətdən istifadə edən İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy Cavanşir hakimiyyəti ələ alır. Vaqif İbrahim xanın geri qayıtması üçün ona məktub göndərir. Yolda məktubu çarığında aparan kəndli ələ keçir. Məhəmməd bəy Cavanşir yolda ələ keçən məktubu bəhanə edərək 1797-ci ildə əvvəlcədən aralarında münaqişəsi olan M.P.Vaqifi və oğlu Əli ağanı Cıdır düzündə edam etdirir.

O zaman 13 yaşında olan Q.Zakir M.P.Vaqifin və oğlunun edam edilməsinin şahidi olmuşdur.

Vaqifin həyatda ən yaxın **dostu** Vidadi olmuşdur. Onlar arasındakı məşhur deyişmə hər iki sənətkarın həyata baxışlarını, xarakterlərindəki özünəməxsusluqları meydana çıxarmaqla yanaşı, Vaqifin **nikbin**, Vidadinin isə təbiətən **bədbin** olduğunu nümayiş etdirir. **Nikbinlik** – M.P.Vaqif üçün dərk olunmuş həyat fəlsəfəsidir.

## YARADICILIĞI

**Realizmin** banisidir, yazılı ədəbiyyata **demokratiklik, xəlqilik** gətirib, **nikbinliyə** görə **ədəbi məktəb** yaradıcısıdır.

M.P.Vaqif həm uzaq sələflərindən – İ.Həsənoğlu, Q.Bürhanəddin, İ.Nəsimidən, həm də yaxın sələflərindən – Ş.İ.Xətayi, M.Füzuli, M.Əmanidən fərqli olaraq, bütünlüklə xalq şeirinin təsiri altında olmuşdur. O, bir sənətkar kimi **xalq yaradıcılığına** və **aşıq şeirinə** borcludur. Bununla bərabər həm **klassik**, həm də

**xalq yaradıcılığı** üslubunda, yəni **heca** və **əruz** vəznində şeirləri vardır.

İstifadə etdiyi **janrlar**:

**1) xalq şeiri** janrları: **-qoşma, -təcnis**

**2)klassik şeir** janrları: **-qəzəl, -müxəmməs, -müstəzad**

Vaqif yaradıcılığının **mövzuları**:

**1)** əsas mövzusu **qadın gözəlliyinin tərənnümüdür**. Bu gözəllər Azərbaycanın saray xanımlarıdır, el gözəlləridir.

"Həyası üzündə, ağlı başında" olan bu gözəllər şairin ilham mənbəyidir.

**2)** onun **ictimai məsələlərə** aid şeirləri də vardır.

Bəs Vaqifi öz sələflərindən – **Nəsimi və Füzulidən** hansı cəhətlər fərqləndirir?

**1)** Nəsimi və Füzulidəki mücərrəd ideyalar, obrazlar, mürəkkəb ifadələr, çoxmərtəbəli metaforalar Vaqifdə yoxdur.

**2)** Nəsimi üsyankarlığı və Füzuli kədəri Vaqifdə yoxdur.

**3)**Nəsimi və Füzulidəki qadın gözəlliyinə verilən ilahi məzmun və panteist-sufi düşüncə Vaqifdə yoxdur.

**4)** Füzuli ayrılıq, hicran, Vaqif isə vüsal şairidir. Vaqifin lirik qəhrəmanı sevgilisinin xəyalı ilə qaranlıq gecələri qəm-qüssə içində keçirmək iqtidarında deyil və eşq əzablarına dözümü də yoxdur.

**5)** Vaqif Füzulinin göylərindəki gözəlini yerə endirir.

**QOŞMALARI**. Vaqif yaradıcılığının **əsasını** təşkil edən qoşmaları öz mənbəyini xalq yaradıcılığından alsa da, yazılı ədəbiyyat hadisəsidir. Vaqifdə konkret gözəllər, qadın gözəlliyinin konkret əlamətləri tərənnüm edilir. Bəzən də **"Zeynəb**" rədifli qoşmasındakı kimi konkret olaraq **gözəlin öz adı** ilə müraciət olunur:

Bənəfşətək ənbər zülfün buy verir,
Hər yuyub səndə həvayə, **Zeynəb**!
Onun ətrin dimağımdan üzməsin,

Əmanət et badi-səbaya, **Zeynəb!**

Elə hal da olur ki, gözəlin adı çəkilmir, amma şair yenə konkretlikdən uzaqlaşmır, son dərəcə **əyani, aydın mətləblər** ifadə edir. "**Qurban olduğum**" rədifli qoşmada məhz belədir:

Sən gəldin, nur doldu evə, otağa,
Gəldiyin yollara canım sadağa.
Durub qurban olmaq səntək qonağa,
Nuşdur canımıza, qurban olduğum.

Vaqif gözəlləri "**Üstündən**" rədifli şeirində olduğu kimi öz **geyim-kecimi, bər-bəzəyi, davranış-ədası** ilə təsvir edir:

Gah zaman başına tirmə şal bağlar,
Gah olur ki, zülf gizləyib xal bağlar,

Kalağayın qabağına al bağlar
Yaşılın altından, ağın üstündən.

Vaqifin **ictimai məsələlərə** həsr edilmiş qoşmalarına ən gözəl nümunə "**Hayıf ki, yoxdur"** rədifli qoşmasıdır:

Qış günü qışlağı Qıraqbasanın,
Gözüdür Aranın, cümlə cahanın,
Belə gözəl yerin, gözəl məkanın
Bir gözəl obası, hayıf ki, yoxdur!

Şeirdə Kür qırağında yerləşən qışlaqların və Arandakı obaların xarabaya çevrilməsindən, tərəkəmə qadınlarının zövqsüz geyim-kecimindən, bir növ mədəniyyətdən kənar qalmasından danışılır.

Vaqif həyatının ahıl, müdrik çağlarında xanlıqlar dövrü Azərbaycan cəmiyyətinin iqtisadi, ictimai-siyasi problemlərinə biganə qalmamış, onlardan kəskin şəkildə bəhs etmişdir. Bu, şairin öz idealından üz döndərməsi deyil, realizmə sədaqəti idi.

Vaqifin təsvir üsulları xalq ədəbiyyatından gəlsə də, şairin qələmində klassik səviyyəyə qalxdı, yazılı ədəbiyyatın faktına

çevrildi. M.P.Vaqif Azərbaycan yazılı ədəbiyyatında **əruzun** çoxəsrlik hakimiyyətinə son qoydu.

**“BƏRİ BAX” rədifli qoşması**. Qoşmada lirik qəhrəmanın hiss-həyəcanları və sevgilisinə qovuşmaq arzusu qələmə alınmışdır. Təsvir edilən gözəl həyati və realdır:

Ala gözlü, sərv boylu dilbərim,
Həsrətin çəkdiyim canan, bəri bax!
Gecə-gündüz fikrim, zikrim, əzbərim,
Üzüldü taqətim, aman, bəri bax!

Əslində bu gözəl də aşiqinə biganə deyil, o da sevgilisi ilə aşina olmağa meyillidir. Amma ortada əğyar var, ara sözləri gözəli ondan küsdürmüşdür. Lirik qəhrəman ayrılıq atəşində yandığını, hicran xəyallarının dumanına düşdüyünü bildirir. Buna baxmayaraq, onun vüsal arzulu eşqi cavabsız qala bilməz:

Kim dözər mənimtək belə firqətə,
Rəncü məşəqqətə, bari-möhnətə;
Haçandır düşmüşəm tari-zülmətə,
Çəkilsin üstümdən duman, bəri bax!

Qoşma Vaqif yaradıcılığı üçün səciyyəvi olan **müraciət formasında** yazılmışdır. Şair gözəlin adını çəkmir, amma aydın olur ki, bu gözəl Füzuli gözəllərindən tamamilə fərqlidir – konkret insan, saray xanımıdır. Həsrət də Füzulidəkindən fərqli olaraq, aşiqi Tanrıya qovuşduran həsrət deyil, burada söhbət real hicrandan gedir. Vaqifin lirik qəhrəmanı üçün ayrılıq həyəcanlandırıcıdır və dərd-qəm gətiricidir.

Çox çəkir hicrini Vaqifi-xəstə,
Leylü nahar, şamü səhər peyvəstə,
Ey yanağı lalə, ləbləri püstə,
Ağzı nabat, şəkkət zəban, bəri bax!

Bu şeirdə xalq ifadələri ilə yanaşı, klassik poeziya üslubu üçün səciyyəvi olan **ərəb, fars sözləri** vardır:

**bari-möhnət** – möhnət yükü, **tari-zülmət** – zil qaranlıq

**qəmi-eşq** – eşq qəmi, **razi-dil** – ürək sirri

Başqa **alınma sözlər** bunlardır: **firqət, zənc, məşəqqət, payibənd, giriftar, bimar, pünhan, qəmküsar, peyvəstə, rəvan** və s.

Şeirdə danışıq dili ifadələrinin bol-bol işlənməsi də aydın duyulur: **ala gözlü, həsrət çəkmək, gecə-gündüz, taqəti üzülmək, üstündən duman çəkilmək, dərd çəkmək, ölsün, itkin düşsün, arada yaman gəzməsin** və s.

Unutmaq lazım deyil ki, danışıq dili ifadələrinin bol-bol işlənməsi alınma söz və ifadələrin anlaşılmasını asanlaşdırır. Şeirdə rədif olan "**bəri bax**" müraciəti aşiqin və sevgilisinin obrazlarını əyani şəkildə təsəvvür etməyə imkan verir.

**QƏZƏLLƏRİ**. Vaqif qəzəlləri Füzuli qəzəllərindən aşağıdakı cəhətlərə görə fərqlənir:

**1)** sufi-panteist ideyalara təsadüf edilmir.

**2)** mürəkkəb tərkiblər, çoxmərtəbəli metaforalar yoxdur.

Vaqif qəzəlləri qoşmaları kimi məhəbbət və ictimai məsələlərə həsr edilmişdir. Məhəbbət mövzusunda yazılan qəzəllər də qoşmaları kimi qadın gözəlliyi və həsrət haqqındadır.

Onun **məhəbbət** mövzusunda yazdığı qəzələ nümunə olaraq "Küsmüşəm" rədifli qəzəlini göstərmək olar:

Mehribanlıq görməyib bir məhliqadan küsmüşəm,
Gündə yüz al eyləyən qəlbi qaradan küsmüşəm.
Şəninə dedim şirin söz, bir şey ondan dadmadım,
Bu səbəbdən ağzı şəkkar dilrübadan küsmüşəm.
Çün uman yerdən küsərlər, bir məsəldir xalq arasında,
Küsdüyüm bica deyildir, aşinadan küsmüşəm.

Vaqif Füzulinin xəyal göylərindəki gözəlini yerə endirir.

**"BAX" rədifli qəzəli**. Şairin həyatının son illərinə aiddir, **ictimai-fəlsəfi** məzmundadır. Vidadiyə müraciətlə yazılmışdır. İlk beyti belədir:

Ey Vidadi, gərdişi-dövrani-kəcrəftarə bax,
Ruzigara qıl tamaşa, karə bax, kirdarə bax.

Qəzəldə konkret tarixi hadisə əks olunmuşdur. Şuşaya daxil olan Qacar Vaqifi həbs etdirir. Ölümünü gözləyən şair Qacarın öldürülməsi xəbərini eşidir və azad olur. Vaqif Allahın hökmünün hər hansı zəmanə padşahının hökmündən yüksəkdə dayandığı qənaətinə gəlir:

Taci-zərdən taki ayrıldı dimaği-pürqürur,
Payimal oldu təpiklərlə, səri-sərdarə bax!
Mən fəqirə əmr qılmışdı siyasət etməyə,
Saxlayan məzlumu zalimdən o dəm qəffarə bax!

Şairin məsləhəti budur ki, "əhli-dünya"dan nə qədər uzaq olsan o qədər yaxşıdır. Şairin qocalıq çağlarında başına müsibətlər gəldikdən sonra belə deməsi tamamilə təbiidir:

İbrət et Ağa Məhəmməd xandan, ey kəmtər gəda,
Ta həyatın var ikən nə şahə, nə xunxarə bax!
Baş götür bu əhli-dünyadan ayaq tutduqca qaç,
Nə qıza, nə oğula, nə dusta, nə yarə bax!

Şeirdə dini-fəlsəfi məzmun hakimdir və şeir Vaqifin tərki-dünyalıq yolu tutmasını təsdiqləyir. Amma unutmaq olmaz ki, bu tərki-dünyalıq onun ruhundan deyil, zamanın doğurduğu bədbin ovqatın təsirindən yaranmışdır:

Vaqifa, göz yum, cahanın baxma xubü ziştinə,
Üz çevir əhli-əbayə, Əhmədi-Muxtara bax!

Şeirdə işlənən və çətin anlaşılan çoxlu **ərəb-fars sözləri** də həmin dini-fəlsəfi məzmun və tərki-dünyalıqla bağlı idi:

**gərdişi-dövrani-kəcrəftar** – əyri gedişli dövranın dolaşması

**kar** – iş,

**kirdar** – hərəkət

**padişahi-qadirü qəhhar** – qüdrətli, qüvvətli padşah – Allah

**dimaği-pürqürur** – qürurlu baş
**qəffar** – bağışlayan
**ahəngəri-biçarə** – yazıq dəmirçi
**xunxar** – qaniçən,
**xubü zişt** – yaxşı və pis

Vaqifin **"Bax"** qəzəli əruz vəzninin **rəməl** bəhrindədir: FAilAtün, FAilAtün, FAilAtün, FAilün.

**MÜXƏMMƏSLƏRİ**. Vaqifin müxəmməslərini mövzularına görə bir neçə qrupda ümumiləşdirmək olar:

**1)qadın gözəlliyinin tərənnümü**. Vaqifin müxəmməsləri də qoşmaları və qəzəlləri kimi, əsasən, qadın gözəlliyinin tərənnümünə həsr olunmuşdur. Müxəmməslərin həcmi imkan verir ki, qadın gözəlliyindən söhbət açılanda şair lirik qəhrəmanın hisslərini daha müfəssəl, gözəlliyin əlamətlərini daha geniş təsvir etsin. Xüsusilə Tiflisdə gördüyü gözəllər Vaqifin ruhunu oxşayır, qəlbini coşdurur. Bunu "**Var"** rədifli müxəmməsdə aydınca görmək olar:

Mərhəba, Tiflis imiş cənnəti dünya yerinin,
Yığılıban ona cəmiyyəti hurü pərinin,
Mən bu şəhrin nə deyim vəsfini dilbərlərinin,
Filməsəl, şəklü şəmayildə, bəli, hər birinin
Məhi-tabana bərabər sərü simaları var.

Baği-rizvanda əgər huriyü qılman çoxdur,
Bu gözəllər kimi məqbulü müzəyyən yoxdur,
Nəslbənəsl gözəlik bulara buyruqdur,
Mən görənlər ki, Mələkdən, pəridən artıqdır,
Hələ derlər ki, bulardan dəxit əlaları var.

2)**məişət mövzuları** və **səfər təəssüratları.**

3)**ictimai mövzular**. Bu mövzuda yazılan şeirlər içərisində və ümumən bütün yaradıcılığında "Görmədim" müxəmməsi xüsusi yer tutur.

**"GÖRMƏDİM" müxəmməsi**. Şairin həyatının son illərinə aiddir. Vaqif bu şeirdə dünyanın toy-bayram olmadığını dərk edir və dostların vəfasızlığını, maddiyyatın mənəviyyatı üstələdiyini, "cahan mülkü"nün ahənginin pozulduğunu görüb Allahdan kömək istəyir. Dünya malına aludə olmuş insanların ucbatından din-imanın əldən getdiyini görən şair dovrünü və mühitini kəskin şəkildə ittiham edir:

Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim,
Aşinalar ixtilatında sədaqət görmədim,
Biətü iqrarü imanü dəyanət görmədim,
Bivəfadan lacərəm təhsili-hacət görmədim.

Vaqifin bu cür geniş miqyaslı ittihamının iki səbəbi vardır:

**1)özünün şəxsən düşdüyü çətin vəziyyət**

**2)Qarabağ xanlığında yaranmış ağır ictimai-siyasi şərait**

Bununla belə şair yalnız öz başına gələn hadisələri yox, şahidi olduğu yüzlərlə hadisəni ümumiləşdirərək öz mövqeyini bildirir. Amma mövcud problemlərin həllini görə bilmədiyi üçün dünyadan əl üzüb Tanrıya sığınır:

Müxtəsər kim, belə dünyadan gərək etmək həzər,
Ondan ötrü kim, deyildir öz yerində xeyrü şər.
Alilər xaki-məzəllətdə, dənilər mötəbər,
Sahibi-zərdə kərəm yoxdur, kərəm əhlində zər,
İşlənən işlərdə əhkamü ləyaqət görmədim.

Vaqif "Bax" qəzəlində olduğu kimi, "Görmədim" müxəmməsində də **tərki-dünyalıq** qərarına gəlib çıxır. Lakin "Bax" qəzəlindən fərqli olaraq, "Görmədim" müxəmməsində bu qənaətə gəlib çıxmağın dəlil-sübutları daha müfəssəl, daha ictimaidir.

Müxəmməsdə şairin inkarçılıq və ittihamçılıq ruhu yüksək sənətkarlıqla ifadə olunur. "Hər nə gördüm əyri gördüm, özgə

babət görmədim" deyən sənətkar "**gördüm" və "görmədim"** ifadələri ilə zahiri təzad yaratsa da, əslində görünən də əyrinin olduğunun təsdiqidir.

"Görmədim" müxəmməsində əvvəlki şeirləri ilə müqayisədə obrazlılıq, canlı bənzətmələr, şux epitetlər yoxdur. Mühitə publisistik münasibət şeirin üslubunda aydın görünür. Şeirin dili **nəsr və publisistik məqalə** dilinə yaxındır. İfadələr məcazi mənasında yox, həqiqi mənasında işlənir. Bu, Vaqif yaradıcılığında realizmin yeni bir təzahür formasıdır.

"Görmədim" müxəmməsi əruz vəzninin **rəməl** bəhrində yazılmışdır: FAilAtün, FAilAtün, FAilAtün, FAilün.

# II MƏRHƏLƏ

## XIX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATI

**II** mərhələ **XIX** əsri əhatə edir. Bu dövr Azərbaycan xalqının həyatına ziddiyyətli bir dövr kimi daxil olur. Əsrin əvvəllərindən başlayaraq Azərbaycan torpaqları Rusiya ilə İran arasında müharibə meydanına çevrilir, digər tərəfdən də ölkədə milli müstəqillik, ictimai azadlıq ideyaları yayılır.

**XIX** əsrdə həmin əsrin 20-ci illərindən təşəkkül tapan **maarifçilik** geniş miqyas alır və əməli hərəkata çevrilir. Maarifçilərin əsas məqsədi xalqı maarifləndirmək yolu ilə əsarətdən qurtarmaq olmuşdur. Onlar **məktəbə, teatra, mətbuata, ədəbiyyata** xüsusi diqqət yetirirdilər. Onlar mətbəə açmaq, qəzet çıxarmaq, kitab nəşr etmək, milli ruhlu vətəndaşlar tərbiyələndirmək uğrunda çalışırdılar. Azərbaycanlıların mədəni mərkəzi olan Tiflisdə teatrın yaranması ziyalılarının teatra marağını artırdı.

**1873-cü il mart ayının 10-da** M.F.Axundzadənin "Sərgüzəşti-veziri-xani-Sərab (Lənkəran)" əsərinin tamaşası ilə Azərbaycanda **teatrın əsası** qoyuldu. Tamaşa Həsən bəy Zərdabinin və Nəcəf bəy Vəzirovun rəhbərliyi ilə Bakı realnı gimnaziyasının tələbələrinin iştirakı ilə həyata keçirilmişdir.

**1873-cü il aprel ayının 17-də** isə M.F.Axundzadənin "Hacı Qara" pyesi Bakı realnı gimnaziyasının bir qrup tələbəsi tərəfindən oynanılmışdır.

Maarifçilərin mətbuat yaratmaq təşəbbüsləri həm Cənubi, həm də Şimali Azərbaycanda reallaşmağa başladı. **1858**-ci ildə Təbrizdə "Azərbaycan" qəzeti nəşr edilməyə başladı və bir neçə ildən sonra bağlandı.

Şimali Azərbaycanda isə qəzet çıxarmaq işinin təşəbbüskarı Həsən bəy Zərdabi oldu. H.Zərdabi Bakı realnı gimnaziya-

sının müəllimi, məhkəmə katibi, dövlət məmuru və Azərbaycanda ilk qəzet olan **"Əkinçi"** qəzetinin redaktoru olmuşdur. O, 1870-ci ildən qəzet çıxarmaq istəsə də, bunu yalnız 5 ildən sonra həyata keçirə bilmiş və qəzetin müstəsna olaraq Bakıda senzuradan keçməsinə icazə almışdır.

**1875-ci il iyul ayının 22-də** ilk milli Azərbaycan qəzeti "Əkinçi" çap edildi. **1877-ci il sentyabr ayının 29-dək**, yəni bağlananadək **56** nömrəsi çıxdı. Qəzet İstanbuldan gətirilmiş mətbəə hürufatı-ərəb əlifbası ilə çap edilirdi. Qəzet **demokratik mövqedə** dayandığına görə demokratik ideyalar daha sürətlə yayılmağa başladı.

Qəzetdə fəal iştirak edən **müəlliflər** bunlardır:

| | |
|---|---|
| **M**irzə Fətəli Axundzadə, | **S**eyid Əzim Şirvani, |
| **Ə**sgər ağa Gorani, | **Ə**hsənül-Qəvaid, |
| **N**əcəf bəy Vəzirov, | **M**əhbus Dərbəndi. |

Bu müəlliflər bütün geriliyi çarizmin müstəmləkə siyasətində görür və ictimai həyatın bütün sahələrində tərəqqi və yeniləşmə ideyalarını irəli sürürdülər.

"Əkinçi"dən sonra, yəni **XIX** əsrin axırları və **XX** əsrin əvvəllərində "Ziya", "Kəşkül", "Şərqi-rus", "Həyat", "Molla Nəsrəddin" kimi mətbuat orqanları çap edildi.

**XIX** əsrdə ictimai və mədəni həyatda baş verən dəyişikliklər bədii ədəbiyyatın inkişafına ciddi təsir göstərdi. Ədəbiyyat ideya-məzmun və poetika-sənətkarlıq baxımından zənginləşdi. Bu dövr ədəbiyyatının xüsusiyyətləri:

**1)**milli azadlıq ideyalarının təbliği, milli kədər duyğularının, vətəndaşlıq hisslərinin təsvir və tərənnümü güclənir

**2)**Azərbaycan ədəbiyyatı dünya ədəbi prosesinə qoşulur

**3)**mövzu dairəsi genişlənir, janr-üslub modeli yeni keyfiyyətlərlə zənginləşir. Yeni ədəbi növ və janrların meydana çıxması maarifçilik ideyaları ilə bağlı idi:

**1)**Q.Zakir və Baba bəy Şakir **satirik şeiri** inkişaf etdirirlər.

**2)** A.Bakıxanov və İ.Qutqaşınlı **nəsri** inkişaf etdirirlər; İ.Qutqaşınlı **ilk hekayənin** (1835) yaradıcısı olur.

**3)**M.F.Axundzadə **komediya** (1950) və **dram** (1951) janrlarının, **yeni tipli povestin** (1957) əsasını qoyur.

**4)**C.Məmmədquluzadə ilk **mənzum (alleqorik) dramı** (1989) qələmə alır.

**5)**N.Vəzirov **ilk faciənin** müəllifi olur (1896).

**6)**N.Nərimanov **ilk tarixi faciəni** (1996) və **ilk romanı** (1896-1899) yaradır.

**XIX** əsrdə **aşıq poeziyası** inkişaf edir və Azərbaycanın Göyçə, Şəki, Urmu, Şəmkir kimi mahallarında ustad aşıqlar yetişir. Aşıq şeirinin qoşma, gəraylı, təcnis, divani kimi klassik janrları inkişaf edir, **yeni** formaları yaranır: **dodaqdəyməz təcnis, dodaqdəyməz müxəmməs, dodaqdəyməz divani, cığalı təcnis, cığalı qoşma, ayaqlı gəraylı**.

Aşıq poeziyasının **yeni** poetik **janrları** da yaranır:

**hərbə-zorba, qıfılbənd, deyişmə, bağlama, müəmma**

Aşıq poeziyası bədii dil baxımından da yeniləşir və orijinal deyim formaları yaranır.

## ABBASQULU ağa BAKIXANOV (1794-1847)

Ensiklopedik şəxsiyyətdir. Ədəbiyyatda maarifçilik ideyalarının yaranması müəyyən dərəcədə onun adı ilə bağlıdır. “**Qüdsi”** təxəllüsü ilə həm **lirik**, həm də **epik** əsərlər (mənzum hekayələr və təmsillər) yazmışdır. A.Bakıxanovun həcm etibarilə ən böyük əsərləri **məsnəviləridir:**

1. **“Miratül-cəmal”** məsnəvisi. **Avtobioqrafik** səciyyə daşıyır Varşavada keçirdiyi həyatı əks etdirir. Əsərin əsas ruhunu vətənpərvərlik, yurd sevgisi təşkil edir. Şair Avropa məclislərindən rəğbətlə söhbət açsa da, doğma yurdunu xatırlayır, xoşbəxtliyi vətəndə yaşamaqda görür:

Qüdsi, xoşdur, Əmsar adlı məskənin,
Şəhərlərdən çox üstündür öz kəndin.

2. **"Mişkatül-ənvar"** məsnəvisi. Müəllifin cəmiyyətə, dövlətin idarə olunmasına, hökmdar və xalq münasibətlərinə dair baxışları öz əksini tapmışdır. Forma və məzmun baxımından N.Gəncəvinin "Sirlər xəzinəsi" əsərini xatırladır. Əsərdə dövlətin idarə olunması və ədalətli şah məsələsi diqqət mərkəzindədir. Şairə görə, ölkənin taleyi hökmdardan asılıdır:

Şah bir etsə zülmü, onun xadimləri yüz edər,
Ölkənin hər iqtidarı, rövnəqi əldən gedər.
Bu halları görən zaman söyləmişdir atalar:
Ölkədə şah pis olarsa, xadimləri can alar.

Məsnəvidə mənzum hekayə və təmsillər də verilmişdir. Onları iki qismə ayırmaq olar:

**1)nəsihətamiz fikirləri ifadə edənlər**

**2)ictimai eyiblərin, mütləqiyyət zülmünün tənqidi**

A.Bakıxanov Azərbaycan ədəbiyyatı tarixində bədii nəsr nümunələri yaradan sənətkar kimi də tanınır. A.Bakıxanovun qələmə aldığı **nəsr əsərləri:**

**1) "Riyazül-qüds"**

**2) "Nəsihətlər"**

**3) "Kitabi-Əsgəriyyə"**

A.Bakıxanov yaradıcılığının mühüm bir hissəsini elmi əsərlər təşkil edir. Onun müxtəlif sahələrə aid **elmi əsərləri**:

**1) "Qanuni-Qüdsi"**

**2) "Əsrarül-Mələkut"**

**3) "Təhzibül-əxlaq"**

**4) "Eynül-mizan"**

**5) "Gülüstani-İrəm"**.

## MİRZƏ ŞƏFİ VAZEH (1794-1852)

M.Ş.Vazeh **şair, müəllim, xəttat** kimi tanınmışdır. Poeziyada klassik şeir üslubunun davamçısıdır, əsərlərini əruz vəznində yazmışdır. Azərbaycan-Qərb ədəbi-mədəni əlaqələrinin yaranıb inkişaf etməsində, Şərq bədii təfəkkürünün Rusiya, Almaniya, Fransa, İngiltərə kimi Avropa ölkələrində yayılmasında mühüm rol oynamışdır.

M.Ş.Vazeh Tiflisdə "**Divani-hikmət**" ədəbi məclisini təşkil etmişdir. 1944-cü ildə Tiflis gimnaziyasında fransız və latın dillərini tədris etmək üçün dəvət edilən **Fridrix Bodenştedt** (1819-1892) bu ədəbi məclisin yığıncaqlarında iştirak edir, Vazehdən Azərbaycan və fars dillərini öyrənir.

Qafqazın bir çox yerlərini gəzərək bu yerlərin tarixi, etnoqrafiyası, ədəbiyyatı və gözəl təbiəti ilə maraqlanan F.Bodenştedt Qafqaza dair xatirələrini **1850**-ci ildə Berlində **"Şərqdə min bir gün"** adı ilə çap etdirir. O, həmin kitaba Qafqazın bədii fikrinə, tarix, coğrafiya və etnoqrafiyasına dair gördükləri və eşitdikləri ilə yanaşı, Mirzə Şəfinin şeirlərini də daxil edir. Bu şeirlərin məşhurlaşdığını görən alman şərqşünası həmin şeirləri **1851**-ci ildə "**Mirzə Şəfinin nəğmələri"** adı ilə ayrıca kitab kimi çap etdirir. Bu şeirlər tezliklə əksər Avropa dillərinə, hətta qədim yəhudi dilinə tərcümə edilir.

M.Ş.Vazehin bizə gəlib çatmış **əsərləri**:

**1) lirik şeirləri 2)qəzəlləri 3)təkbeytləri**

**4) "Məktubun intizarında" lirik məsnəvisi**

**5) "Həsbi-hal" əsəri (nəsr və nəzmlə yazılmışdır)**

## İSMAYIL bəy QUTQAŞINLI (1809-1861)

Yaradıcılığa Azərbaycan maarifçiliyinin təşəkkül dövründə başlamışdır. İ.Qutqaşınlının **"Rəşid bəy və Səadət xanım"** hekayəsi ilə məşhurdur və hekayə **1835**-ci ildə Varşavada fran-

sız dilində çap edilmişdir. Hekayə mənəviyyatdakı və məişətdəki **geriliyə və köhnəliyə, köhnəlik qalıqlarına qarşı maarifçi etirazları** ifadə edir.

M.F.Axundzadə bu əsəri yüksək qiymətləndirmişdir.

"Rəşid bəy və Səadət xanım" hekayəsinin əhəmiyyəti:

1) nəsrin təşəkkülündə mühüm rol oynamışdır.

2) ədəbiyyatı maarifçilik ideyaları ilə zənginləşdirmişdir.

## XURŞUDBANU NATƏVAN (1832-1897)

Bədii yaradıcılığa 50-ci illərdə başlamışdır. M.Füzuli ənənələrinin davamçısı kimi tanınır. Əsərlərini klassik şeir üslubunda yazmışdır. Yaradıcılığının **əsas xüsusiyyətləri**:

**1)** insanın həm real, həm də romantik boyalarla təqdimi

**2)** təbiət gözəlliklərinin təsviri

X.Natəvan, əsasən, **qəzəllər** yazmışdır. Onun qəzəllərində insanpərvərlik, xeyirxahlıq, dostluq ideyaları tərənnüm olunur. "**Ey dust", "Xudahafiz"** rədifli qəzəllərində isə xain və yaramaz adamların əməlləri pislənir. Dostluq edən insanları ehtiyatlı olmağa, fitnələrə uymamağa çağırır.

X.Natəvanın **təbiət gözəlliklərinə** dair şeirləri də vardır: "**Gülün", "Bülbül", "Bənövşə", "Qərənfil".** Bu şeirlərdən gülün, çiçəyin xoş rayihəsi gəlir. Şair təbiət gözəlliklərini insanın mənəvi dünyası və qayğıları ilə əlaqələndirir, həmin şeirlərdə güclü insan əhvali-ruhiyyəsi duyulur.

X.Natəvanın şeirləri kamil şeir nümunələridir. İfadə yığcamlığı, fikir əlvanlığı, məna dərinliyi yaratmaq onun sənətkarlığının başlıca xüsusiyyətləridir.

Şifahi xalq ədəbiyyatından və klassik irsdən ustalıqla bəhrələnən X.Natəvanın işlətdiyi **təkrirlər, qoşa qafiyələr, rədiflər, bədii suallar, xitab və nidalar** onun əsərlərinin bədii təsir gücünü artırmış, lirik qəhrəmanın daxili aləminin canlı şəkildə əks olunmasına şərait yaratmışdır.

## NƏCƏF bəy VƏZİROV (1854-1926)

Bədii yaradıcılığa 70-ci illərdə başlamışdır. M.F.Axundzadə ənənələrinin davamçısı kimi dramaturgiyanı inkişaf etdirmiş, onu təzə mövzular və janrlarla zənginləşdirmişdir. Azərbaycan ədəbiyyatı tarixində faciə janrının əsasını qoymuşdur.

**1854**-cü ildə N.Vəzirov Şuşada bəy ailəsində anadan olmuş, Bakıda real gimnaziyanı bitirmiş və Moskvada Petrovski-Razumovski Akademiyasında ali təhsil almışdır. Təhsildən qayıtdıqdan sonra Yelizavetpol və İrəvan quberniyalarında meşəbəyi, İrəvanda və Qazaxda dövlət məmuru, Bakı Dumasında katib vəzifələrində çalışmışdır.

N.Vəzirovun **komediyaları**:

**1) "Daldan atılan daş topuğa dəyər" (1890)**

**2) "Adı var, özü yox" (1891)**

**3) "Yağışdan çıxdıq, yağmura düşdük" (1895)**

**4) "Pəhləvani-zəmanə" (1898-1900)**

N.Vəzirovun Azərbaycan ədəbiyyatı tarixinə bəxş etdiyi ən böyük yenilik ilk faciənin – **"Müsibəti-Fəxrəddin"** əsərinin (1896) yazılmasıdır.

**Mövzusu**: **XIX** əsr Azərbaycan mülkədarlarının həyatı.

**İdeyası**: işıqla zülmətin, xeyirlə şərin, yeniliklə köhnəliyin mübarizəsi.

**Əsas surətləri**: Rüstəm bəy, Fəxrəddin bəy, Mələk xanım və Səadət xanımdır. Müəllif onların simasında iki böyük ictimai qüvvə arasındakı tragik toqquşmanı əks etdirmişdir.

# QASIM bəy ZAKİR (1784-1857)

## HƏYATI

**1784**-cü ildə Şuşada doğulmuşdur, Cavanşir nəslindəndir. Ulu babası Kazım ağa Şuşa şəhərinin əsasını qoyan Pənah xanın doğma qardaşıdır.

Zakir ilk təhsilini Şuşada mollaxanada almış, ərəb, fars dillərini öyrənmişdir. Bu dilləri bilməsi Firdovsi, Nizami, Sədi, Hafiz kimi sənətkarların əsərləri ilə tanış olmağa imkan vermişdir.

Zakirin dünyagörüşünün formalaşmasına yeniyetməlik və gənclik illərində gördüyü, yaxud eşitdiyi aşağıdakı əhvalatlar ciddi təsir göstərmişdir:

**1)**Qacarın **1795**-ci ildə Qarabağa hücum edib Şuşanı mühasirədə saxlaması, əhalinin şəhəri mərdliklə müdafiə etməsi və **1797**-ci ildə Qacarın Şuşada qətli

**2)** M.P.Vaqifin oğlu ilə birlikdə Cıdır düzündə öldürülməsi

**3)** İbrahim xanın Qarabağda vəhşicəsinə güllələnməsi

Qarabağ xanlığı Rusiya idarəçiliyinə keçdikdən sonra Zakir çar ordusunun Qafqaz müsəlman könüllü atlı dəstəsinə qoşulmuş, **1806-1813, 1826-1828**-ci illər Rusiya-İran müharibələrində iştirak etmiş, Abbas Mirzənin başçılıq etdiyi İran qoşununa qarşı vuruşan qüvvələrin tərkibində olmuş, döyüşlərdə fərqləndiyinə görə **1828**-ci ildə gümüş medalla təltif edilmişdir.

O, 30-cu illərin sonlarında ilin çox hissəsini Xurşudbanu Natəvanın atası Mehdiqulu xanın ona bağışladığı Xındırıstan kəndində keçirmiş və təsərrüfatçılıqla məşğul olmuşdur.

Müasirləri arasında dərin hörmət və nüfuz qazanan Q.Zakirin məktublaşdığı, əlaqə saxladığı **dostları**:

**1)** M.F.Axundzadə

**2)** İ.Qutqaşınlı

**3)** B.Şakir

**4)** X.Natəvan

**5)** İliko Orbeliani – gürcü knyazı

**6)** Mixail Kolyubakin – Bakı general-qubernatoru

Lakin bununla yanaşı Q.Zakiri sevməyən, onun paxıllığını çəkən **düşmənləri** də vardır:

**1)** Cəfərqulu xan Nəva

**2)** Mirzə Əbülqasım – Şuşa qazisi

**3)** Konstantin Tarxan-Mouravov – yerli çar hakimi

Bu adamlar Zakir satiralarının tənqid hədəfləri olduğuna görə şairi dövlət yanında etibardan salmaq istəyirdilər. Belə bir fürsət düşür: K.Tarxan-Mouravov Zakiri hökumətdən qaçaq düşmüş qardaşı oğlu Behbud bəy Cavanşiri evində saxladığına görə günahlandırıb təqibə başlayır.

**1849**-cu ilin oktyabrında K.Tarxan-Mouravov Xındırıstan kəndinə hücum çəkərək Zakiri, ailəsini, yaxın qohumlarını, o cümlədən kəndə gələn dəstəni qarşılamaq üçün göndərdiyi oğlu Nəcəfqulu bəyi və qardaşı oğlu İsgəndər bəyi həbs edib Şuşa qalasına gətirir və həbsxanaya salır. Bir ilə qədər Şuşa həbsxanasında qaldıqdan sonra oğlu və qardaşı oğlunu Tiflisə gətirib oradan da Voronejə, sonra isə Kaluqaya sürgün edirlər. Onlar 3 il Rusiyada sürgündə qalırlar.

Q.Zakirin ailəsi Şuşada qalır, özü isə Bakıya sürgün edilir. Zakir bir neçə ay Bakıda sürgün həyatı keçirdikdən sonra dostlarının (M.F.Axundzadə, İ.Qutqaşınlı, İliko Orbeliani, Mixail Kolyubakin) köməkliyi ilə sürgündən azad olur.

Zakirin həyatının son illəri çox kədərli keçmişdir. Oğlu və qardaşı oğlu həbsdən azad olsa da, şair daim nəzarət altında yaşamışdır. Maddi ehtiyac və çətinliklər öz təsirini göstərmiş və o, bu barədə dostlarına müraciət etmişdir. Onların səyi nəticəsində "Rus dövlətinə göstərdiyi xidmətlərinə görə" **1857**-ci ildən başlayaraq ayda ona 36 manat təqaüd təyin edilmişdir. Lakin

təqaüd kağızı Şuşaya çatana qədər şair artıq dünyasını dəyişmişdir.

**1857**-ci ildə vəfat edən Q.Zakir Şuşada Mirzə Həsən qəbiristanlığında dəfn edilmişdir.

## YARADICILIĞI

Zakirin bədii yaradıcılığının üç istiqaməti vardır:

**1)** lirik şeirləri

**2)** satiraları

**3)** epik əsərləri – mənzum hekayə və təmsilləri

### 1. LİRİK ŞEİRLƏRİ.

Q.Zakir yaradıcılığa gənc yaşlarında başlamış, ilk şeirlərini M.Füzulinin təsiri ilə yazmışdır. M.P.Vaqif, Abdulla Canı oğlu, Baba bəy Şakir kimi sənətkarlardan bəhrələnmişdir.

Əsərlərini həm **əruz**, həm də **heca** vəznində yazmışdır.

İstifadə etdiyi **janrlar:**

**1)xalq şeiri** janrları: **-qoşma**, **-gəraylı, -təcnis, -bayatı**

**2)klassik şeir** janrları: **-qəzəl, -müxəmməs, -müstəzad müəşşər, -tərkibbənd, -tərcibənd**

Zakir lirikasının mövzuları:

**1)məhəbbət** motivli şeirlər    **2)ictimai** motivli şeirlər

**1) Məhəbbət motivli şeirləri**. Onun məhəbbətə dair şeirlərinin mayasını gözəlliyin, sevginin və humanist münasibətlərin tərənnümü təşkil edir. Bu şeirlərdə vəfalı, etibarlı, sədaqətli olmaq kimi hisslər təbliğ olunur.

Zakirin məhəbbətə dair mülahizələrində **ziddiyyət** vardır:

– M.Füzuli kimi eşqi **canın bəlası** sayır. Şair bu mülahizəsini əsaslandırmaq üçün Füzulinin aşağıdakı beytinə istinad edir:

Can vermə qəmi-eşqə ki, eşq afəti-candır,
Eşq afəti-can olduğu məşhuri-cahandır.

Zakir eşqi **müsbət mənəvi keyfiyyətlərin səbəbi** hesab edir. **Qoşma, gəraylı, müxəmməs** şəklində yazılmış belə şeirlərində **cazibəli gözəl** surətləri yaratmışdır. Şairin "Dilbər", "Dilbəri-sadə" adi ilə təqdim etdiyi surətlər real həyat adamlarıdır, Azərbaycan – Qarabağ qızlarıdır.

Q.Zakir qoşma və gəraylılarında insanın **zahiri gözəlliyindən** bəhs edərkən sadəliyə, təbii keyfiyyətlərə üstünlük verir. Q.Zakir süni, yapma gözəlliyi pisləyərkən süni boyalara qarşı çıxır. Bu fikirlər "**Üzünə"** rədifli qoşmasında aydın ifadə edilmişdir:

Sən sadə gözəlsən, qoyma, sevdiyim,
Məşşatələr bəzək taxa üzünə,
Bərgi-gülə bənzər üzari-alın,
Nə lazımdır ənlik yaxa üzünə.

Gözəlin **mənəvi keyfiyyətlərinə** gəldikdə isə Zakir vəfa və sədaqəti, daxili nəcibliyi və zənginliyi mühüm şərt hesab edir.

**"BADİ-SƏBA, SÖYLƏ MƏNİM YARIMA" qoşması.** Bu qoşmada "Gəlsin" rədifi olsa da, birinci misra ilə adlandırılmışdır. Şeir badi-səbaya, yəni **səhər mehinə** müraciətlə başlayır və sevgilisini gözəllərlə gəzintiyə çağıran Aşiqin ürək döyüntüləri, qəlb çırpıntıları duyulur:

Badi-səba, söylə mənim yarıma,
Gözəllər çıxıbdı seyranə, gəlsin.
Təğafül etməsin, işrət çağıdır,
İçilir hər yerdə peymanə gəlsin.

Digər bənddən məlum olur ki, bu qız seyranə çıxanda, şübhəsiz, gül-çiçəyi heyran qoyacaq: onun gözəlliyini görüb bənövşələr utandığından başını yuxarı qaldıra bilməyəcək, nərgizlər gözlərinə sadağa olacaq, gül onun camalına baxıb torpağa

düşəcək, bülbülün yanıqlı-yanıqlı nəğmə oxumaq həvəsini coşduracaq:

Bənövşələr başın salsın aşağa,
Nərgiz olsun gözlərinə sadağa.
Gül, camalın görüb düşsün torpağa,
Bülbülü gətirsin əfğanə, gəlsin.

Qoşmada gözəlin zahiri görkəmi – saçı, baxışı, yerişi də canlandırılmışdır. Şairin təsəvvüründə bəd gözlərdən çəkinən gözəlin həyəcanlanmış sifəti, nazlı yerişi, oğrun baxışı aydın görünür. Zakir gözəli ovçu görmüş marala bənzətməklə bədii ifadəni və şeirin təsir gücünü qüvvətləndirir.

Şeirin son bəndində əsas diqqət Aşiqin mənəvi keyfiyyətlərinin təqdiminə yönəlir. Aşiq məhəbbətin iztirablarından və çətinliklərindən qorxmur, gündə yüz dəfə yarının başına dolanmağa hazırdır, hətta özünü pərvanədən cürətli hesab edir:

Sürmə çəksin gözlərinə, qaşına,
Gündə yüz yol mən dolanım başına.
Zakirtək yanmağa eşq atəşinə
Cürəti var isə, pərvanə gəlsin.

Şeirdə həm Aşiqin keçirdiyi hiss və düşüncələri, həm də Məşuqənin gözəlliyi real bədii boyalarla tərənnüm edilmişdir. Aşiq təmiz qəlbli bir gənc, Məşuqə isə sevilməyə layiq azərbaycanlı – türk qızıdır.

**2) İctimai motivli şeirləri.** Q.Zakirin ictimai məzmun daşıyan bəzi **qəzəl və müxəmməslərində** olduğu kimi, aşağıdakı **qoşmalarında** da zəmanədən şikayət, haqsızlığa etiraz və mənəvi-əxlaqi naqisliklərin tənqidi əsasdır:

**1)** "Dost yolunda cəfa çəkdim, can üzdüm"
**2) "Gözüm yolda qaldı, könül intizar"**
**3)** "Dost yolu bağlandı, ümid kəsildi"
4) "Qələtdir qocaya növcavan sevmək"

**“EYLƏR” MÜXƏMMƏSİ.** Q.Zakir lirikasının ən gözəl nümunələrindən biridir və ictimai məzmun daşıyan ən məşhur şeirlərindəndir. **Zəmanədən şikayət və eybəcərliklərə qarşı etiraz motivləri** əks olunmuşdur. Məzmun baxımından M.P.Vaqifin “Görmədim” müxəmməsi ilə səsləşir.

Şeirin qəhrəmanı **kədərli** bir insandır. Onun kədərinin əsas səbəbi budur ki, həyatda heç nə öz yerində deyil və etibarsız bu dünya naqislərin başını ucaldır, namuslu adamları isə alçaldır. İnsanlar şeytana uyublar və hər yerdə **şərin xeyir, eybəcərliyin gözəllik üzərində təntənəsi** görünür:

Açıb ibrət gözü ilə bir nəzər qılsam bü dövranə,
Hücumi-məsiyət rəxnə salıbdır, mülki-imanə.
Olub şeytana tabe, baxmaz insan hurü qılmanə,
Pərilər taət eylər sidq ilə quli-biyabanə,
Görən fərzanəvü aqil necə səbrü qərar eylər?!

Şairi narahat edən bir də budur ki, **insanlar mənəvi cəhətdən pozulmuşlar**, adamlar yalançıdırlar və bir-birinə böhtan atırlar, cəmiyyətdə yaxşı ilə pis fərqlənmir, insanlar şər qüvvələrin, Əhrimən qoşununun ayaqları altında qalıb məhv olur, şahbazları, şahinləri isə qarğa ilə dolaşalar ovlayırlar.

Şeirdə çoxlu ərəb və fars sözləri vardır ki, bu da müxəmməsin dilini xeyli çətinləşdirmişdir.

“Eylər” müxəmməsi əruz vəzninin **həzəc** bəhrində yazılmışdır: məfAİlün, məfAİlün, məfAİlün, məfAİlün

**“DURNALAR” QOŞMASI**. İctimai məzmun daşıyır, beş bənddən ibarətdir. **XIX** əsrin əvvəllərinə aid Azərbaycan lirikasının gözəl nümunələrindəndir.

Q.Zakirdən xeyli qabaq xalq dastanlarında, aşıq şeirində, M.P.Vaqif və M.V.Vidadi yaradıcılığında durnalara müraciətlə çoxlu şeirlər yazılmışdır. Bunlarının hamısında **vətən məhəbbəti** əsas yer tutmuşdur. Q.Zakirin qoşmasının da əsas məzmununu

**qürbət sıxıntısı, vətən həsrəti** təşkil edir. Çünki şair bu şeirini Bakıda sürgündə olarkən yazmışdır.

Qoşmada Aşiqin qürbət sıxıntısı və canan həsrəti verilmişdir. Qəriblikdə xəstə hala düşmüş lirik qəhrəman durnaların simasında özünə həmdərd tapır və durnalara deyir ki, ondan uzaqlaşmasınlar:

Diyari-qürbətdə müddətdi varam,
Gecə-gündüz canan deyib ağlaram.
Mən də sizin kimi qəribü zaram,
Eyləməyin məndən haşa, durnalar!

Şair getdikcə uzaqlaşan, vətənə doğru uçan və onlardan vətəni, sevgilisi barədə heç bir xəbər ala bilməyən lirik qəhrəmanın daxili təlatümlərini belə ümumiləşdirir:

Zakirəm, od tutub alışıb cigər,
Var isə canandan sizdə bir xəbər,
Təğafül etməyin, Allahı sevər,
Dönməsin bağrınız daşa, durnalar!

İdeya-bədii cəhətdən yüksək səviyyədə cilalanan "Durnalar" qoşmasında fikir aydın və yığcamdır, axıcı və poetikdir, misralardakı sözlər və fikirlər bir-birinə möhkəm tellərlə bağlanır.

## 2. SATİRALARI

**Birbaşa ifşa, kəskin tənqid və kinayəli gülüş** Zakir satirasının əsas xüsusiyyətləridir. Azərbaycan ədəbiyyatında yeni satirik üslubun formalaşması Q.Zakirin adı ilə bağlıdır. Zakirin satira yaradıcılığının iki səbəbi vardır: **cəmiyyətdəki eybəcərliklər** və **şəxsi həyatı ilə bağlı narazılıqlar**. Onun həyatda gördüyü rəzalətlər ürəyini yandırır və satirik ilhamını coşdurur:

Neçələr silsileyi-təbimə təhrik verir,
Rişteyi-nəzmə çəkmə yenə düri-qəltanı.

Budu xahişləri kim, baxmayıb ağu bozuna,
Eyləyim həcv təmam bəyü gədavü xanı.

Zakir satirasının **əsas tənqid hədəfləri** çarizmin müstəmləkəçilik siyasətinə xidmət edən **qanun-qaydalar,** rüşvətxor, əyyaş **hakimlər**, idarə və məhkəmələrdə olan süründürmələr, ədalətsizliklərdir. Şair özbaşınalıq üçün şərait yaradan qanunlara etiraz edir, **rüşvətxor dövlət xadimlərinin** həqiqi simasını xalqa tanıdırdı:

Yüz təşnələbi-qəhr olasan, xadimi-dövlət,
Verməz bir içim su sana, ta almaya dərya.
Simü zər ilə doldurasan ta gərək ovcun,
Ondan sora, zahir qıla şayət yədi-beyza.
Hər kimsə ki düşdü tora, müşküldü xilası,
Çəkməzlər əl ondan şirəsin sormayalar ta.

Şairin nifrətlə güldüyü hakimlər yaramaz işlərlə məşğul olurlar. Kəndlərdə oğurluq, talançılıq baş alıb gedir, vali isə günlərini kefdə və əyləncələrdə keçirir.

Zakir dini fanatizmi yayaraq camaatı aldadan, müxtəlif təriqətlər düzəltməklə xalqı boyunduruq altında saxlayan **ruhaniləri** tənqid edir, camaatda onlara qarşı nifrət hissi oyadırdı. Ümumiyyətlə, bu cür din xadimlərinin eybəcərliyi aşağıdakı şeirlərdə açılıb göstərilmişdir.

**1) "Qarabağ qazisi"**

**2) "Şuşa mollaları haqqında"**

**3) "Üsuli və şeyxi təriqət mollalarının həcvi"**

Zakirin satiraları içərisində M.F.Axundzadəyə yazdığı "Bax" rədifli mənzum məktubu xüsusi yer tutur.

**"BAX" rədifli mənzum məktub**. Heca vəznindədir, qoşma formasındadır. Zakir burada da **sözü ilə işi düz gəlməyən vaizlərin ikiüzlülük və yalançılığını** ifşa edir:

Vaiz bizə söylər şəri-Mustafa,
Harama mürtəkib olmayın əsla!

Özü lum-lum udur batində, amma
Zahirdə dediyi mənaya bir bax!

Şeirdə **cəmiyyətin sosial bəlalarını, mənəvi-əxlaqi naqisliklərini** daha kəskin tənqid edir. Şərin və yalanın çoxalmasının səbəbini ölkə başçılarının ədalətsizliyində görür:

Həddən aşıb bu vilada şərarət,
Hər kim hər iş görsə, puluna minnət.
Mu qədri yoxdur ədlü ədalət,
Və lakin şöhrəti-bicaya bir bax!

**XIX** əsrin 40-cı illərində çar hökumətinin "Kəndli əsasnamələri"nə görə, kəndlilər müəyyən sərbəstliklər qazanmalı, bir çox vergilərdən isə azad olunmalı idilər. Həmçinin bəylər kəndlilərlə mülayim rəftar etməli, sahibkar kəndlilərinə bir sahibkarın yanından başqasının yanına köçmək hüququ verilirdi. Lakin bunlar yerinə yetirilmir, **bəylərin rəiyyət üzərində zülmü daha da çoxalırdı**. Bütün bunları görən şair kəskin bir kinayə ilə yazırdı:

Palajeniya nəqli ta olub möhkəm,
Gərək bəy azalda zülmün dəmadəm.
Dəxi də artırır bu əhli-sitəm,
Yanında çalınan zurnayə bir bax.

**"VİLAYƏTİN MƏĞŞUŞLUĞU HAQQINDA" mənzum məktub**. Şeir **epistolyar** üslubda yazılmışdır və bəzən birinci misra ilə də adlanır: "**XƏBƏR ALSAN BU VİLANIN ƏHVALIN**". M.F.Axundzadəyə mənzum məktub formasında yazılmışdır. Heca vəznindədir, qoşma formasındadır. Şeirdə müəllif Qarabağda gördüyü "keyfiyyətləri" nəzmə çəkmiş, ölkədə olan **qarışıqlığın** tənqidi-satirik təsviri verilmişdir.

Şeirin birinci bəndi epistolyar üslubda olsa da, sonra açıq ifşa, birbaşa tənqid üsuluna keçilir. Şair **yolkəsənlik və quldurluq** haqqında məlumat verib yazır:

Qüttəüttəriqin vüfuru vardır.
Yaylaqda, aranda qatar-qatardır.
Yenə ötür-ötür, apar-apardır,
Bizim başımızda çattadı çanaq.

Şeirdə **oğurluq** halları da tənqid olunur. Kolanılar dalda qalanı soyur, "ərəblər" gecədən sübhə qədər çapıb talayır, Zərgər və Drağarda camaat əllərinə keçəni bu yandan oğurlayıb o yana satır. Dəhşət budur ki, ölkədə hamı oğruların tərəfini saxlayır, öz malını qorumaq istəyənlərə çomaq çəkilir:

Zərgər, Drağarda aləmi-aşkar,
Bir ucdan oğurlar, bir ucdan satar;
Vay odur, sahibi at başı tutar,
Yüz yerdən tökülər üstünə çomaq.

Şair **ictimai yaramazlıqların səbəbini dövlət məmurlarında** görür, oğrulara rəvac verən məhz onlardır. Ona görə də hökumət murovları oğruların həmfikri hesab edilərək satirik gülüş hədəfinə tuş gəlirlər.

Gördüyü ictimai bəlaların bir hissəsini Axundzadəyə bildirən Zakir eyni zamanda ondan ehtiyatlı olmağı, sirri möhkəm saxlamağı xahiş edir:

Gərçi vilayətdə çox idi əhval,
Müyəssər olmadı şərh edim əlhal;
Bir parasın yazıb elədim irsal,
Bu şərt ilə nə diş bilsin, nə dodaq.

Q.Zakir bəyləri, xanları, ruhaniləri tənqid edərək onlara qarşı özünün işıqlı, humanist ideallarını qoyurdu.

**SƏNƏTKARLIĞI.** Şairin əruz vəzninə nisbətən heca vəznində yazdığı şeirlərinin dili sadədir. O, bu nümunələrdə xalq danışıq dilindən, atalar sözləri və məsəllərdən məharətlə istifadə etmişdir. **Qoşma, təcnis və gəraylılarında** əsərlərinə yüksək bədiilik və xəlqilik ruhu gətirən aşağıdakı obrazlı ifadələrə tez-tez rast gəlmək olur: "intizar çəkməkdən çıxdı canı-

mız", "alıcı quş kimi toxudu", "dərd-qəm çəkməkdən qan olub cigər", "ömür keçdi yarıdan", "qul xətasız olmaz", "dəli yola gedər el arasında".

Zakirin əruz vəznində yazdığı şeirlərinin dili mürəkkəbdir. Onlarda alınma sözlərdən, ərəb-fars tərkiblərindən geniş istifadə edilmişdir. Buna baxmayaraq, şair **qəzəl və müxəmməslərində** misraların daxili bölgüsünə xüsusi fikir vermiş, dilin səlisliyinə, qafiyələrin ahəngdarlığına ciddi fikir vermiş, məzmunla formanın gözəl vəhdətini yaratmışdır.

Zakirin lirik şeirlərindəki məcaziliyi satiralarında açıq və sərt danışıq əvəz edir.

Şairin öz şeirlərində "zakon", "znakom", "polojeniya", "kvartal", "podrat", "poşol", "ustupay", "sadis" kimi rus sözlərini işlətməsi çar idarələrində işləyən rüşvətxor, süründürməçi məmurların real, canlı obrazını yaratmaq üçün lazım olmuşdur.

# MİRZƏ FƏTƏLİ AXUNDZADƏ (1812-1878)

## HƏYATI

**1812**-ci il iyun ayının 30-da Şəkidə anadan olmuşdur. Atası Mirzə Məhəmmədtağı Təbriz vilayətinin Xamnə qəsəbəsindən idi. O, uzun müddət Xamnədə kəndxuda olmuş, sonra isə çərçilik etməyə başlamışdır. Xırdavat sata-sata Şəkiyə gəlir, burada Axund Ələsgərlə tanış olur və onun qardaşı qızı Nanə xanımla evlənir. Bir il sonra oğlu olur və adını Fətəli qoyurlar.

**1814**-cü ildə əsli Xoydan olan Şəki hakimi Cəfərqulu xan vəfat etdiyindən cənubi azərbaycanlıların əksəriyyəti kimi, Mirzə Məhəmmədtağı da ailəsi ilə birlikdə Xamnəyə qayıdır.

**1818**-ci ildə Nanə xanım ərindən ayrılıb Qaracadağ mahalında yaşayan əmisi Axund Ələsgərin yanına gəlir. O vaxtdan Fətəli Axund Ələsgərin himayəsinə keçir və yeddi yaşından on üç yaşına qədər Qaracadağ mahalında yaşayır.

**1825**-ci ildə Axund Ələsgər Gəncəyə köçür. Bir il sonra isə Rusiya ilə İran arasındakı müharibə nəticəsində dağıdılmış Gəncədən Şəkiyə qayıdır.

Təhsil almasına gəldikdə isə Fətəli bir il Xamnədə mollaxanada oxumuşdur. Sonra isə Axund Ələsgər özü Fətəliyə həm Quran oxutmuş, həm fars və ərəb dillərini öyrətmiş, həm də onu Şərq klassik şairlərinin əsərləri ilə tanış etmişdir. Fətəlini ruhani etmək istəyən Axund Ələsgər Şəkidə ona dini təfsirləri, risalələri oxutmuş, ərəbcə savadını, danışıq vərdişlərini və yazmağı təkmilləşdirmişdir. Bacarıqlı və savadlı gənc olduğu üçün bu vaxtdan başlayaraq ona **Mirzə Fətəli** deməyə başlamışlar.

**1832**-ci ildə Axund Ələsgər Məkkəyə ziyarətə getdiyi zaman Mirzə Fətəlini Gəncəyə gətirib Molla Hüseyn Pişnamazzadənin yanına qoyur ki, ona dini elmlərdən dərs versin.

Gəncədə Mirzə Fətəli Mirzə Şəfi Vazehlə tanış olur və bu tanışlıq onun dünyagörüşünə müsbət təsir göstərir. Sonralar Mir-

zə Fətəli həmin tanışlığın əhəmiyyəti barədə yazırdı: "…Bir gün bu möhtərəm şəxs məndən soruşdu:

–Mirzə Fətəli, elmləri təhsil etməkdə məqsədin nədir?

Cavab verdim ki, ruhani olmaq istəyirəm.

Dedi:

–Sən də riyakarmı olmaq istəyirsən?

Təəccüb elədim və heyrət etdim ki, bu nə sözdür!

Mirzə Şəfi mənim halıma baxaraq dedi:

–Mirzə Fətəli, öz həyatını bu qaragüruhun içərisində puç etmə! Başqa bir məşğuliyyət qəbul et!

Onun ruhanilikdən nifrət etməsinin səbəbini soruşduğum zaman o günə qədər mənim üçün örtülü qalan mətləbləri açmağa başladı. İkinci atamın Həcdən qayıtmasına qədər Mirzə Şəfi bütün mətalibi-ülfaniyyəti mənə təlqin etdi və gözümün qabağından qəflət pərdəsini qaldırdı. Bu hadisədən sonra ruhanilikdən nifrət etdim və öz fikrimi dəyişdirdim".

**1833**-cü ildə Mirzə Fətəli Şəkidəki ibtidai rus məktəbinə daxil olur və rus dilini öyrənməyə başlayır. Lakin yaşı çox olduğundan bir ildən sonra məktəbi tərk edir.

**1834**-cü ildə Axund Hacı Ələsgər Mirzə Fətəlini Tiflisə gətirib Qafqazın baş hakimi baron Rozenin dəftərxanasında Şərq dilləri üzrə mütərcim şagirdi düzəldir. O, elə həmin il mütərcim vəzifəsinə keçirilir və ömrünün sonuna qədər bu vəzifədə çalışır. M.F.Axundzadə Rusiya-İran, Rusiya-Türkiyə dövlətləri arasında aparılan diplomatik danışıqlarda iştirak edir.

Tiflis mühiti onun ictimai baxışlarının və bədii yaradıcılığının formalaşmasına müsbət təsir göstərmişdir. O, burada rus dilini, Qərbi Avropa ədəbiyyatını və estetik fəlsəfi fikrini öyrənmiş, geniş ictimai fəaliyyətə başlamışdır.

**1836**-cı ildən Tiflis qəza məktəbində türk dili üzrə müəllim işləmişdir.

**1840**-cı ildə dəftərxanadakı işlərin çoxluğu ilə əlaqədar müəllimlikdən çıxmış və öz yerini müəllimi Mirzə Şəfi Vazehə vermişdir.

**1842**-ci ildə Axund Hacı Ələsgərin qızı Tubu xanımla evlənmiş, 13 övladı olmuş və onlardan 10-u kiçik yaşlarında, 1-i gəncliyində vəfat etmişdir.

**1848**-ci ilin noyabr ayında o, Nəsrəddin şahın taxta çıxması münasibətilə general Şellinqlə birlikdə I Nikolayın şəxsi məktubunu ona aparmışdır. Həmin vaxt M.F.Axundzadə Təbriz və Tehran şəhərlərini gəzmiş, Xamnədə yaşayan qohumları ilə də görüşmüşdür.

**1850 – 1855**-ci illərdə yazdığı altı pyeslə Azərbaycan və Yaxın Şərq ədəbiyyatında dramaturgiyanın əsasını qoymuşdur.

**1857**-ci ildə “Aldanmış kəvakib” povestini yazmışdır.

**1857**-ci ildə ərəb qrafikası əsasında yeni əlifba layihəsi tərtib etmişdir.

**1863**-cü ildə İstanbula getmiş və bu layihəni Türkiyənin baş naziri Fuad paşaya təqdim etmişdir. Müsəlman ölkələri üçün nəzərdə tutulmuş bu layihə “Cəmiyyəti-Elmiyyeyi-Osmaniyyə”də müzakirə edilmiş, lakin qəbul olunmamışdır.

M.F.Axundzadə qırx ildən artıq Qafqaz canişinliyində çalışıb Rusiya dövlətinə xidmət etmiş, lakin ömrünün sonlarında hökumət əleyhinə fəaliyyətdə günahlandırılmışdır.

**1877**-ci ildə ağır ürək-astma xəstəliyinə tutulmuşdur.

**1878**-ci il fevral ayının 28-də (martın 10-da) vəfat etmiş, gizli polis dərhal onun evində axtarış apararaq heç nə tapa bilməmiş və M.F.Axundzadə vəsiyyətinə görə Tiflisdə Mirzə Şəfi Vazehin qəbri yanında dəfn edilmişdir.

## YARADICILIĞI

Yaradıcılığa **lirik şeirlə** başlasa da, ədəbiyyat tarixində **dramaturq** kimi tanınmışdır. Ədəbiyyatımızda, ümumiyyətlə, Yaxın Şərqdə yeni bir ədəbi növün – **dramatik növün** əsasını qoymuş, **komediya və dram janrlarının** ilk nümunələrini yaratmışdır. Həmçinin **ilk povest janrının** və **realist bədii nəsrin** banisi olmuşdur.

Tiflisdə çıxan "Kavkaz" qəzeti ilə fəal əməkdaşlıq etmiş, komediyalarını, **"Zakirə məktub"** şeirini, "Aldanmış kəvakib" povestini və başqa tərcümələrini orada nəşr etdirmişdir.

**1865-ci ildə "Kəmalüddövlə məktubları"** adlı bədii-fəlsəfi əsərini yazmış, onu **1866**-cı ildə dostu Mirzə Yusif xanla fars dilinə, **1874**-cü ildə isə Adolf Berje ilə rus dilinə çevirmiş, lakin sağlığında çap etdirə bilməmişdir.

**1. "HEKAYƏTİ-MOLLA İBRAHİMXƏLİL KİMYAGƏR" komediyası** (1850). Ədəbiyyatımızda ilk komediyadır. Əsər feodal cəhalətpərəstliyi əleyhinə yazılmışdır və pyesdə 2 cəhət tənqid olunur:

**1)** avamlıq və gerilik

**2)** fırıldaqçılıq

Komediyanın **əsas tənqid hədəfləri** Azərbaycan həyatının imtiyazlı nümayəndələridir: Hacı Kərim, Ağa Zaman, Molla Salman, Məşədi Cabbar, Səfər bəy kimi "nuxulular". Onlar iksir vasitəsilə misi gümüşə çevirməyə inanırlar.

**Molla İbrahimxəlil** komediyanın əsas gülüş hədəflərindən biridir. Onun simasında yalançı kimyagərliyin səciyyəvi xüsusiyyətləri ümumiləşmişdir. Molla İbrahimxəlil özünü nuxulalara həm din xadimi, həm də kimyagər alim kimi təqdim edir. Əslində isə o, mahir bir kələkbazdır.

**Hacı Nuru** surətində ağıllı, namuslu, vətənpərvər ziyalıların səciyyəvi keyfiyyətləri ümumiləşmiş, onun simasında zəmanənin ictimai eyibləri ifşa edilmişdir.

M.F.Axundzadə feodal cəhalətpərəstliyi əleyhinə yazılmış bu əsərlə müasirlərini nadanlığın pəncəsindən xilas olub namuslu əməyə, elmə və maarifə yiyələnməyə çağırır.

**2. "HEKAYƏTİ-MÜSYÖ JORDAN HƏKİMİ-NƏBATAT və DƏRVİŞ MƏSTƏLİ ŞAH CADUKÜNİ-MƏŞHUR" komediyası** (1850)

**3. "HEKAYƏTİ-XIRS QULDURBASAN" dramı** (1851). Ədəbiyyatımızda **dram janrında** olan **ilk** əsərdir.

Mövzusu **kənd həyatından** alınmışdır. Əsərin fabulası (hadisələr) kasıb bir gənc **Bayramla** dövlətli bir qız olan **Pərzadın** sevgi macərası üzərində qurulmuşdur. Pərzadın əmisi **Məşədi Qurban** öz qardaşının varidatına yiyələnmək üçün Pərzadı oğlu Tarverdiyə nişanlayıb toy etmək istəyir. Bayram isə Tarverdini öyrədib quldurluğa göndərir, Tarverdi quldurluqda tutulur və Bayramla Pərzad bir-birlərinə qovuşurlar. Sonda isə Bayram Tarverdinin tutulduğunu görəndə onu xilas etmək üçün müəyyən kələk düzəltməsi barədə həqiqəti açıb söyləyir və öz günahını boynuna alır.

M.F.Axundzadə dramda həm **qadın hüquqsuzluğuna** qarşı çıxır, həm də bərabərlik və qarşılıqlı məhəbbət ideyalarını müdafiə edir. Pərzad öz hüquqsuzluğundan şikayətlənərək deyir: "Nə eləyim, əlimdən nə gəlir? Atam ölübdür, bir anam ilə qalmışam əmimin ixtiyarında; qardaşım yox, bir köməyim yox".

Dramda hadisələr bir xətt üzrə inkişaf edir və hadisələr Bayramın öz sevgilisinə çatmaq üçün düşündüyü tədbirlər ətrafında cəmləşir. Elə bununla da gənc qəhrəmanın xarekteri və mənəvi aləmi açılıb göstərilir. Bayram açıqürəkli, alicənab, mərd və namuslu bir insan kimi yadda qalır.

**4."HEKAYƏTİ-VƏZİRİ-XANİ-LƏNKƏRAN" komediyası** (1851). Mövzusu Azərbaycan **xanlıqlar dövründən** alınmış, süjeti **ailə-məişət macəraları** üzərində qurulmuş-

dur və məişət problemi **xanlığın ictimai-siyasi həyatı** ilə əlaqələndirilmişdir.

Komediyanın **əsas gülüş hədəfləri** Lənkəran xanı və onun vəziri Mirzə Həbibdir. Onların simasında həmin dövrün feodal-istibdad quruluşunun tipik xüsusiyyətləri ümumiləşdirilmişdir. Əsərdə məhdud düşüncəli Xan surəti despotizmin, özbaşınalığın və ədalətsizliyin timsalıdır.

O, şikayət edən ərizəçiləri dinlədikdən sonra gülünc hökmlər verir. Məsələn, atının gözünün qonşu tərəfindən vurulub çıxarılmasından şikayət edən kəndliyə deyir: "Sən də get vur onun atının bir gözünü çıxar". Sonra isə özünü əhalinin dərdini çəkən bir başçı kimi göstərib deyir: "Ah, xanlıq, səndən əzablı dünyada nə var! Hər kəs ancaq öz əhli-əyalının qəmini çəkir, mən gərək min-min adamın qəmini çəkəm, dərdinə yetişəm". Bu sözlər Xanın sözü ilə işi, danışığı ilə hərəkətləri arasındakı ziddiyyəti göstərir və Xanın həqiqi simasını açır.

**5. "HEKAYƏTİ-MƏRDİ-XƏSİS" komediyası** (1852). İkinci adı "**HACI QARA**" adlanır. Mövzusu **xəsislikdən** götürülmüşdür. **Hacı Qara** komediyanın **əsas gülüş hədəfi** və komik qəhrəmanıdır. O, həmişə komik planda göstərilir. Hacı Qaranın əsas xüsusiyyətləri:

**1) xəsislik.** Arvadı Tükəz bu barədə deyir: "Uşaq aşıq yığan kimi bu qədər pulu yığıb nə eləyəcəksən? Yüz il ömrün ola, yeyəsən, geyəsən, içəsən sənin pulun tükənməz… Öz malını nə özün yeyib içirsən, nə əyalına məsrəf edirsən. Sən ölsən heç olmazsa, arvad-uşağın doyunca çörək yeyər".

**2) acgözlük və tamahkarlıq**. Pulu olmasına baxmayaraq 100 manat zərərin dərdini çəkir.

**3) yalançılıq, ikiüzlülük və qorxaqlıq.** Çünki o, vəziyyətdən asılı olaraq bəzən mehriban və qonaqpərvər, bəzən də kobud və nəzakətsiz bir adam olur.

**4) danışığı ilə hərəkətləri arasında ziddiyyət vardır**. Qaçaq mal alverinə gedəndə qoçaqlıqdan dəm vuran Hacı Qara Araz çayını keçərkən atın üstündən suya yıxılır və bu, həqiqi gülüş üçün estetik zəmin yaradır.

Heydər bəy **dramatik planda** təqdim edilir. O, mülkədar-bəy nəslindəndir, lakin maddi iflasa uğramışdır. 2 ildir ki, nişanlıdır, amma toy xərci düzəldə bilmir. Dostları qızı qaçırmağı məsləhət bilirlər, o, bunu özünə sığışdırmır və belə iş ona "ölümdən betər görünür". Çünki deyəcəklər ki, "Qurban bəyin oğlu pul tapmadı toy edə, nişanlısını götürdü qaçdı".

Heydər bəy torpaqda çalışmağı, **zəhmətlə yaşamağı sevmir**, çünki halal zəhmətlə maddi tələbatı ödəmək mümkün deyil. Keçmiş həyat tərzini – köhnə feodal-patriarxal adətləri müdafiə edir: "Pərvərdigara bu necə əsrdir? Bu necə zəmanədir? Nə at çapmağın qiyməti var, nə tüfəng atmağın hörməti var!.. Ah, ah, keçən günlər! Hər həftədə, hər ayda bir karvan çapmaq olurdu, bir ordu dağıtmaq olurdu".

Bütün bunlara baxmayaraq Heydər bəy **ciddi, mərd və cəsur** bir gəncdir. Erməni yasovulları ilə rastlaşarkən onların qarşısında tək dayanır və "on nəfər yaraqlı-əsbablı ermənilərin" hamısını qorxudub yoldan çəkindirir.

**6."MÜRAFİƏ VƏKİLLƏRİNİN HEKAYƏTİ" komediyası** (1855). Mövzusu **Cənubi Azərbaycan** həyatından götürülmüşdür.

Təbrizin varlı tacirlərindən olan Hacı Qafur ölərkən var-dövlətinin bacısı Səkinə xanıma çatacağını bildirsə də, onun siğə arvadı Zeynəb mirası ələ keçirmək üçün məhkəməyə şikayət edir və Ağa Mərdan Halvaçı oğlunu vəkil tutur. Beləliklə, Səkinə xanımla Zeynəb arasında ixtilaf başlayır və bu, **xeyirlə şər** arasındakı mübarizəyə çevrilir. Əsərdə haqqı, xeyiri Səkinə xanım və onun tərəfdarları, nahaqqı, şəri isə Zeynəb, tərədarları və Ağa Mərdan təmsil edirlər.

**Səkinə xanım** öz hüquqlarını müdafiə edən bir qızdır. Bibisi onu sevmədiyi Ağa Həsənə ərə vermək istəyəndə o, etiraz edərək deyir: "Yaxşı deyil, bibi! Sənə mən nə zaman izn vermişəm ki, məni Ağa Həsənə verəsən? Mənim bu saatda nə atam var, nə anam, nə qardaşım; özüm öz vəkiliməm".

Ağa Həsən isə rədd cavabı aldıqda onu hədələyir, Səkinə xanım isə deyir: "Get bildiyini elə! Eləməsən səndən əskik adam yoxdur… Əlindən gələni beş qaba çək!"

**Ağa Mərdan Halvaçı** oğlu komediyada **əsas tənqid hədəfidir**. Onun simasında hiyləgər, fırıldaqçı vəkillərin xüsusiyyətləri ümumiləşdirilmişdir. Ağa Mərdan hiyləgərliklə Səkinə xanımın mirasını əlindən çıxarmaq üçün Hacı Qafurun yeddi aylıq bir oğlu olmasını təsdiq edən yalançı şahidlər düzəldir, lakin məhkəmədə şahidlər həqiqəti açıb söyləyir və Ağa Mərdan ifşa olunur. Səkinə xanımın simasında **xeyir şərə qalib gəlir**.

Komediyada yalançı, rüşvətxor, ikiüzlü, satqın adamlar ifşa olunur və əsər Səkinə xanımın qələbəsi ilə başa çatır.

**"HEKAYƏTİ-MÜSYÖ JORDAN VƏ DƏRVİŞ MƏSTƏLİ ŞAH" KOMEDİYASI (**1850). Əsəri müəllifin digər pyeslərindən fərqləndirən xüsusiyyətlər:

**1)** həyat həqiqətlərinin dolğun təsviri

**2)** obrazların canlı bədii inikası

**3)** xarakterlərin tipikləşdirilməsi.

Komediyanın **ideyası** o dövr üçün xarakterik olan **avamlığın və cadugərliyin tənqididir**. Komediyada maarifçi idealla gerilik və avamlığın tərəfdarları üz-üzə gəlirlər.

Əsərin **fabulası** belədir: Hatəmxan ağanın qardaşı oğlu, böyük qızının nişanlısı Şahbaz bəy Qərb adətləri ilə tanış olmaq və fransız dilini öyrənmək üçün müsyö Jordana qoşulub Parisə getmək istəyir. Bundan təşvişə düşən Şahbaz bəyin qayınanası və nişanlısı ona mane olmaq üçün cadugər Məstəli şaha müra-

ciət edirlər. Cadugər onları Parisi dağıdıb Şahbaz bəyi yoldan saxlayacağına inandırır. Bu vaxt Parisdə inqilab baş verir, müsyö Jordan isə Şahbaz bəyi Parisə apara bilmir.

**Dərviş Məstəli şah** surəti. Dərviş Məstəli şah komediyanın **satirik gülüş hədəfidir**. Onun simasında camaatın avamlığından istifadə edib aldadan tüfeylilərin ümumiləşdirilmiş obrazı yaradılmışdır.

Məstəli şah **hiyləgər, fırıldaqçı** bir dərvişdir. O, bildirir ki, bu işdən başqaları xəbər tutsa, guya cadunun təsiri olmaz.

Məstəli şahın həqiqi siması isə öz köməkçisi **Qulaməli** ilə söhbətində açılır. Məstəli şah deyir: "Bu böyük xanım bu iş üçün mənə 100 təzə bacaqlı verəcəkdir və 10 gün də cadunun əsər etməsi üçün vaxt var. Bir adam da bu sirri bilmir və bilməyəcək də. Bacaqlıları alandan sonra əl-ayaq açıb, 10 günə qədər özümü Arazın o tayına sala bilərəm. Məni orada kim tapacaqdır? Məndən sonra hər nə olacaqsa, olsun".

Məstəli şah **qadınların avamlığına istehza** edərək deyir: "Bu qadın tayfası nə yazıq və sadəlövhdürlər, düşünüb-daşınmadan inanırlar ki, mən Qarabağda oturub, Pariji bir anda alt-üst edəcəyəm və ya mənim mərrixim Arazın o biri tərəfində müsyö Jordanın boynunu vura bilər".

Dramaturq Məstəli şahın daxili mahiyyətini öz dili ilə tənqid edərək Azərbaycanda çox yayılmış yalançı, fırıldaqçı, hiyləgər dərvişləri ifşa edir.

**Qadın** surətləri: **Şəhrəbanı, Şərəfnisə və Xanpəri**. Bu qadınlar da gülüş hədəfi olmalarına baxmayaraq, müəllif onlara rəğbət bəsləyir, onların mənəvi keyfiyyətlərini, daxili saflıqlarını təqdir edir.

**Şərəfnisə** təmiz ürəkli, sadəlövh bir qızdır, Şahbaz bəyi dərin məhəbbətlə sevdiyinə görə onu qısqanır. O, nişanlısının qızlarla oğlanların bir məclisdə oturduğu, rəqs etdiyi Paris şəhərinə getmək istədiyini bildikdə iztirab çəkir və ağlayır. Guya

Şahbaz bəy “firəng qızlarının havasına yellənib uçur”. Əslində isə Şərəfnisə Şahbaz bəyin istək və ehtiraslarını görə bilmir.

**Şəhrəbanu xanım** sadə, açıqürəkli və avam bir qadındır. O da daxilən saf və təmizdir. Buna görə də Şahbaz bəyin Qarabağdan çıxmasına razı ola bilmir. Ancaq Şəhrəbanu xanım qızı Şərəfnisə kimi göz yaşı tökmür, Şahbaz bəydən məsələnin məğzini öyrənib əri Hatəmxan ağaya bildirir. Şəhrəbanı xanım Hatəmxan ağadan Şahbaz bəyin başına ağıl qoymağı tələb edir. Ərinin qətiyyətsizliyini gördükdə isə özü fəaliyyətə başlayır və istədiyinə nail olur.

Şahbaz bəy Parisə gedə bilmir. Beləliklə, qadınların öz aldandıqlarını dərk etməmələri pyesin gülüş doğuran mahiyyətini təşkil edir.

**Müsyö Jordan** surəti. Azərbaycan dramaturgiyasında **ilk qərbli obrazıdır**. O, Məstəli şaha qarşı dayanan nəbatat alimidir və müəyyənləşdirir ki, Alp dağlarında, Amerika və Afrikada yetişdiyi güman edilən dərman bitkilərinin çoxu Qarabağda mövcuddur.

Müsyö Jordan Hatəmxan ağanın ailəsinə hörmətlə yanaşır, Şahbaz bəylə dostluq edir və **vətənpərvərdir**. Onun Şahbaz bəyə fransız dilini və fransız adət-ənənələrini öyrətmək təşəbbüsü bunu təsdiq edir. Bundan başqa onun inqilab xəbərini eşidən kimi özünü Parisə çatdırmaq istəyi də vətənpərvərlikdən doğur.

**Hatəmxan ağa** surəti. Təklə-Muğan obasının mülkədarıdır, müsbət surətdir. Dramaturq onun simasında XIX sərin 40-ci illərində yaşayan **mülkədarların səciyyəvi xüsusiyyətlərini** ümumiləşdirmişdir.

Hatəmxan ağa **ağıllı və fərasətlidir**, öz təsərrüfatını bacarıqla idarə edir, yaxşı ailə başçısıdır, qonaqpərvərdir, müasirliyə, təhsilə meyillidir, qardaşı oğlu Şahbaza ərəb, fars və rus dillərində savad vermişdir. Lakin **köhnə dədə-baba qaydaları** ilə yaşayır. Onun dünyəvi elmlər, xüsusilə Avropa ölkələri haq-

qında təsəvvürü azdır. O, belə düşünür ki, fransız xalqının həyat tərzini öyrənmək üçün orada yaşamaq vacib deyil və bunun üçün müsyö Jordanı dinləmək kifayətdir.

Hatəmxan ağa fransızlarla azərbaycanlıları belə fərqləndirir: "Bizdə hər nə adət və xasiyyət var isə əksi Parij əhlindədir. Məsələn, biz əlimizə həna qoyuruq, firənglər qoymazlar, biz başımızı qırxırıq, onlar başlarına tük qoyarlar, biz papaqlı oturarıq, onlar başaçıq otururlar, biz başmaq geyərik, onlar çəkmə geyərlər, biz əlimiz ilə xörək yeyərik, onlar qaşıq ilə yeyərlər, biz aşkara peşkəş alarıq, onlar gizli alarlar, biz hər zada inanırıq, onlar heç zada inanmazlar, bizim arvadlarımız gödək libas geyər, onların arvadları uzun libas…"

**Şahbaz bəy** surəti. Şahbaz bəy **müsbət** surətdir. Onun simasında **yeni həyat tərzi** barədə düşünən və **Qərb mədəniyyəti** ilə tanış olmaq istəyən gənclərin xüsusiyyətləri ümumiləşdirilmişdir.

Şahbaz bəy Hatəmxan ağanın qardaşı oğludur. Parisə gedib fransız dilini öyrənmək istəyir. Burada iki səbəb vardır:

**1)** özünün "qamışlıq" adlandırdığı süst mühitdən uzaqlaşmaq

**2)** ad-san qazanmaq. O, bu barədə nişanlısı Şərəfnisəyə deyir: 2Mənim tay-tuşlarım tamam mərifət sahibi olub, qulluq edib, hörmət-izzət tapıb, xoşbəxt olublar. Mən qalmışam elə bu qamışlıqda adsız, sansız".

1948-ci il Fransa inqilabı Şahbaz bəyin arzusunu gözündə qoyur və Parisə gedə bilmir. Şahbaz bəy Azərbaycan dramaturgiyası tarixində avamlar mühitinə qarşı çıxan və qabaqcıl dünya mədəniyyəti ilə maraqlanan gəncləri təmsil edən ilk surətdir.

**Əsərin bədii xüsusiyyətləri**. Komediya 4 məclisdən ibarətdir və ciddi bədii xüsusiyyətlərə malikdir. Əsərdə hadisələr ardıcıl və canlı təsvir olunur. Komediyanın oxucuları intizarda saxlayan dramatik süjeti və yığcam kompozisiyası vardır.

Əsərin dili canlı və koloritlidir. Dramaturq surətləri bir-birindən onların nitqi, danışığı vasitəsi ilə fərqləndirir. Komediya yazıldığı vaxt rus dilinə tərcümə edilmiş və "Kafkaz" qəzetində çap edilmişdir. Əsər **1852**-ci ildə Sankt-Peterburqda ailə teatrında göstərilmişdir. Sonralar Azərbaycan, Qafqaz, Rusiya, İran, Türküstan və Dağıstanda tamaşaya qoyulmuşdur.

Xalq yazıçısı Elçin əsərin motivləri əsasında ssenari yazmış və "Dərviş Parisi partladır" filmi çəkilmişdir.

**"ALDANMIŞ KƏVAKİB" povesti** (1957). Yeni tipli nəsrin və **povest** janrının **ilk** nümunəsidir. İkinci adı belədir: **"Hekayəti-Yusif şah"**

Povestin **məzmunu** İsgəndər bəy Münşinin 1 Şah Abbasın hakimiyyətindən bəhs edən "Tarixi-aləmarayi-Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") kitabından götürülmüşdür. Həmin kitabda deyilir ki, münəccim mövlana Cəmaləddin Yəzdi bir gün iki ulduz – Mərrix ilə Əqrəb bir-birinə yaxınlaşaraq İrana və onun şahına bədbəxtlik gətirəcəyini şaha xəbər verir. Bundan xilas olmaq üçün 3 günlüyə hakimiyyətdən əl çəkmək və cəzaya layiq olan adamı səltənət başına gətirmək qərarı verilir. Bu zaman çöp atırlar və çöp Yusif Sərraca düşür. Şah Abbas səltənətdən əl çəkir, öz xidmətçiləri ilə gizlənir və Yusif Sərracın başına tac qoyur, ona şahlığa layiq paltar geyindirir, onu dəvəyə mindirib əmirlərin və ordunun müşayiəti ilə şahlıq mənsəbinə gətirirlər. 3 gün sonra Yusifin evində axtarış aparıb şərab tapırlar və onu dinsiz kimi cəzalandırıb edam edirlər.

Povestin mərkəzində bu tarixi əhvalat dayansa da, M.F.Axundzadə həmin hadisəni öz maarifçilik ideallarına uyğunlaşdıraraq müasir bir əsər yaratmışdır. Povestin **ideyası:**

**1)**Şərq istibdad üsuli-idarəsinin eybəcərliklərini göstərmək

**2)**keçmiş dövlət başçılarının və məmurların özbaşınalığını ifşa etmək

**3)**gələcək nəsillərə ibrət dərsi vermək

**Şah Abbas** surəti. Povestdə əsas **tənqid hədəfi** Şah Abbasdır. O, ölkənin müqəddəratını düşünməyən, əhalinin qayğısına qalmayan, günlərini eyş-işrətlə keçirən nadan və qabiliyyətsiz bir padşahdır. Ölkədə ticarət pozulmuş, körpülər, karvansaralar uçulub dağılmış, şəhərlər, kəndlər viran olmuş, ədalətsiz məmurlar isə əhaliyə zülm etməklə məşğuldurlar.

Şah Abbas **despotdur** və hakimiyyəti əldə saxlamaq üçün aşağıdakı tədbirləri görür:

**1)**İnsanları dar ağacına çəkir.

**2)**Onları şaqqalatdırıb qala qapısından asdırır.

**3)**Oğlanlarından birini öldürür, digərinin isə gözünü çıxartdırır.

Şah Abbas **nadandır**, bu, aşağıdakılarla təsdiq olunur:

**1)**Ölkənin idarə olunması işini bacarıqsız adamlara tapşırmışdır.

**2)**Öz ətrafına ikiüzlü, yaltaq adamları toplamışdır. Onların ucbatından xəzinə tükənir, əhalinin vəziyyəti isə getdikcə pisləşir.

Dramaturq Şah Abbasın xarakterini açmaq üçün saray əyanlarının özlərinin eybəcərliyini göstərmək vasitəsindən istifadə edir. Məsələn, vəzir Mirzə Möhsün xalqdan uzaq və rüşvətxor bir vəzifə sahibidir. O, ölkənin maliyyə işlərinə rəhbərlik edir, məmurlardan müxtəlif bəhanələrlə peşkəş alır və vəzifələri varlı adamlara satır. Beləliklə, rüşvətxorluq və soyğunçuluğun sayı artır.

Ümumiyyətlə, povestdə vəzir **Mirzə Möhsün,** qoşun başçısı **Sərdar Zaman xan,** mollabaşı **Axund Səməd,** münəccimbaşı **Mirzə Sədrəddin** kimi mənsəb sahiblərinin – **ağılsız, bacarıqsız** və **gülünc** adamların fəaliyyəti Şah Abbas hakimiyyətinin daxili mahiyyətini açır və bu hakimiyyətin despot xarakterini tam şəkildə nümayiş etdirir.

**Yusif Sərrac** surəti. Yusif Sərracın simasında M.F.Axundzadənin maarifçi ideallarına uyğun olaraq **ağıllı, uzaqgörən və ədalətli şah** surəti yaradılmışdır. O, feodal hakimiyyətinin əleyhinədir. Başqa surətlərlə müqayisədə Yusif Sərrac haqqında geniş məlumat verilir.

**Yusif Sərrac kimdir?**

Dindar və mömin bir kəndli ailəsində böyüyən Yusif Sərracı atası ruhani etmək istəmiş və ona görə **Qəzvin** şəhərində oxutdurmuşdur. Sonra **İsfahan** və **Kərbəlada** təhsilini davam etdirərək dini elmləri öyrənmiş, lakin kələkbaz ruhanilərdən uzaq olmaq üçün "özünü onların zümrəsinə daxil etmək" fikrindən daşınmışdır. Həmədana gələrək Xəlil adlı bir ustadan at yəhəri düzəltmək (sərraclıq) sənətini öyrənmiş və işləmək üçün Qəzvinə qayıtmışdır.

Əyanların Yusif Sərracdan xoşları gəlmədiyi üçün onu Şah Abbasın əvəzinə taxt-tac sahibi seçirlər ki, ulduzların xətası ona toxunsun. Taxta çıxan Yusif Sərracın ***islahatları*:**

1) Rüşvətxor, yaltaq, satqın vəzirləri zindana salır

2) Onların vəzifəsini namuslu adamlara tapşırır

3) Münəccimbaşılığı tamam ləğv edir

4) Hər vilayətə xüsusi baxıcılar göndərir

5)Vilayət hakimlərinə tapşırır ki, heç kəsə nahaq cəza verməsinlər.

6) Yeni vergi qanunları çıxarır, hakim təbəqə üzvlərindən də vergi alınması barədə qərar çıxarır. Kəndlilərdən vergi alınmasını tamam ləğv edir, şəhər əhalisi üçün isə verginin miqdarı gəlirlərin onda biri qədər müəyyən edilir.

7)Abadlaşdırma işləri görür: xiyabanların genişləndirilməsi və səliqəyə salınması haqqında göstəriş verir, şəhərin küçələrini çirkli saxladıqları üçün kəndxudaları vəzifədən qovur. Dağılmış yolları, körpüləri düzəltdirir, susuz yerlərə su çəkdirir,

karvansaralar, məktəblər, xəstəxanalar tikmək barədə sərəncam verir.

8) Maarifləndirmək işinə başlayır: köhnə ərəb əlifbasının təkmilləşdirilməsi fikrini irəli sürür

9) Yetimlərə, şikəstlərə və korlara ianə paylatdırır.

Yusif şahın **2 həftəlik şahlığı** İran üçün "səadət əyyamı"na çevrilir. Lakin zülmə öyrənən əhali "yaxşı günə dözmür". Bundan istifadə edən fitnəkarlar xalqı üsyana qaldırıb Yusif Sərracı taxtdan salırlar.

**Povestin bədii quruluşu və dili**. Şərq despotizminin tənqidini verən povest bədii xüsusiyyətləri, fabulası, süjet və kompozisiyası baxımından yüksək sənət əsəridir. Əsərdə tarixi əhvalat müasir həyatla, mifik təfəkkür real hadisələrlə əlaqələndirilmişdir. Povestin aydın bir təhkiyəsi vardır. Obrazların özünəməxsus keyfiyyətləri onların söhbətlərində və qarşılıqlı münasibətlərində açılır.

Fabulanı təşkil edən hadisələrin bir qismi Şah Abbas, ikinci qismi isə Yusif Sərracla bağlı cərəyan edir. Buna görə də povestin **fabulası** iki hissəyə bölünür:

**I hissə:** Mirzə Sədrəddinin ulduzların Novruzdan 15 gün sonra toqquşacağından şaha xətər yetiriləcəyi barədə Şah Abbasa xəbər verməsi ilə başlayıb, Yusif Sərracın hakimiyyətə gətirilməsi ilə tamamlanır.

**II hissə:** mollabaşı Axund Səmədin Yusif Sərrac haqqında məlumatı ilə başlayıb onun taxtdan salınması, itkin düşməsi ilə davam edir və köhnə şahın öz yerinə qaytarılması ilə sona çatır.

**NƏTİCƏ:** "Aldanmış kəvakib" povesti XIX-XX əsrlərdə milli ədəbiyyatın inkişafına faydalı təsir göstərmiş, **Z.Marağayi, M.Ə.Talıbov, S.M.Qənizadə** kimi yazıçılar həmin əsərdən bəhrələnmiş və yeni bədii nəsr nümunələri yaratmışlar.

# SEYİD ƏZİM ŞİRVANİ (1835-1888)

## HƏYATI

**1835**-ci il iyul ayının 10-da **Şamaxı** şəhərində doğulmuş, atası vəfat etdiyindən 7 yaşından anası Səkinə xanımın himayəsində olmuşdur. Uşaqlıq və yeniyetməlik dövrünün 11 ilini isə **Dağıstanda** – Yaqsay kəndində ana babası Molla Hüseynin himayəsində keçirmişdir. O, burada ibtidai təhsil almış, ərəb və fars dillərini, bir neçə Dağıstan ləhcəsini öyrənmişdir.

**1853**-cü ildə anası ilə birgə Şamaxıya qayıtmışdır. Dini biliyini dərinləşdirmək üçün **Bağdada** gedərək bir neçə il orada yaşamış, sonra isə **Şama** köçmüşdür.

**1857**-ci ildə vətənə qayıtmış, az sonra yenə səfərə çıxmışdır. **Məkkə** və **Mədinədən** keçərək **Misir** və **Suriyanı** səyahət etmişdir. 50-ci illərin sonlarında geriyə qayıtdıqdan sonra dini-sxolastik elmlərin faydasızlığını anlayaraq ruhani olmaq fikrindən əl çəkir və yeni üsullu bir məhəllə məktəbi açıb maarifçilik işi ilə məşğul olur.

**1875-**ci ildə "Əkinçi" qəzeti nəşrə başladıqda onu sevinclə qarşılamış, bəzi şeirlərini orada çap etdirmiş, "Əkinçi" bağlandıqdan sonra isə şeirlərini və müxbir məktublarını "Ziya" və "Ziyayi-Qafqaziyyə" qəzetlərinə göndərmişdir.

**1877**-ci ildə Şamaxı məktəbinə **Azərbaycan dili və şəriət müəllimi** düzəlmiş, qısa fasilə ilə ömrünün sonuna qədər həmin vəzifədə çalışmışdır. Burada işləyərkən şagirdlərə müasir ruhda yazdığı şeirlərini və Nizami, Sədi, Hafiz, Füzuli kimi böyük Şərq klassiklərindən etdiyi tərcümələri oxuyurdu. Bu əsərlərdə zülm və özbaşınalıq pislənir, maarifə və azadlığa rəğbət oyadılırdı.

**1878**-ci ildə **"Rəbiül-ətfal"** ("Uşaqların baharı") dərsliyini tamamlayır.

**1879**-cu ildə S.Ə.Şirvani "siyasi cəhətdən şübhəli müəllim" kimi ittiham olunaraq vəzifədən azad edilir. Şair Tiflisə şikayətə gedib günahsız olduğunu sübuta yetirir və yenidən öz vəzifəsinə qayıdır.

Tiflisə gedərkən yolüstü Gəncədə Nizaminin qəbrini ziyarət edir və dağılmış məzarını görüb təəssüf hissi ilə deyir:

Ey Şeyx Nizami, ey nizamı dağılan,
Ey Gəncədə izzü ehtişamı dağılan,
Olmuşmu səninlə mən kimi aləmdə
Beyti, evi, məktəbi, kəlamı dağılan?

Bir az sonra isə onun əleyhdarları şairin şəxsi məktəbini bağlatdırırlar. Ancaq bu, onun iradəsini sındıra bilmir. Əksinə S.Ə.Şirvani pedaqoji fəaliyyətini daha geniş şəkildə davam etdirir.

**1887**-ci ildə maarif sahəsindəki xidmətlərinə görə "**Za userdiye" medalı** ilə təltif olunur. Lakin medal üçün tələb olunan 7 manat 50 qəpiyi tapa bilməmiş, yalnız ölümünə 10 gün qalmış medalı ala bilmişdir.

**1888**-ci il may ayının 20-də vəfat etmiş və vəsiyyətinə əsasən Şamaxının Şaxəndan qəbiristanlığında dəfn olunmuşdur.

## YARADICILIĞI

S.Ə.Şirvaninin bədii yaradıcılığının üç istiqaməti vardır:

**1) lirik şeirləri**

**2) satirik şeirləri**

**3) epik əsərləri – mənzum hekayə və təmsilləri**

Bütün bunlarla yanaşı, şairin ədəbiyyat tarixində mühüm əhəmiyyətə malik başqa bir yaradıcılıq istiqaməti də vardır:

**4) ədəbiyyatşünas – təzkirəçi**

S.Ə.Şirvani XIX əsr Azərbaycan ədəbiyyatında qəzəl ustadı kimi tanınır, Füzulinin davamçısıdır. Əsərlərini yalnız klassik şeir üslubunda, əruz vəznində yazmışdır.

S.Ə.Şirvaninin istifadə etdiyi **janrlar**:

**1)** lirik şeirlər **-qəzəl, -qəsidə, -qitə, -rübai, -müxəmməs, -müsəddəs, -müstəzad, -tərcibənd, -tərkibbənd**

**2)** didaktik əsərlər – bunlar **məsnəvi** formasındadır: **-mənzum hekayə, -təmsil, -öyüd, -nəsihət**

**LİRİK ŞEİRLƏRİ**. Şairin lirikasının iki istiqaməti vardır:

**1) məhəbbət** motivli şeirləri **2) ictimai-fəlsəfi** motivli şeirləri.

**Məhəbbət motivli şeirləri.** Şairin lirikasının əsasını **məhəbbət** mövzusu təşkil edir. Bu mövzulu şeirlərin başlıca olaraq iki lirik surəti vardır: **Aşiq** və **Məşuqə.**

**Aşiq nikbin**, öz məhəbbətinə **sadiq** bir gəncdir. Aşiq bəzən sevgilisinin etinasızlığından peşmançılıq çəksə də, şikayətlənsə də, öz məhəbbətindən geri dönmür. Aşiq öz Məşuqəsini dünya nemətlərindən üstün tutur, bütün gözəllərin şahı hesab edir.

**Məşuqə** qadına məxsus ən yaxşı sifətləri özündə cəmləşdirir. Onun **xarici – zahiri gözəlliyi ilə daxili-mənəvi saflığı** arasında vəhdət vardır. Üzü günəş, gözləri nərgiz, dodaqları yaqut, ağzı isə qönçə kimi təsvir olunan Məşuqə həm də tərbiyəli və əxlaqlı bir qızdır. Vəfa, sədaqət və doğruluq onun əsas mənəvi keyfiyyətləridir. Onun ən böyük idealı təmiz sevgi və həqiqi məhəbbətdir.

**“NECƏ HƏMTAY TUTUM HƏR BÜTİ-ZİBAYƏ SƏNİ” qəzəli**. Qəzəl yeddi bənddən ibarətdir və **Aşiqin dilindən söylənir** və gözəllik tərənnüm olunur. Aşiq vurulduğu gözəli yalnız bəşər övladından deyil, əfsanəvi bütlərdən də cazibədar sayır. Aşiq sevgilisini **Aydan** üstün tutur:

Necə həmtay tutum hər büti-zibayə səni?
Verməyəm, tanrı bilir, cümlə bu dünyayə səni.
Qorxuram ki, nəzər əhli deyə naqisdi bu söz,
Oxşadam hüsndə hərçənd tamam aya səni.

Şeirdə tərənnüm olunan gözəlin yanaqları gün kimi parlaq və işıqlıdır. Əgər mələklər onu göylərə qaldırsa, bütün aləm nura boyanar.

Dirilik suyu axtaran əfsanəvi **Xızır** onu görsə, axtardığını tapmış olar, **İsa peyğəmbər** onu görsə, günəşi arzulamaz:

Arizin gün əvəzi, aləmi nurani edər,
Gər mələklər çəkələr ərşi-müəllayə səni.
İstəməz abi-bəqa Xızrü Məsiha xurşid,
Göstərə bir kəs əgər Xızrü Məsihayə səni.

Məşuqə həm də zərif və nəzakətli bir qızdır. Onu hətta gül budağının kölgəsi incidə bilər. Ona görə də Aşiq sevgilisini bəd nəzərlərdən, eyni zamanda gül budağının kölgəsindən qorunmağa çağırır:

Şaxi-gül qoyma sala sayə sənə bağ içrə,
Bu nəzakətlə, gülüm, incidir ol sayə səni.

Şeirdə Aşiqin Məşuqəyə münasibəti də aydın verilmişdir. O, böyük təvazökarlıq göstərərək özünü ona layiq bilmir. Aşiq səmimiyyətlə etiraf edir ki, tərənnüm olunan gözəlin məhəbbətini qazanmaq cənnət hurilərinin yanında yaşamaqdan daha xoşdur:

Nə edər arizuyi-hur, nə gülzari-behişt,
Versələr gərçi ki, bu Seyyidi-şeydayə səni.

"Necə həmtay tutum hər büti-zibayə səni" şeirində klassik ənənələrdən gələn **"büti-ziba", "ərşi-müəlla", "abi-bəqa"** kimi birləşmələr Azərbaycan dilinin doğma sözlərinə qovuşur. **Xızır, Məsiha** kimi dini-mifik adlar Məşuqənin gözəlliyini təqdim etmək üçün vasitəyə çevrilir. Yaddaqalan təşbeh və mübaliğələr vardır. Qafiyə və rədif fikrin aydın başa düşülməsinə xidmət edir.

Qəzəl əruz vəzninin **rəməl** bəhrində yazılmışdır: fəilAtün, fəilAtün, fəilAtün, fəilün,

**İctimai-fəlsəfi məzmunlu şeirləri.** Bu şeirlərdə zəmanədən narazılıq və şikayət ruhu vardır. Şair kədərlənir, çünki cəmiyyətdə təbəqələrə bölünmüş insanlar bir-birinə düşmən kəsilmiş, insan mənəviyyatı buxovlanmışdır. Bu, ictimai kədərin əlaməti idi. O, insanların vəfasızlığından, "bir əhli-hal" tapa bilməməsindən şikayətlənirdi:

Bir əhli-hal tapmadım aləmdə, ey könül,
Şamü səhər bu halətə bihalət ağlaram.

**ƏXLAQİ-DİDAKTİK ƏSƏRLƏRİ.** S.Ə.Şirvaninin XIX əsrin 70-80-ci illərində məktəb, əxlaq, tərbiyə, mədəniyyət mövzularında yazdığı şeirləri didaktik poeziyanın ən gözəl nümunələridir. Dünyagörüşü etibarilə **maarifçi** olan şair cəmiyyətin təkamül yolu ilə dəyişməsinə inanır və bu işdə insanların mənəvi-əxlaqi kamilləşməsini vacib hesab edir. Onun əxlaqi-didaktik əsərlərinin **ana xəttini** də məhz **maarifçilik** ideyalarının təbliği təşkil edir. "Əkinçi" qəzetində çap etdirdiyi şeirlərində geriliyi, cəhaləti pisləyir və millətin geridə qalmasının səbəblərini savadsızlıq və elmsizlikdə görürdü. Şair nadanlığı ictimai bəla hesab edir, ondan xilas olmaq yolunu elmdə və bilikdə tapırdı:

Dadü fəryad, ey güruhi-izam,
Oldu zaye bu milləti-islam.
Günü gündən zəlilü xar olduq,

Möhnətü qüssəyə düçar olduq.
Bu qədər dərd kim olur hadis,
Ona bielmlik olur bais.
Bir bəladır bu dərdi-nadani
Ki, onun elm olubdur dərmanı.

S.Ə.Şirvani "Əkinçi" qəzetinin redaktoru Həsən bəy Zərdabiyə göndərdiyi mənzum məktublarda mətbuatın faydası haqqında danışır, müasir mədəniyyətə yiyələnməkdə qəzetin rolunu yüksək qiymətləndirirdi və oxucuları "Əkinçi"nin nəşrinə kömək etməyə çağırırdı,

Bəs "Əkinçi" cəlalımızdı bizim,
Nasehi-xoşməqalımızdı bizim.
Səy edin, ey güruhi-niksifat,
Etməsin ta "Əkinçi" vəfat.

Şair qəzet bağlandıqdan sonra da bədii yaradıcılığında elmin, təhsilin səmərəsi, başqa dilləri öyrənməyin əhəmiyyəti barədə danışırdı.

**Mənzum hekayələr** S.Ə.Şirvaninin əxlaqi-didaktik əsərlərinin müəyyən hissəsini təşkil edir. Sayı 100-dən artıq olan bu mənzum hekayələrin çoxunu **Azərbaycan xalq nağıllarından, lətifə və rəvayətlərdən** istifadə yolu ilə qələmə almışdır. Qalanların bir hissəsi aşağıdakı əsərlərdən iqtibas edilmişdir:

**1)N.Gəncəvi. "Sirlər xəzinəsi".**

**2)N.Gəncəvi. "İqbalnamə".**

**3)Sədi. "Gülüstan"**

**4)Sədi. "Bustan"**

**5)Cəlaləddin Rumi. "Məsnəvi" – "Musa və çobanın hekayəti"** bu "Məsnəvi"dəndir.

**SATİRALARI.** Məşhur satirik kimi tanınan S.Ə.Şirvani "xalqın qanını şişə tutan" çar çinovniklərinə, mülkədar və bəylərə, təriqət başçılarına etiraz etmiş, onları kəskin satira atəşinə tutmuşdur.

**1) "Əkinçinin hadisəsi", "Padşah və əkinçi", "Şamaxının yeni bəyləri haqqında həcv", "Şamaxının yeni vəziyyətindən şikayət", "Şamaxı-Şirvan bəylərindən Əli Əsgər bəyə şikayət"** adlı satirik əsərlərində əhalini "qurd kimi soyanlar" – **xan, bəy, rəis, qazi, məhkəmə üzvləri, vəkil, polis** və s. "sahibi-ixtiyarlar" tənqid və ifşa olunur.

**2) "Şirvanın təzə bəyləri"** adlı satirik əsərində **rüşvətxor çar məmurları**, onların **yerli əlaltıları** ifşa olunur. Əhalini aldadan **məhkəmə işçiləri** və şikayətçilərə kələk gələn **vəkillər** acı kinayə ilə təsvir edilir.

**3) "Tələbənin hadisəsi", "Müctəhidin təhsildən qayıtması", "Elmsiz alim", "Fəqih ilə oğlu", "Köhnə elmdən şikayət", "Avam ata ilə alim oğul"** şeirlərində dini və şəriəti quldurluq silahına çevirmiş **yalançı ruhani və müctəhidlərin** ümumiləşdirilmiş surəti yaradılmışdır.

**4) "Köpəyə ehsan", "Allaha rüşvət", "Yerdəkilərin göyə şikayəti", "Riyakar abid", "Münəccimlər yalançıdırlar", "Dəli şeytan"** satirik şeirlərində isə t**ipik ruhani surətləri** qələmə alınmışdır. Eyni zamanda müxtəlif mövzularda yazılan bu satirik şeirlərin **ana xəttini** xalqın avamlığından istifadə edərək onları aldadan **molla, vaiz, müctəhid, axund və tələbələrin** fırlıdaqçılığının tənqidi tutur.

Şair satirik şeirlərində **xalq danışıq dilinə** çox yaxınlaşır. Aşağıdakı nümunələr buna sübut ola bilər: "Dedilər kim, at ölüb, itlərə oldu bayram", "Eylə kəs var ki, çox yaxşıdır ondan eşşək", "Yekə bəylər pul alıb bir neçə alçaq bəydən", "Pul ki, gəldi araya, bardağa səhəng dedilər", "Gühən atlar necə ki, arpa qapar eşşəkdən", "Tikdi hakim bizə hər həftədə bir sarsağı", "Yaxşı eşşəkdi, vəli yoxdu onun palanı", "Nənəsi saxlar idi bir sürü Təbriz toyuğu", "Gözü göy, burnu yekə, boyu uzun, saqqalı ağ" və s.

**SƏNƏTKARLIĞI.** Klassik poeziya ənənələri əsasında yazan S.Ə.Şirvaninin başlıca sənətkarlıq keyfiyyəti əsərlərindəki məzmun zənginliyidir. Aşiqin və duyğularının təsviri, Məşuqənin zahiri gözəlliyinin tərənnümü, həyatın mahiyyəti, yaşamağın mənası, zahidin zövqsüzlüyü, meyxananın tərifi, məscidin tənqidi və s. onun lirik şeirlərinin mövzularıdır. Əxlaqi-didaktik əsərləri və satiraları isə onun yaradıcılığının məzmun dairəsini daha da genişləndirir

Onun əsərlərinin forma xüsusiyyətləri də xeyli əlvandır. Şair bədii sözü məharətlə seçir, insanın hiss və duyğuları zəngin məcazlarla təqdim edir, təşbeh, istiarə, cinas, eyham kimi bədii təsvir və ifadə vasitələrini yerli-yerində işlədir.

# AŞIQ ƏLƏSGƏR (1821-1926)

## HƏYATI

Aşıq Ələsgər 1821-ci ildə **Göyçə mahalının Ağkilsə** kəndində anadan olmuşdur. Atası Alməmməd kişi Ağkilsə kəndinin hörmətli şəxslərindən sayılırdı və əsas məşğuliyyəti əkinçilik və dülgərlik idi. Eyni zamanda bədahətən şeir demək məharəti vardı. Ara-sıra qoşma, gəraylı, bayatı söyləyərdi.

Aşıq Ələsgər təhsil ala bilməmişdi. Kiçik yaşlarından mollaların hədislərinə, dərvişlərin nağıllarına, aşıqların dastanlarına həvəslə qulaq asardı. O, sənətin sirlərini el sənətkarlarından öyrənmişdi.

Onun ustadı Aşıq Alı olmuşdur. Aşıq Alı şagirdinin nüfuzunu qaldırmaq üçün məclislərin birində qəsdən ona uduzmuş, sazını Ələsgərə təslim etmək istəmişdir. Ələsgər isə ona belə cavab vermişdir:

Bir şəyird ki ustadına kəm baxa,
Onun gözlərinə qan damar, damar.

Bundan sonra Ələsgərin səsi hər tərəfə yayılmış və onu İrəvana, Şərilə, Naxçıvana, Qazağa, Qarabağa, Cavanşir ellərinə, Gəncəyə, Kəlbəcərə məclislərə çağırmışlar. Aşıq Ələsgər yalnız Azərbaycanda deyil, Türkiyədə, İranda, Dağıstanda da tanınmışdır.

Aşıq Ələsgərin zahiri görkəmi də sanki aşıq sənəti üçün biçilmişdi. Onun uca boyu, enli kürəyi, qalın çatma qaşları, dolu sifəti, iri burnu var imiş. Əyninə uzun ətəkli arxalıq, üstündən çuxa, ayağına məst geyər, başına buxara papaq qoyar, saqqal saxlarmış. Sazı sol əli ilə çalarmış.

Aşıq Ələsgər şagirdləri ilə həmişə fəxr etmişdir:

Adım Ələsgərdi, mərdi-mərdana,
On iki şəyirdim işlər hər yana.

**1918-1919**-cu illərdə daşnaklar Göyçə mahalının var-yoxunu talamış, bu zaman digər ailələr kimi Aşıq Ələsgər də öz ailəsi ilə birlikdə arvadı Anaxanımgilin kəndinə – Yanşağa köçməyə məcbur olmuşdur. Bundan sonra o, həmişə Sarınər, Murov, Muşov dağları, Xaşbulaq yaylaqları üçün darıxmışdı.

**1921**-ci ildə Ağkilsəyə qayıda bilmiş və ömrünün sonuna qədər doğma kəndində yaşamışdır. Tez-tez keçmiş günləri xatırlamış, dünya, həyat barədə düşünüb kədərlənmişdi:

Səksəni, doxsanı keçibdir yaşım,
Əzrayıl həmdəmim, məzar yoldaşım.
Gor deyə tərpənir bəlalı başım,
Daha köç təbilin çal, qoca baxtım.

**1926**-cı il mart ayının 7-də Aşıq Ələsgər vəfat etmiş və Ağkilsə qəbiristanlığında dəfn edilmişdir. Folklorşünaslar onun əsərlərini toplayıb nəşr etmişlər.

**1972**-ci ildə Aşəq Ələsgərin anadan olmasının 150 illiyi qeyd olunmuş, əsərlərinin ikicildlik elmi nəşri hazırlanmış və çap edilmişdir.

## YARADICILIĞI

Aşıq Ələsgərin lirikasının üç istiqaməti vardır:
1)məhəbbət mövzulu şeirlər
2)təbiət lirikası
3)ictimai motivli şeirlər.
İstifadə etdiyi **janrlar:**
**-qoşma, -gəraylı, -təcnis,**
**-müxəmməs,-müsəddəs,**
**-divani,-deyişmə**
Aşıq poeziyasına gətirdiyi yeni **janrlar:**
**-qoşma-müstəzad, -qoşayarpaq qoşma,**
**-cığalı təcnis, -ayaqlı təcnis,**
**-dildönməz, -diltərpənməz**

Aşıq Ələsgər yaradıcılığının əsas qolunu **məhəbbət** lirikası təşkil edir.

**1) Məhəbbət mövzulu şeirlər**. Aşığın sevgilisindən ayrı düşən lirik qəhrəmanı vüsal həsrəti ilə yanan və hicrandan üzü xəzan yarpağı kimi saralan bir gəncdir. O, həyatının mənasını sevgilisinə qovuşmaqda görür. Lakin arzusuna çata bilmir. Ona görə də həmdəmi hicran, işi "dərd alıb, qəm satmaq" olur:

Ala gözlüm, səndən ayrı düşəli
Hicranın qəmiylə kef eyləmişəm.
Ah-vayınan günüm keçib dünyada,
Dərd alıb, qəm satıb, nəf eyləmişəm.

Aşıq Ələsgər məhəbbət şeirlərində ədalətsizliyə və şərə qarşı çıxır, bütün sevənlərin bir-birinə qovuşub xoşbəxt yaşamasını arzulayır:

Fələk, mərdin işin salma müşkülə,
Əhli-dili yetir sən əhli-dilə.
Bülbülü gülə yaz, gülü bülbülə,
Qönçənin üstündə xar oynamasın.

Aşığın çoxlu gözəlləmələri vardır. El gözəllərinin tərifinə həsr edilmiş bu gözəlləmələrdə Azərbaycan qızlarının şuxluğundan və incəliyindən, lətafət və məlahətindən söhbət açılır. Gözəlin zahiri əlamətləri – yerişi, duruşu, oğrun baxışı aydın görünür, hətta gülüşünün səsi eşidilir. Onun parlaq üzü, gül yanağı, şölə saçan gözləri insanı heyran edir:

Qabaq ayna – çəkilibdi varağa,
Dodaq qaymaq, gül yapışıb yanağa.
Dolanır gözləri canlar almağa,
Şölə salır xanlıq fanarı kimi.

Aşəq Ələsgər tanıyıb vəsf etdiyi gözəlləri adları ilə təqdim edir və bu adları rədif kimi seçir, sərlövhəyə çıxarır: **"Bəyistan"**, **"Güləndam"**, **"Sarıköynək"**, **"Gülpəri"**, **"Müşgünaz"**, **"Telli"**, **"Maral"**, **"Xurşud"**. Ayrı-ayrı adamlara həsr edilməsi-

nə baxmayaraq, bu şeirlərdə də Azərbaycan qızlarının nəcib, heyranedici xüsusiyyətləri ümumiləşmişdir.

Aşıq Ələsgər ustad sənətkar kimi həqiqi gözəlin zahiri əlamətlərini bir-bir sayır və gözəlin portreti aydın görünür:

Hər yetən gözələ gözəl demərəm,
Gözəldə gərəkdi işvə-naz ola.
Buxağından ətri-bənövşə gələ,
Qoynu gülşən ola, bahar, yaz ola.

Aşıq Ələsgər də Vaqif kimi gözəli yerli etnoqrafik xüsusiyyətlərlə birgə təsvir etmişdir. Belə ki, şeirlərində tez-tez istifadə olunan "zər kəmər", "atlaz kürəcə", "ipək dizlik", "qanovuz don", "xara köynək", "qızıl həmayil", "Herat kəlağay", "şirmayı şana", "çit tuman", "xatəm corab", "gül başmaq", "gümüş kəmər", "darayı paltar" kimi ifadələr XIX əsrdə Azərbaycan qızlarının və gəlinlərinin istifadə etdiyi milli bəzək və geyimlər idi.

Aşıq Ələsgərə görə insan üçün ən yaxşı sifət **mərdlikdir**. Namus, qeyrət, xeyirxahlıq, düzlük, səxavətlilik mərdliyin əlamətləridir. Ona görə aşığın şeirlərində namərdlər pislənir:

Bu dünyanı mən təcrübə eylədim,
Namərd körpü salsa, onda ad olmaz.
Bir mərdinən ağı yesən şirindi,
Yüz namərdnən şəkər yesən, dad olmaz.

Aşıq **igidlik** haqqında da danışır və igid adamın konkret xüsusiyyətlərini də göstərir:

İgid odur, namusunu atmasın,
Dost ölüncə dosta yalan satmasın,
Bir baş ki, ilqara qurban getməsin,
Onu bir qarpıza dəyişmək olar.

Aşıq Ələsgərin lirik şeirlərinin bir qismi **təcnis** janrındadır. Eyni səs tərkibinə malik müxtəlif məzmunlu sözləri qafiyə və rədif yerində işlətməklə nadir cinaslar yaradan aşığın

ustalığına söz ola bilməz. Aşığın təcnislərinin çoxu məhəbbət mövzusundadır. Cinas qafiyələr vasitəsilə lirik qəhrəmanın daxili aləminin daha dərindən açılması aşağıdakı təcnislərdə müşahidə olunur: "Ay üzə-üzə", "A yana-yana", "Dal-dala", "De bir üz, bir üz", "Çataçat", "Nə yaxşı-yaxşı", "Narın üz".

Qeyd olunduğu kimi, Aşıq Ələsgər aşıq şeirinin **dodaqdəyməz, cığalı təcnis, müstəzad təcnis,** yaxud **ayaqlı təcnis** adlı ən çətin növlərini də yaratmışdır. Qoşadodaq samitlərinin (**m, b, p**) işlənmədiyi **dodaqdəyməz** təcnislərdən bir nümunəyə diqqət edək:

Qışda dağlar ağ geyinər, yaz – qara,
Sağ dəstinlə ağ kağıza yaz qara.
Əsər yellər, qəhr eləyər yaz qara,
Daşar çaylar, gələr daşlar çata-çat!

**2) Təbiət lirikası**. Aşıq Ələsgərin yaradıcılığında **təbiət gözəlliklərinin təsviri** xüsusi yer tutur. Onun yaradıcılığında güllü-çiçəkli təbiət insanın ilk məskəni – anası və beşiyi kimi mənalanır. Aşıq Ələsgərin şeirlərində **təbiət insanla vəhdətdə** götürülür. Bu vəhdət təbiətdəki gözəlliyi bütün cazibədarlığı ilə görməyə və duymağa imkan yaradır:

Axşam-sabah, çeşmə, sənin başına
Bilirsənmi, necə canlar dolanır?!
Büllur buxaq, lalə yanaq, ay qabaq,
Şahmar zülfü pərişanlar dolanır.

Aşığın şeirlərində **dağ obrazı** xüsusi yer tutur. Bunun əsas səbəbi budur ki, o, dağlar qoynunda doğulub və bütün ömrünü dağlar arasında keçirib. Dağlar ona ilham – şairlik bəxş edib. Hətta onun ilk sevgisi də, nakam məhəbbəti də bu dağlarda olmuşdur.

Aşıq Ələsgərin ayrı-ayrı şeirlərindəki bəzi misralardan başqa, **"Dağlar"** rədifli iki qoşması başdan-başa dağların tərənnümünə həsr edilmişdir.

**“DAĞLAR”** adlı **birinci** qoşmada dağların ayrı-ayrı **fəsillərdəki** görkəmi tərənnüm edilir. **Bahar – yaz** dağların güllü-çiçəkli, süsənli-sünbüllü vaxtıdır. Lakin aylar keçdikcə dağların görkəmi dəyişir. **Yayın** əvvəlində “xana dönür”, son ayında “yetkin bostana bənzəyir”. **Payızda** dağlar çiskinə, dumana bürünür, nahaq qan tökür. **Qışda** isə “zərnişan**”** paltarını soyunub “ağ xalata bürünür”.

Şeirdə təsvir olunan dağlar **əzəmətli, vüqarlı və ədalətli** olmasına görə də heyranedicidir. Dağlar onun qoynuna gələn varlını, kasıbı bir-birindən ayırmır. Onlar həm də kişilik rəmzidir; nə sərdara söz deyir, nə də şaha baş əyir.

**“DAĞLAR”** adlı **ikinci** qoşma da Vətən gözəlliklərinə həsr edilsə də, birincidən fərqli olaraq ikinci şeirdə **nisgil, təəssüf, qubar** əhvali-ruhiyyəsi var. XX əsrin əvvəllərində ermənilərin güclü soyqırımına məruz qalan Göyçə eli ilə birgə oradan köçməyə məcbur olaraq Kəlbəcərin Yanşaq kəndinə gələn Aşıq Ələsgər geriyə qayıdanda dağları görüb sazlı-sözlü ellər, çal-çağırlı günlər yadına düşür:

Hanı mən gördüyüm qurğu-busatlar?
Dərdməndlər görsə, tez bağrı çatlar.
Mələşmir sürülər, kişnəmir atlar,
Niyə pərişandı halların, dağlar?!

Lirik qəhrəmanın qəlbini ağrıdan bir də odur ki, igidlər məskəni, ərənlər yurdu olan dağlar indi boş qalıb, orada kişi nərəsi eşidilmir, ağır məclislər qurulmur. Daha kədərlisi budur ki, bu yerlərdə qılınc oynadan igidlər, hətta ilhamını dağlardan alan şair də vaxtilə burada duruş gətirə bilməyib gediblər.

**3) İctimai motivli şeirlər**. Ustad sənətkarın yaradıcılığında movcud cəmiyyəti tənqid edən, zülmü və istismarı pisləyən şeirlər də vardır. Əksəriyyəti ustadnamə, şikayətnamə, həcv, divani üstündə qoşulmuş bu şeirlər ictimai motivli şeirlərdir.

Onların **ideya-məzmununu** cəmiyyətdən narazılıq, zülmə və əsarətə etiraz təşkil edir.

**"ÇIXIBDI" rədifli qoşma**. Aşığın ən güclü ictimai şeirlərindən biridir. Bu şeirdə real faktlar əsasında cəmiyyətdəki sosial ədalətsizliklər əks olunmuşdur.

Şeir **xalqa müraciətlə** başlayır. İlk bənddə xəyanətin çoxaldığı, insanlar arasında insafın, mərhəmətin azaldığı barədə məlumat verilir. Zəhmət adamının əməyi istismar olunur, onların gördükləri iş layiqincə dəyərləndirilmir:

Ay həzarat, gəlin sizə söyləyim,
Bu dünyanın xəyanatı çıxıbdı.
İnsaflar azalıb, mürvət gödəlib,
Qazıların mazarratı çıxıbdı.

Sonrakı bəndlərdə ictimai zorakılıq tənqid olunur. Ölkədə hərc-mərclik ayaq tutub yeriyir. Gücsüzlər hər yerdə təhqir olunur, insan yerinə qoyulmurlar.

Hökumət məmurları, pristav və naçalnik də kəndlilərə divan tuturlar. Onlar zəhmətkeş insanların hüquqlarını müdafiə etməli olduqları halda, əhalidən xərac yığır və verə bilməyəni döyürlər:

Pristav, naçalnik gələndə kəndə,
Obanı, oymağı vururlar bəndə,
Xərc üstə çoxları düşdü kəməndə,
Qamçıda belinin qatı çıxıbdı.

"Çıxıbdı" rədifli şeirdə **ictimai bərabərsizlik** aydın və açıq göstərilir.

**"GÖRMƏDİM" rədifli qoşma.** İctimai-əxlaqi məzmunlu şeirlərindən biridir. **Müdrik bir insanın dilindən söylənir**. Şeirdə aşığın cəmiyyət üzvlərinin hamısında görmək istədiyi, lakin görə bilmədiyi keyfiyyətlər sadalanır. Yəni vəfasız, etibarsız adamlarda düzlük görmək mümkün deyil, **namərd kəslərdə namus, qeyrət axtarmaq əbəsdir**:

Bivəfanın, müxənnətin, nakəsin,
Doğru sözün, düz ilqarın görmədim.
Namərdin dünyada çox çəkdim bəhsin,
Namusun, qeyrətin, arın görmədim.

Lirik qəhrəmanın qənaətinə görə söyüd ağacından salınan bağa çəkilmiş zəhmət hədər olduğu kimi, **namərdlə dostluq etmək də əhəmiyyətsizdir**. Başqa sözlə, söyüd bağından meyvə, namərddən də fayda və xeyir olmaz:

Namərdi özümə mən dost eylədim,
Yolunda canıma çox qəsd eylədim,
Söyüddən bağ saldım, peyvəst eylədim,
Almasın, heyvasın, narın görmədim.

Aşıq Ələsgərin "Görmədim" qoşması lirik qəhrəmanın **faciəvi monoloqudur**. Onu sarsıdan amillərdən biri də aldanışlarıdır. Lirik qəhrəman nəfsə uyaraq faydasız kolları gülüstan kimi bəsləyib, vəfasız, unutqan adamların qayğısını çəkib.

Aşıq Ələsgərin "Görmədim" qoşması **vəfasız, namərd adamların daxili-mənəvi eybəcərliyi**, cəmiyyətdəki neqativ halların sənətkarda doğurduğu **təəssüf hissləri** inikas olunmuşdur.

**Bədii sənətkarlığı.** Azərbaycan dilinin poetik imkanlarından tam şəkildə bəhrələnmişdir. Aşıq Ələsgəri sözlə işləyən **portret ustası** da adlandırmaq olar. Belə ki, təsvir etdiyi gözəl bütün incəlikləri ilə görünür:

Gümüş kəmər, incə belli,
Ağ biləkli, nazik əlli,
Ay qabaqlı, siyah telli,
Ürəyimi üzən gözəl.

Aşıq Ələsgərin seçib işlətdiyi sözlər, ifadələr həm təsvir etdiyi Gözəlin, həm də Aşiqin psixolji aləmini və əhvali-ruhiyyəsini tam şəkildə canlandırır.

**Gözəl** üçün seçilən ifadələr:

“Tərlan tamaşalı, maral baxışlı”,
“Bağçalar bülbülü, göllər sonası”,
“Ağ buxağın işıqlıdır büllurdan”,
“Yanağı göyçəkdi güldən, laladan”,
“Qaymaq dodaqlara bal bələnibdi”,
“Əndamından qızıl güllər qoxuyur”.

**Aşiq** üçün seçilən ifadələr:
“Hicrindən ciyərim bağladı vərəm”,
“Əridib ürəyimi dərdü qəm, fəraq”,
“Həsrətindən Məcnun oldum səhrada”,
“Səndən ayrılalı halımdı yaman”.

Aşıq Ələsgər bədii təsvir və ifadə vasitələrindən geniş şəkildə istifadə etmişdir. O, şeirlərində zəngin məcazlar, bədii metaforalar işlətmişdir.

**Epitet:** “büllur buxaq”, “xumar göz”, “qönçə dodaq”, “sədəf diş”

**Təşbeh:** “Çağlaram çaylar kimi”

**Mübaliğə:** “Gözlərin qan salır Azərbaycana”, “Kirpiyi od vurar, daşı yandırar”

Aşıq Ələsgərin şeirləri ahəngdar və musiqilidir. Söylənərkən xoş avaz yaradır.

# II MƏRHƏLƏ
# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

XIX əsr maarifçiliyi tədricən realist sənətkarların yetişib formalaşmasına ciddi təkan verdi.

**1906** və **1907**-ci illərdə Azərbaycan müəllimlərinin I və II qurultayı keçirildi. Bu qurultaylarda aşağıdakı qərarlar qəbul edilmişdir:

1) milli məktəblər şəbəkəsi genişləndirilsin
2) ana dilində yazılmış dərsliklər, proqramlar hazırlansın
3) müəllim hazırlığına diqqət artırılsın
4) qızlar təhsilə cəlb olunsun.

Bunlar milli **mənlik şüurunun oyanmasına, özünüdərk prosesinin dərinləşməsinə** xidmət edirdi.

Mətbuat sahəsində intibah baş verdi, ədəbi-ictimai fikrin inkişafına və ədəbi-mədəni dirçəlişə təkan verən xeyli qəzet və jurnal çap edildi:

**Tiflisdə**: "Şərqi-Rus", "Molla Nəsrəddin";

**Təbrizdə:** "Azərbaycan"

**Bakıda:** "Həyat", "Füyuzat", "İrşad", "Şəlalə", "Sədayi-həqq", "Açıq söz", "Kəlniyyət", "Zənbur", Rəhbər", "Bəhlul", "Dəbistan", "Məktəb"

**İrəvanda:** "Leylək"

**"MOLLA NƏSRƏDDİN" jurnalı**. 7 (20) aprel 1906-cı ildən Tiflisdə nəşr edilməyə başlanmışdı. Azərbaycan Milli mətbuatının şah əsəridir. Jurnal **Tiflisdə** (1906-1914 və 1917), **Təbrizdə** (1921), **Bakıda** (1922-1931) nəşr edilmişdir.

Rəngli və şəkilli jurnal idi. Baş redaktoru **Cəlil Məmmədquluzadə** idi. Jurnalın başlıca **məqsədi və məramı**: **Türk-müsəlman dünyasının, xüsusən Azərbaycan xalqının oyanışını və dirçəlişini təmin etmək.** Bununla yanaşı Rusiya və

Qafqaz, Orta Asiya, İran, həmçinin Cənubi Azərbaycan və Türkiyə ilə bağlı məsələlərə də toxunulurdu.

İlk nömrəsinin üz qabığında O.Şmerlinqin çəkdiyi karikatura verilmişdir. Karikaturada müsəlman dünyasını sarmış qəflət yuxusu və milli oyanış motivi təsvir olunmuşdur. Ümumiyyətlə, jurnal karikaturalara geniş yer verməklə əhalinin bütün təbəqələri arasında yayılmasına nail olmuşdur. Həmçinin **satirik qrafika** janrını Azərbaycan təsviri sənəti üçün doğma bir formaya çevirmişdir.

**"Sizi deyib gəlmişəm"** adlı **baş məqalədə** jurnalın proqramı yığcam şəkildə ifadə olunmuşdur: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri deyib gəlmişəm ki, onlar mənim sözlərimi xoşlamayıb, bəzi bəhanələrlə məndən qaçıb gedirlər…

Sözümü tamam etdim. Ancaq bircə üzrüm var: məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım ki, mən sizinlə türkün açıq ana dilində danışıram…"

Jurnalın **tənqid hədəfləri**: Şərq despotizmi, fanatizm, müstəmləkəçilik siyasəti, avamlıq.

Jurnalın ədəbiyyatımıza gətirdiyi **yeni janrlar** bunlardır: **satirik hekayə, felyeton, satirik şeir, taziyanə**. Həmçinin **xəbər, məktub, elan, teleqram, tapmaca, atalar sözlərini** satirik gülüşün xidmətinə yönəltmişdir.

Jurnal **ədəbi məktəb** yaratmış ilk mətbuat orqanı idi. "Molla Nəsrəddin" ədəbi məktəbi sayəsində **tənqidi realizm** ədəbi cərəyanı formalaşmışdır.

## REALİZM ƏDƏBİ CƏRƏYANI

**TƏNQİDİ-REALİST YAZIÇILAR** bunlardır: M.Ə.Sabir, Ö.F.Nemanzadə, M.S.Ordubadi, Əli Nəzmi, O.Şmerlinq, Ə.Əzimzadə, Ə.Qəmküsar, Ə.Haqverdiyev, M.Möcüz, M.Şəbüstəri. Yazıçı C.Məmmədquluzadə isə özünü onların **"ağsaqqal yoldaşı"** adlandırmışdır.

**ÖMƏR FAİQ NEMANZADƏ (1872-1941).** Jurnalın həmtəsisçisi idi. Əslən Gürcüstanın Axalkalaki qəzasındandır. İbtidai təhsilini vətəndə almışdır.

**1883-1891**-ci illərdə Türkiyənin Darüşşəfəq məktəbində dini fənlərlə yanaşı dünyəvi elmləri də öyrənmişdir. Türkiyədə monarxiya rejiminin əleyhinə yönəlmiş tələbə hərəkatının iştirakçılarından biri kimi həbs edilmişdir. Bir müddət Şəkidə, Şamaxıda, doğulduğu Azğur kəndində müəllimlik etmişdir.

**1903-1905**-ci illərdə Məhəmmədağa Şahtaxtlının redaktoru olduğu "Şərqi-Rus" qəzetində çalışmış və burada C.Məmmədquluzadə ilə tanış olmuşdur. Sonra onlar birlikdə naxçıvanlı Məşədi Ələsgər Bağırovun maddi yardımı ilə "Şərqi-Rus" qəzetinin mətbəəsini alıb "Qeyrət" adı ilə çalışdırmışlar.

**1905**-ci ildə "Dəvət" adlı ilk kitabı bu mətbəədə nəşr olunmuşdur.

**"Molla Nəsrəddin" jurnalında** çap olunmuş məqalə və felyetonları: "Xanpəri bacıya cavab", "Qəribə qutu", "Xortdana məktub", "Ətiqə", "Hicab məsələləri və cavabımız", "Cəhrəçi xala", "Oyun-oyuncaq".

**Digər mətbuat orqanlarında** çap olunmuş məqalələr: "Dərdimiz və dərmanımız", "Dilimiz və imanımız", "Müəllimlərimiz nə üçün Bakıya qaçırlar", "Mən kiməm?", "Milliləşmək".

Ömər Faiq yaşadığı dövrdə "Bizə hansı elmlər lazımdır?", "Yazımız, dilimiz", "İkinci ilimiz" mövzuları ətrafında gedən müzakirələrdə mollanəsrəddinçi mövqedən çıxış etmişdir.

"Molla Nəsrəddin" jurnalının təsiri ilə **satirik şeir məktəbi** formalaşmışdır. Bu məktəbin başçısı C.Məmmədquluzadənin **"həqiqi "Molla Nəsrəddin" şairi"** adlandırdığı **M.Ə.Sabir** idi. Əli Nəzmi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz isə bu şeir məktəbinin nümayəndələri idilər.

**ƏLİ NƏZMİ** (1878-1946) məqalə, felyeton və satirik şeirlər yazırdı. İmzaları: **“Məşədi Sijimqulu”, “Kefsiz”.** C.Məmmədquluzadə onu “**İkinci Sabirimiz**” adlandırmışdır. O, satira və felyetonlarında ana dilinin saflığı uğrunda mübarizə aparmış, zülmkarlıq və haqsızlığı, cəhalət və mövhumatı tənqid etmiş, Səttarxan hərəkatını alqışlamışdır.

**ƏLİQULU QƏMKÜSAR** (1880-1919) satirik şeirlər və felyetonlar yazırdı. İmzası: **“Cüvəllağı bəy”**.

**1913-1914**-cü illərdə “Molla Nəsrəddin” jurnalının ikinci redaktoru kimi çalışmışdır. Ə.Haqverdiyev onu **“Molla Nəsrəddin” jurnalının ürəyi”** adlandırmışdı.

**MİRZƏLİ MÖCÜZ** (1873-1934) Cənubi Azrbaycandan idi. “Molla Nəsrəddin” Təbrizdə nəşr olunarkən orada “**Hammallarımız**”, **“Olsun gərək”** adlı satirik şeirlərini dərc etdirmişdir.

“**Bikarlara nəsihət”** şeiri C.Məmmədquluzadənin “Bikarlar məhəlləsi” felyetonunun təsiri ilə qələmə alınmışdır.

Beynəlxalq imperializmi tənqid edən şeirləri: **“Ey Vilhelm”, “Prussiya şahı”, “Şah Firəngistandadır”, “Nikolay”**.

Jurnal **tənqidi realist bədii nəsrin** də əsasını qoymuşdur: C.Məmmədquluzadə, Ə.Haqverdiyev.

**Ə.HAQVERDİYEVİN** (1870-1933) “Molla Nəsrəddin” nəsr məktəbində xüsusi yeri vardır.

Şuşada anadan olmuş, ibtidai təhsilini Şuşada və Tiflisdəki realnı məktəbdə almışdır. Sonra Peterburq Yol Mühəndisləri İnstitutunu bitirmişdir.

**1885**-ci ildə “Hacı Daşdəmir” adlı kiçik pyes yazmışdır. Həyatının sonrakı dövrünü, əsasən, Şuşada, Ağdamda və Bakıda yaşamışdır.

**1907**-ci ildə “Molla Nəsrəddin” jurnalında **“Xortdanın cəhənnəm məktubları” povesti** tənqidi-realist nəsrin nümunəsi kimi çap edilmişdir.

**1909-1910**-cu illərdə **"Marallarım"** silsilə hekayələri "Molla Nəsrəddin" jurnalında çap edilir: **"Mirzə Səfər", "Şeyx Şəban", "Bomba", "Həmşəri pasportu"** hekayələri. Bu hekayələr kiçik hekayə janrının ən kamil örnəkləri sayılır.

**"Dağılan tifaq", "Bəxtsiz cavan"** adlı dramatik əsərləri – **faciələri** vardır.

**"Bəxtsiz cavan"** əsərindəki maarifçi idealları təmsil edən Fərhadı "Ölülər" pyesindəki İskəndərin sələfi hesab etmək olar.

**1901**-ci ilə yazdığı **"Pəri-cadu"** əsərində ailə-məişət məsələlərinin timsalında cəmiyyətdə baş verən mürəkkəb hadisələr və insan taleləri əks olunmuşdur.

**1907**-ci ildə qələmə alınmış **"Ağa Məhəmməd şah Qacar"** faciəsində Azərbaycanın parçalanmasından doğan fəlakətlər, bütövlük uğrunda mübarizənin çətinlikləri əks etdirilmişdir.

Ə.Haqverdiyevin dram əsərləri uğurla tamaşaya qoyulmuş, milli şüurun inkişafına, dirçəliş və tərəqqiyə xidmət etmişdir.

**MAARİFÇİ-REALİST yazıçılar**: Nəriman Nərimanov (1870-1925), Süleyman Sani Axundov (1875-1939), Sultanməcid Qənizadə (1866-1937), Rəşid bəy Əfəndiyev (1863-1942).

Bu sənətkarlar cəmiyyəti maarifləndirmək, islah etmək, elm və tərbiyə yolu ilə dəyişdirməyin mümkünlüyünə inam və ümid bəsləmişlər.

## ROMANTİZM ƏDƏBİ CƏRAYANI

**"Romantizm"** fransız sözüdür, mənası "**həyatda olduğu kimi deyil, romanlarda yazıldığı kimi"** deməkdir.

Bu cərəyanın nümayəndələri həyatı tipik bədii vasitələrlə deyil, **xəyala və arzuya uyğun** şəkildə ifadə etməyə üstünlük vermişlər. Təxəyyüldə, arzuda, xəyalda canlanan həyatı əks

etdirirdilər. Real gerçəkliyi rədd edir, **keçmişi ideallaşdırır, ideal bir gələcəyə doğru can atırdılar**.

Romantiklərin dili və üslubunda müəyyən **təntənə, dəbdəbə** mövcud olmuş, **alınma sözlərdən** çox istifadə edilmişdir.

Romantiklər klassik lirika janrları ilə yanaşı, Avropa janrlarına da müraciət etmişlər: **sonet** və **marş** kimi Avropa janrlarını ədəbiyyatımıza romantiklər gətirmişlər.

Romantizmin **nümayəndələri**: Hüseyn Cavid, Məhəmməd Hadi, Əli bəy Hüseynzadə, Abbas Səhhət, Abdulla Şaiq, Abdulla Sur, Əbdülxaliq Cənnəti, Yusif Ziya Talıbzadə, İbrahim Tahir, Nəsib Qüdsi.

**1.HÜSEYN CAVİD** (1882-1941) – milli romantik şeirin və mənzum dram janrının ən kamil nümunələrini yaratmışdır.

**2.MƏHƏMMƏD HADİ** (1879-1920) – Vətən və hürriyyət (azadlıq) şairidir:

Hürriyyət ilə millət edər kəsbi-məali,
Hürriyyət ilə mümkün olur qiyməti-ali,
Avropalı hürriyyət ilə tapdı kəmali,
Əlbəttə, əsarətdə olur məhz əhali,
Hürriyyəti sərbəstlik imrani-vətəndir.

…Hər kəs həqqi-məşruinə sahib gərək olsun,
Qayətdə ədalətli qəvanın qoyulsun,
Ən faidəli qaidələr cari olunsun,
Mizani-ədalət və müsavat qurulsun,
Mizani-ədalət, deməк, imrani-vətəndir.

Yaradıcılığında **Vətən və millət ideyaları, azadlıq və qurtuluş motivləri** əsas yer tutur. O, millətinin imzasını "imzalar içində" görmək arzusu ilə yaşayıb yaratmışdır. Ancaq ağır həyat keçirmiş, şeirlərini əlyazma halında satmağa məcbur olmuşdur.

**Mətbuatda iştirakı**: "Bürhani-tərəqqi", "Həyat", "Füyuzat" və "İrşad"da şeir və məqalələr çap etdirmişdi.

**Kitabları**: "Firdovsi-ilhamat", "Şükufeyi-hikmət"

**Poeması**: "Əlvahi-intibah" – milli ideallar və şeiriyyət baxımından ədəbiyyatımızın şah əsərlərindən biridir.

Türkiyədə mətbuat orqanlarındakı, Karpatda müsəlman ordusundakı fəaliyyəti onu sıxıntılardan xilas edə bilməmişdir.

**3. ABBAS SƏHHƏT** (1872-1918) – saf Azərbaycan dilində yazdığı şeirlərində **vətənpərvərlik, milli oyanış və tərəqqi ideyalarını** tərənnüm etmişdir. Maarifçi düşüncəni ön mövqeyə çıxarmışdır.

**"Şair, şeir pərisi və şəhərli"** poemasında cəmiyyətdə gedən ictimai proseslər romantik üslubda mənalandırılmışdır. **Uşaq şeirinin** yaradıcılarından biridir.

**4. ABDULLA ŞAİQ** (1881-1959) – şeirlərində vətənpərvərlik ideyalarını tərənnüm etmişdir. **Maarifçi ideyalar** onun yaradıcılığında daha qabarıqdır. **Uşaq şeirinin** yaradıcılarından biridir.

**"Füyuzat"** romantizm ədəbi cərəyanının əsas jurnalı idi. **1906-1907**-ci illərdə Bakıda nəşr olunmuşdur.

Jurnalın redaktoru **Əli bəy Hüseynzadə** idi.

Jurnalı **H.Zeynalabdin Tağıyev** maliyyələşdirirdi.

Jurnal öz fəaliyətini Türkiyədəki Sultan Əbdülhəmid rejiminin təzyiqi ilə 1 noyabr 1907-ci ildə dayandırmışdır. Jurnalın 32 sayı çap olunmuşdur. Jurnalda rus çarizminin müstəmləkəçilik siyasəti, Osmanlı dövlətinin monarxist rejimi tənqid edilmişdir.

Jurnalda aşağıdakı **ideyalar** təbliğ olunurdu:

**1)** türkçülük və islamçılıq

**2)** tərəqqiyi çağırış

**3)** Avropalaşmaq-müasirləşmək meyilləri

Ə.Hüseynzadə jurnalın birinci nömrəsindəki **"Həyat və meyli-füyuzat"** adlı **baş məqalədə** yazmışdır: "Mən istərdim öylə bir sehr, ya əfsun bulunsun ki, onun qüvvətilə bütün millətimizi birdən-birə cəmi füyuzati-vicdaniyyəyə (vicdan azadlığına) məzhər etmək mümkün olsun". "Füyuzat"ın əsas vəzifələri **"İntiqad ediyoruz, intiqad olunuyoruz"** adlı məqalədə nəzərə çarpdırılmışdır.

Jurnalın **məqsədi** aşağıdakılardan ibarət idi:

**1)** "xabi-qəflətlə" mübarizə

**2)** həyatın, cəmiyyətin yeniləşdirilməsi

**3)** "türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafətli" insanı formalaşdırmaq

**4)** ortaq ümumtürk ədəbi dil yaratmaq

Ümumiyyətlə, jurnalda ümumtürk xarakterli yazılar üstünlük təşkil edirdi. Jurnalda türk dilinə "kürreyi-ərz üzərində ən müktəşir (çox yayılmış) bir dil" kimi xüsusi önəm verilmişdir.

Jurnalda Avropa ədəbiyyatından nümunələr **tərcümə** edilib çap olunurdu: **Şekspir, Bayron, Tolstoy** və alman şairi **İ.V.Hötenin "Faust" əsəri** və başqaları.

Jurnalda Azərbaycan romantiklərindən başqa digər sənətkarlar da çap olunurdu:

**Türkiyədən**: Əhməd Kamal, doktor Abdulla Cövdət, Mahmud Əkrəm Rəcaizadə

**Şimali Kiprdən**: Əhməd Raiq

**Krımdan**: Həsən Səbri Eyvazov

Füyuzatçılar milli ideyaları qüvvətləndirmək, vətənsevərlik, azadlıq, tərəqqi və maarifləndirmə, mədəniləşmə uğrunda mübarizə aparmışlar.

**ƏLİ BƏY HÜSEYNZADƏ** (1864-1940) – görkəmli filosof, böyük mütəfəkkir, tanınmış yazıçı və şair, məşhur həkim, bənzərsiz publisist və tərcüməçi. Azərbaycanda və Türkiyədə türkçülük ideologiyasının əsas yaradıcısıdır. **"Türkləşmək, is-**

**lamlaşmaq və avropalaşmaq”** təlimi də Ə.Hüseynzadəyə məxsusdur.

**Şeirləri** bunlardır: **“Hali-vətən”, “Yurd qayğusu”, “Kələbək”, “Arslan ağzı”**. Bu şeirlərdə millət, vətən, azadlıq motivləri əsas yer tutur. “Hali-vətən” şeirində doğma vətənin istiqlalına yüksək vətəndaşlıq münasibəti ifadə edilmişdir:

Ucundadır dilimin həqiqətin böyüyü,
Nə qoydular deyəyim, nə kəsdilər dilimi.
Bilirmisiz cahillər nə etdilər vətənə?
Nə qoydular uyuya, nə qoydular yürüyə.
Düşmən qırır qapıyı, biz evdə bixəbəriz,
Nə başqa-başqalarız, nə ittihad edəriz.
Ayıltmadı qələmim şu türk ilə əcəmi,
Nə qoydular yazayım, nə qırdılar qələmi.

**Məqalələri** Azərbaycan və Türkiyə dövri mətbuatında çap edilmişdir.

**1)** “Türklər kimdir və kimlərdən ibarətdir” (“Həyat” qəzeti, 1905) – böyük bir ərazidə yaşayan türk xalqlarının elmi təsnifatı verilmişdir.

**2)** “Qırmızı qaranlıqlar içərisində yaşıl işıqlar”, “Məcnun və Leylayi-İslam”, “Nicat məhəbbətdədir” (hamısı “Füyuzat” jurnalında) – bu məqalələrdə müəllif ədalət və hürriyyət carçısı kimi çıxış edir. Ə.Hüseynzadə yazır: “Zəlaləti-küsürdə bulunan bir məmləkət ədl ilə baqqi qalacağı kimi, ədl olmayan bir ölkə islam namına hamil olsa da, bəqapəzir olmaz. Ədl olursa hürriyyət də olur, hürriyyət olursa məhəbbət və məvəddət də olur”.

## SENTİMENTALİZM ƏDƏBİ CƏRƏYANI

XX əsrin əvvəllərində **sentimentalizm** də ədəbi cərəyan səviyyəsinə yüksəlmişdir. **Nümayəndələri**: Abdullabəy Divanbəyoğlu, Ələkbər Qərib Naxçıvanlı.

## ƏDƏBİ TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

XX əsrin əvvəllərində bədii fikirlə yanaşı, elmi fikir də inkişaf etmişdir. **Nümayəndələri:**

**1.ABDULLA SUR** (1882-1912). **"Füzuliyə bir nəzər"** məqaləsi məşhurdur.

**2.SEYİD HÜSEYN** (1887-1937). **"Ölülər" haqqında təəssürat"** məqaləsi vardır.

**3.FİRİDUN BƏY KÖÇƏRLİ** (1868-1920) – XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatşünaslığının ən görkəmli nümayəndəsidir.

**1868**-ci ildə Şuşada anadan olmuşdur. Şuşa realnı məktəbində oxumuş, Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasını bitirmişdir. Seminariyada oxuyarkən "**Təlimi-Sokrat**" kitabını yazmışdır.

**1885-1895** – İrəvan gimnaziyasında çalışmış və bu zaman Zaqafqaziya rus mətbuatında ədəbiyyat və maarifçilik məsələlərinə dair məqalələrlə çıxış etmişdir.

**1895-1918** – Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında çalışmış və uzun illər Azərbaycan şöbəsinə rəhbərlik etmişdir.

**1918** – Onun təşəbbüsü ilə Qazax Müəllimlər Seminariyası yaradılmış, ona rəhbərlik etməyə başlamış və Vətən üçün ixtisaslı müəllim hazırlığına rəhbərlik etmişdir.

**1920**-ci ilin may ayında Gəncədə erməni daşnakları tərəfindən öldürülmüşdür.

Klassik və müasir Azərbaycan ədəbiyyatının, rus ədəbiyyatı klassiklərinin həyat və yaradıcılığının dəyərləndirilməsi F.Köçərlinin elmi fəaliyyətində mühüm yer tutur.

**Kitabları**:

**1) "Mirzə Fətəli Axundov"** (1911). Böyük dramaturqun yaradıcılığı ilk dəfə olaraq bu kitabda tədqiq edilmişdir. Eyni zamanda F.Köçərli həmin il Tiflisdə keçirilən M.F.Axundzadənin 100 illik yubileyində məruzə etmişdir.

**2) "Balalara hədiyyə"** (1912). Azərbaycan folkloruna dair topladığı materiallar əhatə olunmuşdur.

**3) "Azərbaycan ədəbiyyatı tarixi materialları"** (1913) – 3 cilddə ilk sistemli ədəbiyyat tarixidir. Qədim dövrlərdən başlayaraq XX əsrin əvvəllərinə qədərki böyük bir dövr ədəbiyyatından bəhs olunur. Yazıçıların tərcümeyi-halına və yaradıcılığına dair materialları F.Köçərli özü toplamışdır. M.Füzuli, M.P.Vaqif, Q.Zakir, M.F.Axundov, S.Ə.Şirvani və başqalarına aid oçerklərdə həmin sənətkarların ömür və sənət yolu ətraflı şəkildə təqdim edilir.

**NƏTİCƏ**: Bu mərhələdə ədəbiyyat **xalq həyatını** əks etdirmiş və **milli məzmun** daşımışdır. Milli oyanış və dirçəliş həmin mərhələdən etibarən daha qüvvətlə səslənmişdir. Bədii əsərlərin dili sadələşmiş, canlı xalq danışıq dilinə üstünlük verilmişdir. Bütün bunlar xalqın gələcək **müstəqilliyə** hazırlanmasına ciddi təsir göstərmişdir. **Azərbaycan Xalq Cümhuriyyətinin** özünün və **bu dövrdəki yeni tipli ədəbiyyatın** yaranmasında XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının böyük rolu olmuşdur.

# CƏLİL MƏMMƏDQULUZADƏ (1869-1932)

## HƏYATI

**1869**-cu il 22 fevralda Naxçıvanda anadan olmuşdur. Atası Məmmədqulu Məşədi Hüseynqulu oğlu Naxçıvan duz mədənində gözətçi işləmiş, Şahab məhəlləsində baqqal dükanı açmışdır.

**1873-1878**-ci illərdə oxuduğu mollaxana məktəbində ərəb, fars dillərini öyrənmiş, Şərq tarixi və ədəbiyyatı haqqında ilkin məlumatlar əldə etmişdir. Naxçıvan şəhər üçsinifli məktəbindəki ibtidai təhsil və buradakı müəllimlər, keçirilən tədbirlər Cəlilin ideya-mənəvi aləmində dərin iz buraxmışdır.

**1882-1887**-ci illərdə Qori Müəllimlər Seminariyasında təhsil almışdır. Burada o, A.O.Çernyayevski, D.D.Semyonov, N.N.Novospasski, N.O.Lomouri, habelə azərbaycanlı müəllimlər Mirzə Əbdüssəlam Axundzadə və Səfərəli bəy Vəlibəyov kimi müəllimlərdən dərs almışdır. İnşa və tərcümə dərslərində bacarıq göstərmiş, ssenarilər yazmış, aktyorluq etmişdir. Seminariya C.Məmmədquluzadə üçün əsl ideya-tərbiyəvi və dünyagörüş məktəbinə çevrilmişdir.

**1887**-ci ilin sentyabr-oktyabrında İrəvan quberniyasının Uluxanlı kənd ibtidai məktəbində müəllim işləmişdir.

**1887**-ci il 13 oktyabrdan məktəbin müdiri Əliməmməd Xəlilovun köməyi ilə Baş Noraşen məktəbində müəllim işləmişdir.

**1889**-cu il **ilk qələm təcrübəsi** olan **"Çay dəsgahı"** alleqorik dramını Baş Noraşendə yazmışdır.

**1890-1897**-ci illərdə Nehrəm kənd ikisinifli məktəbində müəllimliyini davam etdirmişdir. Burada qızların məktəbə cəlb edilməsi, diyarşünaslıq muzeyi yaratması, ipəkçilik peşəsinə dair məşğələlər təşkil etməsi, həvəskarlarla birlikdə Naxçıvanda teatr tamaşaları göstərməsi onun nüfuzunun artması və mədəni tərəqqi yollarında çalışması demək idi.

O, “Kişmiş oyunu” pyesini (1982), “Danabaş kəndinin əhvalatları” (1894) və “Danabaş kəndinin məktəbi” (1896) povestlərini Nehrəmdə işləyərkən qələmə almışdır.

**1895** – Moskvada və Peterburqda **latın əlifbasına keçmək** barədə danışıqlar aparmışdır.

**1896** – Həmçinin Nehrəmdə müəllim olarkən Həlimə Nağı qızı ilə evlənmiş, bu nigahdan ilk övladı Münəvvər Məmmədquluzadə (1897-1965) anadan olmuşdur.

**1897-1903**-cü illərdə İrəvanda və Naxçıvanda hüquq orqanlarında işləmişdir.

**1903**-cü ildən Tiflisdə Məhəmmədağa Şahtaxtlının nəşr etdiyi “Şərqi-Rus” qəzeti ilə əməkdaşlıq etmişdir. Bu qəzetdə hekayə, məqalə və tərcümələri çap olunmuşdur.

**1905**-ci ildə o, Ömər Faiq Nemanzadə və tacir Məşədi Ələsgər Bağırovla birlikdə Məhəmmədağa Şahtaxtlıya məxsus mətbəəni alaraq “**Qeyrət**” mətbəəsi yaratmış və “**Poçt qutusu”** hekayəsi orada çap edilmişdir.

**1906**-cı il 7 (20) apreldə onun redaktorluğu ilə Tiflisdə “Molla Nəsrəddin” jurnalı nəşrə başlamışdır.

**1907**-ci ildə Qarabağın məşhur xanlarından olan Əhməd bəy Cavanşirin qızı Həmidə xanımla evlənmişdir.

**1920**-ci ilin sentyabrından **1921**-ci ilin may ayınadək Təbrizdə yaşamış, burada jurnalın 8 sayını nəşr etmişdir.

**1921**-ci il mayın 1-də “Ölülər” əsəri Təbrizdə tamaşaya qoyulmuşdur. Nəticədə Cənubi Azərbaycanda realist-satirik ədəbiyyat və mətbuat inkişaf etmiş, karikatura sənətinin meydanı genişlənmişdir.

**1921-1927**-ci illərdə Sovet hökumətinin tədbirlərində iştirak etmiş, onun redaktorluğu ilə “Yeni yol” qəzeti latın əlifbasının tətbiq olunmasında əsl fədakarlıq göstərmişdir.

**1926**-cı ildə Azərbaycan Mərkəzi İcraiyyə komitəsi üzvlüyünə namizədliyə qəbul edilmişdir.

**1928**-ci ildən mənəvi terrora məruz qalmışdır.

**1929**-cu il aprelin 9-da "Molla Nəsrəddin" jurnalını Mübariz Allahsızlar İttifaqının orqanına çevirmək barədə qərar qəbul edilmişdir. Bu, onu bərk sarsıtmışdır. Eyni zamanda yazıçıya qarşı böhtan kompaniyası başlamış o, "Milli xırda burjua ədəbiyyatı nümayəndəsi", "cığırdaş", "Azərbaycan dilini korlayan yazıçı" kimi damğalanmışdır. "Molla Nəsrəddin" jurnalının "şəkil, bədii, ictimai cəhətdən üzlü-astarlı dəyişdirilməsi" tələbi irəli sürülmüşdür.

**1931**-ci ildə Azərbaycanın Baş Mətbuat İdarəsi C.Məmmədquluzadəni və redaksiyanın digər əməkdaşlarını "siyasi cəhətdən geri qalmış, bisavad və siyasətlə maraqlanmayan adamlar" adlandırmışdır.

**1931**-ci ildə "Molla Nəsrəddin" jurnalının baş redaktoru vəzifəsindən imtina etmişdir.

**1932**-ci il yanvarın 4-də Cəlil Məmmədquluzadə Bakı şəhərində vəfat etmiş və Fəxri xiyabanda dəfn edilmişdir. Onun Bakı, Naxçıvan və Cəlilabadda heykəlləri qoyulmuşdur. Anadan olmasının 100 və 125 illik yubileyləri dövlət səviyyəsində qeyd edilmişdir.

## YARADICILIĞI

Azərbaycan ədəbiyyatı tarixinə böyük demokrat, milli yazıçı, kiçik hekayənin böyük ustadı kimi daxil olmuşdur. O, Azərbaycanda milli istiqlal ədəbiyyatının bayraqdarı və sərkərdəsidir. C.Məmmədquluzadənin **nəsr**, **dramaturgiya** və **publisistika** yaradıcılığı vardır.

### 1. NƏSR ƏSƏRLƏRİ

C.Məmmədquluzadə bədii nəsrinin **əsas xüsusiyyətləri**:

**1)** real həyatı tipik bədii vasitələrlə təqdim etmək

**2)** zəhmətkeş insanların qəribə taleyinin təsviri

**3)** milli oyanış və dirçəlişə çağırış

**4)** yığcamlıq və sadəlik

**5)** koloritli dil və üslub

**1)POVESTLƏRİ:**

**“Danabaş kəndinin əhvalatları” povesti** (1894). Əsər Danabaş kəndinin timsalında bütövlükdə Azərbaycan kəndinin, əsərin baş qəhrəmanı Məhəmmədhəsən əminin simasında Azərbaycan kəndlisinin ibrətamiz, düşündürücü əhvalatlarıdır.

**Məhəmmədhəsən əmi** Azərbaycan ədəbiyyatında kiçik adamın böyük ədəbiyyata birinci gəlişi idi.

**Xudayar bəy** obrazı haqsızlıq və ədalətsizliyi özündə təcəssüm etdirən ümumiləşdirilmiş obrazdır.

**Zeynəb** “qoy Xudayar bəy anqırsın tayını tapsın” sözlərindəki sərt münasibətilə Azərbaycan ədəbiyyatında cəsarətli qadın surəti kimi yadda qalır.

**“Danabaş kəndinin məktəbi” povesti** (1896).

**2)HEKAYƏLƏRİ:**

C.Məmmədquluzadə ədəbiyyatımızda **kiçik hekayənin böyük ustadı** kimi tanınmışdır.

**“Poçt qutusu”** (1903). Hekayə 1905-ci ildə “Qeyrət” mətbəəsində kitab halında çap edilir.

“Poçt qutusu” hekayəsi milli ədəbiyyatda hekayə janrının **ən kamil nümunəsidir**. Burada roman mövzusuna bərabər ictimai mətləblər əks olunmuşdur. Divanxananı yaxşı tanımağa məcbur edildiyi halda, poçt qutusunun, poçtxananın mahiyyətini bilməyən Novruzəlinin taleyinin təqdimi əsasında ədib kiçik adamın böyük müdafiəçisi olduğunu sübut etmişdir.

“Poçt qutusu” Azərbaycanda kiçik hekayə janrının **ilk böyük proqramıdır** və Azərbaycan ədəbiyyatında hekayə janrının formalaşmasına və inkişafına böyük təsir göstərmişdir.

**“Usta Zeynal”** (1905). **Usta Zeynal** kasıb, halal və pak insandır. O, **Qurbana** deyir:

"Qurban üzünü Usta Zeynala tutub soruşdu:

–Usta, küpəniz irəlidən çatdaq idi, ya təzəlikdə sınıb?

–Yox, bizim küpə sınıq deyil, yoxsa sən sındırmısan?

…Usta Zeynal haman küpəni Qurbanın əlindən alıb, mat-mat baxdı Qurbanın üzünə və dərin bir ah çəkib dedi:

–Qurban, Allah sənə lənət eləsin! Erməninin küpəsində su gətirib gəc qayırdın və dünya-aləmi murdar elədin".

**"İranda hürriyyət"** (1906). Hekayə hər dövr üçün müasir səslənən "hürriyyət payı"dır.

**Əsas surət**: Kərbalayı Məmmədəli. İrandan gəlib İrəvanda çalışır. İkinci dəfə evlənir və ailəsi ilə əlaqəsi kəsilir. Məhz bu əhvalatın fonunda hürriyyət kimi mətləblərin mahiyyəti aydınlaşdırılır.

Hekayədəki "Axı Kim eşidib ki, o taydan bura hürriyyət gəlsin?! O taydan bu üzə həna gələr, səbzə, badam içi gələr, tütün, çay, tiryək… belə zadlar gələr" kimi fikirlər milli oyanış və azadlıqdan xəbər verir.

**XX əsrin əvvəllərində** yazılmış digər hekayələrdə sosial-ictimai problemlər əks olunmuşdur: **"Saqqallı uşaq"**, **"Quzu"**, **"Nigarançılıq"**, **"Konsulun arvadı".**

**Sovet dövründə** yazılmış aşağıdakı hekayələrdə Sovet hakimiyyəti illərində baş verən proseslər əks etdirilmişdir:

**"Proletar şairi", "Zırrama", "Şəhər və kənd", "Şərq fakültəsi", "Oğru inək", "Hamballar" "Bəlkə də qaytardılar".**

O, **20-ci illərin ortalarından sonra** yazdığı hekayələrdə sovet cəmiyyətindəki çaşqınlıq və vahimə, ictimai ədalətsizliklər üstüörtülü bədii vasitələrlə ifadə edilmişdir.

**"Oğru inək"** hekayəsində pambıq oğrusu kimi tanınan Musa kişi inəyini də oğurluğa öyrətmişdir. Bu, cəmiyyətdəki yalan və əliəyriliyin mənalandırılmasıdır. Yazıçı belə bir qənaətə gəlmişdir ki, təzə quruluşda "Oğurluq darülfünunundan

nəinki tək bircə insanlar oğurluq diplomları alırlar, hələ bəlkə heyvanlar da insanlardan geri qalmırlar”.

**“Hamballar”** hekayəsində ölkədə süründürməçiliyin, özbaşınalığın və hərc-mərcliyin hökm sürdüyü göstərilmişdir.

**“Bəlkə də qaytardılar”** hekayəsi zahirən yeni quruluşun müdafiəsi məqsədi ilə yazılmışdır, amma əsas məqsəd sovet cəmiyyətində sinfi fərqlərin çox kəskin şəkildə nəzərə alınmasından doğan ictimai eybəcərliklər ifadə edilmişdir.

## 2.DRAMATURGİYASI

**1. “Çay dəsgahı”** (1889) – **ilk qələm təcrübəsidir**. Ədəbiyyatımızda **ilk mənzum** və **alleqorik** dram əsəridir. **Alleqorik surətlər** bunlardır: **Baba Samovar, Çaynik, İstəkan, Qaşıq, Masa**.

**Nökər Əli** surəti humanist düşüncələri əks etdirirdi.

“Çay dəsgahı” **milli uşaq dramaturgiyasının** ilk nümunəsi kimi də mühüm əhəmiyyət daşıyır.

**2. “Kişmiş oyunu” pyesi** (1892).

**3. “Ölülər” tragikomediyası** (1909). M.F.Axundovun komediyalarından fərqli olaraq, C.Məmmədquluzadənin komediyaları faciəvi xarakter daşıyan tragikomediyalardır.

“Ölülər” əsərinin **əsas ideyası**: türk-müsəlman dünyasının cəhalət və mövhumat əsarətindən xilas edilməsi. “Ölülər” mənəvi əsarəti, fanatizmi və cəhaləti böyük cəsarətlə vurub dağıdan dahiyanə əsərdir.

**Kefli İskəndər XX** əsrin əvvəllərində milli ziyalı təbəqəsinin ümumiləşmiş obrazıdır. O, ali təhsil almış, ətrafındakı hadisələri dərindən dərk edir. Cəsarətlə danışmaq üçün İskəndər kefli görünmək yolunu seçmişdir.

Kefli İskəndərin monoloqu C.Məmmədquluzadənin bütün fikir və düşüncələrini ümumiləşdirilmiş şəkildə mənalandırır. “Baxın! Baxın! Yaxşı baxın! Diqqətlə baxın! Sizin tarix kitabı-

nızda bu, qanla yazılmış bir səhifədir...” Bu sözlərlə başlayan monoloq “Tfu sizin üzünüzə!” sözləri ilə qurtarır.

İskəndər Şeyx Nəsrullahın əsl simasını açmağa nail olur.

**Şeyx Nəsrullah** obrazı yalançı, fırıldaqçı din xadimlərinin ümumiləşdirilmiş obrazıdır. O, “ölü diriltmək” oyunu ilə fırıldaqçılıq edir. Bu obrazla dindən çirkin məqsədlər üçün istifadə edən fırıldaqçı din xadimləri ifşa edilmişdir. Yazıçının məqsədi islam dinini Şeyx Nəsrullah kimi İsfahan lotularından qorumaq, təmizləmək, millətin gözünü açmaqdır.

**Digər surətlər**: İsgəndərin **atası Hacı Həsən, anası Kərbalayı Fatma xanım, şəhər sakinləri Məşədi Oruc, Məşədi Baxşəli, Hacı Kərim, Hacı Kazım, Mir Bağır ağa.** Onlar “diri ölülər”dir və İskəndərə dəli kimi baxırlar.

C.Məmmədquluzadə əsərdəki **qəbiristanlıq səhnəsini** kəşf etmişdir. Bu səhnə müsəlman cəmiyyətindəki fanatizm və cəhalətin ən acı təzahürlərini meydana çıxarır.

“Ölülər” pyesi ilk dəfə **1916-cı ildə Bakıda** və **1921-ci il 1 mayda Təbrizdə** tamaşaya qoyulur.

**4. “ANAMIN KİTABI” tragikomediyası**(1920).

**5.** “**Kamança” pyesi** (1920) – Pyes ədəbiyyatımızda Qarabağ münaqişəsinə həsr edilmiş birinci bədii əsərdir.

Şuşa şəhərində qələmə alınmış və pyesdəki hadisələr “Qarabağda, dağın ətəyində, kəndin kənarında” cərəyan edir. Hərb səhnələri yoxdur, lakin erməni-Azərbaycan münaqişəsinin gedişindən xəbər tutmaq mümkündür.

**Qəhrəman yüzbaşı** mənsub olduğu xalqın ən yüksək insani keyfiyyətlərini ifadə edir. Əsərdə Qəhrəman yüzbaşının və onun silahdaşlarının vətənpərvərlik və insanpərvərlik kimi xüsusiyyətlərindən bəhs olunur.

O, ermənini – kamançaçı Baxşını bağışlayır. Bu, Qəhrəman yüzbaşının ən ali mənəvi xüsusiyyətlərindən biridir.

Əsərdə **kamança** obrazı **əşya surətidir**.

**6. "Danabaş kəndinin məktəbi" pyesi** (1921) – Maarifçilik məsələsi ön plana çəkilmişdir. Dramaturq elmi, maarifi **işıq**, savadsızlığı isə **qaranlıq** kimi mənalandırmışdır.

**Müəllim Həsənov** obrazında xalqdan uzaq düşən ziyalıların acınacaqlı vəziyyəti ümumiləşdirilmişdir.

**1923**-cü ildə bu əsər teatra "**Danabaş kəndinin müəllimi"** adı ilə təqdim olunmuşdur.

**7.** "**Lal", "Oyunbazlar", "Lənət**" **pyesləri** – Sovet hakimiyyəti illərində yazılmışdır. Bu əsərlərdə mövhumat, cəhalət, gerilik və köhnəlik tənqid olunur, eyni zamanda maarifə, milli məktəbə, insani keyfiyyətlərə, fəal vətəndaşlıq mövqeyinə çağırış kimi mətləblər canlandırılmışdır.

**8. "Dəli yığıncağı" tragikomediyası** (1926).

Əsas surətlər:

**Həzrəti Əşrəf** – xalqın dilini və milli psixologiyasını bilməyən yadelli hakimdir. O, xarici müdaxilənin və əsarətin acı təzahürlərini inikas etdirir.

**Lalbyuz** – Əmristandan gəlmiş, xalqın dilini bilməyən yabançı həkimdir. Yazıçı bu surətlə yabançı həkimlərin buxovundan azad olmaq fikrini irəli sürür, cəmiyyətdəki eybəcərlikləri mənalandırmağa imkan verir.

Pyesdə hadisələr XX əsrdə Cənubi Azərbaycanda baş verir. Əslində isə Şura Azərbaycanı "dəli yığıncağı" adlandırılır.

### "ANAMIN KİTABI" tragikomediyası (1920)

**Mövzusu** milli müstəqillik və birlik, soykökə bağlılıq, milli ideologiya və istiqlal uğrunda mübarizədən ibarətdir.

**İdeyası** azərbaycançılıq və milli istiqlaliyyətdir. Müəllif bu əsərlə azərbaycançılıq ideyasının əsas yaradıcılarından olduğunu isbat etmişdir. Kiçik hekayə Mirzə Cəlilin "Poçt qutusu"ndan çıxmışdırsa, azərbaycançılıq və milli istiqlaliyyət ide-

yaları "Anamın kitabı"ndan doğmuşdur. "Anamın kitabı" XX əsr boyu yazılmış silsilə əsərlərin Anasıdır.

Əsər üç qardaşın komediyası, ananın faciəsi, Gülbaharın dramıdır. Ədib əsərin əvvəlində **bədii müqəddimə** funksiyası daşıyan iştirakçılar haqqındakı məlumatında Mirzə Əbdüləzimin ayrı-ayrı məsləkə qulluq eyləyən övladlarının – **qardaşların** portretlərini yaratmışdır.

1) Ruspərəst **Rüstəmbəy** rus, yaxud slavyan lügətləri hazırlayır.

2) İranpərəst **Mirzə Məhəmmədəli** xüsuf və küsuf, yəni ayın və günün tutulmasına dair dərslər verir.

3) Osmanlıpərəst **Səməd Vahid** elmi-qafiyə ilə məşğul olmadan osmanlı şivəsində şeirlər yazır.

Qardaşlar xarakterlərinə, geyimlərinə, danışıqlarına görə fərqlənirlər. Məlum olur ki, onların Cəmiyyəti – Xeyriyyənin iclasında qaldırdıqları məsələlərin xalqa faydası yoxdur. Acların ehtiyacları və şikayətləri qardaşları qətiyyən narahat etmir.

Əsərdə rus çarizminin yerli ziyalılara şübhəli münasibət bəsləməsi də əks olunmuşdur.

Dramaturq xalq, milli birlik, Vətən motivlərini Zəhrabəyim ananın, Gülbaharın və habelə Qəmbər, Qurban, Zaman kimi çobanların vasitəsilə mənalandırır.

**Zəhrəbəyim ana** Azərbaycan qadınının kamil bədii obrazıdır. O, qardaşları birliyə çağırır, lakin heç bir nəticə hasil olmur. Vətəninə və ailəsinə bağlı olan Ana üçün bundan artıq faciə ola bilməz. Zəhrabəyim ana qardaşların bir-birindən ayrı düşməsinə və orta məxrəcə gələ bilməmələrinə dözə bilməyən əsl Azərbaycan qadınının kamil bədii obrazıdır. Ananın cismən ölümü onun mənəvi qələbəsidir.

**Gülbahar** ana Vətənə, doğma torpağa sadiqdir. Qardaşları doğru yola, milli-mənəvi birliyə qovuşdurmaq yolundakı səyləri onun həqiqi bir vətənpərvər azərbaycanlı qızı olduğunu təsdiqlə-

yir. Gülbahar obrazı ədəbiyyatımızda Vətən və millət, milli birlik və istiqlal amalının dramatik üverturasıdır.

Gülbaharın monoloqu ən təsirli və ən mükəmməl milli birlik və vətənpərvərlik himnidir: "Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansınlar, genə əvvəl-axır onlar Zəhranın ətrafında gərək dolanalar. Çünki ay və ulduzlardır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə. Onun insafı və vicdanı ona müdamül-həyat əziyyət edərək, nə qədər canında nəfəs var, peşman olacaq".

**Qəmbər, Qurban, Zaman** xalq adət-ənənələrini, doğma torpağa bağlılığı bütün incəliyi ilə təqdim edirlər.

**NƏTİCƏ**: "Anamın kitabı" Azərbaycanın təkcə XX əsrin əvvəllərində deyil, həmçinin XXI əsrin başlanğıcındakı tale kitabıdır. Əsər ən mükəmməl azərbaycannamədir.

### 3.PUBLİSİSTİKASI

C.Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalında çap edilən felyetonları və publisistik məqalələri ilə milli satirik publisistika özünün ən kamil səviyyəsinə yüksəldi. Onun publisistikasında **azərbaycançılıq** xüsusi yer tutur. Cəlil Məmmədquluzadə Azərbaycan **satirik publisistikasının** yaradıcısıdır. Aşağıdakı məqalələri vardır:

**1. "Sizi deyib gəlmişəm", "Necə qan ağlamasın", "Millət", "Qondarma bəylər", "Yer yoxdur".**

**2. "Təzə partilər", "Azadeyi-vicdan", "Xoşbəxtlik", "Firqələr davası"** – bu məqalələrdə çoxpartiyalı sistem, insan haqları, konstitusiya hüquqları, demokratik seçki kimi aktual məsələlərdən bəhs olunur.

**3. "Niyə məni döyürsünüz?"** felyetonu (1906) – "Molla Nəsrəddin" jurnalında çap edilmişdir. Felyetona aid olan aşağıdakı parça onun publisistikasının əsas qayəsini ifadə edir: "… Mən də mollayam, siz də molla. Amma mən müsəlman qardaş-

lara deyirəm: – Ey müsəlmanlar, gözünüzü açınız, mənə baxınız. Amma siz mollalar deyirsiniz: – Ey müsəlmanlar gözünüzü yumunuz və mənə baxınız…"

1911-ci ildə yazıçı fikrini daha açıq ifadə edərək məqsədinin xalqı yalançı dinçilərin əsarətindən qurtarmaqdan ibarət olduğunu bəyan etmişdir: "Molla Nəsrəddinin məqsədi nə dinə sataşmaqdır, nə təzə bir məzhəb icad etməkdir. Molla Nəsrəddinin qəsdi vəhşi adətlərin ortalıqdan götürülməyi yolunda çalışmaqdır".

"Nədən başlamalı?" sualına yazıçı əvvəlcə "rəndədən", sonra isə "rişədən" cavabını vermişdir. Ədib "rişə" dedikdə sovet cəmiyyətini nəzərdə tuturdu.

**4. "Azərbaycan" məqaləsi** (1917) "Molla Nəsrəddin" jurnalında çap edilmişdir. Məqaləni onun publisistikasının **şah əsəri** hesab etmək olar. Onu Azərbaycan coğrafiyasının xəritəsi də hesab etmək olar. Məqalə milli oyanış və siyasi **intibah dövrünün** həqiqi bədii **manifestidir**. Burada **dil** və **vətən** məsələsi daha qabarıq qoyulmuşdur. Məqalədən kiçik bir nümunə: "Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm, xəyalata cumuram. Özümdən soruşuram ki:

–Mənim anam kimdir?

Öz-özümə də cavab verirəm ki:

–Mənim anam rəhmətlik Zəhrabanu bacı idi.

–Dilim nə dilidir?

–Azərbaycan dilidir.

–Yəni Vətənim haradır?

–Azərbaycan vilayətidir.

–Haradır Azərbaycan?

–Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən. Qalan hissələri də Gilandan tutmuş qədim Rusiya hökuməti ilə Osmanlı hökuməti daxilindədir".

**5. “Cümhuriyyət” məqaləsi** (1917). Bu məqalə C.Məmmədquluzadə **demokratizminin nizamnaməsidir**. Tiflisdə Müsəlman Milli komitəsinin yığıncağında oxumaq üçün yazılmışdır. Müəllif məqalədə respublika tipli dövlət qurmaq uğrunda səy göstərməyi zəruri sayır. Məqalədə millət vəkillərindən və prezident səlahiyyətlərindən danışılır.

# MİRZƏ ƏLƏKBƏR SABİR (1862-1911)

## HƏYATI

**1862**-ci il may ayının 30-da M.Ə.Sabir (Ələkbər Zeynalabdin oğlu Tahirzadə) Şamaxıda anadan olmuşdur. Mollaxanada ərəb və fars dillərini öyrənmişdir. O, buradakı tədris üsulundan narazı qalmış və 10-11 yaşlarında "**Tutdum orucu irəmazanda**" şeirini yazmışdır.

**1874-1883**-cü illərdə S.Ə.Şirvaninin dərs dediyi Şamaxı quberniya məclis məktəbində dünyəvi elmləri həvəslə öyrənmişdir. S.Ə.Şirvani Nizaminin "Xəmsə"sini ona bağışlamışdır. O, hələ məktəbdə ikən Sədi Şirazinin "Gülüstan" əsərindən bir parçanı tərcümə etmişdir.

**1884-1886**-cı illərdə Şərq ölkələrinə səyahət edir. İranın Səbzivar, Nişapur, Xorasan, Həmədan vilayətlərində, qədim Buxara və Səmərqənddə, Kərbəlada olmuşdur.

**1887**-ci ildə Billurnisə xanımla evlənmiş, 8 qızı və 1 oğlu olmuşdur.

**1902**-ci ildə Şamaxıda baş verən zəlzələ Sabirin ailəsinin yaşayışını daha da çətinləşdirir. O, A.Şaiqə demişdir: "Bir çox adamın batini kirini təmizləmək əlimizdən gəlmir. Zahiri kirini təmizləmək üçün sabun pişirmək peşəsini qəbul etmişəm".

**1903**-cü ildə Tiflisdə çap edilən "Şərqi-Rus" qəzetində mənzum təbriknaməsi çap edilmişdir.

**1905**-ci ildə "Həyat" qəzetində "Beynəlmiləl" şeiri çap edilmişdir.

**1906**-cı ildə Tiflisdə nəşr olunan "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlığa başlamışdır.

**1908**-ci il 11 apreldə Qafqaz Şeyxülislamı tərəfindən imzalanmış ana dili və şəriət müəllimi diplomu almışdır. Bir az sonra Şamaxıda "Ümid" adlı ibtidai məktəb açmışdır. Burada 60 nəfərə qədər şagird dünyəvi elmləri də öyrənirdilər.

**1910**-cu ilin əvvəlلərində Bakıya gəlmiş və **“Zənbur”** jurnalı redaksiyasında və Balaxanı məktəbində çalışmışdır. **“Günəş”** və **“Həqiqət”** qəzetlərinin redaksiyalarında fəaliyyət göstərmiş, “Günəş” qəzetinin **“Palanduz”** adlı səhifəsində **“Çuvalduz”, “Nizədar”** imzaları ilə şeirlər çap etdirmişdir. Həmçinin **“Nur”** kitabxanasının fəal oxucusuna çevrilmişdir.

**1910**-cu ilin sentyabr-noyabr aylarında Bakıda müalicə olunmuş, xəstəliyinə əlac olmadığı üçün Şamaxıya qayıtmışdır.

**1911**-ci il 4 fevraldan martın axırlarınadək Tiflisdə C.Məmmədquluzadənin səyi ilə müalicə olunmuş, lakin Sabir cərrahiyyə əməliyyatına razılıq verməmiş və yenidən Şamaxıya qayıtmışdır. O, dostu A. Səhhətə göndərdiyi məktubunda Mirzə Cəlildən və Həmidə xanımdan minnətdarlıqla danışmışdır.

**1911**-ci il iyul ayının 12-də Şamaxıda **vəfat etmiş** və “Yeddi günbəz” qəbiristanlığında dəfn edilmişdir.

Sabirin yaxınlıq etdiyi **ziyalılar** aşağıdakılardır: 1901-ci ildə Tehranda ali həkimlik təhsilini başa vurub Şamaxıya qayıdan **A. Səhhət, C.Məmmədquluzadə, F.Köçərli, H.Zərdabi.** O, **Ağalibəy Naseh** və **Məhəmməd Tərrahla** birlikdə Şamaxıda kiçik ədəbi məclis təşkil etmişdir.

**1912**-ci ildə A. Səhhət və M. Mahmudbəyovun təşəbbüsü və köməyi ilə Sabirin **“Hophopnamə**” adlı kitabı nəşr olunur.

**1913**-cü ildə “Hophopnamə” təkmilləşdirilərək yenidən çap edilir. XX əsr boyu “Hophopnamə” dəfələrlə nəşr olunur, Avropa və Şərq xalqlarının dilinə çevrilir.

**1919**-cu ildə Bakıda şairin adına kitabxana təsis edilmişdir.

**1922**-ci ildə Bakıda heykəli qoyulmuşdur.

**1962**-ci ildə Şamaxıda heykəli ucaldılmışdır.

**1962**-ci ildə anadan olmasının 100 illiyi keçirilmişdir.

## YARADICILIĞI

M.Ə.Sabir **vətən** və **hürriyyət** şairi, **mollanəsrəddinçi satirik şeir məktəbinin** yaradıcısıdır. A.Səhhət Sabirin ədəbiyyatımızdakı mövqeyi haqqında yazır ki, o, “köhnə şeirlərlə yeni şeirlər arasında bir əsrlik uçurum açdı ki, bir daha dönüb o uçurumu geriyə atılmağa kimsədə cürət qalmadı”.

Sabir yaradıcılığa **ibtidai məktəbdə oxuyarkən** başlamış, ilk şeirlərini klassik lirika ənənələri əsasında qələmə almışdır. Sabir **dini mərsiyələr**, **lirik şeirlər**, **satiralar, felyetonlar, məqalələr** yazmış, **tərcümələr** etmişdir. Sabir şeirlərini **əruz** vəznində yazmışdır.

Ədəbiyyatımıza gətirdiyi **janrlar**:

**-taziyanə, -qırmanc, -satirik marş, -bəhri-təvil, -sual**

### 1.MƏRSİYƏLƏRİ

Sabirin mərsiyələri Kərbəla müsibətləri, dini şəxsiyyətlər və dini hadisələr haqqındadır. Onun **mərsiyə** yazdığı şəxsiyyətlər aşağıdakılardır:

**H. Zərdabi, Müzəffərəddin şah, Hacı Məcid Əfəndi**

Sabirin bəzi mərsiyələrində ictimai motivlər, milli ideyalar ifadə olunur. Buna görə də o, mərsiyələrindən birini **“Növheyi-milli”** adlandırmışdı.

## 2.LİRİK ŞEİRLƏRİ

Lirika baxımından Sabirin şeirlərini **3 qismə** ayırmaq olar: klassik üslublu qəzəlləri, ictimai-siyasi şeirləri, uşaq şeirləri.

**1) Klassik üslubda yazılan qəzəllər**

Bunlarda klassik poeziyanın və S.Ə.Şirvaninin təsiri hiss edilir. Qəzəllər Sabirin bədii istedadını qabarıq surətdə nəzərə çarpdırır.

**--"Var" rədifli qəzəl**i. Klassik üslubda yazılmış digər qəzəllərdə olduğu kimi, bu şeirdə də Leyli və Məcnun kimi qəhrəmanlara, klassik poeziyadakı bədii təsvir və ifadə vasitələrinə tez-tez rast gəlmək olur:

Şərü hər muyidə min aşiqi-nalanın var,
Məgər, ey şux ki, bir cismdə min canın var?
…Hər mərəz çarəsini eyləmək asandı, təbib,
Mərəzi-eşqə nə tədbir, nə fərmanın var.
Sabira, qərq edər axır səni bu seyli-bəla,
Olma qafil belə kim, dideyi-giryanın var.

**--"İstəsən könlüm kimi zülfi-pərişan olmasın" qəzəli.**

**--"Ey dil, amandı, sirrimi biganə bilməsin" qəzəli.**

Son iki qəzəldə Sabirin özünəməxsus təsvir və ifadə vasitələri, fikir və mətləbləri hiss edilir.

**2) İctimai-siyasi şeirlər**

**--"Fəxriyyə"** (1907, 26 avqust). "Molla Nəsrəddin" jurnalında çap edilmişdir. Klassik fəxriyyələrdən ciddi şəkildə fərqlənir; **milli və dini birlik** ideyasına həsr edilmişdir. Şair millətimizin "öz qövmümüzün başına əngəl-kələf" olmasının səbəblərini araşdırmış, səhvləri təhlildən keçirmiş, bunlardan ibrət dərsi almağa, milli birliyə çağırmışdır.

**--"Ruhum"** (1910). "Yeni füyuzat" jurnalında çap edilmişdir. **Azadlıq** idealını əks etdirir. Sabir ən sıxıntılı günlərində, xəstəlik dövründə yazdığı bu şeirdə mövcud cəmiyyətə tənqidi münasibətini ifadə etmişdir. Bunu şeirdəki **"Yanma sən də**

**mənimtək narə", "Bir səfa bulmadıq bu aləmdə"** misraları da təsdiqləyir.

Azadlıq günəşinin doğacağına inam yaradan "Ruhum" şeiri şairin vəsiyyətnaməsi təsiri bağışlayır:

Mən gedərsəm, var olsun amalım!
Yaşasın Şəhriyari-hürriyyət!
Yaşasın Şəhriyari-hürriyyət!
Mən gedərsəm, var olsun amalım!

**3)Uşaq şeirləri**

M.Ə.Sabirin uşaqlar üçün yazdığı şeirlər bunlardır: **"Uşaq və buz", "Yaz günləri", "Cütçü", "Yalançı çoban".**

Bu şeirlərin əsasını **"Hər işin ibtidası tərbiyədir"** ideyası təşkil edir. Sabir həmin şeirlər vasitəsilə uşaqları məktəbə, elmə, təhsilə həvəsləndirməyə səy göstərmişdir.

Sabir ilk növbədə elmin, məktəbin mahiyyətini, faydasını gənc nəslə çatdırmaq istəmişdir:

Məktəbdə var şərafət,
Dəftərdə var lətafət.
Cari olur qələmdən
Şirin-şirin hekayət.

Yaxud:

Elm öyrən, imtahan ver,
Öz fəslini nişan ver.
Qədrin bil elmü fənnin,
Elmin yolunda can ver.
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!

Sabirin yeni nəsil üçün ibratəmiz **olan təmsilləri, alleqorik şeirləri** və **mənzum hekayələri** də vardır.

**1) Təmsilləri** bunlardır: **"Hörümçək və ipəkqurdu", "Qarğa və tülkü"**. "Qarğa və tülkü" İ.A.Krılovun təmsili əsasında yazılmışdır.

**2) Alleqorik** şeiri: **“Ağacların bəhsi”**

**3) Mənzum** hekayələri: **“Camış və sel”, “Molla Nəsrəddin və oğru”, “İskəndər və fəqir”**

**3.TƏRCÜMƏLƏRİ:**

**1.Firdovsinin “Şahnamə”** əsərindən bir parça

**2. Sədinin “Gülüstan”** əsərindən bir parça

**4. SATİRALARI.**

Sabir Azərbaycan satirik şeirinin ən qüdrətli yaradıcısıdır. Onun Vətən və millət, milli oyanış və tərəqqi barəsində satirik şeirlər yazmasına münbit şərait yaradan **amillər**:

**1)** Rusiyada baş vermiş 1905-ci il inqilabı

**2)** Cənubi Azərbaycandakı Məşrutə hərəkatı

O, xalqa həqq söz deməkdən çəkinmədiyini “**Bilmirəm**” rədifli şeirində bəyan etmişdir:

Mən belə əsrarı qana bilmirəm,
Qanmaz olub da dayana bilmirəm.
…Derlər utan, heç kəsə bir söz demə –
Haq sözü derkən utana bilmirəm!..
Neyləməli, göz görür, əqlim kəsir,
Mən günəşi göydə dana bilmirəm.

Sabir satirasının **mövzuları** aşağıdakılardır:

**1)** dövrün Azərbaycan üçün yaratdığı çətinliklər

**2)** mədəni və ictimai gerilikdən doğan problemlər

**3)** mövhumat və cəhalət əleyhinə barışmaz mübarizə

**4)** qadın azadlığı

Sabirin başlıca məqsədi **xalqı oyatmaq və ona öz hüquqlarını** başa salmaqdar.

<u>1) Cəhalət və geriliyi tənqid edən satirik şeirləri</u>**:**

**“Pah atonnan, nə ağır yatdı bu oğlan, ölübə”, “Ayılma”, “Bizə nə”, “Kim nə deyər bizdə olan qeyrətə”, “Qoyma, gəldi”, “Adəmi adəm eyləyən paradır”.**

Bu tipli şeirlərdə məşəqqətli vəziyyətdə yaşamağın mümkünsüzlüyü göstərilir:

Açsan gözünü rəncü məşəqqət görəcəksən,
Millətdə qəm, ümmətdə küdurət görəcəksən,
Qıldıqca nəzər millətə heyrət görəcəksən,
Çək başına yorğanını, nikbətdən ayılma!
Laylay, bala, laylay!
Yat qal dala, laylay!

**Yaxud:**

Pah atonnan, nə ağır yatdı bu oğlan, ölübə!
Nə də tərpənməyir üstündəki yorğan, ölübə!
Bu qədər qışqırığa durdu qonum-qonşu təmam,
Dəbərişmiş də, veribdir, deyəsən, can ölübə!
…Hansı bir doktora ərz etdim onun illətini,
Dedi: çək bundan əlin, boşla, bu çoxdan ölübə!

Bu şeirlərdə şair milləti **ayılmağa,** əsarətdən xilas olmağa, özünü dərk etməyə, haqlarını başa düşməyə səsləyir. Şairin seçdiyi **oyanmış qəhrəmən** “Qanma!” əmrinə “Qabili-imkanmı olur qanmamaq?” cavabını verir:

–Görmə! – Baş üstə yumaram gözlərim.
–Dinmə! – Mütiyəm, kəsərəm sözlərim.
–Bir söz eşitmə! – Qulağım bağlaram.
Gülmə! – Pəkey, şamü səhər ağlaram.
Qanma! – Bacarmam! Məni məzur tut,
Böyləcə təklifi-məalı unut!
Qabili-imkanmı olur qanmamaq?
Məcməri-nar içrə olub yanmamaq?!

2) Elmsizliyin savadsızlığın bəlalarını tənqid edən maarifçi satirik şeirlər:

**“Uşaqdır”, “Oxutmuram, əl çəkin”, “Uçitellər”, “Müəllimlər syezdi”, “Ürəfa marşı”.**

Bu şeirlərdə məktəbin və təhsilin düşmənlərinin ifşası olunmuş, yalnız elm öyrənməklə, təhsil almaqla özünüdərkin mümkünlüyü göstərilmişdir:

Yıxdın evimi, eylədin övladını saye,
İş keçdi məhəldən.
Mən anlamazam elm nədir, ya ki, sənaye,
Zarəm bu əməldən!
…Bəsdir oxudun, az qala canın tələf oldu,
Bu kardan əl çək!
Yazmaq, oxumaq başına əngəl-kələf oldu,
Əşardan əl çək!

Sabir dolayı yolla məktəbin milli oyanışın, dirçəliş və tərəqqinin əsas hərəkətverici qüvvəsi olduğu qənaətindədir.

3) Yalançı din xadimlərinin iç üzünü açan satirik şeirlər:

Şair şəxsi mənafeyini üstün tutan qondarma din təmsilçilərini ifşa etmək üçün onların mənfur niyyətlərini açıb göstərir. Sabir hətta onların yeri gəldikdə yad ölkələrin maraqlarını həyata keçirən missionerlərlə də həmrəy ola biləcəklərini yada salır:

Mollalar, taleyiniz oldu əcəb yar bu gün,
Misyonerlər də bizə çıxdı həmvar bu gün!
O ki məktəbləri məhv etmək idi niyyətimiz,
Yox idi əldə və lakin ona bir qüdrətimiz.
Məktəb artdıqca azalmaqda idi sənətimiz.
Günbəgün zaid olurdu qəmimiz, möhnətimiz,
Arkadaşlar, sevinin, oldu rəva hacətimiz!

Bununla belə Sabir ateist, dinsiz deyildir. O, islam dininə inanan, ehtiram göstərən Azərbaycan şairidir.

"**A şirvanlılar**" rədifli şeirində islam dini içərisindəki bölücülüyə, **sünni-şiə ayrıseçkiliyinə** qarşı çıxmışdır. Eyni zamanda özünün müqəddəs Qurana qail olduğunu, islamın bütövlüyünü qoruyub saxlamağa tərəfdar çıxdığını bəyan etmişdir:

Əşhədü billahi əliyyül əzim,
Sahibi imanəm, a şirvanlılar!
Yox yeni bir dinə yəqinim mənim,
Köhnə müsəlmanəm, a şirvanlılar!
Şiəyəm, əmma nə bu əşkalədən,
Sünniyəm, əmma nə bu əmsalədən,
Sufiyəm, əmma nə bu əbdalədən,
Haqsevən insanəm, a şirvanlılar!
Ümməti-mərhuməvü məğfur ilə,
Əmrdəyəm taəti-məzbur ilə,
Kürfümə hökm eləməyin zori lə
Qaili-Quranəm, a şirvanlılar!

Şeirdə Sabirin özünü onu yalandan dinsiz adlandıranlardan müdafiə etməsi niyyəti də duyulur.

4) Bəşəri ideyaları əks etdirən satirik şeirləri.

"**Daş qəlbli insanları neylərdin, ilahi"** ("Molla Nəsrəddin", 6 yanvar 1908) satirasında Sabirin milli olduğu qədər də **bəşəri** olması açıqca duyulur. Bu şeirdə geniş mənada insanlığın taleyi təhlil olunur. Şair burada zalımlığa və haqsızlığa qarşı çıxdığını böyük vətəndaşlıq cəsarəti ilə ifadə etmişdir:

Bir dövrdə kim, silqü səfa qalmayacaqmış,
Bilməm belə dövranları neylərdin ilahi?!
Məzlumların göz yaşı dərya olacaqmış,
Dəryaları, ümmanları neylərdin ilahi?!
Bağın, əkinin xeyrini bəylər görəcəkmiş,
Toxm əkməyə dehqanları neylərdin, ilahi?!
Hökm eyləyəcəkmiş bütün aləmdə cəhalət, –
Dildadeyi irfanları neylərdin ilahi?!

Satiradakı suallar Azərbaycandakı kimi, türk-müsəlman aləmində də, digər məmləkətlərdə də aktual səslənir.

5.Vətən və millət motivlərini əks etdirən şeirləri:

"Dindirir əsr bizi", "Millət şərqisi", "Ürəfa marşı", "İstiqbal bizimdir", "İstiqbalımız lağlağıdır", "Kim nə deyər bizdə olan qeyrətə", "Ey dilbəri-hürriyyət", "Amalımız, əfkarımız ifnayi-vətəndir".

## "AMALIMIZ, ƏFKARIMIZ İFNAYİ-VƏTƏNDİR"

**Satira** "Molla Nəsrəddin" jurnalının 10 mart 1907-ci il sayında çap edilmişdir. Türk şairi **Namiq Kamalın "Vətəndir" rədifli şeirinə** cavab olaraq yazılmışdır.

Şeir satirik əsərlərin ruhuna uyğun olaraq tənqidi ruhda yazılmışdır. İlk növbədə **yol kəsməklə, qoçuluqla, lovğalıqla** Vətənin oyanışının mümkün olmayacağı göstərilir:

Qafqazlı adı aləmə ikrah-rəsandır,
Quldur, qoçumuz zülmdə məşhuri-cəhandır,
Kim dersə tərəqqi edəniz, məncə, yalandır,
Bəxlü həsədə adət edib, kam alırız biz,
Qafqazlılarız, yol kəsiriz, nam alırız biz!

Millət naminə çalışmayan **imkanlılar** da satiranın gücü ilə qamçılanmışdır:

Əqrəb kimi neştər gücü var dırnağımızda,
İslam susuz olsa, su yox bardağımızda,
Hər küncdə min tülkü yatıb çardağımızda,
Min hiylə qurub, qütbəvü ikram alırız biz,
Qafqazlılarız, yol kəsiriz, nam alırız biz!

Sabir millətin istiqbalını maariflənməklə tərəqqiyə qovuşmaqda görür. Şairə görə, özümüzdə olan **imtiyaz sahibləri** də avropalı maarifpərvərlərə baxıb nəticə çıxarmalı, məktəbə, maarifə meydan açmalıdırlar:

Biz xoşlamanıq dərsi ki, min məktəb açılsın,
Gər min də məarif sözü dünyayə saçılsın,
Məktəbdə nə hörmət ki, o samənə qaçılsın?
Meyxanədə votqa vurarız, kam alırız biz,
Qafqazlılarız, yol kəsiriz, nam alırız biz!

Şeirin hər bəndinin sonunda təkrar edilən **"Qafqazlılarız"** ifadəsi **"azərbaycanlılarız"** mənasını bildirir. Əslində "Qafqazlı" ifadəsində müəyyən ümumiləşmə də vardır: Sabir **Qafqazda yaşayan azərbaycanlıların** taleyindən bəhs edirdi.

"Amalımız, əfkarımız ifnayi-vətəndir" satirası Vətən problemini ön mövqeyə çəkir və vətənimizin, xalqımızın milli dirçəlişi ilə əlaqədar əsas vəzifələri özündə cəmləşdirir.

Şeir **müasir** səslənir. Müstəqillik dövrünün hazırkı milli-mənəvi özünüdərk proseslərində "Amalımız, əfkarımız ifnayi-vətəndir" satirasından çox mətləbləri öyrənmək olar.

6. Sabirin Məşrutə hərəkatı ilə bağlı şeirləri:

"İstiqbalımız lağlağıdır", "İran özümündür", "Satıram", "Doğrudan da, Məmmədəli, qeyrət halal olsun sənə", "Nədir, ayə, yenə üsyanları iranlıların", "Səbəb boynuyoğun oldu", "Mir Haşım Təbrizi", "Əhli İranda da, oğlan, yenə himmət görünür", "Avropada Məmmədəlinin eşqbazlığı", "Müxbirüssəltənəyə" və "Səttarxana".

## "SƏTTARXANA" şeiri

"Səttarxana" şeiri "Molla Nəsrəddin" jurnalının **1908**-ci il 20 sentyabr sayında çap edilmiş və Sabirin Məşrutə hərəkatından bəhs edən şeirləri sırasında xüsusi yer tutur. Bu şeir satirik deyil, ictimai-lirika üslubunda qələmə alınmışdır. A.Səhhət yazır: "Sabir əfəndinin əşarı bu beş ilin müddətində İran məşrutəsinə bir ordudan ziyadə xidmət etmişdir".

Şeir "**Sərdari-milli**" adı ilə məşhurlaşan **Səttarxan Hacı Həsən oğluna** (1867-1914) həsr edilmişdir.

1908-ci ildə Təbrizə yeridilmiş şah qoşunları Səttarxanın başçılığı ilə darmadağın edilmişdir. Bu hadisə məşrutə hərəkatının zirvəsi idi. "Səttarxana" şeiri də məhz həmin vaxt qələmə alınmışdır. Hətta birinci bənddə məhz baş vermiş tarixi zəfərdən doğan sevinc oxucuların nəzərinə çatdırılır.

Şeirdə Tehranda Məclisin buraxılmağa məcbur edilməsindən sonra Cənubi Azərbaycan vilayətlərində, xüsusən Təbrizdəki yüksək nikbin ovqat ön plana çəkilmişdir. Böyük şair Sabir bu tarixi nailiyyətin səbəbini Səttarxanla İranlı azərbaycanlıların birliyində görmüşdür. Beləliklə, bunlar İranda **azərbaycançılığın qələbəsi** kimi mənalandırılır:

Ta ki Millət Məcməin Tehranda viran etdilər,
Türklər Səttarxan ilə əhdü peyman etdilər,
Zülmü-istibdadə qarşı nifrət elan etdilər,
Millətə, milliyyətə can nəqdi qurban etdilər,
Ayeyi "zibhi-əzim" itlaqı ol qurbanədir,
Afərinim himməti-valayı-Səttarxanədir…

Ədəbiyyatımızda **ilk dəfə** olaraq Səttarxanın bir **milli qəhrəman** kimi dolğun bədii obrazı yaradılır və Sabir ictimai-siyasi lirikada da **portret yaratmağın ustası** olduğunu sübut edir. Şair Səttarxanın azərbaycanlı olmasından iftixar duyur:

İştə Səttarxan, baxız, bir növ iqdamat edib,
Bir vəzirü şahi yox, dünyanı yeksər mat edib, –
İrzü İslamı, vətən namusunu yüz qat edib,
Hörməti-heysiyyəti-milliyyətin isbat edib,
İndi dünyanın təvəccöh nöqtəsi İranədir,
Afərinim himməti-valayı-Səttarxanədir.

Sabir Səttarxanı **"oddan qorxmayan pərvanəyə"** bənzədir. Səttarxana və onun silahdaşlarına böyük ehtiram ifadə edilmişdir. Səttarxanın **islam dünyası**, geniş mənada **insanlıq üçün** böyük xidmətləri olduğu göstərilmişdir:

Afərin, təbriziyan, etdiz əcəb əhdə vəfa!
Dostü düşmən, əl çalıb, eylər Sizə səd mərhəba!
Çox yaşa, dövlətli Səttərxan, əfəndim, çox yaşa!
Cənnəti-əlada peyğəmbər sizə eylər dua.
Çün bu xidmətlər bütün islamədir, insanədir,
Afərinim himməti-valayı-Səttarxanədir.

Şeirdə işlədilmiş "**şeiri-tər**", "**cürəti-mərdanə**", "**xakına**", "**heysiyyəti-milliyə**" kimi alınma ifadələr Azərbaycan ədəbi dilində olduğuna görə mətləbin təqdiminə xələl gətirmirlər.

Bu şeir bir çox mücahidlər arasında **nəğmə** kimi, döyüşə gedən əsgərlər tərəfindən **marş** kimi oxunmuşdur. Şeir milli-azadlıq hərəkatının **himninə** çevrilmişdir.

Şeirin hər bəndinin axırı "**Afərinim himməti-valayı-Səttarxanədir**" misrası ilə qurtarır.

"Səttarxana" şeiri **müsəddəs** şəklində və əruz vəzninin **rəməl** bəhrində yazılmışdır.

**Sənətkarlığı**. Sabir **tipi öz dili ilə danışdırıb ifşa etmək** üsulunu seçmişdir. Eyni zamanda satirada **bədii portret yaratmaq** ustasıdır:

Dudkeş kimi bir papaq başında,
Ağ tükləri bəllidir qaşında.
Gərçi qocadır – babam yaşında,
Xortdandı, xoxandı, qoyma gəldi!
Kirdarı yamandı, qoyma gəldi!

Yaxud:

Ömr ötüşüb, baş ağarıb un kimi,
Diş tökülüb, saqqal olub yun kimi,
Sinə çöküb, bel bükülüb nun kimi,
Gərçi olubsan qoca meymun kimi.
Tez götürüb tiryakını at, kişi!
Qəlyanın cağla, xoruldat, kişi!

**"Əhvalpürsanlıq"** şeiri satirada dialoqa ən mükəmməl nümunədir. Dialoqlar satiralara süjet əlamətləri gətirir. Sabir Azərbaycan ədəbiyyatında **süjetli satirik** şeirin **ilk** yaradıcısıdır. Sabirin süjetli satira nümunələri satirik məzmuna malik mənzum hekayələrdən fərqlənir. Mənzum hekayələrdə **epik təsvir, nağıl-varilik**, Sabirin süjetli satiralarında isə canlı mükalimə əsasında ifadə olunan **əhvalatlar və münasibətlər** əsasdır.

Sabir əruz vəznini satirik şeir üçün doğmalaşdırmışdır. Sabir əruz vəzninin əsas bəhrlərinin hamısında satira nümunələri yaratmışdır.

# ƏN YENİ DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

Bu dövr Xalq Cümhuriyyəti illərindən (1918-1920) başlayır. Həmin vaxt vahid bir ideologiya, milli məfkurə – **azərbaycançılıq** formalaşır. Bu dövr 2 mərhələyə bölünür:

**I MƏRHƏLƏ** – XX əsrin 10-cu illərinin sonlarından (Xalq Cümhuriyyətinin yaranmasından) 50-ci illərə qədər.

**II MƏRHƏLƏ** – XX əsrin 50-ci illərindən bu günə qədər.

## I MƏRHƏLƏ
## XX ƏSRİN 10-CU İLLƏRİN SONLARINDAN 50-Cİ İLLƏRƏ QƏDƏR

Xalq Cümhuriyyəti dövründə həyata keçirilən məsələlər:

**1) Bakı Dövlət Universiteti** yarandı.

**2)** Tələbələr **xaricdə** oxumağa göndərildi.

**3)** Parlament Azərbaycan türkcəsini **dövlət dili** elan etdi.

Xalq Cümhuriyyəti dövründə **ədəbiyyatda meydana çıxan** əsas cəhətlər:

**1) Türkçülük, cümhuriyyətçilik, milli dövlətçilik** ideyalarının tərənnümü.

**2)** Azərbaycan **milli varlığı uğrunda mübarizə** ön plana keçir. Bu məsələdə F.Köçərli, H.Cavid, C.Cabbarlı, Ə.Cavad, Ü.Hacıbəyli, S.Hüseyn, A.Şaiq, Y.V.Çəmənzəminli, M.Ə.Rəsulzadə kimi sənətkarlar xüsusi rol oynamışlar.

**3)** İlk yaradıcılıq təşkilatları və cəmiyyətlər yaranırdı. Siyasi-ideoloji məram yaradıcılıq təşkilatlarının adında da özünü göstərirdi: **“Yaşıl qələm”, “Qırmızı qələm”.** “Yaşıl” rəng türkçülüyün, müsəlmançılığın, “qırmızı” isə müasir inqilabçılığın ifadəsi idi.

**20-30**-cu illərdə isə milli məfkurəyə amansız qəsdlər edilirdi. Ancaq artıq müəyyən yaradıcılıq təcrübəsi olan maarifçi-demokrat, tənqidi-realist, yaxud romantik sənətkarları asanlıqla kommunistləşdirmək mümkün deyildir. C.Məmmədquluzadə, H.Cavid, N.Vəzirov, S.S.Axundov, Y.V.Çəmənzəminli, S.Hüseyn və başqaları "yeni dövr" ideologiyasına müqavimət göstərirdilər.

**1925**-ci ildə Bakıda **"Qızıl qələmlər" cəmiyyəti** yaradıldı; Gəncə, Naxçıvan, Qubada şöbələri təşkil edildi. Bu cəmiyyətin üzvləri gənclərdən ibarət idi və onlar sovet ədəbiyyatının ilk nümunələrini yaradırdılar.

**1928**-ci ildə **Azərbaycan Yazıçılar Cəmiyyəti** yaradıldı. Cəmiyyətin yığıncaqlarında proletar beynəlmiləlçiliyindən, rus xalqının qüdrətindən, "dahi rəhbər" Lenindən, sovet quruluşunun uğurlarından yazmayan, "sosialist inqilabını gözü götürməyən" sənətkarlar tənqid olunurdular.

1934-cü ildə **Azərbaycan Yazıçılar İttifaqı** yaradıldı. Bu ittifaqda 20-ci illərin sonu 30-cu illərin əvvələrində formalaşmış sovet yazıçıları aparıcı mövqe tuturdular və onlar **"formaca milli, məzmunca sosialist"** ədəbiyyatın ilk yaradıcıları idilər.

**1.Azərbaycan sovet ədəbiyyatı**

Bu dövrdə ədəbiyyatın birinci qolu **Azərbaycan sovet** ədəbiyyatıdır. Sovet ədəbiyyatının mərhələləri:

**1) təşəkkül mərhələsi** – 20-ci illərin ortalarından 30-cu illərin əvvəllərinə qədər.

**2) təkamül mərhələsi** – 30-cu illərin əvvəllərindən 50-ci illərin ortalarına qədər.

**3) süqut mərhələsi** – 50-ci illərin ortalarından 80-ci illərə qədər.

Bu dövrdə ədəbi proses üçün səciyyəvi olmayan aşağıdakı cəhətlər meydana çıxdı: **siyasi amiranəlik, inzibatçılıq, vulqar**

**sosioloji müdaxilə.** Onlarla Azərbaycan yazıçısı sovet rejiminin qurbanlarına çevrildilər.

Sovet ideologiyasının ədəbiyyatda **milli məfkurəyə qarşı mübarizəsi** aşağıdakı sahələrdə özünü göstərdi:

**1)** Türkçülük millətçilik hesab edilir, milli mənafeni sinfi mənafe əvəz edirdi.

**2)** Müsəlmançılıq, ümumiyyətlə, hər cür dini dünyagörüş inkar olunurdu.

**3)** Müasirlik sovet gerçəkliyinin tərənnümü ilə məhdudlaşdırılırdı.

Bununla bərabər milli məfkurə (**azərbaycançılıq**) aşağıdakı məqamlarda qorunurdu:

**1)** Milli siyasi oyanışın yaratdığı ovqat davam edirdi.

**2)** Xalq ədəbiyyatının toplanması, nəşri davam edirdi, xalq ruhunun ədəbiyyatda inikası kütləvi hal almışdı.

**3)** Ədəbiyyat xalqın ana dilində yaranırdı.

Bu dövrdə **"sosialist realizm"** adlanan metod sovet cəmiyyətindəki nöqsanları göstərməyi, insanın daxili aləmini əks etdirməyi qadağan edirdi.

**II Dünya müharibəsi** illərində "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı ədəbiyyata da aid idi.

**Müharibədən sonrakı** illərdə ədəbiyyatda aşağıdakı mövzular yer tuturdu:

**- müharibə, -"dinc quruculuq", -istehsalat, - təsərrüfat**

**2. Cənubi Azərbaycan ədəbiyyatı**

Bu dövrdə ədəbiyyatın ikinci qolu **Cənubi Azərbaycan** ədəbiyyatıdır. Həmin ədəbiyyatın orta əsrlərdən gələn mövzuları **məhəbbət, əxlaq-didaktika**, yeni mövzusu **ictimai-siyasi məsələlər,** əsas növü isə **poeziya** olmuşdur.

40-cı illərin sonlarında Cənubdan Şimala gələn sənətkarlar: B.Azəroğlu, H.Bülluri, M.Gülgün, Ə.Tudə, S.Tahir. Bu dövrdən başlanan mövzular isə aşağıdakılardır:

**1)** Azərbaycan, Təbriz həsrəti

**2)** Şimal-Cənub, Vətənin bütövlüyü ideyaları

**3. Mühacirət ədəbiyyatı**

Bu dövrdə ədəbiyyatın üçüncü qolu **mühacirət ədəbiyyatıdır.** 20-30-cu illərdə Vətəni tərk edib Türkiyə və Qərbi Avropada məskunlaşan mühacir yazıçılar müsavat məfkurəsini, Xalq Cümhuriyyəti illərində yaranmış milli ruhu təmsil edirdilər. Mühacir ədəbiyyatı sovet ideologiyasının təsirindən tamamilə uzaq olan bir ədəbiyyat idi.

## POEZİYA

**10-cu illərin sonu 20-ci illərin əvvəllərində** poeziya milli vətənpərvərliyin, cümhuriyyətçiliyin əsas tərənnümçüsü idi. Siyasi-publisistik şeir son dərəcə genişlənmişdir.

**20-ci illərdə** "sovet vətənpərvərliyinin" təbliği başlandı, milli məfkurə tədricən poeziyadan sıxışdırıldı.

**30-cu illərdə** sovet poeziyası öz inkişafının yüksək mərhələsinə çatmışdır: "Yeni dünya", "xariqələr yaradan sovet adamı", "sosialist kəndi", "fəhlə əməyi" tərənnüm olunurdu. Eyni zamanda həmin illərdə müasir Azərbaycan poeziyası formalaşdı və Səməd Vurğun bu poeziyanın önündə gedirdi.

**41-45-ci illərdə II** Dünya müharibəsi illərində sovet əsgəri qələbəyə ruhlandırılırdı.

**50-ci illərdə** sovet poeziyası ənənəvi mövzularla yanaşı xalqlar dostluğundan, sosialist beynəlmiləlçiliyindən, beynəlxalq məsələlərdən bəhs etməyə başladı.

Əruz vəzninin fəaliyyəti məhdudlaşdı, xalq şeiri, heca vəzni yazılı poeziyasının əsasını təşkil etdi, V.V.Mayakovskinin

təsiri altında sərbəst vəzndən də istifadə edilməyə başlandı. Poeziyanın əsasında **sovet-kommunist ideologiyası** dayansa da, Azərbaycan tarixi, təbii gözəlliklər, milli vətənpərvərlik hissləri tərənnüm olunurdu.

**Əhməd Cavad** (1892-1937) – **ADR-in himnini** yazmışdır, Cümhuriyyətin alovlu tərənnümçüsü idi. "**Çırpınırdın Qara dəniz**" şeiri (1914) onun böyük bir türk vətənpərvəri olduğunu göstərir, Ş.Rustaveli, V.Şekspir, F.Rablenin əsərlərini tərcümə etmişdir. 1937-ci ildə güllələnmişdir.

**Süleyman Rüstəm** (1906-1989) – Azərbaycan sovet poeziyasının yaradıcılarından biridir. İlk şeirlər kitabı **"Ələmdən nəşəyə"** (1927) adlanır. Həmişə sovet vətənpərvəri olması ilə fəxr etmişdir. Onun "partbiletim sol cibimdə, ürəyimin başındadır" sözləri Azərbaycan sovet şairinin poetik şəxsiyyətini müəyyənləşdirir. Qəzəlləri də vardır.

**Məmməd Rahim** (1907-1977) – Azərbaycan sovet poeziyasının görkəmli nümayəndələrindəndir. **"Leninqrad göylərində"** poemasında azərbaycanlı təyyarəçinin qəhrəmanlığı tərənnüm olunur.

**Mikayıl Müşfiq** (1908-1938) – Kitabları: "**Küləklər**" (1930), **"Günün səsləri"** (1930), "**Vuruşmalar**" (1932), **"Bir may"** (1932), **"Şeirlər"** (1934).

Onun heç bir ideoloji çərçivəyə sığmayacaq ilhamı və şəxsiyyəti sovet rejiminin sənət və sənətkar qarşısında qoyduğu tələblərə uyğun deyildi. 1937-ci ildə həbs edilmiş və 1938-ci illərin əvvəllərində güllələnmişdir.

**Osman Sarıvəlli** (1905-1990). Azərbaycan sovet poeziyasının xalq ruhu, aşıq sənəti ilə bağlı qolunun nümayəndəsi olmuşdur. Onun S.Vurğunla dostluğu Vidadi ilə Vaqifin dostluğunu xatırladır.

**Əliağa Vahid** (1895-1965). Əruz vəzninin sadələşməsində, xalq danışıq dilinə yaxınlaşmasında xidməti var.

**<u>Mirvarid Dilbazi</u>** (1912-2001). Yaradıcılığa 30-cu illərdən başlamışdır. Azərbaycan sovet poeziyasının yaradıcılarından biridir. Onun şeirlərində publisistik bir ehtiras vardır.

**<u>Nigar Rəfibəyli</u>** (1913-1981). Yaradıcılığa 30-cu illərdən başlamışdır. Azərbaycan sovet poeziyasının yaradıcılarından biridir.

## N Ə S R

Aparıcı janr hekayə olsa da, povestlər, romanlar, hətta epopeyalar meydana çıxır. Azərbaycan sovet nəsrində müəyyən sxematiklik, həyat hadisələrinin yazıçı tərəfindən məqsədli şəkildə qurulması müşahidə olunur.

**<u>Seyid Hüseyn</u>** (1887-1937). 20-30-cu illərdə yazdığı hekayələrində "köhnə" və "yeni" həyatın müqayisəsindən bəhs edir. **Hekayə kitabları**: "Yeni həyat yollarında" (1928), "İki həyat arasında" (1930, 1934). 1937-ci ildə güllələnmişdir.

**<u>Məmməd Səid Ordubadi</u>** (1872-1950). Tarixi romanlar ustası kimi məşhurdur. **Romanları**: "Dumanlı Təbriz", "Gizli Bakı", "Döyüşən şəhər", "Qılınc və qələm". Onun romanlarının səciyyəvi xüsusiyyətləri: hadisələrin müfəssəl təsviri, süjetin çoxşaxəliliyi, romantik səhnələrin yaradılması.

**<u>Süleyman Rəhimov</u>** (1900-1983). **Romanları**: "Saçlı", "Ağbulaq dağlarında", "Qafqaz qartalı".

**Epopeya**: "Şamo". Bələd olduğu ictimai-siyasi, etnoqrafik həyatı əks etdirmişdir.

**<u>Əli Vəliyev</u>** (1901-1983) – Əsərlərində yerli kolorit öz ifadəsini bütün zənginliyi ilə tapır, lakin hadisələrin təsvirində sxematikliyə yol vermişdir.

**<u>Mehdi Hüseyn</u>** (1909-1965) – Ədəbiyyat ideoloqu kimi tanınmışdır. Hekayə, povest, roman, ədəbi-tənqidi məqalələr, oçerklər yazmışdır. **Povest və romanları**: "Kin", "Daşqın",

"Tərlan", "Komissar", "Abşeron", "Səhər", "Qara daşlar", "Yeraltı çaylar dənizə axır".

**Mirzə İbrahimov** (1911-1993) – Ədəbiyyata şeirlə gəlmiş və hekayə, roman, pyes, oçerk, ədəbi-tənqidi məqalələr yazmışdır. Azərbaycan Yazıçılar İttifaqına rəhbərlik etmişdir.

**Romanları**: "Gələcək gün", "Böyük dayaq", "Pərvanə".

## DRAMATURGİYA

H.Cavid, C.Cabbarlı, S.Vurğun, M.İbrahimov, M.Hüseyn, S.Rəhman (komediya), İ.Əfəndiyev (lirik-romantik pyeslər).

## ƏDƏBİYYATŞÜNASLIQ

20-ci illərdə F.Köçərlinin yaratdığı böyük məktəbin davamçıları yetişirlər.

Ədəbiyyat tarixi sahəsində görülən ən mühüm iş Azərbaycan folklorunun toplanması, nəşri və araşdırılması olmuşdur. **Vəli Xuluflu, Hümmət Əlizadə, Salman Mümtaz** Azərbaycan folklorşünaslığının əsasını qoymuşlar.

**S.Mümtaz** xalq ədəbiyyatı ilə yanaşı yazılı ədəbiyyatın bir sıra görkəmli nümayəndələrinin əsərlərini də toplayıb nəşr etdirmişdir. O, 1937-ci ildə sürgündə vəfat etmişdir.

30-cu illərdə Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsi işini Məmmədhüseyn Təhmasib, Həmid Araslı, Feyzulla Qasımzadə, Mir Cəlal davam etdirmişlər.

S.Hüseyn, M.Hüseyn kimi yazıçı-tənqidçilərdən sonra Məmməd Arif Dadaşzadə, Məmməd Cəfər kimi peşəkar ədəbiyyat tənqidçiləri yetişmişlər.

# HÜSEYN CAVİD (1882-1941)

## H Ə Y A T I

**1882**-ci il oktyabr ayının 24-də Hüseyn Molla Abdulla oğlu Rasizadə Naxçıvanda anadan olmuş və ilk təhsilini molla-xanada alaraq ərəb və fars dillərini öyrəmişdir. Təhsilini yeni tipli **"Tərbiyə"** məktəbində davam etdirmiş, burada dünyəvi elmlərə yiyələnmişdir. Həmin məktəbin müəllimi və tanınmış şair Məhəmməd Tağı Sidqinin təsiri ilə **"Gülçin"** təxəllüsünü götürmüşdür. Sonralar **"Salik"**, daha sonra isə **"Cavid"** təxəl-lüsü ilə yazmışdır.

**1898-1903**-cü illərdə Cənubi Azərbaycanın Təbriz və Ur-miya şəhərlərində yaşamış, Təbrizdəki **"Talibiyyə"** məktəbində təhsilini davam etdirmişdir.

**1903**-cü ildən "Şərqi-Rus" qəzetində məqalələrlə çıxış et-mişdir.

**1906-1909**-cu illərdə İstanbul Universitetində oxumuş, Rza Tofiq, Tofiq Fikrət kimi görkəmli şairlərin əsərlərindən fay-dalanmışdır. Bu zaman **"Növhə"** şeirini "İrşad" qəzetində, **"Bir ahi-məzlumanə"** əsərini "Füyuzat" dərgisində çap etdirmişdir.

**1909-1910**-cu illərdə Naxçıvanda müəllimliklə məşğul olmuş, burada **"Ana"** pyesini yazmışdır.

**1911-1917**-ci illərdə Tiflisdə yaşamışdır. Bu vaxt **"Ma-ral"** (1912), **"Şeyx Sənan"** (1914), **"Şeyda"** (1916) pyeslərini qələmə almışdır. **"Keçmiş günlər"** adlı **ilk kitabı** (1913) Tiflis-dəki "Şərq" mətbəəsində çap olunmuşdur.

**1918-1919**-cu illərdə Naxçıvandakı **"Rüşdiyyə"** məktə-bində dərs demişdir.

**1918**-ci ildə **Müşgünaz xanımla** evlənmişdir. Naxçıvan-da yaradılmış Araz-Türk Respublikasının tədbirlərinə rəğbət bəsləmiş, Bakıda Azərbaycan Xalq Cümhuriyyətinin ədəbi birliyi olan **"Yaşıl qələm"** dərnəyinin üzvü olmuşdur.

1918-ci ildə **"Bahar şəbnəmləri"** kitabı çap edilmişdir.

Xalq Cümhuriyyəti dövründə "Bahar şəbnəmləri" kitabının çapı, "İblis" dramının yazılması (1918), "Uçurum" dramının yazılması (1919), "İblis" pyesinin tamaşaya qoyulması (1920) Cavidin ədəbi şöhrətini daha da artırmışdır.

**Sovet dövründə** Müəllimlər İnstitutunda və Bakı Teatr Texnikumunda dərs demiş, **"Azər" poemasını** (1928) yazmışdır.

Bu dövrdə qələmə alığı **pyeslər**: "Afət" (1922), "Peyğəmbər" (1923), "Topal Teymur" (1925), "Knyaz" (1929), "Səyavuş" (1933), "Xəyyam" (1935), "İblisin intiqamı" (1936).

Hüseyn Cavidin nüfuzunun artması ilə bərabər, sənətinə və şəxsiyyətinə paxıllıqla yanaşanların da meydana çıxmasına rəvac verən faktlar aşağıdakılardır:

**1)** Bakıda təşkil olunmuş "Hüseyn Cavid" axşamı (1922);

**2)** Dövlət tərəfindən müalicə olunmuq üçün Almaniyaya göndərilməsi (1926);

**3)** ona fərdi təqaüdün müəyyən olunması (1927);

**4)** əsərlərinin Azərbaycanla yanaşı Zaqafqaziya və Orta Asiya teatrlarında səhnəyə çıxarılması;

**5)** kitablarının nəşri

**1931**-ci ildən Cavidə həsr olunmuş ədəbi məhkəmələrin davamı kimi onun haqqında tənqidi ruhlu məqalələr yazılmışdır.

**1934**-cü ildə Azərbaycan Yazıçılar İttifaqının yığıncaqlarında **"burjua yazıçısı"** və **"müasir həyatı əks etdirməyən"** sənətkar kimi damğalanmışdır.

**1937**-ci ilin iyun ayında həbs edilmiş, "Gizli millətçi əksinqilabi təşkilat" üzvü olması bəhanə edilərək 8 il həbs cəzasına məhkum edilmişdir.

**1938-1940**-cı illərdə Maqadan şəhərindəki həbs düşərgəsində cəza çəkmişdir.

**1941**-ci il dekabrın 5-də vəfat etmişdir.

**1956**-cı il martın 6-da Hüseyn Cavidə bəraət verilmişdir.

**1982**-ci ildə Heydər Əliyevin təşəbbüsü və köməyi ilə Cavidin cənazəsi Sibirdən vətənə gətirilmiş, Naxçıvanda torpağa tapşırılmışdır.

Hüseyn Cavidin adına məktəblər və küçələr verilmiş, anadan olmasının 100 illiyi dövlət səviyyəsində qeyd edilmiş, Bakıda heykəli, Naxçıvanda türbəsi ucaldılmış, ev muzeyləri təşkil edilmişdir.

## YARADICILIĞI

H.Cavid şeirlərini həm **əruz**, həm də **heca** vəznində yazmışdır. Əruzun xəfif, rəməl, müctəs, müzare, mütəqarib bəhrlərində yazmaqla bərabər, ədəbiyyatımızda **“Cavid həzəci”** onun adı ilə bağlıdır.

Azərbaycan şeirinə gətirdiyi **yeni janrlar** bunlardır:

**-sonet, -türkü, -marş**.

Onun yaradıcılığı **romantik şeirlərdən**, **poemalardan** və **dramatik əsərlərdən** ibarətdir.

**1. ŞEİRLƏRİ**

Şeirlərinin başlıca məzmunu aşağıdakılardan ibarətdir:

**1)** idealla varlıq arasındakı ziddiyyət

**2)**ideal həqiqət axtarışlarına istiqamətlənən xəyallardan yaranan lirik-fəlsəfi düşüncələr:

> Xəyal!.. Əvət, yaşadan yalnız əhli-halı odur,
> Yaşarsa bir könül, az-çox xəyal içində yaşar.

Şeir yaradıcılığına **klassik lirika üslubunda** yazdığı qəzəllərlə başlamışdır. Bu şeirlərin dilində **“qəmi-hicran”, “zülfü-yar”, “əhli-dərd”, “zənciri-zülf”** kimi ərəb-fars tərkiblərinə rast gəlinir, lakin onlar anlaşıqlıdır:

> Məndən fələk ayırdı vəfapişə yarımı,
> Tar etdi zülfi-yar kimi ruzigarımı.
> Səbrim tükəndi, yox qəmi-hicranə taqətim,

Hicri-nigar əlimdən alıb ixtiyarımı.
Bir əhli-dərd yoxdu bu viranə şəhərdə,
Tainki şərh edəm ona mən qəlbi-zarımı.
…Hər kəs ki, Salika, çəkib eşqin bəlasını –
Mən eyləməz görəndə mənim ah-zarımı.

İstanbulda yazdığı şeirlərin dilində isə **Anadolu ləhcəsi** görünməyə başlamışdır: **"Rəqs"**, **"Pənbə çarşaf"**, **"Uyuyur"**, **"Ah, yalnız sən"** və **"Keçmiş günlər" kitabında** toplanan digər şeirlər. Sonralar **İstanbul şivəsi** təxminən aradan çıxmışdır.

Yaradıcılığının ilk mərhələsində **ikiüslubluluq** və sonra isə **müxtəlif bədii formalar** özünü göstərmişdir:

**1)** Klassik lirika üslubunda: **"Get"**, **"Könlümü"**, **"Hər yer səfalı, nəşəli"** adlı **qəzəlləri**. **"Rəqs"**, **"Uyuyur"** şeirlərində **müxəmməs** və **müsəddəslərin** müəyyən izi vardır.

**2)** Xalq – aşıq şeiri üslubunda: **"Xuraman-xuraman"** adlı **qoşması**. Şairin **heca vəzninə** üstünlük verməsi bu vəznin ədəbiyyatımız üçün daha da doğmalaşmasına xidmət etmişdir.

**3)** Hər iki üslubun qovuşuğunda: **"Yadi-mazi"**, **"Bir ahi-məzlumanə"** adlı əsərləri.

**4)** Orijinal quruluşlu, yəni dördlük bəndlərlə beytlərin növbələşməsi əsasında yaranan şeirlər: **"Yadi-mazi"**, **"Bir ahi-məzlumanə"**, **"Otuz yaşında"**, **"Bir rəsm qarşısında"**, **"Dəniz tamaşası"**. Məsələn:

Ey Vətən! Ey könül pərəstarı!
Var ümidim, qüsura bakmayasan.
Bizə tərcih edib də əğyarı,
Burakıb nari-hicrə yıkmayasan.

Səni bu hala saldı qəflətimiz,
Daha əfv et! Yetər nədamətimiz.

**5)** İtalyan soneti formasında olanlar: **"Mən istərim ki"**, **"Çəkinmə gül"** şeirləri.

**6)** Monoloqlardan təşkil olunmuş şeirlər: **"Sevinmə, gülmə, quzum", "Məyus bir qəlbin fəryadı", "Məzlumlar üçün", "Neçin", "Uyuyur"**.

"Uyuyur" şeirinin birinci bəndi **bahar nəsiminə**, digər bəndləri isə **quşlara, günəşə, çiçəklərə, mələyə** həsr olunmuşdur. Bahar nəsiminə müraciətlə yazılan monoloqda sevgili məşuqə, günəşə xitabən deyilən monoloqda işıq, səadət tərənnüm olunmuş, çiçəklərə ünvanlanan monoloqda dünyanı dərk etmək yolundakı şübhələr canlandırılmışdır. Sonuncu monoloqda isə bütün məsələlər xəyallar kimi mənalandırılır:

Uyuyur… Of! Ey bəlalı könül,
Çırpınıb durma! Sən də sus artıq,
Vurma, sus! İştə susdu həm bülbül;
Dur, həyatım da getsə dur azacıq,
Uyuyur çünki aşineyi-xəyal,
Uyuyur çünki qayeyi-amal…

**Monoloqlar** Cavidin romantik-fəlsəfi üslubunu səciyyələndirən qüvvətli poetik əlamətlərdir. Monoloqlar şairin şeirlərinə romantik üslubun təbiətindən doğan **təntənə** və **fəlsəfi vüsət** gətirmişdir.

**7)** Dialoqlardan təşkil olunmuş şeirlər: **"Öksüz Ənvər", "Çiçək sevgisi", "Qız məktəbində".** Bunlar lirik səhnəcikləri xatırladır. Həmçinin dialoqlar Cavid lirikasına müəyyən süjet əlamətləri gətirmişdir.

**"Qız məktəbində"** şeiri Azərbaycan şeirində süjetli lirikanın ən mükəməl nümunəsidir. Buradakı poetik mükalimə Gülbaharın nəciblik və ülviliyini mənalandırmağa xidmət edir. Altun bilərzikləri ilə deyil, sadə geyimi, zəngin mənəviyyatı ilə fərqlənən və əsl zinəti təmizlik və bilgi olan Gülbahar Cavid yaradıcılığındakı öksüz ənvərlərin, kiçik sərsərilərin bir növ davamıdır:

–Quzum, yavrum! Adın nədir?
–Gülbahar!

–Pəki, sənin anan, baban varmı?
–Var.
–Nasıl, zənginmidir baban?
–Əvət, zəngin, bəyzadə…
–Öylə isə geydiyin geyim neçin böylə sadə?

Orijinal **təşbeh** və **metaforalar, epitet** və **təkrirlər** Cavid fikrinin qüvvətlənməsinə xidmət etmişdir. H.Cavid təşbeh yaratmaq üçün təbiət hadisələri ilə insan həyatını müqayisə edir. Məsələn, Qara dəniz sahilindəki 80 yaşlı qocanın məğrurluğunu göstərməkdən ötrü onu "ulu bir dağa" bənzədir:

Bu keşməkeşdə möhtəşəm, məğrur,
Qoca, səksən yaşında bir sima;
Uca bir dağ möhnətilə vüqur,

Qoca bir türk edib namazı əda.
Vird oxur, Həqqa eylər ərzi-niyaz,
Bəlkə, dağ sarsılar, o sarsılmaz.

H.Cavid şeirinin bir çox nümunələri aforizm səviyyəsinə yüksəlmişdir:

**1)** Yaşadan kainatı qüvvətdir,
Gücsüzün həp nəsibi zillətdir.
**2)** Kim ki biganədir hüquqə, əvət,
Xain əllərdə məhv olur əlbət.
**3)** Yaşamaq istərsən çalış, çabala,
Rəd olub gurla, bərq olub parla.

Bütün bunlar Hüseyn Cavid lirikasının **novatorluğu** deməkdir.

## 2. POEMALARI

Cavid ilk poemalarını XX əsrin əvvəllərində qələmə almışdır. İlk poemalar lirik-romantik, yaxud romantik-fəlsəfi əsər-

lərdən ibarətdir. Onlar sanki lirik-romantik monoloqlardan yoğrulmuşlar. Süjet əlamətləri və obrazlar yox dərəcəsindədir.

H.Cavidin poemaları:

1) "Bir ahi-məzlumanə" (1907). Bu poemada "künci-möhnətdə" bəlaya düçar edilmiş "ayaq altında payimal olmuş" Vətənin halına təəssüf hissləri mənalandırılmış, qeyrət göstərməyə çağırış motivləri ifadə olunmuşdur.

2) "İştə bir divanədən bir xatirə" (1912)

3) "Hübuti-Adəm" (1913). Burada şair Adəm və Həvva münasibətlərindən alınmış bir məqamda nəfsin fəlakətləri ətrafinda poetik mülahizələr irəli sürülmüşdür.

4) "Azər" (1926-1928). **Lirik-epik poemadır**. Almaniyada müalicə olunarkən yazmağa başlamışdır. Poemada Azər Qərb və Şərq ölkələrinə səyahət edir və bu səyahətdə həmin ellər müqayisə olunur. Beləliklə, Azərin simasında dünyanı, sivilizasiyaları sintez etmək meyli ifadə olunmuşdur:

Şərq elləri irişilməz "xəyal" için yaşarkən,
Qərb Aləmi az da olsa həqiqətdən xoşlanar.
Şərqin sönük duyğusunu afyon ruhu qoşarkən,
Onlar yeni bir silah kəşfini səadət sanır.
Şərq uğraşır yalnız "ölməyim" deyə,
Qərb elləri naildir öldürməyə.
Ya o, ya bu qoşar durar hər bir dilək peşində,
Məqsəd ancaq yarışı yok, bir həyatı xoş bulmaq.
Şərqə görə o diyarda azad ikən düşüncə,
Yazıq!.. Yenə mümkün deyil didişmədən qurtarmaq.

Azər Cavidin əksər dramatik qəhrəmanlarından fərqli olaraq tarixdən deyil, real həyatdan alınmışdır. Azər şairin müasiri, Cavid isə onun **proobrazıdır**. Azərin mühitə, cəmiyyətə, Qərbə və Şərqə baxışları müəllifin şəxsi qənaət və düşüncələrinin ifadəsidir. Bunu Azərin Almaniyaya səfərindən söz açılması

ilə əsərin Berlində yazılması və Cavidin Almaniyada müalicə olunmasının səsləşməsi də sübut edir.

**Azər** cəmiyyətə yeni nəzərlərlə baxan, dünyada gedən prosesləri obyektiv təhlil etmək bacarığına malik **yeni tipli** bir obrazdır. Onun səciyyəvi cəhəti mənsub olduğu xalqı mədəni millətlər cərgəsində görməkdir. Azərin Qərbə və Şərqə səfərləri sadəcə səyahət deyil, məmləkəti irəli aparmaq arzusudur.

Poemanın bölmələri:

**1) "Səlmanın səsi"**. Cavid yeni cəmiyyətə yaxşı tərəfdən baxmaq meylindən çıxış edir. Səlmanın dilindən deyilən "**hər gülşənə vardım, çiçəklər güldü, Sevdalı bülbüllər salama gəldi**", yaxud **"Susmuş kamançalar ilhama gəldi"** kimi nikbin misralar şairin həmin meylinin əks-sədasıdır.

**2) "İnqilab xırsızı"**. Şura sədrinin törətdiyi özbaşınalıqlar təsvir edilir və yeni qurulmuş cəmiyyətdəki eybəcərliklər diqqət mərkəzinə çəkilmişdir. Şura sədrinə aid edilən "balıq başdan qoxarmış" qənaəti də o cəmiyyətin yuxarı təbəqələrinin iflasa məruz qaldığına açıq işarədir.

**3) "Üsyan"**. Poemanın **epiloqudur** və aşağıdakı misraları gəncliyin quracağı müstəqil dövlətin dəstəklənməsi kimi başa düşmək lazımdır:

Bu gün gəncliyə baksan,
Bir sel kimi hər an
Sağlam, yeni məfkurələr izlər.
Bizlər?
…Bizlər yeniləşsək belə, daim,
Bir əskilik az-çox bizə hakim…
…Onlar qoşacaq, çırpışacaqlar,
Bir çox uçurumlar aşacaqlar.
Lazımsa cəhalətlə güləşmək,
Bir çarə var: ancaq yeniləşmək!
Onlardakı himmət və mətanət

Qırmaclayacaq Şərqi nəhayət.
Onlardakı qüdrət və məharət,
Er-gec verəcək xalqa səadət.
…Onlar güləcək güldürəcəklər,
Bizdən daha xoş gün görəcəklər!

Poemada **dramatik ünsürlərdən** istifadə edilmişdir, həmçinin **dastan** təsiri bağışlayır.

**3. DRAMATURGİYASI**

H.Cavid Azərbaycan ədəbiyyatında **mənzum romantik dramaturgiyanın** banisidir. Ona şöhrət qazandıran dram əsərləridir.

**1) "Ana"** (1910). Ədəbiyyatımızda **ilk mənzum faciədir**. **Mövzusu** Dağıstan həyatından alınmışdır.

**Səlma** əsas qəhrəmandır və yeni tipli ana obrazıdır. O, qonaqpərvər və məğrurdur.

**Qanpolad** Səlmanın oğludur və **İsmət** adlı bir çərkəz qızına nişanlıdır. İsmət sevgilisi Qanpolada sadiq qalır və onu istəyən **Orxanın** cah-cəlalını rədd edir. Lakin İsməti istəyən Orxan dostu **Muradın** vasitəsilə Qanpoladı öldürtdürür. Səlma ana oğlu Qanpoladın qatilini bağışlayır. Namərd qonağı evindən uzaqlaşdırmaqla bu acı, qanlı taleyin səbəbini Allahın qisməti ilə əlaqələndirir:

Get, namərd qonaq, get! Alçaq mültəci!
Get, miskin hərif, get! Cəllad, yırtıcı!
Get, vicdansız kəndini qurtar, yaşa!
Ancaq vicdansızları bəslər dünya!
Get, gözüm görməsin! Uzaqlaş, dəf ol!
Nə haqsızlıq etdinsə Allahdan bul!
Get, əskil get! Dinsiz, allahsız Xain!
Murdar izin bu torpaqdan silinsin!

Səlma dünya ədəbiyyatı üçün təkrarsız surətdir.

**2) "Maral"** (1912). **Nəsrlə** yazılmışdır, lakin **şeir parçalarından**, lirik elementlərdən istifadə edilmişdir. Ailə-məişət planında qələmə alınmışdır və pulun cəmiyyətdə törədə biləcəyi faciələr əks etdirilir. Əsərdəki **Nadirbəy-Turxanbəy** xətti yeniliklə köhnəliyi əks etdirir. **Maralı** altun gücünə özünə arvad edən Turxan bəy üçün dünyanın səadəti yalnız para ilə bağlıdır. Hətta romantik düşüncəli, məhəbbəti, sədaqəti hər şeydən üstün tutan oğlu **Cəmillə** müqayisədə sərvət əsiri olan Turxanbəy çox miskin görünür.

Maralın ərinin gənc qohumu Arslanbəyə olan təmiz sevgisi də ona səadət deyil, fəlakət gətirir. Maralla Arslanbəyin təmiz məhəbbətindən xəbər tutan Turxanbəy Maralı vəhşicəsinə öldürür. Bu, həmin cəmiyyətdə azad sevgiyə, saf məhəbbətə yer olmadığı fikrini əsaslandırır. Lakin Cəmillə Humay arasındakı məhəbbət yeniliyin köhnəlik üzərində qələbə çalacağına işarədir.

**3) "Şeyx Sənan"** (1914). **Mənzum** faciədir. Cavidin romantik dramaturgiyasının **zirvəsi** hesab edilir. Faciədə dini-əfsanəvi şəxsiyyət olan Sənanın məhəbbət macərası əsasında insanın mənəvi ucalığı haqqında dramatik uvertüradır. Əsərdə **eşqin dini etiqadlar üzərində təntənəsi** verilmişdir.

**Sənanın** baxışlarında **Xumara** olan sevgisindən sonra yaranan dəyişikliklər bütövlükdə insanın dəyişməsi prosesini canlandırır. Sənan ülvi, uca eşqin böyüklüyünə inam bəsləyir. Cavid Şeyx Sənanın timsalında **eşq, yoxsa etiqad**, möminlik, yoxsa gerçəklik sualları əsasında insanın həqiqət axtarıcılığı, məhəbbəti etiqad səviyyəsinə yüksəltmək səyləri ilə ucala biləcəyinin mümkünlüyünü isbat etmişdir. Sənanın dilindən verilmiş aşağıdakı misralar bunu bir daha təsdiq edir:

Bəni öldürsələr də, bən yaşaram,
Tərk edib xəlqi xaliqə qoşaram.

Əbədiyyət bənim məzarımdır,
Çünki sultani-eşq yarımdır.
Eşq üçün can nisan edən ərlər,
Əbədi bir həyat içində gülər.

**4) "Şeyda"** (1916). **Nəsrlə** yazılmışdır, lakin **şeir parçalarından**, lirik elementlərdən istifadə edilmişdir. Bakı mətbəə işçilərinin həyatından bəhs edir. Cavidin digər dram əsərlərindən fərqli olaraq, bu əsərdə **realist, həyati məsələlər** geniş yer tutur. Pyesin ilk səhnələrindən azadlıq arzusu ilə yaşayan **Şeydanın** fəhlələrə öz hüquqlarını başa salması dramaturqun ictimai mübarizəsi barədə qənaətlərin ifadəsidir. İnqilabi ruhlu marşların fəhlələr tərəfindən oxunması Şeydanın işdən qovulması və həbs edilməsi ilə nəticələnir. Beləliklə, Şeydanın ruh düşkünlüyünə qapılması, dərvişvari həyat keçirməsi mübarizənin axıra çatdırılmasına imkan vermir.

Qardaşı vərəm xəstəliyindən ölən, ağır iş şəraitində qolunun birini itirən və əslində meydanda tək qalan **Qara Musanın** intiqam hissləri də cəmiyyəti irəli apara bilmir.

Pyesdə üsyankar çıxışlarına baxmayaraq, **real mübarizə yollarını tapa bilməyən insanların faciəsi** ümumiləşdirilir.

**5) "İblis" faciəsi (1918).**

**6) "Uçurum" faciəsi (1919).** Bu əsərlə H.Cavid yaradıcılığının birinci mərhələsi başa çatır. **Mövzusu** Türkiyə həyatından alınmışdır. Süni avropalaşmanın eybəcərlikləri əks olunmuşdur.

**7) "Afət"** faciəsi (1922). Nəsrlə yazılmışdır, meşşan əxlaqının mənəvi puçluğu açıb göstərilmişdir. Afət doktor Qarataya uyaraq əvvəlcə əri Özdəmiri, sonra isə özünü öldürür. Bu, meşşanlar dairəsinin faciəsi deməkdir.

**8) "Peyğəmbər"** dramı (1923). Tarixi şəxsiyyətə və tarixdən alınmış hadisələrə müasir mövqedən yanaşılmışdır. İnsanın müqəddəslik mərtəbəsinə yüksəlməsindən bəhs olunur. Əsərdə

təsvirə və təhkiyəyə yol verilməsi onun səhnəyə çıxarılmasını çətinləşdirmişdir. "Peyğəmbər" bütövlükdə səhnə üçün nəzərdə tutulmamışdır. Cavid Məhəmməd peyğəmbəri ideallaşdırmaqda günahlandırılmışdır.

**9) "Topal Teymur"** dramı (1925). Nəsrlə yazılmışdır, tarixi şəxsiyyətə və tarixdən alınmış hadisələrə müraciət edilir. Həmçinin tarixi mövzuya müasir mövqedən yanaşılmışdır. Tiranlıq tənqid edilmişdir. Əsərdə təsvirə və təhkiyəyə yol verilməsi onun səhnəyə çıxarılmasını çətinləşdirmişdir. Cavid Teymurləng kimi bir fatehi ideallaşdırmaqda günahlandırılmışdır.

**10) "Knyaz"** faciəsi (1929). Müasirliyə daha yaxın idi. İnqilabdan qorxub Avropaya qaçan Knyazın və onun ailəsinin faciəsi ümumiləşdirilmişdir. Əsərdə Knyazın özünə zorla arvad etdiyi Jasmen qulluqçu Marqonun oğlu bolşevik Antonu sevir və onlar bir-birlərinə qovuşurlar. Bu, azad sevginin və pak mənəviyyatın təntənəsidir.

**11) "Səyavuş"** faciəsi (1932). Firdovsinin "Şahnamə" dastanının motivləri əsasında və Firdovsinin anadan olmasının 1000 illiyi münasibətilə keçirilən müsabiqədə iştirak etmək üçün qələmə alınmışdır. Əsərdə İran-Turan qarşıdurmasından deyil, insan münasibətlərinin yaxşılaşması yollarındakı maneələrin aradan qaldırılmasından bəhs edilir.

**12) "Xəyyam"** dramı (1935). Cavidin yaradıcılığını həm xronologiya, həm də ideya-bədii cəhətdən tamamlayır. Ömər Xəyyamın şəxsində **sənətkar və cəmiyyət problemi** qoyulmuşdur. Xəyyamı yetişdirən Alp Arslanın və onun oğlu Məlikşahın elmi-ədəbi fəaliyyət üçün yaratdığı münbit şərait sovet dövrünə qarşı qoyulur. Repressiyaların başlanması ərəfəsində irəli sürülən bu ideya Xeyirlə Şərin əzəli-əbədi mübarizəsinin yeni şəraitdəki əks-sədası kimi səslənirdi.

Azərbaycanda **Cavid teatrı** mövcuddur.

**“İBLİS” faciəsi**.

**1918**-ci ildə yazılmış, **1920**-ci ildə Bakıda tamaşaya qoyulmuşdur. H.Cavidin şah əsridir. Bu əsərdə sənətkarın şeir yaradıcılığı və dramaturgiyasının bütün vüsəti mükəmməl şəkildə ifadə olunmuşdur. Müharibə mövzusundadır. Cavid ilk növbədə müharibələrin səbəblərini aydınlaşdırmış, qan tökməklə nəyəsə nail olmağın mümkünsüzlüyünü göstərmişdir.

**Mələyin** müharibələrin səbəbini bəşəriyyətin İblisə uymasında görməsi, **İblisin** isə bu səbəbi insanın özündə axtarması əsərə fəlsəfi mahiyyət verir.

**Arif** müəllifin humanist düşüncələrinin daşıyıcısı kimi çıxış edir. Cavid Arifin vasitəsilə müharibələri qətiyyətlə pisləyir insanlığı İblisə uymamağa çağırır. Əsərin sonunda İblis öz monoloqu ilə artıq insanlar arasında ona yer olmadığını, qan tökənlərin insanların öz aralarında olduğunu bildirir:

İblis!.. O böyük ad nə qədər calibi-heyrət!
Hər ölkədə, hər dildə anılmaqda o şöhrət!
Hər kəs məni dinlər, fəqət eylər yenə nifrət,
Hər kəs mənə aciz qul ikən bəslər ədavət.
…Mənsiz də əmin ol ki, sizə rəhbərlik edən var,
Qan püskürən, atəş savuran kinli krallar,
Şahlar, ulu xaqanlar, o çılğın dərəbəklər,
Altın və qadın düşkünü divanə bəbəklər,
Min hiylə quran tülkü siyasilər, o hər an
Məzhəb çıxaran, yol ayıran xadimi-ədyan;
Onlar, əvət onlar sizi çeynətməyə kafi, –
Kafi, sizi qəhr etməyə, məhv etməyə kafi…
Mən tərk edərim sizləri ələn. Nəmə lazım!
Heçdən gələrək heçliyə olmaqdayım azim.
İblis nədir? – Cümlə xəyanətlərə bais!
Ya hər kəsə xain olan insan nədir? – İblis!

Əsərdə real müharibə səhnələri, gerçək döyüş vəziyyətləri yoxdur. Cavid öz ideyasını müharibədə iştirak edən insanların şəxsində həyata keçirir. Əsərdəki **İxtiyar Şeyx, Rəna, İbn Yəmin, qaçaq zabit Elxan** müharibələrin insanlara böyük məhrumiyyətlər bəxş etməsi qənaətindədirlər.

"İblis" faciəsi müharibələrin əsl mahiyyətini açıb göstərən və müharibə əleyhinə yazılmış dahiyanə əsərdir. H.Cavid "İblis" faciəsində ifadə etdiyi dünyəvi fikirlərinə görə **bəşəri sənətkar** səviyyəsinə yüksəlmişdir.

Hüseyn Cavidin "İblis" faciəsi bu gün üçün də aktual və müasirdir.

# CƏFƏR CABBARLI (1899-1934)

## H Ə Y A T I

**1899**-cu ildə Cəfər Cabbarlı Bakının yaxınlığındakı Xızıda ailənin sonuncu övladı kimi dünyaya gəlmişdir. XX əsrin ilk illərində atası Qafar kişi Bakıya köçmüş, kömür ticarəti ilə məşğul olmuş və özünə ev tikmişdir. Dramaturqun indiki ev muzeyini isə 1929-1930-cu illərdə o, özü inşa etmişdir.

Cəfərgil şəhərin yuxarı hissəsində, Dağlı məhəlləsində yaşayırdı. Həmçinin o, tez-tez Xızıya gedir, orada aşıqsayağı şeirlər yazan bibisi Zərnişanla və qohumları ilə görüşürdü.

**1902**-ci ildə Qafar kişi vəfat edir. Cəfər anası Şahbikənin və böyük qardaşı Hüseynqulunun himayəsində qalır.

İlk təhsilini mollaxanada alır. Burada Quran əzbərlədilir, ərəb və fars dillərindən məlumat verilir, Sədi və Hafiz kimi şairlərin əsərləri oxudulurdu. Məhəllə mollaxanasında öyrəndikləri ana dilini gözəl bilməsində, bu dildə əsərlər yazmasında və tərcümələr etməsində mühüm rol oynamışdır.

Cəfər sonra üçillik 7-ci rus-tatar məktəbində oxuyur. Həmin məktəbdə S.S.Axundov və A.Şaiq dərs deyirdi. O, milli azadlıq hərəkatının nümayəndəsi Mirzə Bala Məmmədzadə ilə bir sinifdə oxuyurdu və onlar həmişəlik dost olmuşdular.

**1910**-cu ildə rus-tatar məktəbini bitirib Alekseyev adına Ali ibtidai məktəbdə təhsilini davam etdirmişdir.

**1915**-ci ildən əsərləri çap olunmağa başlamışdır.

**1915**-ci ildə Bakı Sənaye Texnikumuna daxil olur və təhsilini rus dilində davam etdirir. Təhsil illərində şeirlər, pyeslər, hekayələr yazır, teatrlara, redaksiyalara gedib-gəlirdi. Dövrünün Seyid Hüseyn, Əliabbas Müznib, Haşım bəy Vəzirov kimi ziyalıları ilə tanış olur. Əsərləri onu milli azadlıq hərəkatının məfkurəçilərindən birinə çevirir.

**1915**-ci ildə M.Ə.Rəsulzadənin təsis etdiyi "Açıq söz" qəzeti türkçülük və müsavatçılıq fikirlərini yayırdı. C.Cabbarlı, M.B.Məmmədzadə, S.Hüseyn, Ə.Cavad bu qəzetin fəal müəllif-lərindən idilər.

Birinci dünya müharibəsi illərində Avropa dövlətləri Osmanlı imperiyasını dağıtmaq istəyirdilər. Türkiyə isə öz ərazisini qorumaq uğrunda mübarizə aparırdı. Bu mübarizədə Gənc türklər hərəkatının mühüm yeri vardır. Onlar türk xalqlarını birliyə çağırır, bu məsələlər Azərbaycan mətbuatında diqqətlə izlənilir və həmin mövzuda pyeslər yazılırdı.

**1916-1917**-ci illərdə Türkiyəyə və türkçülük ideyalarına böyük rəğbəti olan C.Cabbarlı bu barədə iki pyes yazmışdır:

**1) "Trablis müharibəsi"**

**2) "Ədirnə fəthi"**

Milli hökumət qurulduqdan sonra C.Cabbarlı yaradıcılığında xüsusi bir yüksəliş müşahidə edilir. Cümhuriyyət dövründə parlamentdə stenoqraf işləyir, dramaturgiya yaradıcılığını davam etdirir. **"Sevdiyim", "Azərbayan bayrağına"** şeirlərində milli dövlətimiz və ana torpaq tərənnüm edilir. Bu şeirlərdə milli qürur hissləri vardır.

**"Azərbayan bayrağına"** şeirində C.Cabbarlı üç rəngli bayrağın rəmzlərini bədii şəkildə izah edirdi:

Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya İslamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı.
Bu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı.

**1920**-ci il aprelin 27-də milli hökumət süqut edəndən sonra onun qəlbindəki milli kədər hissi "Aydın", "Oqtay Eloğlu" əsərlərində əks olunmuşdur. Bu vaxt gizli şəkildə M.Ə.Rəsulzadənin evində yaranan "Gənc müsavatçılar" hərəkatının sədri

M.B.Məmmədzadə, katibi isə C.Cabbarlı idi. Təşkilat qeyri-leqal şəkildə "İstiqlal" qəzetini çap edirdi.

**1923**-cü ildə C.Cabbarlı da daxil olmaqla təşkilatın üzvləri tutulsa da, az sonra buraxıldılar.

**1920-1926**-cı illərdə C.Cabbarlı ağır mənəvi böhran keçirir, universitetin tarix-filologiya fakültəsində oxuyur, tərcüməçi işləyirdi.

C.Cabbarlı Aydın və Oqtayın **prototipi** idi. O, bir sənətkar kimi idealsız yaşaya bilməzdi. Bu idealı isə bolşeviklərin həyata keçirdikləri mədəni inqilabda tapdı. Həmin inqilab Azərbaycan xalqını Avropa mədəniyyət yoluna yönəldirdi və bu, C.Cabbarlının arzularına uyğun idi. O, mədəni inqilabın **maarif və mədəniyyətlə bağlı vəzifələrinə** (savadsızlığın ləğvi, latın əlifbasına keçid və s.) qoşuldu və aşağıdakı əsərləri yazdı: "Sevil", "Almaz", "1905-ci ildə", "Yaşar".

**1934**-cü il yanvarın 31-də Cəfər Cabbarlı vəfat etmişdir.

## YARADICILIĞI

Cəfər Cabbarlının yaradıcılığı **şeirlərdən, hekayələrdən, dramatik əsərlərdən** və **tərcümələrdən** ibarətdir.

### 1. ŞEİRLƏRİ

C.Cabbarlı yaradıcılığının ilk dövrü maarifçiliklə bağlı olmuşdur. O, əruz vəznində yazdığı satirik şeirlərində Sabir ənənələrini davam etdirmişdir. Satiralarının əsas tənqid hədəfləri bunlardır: Şərqin geriliyi, avamlıq və mövhumat, qadın hüquqları, yeniliyə qarşı çıxanlar.

Rus dilində təhsil alanlara kafir kimi baxan, onları dindən uzaqlaşmaqda ittiham edən qaragüruhçuları C.Cabbarlı tənqid edir və belə şeirlər tipin öz dilindən deyilirdi:

Yaşın oldu on üç, ay qız, səni verrəm ərə,
Bir müqəddəs kişiyə, pulluya, bir bəxtəvərə.
Vermərəm boynu qıraxmallıya, ya injenerə,

Razı olmam düşəsən zülm ilə zindanə, qızım.

Milli hökumət dövründə şeirlərində milli hisslər, vətənpərvərlik, milli dövlətə fəxarət duyğuları güclənir. Onun bu ruhlu şeirlərinin çoxu itmiş, sonralar tapılmamışdır.

**2. HEKAYƏLƏRİ**

**"Aslan və Fərhad", "Mənsur və Sitarə", "Əhməd və Qumru**" adlı ilk hekayələrində maarifçilik dünyagörüşü öz ifadəsini tapmışdır.

**"Aslan və Fərhad"** hekayəsində Aslan öz qardaşı Fərhadın Kiyevdə mühəndislik təhsili almasına nail olur. Onun müasir və savadlı bir insan kimi vətənə qayıtmasını gözləyir.

Lakin Fərhad tərbiyəsiz və əxlaqsız bir adam kimi geri qayıdır. Beləliklə, Fərhal şərin təcəssümünə çevrilir, doğma bacısını öldürür, ona atalıq etmiş Aslanı kor edir, qardaşı arvadını isə yoldan çıxarıb özünə məşuqə edir.

Onun **ilk hekayələrində** surətlər **yaxşı** və **pis** adamlara bölünür, bu, insan təbiətinə maarifçi münasibətin təzahürüdür.

C.Cabbarlı **20-ci illərdə** həm satirik ruhlu, həm də mədəni inqilab və yeni quruculuq mövzusunda hekayələr yazmışdır: **"Qara Qənbər"**, **"Papaq"**, **"Firuzə"**.

**3. DRAMATURGİYASI**

C.Cabbarlı müasir Azərbaycan dramaturgiyasının banisidir.

**1) "Vəfalı Səriyyə"** (1915) İlk pyesidir. Əsərdə iki tərəf vardır: müasir təhsili, savadı təmsil edənlər və köhnə dədə-baba əhvali-ruhiyyəsi ilə yaşayanlar.

**Birincilərə** aiddir: **Səriyyə,** onun əmisi oğlu və sevgilisi **Rüstəm,** dayısı **Məhərrəm**.

**İkincilərə** aiddir: Səriyyənin anası **Çimnaz**, onun dayısı **Həmzə**, dayısı oğlu **Qurban**.

Əsərin **konflikti** çox sadədir: Səriyyə student Rüstəmi sevir. Çimnaz isə qızını qoçu Qurbana vermək istəyir. Sonda pristav gəlib qanunsuzluğun qarşısını alır, zorla kəbin kəsdirənləri məsuliyyətə cəlb edir.

Pyesin **sonu** M.F.Axundzadənin pyeslərini xatırladır. M.F.Axundzadədə də çar hökumət orqanlarının işə qarışması ilə ədalət qələbə çalır. Bu, gənc C.Cabbarlının Avropa – Rusiya maarifi yoluna ümid və inamını göstərirdi.

**2) "Solğun çiçəklər"** (1916). Bu əsər yazıçının tənqidi realizm mövqelərinə keçdiyini göstərir. Dramaturq sosial bəlaları yalnız maarifsizliklə, cəhalətlə izah etməyin mümkün olmadığı qənaətinə gəlir. İnsan faciələrinin, kasıb-varlı fərqliliyinin, qəddarlığın, xəyanətkarlığın insanın paxıllığı, şöhrətpərəstliyi, eqoizmi ilə bağlı olduğunu deyir.

"Solğun çiçəklər"də Bəhram və Sara bir-birlərini romantik məhəbbətlə sevirlər, onlar əmioğlu və əmiqızıdırlar. Lakin bu gənclərə mane olan cəhalət deyil, kapitalist cəmiyyətinin əsas hərəkətverici qüvvəsi olan puldur.

Gənclərin hər ikisi müasir və təhsillidirlər. Atasının milyonlarını Saranın analığı Gülnisə ələ keçirir və bu zaman Bəhram iki seçim arasında qalır: ya Saranın ülvi məhəbbəti, ya da milyonları olan Pəri. O, Saranı atıb onun analığının qızı Pəri ilə evlənir. Sara isə xəstələnib ölür.

**3) "Nəsrəddin şah" (**1916). Bu əsərdə də sosial bəlaların yalnız maarifsizliklə, cəhalətlə izah etməyin mümkün olmadığı qənaətinə gəlinir. Müəllif millət, dövlət və onun taleyi kimi ciddi məsələlərə gəlib çıxır. Pyesdəki hadisələr İranda baş versə də, əsər C.Cabbarlının doğma xalqı haqqında düşüncələridir.

Pyesin **konfliktini** iki cəbhənin mübarizəsi təşkil edir: bir tərəfdə **azadlıq, milli və sosial tərəqqi tərəfdarları**, digər tərəfdə despotik **Nəsrəddin şah rejimi**. Ölkə başlı-başınadır. Mirzə Rza və Fərhad nə qədər çalışırlarsa, Cavad xanın qəddar

dərəbəyliyinə qarşı şikayətləri şaha çatdıra bilmirlər. Orta əsr feodallarının əlində oyuncaq olan Nəsrəddin şahın ölkədəki vəziyyətdən qətiyyən xəbəri yoxdur.

**4) "Trablis müharibəsi"** (1917). Əsərin məzmununu 1912-ci ildə Trablisdə türklərlə İtaliya ordusu arasında aparılmış hərbi əməliyyatlar təşkil edir. Konfliktin bir qütbündə **Türkiyənin vətənpərvər zabit və döyüşçüləri**, ikinci qütbündə isə **italyan ordusunun əsgərləri və onlara kömək edən ərəb qəbilə nümayəndələri** təsvir olunur.

**Ramizlə Ulduzun sevgisi** əsərin **romantik ruhunu** xeyli qabartmışdır. Ulduz paşa qızı olsa da, məhəbbəti naminə qaçaqların mağarasını seçir. Ramiz isə həm ona ülvi bir məhəbbətlə yanaşır, həm də vətənpərvər kimi türk zabiti adını yüksək tutur. Ulduzla Ramiz Trablisdə uzun macəralardan sonra yenidən bir-birlərini tapırlar.

**Ənvər** də vətənpərvərdir və onun timsalında Gənc türklər inqilabının lideri, 1914-cü ildə Türkiyənin Baş naziri olmuş **Ənvər paşa** ümumiləşdirilmişdir. Ənvərin əsas xüsusiyyətləri: həqiqi vətənpərvərlik, türk ordusunun şərəfini hər şeydən üstün tutmaq, hərbi borcu ölümə hər dəqiqə hazır bir fədakarlıqla icra etmək. Düşmənin say üstünlüyündən çəkinərək Trablisi təhvil vermək istəyən **İzzət paşanın** əksinə olaraq Ənvər Trablisin müdafiəsinə çalışır və türk əsgərinin şərəfini yüksəyə qaldırır.

**5) "Ədirnə fəthi" (**1917). Üslub, süjet və qəhrəmanlıq motivləri baxımından "Trablis müharibəsi" əsərinə çox oxşayır. Əsərin məzmununu 1913-cü ildə Türkiyənin Balkanlarda apardığı hərbi əməliyyatlar, vaxtilə Osmanlı dövlətinin paytaxtı olmuş Ədirnə şəhərinin bolqarlardan azad edilməsi ilə bağlı hadisələr təşkil edir. Bu əsərdə də hadisələrin tarixi planına üstünlük verilmiş və bir xalq qəhrəmanı kimi Ənvərə böyük rəğbət ifadə edilmişdir. C.Cabbarlının Gənc türklər inqilabının liderinə xüsusi rəğbəti burada daha artıqdır.

Əsərdə tarixi hadisələrə paralel olaraq **Rüfət və Zöhrənin** məhəbbət **xətti** də vardır.

**6) "Aydın"** pyesində başlıca motiv qəhrəmanın daxili böhranıdır. **Aydın** özünü bütün mühitə, bəşəriyyətə, dünyaya qarşı qoyur. Pyesdə ona qarşı dayanan heç bir cəbhə yoxdur. Aydının böhranında iki səbəb vardır: **birincisi;** mühit, **ikicisi;** təhqirlərə məruz qaldığı uşaqlığı. Uşaqlıq dövründəki təhqirlər və ehtiyac onda küskünlük yaratmışdır. Oxuduğu kitablar onda dünyanın həqiqətsizliyindən, qəddarlığından intiqam almaq həvəsi oyatmışdır.

"Aydın" pyesi ilə "Oqtay Eloğlu" pyesi arasında mövzu və ideya bağlılığı vardır.

**7) "Oqtay Eloğlu"** pyesi.

**8) "Od gəlini" faciəsi** (1927). Azərbaycan ədəbiyyatının şah əsərlərindən biridir. C.Cabbarlının Cümhuriyyətin süqutundan sonrakı **mənəvi böhranı** bu əsərlə tamamlandı. Ədəbiyyatımızda ilk əsərdir ki, **Azərbaycan xalqının tarixi və milli taleyi problemini** bədii əsər mövzusu kimi götürmüşdür.

Əsərin **mövzusu** IX əsrdən – ərəb işğalına qarşı **Babək** hərəkatından götürülmüş və müəllif Babəki **Elxanla** əvəz etmişdir. Əsərin **ideyası** xarici işğalçılara və müstəmləkəçilərə qarşı mübarizədən ibarətdir.

**9) "Sevil"** (1928). Mədəni inqilab epoxasının ən qiymətli əsəridir. **Mövzusu** qadın azadlığıdır. Azərbaycan qadınının **müstəqilliyi, azadlığı və özünütəsdiqi** mövzusu C.Cabbarlının yaradıcılığı ilə başlanır. Sələflərindən fərqli olaraq C.Cabbarlı qadının kişi ilə bərabərliyi problemini inqilabi kəskinliklə, maksimalizmlə qoymuşdur.

**Sevil** əsərin əvvəlində təhsilsiz, məzlum bir ev qadınıdır, əri Balaşı evin allahı sayır. **Balaş** isə bank işçisidir və Sevil onun məşuqəsi **Dilbərə** öz evlərində can-başla qulluq edir. Lakin Dilbərin tələbi ilə Balaş Sevili küçəyə atır və Sevil küçələrdə

qulluqçuluq edir. Nəhayət, Sevil dəyişilir, çarşabını Balaşın üzünə çırpır və deyir: mən fabrikə, sosializmə gedirəm. Sonra yenə deyir: "Nədir namus? Yalnız qadınların daşıyacağı bir yükdür". Sevil emansipasiya hərəkatının liderinə çevrilir. Bu dəyişmədə Balaşın bacısı **Gülüşün** də böyük təsiri vardır.

Sevil işçi fakültəsini, sonra isə Moskvada universitet bitirir. "Azərbaycan qadınlarının inkişaf yolu" adlı kitab yazır. Pyes **1928-ci ildə tamaşaya qoyulmuş** və ondan təsirlənən qadınlar nümayişkaranə şəkildə çarşablarını atmışlar. Bakıda Azad qadın heykəli də "Sevil" pyesinin qadın azadlığı hərəkatının inkişafındakı misilsiz roluna görə qoyulmuşdur.

"Sevil" əsəri Özbəkistanda, Tacikistanda, Qırğızıstanda, Türkmənistanda da tamaşaya qoyulmuş, bolşevik rejimi qadın azadlığı prosesinin inkişafı üçün bu əsərdən istifadə etmişdir.

**10) "Almaz", "Yaşar", "Dönüş".** C.Cabbarlı bu pyesləri mədəni inqilab illərində yazmışdır. Əsərlərdə mədəni inqilabın, köhnə həyat qaydalarının dağılmasının geniş tarixi mənzərəsi yaradılmışdır.

**11) "1905-ci ildə"**. Pyes tarixi-inqilabi mövzuda yazılmışdır.

**1. TƏRCÜMƏLƏRİ**

**1) V.Şekspir. "Hamlet"** faciəsi

**2) V.Şekspir. "Otello"** faciəsi

**3) F.Şiller. "Qaçaqlar"** faciəsi

**4) Bomarşe. "Fiqaronun toyu"** komediyası

C.Cabbarlının tərcümələri Avropa ədəbiyyatının klassik əsərləri idi. O, ədəbiyyatımızda ilk dəfə olaraq **dram tərcüməçiliyi** ilə məşğul olmuşdur.

## "OQTAY ELOĞLU" pyesi

Demokratik cümhuriyyətin süqutu C.Cabbarlıya sarsıdıcı təsir göstərmişdir. 1920-1922-ci illərdə ölkədə siyasi terror hökm sürürdü. Ona görə də C.Cabbarlı əsərdə xalqın taleyinə münasibət məsələsini **xalq üçün teatr quruculuğu** məsələsi ətrafında ümumiləşdirmişdir.

"Oqtay Eloğlu" pyesinin əsas **mövzusunu** xalq və xalqa münasibət problemi təşkil edir. Oqtay deyir: "Yaşamaq istəyiriksə, yaratmalıyıq… Səhnəmiz yox, fəqət olmalıdır. Onu da mən yaradacağam".

**Oqtay** C.Cabbarlının ən **işıqlı qəhrəmanlarından** biridir və onu məhv edən  pul və hakimiyyət səltənətidir. **Mənəvi dəyərlər, milli teatr idealı, milli aktrisa arzusu** – bunlar Oqtayın ən ali istəklərinə daxildir. Oqtayın **prototipi** C.Cabbarlının özü sayıla bilər.

Oqtay **ideal daşıyıcısı** olan bir insandır. Millət və sənət, teatr idealı onun istinad nöqtəsidir. O, idealsız yaşaya bilməz.

Oqtay kasıb olsa da, özünü mənən Aslan bəylərdən yüksək sayır. Onu hələ də azad şəxsiyyət kimi Oqtaya nifrət edən və feodal düşüncəsi ilə yaşayan adamlar əhatə edir.

Oqtayın məhəbbəti romantik bir monumentallıqla qələmə alınmışdır. Onun üçün məhəbbət müqəddəs hissdir. O, sona qədər Firəngizə olan məhəbbətinə sadiq qalır. Bu məhəbbət ona qüvvət verir, heç nəyə baxmadan Azərbaycan xalqı üçün teatr yaradır. Bu ehtirasın kökündə isə xalqa bağlılıq dayanır.

Oqtayın ehtiraslı teatr quruculuğunda simvolik bir məna da vardır: C.Cabbarlı üçün teatr **Avropa xalqları** ilə eyni səviyyədə dayanmaq idealı idi.

**Aydın və Oqtay** milli ziyalı tiplərinin mənəvi faciəsinin bədii və fəlsəfi baxımdan ümumiləşməsidir.

Oqtayın faciəsi milli idealların faciəsidir. Lakin cəmiyyətdə onun bu ideallarına gülən, onu məsxərəyə qoyan adamlar var. Buna görə də **Oqtayın** daxili böhranı və mühitlə konflikti **Aydına** nisbətən daha konkretdir və daha milli səciyyə daşıyır.

**Oqtay** da **Aydında** olduğu kimi həqiqətsizlik böhranı keçirir. Bu həqiqətsizliyin əsl kökü və səbəbi məhv olan milli idealların və dəyərlərin yerindəki boşluq idi.

**Hər iki pyesin** ölüm səhnəsi ilə bitməsi təsadüfi deyil: C.Cabbarlı üçün milli idealları itirmək ölümlə eynidir. **Aydının və Oqtayın** mənəvi səfilliyi də həmin ölümün bir şəklidir.

**Firəngiz** C.Cabbarlının ən romantik və təbii qadın obrazlarından biridir. O, səhnəyə atılan ilk qaranquşdur. Lakin qardaşı Aslan bəy onun arzularını məhv edir, Firəngizi zorla Qalacıxanova ərə verir. Sonra Qalacıxanov Firəngizi atır və Firəngiz öz təsəllisini Oqtaya məhəbbəti ilə yaşamaqda tapır.

Oqtay 10 il dustaqxanalarda və Sibirdə sürgündə olarkən Firəngiz təzədən taleyini səhnəyə bağlamaq istəyir. C.Cabbarlıya görə, qadın rollarının kişilər oynadığı bir vaxtda Firəngizin səhnəyə gəlməsi Avropa həyat təzinə çatmaq idi.

Lakin Firəngizi bədbəxt edən mühit və bu mühitin Aslan bəy, Qalacıxanov kimi nümayəndələri hər şeyin ölçüsünü pul və vəzifədə görürlər. Onlar Oqtaya "it dəftərində" adı olmayan bir adam kimi baxırlar.

Onlar Oqtayın xalq içərisindəki populyarlığına da paxıllıq edirlər. Bu adamlar yığıncaqlarda teatrı məbəd kimi tərifləyir, həqiqətdə isə aktyor peşəsini ləyaqətsizlik sayırlar. Onlar **Avropa paltarı** geymiş cahillərdir.

Oqtay Sibirdən gələndən sonra Firəngizi sevir. Lakin Oqtayın gözlənilmədən Firəngizi mistik şəkildə öldürməsi məntiqi də buradadır: Oqtay saxta saydığı Firəngizi öldürməklə yaddaşındakı həqiqi, idealist və romantik Firəngizi seçir, qəlbindəki Firəngizi daha diri hesab edir.

**NƏTİCƏ:** C.Cabbarlının "Aydın", "Oqtay Eloğlu", "Od gəlini" kimi pyesləri ana dilimizin inkişafında bir mərhələ təşkil edir. Onun əsərlərindəki **sadə dil** ədəbi dilimizin inkişafına bir islahat qədər təsir göstərmişdir. Dramaturqun dil təcrübəsi bədii nəsr dilinin müasirləşməsi və xəlqiləşməsində də xüsusi rol oynamışdır.

C.Cabbarlının mədəni inqilab dövründə yazdığı əsərlərdə **şəxs adları** kütləvi surətdə türkləşdirilmişdir.

# SƏMƏD VURĞUN (1906-1956)

## H Ə Y A T I

**1906**-cı il martın 21-də Səməd Vurğun Qazaxın Yuxarı Salahlı kəndində anadan olmuşdur. Qədim bəy nəslindən – Vəkilovlardandır. Şairin atası Yusif ağa Vəkilov yoxsullaşmış bəy olsa da, hörmətli şəxslərdən və savadlı ziyalılardan sayılırdı. Altı yaşında anası Məhbubə xanımı itirmiş və onun tərbiyəsi ilə nənəsi Ayişə məşğul olmuşdur.

**1874**-cü ildən Yuxarı Salahlıda beş illik rus-tatar məktəbi fəaliyyət göstərirdi və S.Vurğun ilk təhsilini burada almışdır. Burada ana dili dərsləri də keçilirdi. Uşaqlıq və gənclik illəri Azərbaycanda milli şüurun və hərəkatın yüksəlişi, Demokratik Cümhuriyyətin yaranması və süqutu illərinə düşmüşdür.

**1918**-ci ildə Qazaxda F.Köçərlinin rəhbərliyi ilə **Azərbaycan Müəllimlər Seminariyası** yaradıldı və S.Vurğun elə həmin il seminariyaya daxil oldu. O, burada skripka qrupunda məşğul olur, dram dərnəyində Məcnun rolunda çıxış edirdi, tədbirlərdə gözəl şeir ifası ilə fərqlənirdi.

S.Vurğunun oxuduğu və sevdiyi sənətkarlar: xalq poeziyası üslubunda yazmış Vidadi, Vaqif, Zakir, klassik şairlərdən Sabir, türk romantiklərindən Tofiq Fikrət, Rza Tofiq, Namiq Kamal; rus klassiklərindən A.S.Puşkin, M.Lermontov.

**1920**-ci ildə komsomola daxil olmuş, Qaraqoyunluda komsomol hərəkatında iştirak etmiş, sonralar bu dövr həyatını "Komsomol poeması"nda təsvir etmişdir.

Seminariyanı bitirdikdən sonra Qazax məktəbində ədəbiyyat müəllimi işləyir.

**1926-1927**-ci illərdə Qubada müəllimlik edir.

**1928-1929**-cu illədə Gəncədə müəllimlik edir. Burada çıxan "Qızıl Gəncə" jurnalında şeirləri çap olunur. Mir Cəlal, Seyfulla Şamilov, Həmid Araslı, Əhməd Cəmil kimi cavan ədib-

lərlə burada tanış olur. S.Vurğun 20-ci illərin sonlarında ədəbi aləmdə bir şair kimi tanınırdı.

**1929**-cu ildə İkinci Moskva Universitetinin ədəbiyyat fakültəsinə daxil olur, rus və dünya ədəbiyyatını daha yaxşı öyrənməyə çalışır.

**1931**-ci ilin yanvarında Bakıya qayıdan şair Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun ədəbiyyat üzrə aspiranturasına daxil olur. Lakin özünü bütünlüklə bədii yaradıcılığa həsr edir. Çap olunmuş **ilk şeir kitabları**:

**1) "Şairin andı"** (1930)

**2) "Fanar"** (1932)

**3) "Könül dəftəri"** (1934)

**1934**-cü ildə Azərbaycan Sovet Yazıçılar İttifaqının məsul katibi seçilir.

**1935**-ci ildə ZSFSR İcraiyyə Komitəsinin üzvü seçilir.

**1936**-cı ildə Sovet hakimiyyətinin 15-ci ildönümü münasibətilə Moskvada Stalinin qarşısında **"Rəhbərə salam"** şeirini oxuyur və şeir Stalinin xoşuna gəlir.

**1945**-ci ildə Azərbayan Elmlər Akademiyasının akademiki seçilir və Akademiyanın vitse-prezidenti olur. Azərbaycan tarixi və Azərbaycan ədəbiyyatı tarixinin ilk layihələrinin yaradılmasında yaxından iştirak edir.

**1955**-ci ildə Pekində ağır xəstələnib yatağa düşür.

**1956**-cı ildə **"Xalq şairi"** adı ilk dəfə ona verilir və Lenin ordeni alır. Şair xəstə olduğu üçün 50 illik yubileyində iştirak edə bilmir və bu məclisə radio ilə qulaq asmalı olur.

**1956**-ci il mayın 27-də vəfat edir və Fəxri Xiyabanda dəfn edilir.

## YARADICILIĞI

S.Vurğunun **şeirləri, poemaları, dramatik əsərləri** və **tərcümələri** vardır.

**1. ŞEİRLƏRİ**

**1920-ci illərin əvvəlləri** S.Vurğunun yaradıcılığının ilk dövrünə aiddir. Həmin illər Azərbaycan poeziyası üçün həm **klassik**, həm də **xalq şeiri** üslubu səciyyəvi idi. Bu vaxt hətta **sərbəst şeirin** də ilk nümunələri yaranmağa başladı.

Bütün bunlara baxmayaraq, əruz vəzninə üstünlük verilirdi və o vaxt romantik türk şairləri ruhunda yazılan poeziya nümunələri mədəni və savadlı ədəbiyyat sayılırdı. Gənc Səməd də bu üslubda bir sıra romantik şeirlər yazmışdır.

**1926**-cı ildə **Dürrəyə** aid şeirlərdən biri bu qəbildəndir:

Fikrim düşünür o əski anı,
Dürrə! Səni sevdiyim zamanı…
Röyamı, nədir bu gördüyüm, ah?!
Xülyamı, nədir bu aləm, ey vah?

S.Vurğun yaradıcılığında əruz vəzni keçici oldu, həmçinin o, sərbəst şeirin də milli şeir təfəkkürünə və öz şairlik təbiətinə yad olduğunu anladı. **Heca vəznində** yazmağa üstünlük verdi. S.Vurğun üçün milli şeir köklərimizin ən parlaq təzahürü M.P.Vaqif yaradıcılığında idi.

**1935**-ci ildə S.Vurğun Vaqifə həsr etdiyi **"Şairin ölümü"** şeirində Vaqifin xalq şeirinə münasibəti barədə yazırdı:

Dedin ki, el dili, el şeiri, gərək,
Böyük bir ölkəyə qanad gərərək,
Üfüqdən-üfüqə çapsın atını.
Əziz bir ölkənin xatiratını
Verməyək dağıdan, vuran əllərə,
Doğma sənət gərək bizim ellərə.

Heca vəzni Azərbaycan xalqının öz doğma dilinə əsaslanırdı və min illik tarixi olan xalq şeirinin vəzni idi. S.Vurğunun şeiri **hecanın milli şeir düşüncəmizin** ən gözəl və ən qüdrətli ifadə tərzi olması faktını təsdiqlədi.

**1932**-ci ildə bolşevik partiyası ədəbi təşkilatların yenidən qurulması barədə qərar çıxaranda S.Vurğun türk millətçiliyini **Azərbaycan millətçiliyi ilə əvəz etdi.** Bu, **azərbaycançılıq** məfkurəsi idi. S.Vurğuna qədər azərbaycançılıq məfkurəsi, xalqının öz varlığı ilə fəxarət hissləri güclü deyildi. S.Vurğun bu mənada böyük azərbaycançıların – A.A.Bakıxanovun, M.F.Axundzadənin, N.Nərimanovun, C.Məmmədquluzadənin, M.Ə.Sabirin, M.Ə.Rəsulzadənin, C.Cabbarlının **xələfi** idi.

S.Vurğun millətçiliyi mahiyyətcə ondan az fərqlənən xalq sevgisi, el ruhuna pərəstiş hissləri ilə əvəz etdi. Azərbaycanın öz varlığını axtarmaq, tərənnüm etmək – o vaxt çoxlarının fikir vermədiyi, lakin böyük bir məfkurə idi. Şair “Komsomol poeması”nda yazırdı:

Nədəndir şeirimizin baş qəhrəmanı,
Gah Turandan gəlir, gah da İrandan.
Bəs mənim ölkəmin varlığı hanı?
Budur mən açdığım yarış meydanı,
Gəlsin Verxarnı yamsılayanlar,
Çoxdan danışmayan sevgilim hanı?

Bu suallar yalnız ədəbiyyat tarixi üçün deyil, xalqımızın milli və dövlətçilik düşüncəsinin tarixi baxımından da mühüm hadisə idi. Artıq 30-u illərdə S.Vurğun Azərbaycan Sovet Respublikasını bütün mənfi cəhətlərinə baxmayaraq, xalqın milli nailiyyəti hesab edirdi.

**1935**-ci ildə S.Vurğun **“Azərbaycan”** şeirini yazdı. Bu, azərbaycançılığın **poetik manifesti,** Azərbaycan vətənçiliyinin **pasportu,** Azərbaycan vətənpərvərliyinin **ali zirvəsidir**. Müəllif azərbaycanlı olması ilə fəxr edir:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?

Azərbaycan, Azərbaycan!

Dağlarının başı qardır,
Ağ örpəyi buludlardır,
Böyük bir keçmişin vardır,
Bilinməyir yaşın sənin,
Nələr çəkmiş başın sənin.

**30-cu illərin əvvəllərində** şair **30 poemadan** ibarət **"Azərbaycan" epopeyası** yazmaq istəmiş, bu məqsədlə bir neçə poema yazmış, lakin layihəni həyata keçirə bilməmişdir.

S.Vurğun **müharibə illərində** hərbi paltar geymiş, müharibə cəbhələrində olmuş, vətənin müdafiəçiləri ilə görüşmüş, onlara xalqımızın azadlıq mübarizələri tarixindən söz açmışdır. Hərbi mövzu şairin ruhuna yaxın və doğma idi.

S.Vurğunun **müharibə mövzusunda** yazdığı şeirlər:

**1) "Vətən keşiyində"**. Müharibə **başlayan gün** yazılıb və faşizmin məğlub ediləcəyi bildirilir:

Bu ellər gecəni qatıb gündüzə,
Faşist ordusuyla gəlib üz-üzə,
Dastanlar yazacaq öz hünəriylə,
Ordular basacaq öz zəfəriylə.

**2) "Qəhrəmanın hünəri", "Partizan Babaş", "Gözaydınlığı"**. Faşizmə sovet adamlarının nifrəti və müharibənin qələbə ilə bitəcəyinə inam ifadə edilmişdir.

**3) "Şəfqət bacısı"**. Bu şeirdə ana və bacılarımız səngərlərə, igid əsgərlərə köməyə çağırılır:

Gəl çıxaq cəbhəyə, əmr edir Vətən,
Sən də bu meydanda kükrəyib çağla!
Düşmənin gülləsi dəysə sinəmdən,
Mehriban əlinlə yaramı bağla!

**4) "Leyla"**. İlk təyyarəçi Azərbaycan qadını haqqındadır. Əsgər nəğməsi kimi səslənir.

S.Vurğun müharibə mövzusunda yazdığı şeirlərin çoxunda **vuruşan döyüşçünün obrazını** yaradıb. Bu döyüşçü sadə bir ailənin övladı, xalqın bir parçasıdır. Onun mətinliyi, vətənə sədaqəti, qələbə əzmi tərənnüm olunur. Arxa cəbhədə ona sovqat, təskinlik yollamaq arzusu ilə yaşayırlar.

Şair azərbaycanlı döyüşçülərin Sovet İttifaqı Qəhrəmanı adını almasını sevinclə qarşılayır, onlar barədə şeirlər yazırdı.

**2. POEMALARI**

S.Vurğunun şeir yaradıcılığı kimi poema yaradıcılığı da zəngindir. Həmin poemaları aşağıdakı kimi qruplaşdırmaq olar:

**1) Əfsanəvi** mövzulara həsr edilmiş poemalar:

**"Bulaq əfsanəsi", "Qız qayası", "Aslan qayası", "Ayın əfsanəsi", "Hürmüz və Əhrimən".** Bu poemalar xalq əfsanə və rəvayətləri əsasında yazılmışdır.

**2) Tarixi** mövzulara həsr olunmuş poemalar:

**"Zamanın bayraqdarı", "Dar ağacı", "26-lar", "Üsyan", "Macəra".** Eyni zamanda bu poemalar müasir, sovet mövzulu poemalara yaxındır.

**3) Sovet həyatını** əks etdirən poemalar:

**"Komsomol poeması", "Muğan", "Aygün"**. Bu əsərlər S.Vurğunun bütün yaradıcılıq dövrünü əhatə edir.

**"Komsomol poeması"** göstərdi ki, şair öz daxili aləminə sadiq qaldıqda, həyat materialına və müşahidələrinə söykəndikdə daha qüdrətli olur. Poema hər biri bitkin xarakter səviyyəsində olan **7 nəfər komsomolçu gəncdən** bəhs edir.

Cəlal obrazının **prototipi** S.Vurğun özü, Humay obrazının **prototipi** isə Dürrədir. Şair öz nakam məhəbbətindən bəhs edir: hər iki sevgili köhnəpərəst qüvvələrin qurbanı olaraq öldürülür. Poemada **faciə, kədər, tənhalıq, bədbinlik** motivləri şairin poetik fərdiyyətini göstərən amillərdir. Poema **şeiriyyətcə** şairin ən gözəl əsəridir. Burada şair sanki ölən şeirlərinə abidə qoyur, patetik siyasi lirikadan dincəlməyə çalışırdı.

**“Muğan”** poeması ana torpağımıza, xüsusən**, tikintiyə** həsr olunmuşdur. Amma **lirik təhkiyəyə** əsaslanan **tərənnüm** üzərində qurulmuşdur. O, sosializm quruculuğundan yazsa belə burada **oçerkçiliyə** meyil göstərməmişdir. Hətta poema öz ilhamına xas olan romantika ilə dolu nəğmələr şəklində yazılmışdır. **19 nəğmədən** ibarət olan poema şairin Muğana, Kür sahillərinə səyahətinin təsviri ilə başlayır.

**“Təbiət ilhama çağırır məni”** leytmotivi ilə açılan **proloqda** “Muğan” Azərbaycan təbiəti haqqında dastan hesab edilir. **Baş qəhrəman** Muğan təbiətinin özüdür. Əsərdəki ilk obrazlardan biri **ceyrandır**:

Sükuta qərq olmuş ürəyimlə mən
Keçirəm yenə də Muğan çölündən.
Yanımda balası, yağış gölündən
Əyilib su içir bir ana ceyran.
On addım kənarda yatmayır təkə,
Gəzinir oylağa baş çəkə-çəkə,
Gələn qaraltıdır, yoxsa təhlükə?
Bir özünə baxır, bir ona ceyran.

**Şairin özü də** əsas obraz kimi **sürücü** və **qoca çobanla** söhbət edir, hətta kosmopolit tənqidçilərlə polemika aparır:

Kosmopolit tənqidçilər ömrü boyu dandı məni,
Dedi: “Əsl şairlərin nə yurdu var, nə vətəni”.
Dedi: – bütün yer üzüdür sənətkarın ana yurdu,
Bizim çoban şairi də saz üstündə şeir qurdu.
…Sizin kimi nökər olub yad ocağı qalamadım,
Vətənimin vüqarıtək vüqarlıdır mənim adım…

Bu, şairin ona vətənsiz deyən opponentlərinə cavabı idi.

**“Aygün”** mənzum romanı epik ruhlu bir əsərdir. Ailə və məhəbbət problemlərinə həsr olunmuşdur.

**Aygün** əsərin əsas qəhrəmanıdır, romantik sədaqət rəmzidir və şairin qadın idealı kimi ümumiləşdirilmişdir. Azərbay-

canlı qadınların ağır taleyi onun bir çox şeir və poemalarında özünü göstərən motivdir.

İstehsalat Aygünün milli əxlaqi simasında dəyişiklik yaratmır. Aygün öz ərinə və ailəsinə görə bəstəkarlıq təhsilini yarıda qoyub kəndə gedir. Lakin onların ailəsi həyatın sınaqlarına dözə bilmir: Aygün ərindən ayrılır və qızını tək saxlamalı olur. Bakıya qayıdıb təhsilini davam etdirir və bəstəkar kimi məşhurlaşır. Lakin Aygün ilk sevgisinə sadiqdir və yenidən ailə qurmaq təkliflərini rədd edir. Əsər Aygünlə Əmirxanın birləşəcəyi ehtimalı ilə bitir.

**3. DRAMATURGİYASI**

Pyeslərinin hamısı şeirlə və heca vəznində yazılmışdır:

**1) "Vaqif"** (1937).

**2) "Xanlar"** (1939). Azərbaycan bolşeviklərinin, inqilabçı Xanlar Səfərəliyevin obrazı yaradılmışdır. Burada Stalin Koba adı ilə verilmişdir və əsərdə ona rəğbət göstərilmişdir.

**3) "Fərhad və Şirin"** (1941). Pyesdə hökmdar və zəmanə, zəhmət, məhəbbət, ideal kimi məsələlərə toxunulur.

**4) "İnsan"** (1945). Müharibə və sülh problemi barədə romantik və fəlsəfi ruhlu dramdır. Əsər ikinci dünya müharibəsinin təsiri ilə yazılmışdır. Şair müharibənin səbəbləri barədə düşünür, insanlığın bundan birdəfəlik uzaqlaşmasını arzulayırdı. Ona görə ki, dünya müharibələri bəşər sivilizasiyası üçün real bir təhlükə şəklini alırdı.

S.Vurğunun ilk üç dramı tarixi mövzudadır və bu əsərlərlə o, C.Cabbarlının davamçısıdır.

**4. TƏRCÜMƏLƏRİ**

**1) Ş.Rustaveli. "Pələng dərisi geymiş pəhləvan"** poeması.

**2) A.S.Puşkin. "Yevgeni Onegin"** poeması. Əsər şairin yaradıcılığında xüsusi hadisəyə çevrilmişdir. Forması olduğu tək saxlanılmış, hər sətirdəki fikirləri dəqiqliklə çevirmişdir.

**3) N.Gəncəvi. "Leyli və Məcnun"** poeması

**4) M.Qorki. "Qız və ölüm"** poeması

**5) İ.Çavçavadze. "Şair", "Vətən"** şeirləri

**6) C.Cambul. "Ellər baharı"** şeiri

## "VAQİF" pyesi (1937)

Səməd Vurğunun yalnız dramaturgiyasının deyil, ümumən yaradıcılığının da **zirvəsidir**. Əsərin **mövzusunu** Azərbaycan xalqının XVIII əsrin sonlarında xarici qəsbkarlara qarşı mübarizəsi təşkil edir. Süjeti tarixdə olmuş hadisələrdən götürülən pyesin mərkəzində İran şahı Qacarın Şuşaya hücumu və orada öldürülməsi dayanır.

Səməd Vurğun "Vaqif" pyesində tarixi hadisələrə öz yaradıcı təxəyyülü ilə **sərbəst yanaşmışdır**: İbrahim xan mənfi planda verilmişdir, Vaqif surəti də tarixdə olduğundan fərqlənir.

Pyesin **konfliktini** Qacarla Azərbaycanın vətənpərvər qüvvələri (Vaqif, Eldar, Kürd Musa və b.) arasında azadlıq və müstəqillik uğrunda mübarizə təşkil edir. S.Vurğunun müsbət surətlərinin çoxu Azərbaycanı təmsil edirlər.

**Vaqif surəti.** O, müdrik vəzir, qorxmaz bir insandır. Vaqif sarayda yaşasa da, xalqa dərindən bağlıdır: Vidadi, Eldar kimi xalq nümayəndələrinə məhəbbət göstərir.

Vaqif **xalqın**, İbrahim xan **pozulmuş zadəganlığın** nümayəndəsidir. Vaqif **vətəni**, İbrahim xan **özünü** düşünür.

Vaqifə qarşı duran **ikinci** mühüm qüvvə **Şeyx və satqın müsəlman ruhanilərdir**. Vaqif onların hamısından yüksəkdir. Arvadı **Xuramanın** xəyanəti Vaqifə bir dərd olur. Xuraman peşman olub özünü öldürdükdə isə ona acıyır.

Vaqifin Qacarla qarşılaması və ona baş əyməməsi Azərbaycan qürurunun əyilməzlik rəmzidir:

Dayan, bu bağçanın hər bir budağı,
Üstündə min çiçək, min gül bitirmiş!
Sizin güldüyünüz çoban torpağı,
Nizamilər, Füzulilər yetirmiş!

Qacarla Azərbaycanın adından danışan Vaqifin xarakterində romantik monumentallıq vardır. O, Vidadiyə deyir:

Yalvarma, yalvarma o cəllada sən!
Hələ baş əyməmiş bu böyük vətən…

**Vaqiflə Qacarın deyişməsi** əsərin ən təsirli yeridir. Qacarın əsiri kimi səhnəyə gətirilən Vaqif romantik bir cəsarət nümunəsi göstərir, öz xalqının qürurunu şərəflə müdafiə edir. O, düşmənə tutarlı cavablar verir və onu susdurur.

Pyesdə xalqımızın xarici istilaçılara qarşı mübarizəsi xüsusi yer tutur: **Kürd Musa, Eldar** kimi xalq qəhramanlarının obrazı böyük rəğbətlə yaradılmışdır. El gücünü göstərən kütləvi səhnələr dramın fikir leytmotivində mühüm yer tutur.

"Vaqif" pyesində C.Cabbarlının "Od gəlini" əsərində qoyulmuş Azərbaycan xalqının **tarixi taleyi** mövzusu inkişaf etdirilir və əsər milli mənlik şürunun inkişafında da bir addımdır.

Əsərdə xarici işğalçılara qarşı əsas qüvvə **XALQ** özüdür. Vidadi xalq kütlələrini təmsil edir. Vidadi saray mühitinə qarşı olan xalqın timsalıdır, Vaqifin dostu və ağsaqqalıdır, sarayı bədbəxtlik mənbəyi kimi dərk edir və Vaqif üçün narahatdır.

Pyesdə xalq üç səviyyədə görünür:

**1)** Xalq və kütlə obrazı **2)** Vidadi obrazı.

**3)** Xalqın dövlətini təmsil edən Vaqif obrazı.

Onlar birlikdə Azərbaycan xalqının ümumiləşmiş obrazını yaradır. Eldar, Kürd Musa isə xalqın oğulları və qılınc vuran qəhramanlarıdır. Əsər yadellilər üzərində qələbə, Vaqif kimi

müdrik başçı ətrafında birləşməklə bitir. Pyesin dərin qatlarında o zaman hökm sürən **repressiyalara** işarə vardır.

**Qacar** hakimiyyət və qan, istila və ölüm mövzusunun rəmzidir. Qacarın hakimiyyət fəlsəfəsi belədir:

Mənim vicdanım da, qəlbim də qandır,
Dünya qan üstündə bir xanimandır.

“Vaqif” pyesi 1937-ci il repressiya gerçəklikləri haqqında ağır düşüncələrin və həyəcanların da məhsulu idi.

Qan və siyasi terror motivi Vidadi və Vaqifin dialoqlarında özünü göstərir. Vidadi dostunu xalq içinə qayıtmağa çağıranda Vaqif də siyasətdə və sarayda qan məsələsindən danışır. Burada Vaqifin dili ilə danışan əslində S.Vurğunun özüdür. Vaqifin sarayda vəzifə tutması barədə aşağıdakı sözlərində S.Vurğunun humanizmi, insan dəyərlərinə, əxlaqi siyasətə sədaqəti əksini tapır:

Mən orda olmasam, qan çıxar dizə,
Quşlar da ağlayar ellərimizə.
Xan məndən utanır, çəkinir bir az,
Mən getsəm, qırğının hesabı olmaz.
O, bəzən hirslənib quduran zaman
Mənəm zəncirini dartıb saxlayan.

Vaqif həbs olunanda sarayı bədbəxtlik mənbəyi kimi lənətləyir. Bu, bolşevik terroruna mənfi münasibəti ifadə edir.

Qacar uşaq ikən siyasi mübarizələr zəminində şikəst edilmişdir və bu, onun təbiətində qəddarlıq doğurmuşdur. Şah Qacar ölkələrə və xalqlara divan tutmaqla təskinlik tapmaq istəyir. Onun xalqlara, ölkələrə tətbiq etdiyi terror sonda özünə qarşı çevrilir: o, qətlə yetirilir.

“Vaqif” pyesi Azərbaycan şeir və dram dilinin nadir incisidir. Şairin verdiyi dramatik replikalar nəsrlə yazılan dramatik replikalardan daha yığcamdır, həm də yüksək şeiriyyətə malik-

dir. Şair Vidadinin, Eldarın, Qacarın Vaqifin nitqini ustalıqla bir-birindən fərqləndirmişdir.

Pyesi şöhrətləndirən iki səbəb vardır:

**1)** Əsərin qızğın vətənpərvərlik ruhu

**2)** Səməd Vurğun poeziyasının misilsiz uğuru

Əsərin fabulası ustalıqla qurulmuş, monumental, məişət və şəxsi səhnələr üzvi şəkildə əlaqələndirilmişdir. S.Vurğun bu əsərlə öz sənətkar müdrikliyinin yüksək nöqtəsinə çatmışdır.

Pyesdə aşağıdakı **aforizmlər** vardır:

**1)** "Soyuq məzara da zinətdir insan"

**2)** "Dünyada qalacaq yalnız yaradan"

**3)** "Günəşdən gizlənən yarasalardır".

## MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYAR (1905-1988)

### H Ə Y A T I

**1905**-ci il martın sonu, aprelin əvvəllərində Məhəmmədhüseyn Şəhriyar dünyaya gəlmişdir. Onun Adı Seyid Məhəmmədhüseyn Behcət Təbrizi, təxəllüsü **Şəhriyardır**. Yaradıcılığının ilk dövrlərində şeirlərini **"Behcət"** təxəllüsü ilə yazmışdır. **Atası Hacı Mirağa Xoşginabi** Cənubi Azərbaycanın Xoşginab kəndindən idi. Əsl Adı Hacı Seyid İsmayıl Musəvi olan bu şəxsi Şəhriyar "Heydərbabaya salam" poemasında aşağıdakı kimi təqdim edir:

Mənim atam süfrəli bir kişiydi,
El əlindən tutmaq onun işiydi,
Gözəllərin axıra qalmışıydı.

Həmçinin o, Şəhriyarın ədəbi taleyinə ciddi təsir göstərən **anası Kövkəb xanımı** "evimizin günəşi" adlandırmışdır:

Heç biləsən mənə bir vaxt nələr, nələr demiş o!
Həqiqətlər söyləmiş, əfsanələr demiş o.
Onun nağıllarıyla qanadlanmış xəyalım,
Bayatılar, laylalar, təranələr demiş o.
…Mən onun sayəsində boya-başa çatmışam,
Anam məni yaratmış, mən aləm yaratmışam

Şəhriyarın uşaqlıq illəri Heydərbaba dağının ətəklərində, Xoşginabda, Şəngilovda, Qayışqursaq kəndində, Qaraçəməndə keçmişdir. **Xoşginabın koloritli xalq həyatı**: "yolu, bəndi, bərəsi", "biçin üstü sünbül biçən oraqlar", "bulaqların yarpızı", "gecə durna köçü" kimi detallar onun uşaqlıq xəyalına həmişəlik həkk olunmuşdur. **Xoşginabın unudulmaz insanları**: Məmixan, Ağa Mir Qafar kişi, Fizzə xanım, Nənəqız, Rəxşəndə, Aşıq Rüstəm, Mustafa dayı ("heykəlli, saqqallı Tolstoy baba") onun qəlbində əbədi yaşamışlar. Bu zəngin təəssüratlar Şəhriyarın şah

əsəri olan "Heydərbabaya salam" poemasının əsas nüvəsini təşkil edir.

Şəhriyar ilk dəfə məktəbə Xoşginab kəndində getmişdir. Onun axund Molla İbrahimdən dərs alması Şəhriyarın dünyagörüşünün inkişafı üçün əhəmiyyətli olmuşdur:

…O məktəbdə şeirin şəhdin dadmışam,
Axundun ağzından qapıb udmuşam.
Gahdan da bir axundu aldatmışam:
–Başım ağrır, – deyib, qaçıb getmişəm,
Bağçalarda gedib gözdən itmişəm.

**1912**-ci ildə Şəhriyarın ailəsi Təbrizə qayıtmış və Şəhriyar Təbrizdə **"Talibiyyə"** mədrəsəsində oxumuş, burada ərəb, fars dillərini, xüsusi müəllim vasitəsilə fransız dilini öyrənmişdir. Bu dövrdə şair Həbib Sahirlə tanış olmuş, M.Ə.Sabirin şeirlərini oxumaq imkanı qazanmışdır.

**1913**-cü ildə ilk şeirini **"Talibiyyə"** məktəbində şagird olarkən yazmışdır.

**1920**-ci ildə Təbrizdəki **"Mütəvvəssitə"** mədrəsəsində oxuyarkən onun "Behcət" təxəllüsü ilə yazdığı bir neçə şeiri "Ədəb" adlı dərgidə çap olunmuşdur.

**1921**-ci ilin mart ayında Tehranda Darülfünun mədrəsəsində təhsilini davam etdirmişdir. Şəhriyar mədrəsədə ikən Hafiz Şirazinin divanını oxumuş, "Şəhriyar" təxəllüsünü də Hafizə ehtiram əlaməti olaraq götürmüşdür.

**1924**-cü ildə Tehranda Ali Tibb Universitetinə daxil olmuşdur. Bu mərhələ (1924-1929) dünyagörüşünün zənginləşdiyi, bədii yaradıcılığının təkamüldə olduğu dövrdür.

**1926**-cı ildə **ilk şeir kitabı** olan **"Sədaye-xuda"** ("Tanrının səsi") Tehranda çap edilmişdir.

**1927**-ci ildə **ikinci kitabı** olan **"Məsnəviye-Ruh və Pərvanə"** Peyman Bəxtiyarın ön sözü ilə çap edilmişdir.

**1929**-cu ildə **üçüncü kitabı** Məliküş-şüəra Bahar, Səid Nəfisi və Peyman Bəxtiyarın ön sözü ilə çap olunmuş və onu şair kimi qəti olaraq tanıtmışdır.

Ali Tibb Universiteti dövrü Şəhriyarın aşiqlik dövrü hesab edilir. Süreyya adlı bir qızı sevmiş, onu Pəri adlandırmış, lakin İran şahının qohumu olan qızın atası bu iş üstündə onu Nişapura sürgün etdirmişdir. Tibb Universitetində diş həkimliyi və əczaçılıq fakültəsində təhsilini başa çatdıra bilməmişdir.

Şəhriyarın **nakam məhəbbətinə** həsr etdiyi şeirləri: **"Həzin nalələr", "İtmiş Yusif", "Odda yanan pərvanə", "Köynəyin qoxusu", "Dəli Pəri", "Behcətabad xatirəsi"**.

**1935**-ci ildə Tehrana qayıtmışdır. Kənd təsərrüfatı bankında işləyən şairin həyatında böhran və xəstəliklər davam edir. Şəhriyar dərvişvari bir həyat tərzi sürür.

**1937**-ci ildə dörd ay Təbrizdə olması da onu böhrandan xilas edə bilmir. Bu dövrdə yazdığı şeirləri ilə yenidən parlamış və **zəmanəsinin Hafizi** adını qazanmışdır. Lakin o, məclislərə çağırılmamış, ona laqeydlik göstərilmişdir. Onun böhrandan qurtarmasında Kövkəb xanımın doğma el-obasından, xalq ədəbiyyatından etdiyi söhbətlərin müstəsna rolu vardır.

**1952**-ci ildə anası **Kövkəb xanım** Tehranda vəfat etmiş və Qum şəhərində atası Hacı Mirağa Xoşginabinin yanında dəfn edilmişdir. Təsirli elegiya kimi səslənən **"Ey vay, anam!"** şeirində ana-övlad məhəbbəti dolğun şəkildə əksini tapmışdır.

**1953**-cü ildə qəti olaraq Təbriz şəhərinə üz tutmuşdur:

Tehranın qeyrəti yox Şəhriyarı saxlamağa,
Qaçmışam Təbrizə, qoy yaxşı-yaman bəllənsin.

**1973**-cü ildə "Varlıq" jurnalının redaktoru, **doktor Cavad Heyətin** təkidi ilə Tehrana getmişdir. Bu dövrdə **Bulud Qaraçorlu Səhənd** də ona maddi və mənəvi dəstək olmuşdur.

**1974**-cü ilin fevral ayında həyat yoldaşı **Əzizə Əbdülxaliqinin** qəflətən vəfatından sonra Təbrizə dönmüş və ömrünün

sonunadək orada yaşamışdır. Şəhriyarın qayıdışı ilə Təbriz azərbaycandilli milli şeirin baş qərargahına çevrilmişdir. Təbrizdə Azərbaycan şeirinin **Şəhriyar məktəbi** yaranmışdır.

**1988**-ci il 18 sentyabrda Tehranın Mehr xəstəxanasında vəfat etmiş və Təbrizdəki Surxab qəbiristanlığında "Məqbərətüş-şüəra"da ("Şairlər məqbərəsi") dəfn olunmuşdur.

Şəhriyarın əsərləri ölümündən sonra Bakıda, Təbrizdə və Tehranda, habelə Türkiyədə, İraqda, Orta Asiyada çap olunmuşdur. Əsərləri ingilis, fransız, alman, ərəb dillərinə tərcümə edilmişdir. Onun şeirlərinə mahnılar qoşulmuşdur. Bakıda və Təbrizdə adına küçələr verilmişdir. Təbriz şəhərindəki evi muzeyə çevrilmişdir.

## YARADICILIĞI

M.Şəhriyarın əsərlərini iki qismə bölmək olar: **şeir** və **poema** yaradıcılığı.

### 1. ŞEİRLƏRİ

Fars dilində çoxcildlik **divan** bağlamış, Azərbaycan dilində **milli şeirin klassik nümunələrini** yaratmışdır.

**Azərbaycan mövzusu** onun yaradıcılığında geniş yer tutur. Bu mövzudakı şeirlərdə Vətənin şanlı tarixi, istiqbalı, taleyi və müqəddəratı özünün kamil bədii əksini tapmışdır.

**"Azərbaycan"** şeiri Şəhriyarın həmin mövzuda yazılmış şah əsərlərdən biridir:

Könlüm quşu qanad çalmaz sənsiz bir an, Azərbaycan!
Xoş günlərin getmir müdam xəyalımdan, Azərbaycan!
…Vətən eşqi məktəbində can verməyi öyrənmişik,
Ustadımız deyir heçdir vətənsiz can, Azərbaycan!
…Ya Rəb, nədir bir bu qədər ürəkləri qan etməyin,
Qolubağlı qalacaqdır nə vaxtacan Azərbaycan?!
Övladların nə vaxtadək tərki-vətən olacaqdır?
Əl-ələ ver, üsyan elə, oyan, oyan, Azərbaycan!

Bəsdir fəraq odlarından kül ələndi başımıza,
Dur ayağa! Ya azad ol, ya tamam yan, Azərbaycan!
Şəhriyarın ürəyi də səninkitək yaralıdır,
Azadlıqdır mənə məlhəm, sənə dərman, Azərbaycan!

Şair vətənin bütövlüyü və qarşılıqlı əlaqələrin yaranması ideyasını cəsarətlə şeirə gətirmişdir.

**1967**-ci ildə yazdığı **"Məmməd Rahim həzrətlərinə cavab"** şeirində bu mətləblərdən danışır:

O taydadır Şəki, Şirvan, Qarabağ,
Bu tayda da Meşqin, Əhər, Qaradağ.
Bir-birlərin Arazdan almış soraq,
Araz bizi ayırmadan dağlayıb,
Son özü də gecə-gündüz ağlayıb.

Üfüqlərə röya rəngin yaxıram,
Tilsimvari dağlar üstə taxıram,
Eynalıdan, Ərk üstündən baxıram,
Sən də hünər atın minib çaparsan,
Dumanlı dağlarda məni taparsan.

Şairin **S.Rüstəmə** ünvanladığı mənzum məktub və ithaflarda, **Ə.Hüseynliyə** yazılmış **"El bülbülü"** şeirində birlik və bütövlük duyğuları, ayrılıq və həsrət notları əks olunmuşdur.

**Ana dili mövzusu** da Azərbaycan mövzusunun tərkib hissəsidir. **1969**-cu ildə – Pəhləvi rejimi zamanında İranda Azərbaycan dilinin qadağan olunduğu bir vaxtda yazdığı **"Türkün dili"** şeiri ana dilimiz haqqında ən mənalı şeirdir:

Türkün dilitək sevgili, istəkli dil olmaz,
Ayrı dilə qatsan bu əsil dil əsil olmaz.
Fars şairi çox sözlərini bizdən aparmış,
Sabir kimi bir süfrəli şair pəxil olmaz.
Türkün məsəli, folkloru dünyada təkdir,
Xan yorğanı, – kənd içrə məsəldir, – mitil olmaz.
…Bu Şəhriyarın təbi kimi çimməli çeşmə,

Kövsər ola bilsə, demirəm, Silsəbil olmaz.

**Qafqaz, o tay harayı, Bakı soraqlı mövzuları** da Şəhriyar yaradıcılığında xüsusi yer tutur. Bunlar Şimal ədəbiyyatındakı Cənub həsrətini, Təbriz nisgilini əvəz edirdi. **“Səfasın unutmayan Qafqaz”** motivi Şəhriyar üçün qədim və böyük Azərbaycan mənasında düşünülmüşdür. Bakıya gələ bilməyən Şəhriyar ora sanki xəyali səfər etmişdir.

Şəhriyarın **Şimali Azərbaycana məhəbbəti** aşağıdakı şeirlərdə ifadə olunmuşdur: **“El bülbülü”**, **“Can Rüstəm”**, **“Döyünmə – söyünmə”**, **“Qaçaq Nəbi”**, **“Həkiməcan”**, **“Qafqazlı qardaşlarla görüş”**, **“Gözüm aydın”**, xalq şairləri **Süleyman Rüstəmə** və **Məmməd Rahimə** yazdığı **məktublar**. Şairin Şimali Azərbaycan haqqında yazdığı şeirlər həm də Azərbaycan ədəbiyyatı və mədəniyyətinin bu qolunu Cənubda tanıtmaq, təbliğ etmək üçün sənət körpüsü olmuşdur. Milli-mənəvi birlik ideyası sənətkarların birliyində ifadə edilmişdir:

Bülbül kimi qondu o qızıl güllərə könlüm,
Vahidlərə, Qabillərə, Bülbüllərə könlüm.
Şair olalı borcludu Sabirlərə ruhum,
Vurğundu Süleyman kimi Sahirlərə ruhum.
Rahimli, Süleymanlı görüm Bəxtiyar olsun,
Gülgün bacım – Azər qadını bərqərar olsun.
Osman, Nəbi, Kürçaylı, Rəsul, Tudə var olsun!
Fürsətdə Səhənd ilə Sizə gül səpərik biz,
Hər göz sizi görmüşsə, o gözdən öpərik biz.

Ayrılığı “qəmlə” yazılmış roman adlandırmasına baxmayaraq, Şəhriyar heç vaxt ümid və inamını itirməmişdir:

Yaman günlər keçib gedər, itəndir,
Bir yaxşılıq muradına yetəndir.
O tay-bu tay fərqi yoxdur, Vətəndir.

M.Şəhriyarın Azərbaycan haqqında yazılmış şeirlərində dövrü üçün aktual olan iki ölkə – İranla Azərbaycan arasında

qarşılıqlı əlaqələrin genişlənməsi, ayrı düşmüş xalqın gediş-gəlişinə şərait yaradılması ideyası izlənmişdir. Bu ideya Arazın hər iki tayında ədəbi qüvvələr tərəfindən dəstəklənmişdir.

**2. POEMALARI**

**Poema janrı** Şəhriyarın yaradıcılığında xüsusi yer tutur. Onun poemalarının bir qismi **fars** dilindədir.

**1) "Haqqın səsi"**. Poemada "İnsanın vətəni Yer kürrəsidir" ideyası irəli sürülmüş, bütün insanlar qardaşlığa, bərabərliyə, şər işlərdən əl çəkməyə çağırılmışdır.

**2) "Şeir və hikmət"**. Poemanı Şəhriyarın fəxriyyəsi də adlandırmaq olar:

Şeir azadlığım, şeir həyatım,
Ömrüm, səadətim, müqəddəratım!
Min qəlbdə çalınan tar kimiyəm mən,
Əsrimin Hafizi, Saibiyəm mən.
…Şeirsiz bu dünya – kədər, qəm kimi,
Şeirsiz cənnət də cəhənnəm kimi!

**3) "Nişapurda günəş batarkən".**

**4) "Qardaşım oğlu Huşəngə".**

**5) "Gecənin əfsanəsi".** Tarixi-romantik poemadır və bəzi hissələri "Heydər babaya salam" poeması ilə səsləşir.

Sonuncu üç əsər **tərcümeyi-hal** poemalarıdır. Bu poemalarda Şəhriyarın Xorasan vilayətindəki sürgün illərindən, ailə ənənələrindən və uşaqlıq xatirələrindən bəhs edilmişdir.

**6) "Stalinqrad qəhramanları".** Poemada ikinci Dünya müharibəsində baş verən hadisələr, təsirli hərb səhnələri qələmə alınmışdır.

**7) "Səhəndiyyə"**. Azərbaycancadır və şeirimizin **"Vətəniyyəsidir"**. Cənublu şair Səhəndin məktubuna cavab olaraq yazılmış, Vətən haqqında poetik simfoniya kimi səslənir:

Şah dağım, çal papağım, el dayağım, şanlı Səhəndim!
Başı tufanlı Səhəndim!

Səni Heydərbaba ol nərələr ilə çağıranda,
O səfil, darda qalan, tülkü qovan şir bağıranda,
Şeytanın şıllağa qalxan qatarı noxta qıranda,
"Dədə Qorqud" səsin aldım, dedim arxamdı, inandım.
Arxa durduqda Səhəndim, Savalantək havalandım.
Selə qarşı qovalandım.
…Dağlı Heydərbabanın arxası hər yerdə dağ oldu,
Dağa dağlar dayaq oldu.
Arazım ayna çıraq qoymadı, aydın şəfəq oldu,
O tayın nəğməsi qovzandı, ürəklər qulaq oldu.
…Arazın süd gölü daşdı, qayalıqları da bağ oldu.

**9) "HEYDƏRBABAYA SALAM" POEMASI**

Poema Şəhriyar yaradıcılığının **zirvəsidir**. Daha çox bu poema ilə şöhrətlənmişdir. Əsər ədəbiyyatımızın şah əsərlərindən olmaqla bərabər, həm də dünya poeziyasındakı nadir lirik poemalardan biridir. XX əsrdə bu poema kimi geniş yayılan, çox oxunan və xalq tərəfindən sevilən ikinci əsər tapmaq çətindir. Şəhriyara **"Heydərbaba şairi"** də deyirlər.

Poema ilk növbədə anası Kövkəb xanımın "oğlum sənə böyük şair deyirlər, fəqət necə yazırsan ki, mən anlamıram" sözlərinin təsiri ilə yazılmışdır. Şair el-oba yanğısını, xalq məhəbbətini, milli duyğularını burada mənalandırmışdır:

Heydərbaba, ildırımlar çaxanda,
Sellər-sular şaqqıldayıb axanda,
Qızlar ona səf bağlayıb baxanda,
Salam olsun şövkətüzə, elüzə,
Mənim də bir adam gəlsin dilüzə.
…Bayram yeli çardaşları yıxanda,
Novruzgülü, qarçiçəyi çıxanda,
Ağ buludlar köynəklərin sıxanda,
Bizdən də bir yad eyləyən sağ olsun,
Dərdlərimiz qoy dikəlsin dağ olsun.

Poema ciddi **vətənpərvərlik** əsəridir. Əsərdə təsvirlər o qədər həyatidir ki, oxucu sanki təqdim olunan mühiti – Xoşginab mühitini canlı, əyani surətdə görə bilir. Şair sanki bir rəssam kimi çıxış edir:

…Xanım nənəm naxoş olan il idi,
Qış var ikən külək idi, yel idi,
Qış da çıxdı yağış idi, sel idi,
Yük-yapını hey çatırdıq ki, gedək,
Sel küşkürdü, məcbur idik qeyidək.

Poemada **dağ obrazı** özünəməxsus yer tutur. Heydərbaba dağı vətənin rəmzi və uşaqlıq xatirələrinin şahididir. Şairin Heydərbabaya müraciətində "Məcnun dərd əlindən dağa çıxdı" motivi də nəzərə çarpmaqdadır.

**Birinci hissədə** şairin uşaqlıq çağlarında baş vermiş əhvalatlara işıq salınmışdır. O, bir kəndin dərdini ümumən insanlığın dərdi kimi ümumiləşdirmişdir. Birinci hissə Şəhriyarın romantik dünyasını oxuculara çatdırır.

**İkinci hissə** bəşəri mətləblərdən çox, konkret problemlərə yönəlmişdir və şairin gerçək mövqeyini, realizmini bəyan edir:

Kəndli yazıq çıraq tapmır yandıra,
Görüm sizin bərqiz qalsın andıra,
Kim bu sözü ərbablara qandıra:
Nədir axı bu millətin günahı?
Tutsun görüm, sizi məzlumlar ahı!

Poemada **üstüörtülü** şəkildə **xalqın azadlıq düşüncələri** də öz əksini tapmışdır. Pəhləvi dövrünün tarixi şəraiti nəzərə alınarsa, şair milli azadlıq duyğularını örtülü şəkildə yazmağa məcbur olmuşdur. Şəhriyar "Siyasət adlı məndə bir mərəz yox" desə də, xalqı istismar olunduğunu dərk etməyə çağırmışdır:

Heydərbaba, gül qönçəsi xəndandı,
Amma heyif, ürək qəzası qandı,

Zindəganlıq bir qaranlıq zindandı,
Bu zindanın dərbəçəsin açan yox,
Bu darlıqdan bir qurtulub qaçan yox.

Heydərbaba, göylər bütün dumandı,
Günlərimiz bir-birindən yamandı,
Bir-birizdən ayrılmayın, amandı,
Yaxşılığı əlimizdən alıblar,
Yaxşı bizi yaman günə salıblar!

Şair gələcəyə ümid və nikbinliklə baxır. O, yalnız mərd, vətənpərvər oğulların xalqı əsarətdən xilas edəcəyinə inanır:

Heydərbaba, mərd oğullar doğginən,
Namərdlərin burunların ovginən,
Gədiklərdə qurdları tut boğginən,
Qoy quzular ayın-şayın otlasın,
Qoyunların quyruqların qatlasın.

Poemada **şairin özünün də bədii obrazı** canlandırılmışdır. Poetik təhkiyənin bənzərsiz ifadəçisi və uşaqlıq xatirələri dünyasının fəal iştirakçısı da Şəhriyar özüdür. O, vətən oğlu və milli şeirin sərkərdəsi olan Şəhriyardır.

Poema **möhtəşəm Azərbaycan dili abidəsidir**. Burada ana dilimizin incəliklərindən məharətlə istifadə olunmuşdur. Bədii təsvir və ifadə vasitələri Şəhriyar sənətinin orijinallığını tam şəkildə oxucuya çatdırır. Poemada folklor motivləri, etnoqrafik çalarlar, duru xalq dili bir-birini uğurla tamamlayır.

"Heydərbabaya salam" lirik poemadır və Azərbaycan ədəbiyyatında lirik poemanın ən parlaq nümunəsidir. Burada müəyyən kiçik süjet əlamətləri nəzərə çarpsa da, epik əlamətlərin meydanı genişləndirilməmişdir.

Milli şeirimizdə Heydərbaba üslubu formalaşmışdır. Ədəbiyyatımızda bu poemaya çoxlu nəzirələr yazılmışdır.

**NƏTİCƏ**: M.Şəhriyar Cənubi Azərbaycan şeirinə xalq ruhunu gətirmişdir.

# MİR CƏLAL (1908-1978)

## HƏYATI

**1908**-ci il aprelin 26-da Mir Cəlal Əli oğlu Paşayev Cənubi Azərbaycanın Əndəlib kəndində anadan olmuş və elə uşaq vaxtı ailəsi ilə birgə Gəncəyə köçmüşdür. İbtidai məktəbi burada bitirmişdir.

**1924-1928**-ci illərdə Gəncə Pedaqoji Texnikumunda oxuyaraq müəllimlik peşəsinə yiyələnmişdir. Gəncə və Gədəbəy məktəblərində müəllimliklə məşğul olmuşdur.

**1930-1932**-ci illərdə Kazan Şərq Pedaqoji İnstitutunda ədəbiyyat ixtisası üzrə ali təhsil almışdır. Sonra Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasında oxumuşdur. Elmlər Akademiyasında və mətbuatda çalışmışdır.

**1933**-cü ildən Azərbaycan Dövlət Universitetində müəllimliyə başlamışdır.

**1961**-ci ildən universitetdə Azərbaycan ədəbiyyatı kafedrasının müdiri olmuşdur.

Böyük Vətən müharibəsi iştirakçısıdır.

**XX əsrin 20-ci illərinin sonundan** yaradıcılığa **şeirlə** başlamışdır, lakin məşhur **nasir** kimi tanınmışdır.

**1934**-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, 50 ildən artıq bir müddətdə bədii yaradıcılıq işini davam etdirmişdir. Moskvada keçirilən ədəbiyyat və incəsənət ongünlüklərində, yazıçıların qurultaylarında iştirakçı olmuşdur.

Filologiya elmləri doktoru, professor və "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

"Bir gəncin manifesti" romanı "Respublika komsomolu" mükafatına layiq görülmüşdür. Müxtəlif orden və medallarla təltif edilmişdir.

**1978**-ci il oktyabrın 28-də vəfat etmiş və Fəxri Xiyabanda dəfn edilmişdir.

Onun əsərləri müxtəlif dillərə tərcümə edilmiş və anadan olmasının 100 illiyi **YUNESKO** səviyyəsində qeyd olunmuşdur. Bakıda və Gəncədə adına küçələr verilmişdir.

## YARADICILIĞI

Mir Cəlalın yaradıcılığı **publisistikadan, kiçik hekayələrdən, povest** və **romanlardan** ibarətdir.

**1. RUPLİSİSTİKASI**

**1928**-ci ildə "Kommunist" qəzetində şöbə müdiri və "Gənc işçi" qəzetində məsul katib vəzifələrində çalışarkən publisistik əsərlərini çap etdirmişdir. Onun publisistikasında **oçerk janrı** əsas yer tutur. Oçerklərində ən aparıcı meyillər və insanın cəmiyyətdəki mövqeyinin təqdimi xüsusi yer tutur.

**1932**-ci ildə çap edilən "**Sağlam yollarda"** kitabında oçerkləri toplanmışdır. Sonralar da oçerk və felyetonlar yazmışdır. Mir Cəlalın publisistikası aktual və müasirdir və öz bədiiliyi ilə seçilir, onları hekayələrindən ayırmaq çətindir.

Onun publisistikası bədii yaradıcılığının baş məşqidir.

**2. HEKAYƏLƏRİ**

Mir Cəlalın hekayə yaradıcılığı **"Molla Nəsrəddin" ədəbi məktəbinin** ənənələrini yaşadır və o, C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin davamçısıdır. Mir Cəlal özü yazırdı ki, **"Biz hamımız Mirzə Cəlilin "Poçt qutusu"ndan çıxmışıq".**

Mir Cəlalın hekayələri həyat hekayələridir. O, hekayə yaradıcısı kimi həyatı və insanları dərindən öyrənmək, ciddi həyati müşahidələr aparmaq, gerçəkliyə sədaqət göstərmək xüsusiyyətlərinə malikdir. Mir Cəlalın sovet dövründəki hekayələri sübut edir ki, o, **ideologiyadan deyil, həyatdan** bəhrələnmişdir. Hekayə kitablarının adı da bunu təsdiqləyir:

**1) "Həyat hekayələri"** (1945)

**2) "Sadə hekayələr"** (1955)

Mir Cəlalın hekayələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

1) “Ötən günlərin hekayələri” silsiləsi:

**“Söyüd kölgəsi”, “Bostan oğrusu”, “Elçilər qayıtdı”**.

Bu hekayələrdə hadisələrin keçmişə aid edilməsi diqqəti sovet rejimindən yayındırmaq məqsədi daşımışdır. Müəllif keçmiş mətləblərdən söz açırmış kimi görüntü yaratsa da, həqiqəti, yaşadığı həyatın ciddi mətləblərini göz önünə gətirə bilmişdir. Onlara verilən “Ötən günlərin hekayələri”, “Günün hekayələri”, “Mətləb hekayələri” adları da bunu sübut edir.

2) Zəngin həyat materialını əks etdirənlər:

**“Vicdan əzabı”, “Qonaqpərəst”, “Pillələr”.** Bu hekayələrdəki obrazlar da həyatiliyi, təbiiliyi ilə yadda qalır.

3) İbrətamiz məqamlara müraciət edilənlər:

**“Ləyaqət”, “Xoşbəxtlik barəsində”, “İnsanlıq fəlsəfəsi”.** İbrətamiz məqamlara müraciət etmək M.Cəlal hekayələrinin əsas xüsusiyyətlərindən biridir. Bu, ilk növbədə onun **müəllimliyi** və yazıçı kimi **ədəbiyyatın tərbiyəviliyinə** xüsusi diqqət yetirməsi ilə bağlıdır.

4) Nizami Gəncəvinin yaradıcılığı motivləri əsasında yazılan tərbiyəvi (ibrətamiz) hekayələr:

**“Fitnə”, “Kərpickəsən”, “Xeyir və Şər”.** Yeni nəslin tərbiyəsi ilə bağlı olan mətləblər diqqət mərkəzinə çəkilmişdir.

5) Satirik hekayələr:

**“Şaftalı söhbəti”, “Qoltuq radiosu”, “Həkim Cinayətov”, “İclas qurusu”.** Bunlarda həyatın, insanlararası münasibətlərin inkişafına mane olan çatışmazlıqlar gülüş hədəfinə çevrilmişdir. Bu hekayələrdə satiradan çox, yumora üstünlük verilmişdir.

**“Şaftalı söhbəti”** hekayəsində milli dəyərlərin arxa plana keçməsi – xaricpərəstliyin tənqidi islahedici gülüşlə verilir:

“Çox təəccüblüdür ki, ənciri öyrənmək üçün Bilgəh bağlarını qoyub qaçırlar Kaliforniyaya. Arıçılığı öyrənmək üçün Moskvaya gedən bir tələbədən Qabaqtəpə balını… soruşublar. Tələbə kəndə qayıdıb, buradan bir neçə şan bal, neçə qutu arı aparmalı olub. Çünki burada həmin işin təcrübəsini öyrənmişdi, qədrini bilməmişdi”.

**Yaxud**: “Biz… öz yurduna, …öz varlığına firəng eyvanından baxmağın, özü də kəc baxmağın ziddinəyik. Biz istərdik,… hər kəs qabaqca yaşadığı yeri, o yerin, o yurdun nemətlərini… diqqətlə, məhəbbətlə öyrənsin. Öyrənəndən sonra cəsarətlə… tanıtsın, başqalarına sevdirsin”.

M.Cəlalın hekayələri həcm etibarilə kiçik, yığcamdır və cəlbedici süjeti, yaddaqalan obrazları, sadə, aydın və obrazlı dili vardır. M.Cəlalın hekayələri M.Cəlilin hekayələri ilə “altmışıncılar”ın hekayə yaradıcılığı arasında etibarlı **körpüdür**.

**3. ROMANLARI**

Mir Cəlalın romanlarında hekayələrində olduğu kimi ideoloji mətləblər deyil, həyat həqiqətləri qələmə alınmışdır. Romanlarda **XX** əsrin birinci yarısının həyati prosesləri, hadisələri və adamları ümumiləşdirilmişdir. O əsərlərdə yazıçı müşahidələri, mükəmməl yazıçı təcrübəsi aşkar hiss edilir. Mir Cəlal böyük hekayəçi olduğu qədər də **qüdrətli romançıdır**.

**1) “Dirilən adam”** (1934). Romanda **XX** əsrin 20-30-cu illərində Azərbaycanda törədilmiş haqsızlıq və dərəbəyliyin fəsadları əks olunmuşdur.

**Qədir** əsərin əsas qəhrəmanıdır. Onun simasında cəmiyyətdə özünü təsdiq etməyə çalışan insanın taleyi ümumiləşdirilmişdir. Əsər Azərbaycan insanının tale romanıdır.

**Qədir-Qumru xətti** sədaqət, vəfa, etibar kimi mənəvi dəyərləri yaşadır.

Romanda dərəbəylik qütbünü **Bəbir** təmsil edir. Yazıçı Bəbirin simasında zülm və ədalətsizliyin çirkin mahiyyətini oxuculara çatdırmışdır.

Əsərin indiki dövr üçün aktuallığını təmin edən əsas cəhət insanın öz haqları, cəmiyyətdəki yeri və mövqeyi uğrunda mübarizəsindən ibarətdir. Roman müstəqillik dövründə səhnələşdirilmiş və teatrlarda tamaşaya qoyulmuşdur.

**2) "Bir gəncin manifesti"** (1938).

**3) "Açıq kitab"** (1944). Haqqın təntənəsi əks edilmişdir. Zahirən özünü yeni quruluşun fəal tərəfdarı kimi göstərən, insanları müsibətlərə düçar edən ali məktəb müəllimi **Kərim Gəldiyevin** faciəsi keçmiş sovet cəmiyyətinin daxili puçluğu və çürüklüyünün bədii ifadəsidir. Gəldiyevin qurduğu oyunla institututdan çıxarılan və sonra bərpa edilən **Vahid** haqqın, sağlam düşüncənin daşıyıcısı kimi ümumiləşdirilmişdir. **Rübabə** isə saf məhəbbətin təcəssümüdür. Romanda ədalətsizlik prinsipləri əsasında qurulmuş ali məktəb mühiti keçmiş sovet cəmiyyətinin eybəcər mahiyyətini əks etdirir.

**4) "Yaşıdlarım"** (1946). Mövzusu şəhər həyatından alınmışdır. Qocaman yazıçı **Kərimzadə** çar və müsavat dövründəki kimi, sovet zamanında da fəaliyyət göstərmək üçün səy göstərir. Kərimzadənin vətənpərvərliyi və nəvəsi **Nərimanı** mühəndis kimi görmək arzusu müstəqil cəmiyyətə bəslənən ümidləri əks etdirir.

Əsərdəki **Cənubi Azərbaycanla bağlı motivlər** Mir Cəlalın milli bütövlük düşüncəsini əks etdirir.

Roman **avtobioqrafik** səciyyə daşıyır. Mir Cəlal Kərimzadənin **proobrazıdır**.

**5) "Təzə şəhər"** (1951). Quruculuq prosesləri fonunda insanın yaradıcı gücü və həyat eşqi əks olunmuş, halallıq və ucalıq dəyərləndirilmişdir.

**6) "Yolumuz hayanadır"** (1957). Sabirin həyatı və mühiti qələmə alınmışdır. C.Məmmədquluzadə, N.Nərimanov, A.Səhhət kimi sənətkarların da həyat və fəaliyyətinə aid məqamlar da təsvir edilmişdir.

**4. POVEST yaradıcılığı**

**"Dağlar dilə gəldi"** (1967). Gəncəbasarda və Köşkü kəndində baş verən hadisələr verilmişdir. Ağsaqqal ziyalılarla yeni nəsil maarifçilərinin əlaqələrindən danışılır, varisliyin qorunması əsaslandırılır. Yeni düşüncənin özünə yer almasının çətinlikləri bədii cəhətdən əsaslandırılmışdır. Povestdə C.Məmmədquluzadənin də obrazı canlandırılmışdır.

**5. ELMİ FƏALİYYƏTİ**

Mir Cəlal görkəmli alim kimi də tanınır. **"Füzuli şeirinin poetik xüsusiyyətləri"** mövzusunda namizədlik dissertasiyasında (1940) Füzuli şeirinin sənətkarlıq xüsusiyyətlərini şərh etmişdir. "**Azərbaycanda ədəbi məktəblər"** mövzusunda yazdığı doktorluq dissertasiyasında (1947) XX əsrin əvvəllərində mövcud olmuş realizm və romantizm cərəyanlarının mahiyyəti aydınlaşdırılmış, əsas təmsilçilərinin fəaliyyəti tədqiq olunmuşdur. Bu əsərlər onu ədəbiyyat nəzəriyyəçisi kimi tanıtmışdır.

Professor Pənah Xəlilovla birlikdə yazdığı **"Ədəbiyyatşünaslığın əsasları"** dərsliyi ədəbiyyatşünaslıq elmini daha da zənginləşdirmişdir.

Onun ədəbiyyat tarixinin öyrənilməsində xüsusi xidmətləri vardır. C.Məmmədquluzadənin bədii irsinin əsas tədqiqatçılarından biridir. Professor Firudin Hüseynovla birlikdə yazdığı "**XX əsr Azərbaycan ədəbiyyatı"** dərsliyi indi də ali məktəblərdə istifadə olunur.

Hər iki dərslik Mir Cəlal müəllimin rəhbərliyi ilə yaradılmışdır.

## **"BİR GƏNCİN MANİFESTİ"** (1938)

37-ci il hadisələri romanda siyasi proseslərin təsvirinə müəyyən təsirini göstərmişdir. Buna baxmayaraq, əsər ədəbiyyatımıza müxtəlif baxışlara malik insanların xarakterini və taleyini əks etdirən bir roman kimi daxil olmuşdur. Roman yalnız əsas qəhrəmanlardan biri olan **Baharın deyil, bütöv insanlığın manifesti kimi səslənir.**

Romanda ictimai-mənəvi azadlıq problemi ön mövqedə dayanır. **Sonanın** və onun oğlanlarının ağır həyat yolu **XX** əsrin əvvəllərindəki Azərbaycan kəndlisinin taleyini ümumiləşmiş şəkildə əks etdirir.

**Bahar** kiçik adamın böyük ədəbiyyatda roman janrı ilə uğurlu bədii təqdimatıdır. Baharın simasında ədalətsizliyin və kasıblığın faciəsi ümumiləşdirilmişdir. Əsərdə yorğana bürünüb qarın içində gecələməyə məcbur olan Baharın həyatının son anlarının təsviri yanıqlı bir ağını xatırladır:

"Bahar əlini atıb gözünü örtən ağır yorğanı qaldırmaq istədi… Qol yerindən quru bir ağac sallandığını duyub anlaya bilmədi. Onu bildi ki, gözlərinə də, başına da, dodaqlarına da batan iynə çox uzun və itidir… Qoltuq cibinə baxmaq istədi, əli yox idi. Gözünü isə şüşə ilə örtmüşdülər. Tərpənmək istədi, onu sanki yerə mıxlamışdılar".

"..Yalnız çovğunlu boran yalquzaq kimi dişlərini ağardıb quduzcasına səslənirdi. Kimsəsiz uşağı məhv etmək üçün gələn amansız güllə kimi Baharın qəlbinə soxulurdu".

"..Bir neçə saatdan sonra boran seyrəlmiş, səhər açılmışdı. Hər şey öz qaydasında idi… Yalnız balaca və adamsız uşaq yox idi. Bahar qışın cəngində məhv olmuşdu… Baharın cırıq, köhnə papağı yolda, qar üstündə qaralırdı. O da sahibi kimi kimsəyə lazım deyildi".

Müəllif Baharın yanıqlı taleyini **"göz yaşı romanı"** adlandırır.

Baharın taleyi ilə çox az yaşayan Azərbaycan Xalq Cümhuriyyətinin aqibəti mənalandırılır. Burada AXC-yə rəğbət duyğuları ifadə edilmişdir.

**Sona ana** obrazı məharətlə yaradılmış və o, əzabkeş, lakin dözümlü Azərbaycan qadınlarının əsas insani xüsusiyyətlərini özündə cəmləşdirmişdir. Ana övladları Baharın və Mərdanın məşəqqətlərinə dözməyə məcbur olur. Toxuduğu "Yusif-Züleyxa" xalçasına "itə ataram, yada satmaram" deyib xarici ağalara satmır.

**Mərdan, Yəhya, Bağır, Yaqub** haqsızlığa barışmaz münasibətləri, azadlıq uğrundakı fədakarlıqları ilə yadda qalır. Onların fərdi xüsusiyyətləri də təsvir edilmişdir.

**Hacı İbrahimxəlil, Vəznəli kişi, Məşədi Rəhim, Ağarəşid** mənfi surətlərdir. Onların simasında zalımlığa və haqsızlığa nifrət yaradılmışdır.

Romandakı zəngin həyat materialı, yaddaqalan insan xarakterləri əsərdə təsvir olunan siyasi proseslərdən qat-qat üstündür. Azərbaycan kəndinin ən tipik cəhətləri realistcəsinə əks olunmuşdur.

Yazıçının aydın dili, üslubu varıdır. "Bir gəncin manifesti" XX əsr Azərbaycan romanının manifestidir.

**NƏTİCƏ**: Mir Cəlalın nəsr əsərlərində Azərbaycan xalqının keşməkeşli həyatı, milli düşüncəsi, adət-ənənələri, həyata baxışı özünün aydın, real, təbii əksini tapmışdır. Onun yaradıcılığında sovet cəmiyyətindən gələn müəyyən təsirlər də müşahidə olunmaqdadır. Mir Cəlal görkəmli bir yazıçı kimi milli-xəlqi mövqeyi daima uca tutmuşdur, vətəninə və xalqına sədaqətlə xidmət etmişdir.

# II MƏRHƏLƏ
# XX ƏSRİN ORTALARINDAN BU GÜNƏ QƏDƏR AZƏRBAYCAN ƏDƏBİYYATI

Bu mərhələ XX əsrin ortalarından – **50-ci illərin sonu 60-cı illərin əvvəllərindən** başlayır.

Bu mərhələdə siyasi-ideoloji ab-hava yumşalır, sosialist realizm metodu zəifləyir, yazıçının müstəqilliyi artır. Sosialist həyat tərzinin uğurları ilə yanaşı qüsurları da göstərilir. Repressiya illərinin faciələri, Stalin rejiminin törətdiyi amansızlıqlar, şəxsiyyətə pərəstiş ifşa olunurdu.

Ədəbiyyat **ümumibəşəri dəyərlər** üzərində düşünürdü. Sovet ideologiyasında **"millətçilik"** hesab edilən ideyalar B.Vahabzadə, N.Həsənzadə, X.Rza, M.Araz yaradıcılığında açıq, yaxud gizli şəkildə təbliğ olunurdu. Xalqın tarixinə, milli vətənpərvərlik mövzusuna geniş yer verilir, sosialist realizm metodundan imtina edilirdi. İsa Hüseynov, Əkrəm Əylisli, Anar, Elçin kimi gənc yazıçılar **milli məzmunlu ədəbiyyat** yaratmağa başladılar. Əvvəlki nəslə mənsub olan M.İbrahimov, R.Rza, İ.Əfəndiyev və Mir Cəlalın yaradıcılığında **ideya-məzmunca yeniləşmə** özünü göstərirdi.

**Heydər Əliyevin** respublikaya rəhbərlik etdiyi 70-ci illərdə ədəbiyyatın inkişafına hərtərəfli şərait yarandı:

**1)** Yubileylər keçirilir, əsərlər kütləvi şəkildə çap olunurdu.

**2)** Yazıçılar hərtərəfli dövlət qayğısı ilə əhatə olunur, onlar vulqar sovet ideologiyasından müdafiə edilirdilər.

**3)** Ədəbi orqanların – "Azərbaycan" və "Ulduz" jurnallarının, "Ədəbiyyat qəzeti"nin nüfuzu yüksəlirdi.

**70-80-ci illər** ən yeni dövr ədəbiyyat tarixinə yüksəliş illəri kimi daxil olmuş, məhz bu illərdə Azərbaycan yazıçılarının qurultayı ardıcıl keçirilməyə başlamışdı (1971, 1976, 1981).

Ümummilli lider **Heydər Əliyevin** rəhbərliyi ilə müstəqillik dövründə ədəbiyyatın, mədəniyyətin inkişafına daha böyük diqqət yetirilməyə başladı. Azərbaycan xalqının şah əsəri olan "Dədə Qorqud"un 1300 illik yubileyi keçirildi.

Müstəqillik dövründə xalqın milli dövlət quruculuğu uğrunda mübarizəsi, təcavüzkar Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, Dağlıq Qarabağ problemi, qaçqınların taleyi və s. məsələlər ədəbiyyatın əsas mövzularına çevrildi.

## POEZİYA

Lirikada **ictimai-siyasi, təbiət** və **məhəbbət mövzuları müşahidə olunur**. Milli vətənpərvərlik, azərbaycançılıq, Şimal-Cənub ideyaları daha inamla əks etdirilir. Sovet xalqlarının qardaşlığı, proletar beynəlmiləlçiliyi tərənnüm olunmaqda davam etsə də, **milli maraqların** ön plana keçdiyi görünür.

Poeziyada 2 məktəb, yaxud üslub özünü göstərir:

**1) Səməd Vurğun məktəbi**, yaxud üslubu (ənənəçilər).

**2) Rəsul Rza məktəbi**, yaxud üslubu (novatorlar, yaxud eksperimentçilər)

Epik poeziyada lirika, dramatizm güclənir, süjetin şaxələnməsinə, hadisələrin geniş təsvirinə yer verilmir.

**Hüseyn Arif** (1924-1992). Yaradıcılığa 40-cı illərin sonundan başlamışdır. Lirik şeirləri ilə məşhurdur. **"Yolda", "Dilqəm"** kimi lirik poemaları vardır. Azərbaycan Aşıqlar birliyinin yaradıcısıdır.

**Nəbi Xəzri (**1924-2007**)**. Əmək qəhrəmanlarının, gələcək üçün narahat olan insanın obrazını yaradıb.

**Balaş Azəroğlu** (1921). Öz şeirlərində Cənubun ictimai-mənəvi ovqatını əks etdirir.

**Qabil** (1926-2007). "Nəsimi" poeması vardır.

**Bulud Qaraçorlu Səhənd** (1927-1980). İlk şeirləri Təbrizdə çıxan "Şairlər məcmuəsi"ndə dərc edilmişdir. "Dədə

Qorqud" eposunun motivləri əsasında **"Sazımın sözü"** poema-silsiləsini yaratmışdır. Şəhriyar onun məktubuna cavab olaraq "Səhəndiyyə" adlı mənzum cavabını vermişdir.

**Nəriman Həsənzadə** (1931). Onun **"Nəriman", "Zümrüd quşu", "Kimin sualı var?", "Atabəylər", "Pompeyin Qafqaza yürüşü**" kimi əsərləri vardır.

**Xəlil Rza Ulutürk** (1932-1994). İlk şeirləri məhəbət mövzusunda olsa da, ictimai-siyasi mövzulara, vətənpərvərlik ideyalarına daha çox maraq göstərmişdir. 1990-cı ildə Moskvada Lefertovo zindanına salınmışdır. **"Turan çələngi"** kitabı türk xalqlarının poeziyasından etdiyi tərcümələrdir.

**Məmməd Araz** (1933-2004). Vətənpərvərlik poeziyasının inkişafında böyük xidmətləri vardır. **"Atamın kitabı", "Oxucuya məktub", "Dünya sənin, dünya mənim", "Daş harayı", "Vətən deyin", "Əsgər andı"** adlı kitabları vardır.

Dövlət müstəqilliyi dövründə milli birliyin alovlu tərənnümçüsü olmuşdur.

**Cabir Novruz** (1933-2002). Əsərlərini "insan himnləri" adlandırmaq olar. **"Özünü qoru, xalqım"** kitabı vardır.

**Sabir Rüstəmxanlı** (1946). **"Gəncə qapısı", "Sağ ol, ana dilim", "Qan yaddaşı"** kitabları milli ruhlu şeirlərdən ibarətdir. **"Ömür kitabı"** ilə milli vətənpərvərlik publisistikası üçün geniş üfüqlər açmışdır.

**Zəlimxan Yaqub** (1950-2016). Heydər Əliyevə həsr edilmiş **"Böyük ömrün dastanı"** poemasını yazmışdır.

## N Ə S R

60-cı illərdə Azərbaycan nəsri yeni keyfiyyət göstəriciləri ilə üzə çıxdı. Yazıçılar insanın psixologiyasına, daxili aləminə endilər. Ən çox müraciət olunan janrlar hekayə və povest idi.

İ.Məlikzadə, F.Kərimzadə, M.Süleymanlı tarixi və müasir mövzuda yazdılar və nəsrin idrak dairəsi genişləndi.

**İsa Hüseynov** (1928-2014). **“Yanar ürək”** povesti ilə Azərbaycan nəsrinə yeni ovqat gətirdi. “60-cılar” adlanan nasirlər nəslinin formalaşması prosesi həmin əsərdən sonra sürətləndi. **“Məhşər”, “İdeal”, “Əbədiyyət”** adlı romanları vardır. İ.Hüseynovun yaradıcılığı milli mədəni sərvətdir.

**Sabir Əhmədli** (1930-2009). Azərbaycan cəmiyyətinin sosial-mənəvi problemlərindən, ekoloji məsələlərdən bəhs edən romanları vardır: **“Yamacda nişanə”, “Toğana”, “Yasamal gölündə qayıqlar üzür”, “Dünyanın arşını”, “Kütlə”**. 90-cı illərin əvvəllərində qələmə alınmış “Yanvar hekayələri” yazıçının vətəndaş ağrılarının ifadəsidir.

**Vidadi Babanlı** (1927). **“Vicdan susanda”** romanı ilə məşhurdur. Başqa əsərləri də vardır: **“Həyat bizi sınayır”, “Müqəddəs ocaq”, “Ömürlük əzab”**.

**Yusif Səmədoğlu** (1935-1998). İlk hekayələrini 50-ci illərdə qələmə almışdır. **“Qətl günü”** romanı məşhurdur.

**Əkrəm Əylisli** (1937). Lirik-psixoloji nəsrin böyük ustalarındandır. Onun yaradıcılıq texnologiyası, təhkiyə tərzi Azərbaycan nəsrində xüsusi hadisə olmuşdur. Kənd həyatını əks etdirən əsərləri: **“Mənim nəğməkar bibim”, “Kür qırağının meşələri”, “Ürək yaman şeydir”**.

Rəhbərlik etdiyi “Azərbaycan” jurnalının mövqeyi ilə “yeni ədəbiyyat”ın, ədəbi gəncliyin müdafiəçisi olmuşdur.

**Anar** (1938). **“Ağ liman”, “Macal”, “Beşmərtəbəli evin altıncı mərtəbəsi”** “yeni nəsr”in dəyərli əsərləridir. Azərbaycan Yazıçılar Birliyinə rəhbərlik edir. Müstəqilik dövründə **“Ağ qoç, Qara qoç”** povestini yazmışdır.

**Elçin** (1943). Əsərləri: **“SOS”, “Bir görüşün tarixçəsi”, “Mahmud və Məryəm”, “Ağ dəvə”, “Ölüm hökmü”.**

**Hüseynbala Mirələmov** (1947). Ümummili lider Heydər Əliyevlə bağlı bədii-publisistik əsərlərin, **“Dağlarda atılan gül-**

**lə", "Xəcalət", "Cəza"** və s. roman və povestlərin müəllifidir. **"Gəlinlik paltarı"** romanı ən dəyərli əsərlərindən biridir.

## DRAMATURGİYA

Azərbaycan dramaturgiyasını 50-ci illərdən sonra, əsasən, İlyas Əfəndiyevin pyesləri təmsil edir. Anar, Ə.Əylisli, Elçin, H.Mirələmov bu sahəyə yeni mövzular, ideyalar gətirirlər. Sonrakı illərdə tarixə müraciət güclənir. N.Həsənzadə, B.Vahabzadə, N.Xəzri kimi şair-dramaturqların əsərləri səhnədə nümayiş etdirilir.

Komediya yaradıcılığı sahəsində müəyyən uğurlar qazanılır və kinodramaturgiya da inkişaf edir.

## ƏDƏBİYYATŞÜNASLIQ

Ədəbiyyatşünaslığın hər üç sahəsi inkişaf edir.

Ədəbiyyatşünaslar: Əkbər Ağayev, Əziz Mirəhmədov, Mirəli Seyidov, Rüstəm Əliyev, Qafar Kəndli, Mübariz Əlizadə, Pənah Xəlilov, İsa Həbibbəyli.

Tənqidçilər: Bəkir Nəbiyev, Yaşar Qarayev, Tofiq Hacıyev, Akif Hüseynov, Aydın Məmmədov, Kamil Vəliyev, Kamal Abdulla, Vaqif Yusifli, Nizami Cəfərov.

Kamal Talıbzadə Azərbaycan tənqidinin tarixini yazıb nəşr etdirir.

# RƏSUL RZA (1910-1981)

## H Ə Y A T I

**1910**-cu il mayın 19-da Rəsul İbrahim oğlu Rzayev Göyçayda anadan olmuş, ibtidai məktəbi burada oxumuşdur.

**1924**-cü ildə komsomol sıralarına daxil olmuşdur. Ardıcıl təhsil almamış, Gəncə Sənaye və Ziraət Texnikumunu, Bakı Müəllimlər Seminariyasını yarımçıq tərk etmişdir. Gəncliyində teatrla yaxından maraqlanmış, Göyçaydakı həvəskar teatrda Cavid və Cabbarlı pyeslərində baş rollarda çıxış etmişdir.

**1927-1928**-ci illərdə Tiflisdə Zaqafqaziya Kommunist Universitetinin kooperasiya şöbəsində oxumuş, şeir və hekayələr yazmışdır. "**Oğul qatili", "Uxajor", "Dilarə**" kimi əsərləri zəif olsa da, onun istedadından xəbər verirdi.

**1927**-ci idə "**Bu gün**" adlı **ilk şeiri** Tiflisdə "Qığılcım" almanaxında çap olunmuşdur.

**1928**-ci ildə onun **"Komsomolçular"** şeiri rusca "Zarya Vostoka" qəzetində çap edilmişdir.

**1930**-cu ildə məktəb yoldaşı, gənc şair Abdulla Faruqla Bakıya gəlir. "Gənc işçi" qəzetində tərcüməçilik edir, məqalə, oçerk və şeirlərini çap etdirməyə başlayır. M.Müşfiqlə bu redaksiyada tanış olmuşdur.

**1932**-ci ildə **"Çapey"** adlı **ilk şeirlər kitabı** çap olunur. Həmin kitaba daxil edilmiş **"Bolşevik yazı"** şeiri gənc şairin **yaradıcılıq manifesti** kimi qəbul olunur. Bir neçə il Azərbayan Elmi Tədqiqat İnstitutunun aspiranturasında oxumuşdur.

**1934-1937**-ci illərdə Moskvada Kinemotoqrafiya İnstitutunda oxuyur, V.Mayakovski yaradıcılığını öyrənir.

**1938-1939**-cu illərdə Yazıçılar İttifaqının sədri olur.

**1946-1949**-cu illərdə Kinemotoqrafiya naziri işləyir.

**1960**-cı ildə Xalq şairi adını alır.

**1981**-ci ildə vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Azərbaycan ədəbiyyatda **R.Rza ədəbi məktəbi** təşəkkül tapmışdır.

## YARADICILIĞI

R.Rzanın **şeirləri, poemaları** və **tərcümələri** vardır.

**1. ŞEİRLƏRİ**

R.Rza "**Bolşevik yazı"** adlı irihəcmli şeirində inqilabi nikbinliklə sosialist vətənindən, pambıq tarlalarından bəhs edir:

Meydan sənin,
Söz sənin,
sənə bu gün
tələb verir
bu sosialist vətənin!
Bu, sadə bir umğu,
bir arzu deyil,
bu, tələbdir,
yaxşı bil!

1920-ci illərin ortalarına qədər Azərbaycanda sərbəst şeir olmamışdır. Amma "Bolşevik yazı" şeirində **sərbəst şeir** üslubu görünürdü. Gənc proletar şairlər həmin üslubu V.Mayakovskidən götürürdülər. Bu üslubunun **əsas cizgiləri**:

**1)** publisistik ehtiras **2)** ictimai fikirlərin emosional ifadəsi **3)** deklamativ sərtlik.

**30-cu** illərdə yazdığı **ilk şeir kitabları** aşağıdakılardır:

**1)** "**Çapey"** (1932)

**2)** "**Qanadlar**" (1935)

**3) "Çinar**" (1939)

R.Rzanın "**Çinar**" şeiri xalq ruhuna və mənəviyyatına bağlılığı əks etdirir. **Heca** vəznində olan şeirdə göstərilir ki, hər bir istedadın kökləri xalq mənəviyyatının dərinliklərindədir:

Birdən çinar dilə gəldi, dedi: Bax,
Bu torpaqda dərindən kök salaraq

Hər tərəfə uzatmışam qolumu,
Övladlarım bürümüş sağ-solumu,
Belə məğrur dayanmaqda haqlıyam,
Mən kökümlə bu torpağa bağlıyam.

R.Rza poeziyasında 30-40-cı illər dövrü siyasi lirikanın üstünlüyü ilə səciyyələnir. Bu, beynəlxalq mövzuda yazılmış nümunələrdə daha çox görünür: “**Madrid”**, **“Həbəşistan”**, **“Almaniya”**, **“Haray, dostlar”**, **“Cəlladları durdur**”.

Böyük Vətən müharibəsi illərində R.Rza siyasi işçi kimi ordu sıralarına gedərək hərbi jurnalist kimi çalışmışdır. 1941-ci ildə 416-cı Azərbaycan diviziyasında olmuş, “Krımskaya boevaya” qəzetində işləmiş və onun azərbaycanca variantının ədəbi redaktoru olmuşdur.

**Müharibə dövründə** çıxmış **kitabları:**

**1)** “**Vətən**” (1942)

**2)** “**Bəxtiyar**” (1942)

**3)** “**İntiqam!.. İntiqam!..**” (1943)

**4)** “**Qəzəb və məhəbbət**”

Sonuncu kitab **nəsrlə** yazılmış **oçerk, hekayə, povestdən** ibarətdir. “**Leytenat Bayramın gündəlikləri**” adlı **sənədli povesti** xüsusilə əhəmiyyətlidir. Şair 416-ci diviziyadakı bir tibb bacısının **prototipi** əsasında 1943-cü ildə **“Vəfa”** pyesini yazmış və o, həmin il tamaşaya qoyulmuşdur.

R.Rza saxtakarlığa, ikiüzlülüyə, tamahkarlığa qarşı sərt münasibət bəsləyir və bunları satirik şeirlərində əks etdirirdi.

R.Rzanın **satirik şeirləri** bunlardır**:**

“**Nə deyim sənə”**, **“Alicənabov dedi”**, **“**Mığmığalar**”**, **“Yaman qonşu”**, **“Xanım”**, **“Qonşu paxıl olmasa**” (bu şeir paxıllıq və qeybətin tənqidinə həsr edilmişdir).

Şair “Rüşvətxorlar mərsiyəsi” satirasında Sabirin davamçısı kimi çıxış edir və şeir də **əruz** vəznindədir:

Rüşvət alırıq, azı az, çoxu çox,
Puldu, qızıldı, ya da şey, fərqi yox.
Xalqa ağır gün bizə bayram idi,
Ax, necə kef çəkməli əyyam idi

**“Ax, necə kef çəkməli əyyam idi”** misrası Sabirindir.

“**Rənglər”** silsiləsi R.Rzanı şöhrətləndirən nümunələrdən biridir. Burada bütün rənglər barədə şeirlər vardır. **Qara rəngin** rəmzləri göstərilərkən folklor simvollarından istifadə edilir. “Əbədi ayrılığın ağrısı” – ölüm, “Yaşamaq üçün sürünənlərin çoxu” – “qara camaat”, “Bəzi insan niyyəti” – “qaraniyyət adam”, “Ləkəli sözlər” – “qara yaxmaq” kimi başa düşülür.

“**Ala-bula**” şeirində də assosiativ çalarlar daha qüvvətlidir:

Güvə dəymiş dəri.
Uzunqunc corabların
kilkə yun kələfləri.
Sevincin, kədərin,
İnamın, ümidsizliyin
Çeşidləri.
Zebr balası.

“Rənglər” silsiləsi poetik lüğət prinsipi ilə qələmə alınmışdır. Bir qayda olaraq hər bir rəng xalq dilinin misilsiz zənginliyindən istifadə əsasında izah edilmişdir.

**2. POEMALARI**

1) “**Min dörd yüz on səkkiz**” poeması. 1975-ci ildə faşizm üzərində qələbənin 30 illiyi münasibətilə yazmışdır. Poemanın adındakı **1418** rəqəmi Böyük Vətən müharibəsindəki günlərin sayını bildirir.

2) “**Lenin**” poeması. R.Rza 40-cı illərdə Leninə həsr edilmiş poema üzərində çalışmış və bu əsəri yazmışdır.

3) **“Qızıl gül olmayaydı” poeması**

**3. TƏRCÜMƏLƏRİ**:

**1) N.Gəncəvinin "Xosrov və Şirin"** poeması

**2) Puşkin, Lermontov, Mayakovskinin** əsərləri.

## "QIZIL GÜL OLMAYAYDI" POEMASI

M.Müşfiqin faciəli həyatından bəhs edir və onun 60 illik yubileyi münasibətilə yazılmışdır. Altmışıncı illərdə hələ bir çox ziyalıların qəlbindən stalinizm xofu getməmişdi. Lakin R.Rza vətəndaşlıq cəsarəti göstərərək M.Müşfiqin xatirəsinə öz hörmətini və pərəstişini bildirmişdir.

R.Rza M.Müşfiqlə "Gənc işçi" qəzeti reaksiyasında tanış olmuşdur:

Biz onunla tanış olduq
bir yaz səhəri
"Gənc işçi"də.
Tez məhrəm oldu bir-birinə
könlümüzün gözü də, qəlbimizin içi də.

Poemada şairin öz cavanlıq dostu üçün həsrəti və o dövrdə baş verən bəzi hadisələr barədə düşüncə və qənaətləri əksini tapmışdır. Əsərin **əsas məzmununu** öz dostlarını güdaza vermiş bir sıra adamlar, ağır faciə və hadisələr təşkil edir.

**Müşfiq surəti.** Poemada M.Müşfiq ayrıca obraz kimi bir neçə epizodda görünür. Onun barəsində işarələri və ricətləri daha çoxdur və Müşfiq obrazı müəllifin özü ilə sıx bağlıdır.

Poemada Müşfiqin fəhlə, kəndli, tələbə auditoriyasında şeirlər oxuması xüsusi təsvir edilir. Müasirləri onun yaddaşına, poeziyaya sərhədsiz məhəbbətinə heyran qalırdılar.

Cavanlıq illərində Müşfiqin balaca, pəncərəsi döşəmədən bir qarış hündürdə olan, qapıları cırıldayan, suvağı tökülən otağı poeziya otağı kimi ümumiləşmişdir. İki dost səhərə qədər şeir oxuyur, mübahisə edir, gələcək barədə xəyallara dalırdılar.

Şair bildirir ki, bolşevik terroru nəticəsində Müşfiqin ölməsi ilə poeziyamızın bir budağı böyümədi, sısqa və davamsız qaldı:

Hər şeydən artıq
Şeirin əsiri idi.
Yuxuda şeir yazırdı
(Özü deyərdi bunu –
şeirə qul olduğunu)

Poemada şairin poetik təhkiyə tərzinə məxsus **deklamasiya ruhu** qabarıqdır. Bir sıra hallarda isə bu deklamasiya ruhu təsvirlərin detallarla dolğunlaşmasına, daha dəqiq obrazlaşmasına mane olur.

Müəllif Müşfiqin yoxluğu ilə barışmaq istəmir. Ona elə gəlir ki, yox olan onun yaddaşının bir parçası, onun varlığının bir tərəfidir. Poemada şairin dostu barədə ağır və səmimi etirafları da vardır. Xüsusilə Müşfiq tutulandan sonra müəllif ondan imtina etmir, lakin qara şübhələri də onun içini yeyir:

Uzun zaman
Qara şübhələr
Məni incitdi yaman.
Lakin məntiqi nəticə birdi:
apardılar,
Yəqin "müqəssir" idi.

Bu da, Müşfiqin kitablarının gizlədilməsi də dövrün hökmran psixologiyası idi. Belə hərəkətlərə görə şair ömrü boyu özünü üzmüş, vicdan əzabı çəkmişdir:

Lakin necə sakit deyim ki,
Səsim gəldikcə bağırmadım.

Xalqı ədalətsiz bir hökmü pozmağa
çağırmadım!

Poemada 37-ci il hadisələri – Azərbaycan ziyalılarının taleyinin digər millətlərin nümayəndələri tərəfindən həll edilməsi milli bir faciə kimi təqdim olunur. Əsərin **qırmızı terror** mövzusunda yazılmış əsərlər sırasında öz yeri vardır.

# İLYAS ƏFƏNDİYEV (1914 - 1996)

## H Ə Y A T I

**1914**-cü il mayın 28-də İlyas Məhəmməd oğlu Əfyəndiyev Füzuli rayonunda doğulmuşdur. 16 yaşında orta məktəbi bitirərək ana dili müəllimi kimi çalışmağa başlamışdır.

**1938**-ci ildə qiyabi oxuduğu Ali Pedaqoji İnstitutun coğrafiya fakültəsini bitirmişdir. İlk hekayələrini həmin illərdə qələmə almışdır.

**1939**-cu ildə "Kənddən məktublar" adlı **ilk hekayələr kitabı** çap olunmuşdur.

Böyük Vətən müharibəsi başlanandan bir qədər sonra yazıçı **Mehdi Hüseynlə** birgə **"İntizar" pyesini** yazmışdır.

Azərbaycan dövlət mükafatına, Respublikanın Əməkdar incəsənət xadimi və Xalq yazıçısı fəxri adlarına layiq görülmüşdür.

**1996**-cı ildə vəfat etmiş və Fəxri Xiyabanda dəfn edilmişdir.

## YARADICILIĞI

Yaradıcılığı **hekayələrdən, povest** və **romanlardan, dramatik əsərlərdən** ibarətdir.

**1. N Ə S R İ**

**HEKAYƏLƏRİ:**

**1) "Kənddən məktublar"** adlı **ilk** kitabına (1939) beş hekayə daxildir. Yazıçının lirik və ifadəli nəsr dili vardır.

**2) "Aydınlıq gecələri"** adlı **ikinci** kitabına (1945) müharibə dövründə, yəni 1941-1945-ci illərdə yazılan aşağıdakı hekayələr daxil edilmişdir: "**Durnanın günahı", "Kiçik bir poema", "Qəhrəman ilə bülbülün nağılı", "Sən ey qadir məhəbbət", "Qoca tarını çaldı", "Qarı dağı".**

İlyas Əfəndiyevin müharibə ilə bağlı hekayələrinin mərkəzində arxa cəbhənin əsas qəhrəmanları sayılan qadınlar durur. Onlar iradəcə zəif və zərifdirlər, ayrılıq və sevgi iztirabları onların varlığına hakim kəsilir. "**Durnanın günahı**" hekayəsinin (1941) qəhrəmanı məhz belədir. Yazıçı obrazın mənəvi iztirablarını lirik və şairanə bir dillə qələmə alır.

**ROMANLARI:**

**1) "Söyüdlü arx"** (1958). Romanın əsas qəhrəmanı şəhərdən kəndə işləməyə gəlmiş gənc **aktrisa Nuriyyədir**. Nuriyyə kənddə mədəni quruculuqla məşğul olur, kitabxana müdiridir. Əsərdə yenilikçilərlə mühafizəkarlar arasındakı konflikt Söyüdlü arxın uzadılması ilə bağlıdır.

Əsərin uğurlarında Nuriyyənin mədəniyyət sahəsində çalışmaları yox, şəxsi-mənəvi aləmi əsas rol oynayır.

Roman birinci şəxsin – **Nuriyyənin dilindən**, onun xatirələri kimi verilir. Nuriyyə 6 il ərzində sevib ürəyində gəzdirdiyi Murada təsadüfən rast gəlir, lakin onun ailəsi olduğunu bilib əvvəlki fikrindən əl çəkir.

Sonda Nuriyyə öz taleyini tapır və əsər nikbin sonluqla bitir. Təsadüfi də olsa, onun aktrisalıq istedadı tanınır və o, Bakıya gəlib sənət aləmində addımlamağa imkanlar qazanır.

**2) "Körpüsalanlar"** (1960). Romanda 4 nəfərlik körpüsalanlar briqadasından danışılır. **Əsərin** qəhrəmanı **mühəndis Səriyyədir**. O, ailəlidir. Səriyyənin əri trest müdiri işləyən Adildir. **Adil** onu sevir və sərbəstliyinə də dözür. Lakin Səriyyə qətiyyətlə ərindən ayrılır və sevdiyi buldozerçi Qəribcanla həyat qurur. Bu romanda yazıçı şəxsiyyət azadlığı, hər kəsin seçim hüququ olması məsələlərinə toxunur.

**3) "Dağlar arxasında üç dost"** (1963). Roman kənd həyatına həsr edilmişdir. Yazıçının nəsr dilinin və üslubunun bütün yaxşı xüsusiyyətlərini özündə əks etdiir.

Romanda ailə, məhəbət problemləri və müsbət qəhrəman yaratmaq istəyi əks etdirilmişdir.

**4) "Valehlə Sarıköynəyin nağılı"** (1976-1978). Yazıçı burada folklor poetikasına müraciət etmişdir.

**5) "Geriyə baxma qoca"** (1980). **Avtobioqrafik** xarakter daşıyır. Romanın mərkəzində duran balaca **Murad** yazıçının özüdür. Xeyirxah bir nağıl romantikası, lirizm, gözəlliyə məhəbbət, qəddarlığa nifrət hissləri Muradın simasında öz əksini tapmışdır. Bunlar yazıçının yaradıcılığının mənəvi bünövrəsi idi.

**POVEST YARADICILIĞI:**

**1) "Üçatılan"** (1981). **Avtobioqrafik** xarakter daşıyır.

Həm "**Geriyə baxma qoca"** romanı, həm də "**Üçatılan**" povesti yazıçının uşaqlıq xatirələrinə əsaslanır. Yazıçı ilk dəfə olaraq yaşadığı kəndin mühitini və adamlarını, yaxın qohumlarını, nəsil şəcərəsini ədəbiyyata gətirib. Bir sıra qəhrəmanlar hər iki əsərdə iştirak edirlər.

**2. DRAMATURGİYASI**

İ.Əfəndiyev ədəbiyyata gəldiyi illərdən dramaturgiyaya meyil etmiş və hətta nəsr əsərlərinin bir sıra qəhrəmanları aktrisalardır. Bu mənada İ.Əfəndiyev C.Cabbarlı ənənələrinin davamçısıdır. Sevmək və xoşbəxt olmaq ehtirası ilə yaşayan qadın obrazları onun pyeslərinə xüsusi maraq yaradır.

**1) "İşıqlı yollar"** (1947). Sevmək və xoşbəxt olmaq istəyən qadın obrazları vardır və **konfliktsizlik** nəzəriyyəsinin prinsipləri özünü göstərir.

**2) "Bahar suları**" (1948). Sevmək və xoşbəxt olmaq istəyən qadın obrazları vardır və **konfliktsizlik** nəzəriyyəsinin prinsipləri özünü göstərir.

**3) "Atayevlər ailəsi**" (1954). Bu pyesdə artıq **konflikt** vardır, lakin hələ **sosial xarakter daşımır**. Konfliktin tərəfləri

ər Xosrov Atayev və onun arvadı Dilşad Atayevadır. Dilşad meşşan qadın obrazı kimi yaradılmışdır.

**4) “Sən həmişə mənimləsən”** (1964). Yazıçı bu pyesi 10 illik fasilədən sonra teatra təqdim etmişdir. Bu əsər yeni üslubi istiqamətin – **lirik psixoloji dramaturgiya üslubunun** başlanğıcı kimi qəbul edildi. Beləliklə, teatrda saxta monumentalizm ənənələri öz yerini müasir və sadə bir üsluba verdi. Bu əsər ədəbiyyatın partiya ideologiyası ilə qoyulmuş şablonlardan yaxa qurtarması və təmizlənməsi meyli idi.

**5) “Mənim günahım”** (1967)

**6) “Unuda bilmirəm**” (1968)

**7) “Məhv olmuş gündəliklər**” (1969)

“Mənim günahım”, “Unuda bilmirəm”, “Məhv olmuş gündəliklər” pyesləri **sosialist realizmi şablonlarını dağıdan**, ədəbiyyata və səhnəyə həqiqi və canlı həyat konfliktləri, insan taleləri gətirən silsilə əsərlər idi.

**1980**-cı illərdə bütün ədəbiyyatda olduğu kimi İlyas Əfəndiyevin dramaturgiyasında da tarixi mövzular qabarıq şəkildə göründü. Tarixi mövzuda yazdığı pyesləri:

**8. “Mahnı dağlarda qaldı”** (1971)

**9. “Xurşudbanu Natəvan”** (1980)

**10. “Şeyx Xiyabani”** (1986)

“Şeyx Xiyabani” ədəbiyyatımızda **Azərbaycan xalqının birliyi probleminə** həsr olunmuş ilk dram əsəridir. Sovetlər dövründə Xiyabani hərəkatına milli deyil, dini səciyyə verilirdi. Əslində isə Xiyabani hərəkatı ADR-ın təsiri ilə İranda azərbaycanlıların hüquqları uğrunda mübarizə idi.

Pyesdə səslənən Xiyabaninin monoloqları milli qeyrət və mübarizə ehtirasları, Azərbaycan sevgisi ilə doludur. O deyir: “Ey qüdrətli Azərbaycan xalqı! Ey azadlıq vuruşlarının cəsur mücahidi!.. Biz şəhid olacağıq, ancaq bu yoldan dönməyəcəyik”. Bu çağırış Qarabağ uğrunda mübarizələrdə gəncliyi səfər-

bər edən çağırış kimi səsləndi. Xiyabani obrazı azadlıq və müstəqillik uğrunda şəhidliyi şərəf kimi qəbul edən misilsiz bir vətənpərvər obrazı idi.

**11. "Unuda bilmirəm"**

**12. "Məhv olmuş gündəliklər"**

**13. "Büllur sarayda"**

İranda **azərbaycanlıların hüquqları uğrunda mübarizə** mövzusu "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər", "Büllur sarayda" pyeslərində də bir motiv kimi vardır.

**14. "Tənha iydə ağacı"**

**15. "Qəribə oğlan"** – bu pyes **komediya**dır.

## "XURŞUDBANU NATƏVAN" DRAMI (1980)

Pyesin mərkəzində **xalqımızın taleyi və birliyi problemi** durur. İ.Əfəndiyev bu əsərdə ilk dəfə olaraq qadın surətini tarixi dramın qəhrəmanı kimi seçmişdir. Dramın uğur qazanmasının iki səbəbi vardır:

**1)** tarixi hadisələrin müasir səsləndirilməsi

**2)** müəllifin yetkin sənətkarlıq məharəti

X.Natəvan sonuncu Qarabağ xanının şairə qızıdır. Onun hüzn və kədərli qəzəlləri həm öz ağır taleyini, həm də Qarabağ xanlığının XIX əsrin birinci yarısındakı süqutunun ağrılarını ifadə edir. Onun əsərlərindəki kədər sosial səciyyə daşıyır.

Dramaturqun əsas məqsədi Natəvanın həm ictimai xadim, həm də xalqına bağlı şair kimi romantik obrazını yaratmaqdır. Dramatik konflikt və süjet də ən çox Natəvanın taleyi üzərində qurulur. Pyesin surətləri: Knyaz Xasay, Seyid Hüseyn, şair Mamay, şair Nəvvab, Qafqaz canişini və s.

İ.Əfəndiyev uzaqgörənliklə erməni millətçilərinin fitnəkar təbiətini, xalqımız üçün tarixi təhlükə olmasını göstərə bilmişdir. Əsərdəki Ter Vahan torpaqlarımıza göz dikən erməni fitnəkarlı-

ğının sərrast obrazıdır. Yaltaqlıq, riyakarlıq, ağa qara demək erməni millətçiliyinin əsas cizgiləri kimi ümumiləşir.

**Natəvan surəti**. Natəvan alovlu vətənpərvər, **milli azadlıq** və **milli birlik** ideyalarının carçısıdır. Natəvan şimallı-cənublu Azərbaycanın taleyi və dərdi ilə yaşayır. O, ikiyə bölünmüş vətəni bütöv görmək istəyir. Bu motiv pyesdə Natəvanın həm Rusiya imperiyası, həm də İran dövləti səfirləri ilə görüşlərində daha dərindən açılır.

O, öz **xalqına dərin tellərlə bağlıdır**, kəndlilərə aid problemlər ona rahatlıq vermir. Canişin ondan soruşanda ki, bu qədər torpaq sənin nəyinə lazımdır? Natəvan belə cavab verir: "mənim xalqım var". Bu ideya Natəvanın fəaliyyətinin əsas qayəsidir. Natəvan Şuşaya su çəkdirir, Mil düzündə əkinçiliyi artırmaq üçün arxlar saldırmaq istəyir. O, kəndli uşaqları üçün məktəb açdırır, onları oxumaq üçün Rusiyanın şəhərlərinə göndərir. Natəvan əməlpərvər bir maarifçidir.

Pyesin lap başlanğıcındakı monoloqunda Natəvan deyir: "Əgər bu dünyada xoşbəxtlik deyilən bir həqiqət varsa, o da yalnız insanın öz vətəninə, öz mənliyinə, öz ləyaqətinə sahib olmasındadır. Mən azadlığın qüdrətinə inanıram. İnsanın gözəl hisslərinin, gözəl fikirlərinin pərvazı, insan ləyaqətinin yüksəlişi üçün həqiqi vicdan azadlığı lazımdır". Bu sözlər tarixi dramdakı müəllif qayəsini yığcam şəkildə əks etdirir.

# İSMAYIL ŞIXLI (1919 - 1995)

## H Ə Y A T I

**1919**-cu il martın 22-də Qazax rayonunun İkinci Şıxlı kəndində anadan olmuşdur. Kosalar kəndində oxumuşdur.

**1934**-cü ildə Qazaxdakı Pedaqoji Texnikuma daxil olmuşdur.

**1937**-ci ildə A.S.Puşkinin anadan olmasının 100 illiyi münasibətilə texnikumda keçirilən yığıncaqda S.Vurğun **"Yadıma düşdü"** şeirini oxumuş, səhərisi gün isə İ.Şıxlı onunla tanış olmuş və ali təhsil almaq qərarına gəlmişdir.

**1937**-də Bakıda Dövlət Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsinə daxil olur. 37-ci il əhvali-ruhiyyəsini yaşayan İ.Şıxlı öz xatirələrində bu qanlı və vahiməli illəri, kütləvi qorxu hissini təsvir etmişdir. Yazıçılar İttifaqının 1937-ci ilə aid ifşa müzakirələrində tələbə yoldaşları Tələt Əyyubov və Böyükağa Qasımzadə ilə birgə iştirak etmişdir. Tələbəlik illərində S.Vurğunun və aşıq ədəbiyyatın təsiri ilə **şeirlər** yazmışdır.

**1938**-ci ilin noyabrında **"Quşlar"** adlı **ilk şeiri** "Ədəbiyyat qəzetində" dərc olunmuşdur. O zaman İ.Şıxlı kənd həyatından bəhs edən **"Bənövşə"** adlı hekayəsini Mehdi Hüseynə oxumuş və onun fikirlərini öyrənmişdir.

**1942**-ci ildə kənd məktəbində işləyən İ.Şıxlını hərbi xidmətə çağırırlar. Hərbi xidmətdə əsgər gündəliklərini yazır.

**1947**-ci ildə **ilk** nəsr əsəri **"Həkimin nağılı" hekayəsi** "İnqilab və mədəniyyət" jurnalında çap edilir. O, təzə yazılarını Mehdi Hüseynə göstərir və ondan tövsiyələr alırdı.

**1957-1966**-cı illərdə "Dəli Kür" romanı üzərində çalışır.

**1965-1968**-ci illərdə Yazıçılar İttifaqının katibi olur.

**1976-1978**-ci illərdə "Azərbaycan" jurnalının baş redaktoru kimi fəaliyyət göstərir.

**1981**-ci ildən Yazıçılar İttifaqının birinci katibi vəzifəsində çalışmışdır.

**1994**-cü ildə anadan olmasının 75 illiyi münasibətilə **"Şöhrət" ordeni** ilə təltif olunmuşdur. Onun "Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı" ordenləri də vardır.

1995-ci il iyulun 26-da İsmayıl Şıxlı vəfat etmiş və Fəxri Xiyabanda dəfn edilmişdir.

İsmayıl Şıxlının çap olunmuş **kitabları:**

**1) "Məni itirməyin" (1984)**
**2) "Daim axtarışda" (1988)**
**3) "Namərd gülləsi" (1991)**
**4) "Ölüləri qəbiristanda basdırın" (1992)**

## YARADICILIĞI

### 1. "CƏBHƏ GÜNDƏLİKLƏRİ"

Cəbhə səngərlərindəki qeydlər əsasında yazılmışdır. **Baş qəhrəman** – təmkinli, qorxu bilməyən bir **əsgər** yazıçının özüdür, xatirələrin müəllifidir. Müharibə onun üçün insani olan hər şeyin – xoşbəxt həyat arzularının, yaxınlara məhəbbətin, sədaqət və əxlaqın, xeyirxahlıq və gözəlliyin faciəsidir. Əsgər əsərin **ikinci qəhrəmanı** olan **müharibə** ilə üz-üzədir.

Yazıçı əsgər kimi keçdiyi hər yerin təsvirini vermir, lakin azad etdiyi yerləri nəzərdən qaçırmır və onları yığcam, xəsis detallarla canlandırır. Müharibə davam etdikcə ölümlə oyun da davam edir. Bəlkə, buna görə təbiət təsvirlərinə heç zaman xəsislik etmir: təbiət öz təmənnasız gözəlliyi ilə müharibə obrazının əksidir. Müharibə obrazının əsl sifəti ölümdür.

"Cəbhə gündəlikləri" müharibə nəsrimizdə öz realizmi və bədii dəqiqliyi ilə xüsusi yer tutur. Əsərin bədii dəyəri məhz bundadır ki, burada əsgərin içindən keçmiş həyat həqiqəti və bədii həqiqət üst-üstə düşür.

**2. "AYRILAN YOLLAR" ROMANI (1957)**.

O dövrdə bəziləri Stalin terrorunun başa çatdığına inanır, bəziləri isə inanmırdı. Əsərdə bu ikili vəziyyət əks olunmuşdur.

Əsər cəmiyyətdə yeni bir yolun yarandığını işarə edirdi. Lakin romanda konfliktsizlik sxemi var idi. Burada köhnəpərəst sədr **Kosaoğlu** və cavan aqronom İmran üz-üzə gəlir. Eyni zamanda sadə adamlar: **Zeynəb, Kərim kişi** rəhbərliyi sərt tənqid edirlər. Stalinin sağlığında bu hərəkətlər ağlasığmaz idi.

Rayon prokuroru **Əsədov** mənfi planda verilmişdir. O, sədrin dayağıdır. Prokuror açıq-aşkar ifşa və tənqid hədəfidir.

Bu da simvolikdir: cəza orqanlarının hakimiyyətinin sona çatması Stalinizmin qurtarması mənasını verirdi. **Kosaoğlu** və **Əsədov** keçmişdə qalan yoldan yapışan mənfi surətlərdir.

**3. "DƏLİ KÜR" ROMANI**

Roman tarixi mövzuya münasibətdə yeni ədəbi prinsiplərin təşəkkülünə yol açırdı. Müəyyən dövrdə müsəlman-türk xalqlarının keçdiyi yol və taleləri tarixi mövzulu əsərlərdən kənarda qalırdı. Bu baxımdan İ.Şıxlının romanının əsas qəhrəmanı adi adam yox, böyük bir mülkədar olan Cahandar ağa idi. Yazıçının bu mülkədara rəğbətini gizlətməməsi tarixə münasibətdə böyük cəsarət və ədəbiyyata gətirilən yenilik idi. O romanı yazanda rus yazıçısı **M.Şoloxovun "Sakit Don" epopeyasından** təsirlənmişdir.

Tarixi romanda əsas qayə doğma torpaq və onun sahibi olan insan məsələsi idi. Əsərdə **ikinci** aparıcı qəhrəman **doğma Azərbaycan təbiəti** – Kür çayı, səma və meşədir. Göytəpə kəndi, onun insanları, Kür çayı, Kür qırağının meşələri ayrıca obraz səviyyəsinə qaldırılmışdır. Bunlar əsərin milli koloritini dərinləşdirir. Yazıçı öz qəhrəmanlarının məğzini doğma təbiətlə ilkin və şüuraltı vəhdətdə axtarır.

Romanın mərkəzində Cahandar ağanın **ailəsidir**: **arvadı Zərnigar, bacısı Şahnigar, oğlu Şamxal** əsas surətlərdir. Ca-

handar ağanın evə ikinci bir arvadı – **Mələyi** gətirməsi ilə bu ailəyə nifaq düşür. Zərnigar bundan özünü təhqir olunmuş hiss edir, daxilən əzab çəkir. Lakin onda dərin qürur hissi vardır, əri ilə aradakı pərdəni saxlamağa çalışır. Şamxalın gəlişi Zərnigarın iztirablarını daha da artırır. Çünki Şamxal Mələyi xəncərlə vurmaq istəyəndə atası gəlib çıxır və Şamxal ata evindən didərgin düşür.

**Şamxal** qətiyyətli, dikbaş, özünə inamlı bir gənc kimi atasını xatırladır və mülkədar əxlaqını təmsil edir. Dədə-baba əxlaqına görə o, anasına deyil, atasına tərəf durmalıdır. Lakin Şamxal bu qaydanı pozur və ata evinin üzvü olmaq hüququnu itirir, ailədəki parçalanma dərinləşir.

Şamxal **öz daxili müstəqilliyini saxlayır**, atasını bağışlamır, qürurunu sonadək qoruyur.

**CAHANDAR AĞA SURƏTİ**. Bu qəhrəman həm **bütöv**, həm də **ziddiyyətli** bir insandır. O, öz davranışında tam müstəqildir, lakin insani hisslərdən də məhrum deyil. Mələyi evə gətirəndən sonra ailədə yaranan gərginlik ona dərindən təsir edir. Düzdür, Cahandar ağa bunu ətrafdakılara büruzə vermir, amma romanın sonuna doğru o da müəyyən dərəcədə tərəddüd edir. Mələyi gətirməkdə **səhv etdiyini** anlayır.

Cahandar ağa el əxlaqına və qanunlarına sadiqdir. Cahandar ağa dul bacısı Şahnigar Molla Sadığın "Meyxana" toruna düşəndə onu bağışlamır: əxlaq qanunlarının ağlasığmaz qəddarlığını öz bacısına qıyır və onu amansızcasına qətlə yetirir. Bu hərəkət Cahandarın xarakterini parçalayır. **Qeyrət və namusun mütləq timsalı ola bilmir**.

Yazıçı monumental obraz olan Cahandar ağanın şəxsində **insan həyatının və özünün təsdiqinin tragizmi mövzusunu** xüsusi bədii qüvvə ilə ifadə edə bilmişdir.

**Mələyi gətirəndən sonra** Şamxal üzünə ağ olur, Allahyarla gərgin və üzücü düşmənçilik aparmaq lazım gəlir, Molla

Sadiq və pristavla toqquşmaları baş verir, bacısını öldürməli olur. O, ətrafdakı mənfi hadisələri dünyanın xarab olması kimi başa düşür. Bu obraz təbii insan ehtiraslarının və davranışının ifadəsi kimi qüvvətli və mənalıdır.

**Bədii xüsusiyyətləri**. "Dəli Kür" epik miqyaslı romandır. Bir feodal ailəsi timsalında XIX əsrin sonlarında Azərbaycan kəndinin geniş mənzərəsi verilmişdir. **Cahandar ağanın** şəxsində **bəyliyin böhranı**, xalq müəllimi **A.Çernyayevskinin** simasında yeni **maarifin** inkişafı ümumiləşdirilir.

Romandakı epizmin mühüm cəhəti yazıçının insan münasibətlərinə və əxlaqına münasibətindəki yüksəklikdir. Romanda təbiətin bir obraz səviyyəsinə qaldırılması yeni idi və bu janrın poetikasını zənginləşdirirdi. Oradakı təbiət təsvirləri bəzən lirik şeir kimi səslənir.

"Dəli Kür" xəlqilik ideyalarına əsaslanan bir əsərdir. Roman İ.Şıxlının **şah əsəridir**. "Dəli Kür" Azərbaycanın romançılıq təfəkküründə, xəlqilik dəyərlərinin və həqiqətlərinin bədii təsvirində irəliyə bir addım oldu.

# BƏXTİYAR VAHABZADƏ (1925 - 2009)

## HƏYATI

**1925**-ci il avqustun 16-da Bəxtiyar Mahmud oğlu Vahabzadə Şəkidə anadan olmuşdur. İbtidai təhsilə də buradakı 1 saylı məktəbdə başlamışdır.

**1934**-cü ildə ailəsi ilə Bakıya köçmüş və təhsilini 176 saylı məktəbdə davam etdirmişdir.

**1942**-ci ildə orta məktəbi qurtarmış və **M.Hadiyə** həsr edilmiş **"Xəzan bülbülü"** adlı **ilk poemasını** yazmışdır.

**1942**-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olunmuşdur. Universitetdə Mir Cəlalın rəhbərlik etdiyi ədəbiyyat dərnəyinin üzvü olmuşdur. Şairin dərnəkdə oxuduğu uğurlu şeirlər "Gəncliyin səsi", "Gənclik töhfəsi" almanaxlarında çap olunmuşdur.

**1947**-ci ildə universiteti bitirib aspiraturaya daxil olur.

**1950**-ci ildə "Səməd Vurğunun poeziyası" mövzusunda namizədlik dissertasiyası müdafiə edir və universitetdə müəllimlik fəaliyyətinə başlayır.

**1964**-cü ildə "Səməd Vurğunun yaradıcılıq yolu" mövzusunda doktorluq dissertasiyası müdafiə edir.

**1968**-ci ildə "Səməd Vurğun" monoqrafiyası nəşr olunur.

**1984**-cü ildə Xalq şairi adını almışdır, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Sonralar Akademiyanın həqiqi üzvü seçilmişdir.

**1988**-ci ildə Qarabağ torpaqları uğrunda xalq hərəkatının həm mənəvi, həm də faktiki liderlərindən biri olmuşdur.

**2009**-cu ildə vəfat etmiş və Fəxri Xiyabanda dəfn edilmişdir.

## KİTABLARI:

**1) "Mənim dostlarım" (1949)** – ilk kitabıdır.

**2) "Əbədi heykəl" (1953)**

**3) "Sadə adamlar" (1954)**

**4) "Ceyran" (1957)**

**5) "İnsan və zaman" (1964)**

## YARADICILIĞI

B.Vahabzadənin yaradıcılığı **şeirlərdən, poemalardan, dramatik əsərlərdən** və **tərcümələrdən** ibarətdir.

**1. ŞEİRLƏRİ**

**1943**-cü ildə **"Ana və şəkil"** adlı **ilk şeiri** çap olunur. Şeir əsgər məktubuna həsr olunmuşdur.

**VƏTƏN MÖVZUSU**. B.Vahabzadə ədəbiyyata S.Vurğun azərbaycançılığının, yurd sevgisinin təsiri altında gəlmişdir. B.Vahabzadə poeziyasının əsas **PROQRAMI**:

**1)** ADR dövründəki milli hərəkat

**2)** Xiyabani hərəkatı

**3)** S.Vurğun azərbaycançılığı

**4)** Cənubi Azərbaycanda 1941-1946-cı illərdə baş vermiş milli hərəkat və qurulmuş Milli hökumətin varisi olmaq

Vətən və onun taleyi mövzusu şairin bütün yaradıcılığı boyu davam etmiş aparıcı mövzudur. **Vətəndaş** – şairin milli və estetik idealıdır. Bununla şair milli varlıq uğrunda ölümə hazır olan bir döyüşçünü nəzərdə tutur.

**1) "Mənə nə var", "Vətən var", "Şəhid məzarları", "Bəsdir", "Sevdim, bildim ki…", "Təyyarələr"** – bunlar ölümə getməyə hazır olan əsl **döyüşçü** obrazının olduğu şeirlərdir.

**"Təyyarələr"** şeirində şair milli döyüşçü idealını öz mənzilinə doğru gedən yolda mərdanə ölən təyyarə obrazına bənzədir.

**2) "Şəhid məzarları"** (1975). Şair bildirir ki, müstəqillik qurban və şəhidlər tələb edir. "**Şəhid"** sözü hərfi mənada din yolunda ölmək mənasını versə də, azadlıq mübarizəsində canını

qurban vermiş qəhrəmanların hamısına xalqımız şəhid deyir. Həmin şeirdə də şəhidlik döyüşçü idealı kimi tərənnüm edilir:

Şəhid məzarları… Düşmən qənimi
Vətənin köksündə vüqarla durub.
Mənim varlığımı bir təsdiq kimi,
Yurdun sinəsinə möhürlər vurub.

Bu şeirdə şair sanki 1988-ci ildə Qarabağ torpaqları uğrunda mübarizədə həlak olan qəhrəman oğullarımızın tarixi hünərini qabaqcadan görür və alqışlayırdı:

Şəhidlər boylanır əsrlər üstdən,
Dolanır zəmanə,
Dönür qərinə,
Necə yaşamağın, necə ölməyin,
Təhrini öyrədir nəvələrinə.

**3) "Şəhidlər" poeması** 1990-cı ilin baharında qələmə alınmış və 20 Yanvar şəhidlərinin qəhrəmanlığına həsr olunub.

**4) "Vətəndaş"** şeirində isə insanın vətən qarşısındakı borcunu bəndənin Tanrı, Allah qarşısındakı borcuna bənzədir. Vətən əbədidir və əbədi yaşaması üçün bəzən vətən övladlarının şəhid olması gərəkdir. Vətənin, Milli dövlətin müstəqilliyinin, əbədiliyinin başqa yolu yoxdur:

Bilirik, dünyaya biz niyə gəldik,
O bizi yaradan, biz ona bəndə.
Yaradan uğrunda ölməyə gəldik.

**5) Başqa bir şeirdə** bildirilir ki, vətən əbədiliyi üçün Allaha şükr edir. Çünki vətənçün qurbanlar çox olsa da, o, min-min yeni nəsillər bitirir. Bu, vətənin əbədiliyi və tükənməzliyidir:

Yüz-yüz itən olsun,
Min-min də bitən var.
Şükr eyləyəlim ki,
Bizlərdən həm əvvəl,

Həm sonra vətən var.

**6) Bir oxucu məktubuna cavab şeiri var**. Oxucu ona Şəki haqqında yazmamasını irad tutur. Bunun əvəzində isə şair yenə böyük vətən və milli birlik haqqında danışmağa başlayır. Çünki B.Vahabzadə ömrü boyu özünü bütöv və böyük Azərbaycanın milli şairi kimi görüb və bu missiyanın daşıyıcısı olması ilə fəxr edib:

Mən həm bakılıyam, həm lənkəranlı,
Gəncəli, qubalı, həm naxçıvanlı.
Şəkili, şirvanlı, qarabağlıyam,
Bütöv vətənimə bütöv bağlıyam.

**ANA DİLİ MƏSƏLƏSİ**. B.Vahabzadənin yaradıcılığında ana dili mövzusu da aparıcı yerlərdən birini tutur. Dil insanı vətənə bağlayan amil, milli varlığın daşıyıcısı, xalqın varlığının mənəvi pasportudur.

**1) "Ana dili" şeirində** (1954) dilimizə xor baxanlara qarşı amansızlıqla yazırdı:

Ey doğma dilində danışmağı ar bilən,
Fasonlu ədəbazlar,
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar,
Bunlar qoy mənim olsun,
Ancaq vətən çörəyi sizlərə qənim olsun.

Şair yaxşı bilirdi ki, insanlar öz doğma dillərini itirəndən sonra həqiqi vətən hissi mümkün deyil.

**2) "Cavab" şeirində** əsas hədəf Cənubi Azərbaycanda xalqın milli ruhunu qırmaq istəyən, dilimizə böhtan atan, onu yad köklərə bağlamağa çalışan simasızlardır. Şair belə çirkin iftiralar yayan mənşəcə azərbaycanlı alim Yəhya Zəkaya öldürücü cavab verir:

Ey sözündən əmin, özündən razı,
Yalanı söylədin kimin adından?
Ananın laylası, atanın sazı,

Babanın ocağı çıxdı yadından?

**3) "Gülüstan" poemasında da dil məsələsinə** toxunulur. Belə ki, Sovet quruluşu zamanında rəsmi dövlət adamları məclislərdə ancaq rusca danışır, rus dilli orta məktəblərin sayı süni surətdə artırılır, ruslaşma siyasəti aparılırdı. İranda isə Azərbaycan dilinin vəziyyəti daha pis idi: burada ana dilində təhsil yox idi və azərbaycanca kitab çapı da qadağan edilmişdi. Bu, şairi qəzəbləndirir və bu qəzəbi şair "Gülüstan" poemasında əks etdirmişdir:

Təbriz də, Bakı da Azərbaycandır,
Bir elin ruhunu, dilini ancaq
Kağızlar üstündə bölmək asandır.

**4) "Latın dili"** şeiri də ana dili məsələsinə həsr edilmişdir. Latın dili Roma imperiyasının dili idi, lakin bu imperiyanın tarix səhnəsindən getməsinə baxmayaraq, latın dili bütün dünyada elm və təbabət dili kimi yaşayır. Bu şeirlə şair əslində **özü yaşayan, lakin dili ölən** xalqların vəziyyətini və dərdini ortaya gətirirdi.

**5) "Mənim anam"** şeirində ana və ana dili anlayışlarını yanaşı qoyur. Şair savadsız anasını öz əsərlərinin əsl müəllifi adlandırır:

Yox, mən heçəm, mən yalanam,
Kitab-kitab sözlərimin
Müəllifi mənim anam.

**2. POEMALARI**

**1) "Xəzan bülbülü"** (M.Hadi haqqında)

**2) "Şəbi-hicran"** (M.Füzuli haqqında)

**3) "Ağlar güləyən"** (Sabir haqqında)

**4) "Gülüstan", "Muğam", "İstiqlal", "Qiymət"**

**5) "Təzadlar", "Atılmışlar", "Şəhidlər".**

Onun sovet dövründə yazdığı bütün poemalar həm müstəqim, həm də rəmzi, simvolik məna daşıyır.

**3. DRAMATURGİYASI**

B.Vahabzadə mənzum dramaturgiya sahəsində S.Vurğun ənənələrini inkişaf etdirmişdir. Onun dramaturgiyası vətənpərvərlik, xalq təəssübü, mənəvi eybəcərliyə və əxlaqsızlığa etiraz kimi motivlər üzərində qurulmuşdur: **"Vicdan", "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad"** (nəzmlədir), **"Özümüzü kəsən qılınc"**.

**"Özümüzü kəsən qılınc"** "Dədə Qorqud" dastanının motivləri əsasında yazılmışdır. Pyesin əsasında əski türk tayfaları arasındakı düşmənçilik və müharibələr mövzusu durur. Burada süjetin məcazi-simvolik mənası vardır. Şair tarixi mövzu ilə xalqımızı birliyə çağırır.

**4. TƏRCÜMƏLƏRİ**

1) **C.Bayronun "Abidos gəlini"** poeması.

2) **A.S.Puşkinin, M.Y.Lermontovun, N.A.Nekrasovun** vətəndaşlıq duyğulu şeirləri

## "GÜLÜSTAN" POEMASI (1959)

**1804-1813**-cü illərdə Rus imperiyası ilə İran arasında getmiş müharibə İranın məğlubiyyəti ilə başa çatdı.

**1813**-cü il 5 noyabrda Gülüstan kəndində "Gülüstan" müqaviləsi bağlandı. Bu müqavilə tarixdə xalqımızın ikiyə bölünməsi kimi qaldı. Vətənin iki bölünərək parçalanması S.Vurğun, S.Rüstəm, Şəhriyar kimi şairlərin yaradıcılığında da kədərlə xatırlanmışdır. Lakin onlardan fərqli olaraq, B.Vahabzadə **bu mövzunu Azərbaycan xalqının bir dövlət halında birləşməsi** idealı kimi qələmə almışdır. Belə ki, **"Vətəndən-vətənə" şeirində** yazır:

Arazın bu tayı vətən,
O tayı vətən.
Vətəni görməyə amanım yox mənim.

“Gülüstan” poeması isə həmin ideyanı parlaq şəkildə əks etdirir.

**1959**-cu ildə poema ilk dəfə olaraq senzura mülahizələrinə görə Şəkidə buraxılan rayon qəzetində çap edilmişdir. “Gülüstan” poeması ilə B.Vahabzadə S.Vurğunun azərbaycançılığının əsas davamçısı kimi geniş şöhrət qazandı.

Lakin əsər Bakıda gənclər və tələbələr arasında yayılandan sonra şairə qarşı təzyiqlər başlandı, az qala onu müəllimlik hüququndan məhrum edəcəkdilər. Şairin üzərinə millətçi damğası qoyuldu və o daim nəzarətə götürüldü. B.Vahabzadəyə qarşı repressiya metodlarından istifadə böyük səs-küy yarada bilərdi və məxfi cəza orqanları bundan çəkindilər. Lakin 1963-cü ildə Azərbaycan xalqını Gülüstan müqaviləsinin 150 illiyini bayram etməyə məcbur etdilər.

Poema tarixi mövzulu bir əsər olmaqdan daha çox, **Azərbaycanın sovetlər tərkibində olmasına sərt bir bədii etiraz idi**. Şair poemada Gülüstan müqaviləsinə imza atan hər iki tərəfi Azərbaycanın qan düşmənləri kimi ifşa edir. Müəllif öz qayəsini poemanın **epiqrafında** açıq-aşkar bildirmişdir: **“Azərbaycanın birliyi və istiqlalı uğrunda çarpışan Səttar xan, Şeyx Məhəmməd Xiyabani və Pişəvərinin əziz xatirəsinə”**.

Şair poemada Sovet imperiyasına və İran monarxiya rejiminə meydan oxuyur:

Bir qələm əsrlik hicran yaratdı,
Bir xalqı yarıya böldü qılınctək.
Öz sivri ucuyla bu lələk qələm
Dəldi sinəsini Azərbaycanın.
Başını qaldırdı,
Ancaq dəmbədəm
Kəsdilər səsini Azərbaycanın.

Şair Azərbaycanın parçalanmasına imkan verilməsini xəyanət sayır. Bunu Tomrislərin, Babəklərin, Koroğluların ruhuna təhqir sayır. Şair **ağı demək dərəcəsinə gəlir:**

Qoy ildırım çaxsın, titrəsin cahan!
Ürəklər qəzəbdən coşsun, partlasın.
Daim haqq yolunda qılınc qaldıran
İgid babaların goru çatlasın!
Qoy əysin başını vüqarlı dağlar,
Matəmi başlandı böyük bir elin.
Mərsiyə söyləsin axan bulaqlar,
Ağılar çağırsın bu gün qız, gəlin!

Şair müqaviləyə imza atan tərəflərin hər birinin adsız obrazını yaratmışdır. Müqaviləyə imza atanlar **Rusiya tərəfdən ipək yaylıqlı, yüngül eynəkli** bir cənabdır, İran tərəfdən isə **təsbehli** bir qocadır. Şairi qəzəbləndirən odur ki, Azərbaycanın öz qüvvələri, ikiyə bölünmüş qardaşlar siyasət meydanında yoxdur:

Bir deyən olmadı durun, ağalar!
Axı bu ölkənin öz sahibi var!
Siz nə yazırsınız bayaqdan bəri,
Bəs hanı bu yurdun öz sahibləri?

Şair göstərir ki, müqavilə bağlanan gün günəşin və ayın üzü tutulur, göy guruldayır, səmanı qara buludlar alır. Güllər, çiçəklər bir gündə saralıb solur. Gülüstan kəndinin üstündə isə tarixi bir ləkə qalır. Eynəkli cənabla təsbehli qoca imzaları üstündən bir möhür də vururlar ki, şair bü möhürü Azərbaycanın sinəsinə basılan dağ adlandırır. Şair qəzəbdən müqavilənin bağlandığı **kağızı** da qınayır:

Ey kağız parçası, əvvəl heç ikən
Yazılıb qollanıb yoxdan var oldun,
Böyük bir millətin başını kəsən,
Qolunu bağlayan hökmdar oldun.

Şair sərhəd dirəklərini, xalqı ikiyə bölən **Arazı** da qınayır. Lakin poemanın sonluğu nikbindir. Şair inanır ki, Təbriz də, Bakı da Azərbaycandır, bir xalqı, bir torpağı yalnız kağız üstdə ikiyə bölmək olar.

Şair xalqımızın tarixi birliyini bədənlə canın vəhdəti ilə müqayisə edir. Təbrizdən müğənni **Mustafa Payanın** oxuduğu muğam da xalqın birliyini ifadə edir.

B.Vahabzdə əsəri "Heydərbabaya salam" poemasından gətirdiyi sitatla bitirir. Şəhriyarın 1954-cü ildə çap etdirdiyi poema şairin tarixi nikbinliyini artırır. Şair sanki öz səsini Şəhriyarın səsinə qatmaq istəyir:

Qovuşaydım dağdan axan selinən,
Ağlaşaydım uzaq düşən elinən.
Bir görəydim ayrılığı kim saldı,
Ölkəmizdə kim qırıldı, kim qaldı.

"Gülüstan" süjetsiz, lirik bir poemadır. Burada yalnız müqavilənin imzalanması anı ümumi şəkildə təsvir edilib. Poemanın əsas qəhrəmanı isə müəllifin milli azadlıq ideyaları və ehtirasları ilə alışan qəlbi və düşüncəsidir.

## BƏDİİ DİL XÜSUSİYYƏTLƏRİ

B.Vahabzadə yaradıcılığının yetkinlik mərhələsi keçən əsrin 60-cı illərinə təsadüf edir. Bu vaxt onun yaradıcılığında şeiriyyətlə fikir dolğunluğu və fəlsəfi dərilik bir-birinə qovuşur, o, ən qüdrətli şair kimi geniş ümumxalq şöhrəti qazanır.

Milli şeir dilimizin S.Vurğundan sonrakı əsas inkişaf istiqamətini B.Vahabzadənin yaradıcılığı təmsil edir. O, sadəliklə fikir zənginliyinin vəhdətini yaratdı.

B.Vahabzadə şeirimizin min illik klassik ənənələrinə və köklərinə sadiq bir şairdir. Şair məqalələrində göstərir ki, xalqa söylənən fikirdən kənarda dil problemi yoxdur.

B.Vahabzadənin şeir dili son dərəcə dəqiq və zəngindir: ən fəlsəfi və mücərrəd fikirləri belə sadə və dəqiq sözlərlə aydın, poetik cəhətdən gözəl ifadə etməyin ustasıdır.

# MƏQALƏLƏR

## ORFOQRAFİYANIN QIZIL QAYDASI

Azərbaycan Milli Elmlər Akademiyasının Orfoqrafiya Komissiyası və Dilçilik İnstitutu tərəfindən hazırlanan "Azərbaycan dilinin orfoqrafiya qaydaları" (bundan sonra "Qaydalar") layihəsi yeni redaktədə və təkmilləşmiş formada AMEA-nın Rəyasət Heyətində müzakirə edildikdən sonra ədəbi-elmi ictimaiyyətə təqdim edilmişdir. "Qaydalar"ın belə bir geniş miqyasda müzakirəsi ilk dəfə ötən əsrin 50-ci illərində əvvəlcə akademik Səməd Vurğunun, ikinci dəfə isə akademik Mirzə İbrahimovun sədrliyi ilə həyata keçirilmiş və o dövr üçün mükəmməl bir orfoqrafiya qaydaları hazırlanmışdır. Həmin vaxt qəbul edilən "Qaydalar" Orfoqrafiya lüğətlərinin bütün sonrakı nəşrlərinin (1960, 1975, 2004, 2013) əsası olmuşdur. Onu da əlavə etmək zəruridir ki, "Qaydalar" ötən əsrin 50-ci illərindən sonra ilk dəfədir ki, belə bir geniş müzakirəyə çıxarılır.

"Azərbaycan Respublikasında dövlət dili haqqında" 30 sentyabr 2002-ci il tarixində qüvvəyə minən Azərbaycan Respublikası qanununda Orfoqrafiya lüğətinin 5 ildə bir dəfədən az olmayaraq nəşrinin təmin edilməsi 13-cü maddə ilə təsbit edilmişdir. Bu isə onu göstərir ki, Orfoqrafiya lüğətinin müəyyən fasilələrlə və vaxtaşırı buraxılması Dövlət sifarişidir və "Azərbaycan dilinin orfoqrafiya qaydaları" ilə bağlı yeni layihənin müzakirəyə çıxarılması da yeni Orfoqrafiya lüğətinin buraxılması haqqında Dövlət sifarişinin tələblərindən irəli gəlir.

Tarixi təcrübə göstərir ki, içtimai həyatdakı yeniliklərin dilin lüğət tərkibinə təsirinin mövcud dil qaydalarına nə dərəcədə cavab verib-verməsinin müəyyənləşdirilməsinə, dilçiliyin digər bölmələri ilə müqayisədə daha çox dəyişikliyə məruz qalan leksikadakı yeniliklərin yazı qaydalarına uyğunluğunun

dəqiqləşdirilməsinə və alınma sözlərə nəzarətin güclənməsinə, eyni zamanda mövcud qaydaların yenidən təhlilinə həmişə ehtiyac duyulmuşdur. Müzakirəyə təqdim olunan "Azərbaycan dilinin orfoqrafiya qaydaları" layihəsini birinci növbədə məhz bu cəhətlərə görə dəyərləndirmək vacib və zəruridir.

Dil canlı bir orqanizmdir. Hər hansı bir sözün, yaxud sözün dəyişilmiş variantının qəbul edilib-edilməməsi daha çox dilin özündən asılıdır. Xatırlatmaq yerinə düşər ki, ötən əsrin 90-cı illərində əksər ziyalılar türk dillərinin bazasında yaranan "bilgisayar" sözünün işlədilməsinə daha çox çalışırdılar. Elə o vaxtlar "kompüter" sözü də dövriyyəyə daxil edildi. İndi artıq bu, reallıqdır ki, "bilgisayar" və "kompüter" yarışında "kompüter" qalib gəldi. Bunun əsas səbəbi gənclərin ingilis dilinə və kompüterə marağı ilə bağlıdır ki, əslində də qalib gələn ingilis dilinə və kompüterə olan marağın vəhdəti idi. Dil isə öz növbəsində bu gün belə "kompüter" sözünün üstünlüyünü qoruyub saxlamaqdadır.

Layihədə diqqəti daha çox cəlb edən məsələrdən biri indiki "Qaydalar"ın əvvəlkilərlə münasibətinə aiddir. Müəyyən sözlər yaddaşlarda möhkəmləndiyinə görə onlara olan baxışın dəyişilməsi haqlı olaraq bir çox suallar doğurur. Məsələn, "*alqı-satqı*" sözü bu qəbildəndir. Aydınlıq üçün qeyd edim ki, 1960-cı il Orfoqrafiya lüğətində bu söz "*alğı-satqı*" formasında yazılıb. Yəni konkret olaraq "*al*" söz kökünə "*ğı*" şəkilçisi artırılıb. Həmin söz Orfoqrafiya lüğətinin 2004-cü il nəşrinə daxil edilməyib. Lüğətin 2013-cü il nəşrində isə yeni variant – "*alqı-satqı*" forması meydana çıxıb. Layihədə isə 1960-cı il variantına qayıdılaraq 43-cü maddədə "*alğı-satqı*" yazılıb. Göründüyü kimi, sözün tarixi mənzərəsi də müəyyən çətinliyin mövcudluğunu nəzərə çarpdırır. Bəs yeni layihə müəllifləri bu sözdən yan keçə bilməzdilərmi? Əlbəttə, yan keçə bilərdilər: ya əvvəlki variantı saxlayardılar, ya da müzakirəyə çıxarmadan həmin sözü

lüğətin nəşrində sakitcə kənara qoya bilərdilər. Amma mövcud lüğətdə işləndiyi kimi "*alqı-satqı*" sözünün yeni iqtisadi münasibətlər sistemində xüsusi yerinin olması layihə müəlliflərinin obyektiv mövqe tutmasının əsasını təşkil etmiş və onlar ən doğru variantı seçmişlər: *alğı-satqı.* Doğruluq ondan ibarətdir ki, sözün *al(maq)* kökü cingiltili samitlə qurtardığına görə ona [*ğı*] şəklçisi, sözün *sat(maq)* kökü kar samitlə qurtardığına görə ona [*qı*] şəkilçisi artırılmışdır. Müqayisə et: *vurğu, durğu;* yaxud: *qatqı, basqı*.

"Qaydalar" müəyyən edilən normalara dilçilik elminin tələbləri baxımından yanaşmağı zəruri edir. Əks təqdirdə irəli sürülən müddəalar havadan asılı formada qala bilər. Nümunə üçün qeyd edim ki, layihənin 14-cü maddəsində eyni tipli digər sözlərlə müqayisədə "vitse" sözündəki "ts" hərf birləşməsinin saxlanması nəzərdə tutulur. Belə bir dilçilik mövqeyi onunla bağlıdır ki, "vitse" sözündəki "t" səsinin ixtisarı həmin sözü "vise" formasına salır, bu isə söz məxrəcinin tamamilə itməsi deməkdir. Layihədə "vitse" sözündəki "ts" hərf birləşməsinin saxlanması da həmin elmi prinsipə əsaslanır. Buna nəzərən "lisey" sözü barədə də şəxsi-subyektiv fikir söyləmək mümkündür. Yəni demək olar ki, təhsil ocağının adı kimi qəbul edilən "lisey" sözünün tələffüzü zamanı söz elə bil ağızdan sürüşüb düşür, "litsey" variantında isə tələffüz yüksələn ton qazanır. Sözün "litsey" forması həmin tipli məktəblərə və ümumiyyətlə, təhsilə olan marağı artırmaq gücünə və enerjisinə malikdir. Hətta quraşdırdığım bu cür gözəl, cəlbedici sözlər belə "litsey" variantına qayıtmağa imkan vermir, ona görə ki, bu sözdəki "t" səsinin ixtisarı söz məxrəcini qətiyyən itirmir. Yəni dilçilik qaydası "litsey" barədə quraşdırdığım gözəl sözlərə üstün gəlir.

Yeni "Qaydalar"da bəzi sözlərin 2013-cü ildən də əvvəlki yazı formasına qaytarılması təklif olunur. Bu da təbiidir, çünki təklif olunan sözlər dəyişiklik müddətində aidiyyatı olan

tədris müəssisələrində, ayrı-ayrı obyektlərdə, idarə və təşkilatlarda, daha çox da kütləvi informasiya vasitələrində özünə kifayət qədər yer tuta bilmədi, bu isə o deməkdir ki, dil həmin dəyişiklikləri qəbul etmədi. Belə ki, "Qaydalara" görə sonuncu orfoqrafiya lüğətində özünə yer tutan "m*etafor", "profilaktori", "sanatori"* sözlərindən *"metafora" , "profilaktoriya"," sanatoriya"* sözlərinə qayıdış geriyə deyil, irəliyə doğru atılmış addım hesab edilməlidir. Ən azı ona görə ki, "m*etafor", "profilaktori", "sanatori"*sözləri tələffüzdə sanki məlum alınma sözün başqa bir alınma sözə çevrilməsinə bənzəyir. Sözün *"metafor"* forması "*metafora*" ilə müqayisədə dilə yatımlı olmadığına görə orta məktəblərdə bədii təsvir və ifadə vasitələri ilə bağlı mövzunun tədrisində həmin termindən imtina etmək halları baş verdi, o tipli testlər də qəbul imtahanlarından çıxarıldı. Sözün "*sanatori*" forması o cür müəssisələrə yerli sakinlərin və turistlərin gəlməsinə müəyyən qədər maneə olduğuna görə həmin müəssisələr təbliğat bülletenlərində SPA variantına üstünlük verdilər. Yazıda və şifahi nitqdə işlədilməsi məcburiyyət kimi nəzərdə tutulan *"profilaktori","sanatori"*sözlərinin sonluğu da bizim dilimizin tələffüz qaydalarına tamamilə ziddir. Müəyyən bir sözün dilimizin tələffüz qaydalarına uyğun gəlməməsi indiyə qədər dilimizdə bu cür örnəklərin olmaması ilə də əlaqədardır. Yəni orfoqrafiya və orfoepiyadakı müəyyən dəyişikliklər zamanı dildə mövcud və oxşar nümunələrin olması şərti çox vacibdir. Başqa sözlə, hər hansı bir dəyişikliyin dil tərəfindən qəbul edilməsi həmin dildə olan oxşar örnəklərə də bağlı məsələdir. Nəhayət, bu, dilin canlı orqanizm olması anlamına da gəlir.

Dünyada bütün dillərin lüğət tərkibi milli və alınma sözlərin məcmusundan ibarətdir. Dilimizin keyfiyyətini milli sözlərin təyin etməsinə baxmayaraq, dilimizdə də əsl Azərbycan sözləri ilə alınma sözlər yanaşı işlənir. Ona görə də "Qaydalar"da alınma sözlərin dilimizə daxil olması zamanı baş verən

dəyişikliklər aydın şəkildə öz həllini tapmışdır. Layihədə ayrıca "izahat vərəqi" olmadığından "mənbə dil" ifadəsinin tez-tez xatırlanması izahat xarakteri daşıyır. Eyni zamanda, alınma sözlərə başqa dilin nümunələri kimi həm diqqətlə yanaşılır, həm də dilimizin qayda-qanunlarının aparıcı mövqedə olması şərti qorunub saxlanılır. Layihədə dilimizin aparıcı mövqeyi aşağıdakı müddəalarda və formalarda təmin edilmişdir:

1.Mənbə dildən fərqli olaraq bir qisim alınma sözlərə yalnız bizim dilə aid olan **[*ü*]** saitinin artırılması (məsələn: *bülleten, jüri, kompüter, uvertüra*);

2.Sonu **[*a*]** saiti ilə bitən alınma sözlərdə **[*a*]** saitinin düşməsi (məsələn: *anket, fonem, kaset, reklam*);

3.Mənbə dildə tərkibində [***ll***] **,** [***nn***] **,** [***pp***] qoşa samitləri olan alınma sözlərdə samitlərdən birinin ixtisarı (məsələn: *paralel,ton, qrup;)*

4.Mənbə dildə sonu qoşa samitlə bitən iki və ya çoxhecalı sözlərin bir samitlə yazılması (məsələn: *hüsnxə **t** , kiloqra **m** , meta **l** , sərhə **d***);.

5.Mənbə dildə sözlərin sonunda işlənən qoşa [**ss**] samitindən birinin ixtisarı (məsələn: *ekspres, konqres, stres*);

6. Mənbə dildə söz ortasında qoşa [***ss***] samiti olan sözlərdə bir **[*s*]** hərfinin yazılması (*masaj, pasaj, şose*);.

7. Mənbə dildə tərkibində qoşa [***m***] samiti olan və sonu [***a***] saiti ilə bitən sözlərin bir **[*m*]** hərfi ilə yazılması (*proqram, stenoqram, teleqram*).

İndiyə qədər orfoqrafiya qaydalarının müəyyənləşməsində üç prinsip – fonetik, morfoloji və tarixi-ənənəvi prinsip mövcuddur və ofoqrafiya qaydalarının tərtibində bunlar həmişə əsas götürülür. Düzgün yazı qaydalarının əsas fəlsəfəsi isə oxu ilə yazını bir-birinə yaxınlaşdırmaqdır. Orfoqrafiya ilə orfoepiyanın qarşılıqlı münasibətlərini də daha çox onları bir-birindən uzaq-

laşdıran, bir-biri ilə “yadlaşdıran” müddəalar deyil, bir-birinə yaxınlaşdıran, bir-biri ilə doğmalaşdıran qaydalar təmin edir. Bu qaydalar isə mövcud üç prinsipdən birinə – fonetik prinsipə əsaslanır. Fonetik prinsip orfoqrafiyanın qızıl qaydasıdır.

“Əsl Azərbaycan sözlərinin yazılışı” və “Alınma sözlərdə saitlərin yazılışı” bölmələrindəki 13 maddənin, demək olar ki, hamısı tələffüz qaydalarına nəzərən formalaşdırılmışdır. Bu, sözlərin yazılış qaydalarına aydınlıq gətirmək istəyindən və orfoqrafiyanın tələffüzlə yazının sıx əlaqələri zəminində formalaşması müddəasından irəli gəlmişdir.

Bu gün adamların yazı zamanı çoxlu səhvlər etdiyi barədə şikayətləri tez-tez eşidirik. Hətta orta məktəblərdə və qəbul imtahanlarında esse yazmaq tələbinin meydana çıxması yazı zamanı çoxlu səhvlər buraxılmasının qarşısını almaq məqsədi daşıyır. Məgər uzun illər orta məktəblərdə imla, ifadə və inşa yazan şagirdlər yazılarında orfoqrafik səhvlər olmurdumu? Yaxud esse yazmaqla bu məsələni köklü şəkildə həlli etmək mümkündürmü? Bu sualların cavabı da yenə orfoqrafiya qaydalarına gedib çıxır. Yazı zamanı buraxılan səhvlərin köklü şəkildə aradan qaldırılması üçün ən mühüm yol tələffüzlə yazı arasındakı fərqlərin aradan qaldırılması, yaxud da bu fərqlərin minimuma endirilməsidir. Həmçinin bu yol mərhələli orfoqrafiya islahatına aparan yoldur.

Layihənin 37-ci maddəsində fonetik prinsip açıq şəkildə elan edilmişdir: “Əvvəlki orfoqrafiya lüğətlərində tərkibində – *iyyat,- iyyət* və *-iyyə* şəkilçisi olan sözlər qoşa ***yy*** samiti ilə yazılmışdır. Hazırda həmin sözlər bir **[y]** ilə tələffüz olunur. Buna görə də fonetik prinsipə əsaslanaraq tərkibində həmin şəkilçilər olan sözlərin bir ***y*** ilə yazılması məqsədəuyğun sayılır. Məsələn: *cərrahiyyə - cərrahiyə, dövriyyə – dövriyə, ədəbiyyat – ədəbiyat, fəaliyyət – fəaliyət, maliyyə – maliyə , üslubiyyat – üslubiyat* və s”.

Bir cəhəti nəzərə almaq vacibdir ki, irəli sürülən təklif ərəb dilndən alınan "iyyat", "iyyət" və "iyyə" şəkilçilərinin (məhz şəkilçilərinin!) tərkibində olan qoşa "yy" samitinə aiddir və bu şəkilçilər də digər alınma şəkilçilər kimi dilimizdəki alınma sözlərə artırılır. Məsələn, "iqtisad+iyyat", "ədəb+iyyat", "zehin+iyyət" (zehniyyət), "ədl+iyyə" tipli sözləri kök və şəkilçiyə ayırdıqda bu, tam aydınlığı ilə görünür. Yəni qoşa "yy" samitinin birindən imtina sözdəki yox, şəkilçidəki samitdən imtina deməkdir. "Xəyyam", "Səyyad", "səyyarə", "niyyət", "hədiyyə" kimi sözlər yalnız kökdən ibarətdir və onlarda qoşa "yy" samitli şəkilçiyə rast gəlinmədiyinə görə həmin qayda layihədə göstərildiyi kimi, bu tipli sözlərə qətiyyən aid edilə bilməz. Yaxud "qafiyə", "saniyə", "mərsiyə" kimi sözlər düzəltmə olmadığına görə "iyə" hissəsi söz kökünün tərkibindədir və "iyyə" şəkilçisi ilə heç bir bağlılığı yoxdur, deməli, həmin qayda bu tipli sözlərdən tamamilə kənardadır.

Məsələnin məğzinə gəldikdə isə layihədə qoşa "yy" samitindən birinin ixtisarı ilə bağlı təklif birbaşa orfoqrafiyanın qızıl qaydasına aiddir və həmin maddənin dilçi mütəxəssislər, bu sahə ilə bağlı olan peşəkarlar tərəfindən qəbul edilməsi, şübhəsiz, bununla əlaqədardır. Hətta belə düşünmək olar ki, layihədə həmin maddənin yerinə tələffüzdə iki sait arasına "y" səsinin daxil olduğu "*ayilə*", "*Nayilə*" tipli sözlərin yazılışının tələffüzdəki kimi qəbul edilməsi təklifi irəli sürülsəydi, müəyyən şərtlər daxilində həmin maddə də əksər mütəxəssislər tərəfindən bəyəniləcəkdi. Çünki orfoqrafiya üçün fonetik prinsip əsasdır.

Yazı zamanı şəkilçinin tərkibində olan qoşa "yy" samitindən birinin ixtisarı ilə bağlı təklif o demək deyildir ki, bu, müxtəlif sözlərin tərkibində olan bütün qoşa samitlərə (məsələn, dd, bb, kk, qq və s.) şamil edilməlidir. Həmçinin bu, o da demək deyildir ki, bütün sözlərin tələffüzdə müşahidə olunan norma-

larını məhz elə indi yazıya gətirmək lazımdır; belə bir düşüncə tərzi konkret elmi yanaşmanın prinsiplərinə tamamilə ziddir.

Layihənin 37-ci maddəsində irəli sürülən təklif dilimizlə bağlı gələcək bir çox hadisələri də işarələyir. Əslində bu maddə ilə orfoepiya ilə orfoqrafiya arasındakı fərqləri mümkün qədər aradan qaldırmaq, onları bir-birinə daha da yaxınlaşdırmaq, Azərbaycan dilinin başqa dillərdə danışanlar tərəfindən öyrənilməsini asanlaşdırmaq, yazı mədəniyyətini inkişaf etdirmək, yazı prosesində buraxılan səhvləri minimuma endirmək, dilə olan sevgini gücləndirmək kimi ali məqsədlərin anonsu verilir.

Elə buradaca layihədəki 22-ci maddəyə də aydınlıq gətirmək lazımdır. Bu maddədə diqqəti *əskər, əskinas, İskəndər, işkəncə* kimi sözlərin elə o şəkildə yazılması təklifinə yönəldilmişdir və həmin sözlərin dilimizdə məhz tələffüzlərinə əsasən indiyədək "g" hərfi ilə yazılması məqsədəmüvafiq hesab edilmir. Beləliklə, 22-ci maddə uzun müddət fonetik prinsipin bərqərar olduğu sözlərin həmin prinsipdən təcrid edilməsi anlamına gəlir. Əlavə olaraq son dörd orfoqrafiya lüğətində, təxminən 60 ildir ki, həmin sözlər "g" hərfi ilə yazılır, məsələn: *İsgəndər, əsgər*. Belə olduqda orfoqrafiyanın həm fonetik, həm də tarixi-ənənəvi prinsipləri birləşərək Nizami Gəncəvini "İsgəndərnamə" poeması və mübariz Azərbaycan əsgəri tərəfindən çıxış edir.

"Azərbaycan dilinin orfoqrafiya qaydaları"nın layihəsi indiki halda elmi düşüncəni ifadə edən mətndir – əsərdir. Bu mətn Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edildikdən sonra rəsmi bir sənədə çevriləcək və oradakı müddəalar həm geniş miqyasda, həm də illər boyu öyrəniləcəkdir. Ona görə də "Qaydalar"a daxil edilən nümunələr də müəyyən prinsip əsasında və son dərəcə diqqətlə seçilməlidir. Aparıcı prinsip nümunələrin əlifba sırası ilə düzülüşüdür ki, mətndə buna tam şəkildə əməl edilmişdir. Məsələn: *addım,*

*dəniz, gəlin, günəş, qoşun, oğul* və yaxud: *bulud, palıd, söyüd* və yaxud da: *ilan, ildırım, ilğım, ilxı, ılıq, inanmaq, işartı, işıq.*

Nümunələrə gəldikdə isə bunları qaydaya müvafiq olaraq dildəki uyğun gələn ixtiyari sözün seçimi kimi başa düşmək doğru deyil. “Qaydalar” ayrıca bir mətn – əsər səciyyəsi daşıdığına görə oraya daxil edilən nümunələr xalqın düşüncəsini, psixologiyasını, həyat tərzini, arzu və istəklərini ifadə edə bilmək gücünə malik olmalıdır. Bu nümunələrə yazı normaları ilə xalq təfəkkürünün vəhdətini nümayış etdirən ötürücü vasitə kimi baxılmalıdır. Məsələn, müharibə şəraitində yaşadığımıza görə “Qaydalar”ın mətninə müvafiq maddələrə uyğun olaraq “*general*”, “*qoşun*”, “*tüfəng*”, “*avtomat*” kimi sözlərin daxil edilməsi son dərəcə təqdirəlayiqdir.

Həmçinin “Qaydalar”da müasir dövrümüzlə bağlı olan neologizm xarakterli sözlərin nümunələrə daxil edilməsi layihənin əhəmiyyətini xeyli dərəcədə artırır. Məsələn: *tütor, əmlak, kollec, veb-sayt, vindos, vörd* və s. Müstəqillik dövründə demokratiyanın inkişafı ilə əlaqədar olaraq senzuradan yaxa qurtardığımıza görə söz köklərində samitlərin yazılışına aid 14-cü maddədə nümunə kimi verilmiş “*senzura*” sözünü də mətndən çıxarmaq daha məqbul hesab edilə bilər.

“Azərbaycan dilinin orfoqrafiya qaydaları” layihəsi dilimizə daha böyük diqqət və qayğı ilə yanaşmaq, bu dilin keşiyində durmaq, səmərəliliyini artırmaq, onu müxtəlif vasitələrlə inkişaf etdirmək, yad təsirlərdən qorumaq, and yerinə çevirmək kimi vəzifələri yenidən gündəmə gətirir. Hər bir xalq, hər bir millət öz dilinin gücünü bildikdə daha qüdrətli olur.

# PROFESSOR YUSİF SEYİDOVUN DİL SEVGİSİ

Professor Yusif Seyidov Azərbaycan dilçiləri arasında elə şəxsiyyətlərdəndir ki, onun haqqında yazmaq və danışmaq üçün geniş imkanlar vardır. Bunu qeyd edərkən onun dilçiliyin müxtəlif sahələri və problemləri barədə əsərlər yazmasını nəzərdə tutmuram. Hətta elmi yaradıcılıqla yanaşı pedaqoji işlə, ictimai fəaliyyətlə məşğul olmasını da qətiyyən xəyalıma gətirmirəm. Yusif Seyidov haqqında yazmaq və danışmağın geniş imkanlara söykənməsi onun həyata, insanlara və bir də, şübhəsiz, dilə olan sevgisi ilə daha çox bağlıdır.

Professor Yusif Seyidovun ən möhtəşəm və müqəddəs sevgisi Tanrıya olan sevgidir. Yusif müəllim öz Allahını – Tanrısını tanıyan görkəmli elm adamı idi. Bu, birinci növbədə onun peyğəmbər nəslinə yönələn rəğbətindən, ikincisi də öz idrakının süzgəcindən keçib formalaşan inamından irəli gəlirdi. Belə bir mülahizəni təsdiq edən konkret fakt da vardır.

Yusif müəllimin "Azərbaycan dilində söz birləşmələri" monoqrafiyası 1966-cı ildə çap edilib. Həmin vaxt sovet rejimi daxilində ateizm hələ də tüğyan edirdi və ali məktəblərdə elmi ateizm kafedraları fəaliyyət göstərir, tələbələrə "Elmi ateizm" fənnindən mühazirələr oxunurdu. Hətta birinci kurslarda dərslərin başladığı ilk gündə tələbələrin bir-birlərinə ünvanladığı ən populyar sual "Allah var, yox?!" sualı idi. Məhz belə bir zamanədə Yusif müəllimin "Azərbaycan dilində söz birləşmələri" monoqrafiyasında nümunə kimi gətirilən ilk fakt "Məmmədəli" sözü idi. Nəzərə alsaq ki, söz birləşmələrindən bəhs edən tədqiqatda nümunə kimi gətirilən ilk söz – "**Məmmədəli**" mürəkkəb sözdür, yəni söz birləşməsi deyil, onda alimin bu addımını düşündürücü bir gediş hesab etməliyik. Bəs düşündürücü olan nədir?

Xatırladım ki, klassik ədəbiyyatımızda epik əsərlərə xas olan ənənəvi başlıqlar mövcuddur. Bu ənənəvi başlıqlar Allaha müraciət, peyğəmbəri nət, hökmdarı tərif və şairin özündən bəhs etməsindən ibarətdir. Həmçinin sənətkarlar bununla başladıqları işləri uğurla qurtarmaq üçün Allahdan güc və qüvvət istəyirlər. Beləliklə, aydınlaşır ki, professor Yusif Seyidov həmin mövcud ənənəni elmi tədqiqata gətirmişdir: Məmmədəli, yəni öz əsərimi Məhəmməd peyğəmbərin və Əlinin adı ilə başlayıram, başqa sözlə, Allahdan güc və qüvvət istəyirəm. Beləliklə, alimin Allaha, peyğəmbərə və Əliyə olan sevgisi dil vasitəsilə və dilə olan sevgidən gəlib keçir. Bəlkə də, onu yazdığı məqamda Yusif müəllimin düşüncəsində "Arifə bir işarə bəsdir!" fikri oyanıb.

Professor Yusif Seyidovun dilə olan sevgisinin ən qabarıq faktı isə Azərbaycan sənətkarlarının əsərlərində dilə olan münasibətin tədqiqidir. **"Yazıçı və dil"**, **"Sözün şöhrəti"**, **"Sözün qüdrəti"** və bu mövzuda olan digər kitab və məqalələr Yusif müəllimin namizədlik və doktorluq dissertasiyalarına aid olmayan və könül xoşluğu ilə yazılan əsərlərdir. Yusif müəllimin bu kitabları elmi-nəzəri səciyyə daşıması ilə yanaşı, həm də dilə olan tükənməz sevgisidir və həmin tədqiqatlarda yazıçıların sözə-dilə münasibəti xalqın taleyinə münasibət kimi dəyərləndirilir.

Daha əhəmiyyətlisi budur ki, həmin araşdırmalarda dövr və dil əlaqələrinin səciyyəsi də mühüm yer tutur. Orta əsrlərdə sənətkarların dilə münasibətində əsas məqam kimi ərəb və fars sözlərinin mətn ilə əlaqələrinin səciyyəsi aparıcı mövqe qazanır, XX əsrin 30-cu illərindən söhbət gedəndə əlifba məsələsinə dair problemlərin mahiyyətini aşkarlamaq ön plana keçir. Həmin monoqrafiyalarda sözlə bağlı ictimai-estetik amillər də geniş şəkildə təhlil edilir.

Yusif müəllimin sözlə-dillə bağlı tədqiqatlarının başqa bir özəlliyi yeri gəldikcə dilçiliyin aktual məsələlərinə də yer

ayırmasıdır. Belə ki, dil və nitq, dil və təfəkkür; ümumxalq dili, ədəbi dil və bədii dil; söz və çoxmənalılıq; etimoloji təhlil kimi problemlər də yüksək elmi-nəzəri səviyyədə araşdırılır. Əgər "Akademik İsa Həbibbəyli" monoqrafiyasını da nəzərə alsaq, Yusif müəllimin bir silsilə təşkil edən bu kitabları yalnız dilçiliyin yox, həm də ədəbiyyatşünaslığın nailliyyətləridir.

Professor Yusif Seyidovun **Vətənə, torpağa, elə-obaya olan məhəbbəti də** dilə olan sevgisindən qaynaqlanır. Düşünürəm ki, dilçi alimlərin ədəbi dilə aid ayrı-ayrı sənətkarların yaradıcılığından gətirdikləri nümunələr birbaşa dilçilik məsələlərinə xidmət göstərir. Amma müəlliflər nümunələrə əsaslanıb dolayısı ilə vətəndaş mövqelərini də bildirə bilərlər. Vətəndaş mövqeyi, yaxud dilçilikdən bir vasitə kimi istifadə edib cəmiyyətə münasibətini ifadə etmək baxımından alimlərinin özlərinin düşüncəsindən süzülüb gələn nümunələr də az əhəmiyyət kəsb etmir. Bunu Yusif müəllimin tədqiqatlarında aydınca görmək çətin deyil.

Professor Yusif Seyidov tədqiqatlarının birində mürəkkəb sözlərə nümunə gətirərkən **"hacıleylək"** sözünü seçmişdir. İkinci növ təyini söz birləşmələrinin mürəkkəb sözlərə çevrilmə prosesindən danışanda isə **"quşəppəyi" və "dəvədabanı"** sözlərinə önəm vermişdir. Əslinə qalanda quruluş baxımından mürəkkəb olan başqa quş adları da var: sarıköynək, ağacdələn, qaraquş, qaratoyuq və s. Yaxud mürəkkəb sözlərdən ibarət digər bitki adları da var: çobanyastığı, quzuqulağı, pişikotu və s. Bəs onda niyə "hacıleylək", niyə "quşəppəyi" və "dəvədabanı"?

Bunları təsadüf hesab etmək olmaz. Bəlkə də, başqa dilçilərin tədqiqatlarında bu tipli nümunələr təsadüfidir və yalnız qrammatik məzmun daşıyır. Amma professor Yusif Seyidov araşdırmaları üçün onları təsadüfə bağlamaq qəbahət olar. Ən azı həmin nümunələr ətrafında Yusif müəllimin yaradıcılıq psixologiyası haqqında düşünmək mümkündür.

**BİR HAŞİYƏ:** *Yusif müəllimin dədə-baba yurdu Şərur rayonunun Yengicə kəndindədir. O, hər dəfə Naxçıvana gedəndə öz dədə-baba yurdlarına baş çəkər, dünyasını dəyişən valideynlərinin məzarlarını ziyarət edərdi. Həmin dədə-baba yurdunun lap yaxınlığında bir elektrik dirəyi ucalırdı və dirəyin başında hacıleylək özünə yuva qurmuşdu, hər il yazda o gəlib öz yuvasına qonardı. Yusif müəllimin evlərinin ətrafında isə daha çox quşəppəyi və dəvədabanı bitərdi.*

Məncə, indi təsəvvür etmək çox sadədir. Mətndə "hacıleylək", "quşəppəyi" və "dəvədabanı" sözlərinin işlənməsində Yusif müəllimin dil sevgisindən keçən yaradıcılıq psixologiyası özünü açıq-aydın göstərməkdədir.

Professor Yusif Seyidov bütün ömrünü dilçiliyin inkişafına sərf edib. Bu elm yolu feili bağlama tərkiblərinin təhlilindən başlayıb söz birləşmələrinin araşdırılmasından keçərək sənətkarların sözə-dilə münasibətinin məzmununu açmağa yönəlmiş və ədəbi dil tarixinin incəliklərinin təhlili ilə yekunlaşmışdır. Şəbəkə çox genişdir. Amma mahiyyət ondadır ki, dilçilik problemlərindən yazmaq məsələnin bir tərəfidirsə, yaza-yaza da **dil quruculuğu** ilə məşğul olmaq məsələnin digər tərəfidir və heç də birincidən az əhəmiyyətli deyil. Bu, bir növ dilçilikdən bəhs edən alimin dilin özündən necə istifadə etmək bacarığının nümayişidir və belə bir mövqenin nümayişində Yusif müəllim əsl nümunədir.

**BİR HAŞİYƏ:** *Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən Müdafiə Şurasının iclasında iştirak etmək üçün oraya getmişdik, 4-5 nəfər idik və müdafiə olacağı gün oteldə səhər yeməyi yeyirdik. Birdən "yumurtanı kim necə soyur?" sualı ortalığa gəldi. Hərə öz münasibətini bildirdi, mən danışmadım. Yusif müəllim bunu görüb üzümə baxaraq dedi ki, bəs sən necə soyursan? Mən də söylədim ki, hamı kimi soyuram, amma başqa bir üsul da bilirəm. Nümunə göstərmək üçün yağ*

*bıçağı ilə yumurtanı ortadan böldüm və bıçaqla qabıq hissəni yumurtanın içinidən ayırdım. Bu, maksimum 10 saniyə çəkdi. Yusif müəllim çox diqqətlə mənə baxdı və sonra dedi ki, Kamran, bu, sənin yaxşı icadındı, amma ən ləzzətlisi yumurtanı əllə soymaqdır.*

*Bundan təxminən bir il keçmiş yenə Naxçıvanda dialektlərlə bağlı bir disssertasiyanın müdafiəsinə toplaşmışdıq. Mən çıxış edəndə -anaq, -ənək şəkilçisi üzərində dayandım. Bu şəkilçinin qeyri-məhsuldar olmasına baxmayaraq, müəyyən məzmun daşıdığını qabartdım. Nümunə çəkdim ki, Şərurda daha çox "tozanaq", Şahbuzda isə daha çox "biçənək" sözləri işlənir. Bu şəkilçilər həmin ərazilərin həyat tərzinin, təsərrüfatının nişanələridir. Yəni Şərurda düzənlik və toz-torpaq çox olduğuna görə "tozanaq", dağlıq ərazi olan Şahbuzda isə ot-ələfin çoxluğu "biçənək" sözünü məhsuldar vəziyyətə gətirmişdir. Müdafiədən sonra Yusif müəllim mənə yaxınlaşıb dedi ki, Kamran, sənin bu icadın yumurtanı soymaq icadından çox yaxşıdır.*

Aralarında xeyli zaman fasiləsi olmasına baxmayaraq, bu mətndir – sintaktik və semantik əlaqələri olan mətn! Professor Yusif Seyidovun məqalə və kitablarında bu cür sintaktik və semantik bağlarla bir-birinə qovuşan mikromətnlər çoxdur və onlar makromətnin tərkib hissələridir. Ona görə də Yusif müəllim nadir dilçi alimlərdəndir ki, istənilən, **ixtiyari bir abzası** seçərək oxuyub başa düşmək çətin deyil. Çünki həmin abzas ayrılıqda oxunanda da, bütöv mətnin tərkibində baxılanda da aydın və dərk ediləndir. Bunun üçün əvvəlki hissələrə qayıtmağa ehtiyac qalmır. Əgər ehtiyac olsa, lazımi əlaqə elə oradaca yaradılır. Məsələn: "Bu sonuncu xüsusiyyət, yəni əşyalar arasındakı əlaqələri bildirmək" forması tətbiq edilir. Yəni aydınlaşdırma gəlməsəydi, əvvəlki hissələrin oxunması zərurəti yaranacaqdı.

Yaxud Yusif müəllim **"göründüyü kimi"** ifadəsini təsadüfən və yaxud semantikadan kənarda, yəni gəlişi gözəl söz

kimi başa düşmək olmaz. "Göründüyü kimi" varsa, deməli, ondan əvvəldə sxem var, cədvəl var, ya da ən azı bədii əsərdən gətirilmiş nümunə var.

Və yaxud başqa bir mənzərəni xatırlayaq. Yusif müəllim bir abzasın – mikromətnin sonunda **"üfüq"** sözünü işlədir: "Azərbaycan dilində feili birləşmələrin hüdudları üfüqdən kənara çıxır". Necə olur ki, birdən-birə "üfüq" sözü mətnə daxil olur? Bunun səbəbi həmin abzasın əvvəlində işlənən "külli-miqdarda" birləşməsi və onun yaratdığı "külli-kainat" ifadəsinin assosasiyasıdır.

Bütün bunlar professor Yusif Seyidovun mətnlə əlaqəli olan elmi dilə – elmi üsluba olan sevgisidir.

Yusif müəllimin tədqiqatlarında ardıcıllıq meyarı həmişə gözlənilir. Bu, elm üçün elementar məsələdir, amma ona təsadüf kimi baxanlar da az deyil. Yəni əgər qrammatikanın hissələrindən danışılırsa, əvvəlcə "morfologiya", sonra isə "sintaksis" demək lazımdır. Birləşmələrdən bəhs edərkən əvvəlcə ismi birləşmələrdən, sonra isə feili birləşmələrdən söhbət açmaq zərurəti yaranır. Şübhəsiz ki, təhlillərdə "söz, söz birləşməsi, cümlə" ardıcıllığı qorunub saxlanılmalıdır. Amma qəribəlik odur ki, professor Yusif Seyidov ismin halları əsasında yaranan feili birləşmələrin təhlili zamanı xatırladığımız ardıcıllıq prinsipini pozur. Yəni əvvəlcə təsirlik hallı birləşmələrə, sonra isə yönlük hallı birləşmələrə diqqət yönəldir. Niyə? Nə üçün?

**BİR HAŞİYƏ:** *Bir dəfə avtobus dayanacağında Yusif müəllimlə rastlaşdım. Yusif müəllimin əlində tor setkaya salınmış top vardı. Əvvəlcə düşündüm ki, nəvələri üçün alıb, sonra gördüm, yox, əsl dəri topdur. Soruşdum ki, bəs bu, nədir? Cavab verdi ki, xəbərin yoxdur, cavanlarla yığışıb voleybol oynayırıq, sən də gəl! Dedim ki, xəbərim var, amma topu niyə Siz daşıyırsınız, cavanlara nə olub ki?! Yusif müəllim gülə-gülə dedi ki,*

*birdən cavanların yadından çıxar, ya da utanıb götürməzlər, işimiz pozular.*

Bu dəri top bir idman hadisəsi idi. Amma Yusif müəllimin həyatda və elmi yaradıcılıqda yüksək toparlamaq keyfiyyətinə malik olması onu tanıyanlara yaxşı bəllidir. Bax, yönlük hallı feili birləşmələrin təsirlik hallı feili birləşmələrdən sonraya saxlanılmasının cövhərində məhz həmin məsələ dayanır. Görkəmli alim yönlük, yerlik və çıxışlıq hallı feili birləşmələri bir yerə yığmaqla onların məkani xüsusiyyətinə istinad edir və təhlilin daha obyektiv nəticələrinə inanırdı.

Yaşadığımız dövrdə yeni metodlar və nəzəriyyələr yaranır, dilçilik elmimiz yeni nailiyyətlər əldə edir, yeni yaradıcı qüvvələr formalaşır. Belə bir vaxtda günümüzün aktual sualı da meydana çıxır: görəsən, bu prosesdə – yaşadığımız XXI əsrdə Yusif müəllimin çoxsaylı tədqiqatları müasir dilçiliyimizin inkişafında nə kimi rol oynaya bilər? Bu sualın konkret cavabı da var: semiotik düşüncənin inkişafinda, mətn nəzəriyyəsinin daha da təkmilləşməsində, fəlsəfi baxımdan müxtəlifliklə eyniliyin vəhdətinin dərkində professor Yusif Seyidovun tədqiqatları həmişə əvəzedilməz bir mənbə olacaqdır.

## "YAZIÇI VƏ DİL"

Ədəbi əsər və bədii dil məsələləri elmin müasir səciyyəsində öz ənənəvi tədqiqolunma xarakterini saxlayır və bu baxımdan yazıçının dilə, dilçilik problemlərinə münasibəti geniş təhlil olunmaqdadır. Filologiya elmləri doktoru, professor Yusif Seyidovun çapdan çıxmış "Yazıçı və dil" kitabı (Bakı, "Yazıçı", 1979) bu elmi həqiqəti bir daha təsdiq etməkdədir.

XIX və XX əsr Azərbaycan yazıçılarının ədəbi baxışlar sistemində dil haqqında olan mülahizələri öz davamlı və elmi obyektivliyi ilə ciddi məzmun daşımışdır. Sözdən, dil vahidlərindən ayrıca təsəvvür edilməyən bədii irsin yaradıcıları dinin rolundan, mahiyyətindən danışmağı özlərinin borcu saymışlar. Daha əhəmiyyətlisi isə budur ki, yazıçılar yeri gəldikcə dili, yaxşı mənada elmi dilçiliklə bağlı tərəflərindən ayıraraq dövrün ictimai-siyasi məsələlərinə baxış səviyyəsinə yönəltmiş, mülahizələrini bir növ özlərinin həyat ideallarına uyğun, əqidə və məsləklərinə münasib istiqamətdə davam etdirmişlər.

İstər XIX əsr yazıçıları (A.Bakıxanov, M.F.Axundov, S.Ə.Şirvani və b.), istərsə də XX əsrin əvvəllərində fəaliyyət göstərən ədiblər (C.Məmmədquluzadə, N.Nərimanov, M.Ə.Sabir, Ə.Qəmküsar, Ə.Nəzmi, M.Hadi. A.Səhhət, A.Şaiq və b.) nəzəri mülahizələrində ana dili, bu dilin qorunub saxlanması məsələlərindən xüsusilə bəhs etmişlər. M.F.Axundovun sadə dil uğrundakı mübarizəsindən C.Məmmədquluzadənin "Açıq ana dili" çağrışına qədər və bu intervalın əhatəsində olan bütün sənətkarlar doğma dilin keşiyində dayanmışlar.

Ana dilinin gözəlliyini, zənginliyini mühafizə etmək, saxlamaq, bu dilin lüğət tərkibini yad sözlərdən, yad təsirlərdən gözləmək və müxtəlif vasitələrlə onun işlək funksiyasını artırmaq – bütün yazıçıların ümdə vəzifəsi olmuşdur. Bu da, hər şeydən əvvəl, dilin milli müəyyənliklə sıx bağlı olmasından irəli

gəlmişdir. Y.Seyidov da kitabda yazıçıların bu istiqamətdə olan baxışlarına daha çox məna vermiş, həmin baxışları sistemləşdirərək oxucuya aydınlığı ilə təqdim etmişdir.

Müəllif haqlı olaraq yazır ki C.Məmmədquluzadə "Ümumxalq danışıq dilini az qala ədəbi dil səviyyəsinə yüksəltmişdir". "A.Səhhət ana dilinə xalqın milli varlıq forması kimi baxırdı". Əslində, həmin sənətkarların dilə münasibətlərindəki bu aydınlıq dilə "Ünsiyyət vasitəsi" kimi qiymət vermək istədiyindən irəli gəlmişdir. Belə təhlillər isə kitabın xəlqilik istiqamətini yüksəltmiş, alimin isə xarakterindəki vətəndaşlığı bir daha təsdiq edir.

Azərbaycan yazıçılarının dil tədrisi ilə əlaqədar mülahizələri də diqqətdən yayınmamış və kitabın əsas xətlərindən birinə çevrilmişdir. C.Məmmədquluzadə, N.Nərimanov, Ü.Hacıbəyov, M.Hadi, A.Şaiq və başqaları əsrin əvvələrində yeni tədris üsulundan geniş bəhs etmiş, bu işdə yaxından fəaliyyət göstərmişlər. Hətta onların bəziləri zərurət müqabilində dərsliklər yazmış və ya bir çox dərsliklər təbliğatçıları olmuşlar.

Dilin tədrisi haqqında olan fikirlər isə istər-istəməz əlifbaya münasibətin şərh edilməsi istiqamətini almışdır. Tədqiqatçı M.F.Axundovun əlifba təliminə geniş yer vermiş və bütün sonrakı yazıçılardan bəhs edərək onların məhz Axundovla əlaqəliliyini göstərmişdir. Ə.Haqverdiyevin əlifba haqında fikirlərini məhz Axundov barəsində yazdığı məqalələrdə irəli sürməsi də bu əlaqəliliyin müəyyən tərəfi kimi təqdim edilmişdir.

Şübhəsiz, dilə, dilçilik məsələlərinə münasibətdə bütün yazıçılar eyni miqyasda çıxış edə bilməzlər. Xüsusi çəki etibari ilə bunlar yazıçıların yaradıcılığında az və ya çox dərəcədə özlərinə yer tutmuşlar. M.F.Axundovun bu sahədəki yaradıcı fəaliyyəti başqalarına nisbətən xeyli geniş olmuşdur. O, üslub, nitq mədəniyyəti, o cümlədən səhnə əsərlərinin dili, səhnə dili barədə, lüğət tərkibi, imla, orfoqrafiya, tərcümə, əlifba, yazı problemləri

haqqında ətraflı danışmışdır. Başqa sözlə, Y.Seyidov kitabda hər bir yazıçının dilə baxışındakı spesifik və qabarıq, fərdi və ümumiləşmiş cəhətləri xüsusilə tədqiqata cəlb etmişdir. Onun "A.Bakıxanov XIX əsrin görkəmli dilçi alimi olmuşdur", A.Şaiq "dil məsələlərinə... dilçi alim kimi yanaşır, fonetika və qrammatika məsələlərini sırf dilçilik baxımından izah edir" hökmləri də məhz buradan irəli gəlmişdir.

Müəllif C.Məmmədquluzadənin dilə siyasi cəhətdən yanaşmasını, N.Nərimanovun həyat və fəaliyyətində olduğu kimi, dil məsələlərinə baxışında da maarifçidən proletar inqilabçısı səviyyəsinə qalxmasını, A.Bakıxanovun "dil faktlarından istifadə ilə tarixi faktları əsaslandırmağa çalışdığı kimi, dil məsələlərini də tarixi faktlarla təsdiq etməyə çalışması"nı, Ə.Nəzminin imla və tələffüzdən, M.Hadinin yeni tədris üslubunun tətbiqində müəllimlərin rolundan, Y.V.Çəmənzəminlinin ədəbi dili saflaşdırmaq uğrunda mübarizəsindən. S.M.Qənizadənin morfologiyadakı nitq hissələrindən, F.B.Köçərlinin bədii dil və xalq kimi məsələlərdən ciddi danışmalarını elmi şəkildə səciyyələndirir və şərh edir. Bizcə, romantik sənətkarların dilə münasibətlərindəki spesifiklik də bu kitabda meydana çıxarılsaydı, oxucu üçün maraqlı olan bəzi məsələlər dəqiqləşər, aydınlaşardı.

Y.Seyidovun "Yazıçı və dil" kitabı Azərbaycan yazıçılarının dilə münasibətini və müasir Azərbaycan dilçiliyinin formalaşma köklərini göstərmək, orta ümumtəhsil məktəblərinin dil və ədəbiyyat müəllimlərinə kömək etmək baxımından çox qiymətli və təqdirəlayiqdir.

# ADLIQ CÜMLƏDƏN ADLARA DOĞRU

Professor Qara Məşədiyevin adı elm aləminə çoxdan və yaxşı tanışdır. Bu tanışlıq bir tərəfdən onun dilçilik üzrə illər boyu apardığı çoxsaylı və müxtəlif yönlü faydalı tədqiqatlarla bağlıdırsa, digər tərəfdən də bir şəxsiyyət kimi ağır, təmkinli davranışı ilə əlaqədardır. Bizim tanıdığımız Qara müəllim hər ikisində nümunədir.

Professor Qara Məşədiyev sistemli elmi yaradıcılığa adlıq cümlələr haqqında namizədlik dissertasiyası yazmaqla başlamışdı: "Müasir Azərbaycan ədəbi dilində adlıq cümlə" (1974). Bu, adlıq cümlələrlə bağlı mübahisələrin hələ də davam etdiyi bir zaman idi. Alim həmin dissertasiyası ilə Azərbaycan dilinin sintaksisi çərçivəsində adlıq cümlələrə vətəndaşlıq hüququ qazandırdı. Tədqiq etdiyi sahəyə tam və hərtərəfli bələd olan görkəmli dilçi son dərəcə sadə görünən adlıq cümlənin hərəkətdə olan daxili gücünü, tükənməyən potensial imkanlarını bir cümlə ilə belə ifadə etmişdi: "Danışan şəxs adlıq cümlə ilə dinləyəni bir növ ekskursiyaya aparır". Bu, əsl dilçilik mühakiməsi idi.

Adlıq cümlənin qrammatik xüsusiyyətlərinin nədən ibarət olmasının Qara müəllim tərəfindən necə və hansı səviyyədə təhlilini dəyərləndirmək, sözsüz, dilçi alimlərin işidir. Amma mənim diqqətimi cəlb edən tədqiqatdakı nümunələrin xəlqi və milli mahiyyətidir. Görkəmli dilçi alim fakt kimi bir çox hallarda elə nümunələr seçməyə üstünlük vermişdir ki, həmin nümunələr birbaşa bizim düşüncəmizin həssas nöqtələrinə sirayət edir.

Adlıq cümlələrdə sıralanmanın böyükdən kiçiyə doğru getməsinə nümunə kimi o, yazıçı Ənvər Məmmədxanlının əsərindən nümunə gətirir: "*Təbriz, Nəzmiyyə meydanı. Bir-birinin arxasınca düzülmüş dar ağaclarının qara kölgələri*. Səhərə yaxındır. Ehtişami gəlir". Bu nümunədə fikir iki istiqamətə

yönəlir: birincisi, adlıq cümlə nümunəsi; ikincisi, bundan heç də az dəyərli olmayan Təbriz. Adlıq cümlə dilimizin qrammatik məzmununun genişliyi və zənginliyi faktıdır, Təbriz isə mənəvi dünyamızın paytaxtı olmaq həqiqətidir. İndi deyin, hansı daha əhəmiyyətlidir? Məncə, hər ikisi.

Başqa bir fakt: "*Qobustan. Ulu babalarımızın bizə ən əziz, ən qiymətli tayı-bərabəri olmayan yadigarı! Qədim dövr mədəniyyətimizin incisi*". Bu adlıq cümlədə sintaktik funksiyaya uyğun olaraq müəyyən bir yerin əhəmiyyətini qabartmaqla yanaşı, milli-mənəvi dəyərlərimizi qiymətləndirmək məqsədi də açıq-aşkar görünür. İndi deyin, hansı daha əhəmiyyətlidir? Məncə, hər ikisi.

Qara müəllim vasitəli və vasitəsiz nitqdən danışanda da nümunələri diqqətlə seçirdi, onların qrammatik funksiya ilə bərabər, insanların zehninə və qəlbinə təsir etmək imkanlarını da nəzərə alırdı. Bu, o deməkdir ki, dilçi alim hər hansı bir yazısında elmi mövqeyi ilə yanaşı, vətəndaşlıq mövqeyini də qoruyub saxlayırdı. Novruz bayramına yönəlmiş nümunə: "*bu bayram əzəmətlidir, çünki o hələ eradan əvvəlki dövrlərlə bağlıdır* ("Azərbaycan gəncləri" qəzeti). Vətənpərvərliyə yönəlmiş nümunə: "İgid və qəhrəman Tofiqi ordu sıralarına göndərəndə ona ata nəvazişi ilə demişdi: – "*Oğul, səndən bircə xahişim var, xalqa, Vətənə namusla xidmət et!* ("Azərbaycan gəncləri" qəzeti). Xalqa dərin məhəbbəti ifadə edən nümunə:" *Sabir deyirdi ki, mən vücudumda olan ətimi xalqın yolunda çürütdüm. Əgər ömür vəfa etsəydi, sümüklərimi də xalqımın yolunda qoyardım…*("Azərbaycan gəncləri" qəzeti). Dolayısı ilə özünəqayıdış duyğularını oyatmaq nümunəsi: "Teleqramda deyilir ki, *azadlıq və istiqlaliyyət uğrunda öz ədalətli mübarizəsində qələbə qazanmaq əzmini ifadə edən Vyetnam vətənpərvərlərinin rəmzi olan bu şanlı günü sovet ictimaiyyəti geniş qeyd edir"* ("Kommunist" qəzeti).

Professor Qara Məşədiyevin elmə olan marağı adlıq cümlədən sonra bilavasitə adlar kompleksini əhatə edən onomastikaya doğru istiqamətləndi və daha çox toponomika üzərində cəmləşdi. “Zaqafqaziyanın Azərbaycan toponimləri” monoqrafiyası (1990), “Qafqazın ərazi və tayfalarının təsviri materialları məcmuəsində (SMOMPK) qeydə alınmış onomastik vahidlərin tarixi-etimoloji təhlili” adlı doktorluq dissertasiyası (1991) və SMOMPK əsasında yazılmış “Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili” monoqrafiyası (2010) bir-birini davam etdirən və tamamlayan tədqiqatlar kimi meydana çıxdı. Bunları bir ad altında – “SMOMPK toponomikası” adı ilə də təqdim etmək olar və “SMOMPK toponomikası” elmdə bir şans kimi Qara müəllimin qisməti oldu. Dilçi alim araşdırmalarında toponomik vahidləri sadəcə olaraq sadalamaqla öz işini bitmiş hesab etmədi. Eyni zamanda tayfa adlarının yer adları ilə əlaqəsini, toponimlərin tarixlə bağlılığını, toponimik vahidlərin etimologiyasını vəhdətdə öyrəndi. Azərbaycanda onomastikanın bütün istiqamətlərdə öyrənildiyi bir vaxtda toponomikanın tayfa adları və tarixlə bağlılığını etimoloji təhlillə birləşdirərək yeni bir məktəb yaratdı. İndi bu dilçilik məktəbinin onlarla davamçısı vardır.

Professor Qara Məşədiyevin “Bakı küçələri: adlar və talelər” monoqrafiyası (2013) alimin öz tədqiqat istiqamətinə sədaqətinin davamı kimi meydana çıxmışdır. Əslində bu, tarixi toponimlərin araşdırılmasından müasir dövr toponomikasının öyrənilməsinə doğru yeni bir addım idi. Görkəmli alimin yaradıcılıq kredosu isə dəyişməz qalmışdı: adlıq cümlədən tarixi ərazilərin adlarının linqvistik çözülməsinə keçid, oradan da müasir dövr şəhər həyatının “adlar göstəricisinə” elmi baxış. Tədqiqatçı əsas diqqəti Bakı şəhərindəki Nərimanov, Nəsimi, Səbail rayonlarının coğrafiyasına daxil olan küçə adlarına yönəltmişdir. Qara müəllim küçə adlarına yalnız bələdçi kimi yox,

ümumi insani dəyərlərin nişanəsi kimi baxmış, onlara bir növ canlılıq vermişdir.

Dialekt materialları əsasında yazılmış "Azərbaycan dilində ayamaların izahlı lüğəti" (2018) kitabı da Qara müəllimin tədqiqatçılıq ənənəsinə sədaqətinin yeni bir nümunəsidir. "Ayama" sözünün özü də əslində elə ad deməkdir. Fərq burasındadır ki, bu ad ata-ana tərəfindən yox, el-oba tərəfindən insanlara verilir. Başqa sözlə, bu, verilən ad deyil, qazanılan addır.

Professor Qara Məşədiyevin on illər boyu davam edib gələn tədqiqatlarının məzmun və mahiyyətini adlıq cümlədən adlara doğru inkişaf kimi dəyərləndirmək olar. Bu tədqiqatlar, eyni zamanda Qara müəllimin böyüklük mənasında öz adı deməkdir – həm ata-anasının ona verdiyi, həm də özünün qazandığı ad!

# NƏSİMİ YARADICILIĞINDA FOLKLORİZMLƏR

İmadəddin Nəsimi yaradıcılığında işlənən folklorizmlər yalnız onun ədəbi irsinin müəyyən bir göstəricisi kimi deyil, eyni zamanda XIV-XV əsrlər klassik Azərbaycan poeziyasının ortaq xüsusiyyəti və keyfiyyəti kimi də dəyərləndirilə bilər. Bu məsələdə dil və üslub yaxınlığı, obrazlılığın əsası olan müştərək əlamətlər, fikrin bədii ifadəsi üçün müəyyən edilən yolların və üsulların eyniliyi mühüm amillərdir.

Nəsimi yaradıcılığındakı folklorizmlərin şəbəkəsi genişdir. Buraya əfsanəvi obrazlar və süjetlər, xalq mərasimləri və oyunları, falabaxma kimi adətlər, atalar sözləri, alqış və qarğışlar kimi folklor nümunələri daxildir.

İmadəddin Nəsimi yaradıcılığında əfsanə və dastan anlayışlarına maraq bir-birinə aşiq olan sevgililərin əhvali-ruhiyyəsinə, daha çox həsrətlə bağlı təbiətlərinə uyğun bir məzmun daşıyır və klassik poeziya ənənələri ilə daha çox səsləşir. Biz bunu xatırlayarkən Nəsimini yüzlərin sırasında təsəvvür etmirik, əksinə onun poeziyasının xalq təfəkkürü ilə cilalanmasının fərqindəyik. Lirik şair hər hansı bir əfsanənin və dastanın Aşiqin arzu və istəklərindən doğduğunu heç vaxt unutmur və onların aşiqlik aləmindəki məna və əhəmiyyətini çox gözəl bilir. Ona görə də Nəsimi sevgi və məhəbbət yolunda əfsanə və dastan olmağın xəcalətini deyil, ləzzətini yaşayır.

*Eşqə düşənlər bilir həm yenə eşqin qədrini,*
*Ol aşiq aşiqmidir kim, olmadı rüsvayi-eşq.*

Yaxud:

*Üzündür ol cənnət gülü, boyun həqiqət sərvidir,*
*Eşqində mən bülbül kimi aləmdə dəstan olmuşam.*

Nəsimi rüsvayi-eşq olmayan bir kimsəni aşiq adlandırmır. Çünki rüsvayi-eşq məfhumunda canını fəda etmək, getdiyi doğru yoldan geri dönməmək, özünü dünyanın ən xoşbəxti hiss

etmək məzmunu yaşayır. Bülbülün gülə həsrət çəkməsindən yaranan dastan elə Aşiqin sevgilisi üçün intizarda qovrulmasının hekayəsindən başqa bir şey deyil. Bunlar Nəsiminin əfsanə və dastanlar içində boy atan lirik qəhrəmanının məşhurluq nişanələridir. Amma Nəsimidə başqa bir hikmət də var:

*Kim ki, camalın sifətin söyləməz,*
*Söylədiyi qissəvü əfsanədir.*

Nəsimi həm də lirik qəhrəmanının əfsanə olmasına etiraz edir, qəhrəmanını həqiqət kimi görmək istəyir. Başqa sözlə, Nəsiminin lirik qəhrəmanı həm sevgilisi yolunda bir əfsanə qəhrəmanına çevrilir, həm də şair tərəfindən real həyatın mübariz insanı kimi təqdim olunur. Burada ziddiyyət axtarmağa dəyməz. Nəsiminin Aşiq qəhrəmanının təbiətində əfsanəyə dönüb dillərə düşmək istəyi ilə həyatdan güc alıb fədakarlıq göstərmək inadı vəhdətdə yaşayır.

Leyli, Məcnun, Fərhad, Şirin, Şeyx Sənan kimi əfsanəvi obrazların Nəsimi qəzəllərinə gəlişi misra-misra, beyt-beyt böyüyür:

*Sənin eşqində, ey Leylisifətli*
*Ki, Məcnun olmuşam aləmdə məşhur.*

Yaxud:

*Gəlmişəm didarına ta canımı qurban edəm,*
*Ey dodağı, cani-Şirin, gör nə Fərhad olmuşam.*

Bu əfsanəvi obrazların Nəsimi qəzəllərində iştirakı xüsusi əhəmiyyətə malikdir.

Birincisi, şairin həmin əfsanəvi obrazlarla yaratdığı müqayisə məqamı öz lirik qəhrəmanını onların səviyyəsinə qaldırmaq məqsədi daşıyır. Başqa sözlə, lirik-poetik məzmunla (qəzəllə!) doğulan qəhrəman təhkiyənin (poemanın!) yaratdığı epik qəhrəmanla bir mövqeyə yaraşdırılır.

İkincisi, başqa klassiklərdə olduğu kimi, Nəsimi şeirində də lirik qəhrəmanın adı yoxdur. Nəsimi Leyli, Məcnun, Fərhad,

Şirin, Şeyx Sənan adları vasitəsilə öz lirik qəhrəmanını daha da konkretləşdirir və oxucu üçün son dərəcə doğmalaşdırır.

Nəsimi yaradıcılığında hər hansı bir folklorizm elementindən istifadə təsadüfi səciyyə daşımır. Onlar bədii mətnin içərisində gözlənilməz fakt kimi yox, zərurət kimi meydana çıxır. Elə vaxt olur ki, irəli sürülən fikri qüvvətləndirir, bəzən bədii düşüncənin məntiqi kimi özünü göstərir, yaxud da şeirin ideyasını tamamlayan mühüm təyinedici vasitəyə çevrilir. Bunun parlaq nümunələrindən birini "Gərək" rədifli qəzəldə görmək çətin deyil.

"Gərək" rədifli qəzəldə lirik qəhrəmanın öz sevgilisinə münasibəti əks olunmuşdur və beytlərdəki zəncirvarı fikirlər bir-birini tamamlaya-tamamlaya sona doğru hərəkət edir. Aşiq sevgilisinə söyləyir ki, sənin eşqin bağrımı yandırır və təbii ki, sevgili yolunda yanmaq adi bir haldır; eşq oduna düşüb göz yaşı axıdıram və tutduğun yolda lazımdır ki, yanaraq göz yaşı axıdasan; mən öz məqsədimi sənə çoxdan söyləmişdim, indi vaxtdır ki, əhd-peyman bağlayaq. Hətta Musa peyğəmbərin də adını çəkəndən sonra şair Simurğ quşunu xatırlayır:

*Könlüm quşu əsfəldədir, vəqt oldu pərvaz eyləyə,*
*Simurği-qafə qürb olan ərş üstünə cövlan gərək* (s. 114.)

Simurğ quşu əfsanəvi obraz kimi Aşiqin sevgi yolunda daha yüksək ruha malik olmasının göstəricisidir. Şeirdə yanmaq da, göz yaşı axıtmaq da, ürəyin sirrini açmaq da, hətta Musa peyğəmbərin adına sığınmaq da əfsanəvi obrazın gücü qarşısında ikinci plana keçir. Qəzəldə könül quşu ilə Simurğ quşunun birliyi var. Həmçinin Simurğ quşu bir obraz kimi daha ülvi duyğuların və bu duyğuların həqiqət olmasının təsdiqidir. Əfsanəvi obrazla həqiqəti anlatmaq Nəsimi poeziyasının qeyri-adi gücüdür.

İ.Nəsimi yaradıcılığının folklorla əlaqələri bir sözdə, bir misrada, bir beytdə, bəzən də bütöv bir şeirdə aydın şəkildə özü-

nü büruzə verir. Bu mənada şairin “Oldu yenə” rədifli qəzəli bütünlüklə Novruz bayramına həsr edilmişdir. Yeri gəlmişkən qeyd edək ki, klassik poeziya nümunələrində belə bir fakta çox az-az rast gəlmək mümkündür. Nümunə üçün XVIII əsrdə M.P.Vaqifin və XX əsrdə H.Cavidin əvvəldən axıradək Novruz bayramına həsr edilmiş şeirlərini xatırlamaq olar.

Qəzəl janrının gözəllər üçün yazılması ənənəsini yada salsaq, Nəsiminin həmin şeirdə ənənədən kənara çıxmadığı fikrini söyləyə bilərik. Sadəcə olaraq, əsas fərq ondadır ki, Nəsiminin bu qəzəlində digər qəzəllərindən fərqli olaraq, obyekt gözəl qız deyil, gözəl təbiətdir. Qəzəlin bütün misralarını ayrı-ayrılıqda təhlil edib təbiətin gözəlliyi barədə bədii düşüncənin sənətkarlıqla necə qovuşmasının şahidi ola bilərik. Nəsiminin bu qəzəli yüksək poetikliklə fikir, ideya vəhdətinin parlaq nümunəsidir. Burada ikinci beyti xatırlamaq yerinə düşər:

*Qönçədən gül baş çıxardı, saldı üzündən niqab,*
*Bülbüli-şeyda xətibi-laləzar oldu yenə.*

Qönçənin açılması və bu əsasda gülün bu dünya ilə təması üzdən niqabın atılmasına bənzədilir. Bu təşbehdə təbiətin füsunkarlığı və canlı həyatın özü simvollaşdırılmışdır. Həmçinin baharın gəlişinin müjdəçisinə çevrilən bülbülün avazı yeni və xoş bir əhvali-ruhiyyənin səbəbi olur. Qəzəldə təbiətin özü ilə təbiəti təmsil edən obraz və əlamətlərin vəhdəti açıq-aydın şəkildə hiss edilməkdədir. “Köhnə dünyanın yeni xələt geyməsi” Novruz bayramı günlərində təbiətin taxta çıxması – hakimiyyətə gəlməsi kimi başa düşülür, çünki xələt yeni hakimiyyətin nişanəsidir. Hətta maraqlıdır ki, yel Novruz bayramının atributu kimi Nəsimi şeirində müəyyən vasitəyə çevrilmişdir:

*Sən Nəsimi razını, ey dan yeli, yarə yetir:*
*Sənsizin halım pərişan, biqərar oldu yenə.*

Qəzəldə Novruz bayramı yalnız təbiət hadisəsi kimi deyil, eyni zamanda insanların arzu və istəkləri ilə bağlı bir məra-

simdir. Əhəmiyyətli cəhət odur ki, Nəsimi insanı təbiətdən ayırmır, təbiətlə insanın varlığındakı qırılmaz əlaqələri görür və göstərir.

Nəsimi yaradıcılığında xalq düşüncəsi ilə bağlı cəhətlərdən biri də onun şeirlərində xalq oyunları ilə bağlı xüsusiyyətlərin olmasıdır. Birinci əlamət ondan ibarətdir ki, şairin qəzəllərində Oyunçu obrazı var. Bu obraz lazım olan məqamlarda poetik əhvali-ruhiyyəni gücləndirir, şeirdə qarşıya qoyulan ideyanı daha da möhkəmləndirir. Nəsimi bir qəzəlində qəməri – ayı, başqa bir qəzəlində isə rüzgarı – küləyi oyunçu hesab eləyir. Gözəlin üzünün cazibədarlığı önündə günəşin səcdə eləməsi, ayın geri çəkilməsi poetik bir canlanma yaradır. Eyni zamanda sevgidə, mərifət kəsb etməkdə həmişə meydan sulayan rüzgardan ehtiyatlı olmaq məsləhət görülür.

Konkret xalq oyunu məsələsinə gəldikdə isə Nəsiminin qəzəllərində çövkan oyunu tez-tez xatırlanır. Bu fakt həmin oyunun Nəsimi zamanından əvvəl olduğu kimi Nəsimi dövründə də yaşadıldığını təsdiq edir. Şair qəzəllərinin birində Aşiqin öz sevgilisi qarşısında necə mövqe tutmasının sirlərini açır. Bildirir ki, pəridən vəsl umsan divanəsən; o, bir oddur, ona yaxın olmaq istəsən pərvanəsən; dost olmaq diləsən, gərək yanasan. Bu cür qarşılaşma məqamlarında Aşiqə məsləhət görür ki, əgər yar ilə çövkan oynamaq istəsən, başını top eyləyib meydana girməlisən.

Nəsiminin müxtəlif qəzəllərində çövkan oyununda başın top edilməsi variantı sistem halını almışdır və hər qəzəldə müəyyən poetik funksiya daşıyır. Bir qəzəldə "Dərdə müştaq olmayan dərman istəyə bilməz" motivi aparıcı xətt kimi çıxış edir. Burada mahiyyəti bilənin onun mənbəyini istəməsi, Xızırı anlayanın dirilik suyu arzulaması əsas arqument kimi seçilir və bunlar çövkan oyunu ilə möhkəmləndirilir:

*Ənbərin zülfü anın, kim ki, dolaşdı boynuna,*
*Başı top olsun anın, gər özgə çövkan istəyə.*

Nəsiminin "Axıdar" rədifli başqa bir qəzəlində Aşiqlə sevgilisi arasındakı münasibətlərin təqdimi eşqin bəlası fikrinə dayanır və bu çərçivədə şair müxtəlif poetik fiqurlardan istifadə edir. Fikrin daha canlı ifadəsi üçün hətta İsa peyğəmbər, Nuh peyğəmbər və Xızır da poetik mətnə gətirilir. Əhəmiyyətli cəhət odur ki, Nəsimi qəzəldə həmin müqəddəs obrazlarla yanaşı, xalq düşüncəsinin məhsulu olan çövkan oyunundan da istifadə etmişdir:

*Mişkin saçın çövkanına çün başımı top etmişəm,*
*Eşqin bəlasından yenə ol topu çövkan axıdar.*

Bu cür nümunələrin sayını artırmadan da belə bir qənaətə gəlmək olar ki, Nəsimi klassik poetik və ənənəvi qarşıdurmalar sırasına çövkan oyununu da çox böyük ustalıqla daxil edə bilmiş, bu oyunu bədii mətndə bədii fiqur səviyyəsinə qaldırmışdır.

Nəsimidə bu gün işlətdiyimiz atalar sözlərinin ekvivalentləri işlənir. Məsələn: *"Şəkərin dadını, faydasını qarğa deyil, tuti bilər"; "Gövhərin qiymətini sərraf olan (başa düşən) arif bilir"; "Ey Nəsimi, sən cahilə inci satma; cahil, nadan incinin qiymətini nə bilir?"*

Bunlar indi işlətdiyimiz "Zər qədrini zərgər bilər", "Çörəyi ver çörəkçiyə, birini də üstəlik" atalar sözlərinə bərabərdir.

Nəsimidə elə atalar sözləri də vardır ki, bu gün işlətdiyimiz kimi işlənir: *"Doğruya zaval yoxdur*".

Əsl mahiyyət isə atalar sözlərinin xatırlanmasında yox, atalar sözlərinin seçimindədir. Bəs onda Nəsiminin məhz bu cür atalar sözləri işlətməsinin səbəbi nədir? Şübhəsiz, bunlar umu-küsü söhbəti deyil, daha çox fədakar şairin qarşıya qoyduğu məqsədə, irəli sürdüyü ideyalara uyğundur.

Nəsimi şeirlərində qarğışlara da rast gəlmək olur: *"Bəbəksiz qalsın o göz ki, bu xalqın qədrini bilməz",* yaxud: *"Kim ki, bidar olmadı eşqində hər şəb ta səhər, Ol yalançı müddəinin*

*bəxti bidar olmasın,* yaxud da: *"Qənim olsun mana Fürqanü İncil, Əgər könlümdə səndən özgə kəs var".*

Amma insanlıq üçün ən əsası alqışdır. Bu gün Nəsiminin alqışına qoşulmağa dəyər:

*Şəha, könlün həmişə biqəm olsun,*
*Əlində daima cami-Cəm olsun.*

# NƏSİMİ VƏ MİF

İmadəddin Nəsimi haqqında düşünmək və yazmaq nəinki orta əsr klassik Azərbaycan ədəbiyyatı haqqında, eyni zamanda bütövlükdə həmin dövr şərq poeziyası barədə düşünmək və yazmaq deməkdir. XIV-XV yüzilliklərdə yaşayıb-yaradan hər hansı bir şair barəsində demək çox çətindir. Çünki Nəsimi nadir sənətkarlardandır ki, onun əzablarla dolu tərcümeyi-halından və qürur hissi ilə birgə formalaşan bədii yaradıcılığında həmin əsrlərin fəlsəfi dünya görüşü, mübarizə meyilləri, şərq poetikasının ən ümdə xüsusiyyətləri cəmləşmişdi. Biz çox vaxt Şah İsmayıl Xətayinin "Dəhnaməsini" ədəbiyyatımızda aşiq fədakarlığının bütün əlamətlərini özündə ehtiva edən ilk əsər adlandırırıq. Amma düşünürəm ki, Azərbaycan poeziyasından inanılmaz dərəcədə fədakarlıq göstərən ilk aşiq məhz Nəsiminin lirik qəhrəmanıdır.

Nəsiminin epik əsəri yoxdur. Amma onun yalnız qəzəllərdən ibarət poetik nümunələrini bir əsər hesab etmək olar. Bunu söyləyərkən qəzəllərdən tərtib olunan "Divanı" nəzərdə tuturam. Nəsiminin qəzəlləri bir-birini tamamlayan, birindən o birinə yol olan, aşiq qəhrəmanı heç vaxt dəyişməyən bütöv bir mükəmməl əsərdir. İmadəddinin bir qəzəlindən onun bütün yaradıcılığı görünür.

Mənsub olduğu bədii metodundan asılı olmayaraq, hər hansı bir sənətkarın yaradıcılıq sirlərinin açarı onun əsərlərinin janrında, vəznində, qafiyəsində deyil, folklor layındadır. Folklor elementləri şair və yazıçıların ədəbi irsinə təhtəlşüur olaraq daxil olur. Folklordan istifadə etmək məqsəd və vəzifəyə çevriləndə, folklor naminə olanda yaradıcılığın süni və saxta məqamları yaranır. Nəsimidə folklorizm və mifologizmlərin romantik bədii düşüncə ilə qaynayıb-qarışması öz bədii formasını almışdır. Bu

təbiilik o qədər güclüdür ki, bəzən folklor elementinin özünü belə görmək mümkün olmur.

Nəsimi inandığı məsələdən yazır. Nəsiminin inandığı doğru olandı. Yəni özü dediyi kimi doğruya zaval yoxdur. Nəsimi 6 əsr bundan qabaq necə deyibsə biz də.... eləcə deyərik “Doğruya zaval yoxdur”, deməli, Nəsimi bizim müasirimizdir.

Nəsimi yaradıcılığının folklor mənzərəsi necədir. Burada mifoloji obrazlar olan Xızır, Pəri, Dərviş, Şeytan, Div var. Əfsanəvi obrazlar olan Leyli, Məcnun, Fərhad və Şirin, Yusif, Nəmrud, Şəddad, Simurq quşu var. Mərasimlər, Novruz bayramı, fala baxma, xalq oyunları var; bunlardan da başqa atalar sözləri, alqış və qarğışlar var.

Aşiqin sevgisinin dillərə düşər dastan olması da var, hətta açıqca belə də deyilir.

Eşqə düşənlər bilir, həm yenə eşqin qədrini,
Ol aşiq aşiqmidir kim, olma rüsvayi-eşq.

Nəsimi yaradıcılığı bütövlükdə bir folklordur. Amma unutmaq olmaz ki, Nəsiminin folklorla əlaqəsi yalnız mifoloji və əfsanəvi adların, isimlərin poetik nümunələrdə xatırlanması demək deyildir. Əgər belə olsaydı Nəsimi və folklor müstəvisi formalizmin içərisində qalıb əhəmiyyətsiz bir ünsürə çevrilərdi.

Məsələ burasındadır ki, sənətkarın yaradıcılığında folklor obrazının, folklor nümunələrinin müəyyən lazımi funksiyası var və bu funksiya şairin qəzəlindəki ideya ilə, poetik fiqurlarla sıx bağlıdır. İkincisi bu bağlılıqdan əlavə olaraq folklorizm və mifologizm elementləri bədii mətnin alt qatında olanlarla böyük əhəmiyyət daşıması ilə fərqlənir. Həmin alt qat şeir nümunəsinin özündəki məcazlar sistemindən daha möcüzəli və daha çox qeyri-adidir.

Nəsimidə bu gün işlətdiyimiz atalar sözlərinin ekvivalentləri işlənir. Məsələn: şəkərin dadının faydasını qarğa deyil, tuti bilər. Gövhərin .... qiymətini sərraf olan (başa düşən) arif

bilir; Ey Nəsimi sən cahilə inci satma cahil, nadan incinin qiymətini nə bilir;

Bunlar indi işlətdiyimiz “zər qədrini zərgər bilər”, “çörəyi ver çörəkçiyə birini də üstəlik” atalar sözlərinə bərabərdir. Əsl mahiyyət isə atalar sözlərinin xatırlanmasında yox, atalar sözlərinin seçimindədir. Bəs onda Nəsiminin məhz bu Nəsimi lirikasında mifoloji Xızıra müraciətin alt qatı da məhz burada meydana çıxır. Bəs elə isə buradakı məna, sirr nədən ibarətdir? Alt qat Nəsimi ilə İsgəndərin davasının görünməyən mərtəbəsidir. Yəni Nəsimi bütün yaradıcılığı boyu Xızırın simasında İsgəndərlə barışmaz mövqeyini əks etdirmişdir. Nəsimi sanki İsgəndərə gülür, onun getdiyi yolun düz olmadığına rişxənd eləyir. İsgəndərə demək istəyir ki, dirilik suyu qaranlıq mağaralarda, zülmətlər içərisində deyil, gözəlin duruşunda, baxışında, danışığındadır. Hətta Nəsimi İsgəndərin hərəkətindən o qədər qəzəblənir ki, İsgəndərin məmləkətini divlərə təslim eləyir:

*Can ilə kim ki, könlünü eşqinə qılmadı vətən,*
*Divə müsəlləm eylədi məmləkəti-Skəndəri.*

Xızır obrazı bir mifoloji obrazdır. Övliyadır, hamidir, xilaskardır. Nəsimi niyə Xızır adını tez-tez çəkir, çünki onu öz lirik qəhrəmanı ilə bir səviyyədə tutur. Həm də onunla qəhrəmanının böyüklüyünü, müqəddəsliyini göstərir, oxucunu buna inandırmaq istəyir.

Nəsimidə gözəlin vəsfi müxtəlif müqayisələrlə həyata keçirilir. Bir qəzəlində deyir ki, ey gözəl, sənin üzündə nur təcəlla edib, sözün cənnət çeşməsinin suyu kimidir, gözünün sehrində Harut və Marut adlı mələklər Bağdaddakı quyuda həbs olunublar, fələklər üzünü ayağına sürtüblər, mələklər qulluqçu kimi xidmətindədirlər, bütün insanların vücudu sədəfdirsə, sənin vücudun bu sədəflərin ən yaxşısıdır. Amma, görünür bu cür geniş məcazlar şəbəkəsi Nəsimini qane etmir. Ona görə də Xızırı İsa peyğəmbərlə birlikdə şeirin səhnəsinə gətirir:

*Dəmi-İsa ölü dirildər, amma*
*Dəmində Xızır ilə İsa diridir.*

Möhtəşəm bir mənzərə yarandı: ölü dirildənləri – İsanı və Xızırı Nəsiminin dilbər gözəli dirildir, mifik obraz Nəsiminin bu dilbər gözəli qarşısında yox olub gedir – bu romantik şairin ən poetik gedişidir.

Nəsimi başqa bir qəzəlində gözələ müraciət edərək onu müxtəlif obrazlara bənzədir: şahım, sultanım, sərvərim, sərvi-xuramanım... Həmin qəzəldə bu cür obrazların sayı yüzə qədərdir. Hətta Xızırla bağlı “dirilik suyu” ifadəsi də işlənmişdir. Amma bunlara baxmayaraq, Xızıra ehtiyac duyur və “Xızırım” ifadəsini işlədir.

Nəsimi yaradıcılığında Xızır daha çox “dirilik suyu” ilə birgə işlədilir. Yarın dodağının, ləblərinin çeşməsində bir dirilik suyu var. Ona görə də qaranlıqda, zülmətlər içində, mağaralarda, qalalarda heç nə axtarmağa dəyməz.

Div də mifoloji obrazdır. Bir çox xalqların mifologiyasında Div müsbət obrazdır, insanlara yardımçı olur, köməklik göstərir. Türk mifologiyasında və türk inanclar sistemində Div o dünyanın nümayəndəsi kimi şərin simvoludur. Hətta bəzi xalqlarda müsbət və mənfi mənasında Divlə bağlı dönərgəlik də var. Amma birmənalı şəkildə Nəsimin tanıdığı və tanıtdığı Div Türk mifologiyasına məxsusdur.

Nəsiminin “Qandasan” rədifli qəzəlinin birində aşiq öz sevgilisinin həsrətindədir. Aşiq sevdiyi qızı gözlərinin nuru hesab edir və onun yoxluğu ilə bağrının qan olduğunu, səbrinin tükəndiyini söyləyir. Hətta həsrətindədir ki, sevdiyi qız saçının ətrini küləklə ona göndərsin. Aşiqin çəkdiyi həsrət və intizar o qədər şiddətlənir ki, bunun ağır fəlakətlə nəticələnəcəyi gözlənilir və bu xoşagəlməz nəticə mifoloji Div obrazı ilə səciyyələnir:

*Yar üçün hər guşədə min div olur düşmən mana,*
*Ey səvadi-əzəmi möhkəm həsarım, qandasan?*

Burada rəqib üçüncü bir şəxs – əğyar, yaxud İbn Səlam deyil, divlər sürüsüdür. Onlardan qorunmağın da yolu yenə gözəlin vəfasıdır.

Nəsimiyə görə, kim ki mələyə səcdə qılmır, onun adı Divdir. Süleyman məntiqindən quş dili öyrənməyən Divə uymuşdur. Eşqin bəhrinə dalmayan da Divdir.

Nümunələrin sayını artırmadan qeyd etmək olar ki, Div həmişə təhlükədir. Elə isə Nəsimi yaradıcılığında mifoloji divin ikinci planı varmı? Bəli, var. Bu, Div kimi xtonik bir məxluqun başqa bir xüsusiyyəti ilə bağlıdır. Belə ki, o, həmişə odu insanlardan gizlətməyə çalışıb, hətta mifoloji düşüncəyə görə, günəşin də üzünü örtə bilirmiş. Bəs bunun müqabilində Nəsimi necə hərəkət edir?

Nəsiminin Divlə bağlı şeirlərində hökmən və hökmən günəşdən və oddan, şamdan, işıqdan, şüadan, çıraqdan söhbət gedir. Görün ki, Türk mifoloji düşüncəsi ilə Nəsiminin bədii düşüncəsi o qədər qaynayıb qarışıb ki, şair Div olan yerdə həmişə günəşi qorumağa çalışıb. Od, şam, işıq, şüa, çıraq – bunlar hamısı Günəşin transformasiyasıdır.

Şeytan obrazının Nəsimi yaradıcılığında işlənməsinin də belə bir gözəgörünməz sirri var. Əvvəlcə qeyd edim ki, romantik sənətkarın yaradıcılığında dinlə şeytan eyniləşdirilmişdir.

*Mah – rüxsarın qatında kim ki, səcdə qılmadı,*
*Divi – məlumdur yəqin onun adı şeytan olur.*

Hətta Div haqqında olanlar Şeytan haqqında da deyilir:

*Üzüm qarşı sücud eylər mələk,*
*Səcdəyə inkar edən şeytanımız.*

Yaxud:

*Şeytandır ol ki, surətinə qılmadı sücud.*

Nəsimi mifoloji Şeytana qarşı çox amansızdır. Allah bağışlamayanı Nəsimi niyə bağışlasın ki?!

Hətta yeri gələndə onu açıqca lənətləyir:

*Üzün nuruna hər kim oldu munkir,*
*Ona lənət, adın şeytan oxurlar.*

Yaxud:

*İblis əzəli lənət olub lənətə qaldı.*
*Yənəz sözünü dünyada şeytan dəxi bilməz.*

Şeytana qarşı deyilənlər görünəndir, bəs görünməyənlər nədir? Nəsimi şeirinin poetikası sübut edir ki, şeytan obrazı hansı mətnə daxil olursa, həmin mətndə ya Xızır, ya Adəm peyğəmbər, ya Süleyman peyğəmbər, ya da Allah özü var. Əgər bunlar olmayanda qəzəlin mətlə beytində iki Nəsimi var. Məqsəd aydındır. Xeyirxah güclər vasitəsilə olmayanda, öz gücünə (iki Nəsimi!) bədii sənətin özünü şeytandan qorumaq.

Pəri obrazına gəldikdə bu mifoloji obraz Mələk və Huri ilə birgə gözəlin füsunkarlığını, cazibədarlığını daha da artırmağa xidmət edir. Poetika baxımından Pərinin mənası ondan ibarətdir ki, onun iştirak etdiyi şeirdə gözəlin vəsfinə aid məcazlar sistemi son dərəcə sadələşir, çünki onları Pəri, Mələk və Huri obrazları tam əvəz edə bilir

**Əlavə.**

Yeri gəlmişkən qeyd edim ki, Nəsimi şeirlərində başqa qarğışlara da rast gəlmək olur: *"Bəbəksiz qalsın o göz ki, bu xalqın qədrini bilməz",* yaxud:

*"Kim ki, bidar olmadı eşqində hər şəb ta səhər.*
*Ol yalançı müddəinin bətdi bidar olmasın,*

yaxud da:

*"Qənim olsun mana Fürqanü İncil.*
*Əgər könlümdə səndən özgə kəs var".*

# MAQSUD ŞEYXZADƏ VƏ ROMANTİK BƏDİİ DÜŞÜNCƏ

Professor Abbas Zamanov qəribə taleli Maqsud Şeyxzadənin 1972-73-cü illərdə çap edilən ikicildlik seçilmiş əsərlərinə yazdığı ön sözü "İki xalqın oğlu" adlandırmışdı. Bu ənənənin davamı kimi indi də onu "İki xalqın şairi", "İki xalqın qüruru" adlandırırlar. Aydın görünür ki, hər iki əsrdə M.Şeyxzadə Azərbaycan və özbək xalqlarının birliyinin simvolu kimi təqdim olunur. Doğrudan da, az-az sənətkar tapmaq olar ki, öz sözü və sənəti ilə həm doğulduğu, həm də uzun müddət yaşadığı məmləkətləri ləyaqətlə təmsil edib bütün həyatını onların ədəbi-mədəni yaxınlaşmasına sərf etsin.

M.Şeyxzadəni daha çox məşhurlaşdıran əsərlərinin coğrafiyası sadədir: müxtəlif mövzulu şeirləri, "Ağsaqqal" və "Daşkəndnamə" poemaları, "Cəlaləddin Mənquberdi" və "Mirzə Uluğbəy" adlı tarixi faciələri. Doğulub boya-başa çatdığı və qəza mərkəzi olan Ağdaşda yeni tipli məktəbdə oxuması, sonra Bakıda Hüseyn Cavid, Abdulla Şaiq kimi romantik sənətkarlardan dərs alması onun yaradıcılığına təsirsiz qalmamışdır. Yaradıcılığa başladığı ilk dövrlərdən ta ömrünün sonuna qədər romantik bədii düşüncə onu tərk etməmiş, romantik üslub əsərlərinin əsas bədiilik amillərindən birinə çevrilmişdir.

Şairin ötən əsrin 30-cu illərinin əvvəllərində qələmə aldığı "Rəmz" və "Küləklər" şeirləri öz romantik pafosu ilə seçilir. Bu şeirlərin lirik qəhrəmanları özlərində qol-qanad açmaq, quştək ucalmaq əhvali-ruhiyyəsini yaşadırlar. Küləyin huşsuz aşiqə bənzədilməsi, dodaqları ilə sahilləri öpməsi, mifik obraz olan pəriyə çevrilməsi romantik üslubun əlamətləridir. Hətta Mikayıl Müşfiqin bundan əvvəl yazılmış "Küləklər" şeirini xatırlasaq, eyni adlı bu iki poetik nümunə arasındakı romantik düşüncə ilə bağlı əlaqələri asanca görmək olar. "Bahar yağışı"n-

da lirik qəhrəmanın ucalığa, intəhasızlığa can atması ilə bərabər, şairin müxtəlif şeirlərində olduğu kimi təbiətin insaniləşdirilməsi aparıcı mövqedədir və bu mövqe insanın həyat eşqini canlandırır.

M.Şeyxzadənin "Qanadlar" şeiri (1937) öz epiqrafı ilə diqqəti daha çox cəlb edir: "Uçmaq gözəl arzu, gözəl xəyaldır". Bir cümlədən ibarət olan bu epiqraf şairin romantik düşüncəsinin real nümayişidir. M.Hadi və H.Caviddə də belədir. Onların poeziyasında göylərə və əngin səmalara uçmaq ehtirası bu sənətkarların xoş gələcəyə istiqamətlənən bədii təfəkkürünün mayasını təşkil edir. Maqsud Şeyxzadənin də mövcud rejim daxilində öz hiss və duyğularını məhz o şəkildə canlandırması xüsusi bir dəyər daşıyır. Həmçinin bu, gerçəkliyin sıxıntıları içərisindən çıxaraq öz insani keyfiyyətlərinin inikasına nail ola bilmək bacarığı idi. Bu mənada "Lacivərd göylərə baş vurur xəyal" misrası şairin qanadlı fikirlərinin qarşısında uzanan yolları bütün aydınlığı ilə nişan verir. M.Şeyxzadənin elə misraları da vardır ki, onun yaşadığı məkanı və zamanı kifayət qədər üstələmiş olur:

*Bulud yox, işıqdan soraq ver bizə,*
*Açsın ağuşunu nurlu kainat.*
*İşıqla baş verir hər bir möcüzə,*
*Qanad istəyirik, uçmaqçün qanad.*

Maqsud Şeyxzadənin şeirlərində təbiət xəyalın enerji mənbəyinə çevrilir ("Gəlin uçaq" – 1938); şairin xəyalı Səmərqəndi, Rumu, Şirvanı, Krımı dolaşır, Leyli və Məcnun kimi aşiq qəhrəmanlar yaddaşı yenidən oyadır ("Yoldaş Nəvai" –1939); xəyal fikrə hakim kəsilir və ruh şeir aləminə köç eyləyir ("Misranın yaranması" – 1940), hətta onun yaratdığı şair də romantik şair obrazıdır ("Müqimi" – 1943). Kor bəstəkarın şəhlagözlü bir qızı vəsf eləməsi yalnız şeirin cazibəsini hiss edən düşüncənin məhsulu ola bilər ("Kor bəstəkar – 1952"), "Göyər-

çinlər" şeirini (1955) şairin gəncliyindən üzü bəri yaratdığı romantik qəhrəmanın uçmaq ehtirasının davamı kimi anlamaq mümkündür, hətta "Ölməz səslər" şeirində (1955) ellər nəğməkarının simasında Füzuli qəzəli quş kimi uçur. O da maraqlıdır ki, "Üç təbəssüm" şeirində (1957) üç obraz var: öz gələcəyi gözlərində gülən bir uşaq, xəyalla görüşüb şirin-şirin söhbət edən bir qız və xəyalı arxada qalan illər dalınca yol gedən bir qoca. Onların üçü də romantik təbiətli lirik qəhrəmanlardır. M.Şeyxzadənin yaradıcılığının böyük bir dövrünü əhatə edən bütün bu poeziya nümunələri isə qanadlı poeziyanın, pafoslu bədii düşüncənin yetirmələridir.

"Şeir bir gözəllik ilahəsidir" poetik nümunəsi (1963) M.Şeyxzadənin sənətə, poeziyaya olan münasibətinin bədii şəkildə ifadəsidir. Şair burada şeirsiz yaşayan və qəlblərində işıq əlaməti olmayan insanlara acıyır; nəğməsiz evlər gülüşə həsrətdir, şeirsiz küçələri tale qarğımışdır, orada sevincdən əsər-əlamət yoxdur. Nəhayət, şair şeiri gözəllik ilahəsi kimi görür. Şeirlə gözəlliyi bərabərləşdirmək ənənəsi romantik bədii düşüncəyə xasdır. Bu xətti H.Caviddə və digər romantiklərin yaradıcılığında asanlıqla görmək mümkündür.

Romantik simvollara, müqəddəs arzulara gəldikdə isə "Su hekayəsi" (1949) adlı poetik nümunə sovet dönəmində insanın həyatdan qaynaqlanan yox, ürəkdən gələn duyğularının təcəssümünə yaxşı örnəkdir. Bu şeirdə Volqanın gen yatağı, Xəzərin qucağı, Qafqaz günəşi, Sır-Dərya çayı ilə bağlı ünvanlara yönələn arzulara təsadüf kimi baxmaq olmaz, onlar türk dünyasının birliyini ifadə edən simvollardır və M.Şeyxzadənin ürəyinin dərinliklərində yaşatdığı ülvi hisslərin bədii inikasıdır.

M.Şeyxzadə həssas sənətkardır. Onun yaradıcılığındakı bədii ifadə formalarının dərindən və müasir elmi-nəzəri təfəkkürlə öyrənilməsinə böyük ehtiyac vardır. Bu baxımdan M.Şeyxzadənin şeirlərindəki "yeddiillik", "kommunizm" sözlə-

rinin də fərqinə varmağa dəyər. Şairin yaradıcılığında həmin sözlərə yeni yanaşma üsulu öz novatorluq xüsusiyyətinə görə yalnız Azərbaycan və özbək ədəbiyyatında deyil, ümumiyyətlə, sovet ədəbiyyatında təsadüf edilməyən poetik məqamdır. Birincisi, M.Şeyxzadənin "Yeddiillik balladası" adlı şeirində yeddiillik plandan çox, tarixə ekskurs formasında folklorla bağlı olan "yeddi" rəqəminin sakral məzmunu daha qabarıq ifadə edilmişdir. Bunu həssas sənətkarın öz arzu və istəklərini əks etdirmək baxımından fürsətdən yararlanmaq kimi də qəbul etmək olar. İkincisi, həm "yeddiillik", həm də bəzi məqamlarda işlənən "kommunizm" sözləri, sadəcə, gələcəyi işarələyir, onların heç birinin ideologiyaya aidiyyəti yoxdur. Şairin yaradıcılığında sosializmin atributları ilə bağlı meydana çıxan şeirlər isə birmənalı şəkildə təqvim xarakteri daşıyır. M.Şeyxzadənin bədii irsi keçən əsrin pedant dünyagörüşünü yaşadan populist və yalançı tənqidçinin deyil, müstəqillik dövrünün yeni ədəbi-elmi dünyagörüşü ilə silahlanan ədəbiyyatşünasını gözləyir.

Maqsud Şeyxzadənin yaradıcılığında daha çox nəzərə çarpacaq iki janr var: ballada və tarixi mənzum faciə. Bunların hər ikisi romantizmin janrlarıdır. XIX əsrdə Avropa romantikləri – Hüqo, Höte, Heyne və rus romantikləri – Puşkin, Lermontov ballada janrına daha çox müraciət etmişlər və ona romantizmin janrı kimi vətəndaşlıq hüququ qazandırmışlar. Azərbaycan ədəbiyyatında mənzum faciənin banisi və bu janrın klassik nümunələrini yaradan isə M.Şeyxzadənin həm həyatda, həm də yaradıcılıqda müəllimi olmuş böyük şair-dramaturq Hüseyn Caviddir.

M.Şeyxzadə romantizm ədəbi cərəyanının nümayəndəsi olmasa da, romantik bədii düşüncənin təmsilçisi və romantik üslubun pərəstişkarı kimi məhz həmin janrlarda əsərlər yazmışdır. O, bir sıra şeirlərini ballada adlandırır: "Yoldaş Nəvai", "Dəniz balladası", "Günəşlə söhbət", "Üç təbəssüm", "Yeddiillik balladası", "Busə toxumu", "Hafizin ikinci ömrü", "Bənöv-

şə”. Hətta xatırlamış olsaq ki, M.Şeyxzadə tərcümə məsələlərində xüsusi seçim etmiş və dünya ədəbiyyatının romantik düşüncəli sənətkarlarının – Şekspirin, Hötenin, Bayronun, Puşkinin, Lermontovun şeirlərini tərcümə etmişdir, onda bir çox qaranlıq məsələlər də aydınlaşmış olar. Azərbaycan ədəbiyyatında belə bir hal M.Şeyxzadədən əvvəl məhz romantik şair Abbas Səhhətə məxsusdur.

Mənzum faciə ənənəsinin davamçısı kimi isə M.Şeyxzadə “Cəlaləddin Mənquberdi” (1941) və “Mirzə Uluğbəy” (1964) əsərlərini qələmə alır. Hər iki nümunə mənzum dramaturgiya nümunəsidir və faciə janrında olmasına, tarixi mövzuda yazılmasına, obrazlar qalereyasına (sövdəgərlər, kəndlilər, çarvadarlar, falçılar, ara həkimləri, mirzələr, tələbələr, müəllimlər, əsgərlər, oyunbazlar, çalanlar, oxuyanlar, rəqqasələr, saqilər və təlxək), oxunan mətndaxili mahnılara, romantik vüsətinə görə H.Cavidin “Topal Teymur” və “Səyavuş” əsərlərini xatırladır. Hətta hökmdar surətinin yaradılmasında da oxşarlıq tapmaq çətin deyil (H.Caviddə: Topal Teymur, Yıldırım Bəyazid, Keykavus, Əfrasiyab və M.Şeyxzadədə: Xarəzmşah, Cəlaləddin, Uluğbəy).

Maqsud Şeyxzadə dərrakəli dramaturqdur. “Cəlaləddin Mənquberdi” əsərinin ilk pərdəsində təqdim olunan Xarəzmşahla oğlu Cəlaləddinin söhbətində aparıcı mövzu Çingizxan təhlükəsidir. Son pərdədə isə Çingizxan Cəlaləddinin yenilməzliyindən bəhs edir. Faciənin ideyası isə müharibələr əleyhinə yönələn bir ideyadır.

Aydınca görünür ki, ilk pərdədə Xarəzmşah da, Cəlaləddin də, Bədrəddin də hərbə-zorba ilə danışırlar. Hətta Xarəzmşah Çingizxanın elçilərini qəbul edəndən sonra Cəlaləddin “Qanı qan ilə də yuyarlar əlbət” çağırışını edir, ölkəni müharibəyə səsləyir. Bu məqamda və başqa bir dialoqda “Boş yerə nə qədər qan tökmək olar?” fikri ilə Xarəzmşah vuruşun əleyhinədir. O,

bununla birincisi, hələlik zəif olduqlarını nəzərə çarpdırır; ikincisi də ümumiyyətlə müharibəyə qarşıdır. Əsərin sonlarında evi, obası dağılan Qoca da müharibəyə nifrət yağdıran mahnısını oxuyur. Qılınca, qalxana həris olan Cəlaləddin isə “Əmr edin qoşuna olum sərkərdə, Doğuldum, böyüdüm mən ki yəhərdə” düşüncəsi ilə ardıcıl olaraq döyüşün tərəfdarı kimi özünü göstərir. Amma onun bu iddiasında başlıca olaraq taxt-tac arzusu gizlənmişdir ki, bunu anlayan Xarəzmşah Cəlaləddini vəliəhdlikdən məhrum edir. Beləliklə, başlanğıcda xarici müdaxiləyə qarşı yönələn dramaturji xətt qəfildən ata-oğul ziddiyəti ilə əvəzlənir, hakimiyyət ehtirası ön plana keçir. Cəlaləddinin son həmlədə qələbə çala bilməməsinin də səbəbi budur. Cəlaləddin həm tarixdə, həm də faciədə məğlub olan qəhrəmandır. Xarici müdaxiləyə qarşı yazılan əsərdə qəhrəmanın məğlubiyyəti ağılasığmazdır və bu mənada dramaturqun başlıca idealı xarici müdaxiləni dəf etməkdən daha çox Hüseyn Cavidin “Topal Teymur” əsərində olduğu kimi üz-üzə gələn iki qonşunun, iki qardaşın, ata və oğulun faciəsini əks etdirməkdir. Hətta qan-qan deyən Cəlaləddin də belə bir fikrə gəlir: “Yumruqtək yumulur böyük səltənət, Tayfalar içinə düşdü ədavət”.

M.Şeyxzadənin “Mirzə Uluğbəy” faciəsi birbaşa Teymurilər dövrünə aid tarixi faciədir. Əsərdə iki mühüm məkan var – rəsədxana və hökmdar sarayı. Ulduzları seyr edən keşikçilər hər ulduzda bir insanı görürlər, hətta onlardan biri ayı sərkərdə, ulduzları da alay hesab edir. Təbiətən romantik düşüncəyə malik bir sənətkar rəsədxananı bədii əsər üçün məkan seçə bilərdi, yaxud rəsədxanadan, ulduzlardan danışmaq romantik əhvali-ruhiyyəli insana daha çox yaraşır.

Məkan kimi seçilən sarayın sahibi həyatını ulduzlara bağlayan bir insandırsa, onda bu sarayın sahibi olan hökmdar da, şübhəsiz, romantik düşüncəyə malikdir. Uluğbəyin bir obraz kimi bütün davranış və düşüncələrində romantiklik aparıcıdır.

Uluğbəyin söylədiyi “Dedim insanlara: baxın səmaya, Bənzəyin saflıqda ulduza, aya” fikri də bunu təsdiq edir. O, idrakı və elmi cəmiyyətin inkişafının əsası kimi irəli sürəndə də romantik əhvali-ruhiyyənin daşıyıcısı kimi görünür:

*Bəli, məmləkətə mərifət gərək,*
*İdrak, qeyrət gərək, fərasət gərək.*
*Gərək arif olsun soltanlar özü,*
*Elm ilə açılsın ellərin gözü.*

Gülüşü və şeiri insanların qisməti hesab edən, din və millət ayrılığına “yox” deyən, yaratdığı Ulduz cədvəli ilə fəxr edib getdiyi yolu işıqlı ulduz yolu adlandıran, ölüm, qan, ədavət əleyhinə mübarizə aparan, qəlblərə hakim olan məhəbbəti alqışlayan, ümidi insanlar üçün əbədi yolçu kimi görən Mirzə Uluğbəyə necə romantik düşüncəli qəhrəman deməmək olar?!

M.Şeyxzadənin Uluğbəy obrazında Hüseyn Cavidin Topal Teymur və Səyavuş obrazları birləşir. Uluğbəy əmisi uşaqlarının davasını pisləyəndə, Teymurilər arasındakı ədavətə son qoymağa çağırış edəndə, birbaşa qardaş qırğınına qarşı çıxış edən Topal Teymuru xatırladır, oğlu tərəfindən ölümünə fitva verilərkən gözlərimiz önünə dayılarının xəyanətinin qurbanı olan Səyavuş gəlir.

İndi Uluğbəyin rəsədxanasını ziyarət edənlərə orada bir rəvayət söyləyirlər. Həmin rəvayətdə deyilir ki, bir dəfə tələbəsinin səhvi ucundan karvanın yolunu düzgün nişan vermədiyinə görə onu öldürürlər. M.Şeyxzadə həmin rəvayəti öz faciəsinin mövzusu kimi seçməmişdir, çünki həmin rəvayət karvanın sonu deməkdir. Amma M.Şeyxzadənin söz karvanı hələ də yol gedir və bundan sonra da sonu görünməyən yolları fəth edəcəkdir.

## ADLAR GÖSTƏRİCİSİ

**1.** Abdulla K. 179, 413
**2.** Ağayev Ə. 413
**3.** Axundov S.S. 143, 156, 316, 349, 369,
**4.** Axundzadə M.Ə. 323
**5.** Axundzadə M.F. 144, 149, 151, 155, 156, 159, 162, 164-166, 263-265, 268-271, 277-279, 281-283, 285, 292, 294, 322, 323, 328, 373, 382, 456, 457
**6.** Anar. 179, 180, 409, 412, 413
**7.** Araslı H. 180, 354, 380
**8.** Araz M. 409, 411
**9.** Arif H. 410
**10.** Aristotel. 129, 133, 200
**11.** Aşıq Abbas Tufarqanlı. 135, 136, 178, 240
**12.** Aşıq Alı. 135, 303
**13.** Aşıq Ədalət. 178
**14.** Aşıq Ələsgər. 135, 137, 159, 165, 172, 303-312
**15.** Aşıq Əmrah. 178
**16.** Aşıq Əsəd. 135
**17.** Aşıq Hüseyn Cavan. 135, 178
**18.** Aşıq Kamandar. 178
**19.** Aşıq Mirzə. 135
**20.** Aşıq Şakir. 178
**21.** Aşıq Şəmşir. 135, 178
**22.** Azaflı M. 178
**23.** Azəroğlu B. 351, 410
**24.** Aytmatov Ç. 166
**25.** Babanlı V. 412
**26.** Bağdadi Ə. 207, 229
**27.** Bağırov M.Ə. 314, 324
**28.** Bakıxanov A. 29, 143, 265, 266, 382, 456, 458

**29.** Bayron. 319, 436, 480
**30.** Belinski. 129, 164
**31.** Bidari. 207
**32.** Bodenştedt F. 267
**33.** Bomarşe. 376
**34.** Bozalqanlı Aşıq Hüseyn. 135, 178
**35.** Bülluri H. 351
**36.** Bürhanəddin Q. 205, 217
**37.** Cabbarlı C. 143, 151, 153, 159, 172, 348, 354, 369-372, 382, 387, 389, 414, 422
**38.** Cambul C. 387
**39.** Canı oğlu Abdulla. 272
**40.** Cavad Ə. 348, 352, 370
**41.** Cavid H. 3, 149-151, 165, 317, 348, 349, 354-357, 359-368, 414, 466, 476-482
**42.** Cəfər M. 3, 354
**43.** Cəfərov N. 4, 413
**44.** Cəmil Ə. 380
**45.** Cənnəti Ə. 317
**46.** Cövdət A. 319
**47.** Çavçavadze İ. 387
**48.** Çernyayevski A.O. 323, 430
**49.** Çəmənzəminli Y.V. 348, 349, 458
**50.** Dadaşzadə M.A. 354
**51.** Danəndə B. 173
**52.** Dilbazi M. 353
**53.** Dits F.F. 180
**54.** Elçin. 292, 409, 412, 413
**55.** Ergin M. 180
**56.** Eyvazov H.S. 319
**57.** Ezop. 143
**58.** Əfəndiyev İ. 143, 144, 172, 354, 409, 413, 421-425

**59.** Əfəndiyev R. 316
**60.** Əhməd Kamal. 319
**61.** Əhmədli S. 412
**62.** Əhsənül-Qəvaid. 264
**63.** Əliyev K. 3, 4
**64.** Əlizadə Hümmət. 354
**65.** Əlizadə Mübariz. 413
**66.** Əmani M. 171, 208, 242, 254
**67.** Ərdəbili A. 206
**68.** Ərdəbili Ş.S. 204
**69.** Əylisli Ə. 409, 412, 413
**70.** Əyyubov T. 426
**71.** Əzimzadə Ə. 314
**72.** Faruq A. 404
**73.** Fəqih S. 205
**74.** Firdovsi. 189, 196, 197, 270, 339, 366
**75.** Füzuli M. 133, 139, 141, 146, 148, 149, 153, 155-158, 162, 163, 165, 254, 268, 272, 322, 435
**76.** Gəncəvi M. 29, 189, 190
**77.** Gəncəvi N. 143, 144, 147, 153, 155, 162, 165, 166, 192, 193, 203, 266, 301, 387, 403, 418, 447
**78.** Gorani Ə. 264
**79.** Gökyay Ş.O. 180
**80.** Gülgün M. 351
**81.** Hacı dayı. 173
**82.** Hacıbəyov Ü. 29, 101, 150, 170, 179, 457
**83.** Hacıbəyov Z. 179
**84.** Hacıyev T. 413
**85.** Hadi M. 3, 165, 317, 430, 435, 456-458, 477
**86.** Haqverdiyev Ə. 143, 144, 151, 153, 164, 165, 314-316, 402, 457
**87.** Hamidi. 207

**88.** Heyət C. 393
**89.** Heyne. 479
**90.** Həbibbəyli İ. 413, 451
**91.** Həbibi. 148, 172, 207, 220
**92.** Həsənoğlu İ. 204, 205, 254
**93.** Həsənzadə N. 409, 411, 413
**94.** Həqiqi C. 207, 208, 217
**95.** Höte İ.V. 319, 479, 480
**96.** Hüseyn M. 144, 145, 171, 353, 354, 420, 426
**97.** Hüseyn S. 143, 321, 348, 349, 353, 354, 369, 370, 425
**98.** Hüseynov A. 413
**99.** Hüseynov F. 406,
**100.** Hüseynov H. 101,
**101.** Hüseynov İ. 409, 412
**102.** Xaqani Ə. 147, 189-191
**103.** Xəlili. 207
**104.** Xəlilov P. 406, 413
**105.** Xəstə Qasım. 135, 178, 240
**106.** Xətayi Ş.İ. 29, 166, 171, 172, 178, 206-208, 215, 217-220, 222, 223, 225, 226, 228, 237, 242, 254, 470
**107.** Xəzani. 207
**108.** Xəzri N. 142, 179, 410, 413
**109.** Xuluflu V. 354
**110.** İbrahimov M. 144, 153, 354, 409, 440
**111.** Kalai. 207
**112.** Kazım M.M. 101
**113.** Kəndli Q. 413
**114.** Kişvəri N. 207, 217, 220
**115.** Köçərli F. 322, 335, 348, 354, 379, 458
**116.** Krılov. 143
**117.** Qabil. 410
**118.** Qarabəyov Q. 101

**119.** Qarayev Y. 413
**120.** Qasım A. 173
**121.** Qasımzadə B. 426
**122.** Qasımzadə F. 354
**123.** Qəmküsar Ə. 165, 314, 315, 456
**124.** Qənizadə S.M. 101, 295, 316, 458
**125.** Qorki M. 144, 387
**126.** Qul Əli. 205
**127.** Qurbani D. 135, 178, 208, 240
**128.** Qutqaşınlı İ. 143, 265, 267, 270, 271
**129.** Qüdsi N. 317
**130.** Lafonten. 143
**131.** Lomouri N.O. 323
**132.** Maqomayev M. 179
**133.** Mayakovski V.V. 415, 418
**134.** Marağayi Z. 295
**135.** Məddah Y. 205
**136.** Məhbus Dərbəndi. 264
**137.** Məmmədxanlı Ə. 143, 459
**138.** Məmmədquluzadə C. 173, 313, 323, 325, 330, 332, 335, 402, 404
**139.** Məmmədov A. 413
**140.** Məmmədzadə M.B. 369, 370, 371
**141.** Məsihi. 242
**142.** Məşədiyev Q. 459, 461, 462
**143.** Mikayıl M. 352, 476
**144.** Mir Cəlal. 143, 144, 158, 354, 380, 385, 401-406, 408, 409, 430
**145.** Mirəhmədov Ə. 413
**146.** Mirələmov H. 412, 413
**147.** Mirzə Bağı. 173
**148.** Mirzə X. 171

**149.** Molla Cümə. 135
**150.** Möcüz M. 314, 315
**151.** Mühənna C.İ. 101
**152.** Mümtaz S. 354
**153.** Naxçıvani H. 101
**154.** Natəvan X.B. 147, 268, 270, 271, 423-425
**155.** Nemanzadə Ö.F. 314, 324
**156.** Nəbiyev B. 413
**157.** Nəimi F. 208-210
**158.** Nəsimi İ. 147, 172, 205, 206, 208-214, 217, 219, 220, 222, 223, 242, 254, 255, 410, 461, 463-475
**159.** Nəsrəddin Tusi. 206
**160.** Nəzmi Ə. 165, 314, 315, 456, 458
**161.** Nərimanov N. 144, 151, 164, 265, 316, 382, 406, 456-458, 461
**162.** Novruz C. 411
**163.** Novospasski N.N. 323
**164.** Növrəs İman. 135
**165.** Orbeliani İ. 271
**166.** Ordubadi M.S. 314, 353
**167.** Orucov Ə. 101
**168.** Övhədi M. 206, 225
**169.** Pəri Peykər. 208
**170.** Puşkin A.S. 144, 149, 156, 162, 164, 166, 380, 387, 418, 426, 436, 479, 480
**171.** Rable F. 352
**172.** Rahim M. 352, 395, 396
**173.** Raiq Ə. 319
**174.** Rəcaizadə M.Ə. 319
**175.** Rəfibəyli N. 353
**176.** Rəhman S. 150, 354
**177.** Rəhimov S. 145, 161, 353

**178.**Rəsulzadə M.Ə. 348, 370, 382
**179.**Ruhi. 207
**180.**Rumi M.C. 57, 301
**181.**Rustaveli Ş. 352, 387
**182.**Rüstəm S. 136, 139, 352, 395, 396, 436
**183.**Rüstəmxanlı S. 411
**184.**Rza R. 410
**185.**Sabir M.Ə. 141, 142, 148, 164-166, 314, 315, 334-339, 341-347, 371, 380, 382, 392, 406, 416, 417, 435, 456, 460
**186.**Sadiq B.S. 207
**187.**Saraclı H.A. 178
**188.**Sarı Aşıq. 171, 240
**189.**Sarıvəlli O. 136, 142, 352
**190.**Semyonov D.D. 323
**191.**Seyidov M. 413
**192.**Seyidov Y. 449-458
**193.**Səhabi. 207
**194.**Səhhət A. 143, 165, 317, 318, 335, 336, 344, 406, 456, 457, 480
**195.**Səhənd B.Q. 393, 410
**196.**Sur A. 317, 321
**197.**Süleymenov O. 167
**198.**Sürurі. 207
**199.**Süsəni bəy. 208
**200.**Şah Qasim Ənvar. 207
**201.**Şahi. 207
**202.**Şahqulu bəy. 208
**203.**Şahtaxtlı M. 314, 324
**204.**Şaiq A. 3, 143, 145, 164, 165, 317, 334, 348, 369, 456-458, 476
**205.**Şakir B. 264, 271, 272
**206.**Şamilov S. 380

**207.**Şekspir V.  376, 480
**208.**Şeyx Ş.   205
**209.**Şeyxzadə M.  476-482
**210.**Şəbüstəri M.  314
**211.**Şəhriyar M.  148, 242, 391-400, 411, 436, 438
**212.**Şəmkirli Aşıq Hüseyn.  135
**213.**Şıxlı İ.  426-428, 430
**214.**Şıxlinski Ə. 101
**215.**Şiller F.  376
**216.**Şirvani Bədr.  207
**217.**Şirvani S.Ə.  146, 297, 298, 301, 322, 334, 456
**218.**Şirvani Z.  204
**219.**Şmerlinq O. 313, 314
**220.**Tağıyev H.Z.  318
**221.**Tahir İ.   317
**222.**Tahir S.  317
**223.**Talıbov M.Ə.  295
**224.**Talıbzadə K.  413
**225.**Talıbzadə Y.Z.  317
**226.**Təbrizi B.  391
**227.**Təbrizi Ə.   206,
**228.**Təbrizi F.   242
**229.**Təbrizi H. 101
**230.**Təbrizi Q.  189, 190, 242
**231.**Təbrizi S.  242
**232.**Təhmasib M.  354
**233.**Tolstoy L.  158, 164, 319
**234.**Tudə Ə.  351
**235.**Tüfeyli. 207
**236.**Vahabzadə B.   136, 142, 149, 409, 413, 430-436, 439
**237.**Vahid Ə.  352, 396

**238.**Vaqif M.P. 113, 136, 139-141, 146, 148, 149, 154-157, 161, 163, 164, 166, 172, 241, 243, 244, 253-262, 270, 272, 275, 306, 322, 352, 379, 381, 382, 386-390, 466
**239.**Vazeh Ş.M. 267, 281, 283
**240.**Vəlibəyov S. 323
**241.**Vəliyev K. 413
**242.**Vəliyev Ə. 353
**243.**Vəzirov H. 369
**244.**Vəzirov N. 150, 151, 153, 164, 176, 263-265, 269, 349
**245.**Vidadi M.V. 131, 136, 148, 149, 156, 157, 243, 254, 258, 259, 275, 352, 379, 388-390
**246.**Vurğun S. 86, 113, 133, 136, 140, 142, 148, 149, 151, 153-158, 161, 163, 172, 351, 352, 354, 379-385, 387-390, 410, 426, 431, 432, 435, 436, 439, 440
**247.**Yaqub Z. 411
**248.**Yusifli V. 413
**249.**Zakir Q. 136, 143, 146, 148, 161, 166, 171, 254, 264, 270-277, 279, 280, 284, 322, 379
**250.**Zamanov A. 476
**251.**Zehni. 207
**252.**Zəmiri. 207
**253.**Zərdabi H. 263, 301, 335, 336
**254.**Zərir M. 205




**ADPU-da "Dədə Qorqud" mövzusunda Ustad dərsindən sonra (7 mart 2019)**



**BDU-da "Dədə Qorqud" mövzusunda Ustad dərsindən sonra (8 noyabr 2017)**



**Prof. Kamran Əliyev “Naxçıvan” Universitetində mühazirə zamanı (1998)**



**Prof. Kamran Əliyev ADU-da Dövlət İmtahan Komissiyasının sədri olarkən (iyun 2018)**



**Azərbaycan Universiteti, Filologiya fakültəsi, III kurs tələbələri ilə (2017)**



**Azərbaycan Universiteti, Filologiya fakültəsi, III kurs tələbələri ilə (2019)**



**Prof. Kamran Əliyev Azərbaycan Universitetində dərs zamanı (2019)**



**Prof. Kamran Əliyev Azərbaycan Universitetində dərs dediyi magistrlərlə birgə (2018)**



**Prof. Kamran Əliyev Avrasiya Universitetində dərs dediyi magistrlərlə birgə (2018)**



**Prof. Kamran Əliyev dərs dediyi magistrlərlə birgə (2015)**




**Prof. Kamran Əliyev "Sınaq" tədris mərkəzində elmi rəhbəri olduğu magistrlərlə birgə (2016)**



**Prof. Kamran Əliyev elmi rəhbəri olduğu magistrlərlə birgə (2019)**



**Prof. Kamran Əliyev dərs dediyi və elmi rəhbəri olduğu magistrlərlə birgə (2019)**




**Prof. Kamran Əliyev elmi rəhbəri olduğu magistrlərlə birgə (2016)**



**Prof. Kamran Əliyev dərs dediyi magistrlərlə birgə (2019)**

# MÜNDƏRİCAT

**Mənən, ruhən pedaqoq .......................................................... 3**

## AZƏRBAYCAN DİLİ

### FONETİKA

Danışıq səsləri.......................................................................... 5
Əlifba........................................................................................ 5
Sait səslərin növləri.................................................................. 6
Samit səslərin növləri................................................................ 6
Sait səslərin tələffüzü................................................................ 7
Samit səslərin tələffüzü............................................................. 7
Ahəng qanunu........................................................................... 9
Heca.......................................................................................... 9
Vurğu........................................................................................ 10
Fonetik təhlil............................................................................. 11

### LEKSİKA

Sözün leksik və qrammatik mənası....................................... 12
Sözün həqiqi və məcazi mənası............................................. 12
Omonimlər................................................................................ 13
Sinonimlər................................................................................. 14
Antonimlər................................................................................ 14
Ümumişlək və ümumişlək olmayan sözlər............................. 14
Dialekt sözlər............................................................................ 15
Terminlər................................................................................... 15
Arxaizmlər (köhnəlmiş sözlər)................................................ 16
Neologizmlər (yeni sözlər)....................................................... 17
Frazeoloji birləşmələr............................................................... 18
Əsl Azərbaycan sözləri və alınma sözlər.............................. 19

**SÖZÜN TƏRKİBİ. SÖZ YARADICILIĞI**

Kök və şəkilçi........................................................................ 21
Sadə və düzəltmə sözlər........................................................ 22
Söz yaradıcılığının əsas üsulları........................................... 22
Eyniköklü sözlər.................................................................... 23
Mürəkkəb sözlər..................................................................... 23
Mürəkkəb adların yazılışı...................................................... 24

**MORFOLOGİYA**

Qrammatika haqqında ümumi məlumat.................................. 26
Nitq hissələri haqqında ümumi məlumat.............................. 26

**ƏSAS NİTQ HİSSƏLƏRİ**

İSİM....................................................................................... 27
1.Quruluşca növləri.................................................................. 27
2.Ümumi və xüsusi isimlər...................................................... 30
3.Tək və cəm isimlər................................................................ 31
4. Mənsubiyyətə görə dəyişmə................................................ 31
5. Şəxsə görə dəyişmə............................................................ 32
6.Hallanması............................................................................ 32

**SİFƏT**

1.Quruluşca növləri.................................................................. 34
2.Sifətin müqayisə dərəcələri.................................................. 37
3.İsimləşməsi........................................................................... 38

**SAY**

1.Quruluşca növləri.................................................................. 38
2.Mənaca növləri..................................................................... 39
3. İsimləşməsi.......................................................................... 41

**ƏVƏZLİK**

1.Mənaca növləri..................................................................... 42

**FEİL**

1.Quruluşca növləri.................................................................. 45
2.Təsdiq və inkar feillər........................................................... 46

3.Təsirli və təsirsiz feillər........................................................ 46
4.Qrammatik məna növləri...................................................... 47
5.Feilin zamanları.................................................................. 48
6.Təsriflənən formalar (şəkillər)............................................. 49
7.Təsriflənməyən formalar...................................................... 51
8.*İdi, imiş* hissəcikləri........................................................... 52
**ZƏRF**
1.Quruluşca növləri.................................................................. 54
2. Mənaca növləri.................................................................... 55
3.Omonimliyi........................................................................... 56
**KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ**
QOŞMA..................................................................................... 57
BAĞLAYICI.............................................................................. 58
ƏDAT......................................................................................... 60
MODAL SÖZLƏR..................................................................... 61
NİDA.......................................................................................... 62

**SİNTAKSİS**
Söz birləşmələri.......................................................................... 63
Sintaktik əlaqələr....................................................................... 66
Cümlə.......................................................................................... 68
**CÜMLƏ ÜZVLƏRİ**
1. Baş üzvlər............................................................................... 70
2. İkinci dərəcəli üzvlər............................................................. 72
Əlavələr........................................................................................ 76
Həmcins üzvlər............................................................................ 77
Ümumiləşdirici sözlər................................................................. 77
Xitab............................................................................................. 79
Ara sözləri.................................................................................... 80
**SADƏ CÜMLƏ. ŞƏXSƏ GÖRƏ NÖVLƏRİ**
1. Müəyyən şəxsli cümlələr......................................................... 81
2. Qeyri-müəyyən şəxsli cümlələr............................................... 82

3. Ümumi şəxsli cümlələr.................................................. 82
4. Şəxssiz cümlələr.......................................................... 83
5. Adlıq cümlələr............................................................ 83
6. Söz-cümlə.................................................................... 83
**MÜRƏKKƏB CÜMLƏ...................................................... 84**
1.Tabesiz mürəkkəb cümlələr............................................ 85
2. Tabeli mürəkkəb cümlələr............................................. 88
Mübtəda budaq cümləsi..................................................... 89
Xəbər budaq cümləsi......................................................... 90
Tamamlıq budaq cümləsi................................................... 90
Təyin budaq cümləsi......................................................... 91
Zərflik budaq cümləsi....................................................... 91
Şərt budaq cümləsi............................................................ 95
Qarşılaşdırma budaq cümləsi............................................ 96
***Vasitəsiz və vasitəli nitq...................................................... 96***

## DİL VƏ DİLÇİLİK

Dil haqqında ümumi məlumat............................................ 99
*Dilin funksiyaları.............................................................. 99*
Yazı.................................................................................... 100
Dilçilik və onun elmlər içərisində yeri.............................. 100
1. Etimologiya.................................................................... 100
2. Lüğətçilik....................................................................... 101
*3. Dialektologiya............................................................... 102*
**Azərbaycan dili................................................................ 102**
Türk dilləri ailəsi................................................................ 102
Azərbaycan dilinin morfoloji quruluşu.............................. 103
**Dil və mədəniyyət. Dil və xalqın tarixi.............................. 103**
**Azərbaycan dilinin quruluşu.............................................. 104**

## NİTQ MƏDƏNİYYƏTİ

**Ümumi məlumat............................................................... 105**

Nitqin düzgünlüyü, dəqiqliyi və ifadəliliyi........................... 105
Dil, nitq və nitq fəaliyyəti................................................ 106
**ƏDƏBİ DİLİNİN NORMALARI**
**1. Fonetik norma................................................................ 107**
2. Leksik norma. Özləşmə meyilləri..................................... 107
3. Qrammatik norma.............................................................. 109
Nitq normalarının tarixiliyi................................................ 109
Nitq istisnaları...................................................................... 110
Natiqlik sənəti...................................................................... 110
**Nitq etiketləri.................................................................. 111**

**ÜSLUBİYYAT**
Fərdi üslub......................................................................... 113
Funksional üslublar.............................................................. 114

**AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN ÜSLUBLARI**
1. Bədii üslub......................................................................... 114
2. Elmi üslub.......................................................................... 116
3. Publisistik üslub.................................................................. 118
4. Məişət üslubu...................................................................... 119
5. Rəsmi-işgüzar üslub............................................................ 119
**ƏMƏLİ YAZI NÜMUNƏLƏRİ.............................. 122**

# ƏDƏBİYYAT

Ədəbiyyat haqqında ümumi məlumat.................................. 129
Ədəbiyyatşünaslıq elminin bölmələri.................................. 129
**Ədəbiyyat nəzəriyyəsi**
Şifahi xalq ədəbiyyatı üzrə janrlar..................................... 130
Aşıq yaradıcılığının janrları............................................... 135
Nəzm və nəsr...................................................................... 138
Nəzmin əsas əlamətləri........................................................ 138

Şeirin vəznləri................................................................................ 140
Ədəbi növlər və janrlar…………………………......................... 142
Epik növ.............................................................................................. 142
Lirik növ………………………………………………………… 145
Epik-lirik növ…………………………………………………… 149
Dramatik növ...................................................................................... 149
Bədii ədəbiyyatda həyat hadisələrinin ifadə üsulu................ 152
Ədəbiyyatda gülüş.............................................................................. 152
Bədii əsərin quruluşu………………………………………….. 152
Mövzu və ideya……………………………………………….. 152
Məzmun və forma……………………………………………… 153
Bədii əsərdə hadisə və surət…………………………........... 154
Süjet və kompozisiya…………………………………………..... 156
Bədii əsərin dili……………………………………………….... 159
Bədii dilin tərkibi………………………………………………… 159
Bədii təsvir vasitələri………………………………………….... 160
Bədii ifadə vasitələri…………………………………………..... 162
Bədii yaradıcılıq metodu……………………………………..... 164
Ədəbi cərəyan…………………………………………………..... 165
Ədəbi məktəb……………………………………………………. 165

**AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI……….. 166**
Lirik növ……………………………………………………......... 167
Epik növ………………………………………………………….. 171
Dramatik növ……………………………………………………... 177
Aşıq yaradıcılığı………………………………………………… 178
"Dədə Qorqud" eposu…………………………………………… 180

**AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİ**
Qədim dövr Azərbaycan ədəbiyyatı…………….................... 189
Nizami Gəncəvi………………………………………………… 192
Orta dövr Azərbaycan ədəbiyyatı…………………………..... 204

İmadəddin Nəsimi………………………………………….. 209
Şah İsmayıl Xətayi…………………………………………. 216
Məhəmməd Füzuli…………………………………… 229
Yeni dövr Azərbaycan ədəbiyyatı………………………….. 241
İntibah dövrünün sənətkarları............................................... 243
"Koroğlu" eposu……………………………………… 245
Molla Pənah Vaqif…………………………………………. 254
XIX əsr Azərbaycan ədəbiyyatı…………………………… 264
Qasım bəy Zakir…………………………………………...... 271
Mirzə Fətəli Axundzadə…………………………… 282
Seyid Əzim Şirvani……………………………………..... 297
Aşıq Ələsgər……………………………………………... 305
XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı………………… 314
Cəlil Məmmədquluzadə…………………………………….. 325
Mirzə Ələkbər Sabir……………………………………… 337
Ən yeni dövr Azərbaycan ədəbiyyatı…………….................... 351
I mərhələ (icmal)………………………………...................... 351
Hüseyn Cavid……………………………………………….. 358
Cəfər Cabbarlı……………………………………….......... 372
Səməd Vurğun…………………………………………..... 383
Məhəmmədhüseyn Şəhriyar………………………………... 395
Mir Cəlal……………………………………………………. 405
II mərhələ (icmal)………………………………………... 413
Rəsul Rza……………………………………………… 418
İlyas Əfəndiyev…………………………………………... 425
İsmayıl Şıxlı……………………………………………….... 431
Bəxtiyar Vahabzadə………………………………............. 436

**MƏQALƏLƏR**

Orfoqrafiyanın qızıl qaydası .................................................. 446
Professor Yusif Seyidovun dil sevgisi ..................................... 455
"Yazıçı və dil" ........................................................................ 462

Adlıq cümlədən adlara doğru ................................................ 465
Nəsimi yaradıcılığında folklorizmlər ..................................... 469
Nəsimi və  mif .......................................................................... 476
Maqsud Şeyxzadə və romantik bədii düşüncə ....................... 482

**ADLAR GÖSTƏRİCİSİ ...................................................... 489**
**ŞƏKİLLƏR ........................................................................ 498**

# Kamran İmran oğlu Əliyev

# Dərs vəsaiti

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***Professor Nadir MƏMMƏDLİ***

Dizayn: **Kamran İbrahimov**
Texniki redaktor: **Rövşanə Nizamiqızı**
Kompüterdə yığdı: **Nigar İmaməliyeva**

Чапа имзаланмыш **06.07.2019**
Шярти чап вяряги **32,2.** Сифариш **№ 112**
Каьыз форматы **60x84 1/16.** Тираж **100**

*Kitab* ***"Elm və təhsil"*** *nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan1959@gmail.com***
*Тел: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*